Naxçıvan şəhərində 712 tatar evi (Azərbaycan türk evləri), 122 erməni evi, xəzinəyə aid 39 ev olmuşdur ki, bunların cəmi 873 evdən ibarət idi. Burada 1 kilsə və iki məscid vardır ki, onların birində 1 məktəb də fəaliyyət göstərirdi. 31 dükan, 3 karvansara mövcuddur ki, bunlardan birini ermənilər tutub, 31 dükan 2 karvansaraya aiddir. Şəhərdə cəmi 279 dükan vardır ki, bunun 233-ü fəaliyyət göstərir. Sənətkarlıq emalatxanalarının sayı həddindən artıqdır. Şəhərdə 56 baqqal, 31 başmaqçı, 22 dabbaq, 15 dəmirçi, 25 qəssab, 5 dərzi, 12 çörəkçi, 34 papaqçı, 14 bərbər və digər sənətkarlar fəaliyyət göstərirdi.

Kəngərlilər Naxçıvan əyalətində Ordubad dairəsində yaşayış məntəqələrində tayfalar üzrə məskunlaşmışdılar. Kameral siyahılardan məlum olur ki, 37 kəngərli tayfası Naxçıvan şəhəri və müxtəlif kəndlərdə yaşayırdılar.

Kəngərli tayfalarının 1451 ailəsinin yaşayış yerləri aşağıdakı kimidir:

Yurdçu tayfası Naxçıvan şəhəri (7); Naxçıvan mahalının Qaraçux kəndi (3), Aşağı Uzunoba kəndi (33), Didivar kəndi (1), Xalxal kəndi (2), Şahbuz kəndi (9); Məvazixatın mahalının Cəhri kəndi (207), Buzqov kəndi (13); Dərələyəz mahalının Ərgər kəndi (2), Herher kəndi (2), Terp kəndi (5);

Qaradolaq tayfası Naxçıvan şəhəri (47); Naxçıvan mahalının Yuxarı Hacıvar kəndi (2);

Qızıllı tayfası Naxçıvan şəhəri (17); Əlincəçay mahalının Bənəniyar kəndi (42); Naxçıvan mahalının Qahab kəndi (1), Kərbəlayı Oruc Dizəsi (3), Mərəlik kəndi (1);

Sarbanlar tayfası Naxçıvan şəhəri (10); Naxçıvan mahalının Yuxarı Hacıvar kəndi (2);

Bilici tayfası Naxçıvan şəhəri (42); Naxçıvan mahalının Bulqan kəndi (50), Qaraçux kəndi (9); Biləv mahalının Biləv kəndi (4); Çənnəb mahalının Düylün kəndi (5);

Əlixanlı tayfası Naxçıvan şəhəri (5); Əlincəçay mahalının Orta Anzır kəndi (12); Naxçıvan mahalının Yuxarı Hacıvar kəndi (6);

Bəydili tayfası Naxçıvan mahalının Sirab kəndi (12); Xok mahalının Qarabağlar kəndi (11), Xıncov kəndi (4), Sust kəndi (8);

Kəlfir tayfası Naxçıvan şəhəri (17); Naxçıvan mahalının Nəxşi Nərgiz kəndi (4), Didivar kəndi (1), Sirab kəndi (2), Şah Miranşah kəndi (15), Xalxal kəndi (1), Sələsüz kəndi (14), Mahmudabad kəndi (1), Mərəlik kəndi (5), Tırkeş kəndi (19);

Şabanlı tayfası Naxçıvan şəhəri (12); Əlincəçay mahalının Saltax kəndi (4), Yuxarı (Dib) Anzır kəndi (3);

Salahlı tayfası Naxçıvan şəhəri (82); Naxçıvan mahalının Qahab kəndi (5), Nəhəcir kəndi (11), Xorni kəndi (3), Sərab (Sirab) kəndi (20), Şahbuz kəndi (17), Külüs kəndi (16), Mahmudabad kəndi (3).

Bunlardan əlavə Kəngərli tayfalarından olan Xalxallı, Pirhəsənli, Ağabəyli, Gemayi, Qarabağlar, Cağatay (Cağataylı), Qaraxanbəyli, Hacılar, Cəmşidli, Qızılqışlaq, Qurdlar, Ərəfsəli, Qaracalı, Qara-

kəsərli, Kürdmahmudlu, Pənahlı, Kəclər, Sofulu, Ələkbərli, Vayxırlı, Didivarlı, Bulqarlı, Ziyadlı, Bərgüşadlı, Əliyanlı, Kürdhacı, Bəylər (cəmi 27 tayfa) tayfasının 397 ailəsi 48 şəhər və kəndlərdə məskunlaşmışdılar [7, s.55-57]. Bütövlükdə isə 1451 Kəngərli ailəsi Naxçıvan əyaləti və Ordubad dairəsinin 67 şəhər və kəndlərində məskunlaşmışdılar. Naxçıvan şəhərində 1848-ci ildə qeydə alınmış 230 Kəngərli ailəsini də buraya əlavə etsək, bütün Naxçıvan qəzasında 1.770 Kəngərli ailəsinin yaşadığı məlum olur [7, s.60].

Gətirilən nümunələrdən aydın olur ki, Kəngərli tayfaları içərisində ən çoxsaylı qrup 288 ailədən ibarət olan yurdçu tayfası idi. 163 ailədən ibarət olan cəmşidli tayfası sayca ikinci, 157 ailədən ibarət olan salahlı tayfası üçüncü yerdə gəlirdi. Bilici tayfası 110 ailədən ibarət olsa da, bu tayfanın kəngərlilər arasında xüsusi yeri vardı. Naxçıvan qoşununun hərbi rəisləri bu tayfaya mənsub idilər [7, s.57]. Kəngərli tayfası Naxçıvan şəhərində və Naxçıvan mahalının 9 kəndində yaşayırdı. 1831-ci ildə Naxçıvan əyaləti və Ordubad dairəsində 37 kəngərli tayfası qeydə alınmışdır ki, onlardan 23-ü həm də Naxçıvan şəhərində yaşayırdı.

Naxçıvan diyarı uzun illər Səfəvi dövlətinin xidmətinə Kəngərli süvarilərindən ibarət atlı dəstələri göndərib. Naxçıvanın hakimi, həm də sonra xanı olan Şükrulla xan Kəngərli 10 min Kəngərli atlı dəstəsinə "Naxçıvan süvariləri"nin sərkərdəsi kimi başçılıq etmişdir. O, mahir bir hərbçi kimi də tanınmış, Kəngərli tayfalarından təşkil edilmiş atlı qoşun hissələrinin tərkibində təkmilləşdirmə işi həyata keçirmişdir [4, s.34]. Süvari qoşun bir qayda olaraq kəngərlilərdən təşkil edilirdi. Naxçıvan hakimi olan kəngərli xanının qohumları içərisindən seçilən bu dəstənin komandirindən başqa, 2 sultan, 4 naib və lazımi sayda yüzbaşılar vardı. Süvari döyüşçülər verən və onların təminatını ödəyən kəngərli tayfası bütün vergi və mükəlləfiyyətlərdən azad idi [21, s.60].

Naxçıvan əyalətinin Naxçıvan, Əlincəçay, Məvazixatın və Xok mahallarının 23 kəndindən Kəngərli süvariləri yığılırdı. Ən çox süvari verən Nəzərəbad kəndi (11 nəfər), Cəhri kəndi (40 nəfər), Sələsüz kəndi (11 nəfər) və Aşağı Uzunoba kəndi (10 nəfər) idi. Bütövlükdə bu kəndlərdən 150 nəfər Kəngərli süvariləri yığılırdı. 50 nəfər isə 411 Kəngərli ailəsinin yaşadığı Naxçıvan şəhərindən yığılırdı. Süvarilərin ümumi sayı 200 nəfər olurdu.

Kameral təsvirlərdə Kəngərli tayfasına mənsub tirələrin yaşadıqları məhəllələr də göstərilib. **Sarbanlar məhəlləsində** kəngərlilərin Yurdçu, Qızıllı, Qaradolaq, Sarvanlar, Xalxallı, Pirhəsənli, Salahı, Ağabəyli, Gemayi (Gomayıl), Qarabağlar, Cağataylı, Qaraxanbəyli, Kəclər, Cəmşidli tayfaları; **Erməni məhəlləsində** kəngərlilərin Bilici tayfası; **Oruc məhəlləsində** kəngərlilərin Sarbanlar, Qızılqışlağı, Cəmşidli tayfaları; **Cağatay** məhəlləsində kəngərlilərin Cağatay (Cağataylı), Yurdçu, Qurdlar, Pirhəsənli, Bilici tayfaları; **Köhnə Qala məhəlləsində** kəngərlilərin Qaraxanbəyli, Bilici, Salahı tayfaları; **Xoşulu məhəlləsində** kəngərlilərin Salahı, Qaradolaq, Şabanlı, Bilici, Kəlfir, Gomayıl tayfaları; **Əlixan məhəlləsində** kəngərlilərin Ağabəyli, Ərəfsəli (Ərəfsəkli), Qızıllı, Əlixanlı, Kəclər, Qaraxanbəyli, Kəlfir, Xalxallı, Cəmşidli, Qaradolaq, Yurdçu, Salahı, Bilici, Qaracalı, Pirhəsənli, Çağatay, Xalxallı tayfaları; **Çaparxan məhəlləsində** kəngərlilərin Ərəfsəli, Şabanlı, Kəclər, Kəlfir, Qızıllı, Salahı, Gemayıl, Qaradolaq tayfaları; **Zığlı Arx** məhəlləsində kəngərlilərin Ərəfsəli, Qaradolaq, Salahı, Gomayıl, Bilici, Qızıllı, Kəclər, Cəmşidli, Hacılar tayfaları; **Bilici məhəlləsində** kəngərlilərin Kəclər, Bilici, Qaradolaq, Salahı, Şabanlı, Kəlfir tayfaları; **Şahab məhəlləsində** kəngərlilərin Bilici, Qaradolaq, Yurdçu, Kəclər, Gomayıl, Xalxallı, Qaracalı, Cəmşidli, Şabanlı, Qaraxanbəyli tayfaları; **Qala məhəlləsində** kəngərlilərin Salahı, Cəmşidli, Bilici tayfaları yaşayırdı.

Kameral siyahıların ən üstün cəhəti Kəngərli tayfalarının adları ilə yanaşı, onların harada yaşamaları, ailə üzvləri, yaşı, qohumluq dərəcələri və başqa əlamətlərin də qeyd edilməsidir. Belə ki, Şahab məhəlləsində yaşayan Kəngərli tayfalarının tanınmış nümayəndələri polkovnik Ehsan xanın böyük qardaşı Nəzərəli xan Kəlbəli xan oğlunun yaşı, ailə üzvləri, nökər və qulluqçuları haqqında da məlumat verilir [7, s.180; 12, s.30].

Kameral siyahıda Fərəculla ağa Kəlbəli xan oğlu, Naxçıvanın naibi I Ehsan xan və ailələri haqqında da məlumat verilmişdir. Kapitan və 4-cü dərəcəli Müqəddəs Vladimir Ordeni kavaleri Fərəculla ağa 25 yaşında; arvadı Pərizad xanım 20 yaşında (vəfat edib); qızı Şirin bəyim 3 yaşında (vəfat edib); anası Ümmüşərəf xanım 50 yaşında. Polkovnik və kavaler Ehsan xan Kəlbəli xan oğlu 40 yaşında, onun 4 həyat yoldaşı var: Xırda xanım (vəfat edib) 40 yaşında, Xədicə xanım (vəfat edib) 15 yaşında, Fatma xanım (ayrılıb) 30 yaşında, Telli xanım (ayrılıb) 18 yaşında. Üç oğulları var: İsmayıl xan 14

yaşında, Kəlbəli xan 9 yaşında, Baba xan (vəfat edib) 7 yaşında. Qızı: Sonabəyim (ərdə) 18 yaşında. Nökəri və xidmətçi qadın haqqında da bəhs olunur. Kameral siyahılarda Kəngərli tayfalarının nümayəndələri haqqında lazımi informasiyalar verilmişdir.

Əlincəçay mahalının kəndləri haqqında məlumat verilərkən orada yaşayan Kəngərli tayfasına aid olan ailələrdən də bəhs edilir. Ayaq Camaldında Qaraxanbəyli tayfasına aid 2 ailə, Ərəzin kəndində Kəclər tayfasının 2 ailəsi, Kırna kəndində Ərəfsə tayfasına mənsub olan 12 ailə, Bənəniyar kəndində Qızıllı tayfasına mənsub 42, Qaraxanbəyli tayfasına mənsub 6 ailə, Saltax kəndində Şabanlı və Gemayi (Gemayil) tayfasına aid 9 ailə, Baş Anzır kəndində Kürdmahmudlu tayfasına aid 20 ailə, Orta Anzır kəndində 12 Əlixanlı ailəsi, Aşağı (Dib) Anzır kəndində Şabanlı tayfasının 3 ailəsi yaşayırdı [8, v.205-249].

Kameral təsvirlərdə Kəngərli tayfalarının tanınmış nümayəndələrindən I Ehsan xanın, Fərəculla ağanın, Nəzərəli xanın, Şeyxəli bəyin və başqalarının malı, mülkü, torpaq sahibi olmaları haqqında da lazımi məlumatlar verilmişdir.

I Ehsan xanla qardaşı Şeyxəli bəy həm də Naxçıvan əyalətinin və Ordubad dairəsinin ən böyük torpaq mülkiyyətçiləri hesab olunurdu. Əlincəçay mahalındakı Dərgəməlik kəndi, Naxçıvan mahalındakı Şeyx Mahmud kəndində 240 xalvar torpaq sahəsi, Şada və Badamlı kəndləri, Məvazixatın mahalındakı Canı, Gərməçataq, İtqıran, Digin kəndləri, Buzqov kəndindəki tiyul , Kürədis, Oğbin və Sultanbəy kəndləri (1842-ci il kameral təsvirinə görə bu sonuncu kəndlər Dərələyəz mahalının tərkibində göstərilmişdir – İ.H.), Dərələyəz mahalındakı Lizbirt, Ses kəndləri və Sultanbəy Dizəsi, Beləv (Biləv) mahalındakı Subatan Dizə, Çənnəb (Çinanab) mahalındakı Üstüpü kəndinin yarısı Şeyxəli bəyə məxsus idi. Qeyd etməliyik ki, Kameral təsvirlər sahəsində mükəmməl və ciddi araşdırmaçı kimi tanınan N.Əhmədli mülk və tiyulların şəxslərə və xəzinəyə aid olmalarını dəqiqləşdirmişdir [7, s.678-690]. Müəyyən edilmişdir ki, Əlincəçay mahalının 12 kəndi müxtəlif sahibkarlara, 2 kəndi xəzinəyə; Naxçıvan mahalının 30 kəndi, Məvazixatın mahalının 5 kəndi, Dərələyəz mahalının 14 kəndi müxtəlif sahibkarlara, 1 kəndi kənd sakinlərinə, 39 kəndi xəzinəyə, 3 kəndi isə müxtəlif şəxslərə və xəzinəyə, Ordubad mahalının 1 kəndi sahibkara, 4 kəndi sakinlərə, Əylis mahalının 3 kəndi sakinlərə, Dəstə mahalının 1 kəndi sahibkara, 6 kəndi sahibkarlara və xəzinəyə, Beləv (Biləv) mahalının 6 kəndi sahibkarlara, 3 kəndi kənd sakinlərinə, 2 kəndi isə sahibkarlar ilə xəzinəyə, Çənnəb (Çinanab) mahalının 1 kəndi sahibkara, 1 kəndi isə xəzinəyə məxsus olmuşdur. Sahibkarlar içərisində Kəngərli tayfasının çoxsaylı nümayəndələri vardır.

Kameral təsvirlər üzrə aparılan müqayisə və araşdırmalardan aydın olur ki, Naxçıvan əyaləti və Ordubad dairəsi ərazilərində bir sıra yaşayış məntəqələri Kəngərli tayfa adları ilə üst-üstə düşür. Yəni Kəngərli tayfa adlarının bəziləri artıq sonrakı ilin kameral təsvirlərində kənd adları kimi tarixləşmişdir. Məsələn, Yurdçu tayfası - Yurdçu kəndi, Sarbanlar tayfası – Sarbanlar məhəlləsi, Xalxallı tayfası – Xalxal kəndi, Qarabağlar tayfası – Qarabağlar kəndi, Qaraxanbəyli tayfası – Qaraxanbəyli kəndi, Ərəfsəli tayfası – Ərəfsə kəndi, Vayxırlı tayfası – Vayxır kəndi, Didivarlı tayfası – Didivar kəndi, Qurdlar tayfası –Qurdlar məhəlləsi və s.

Bir məsələ də aydın olur ki, heç də bütün Kəngərli tayfası və onun qollarının heç də hamısı qeydiyyata alınmamışdır. Mənbələrə əsaslanan K.Smirnov da bu barədə fikirlərini söyləmişdir [20, s.16]. Bu həm də onunla əlaqədardır ki, Kəngərli tayfalarından sonrakı illərdə bir sıra nəsil tirələri ayrılmış, siyahıyaalma zamanı bəzən bunlar nəzərə alınmamış, yaxud bu barədə məlumatları olmamışdır.

Nəticə. Kameral təsvirlərdən (siyahıyaalmalardan) aydın olur ki, çar Rusiyası Şimali Azərbaycanı ilhaq etdikdən sonra ərazinin sosial-iqtisadi inkişafını, orada mövcud olan sənətkarlıq sahələrini, insanların istifadə etdiyi sosial obyektləri, əhalinin sayı, milli tərkibi, sosial vəziyyəti, Kəngərli tayfaları, onların yerləşməsi, tirələri, əhalinin ödədiyi vergilər, yerinə yetirdikləri mükəlləfiyyətlər və digər məsələləri dəqiqləşdirir, siyahıya alır və vergi tətbiq edirdi. Bu zaman əhalinin milli və sosial tərkibi nəzərə alınırdı.

Aparılan müqayisəli araşdırmalardan məlum olur ki, Kəngərli tayfaları ərazinin aborigen sakinləri olubdur. Naxçıvan çox qədimdən kəngərlilərin vətəni olmuşdur. Bu gün də Naxçıvan bölgəsinin tarixən qədim yaşayış yerləri Kəngərli tayfalarının və onun müxtəlif tirələrinin adlarını yaşadır.

Tarixin müxtəlif dövrlərində Naxçıvan diyarında və onun ətraf ərazilərində Kəngərli tayfaları yaşamışlar. Müxtəlif dövlət qurumlarının, onların və eləcə də ərazinin təhlükəsizliyinin təmin olunmasında Kəngərli süvarilərinin gücündən istifadə olunmuşdur. XIX əsrin 30-cu illərin Kameral təsvirlərində bir sıra dəqiqləşdirmələrə ehtiyac olsa da, onlarda Naxçıvan əyaləti və Ordubad dairəsi haqqında elmi mənbə əhamiyyəti kəsb edən çoxsaylı fakt və hadisələr öz əksini tapmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı: Elm, 2007, 608 s.
2. Biləv mahalının Kameral təsviri. 1831-ci il. Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi (AMDTA), f. 24, siy.1, s.v. 360.
3. Çənnəb mahalının Kameral təsviri. 1831-ci il. AMDTA, f. 24, siy. 1, s.v. 361.
4. Çingizoğlu Ə. Abbasqulu bəy Kəngərli. Bakı: Mütərcim, 2013, 68 s.
5. Dərələyəz mahalının Kameral təsviri. 1831-ci il. Əhmədli N. Naxçıvan əyalətinin və Ordubad dairəsinin kameral təsviri. Bakı: Elm və təhsil, 2021, s.400-508.
6. Dəstə mahalının Kameral təsviri. 1831-ci il. AMDTA, f. 24, siy. 1, s.v. 359.
7. Əhmədli N. Naxçıvan əyalətinin və Ordubad dairəsinin kameral təsviri. 1831-ci il. Bakı: Elm və təhsil, 2021, 712 s.
8. Əlincəçay mahalının Kameral təsviri. 1831-ci il. AMDTA, f. 24, siy. 1, s.v.354.
9. Xok mahalının Kameral təsviri. 1831-ci il. AMDTA, f. 24, siy. 1, s.v.357.
10. Kazımov İ. Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı: Elm, 2007, 175 s.
11. Kəngərli İ. Kəngərli elinin soy kitabı. Bakı: Nurlan, 2005, 296 s.
12. Quliyev M. 1832-ci il kameral siyahısı Kəngərli tayfası haqqında // AMEA NB-nin Elmi əsərləri. İctimai və humanitar elmlər seriyası. 2021, cild 17, № 1, s. 27-31.
13. Quliyev N. Naxçıvan xanlığının əhalisi. Bakı: Elm, 2006, 163 s.
14. Məmmədov A. Kəngərlər. Qədim dünyanın gizli fatehləri. Bakı: Çapar, 2022, 172 s.
15. Məvazixatın mahalının Kameral təsviri. 1832-ci il. AMDTA, f. 24, siy. 1, s.v.356.
16. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi (NMRDA): F.314, siy. 6, iş12.
17. Ordubad şəhərinin Kameral təsviri. 1832-ci il. AMDTA, f. 24, siy. 1, s.v.372.
18. Ordubad mahalının Kameral təsviri. 1831-ci il. Əhmədli N. Naxçıvan əyalətinin və Ordubad dairəsinin kameral təsviri. Bakı: Elm və təhsil, 2021, s. 568-586.
19. Seyidbəyli S. Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri. Bakı, 2000, 229 s.
20. Смирнов К. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 156 с.
21. Статистическое описание Нахичеванской провинции (Составитель В.Н.Григорьев). СПб, 1833, 239 с.
22. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб, 1852, 1231 с.

ИСМАИЛ ГАДЖИЕВ
Академик, Нахчыванское отделение НАНА

КАМЕРАЛЬНЫЕ ОПИСАНИЯ О КЕНГЕРЛИ (30-е годы XIX века)

В статье рассматриваются камеральные описания (переписи), подготовленные российскими чиновниками в 30-е годы XIX века, и сведения о племени Кенгерли, содержащиеся в этих описаниях, их обобщение и объективный вывод. Камеральные описания дают разъяснение на многие спорные вопросы. Сопоставление явлений в камеральных описаниях с фактами и собы-

тиями, приведенными в произведениях других авторов XIX века, дает основание для правильного вывода. Камеральный список бесценный исторический источник того времени. Достоверность этой переписи обусловлена тем, что на ее основе собирались и обобщались информации, и на основании этого были введены налоги и пошлины. Сведения о племени Кенгерли нашли всестороннее отражение в списках.

Ключевые слова: Нахчыванская провинция, Ордубадский округ, Россия, 30-е годы XIX века, камеральные описания, племена Кенгерли.

ISMAYIL HAJIYEV
Academician, Nakhchivan Branch of ANAS

CAMERAL DESCRIPTIONS ABOUT THE KANGARLIS (30s of the 19th century)

The article deals with cameral descriptions (census) made by Russian officials in the 30s of the 19th century and information about the Kangarli tribe in these descriptions, their generalization and objective conclusion. Cameral descriptions clarify many controversial issues. Comparison of events in cameral descriptions with facts and events given in the works of other authors of the 19th century provides the basis for a correct conclusion. The cameral record is an invaluable historical source of that period. The accuracy of this census is due to the fact that on the basis of this list, data were collected, summarized and taxes and duties were applied accordingly. Information about the kangarli tribe is comprehensively reflected in the records.

Keywords: Nakhchivan province, Ordubad district, Russia, 1930s, Cameral descriptions, Kangarli tribes.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 31 yanvar 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.

UOT 94(479.24)

MUSA RƏHİMOĞLU-QULİYEV
AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru
kuliyevm@yandex.ru

GÖRKƏMLİ HƏRBÇİ, İCTİMAİ-SİYASİ XADİM CƏFƏRQULU XAN NAXÇIVANSKİ-KƏNGƏRLİ

DOI: https://doi.org/10.36719/2708-065X/108/21-28

Məqalədə görkəmli hərbçi, ictimai-siyasi xadim Cəfərqulu xan Naxçıvanskinin-Kəngərlinin həyat və fəaliyyətindən söhbət açılır. Məqalədə həmçinin Cəfərqulu xanın Sankt-Peterburqdakı paj korpusunda oxumasından, Qafqaz ordusunda hərbi xidmətindən danışılır. 1885-ci ildən sonra ordudan istefaya çıxır və Naxçivana qayıdır. Naxçıvan şəhərinin başçısı işləyir, maarifçiliklə və xeyriyyəçiliklə məşğul olur. 1918-1920-ci illərdə Naxçıvanın erməni daşnaklarından müdafiə olunması işinə rəhbərlik etmişdir. Məqalə yeni arxiv sənədləri və çap edilmiş kitablar əsasında yazılmışdır.

Açar sözlər: Naxçıvan, Sankt-Peterburq, paj korpusu, Tver polku, Ərzurum, Axaltəkə ekspedisiyası, Naxçıvan şəhərinin başçısı.

Giriş. Naxçıvanın Kəngərli süvarilərinin hərb tarixi olduqca qədimdir. Onlar bütün yüzilliklərdə döyüş bacarıqları və hünərləri ilə hərb tariximizə qəhrəmanlıq səhifələri yazmışlar.

Bu nəsil xalqımıza dünya şöhrətli altı general bəxş edib: I Ehsan xan, İsmayıl xan, II Kalbalı xan, Hüseyn xan, III Kalbalı xan və Cəmşid xan. Bu generalların hər birinin nəsillər üçün rəşadət timsallı hərbi fəaliyyəti olub. Son illərdə çəkilən kinoxronikalarda, sənədli telefilmlərdə bunlar haqqında geniş söhbət açmağa çalışırlar. Və bu hərbçi xan nəsli barədə nə qədər deyilsə də, yazılsa da azdır.

Müasir gəncliyə hərb tariximiz, əvvəlki kimi dar, məhdud çərçivədə yox, geniş izah olunmalıdır. Bunun üçün istər Bakıda, istərsə də Naxçıvanda çox gözəl şərait yaranıb. Bir o qalır ki, tarixçilər, tədqiqatçılar, yazıçılar və kinossenaristlər bütün varlıqları ilə bu işə girişsinlər. Hər şey dərinləşdirilsin və dəqiqləşdirilsin.

Bu gün yaxın, uzaq xarici ölkələrdə bədxahcasına çəkilən kinofilmlər, yazılan kitablar hamımızı səfərbər etməlidir. Bir daha ciddi-cəhdlə axtarışlar aparmalı və yeni-yeni sənədlərlə Azərbaycan tarixinin ən parlaq Naxçıvan səhifələrini zənginləşdirməliyik. Bu, bizim vəzifəmizdir, borcumuzdur.

Yerindəcə qeyd edək ki, XIX əsrin əvvəllərindən başlayaraq XX əsrin əvvəlinədək Kəngərli xan Naxçıvanskilər və onların varisləri Azərbaycan və Rusiya hərb tarixində silinməz iz qoymuşlar. Daha dəqiq desək, onlar həm də Rusiya hərb tarixində aparıcı rola malik olmuşlar. Belə hərbçi varislərdən biri Cəfərqulu xan II Kalbalı xan oğlu Naxçıvanski-Kəngərlidir.

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra azərbaycanlı tədqiqatçılarla yanaşı rusiyalı tədqiqatçılardan F.Nağdəliyev (2006) və Rudolf İvanov (2007) da yazdıqları kitablardada Cəfərqulu xan haqqında da söhbət açıblar. Amma Cəfərqulu xanın XX əsrin ilk 20 ilində Naxçıvandakı fəaliyyəti öyrənilməmiş qalır. Biz təkrarən bu mövzuya qayıtmaqla Cəfərqulu xanın həm də ictimai-siyasi fəaliyyətindən və xeyriyyəçilik missiyasından da söhbət açmaq arzusundayıq.

Görkəmli hərbçi, ictimai və siyasi xadim Cəfərqulu xan II Kalbalı xan oğlu Naxçıvanski 5 fevral 1859-cu ildə Naxçıvan şəhərində, indiki Xan sarayında doğulmuşdur [24, v.12].

Cəfərqulu xanın atası Rusiya imperiyasının ən igid generallarından biri idi. Onun göstərdiyi igidliklərə görə adı Moskva Kremlinin Georgi salonunda mərmər lövhəyə qızıl hərflərlə yazılmışdır [20, s.22-23, s.230].

II Kalbalı xan Naxçıvanski özü də Sankt-Peterburqdakı (Peterqofdakı) paj korpusunda təhsil alıb. Özü də paj korpusda təhsil alan ilk azərbaycanlıdır [22]. Bu səbəbdən də o, 30 iyul 1867-ci ildə oğlu Cəfərqulu xanı paj korpusunda oxumağa göndərmişdir. Cəfərqulu xan 1871-ci il 23 iyunda

ümumi sinifdən xüsusi sinfə köçürülmüş və 1874-cü ilin 29 avqustunda hərbi xidmətə başlamışdır. O, 1876-cı ilin 29 noyabrında kamer-paja aparılmışdır.

Cəfərqulu xan Naxçıvanskiyə 10 iyun 1877-ci ildə Peterqofdakı saray qvardiyasının Ulan polkunun korneti (kiçik zabiti) rütbəsi verilmişdir. Rusiya çarının əmrləri o vaxtlar rəsmi və populyar hərbi qəzet olan "Русский инвалид"də çap olunurdu. Cəfərqulu xana da verilən hərbi rütbə həmin qəzetin 134-cü nömrəsində çap edilib [16].

Cəfərqulu xanla bağlı axtarışlar zamanı məlum oldu ki, o, çox bacarıqlı, cəsarətli, həmişə öndə vuruşmağı sevən süvari olub. Belə bir həvəsi görən cavabdeh hərbçilər gənc korneti 18 aprel 1877-ci ildə ehtiyat eskadrona hərbi xidmətə dəyişdirirlər.

Gənc Cəfərqulu xan isə Qafqaz ordusunda hərbi xidmətə can atdığından, həmin ordunun tərkibində olan 15-ci draqun Tver polkuna dəyişilir. Bu haqda hərbi əmr 18 aprel 1878-ci ilə aiddir. Onun yüksək hərbi biliyini və bacarığını görən komandanlıq onu yeni hərbi rütbəyə təqdim edir və elə həmin ildə ona poruçik rütbəsi verilir [17]. Cəfərqulu xan xidmət etdiyi qraqun polkunun tərkibində 1878-ci il iyunun 1-dən sentyabrın 6-dək Ərzurum şəhərində olmuşdur. Qeyd edək ki, o vaxtlar Ərzurum rus qoşunları tərəfindən işğal olunmuşdu. Poruçik hərbi rütbəsini ona Ərzurumda olarkən təqdim etmişlər.

1877-1878-ci il Rusiya-Osmanlı müharibəsində iştirak edən Cəfərqulu xan Rusiyanın həmin illər üçün təsis etdiyi tünd bürünc xatirə medalı ilə təltif edilir [21, s.53].

Cəfərqulu xan Naxçıvanski general-adyutant Lazarevin dəstəsində 1879-cu il 5 mayda 14 oktyabradək, 1880-ci il 22 iyuldan 1881-ci il 31 mayadək Axaltəkə ekspedisiyasının tərkibində Orta Asiyada olub [21, s.53-54].

Gördüyümüz kimi o, iki dəfə ekspedisiyada olmuşdur (1879, 1880-1881-ci illərdə). Bu hərbi ekspedisiyanın yürüşü zamanı Cəfərqulu xan müsəlmanlar üçün təsis edilmiş 3-cü dərəcəli Müqəddəs Stanislav ordeni ilə təltif edilmişdir (bant və qılınclarla) [21,s.55]. Cəfərqulu xan bu hərbi yürüşün zəfərinə təsis olunmuş "12 yanvar 1881-ci ildə Göytəpə qalasının hücumla alınması" gümüş medalı ilə də təltif olunmuşdur.

24 mart 1881-ci ildə Cəfərqulu xana, döyüşlərdə fərqləndiyinə görə ştabs-kapitan hərbi rütbəsi verilmişdir [18]. Bu hərbi rütbəni alanda onun 22 yaşı vardı. Bu mükafat da ona döyüş cəbhəsində təqdim edilib.

Gənc naxçıvanlı süvarinin cəsur döyüşləri onu 14 iyun 1881-ci ildə 4-cü dərəcəli (bantla və qılınclarla birlikdə) Müqəddəs Vladimir ordeninin də kavaleri edir. Qeyd edək ki, bu ordenin də işarələri qeyri xristianlar üçün hazırlanmışdı [21, s.57].

1 mart 1882-ci ildə Cəfərqulu xan hərbi ekspedisiyada göstərdiyi döyüş şücaətinə görə 3-cü dərəcəli Müqəddəs Anna (bant və qılınclarla), 8 iyul 1882-ci il tarixdə 2-ci dərəcəli Müqəddəs Stanislav (qılınclarla və bantla) ordenləri ilə təltif edilir.

Hərbi xidmətdə olarkən Cəfərqulu xanın iki dəfə ayağı sınmışdı.1879-cu ildən başlayaraq Cəfərqulu xan hər il məzuniyyət vaxtı 5 dəfə Qafqazın mədən sularına müalicəyə gedir. Cəfərqulu xan 1885-ci ilin 12 sentyabrda 2 ay yarımlığa Qafqazın mədən sularına müalicəyə göndərilir.

Cəfərqulu xan Naxçıvanski 1885-ci ildə müalicədən qayıtdıqdan sonra ona ştabs-rotmistr rütbəsi verilir [24, v.12]. Amma hərbi arxivdə saxlanılan sənəddən məlum olur ki, həkimlər onun orduda hərbi xidmətdə olmasını məsləhət bilmirlər.

Məsələnin ciddiliyini görən 29 yaşlı Cəfərqulu xan birbaşa Rusiya çarına müraciət edir. O, ərizəsində yazır: "Sağlamlığım, hədsiz dərəcədə kəskinləşən xəstəliyim və ailə vəziyyəti imkan vermir ki, Siz İmperator Həzrətlərinə xidmətimi davam etdirim. Ona görə də xahiş edirəm ki, yuxarıdakı səbəblər üzündən xəstəliyimə görə mənim ordudan tərxis edilməyimə icazə verəsiniz".

Ştabs-rotmistr Cəfərqulu xan Naxçıvanski
30 sentyabr 1885-ci il
Çarskiye Kolodçı

Maraqlı haldır ki, hərbçi Cəfərqulu xan ordudan tərxis edilərkən hökumətə zəmanət də verib. Arxiv sənədlərində bu sənəd "Revers" adlanır: "Əgər məni ordudan təyin olunmuş qaydalarla tərxis edərlərsə, onda mən heç bir yerdə əlavə əmək haqqı xahiş etməyəcəyəm. İstefada olduğum vaxt ya-

şayış yerim İrəvan quberniyasında olan Naxçıvan şəhəri olacaqdır". Bu revers də 30 sentyabr 1885-ci ildə yazılıb [25].

Çox gənc ikən hərbi xidmətləri yüksək qiymətləndirilən Cəfərqulu xan Naxçıvanski Rusiya çarının icazəsi ilə 1885-ci ilin 22 dekabrında ordudan tərxis edilir. Ona verilən hərbi əmrdə deyilir: Xəstəliyinə görə 43-cü Tver Draqun polkunun süvarisi ştabs-rotmistr Cəfərqulu xan Naxçıvanski rotmistr hərbi rütbəsində və mundiri həmişə geymək icazəsilə ordudan tərxis edilir. Cəfərqulu xana verilən əmr "Русский инвалид" qəzetinin 24 dekabrında çap edilmişdir [19].

1885-ci ilin son günlərində Cəfərqulu xan Naxçıvana qayıdır. 1885-ci ildən 1920-ci ilədək Cəfərqulu xan taleyini, necə deyərlər,birdəfəlik Naxçıvanla bağlayır. Naxçıvanda maarifə xeyriyyəçilik onun əsas məqsədlərindən olub. Cəfərqulu xan Naxçıvanskinin 1897-ci ildən başlayaraq 1920-ci ilin avqustunadək Naxçıvanda işlədiyi rəhbər vəzifələrlə bağlı arxiv sənədləri var. Elə bu sənədlərdən öyrənirik ki, o, 1897-1904-cü illərdə Naxçıvan şəhər başçısı olmuşdur. Doğrudur, 1918-ci ildən sonra siyasi proseslərlə əlaqədar olaraq idarələrin adları dəyişdirilsə də, yenə şəhərə rəhbərliyi (bəzi istisnalar olmaqla) Cəfərqulu xan etmişdir. Məsələn belə arxiv sənədlərindən biri Cəfərqulu xan Naxçıvanskinin şəhər başçısı təyin edilməsi haqqında İrəvan qubernatorunun 24 may 1902-ci il tarixli məktubudur. Həmin məktubda yazılır: "1882-ci il şəhər qaydalarının 22-maddəsinin 9-cu əlavəsinə və 118-ci maddəsinə əsasən Naxçıvan şəhər başçısı vəzifəsinə 1901-ci ildən (ikinci dəfə) növbəti 4 il üçün Cəfərqulu xan Naxçıvanskini təyin edirəm. Onun köməkçisi isə Mirzə Sadıq Xəlilov təyin edilsin". Mirzə Sadıq Xəlilov böyük yazıçı Mirzə Cəlil Məmmədquluzadənin dostu və müəllim yoldaşı olub. Erməni daşnaklar Mirzə Sadığı 3 noyabr 1905-ci ildə faicəli şəkillə öldürmüşlər. Cəfərqulu xan Naxçıvanski şəhər starotası işləməklə bərabər, həm də Naxçıvan şəhərində fəaliyyət göstərən "Tərbiyə", sonralar rus-tatar (Azərbaycan) məktəbinin fəxri nəzarətçisi olmuşdur. Cəfərqulu xan rus, fars, ərəb, alman, fransız dillərini də mükəmməl bilmişdir. O, Naxçıvanda yaşadığı və işlədiyi illərdə bir sıra xarici ölkələrdə səfərlərdə olmuşdur. Bu haqda Cəfərqulu xanın raportu bunu təsdiqləyir.

O, 27 iyul 1900-cü il tarixli raportunda İrəvan qubernatoruna yazır: "Siz həzrətlərindən xahiş edirəm ki, şəxsi işlərim üçün xaricə - Türkiyəyə, Fransaya, Avstriyaya və Almaniyaya getməyim üçün mənə 10 sentyabr tarixdən iki aylıq məzuniyyət verəsiniz.

Şəhər başçısı (imza) Xan Naxçıvanski" [1].

İrəvan qubernatorluğu onun məktubunu 21 avqust 1900-cü il tarixdə Tiflisə göndərmiş və 19 sentyabr 1900-cü il tarixdə Qafqaz mülki sahəsinin vitse-direktoru əvəzinin imzası ilə cavab məktubu alınıb. Həmin məktubdan aydın olur ki, Cəfərqulu xana icazə verilib: "İdarənin əmri ilə Naxçıvan şəhər başçısı Xan Naxçıvanskiyə xaricə getməsi üçün 2 aylıq məzuniyət verilib. Bu haqda dəftərxana bizə bildirir.

Vitse-direktor əvəzi (imza)" [7, v.1].

Cəfərqulu xan 1910-1916-cı illərdə həbsxana popeçiteli olmuşdur. 1914-1916-cı illərdə həm də barışdırıcı şəhər məhkəməsinin fəxri sədri olmuşdur.

Atası general-mayor II Kalbalı xan Naxçıvanski vəfat edəndən sonra Xok kəndinin (yarısı), Təzəkənd kəndinin (yarısı), Nurs, Sirab və Nehrəm kəndlərinin mülkədarı olmuşdur.Naxçıvanda onun üzüm və meyvə bağları, o cümlədən dükanları və karvansaraları olmuşdur. Naxçıvan şəhərindəki rus-tatar (Azərbaycan) məktəbinə hamilik edənlərdən biri də Cəfərqulu xan idi. 1894-cü ilin sənədlərinin məlumatına görə Qaraçuq və Qızıl Təpədə onun əkin sahələri də olmuşdur.Tapılan sənədlərdən öyrənirik ki, onun və qardaşlarının İrəvan ətrafında da idarə etdikləri kəndlər olub. Tas, İydəli (yarısı), Şelli-Mehmandar kəndinin 1/6 hissəsi [22, s.339].

Cəfərqulu xan Naxçıvanski 1918-1920-ci illərdə Naxçıvanın erməni quldur dəstələrindən müdafiə olunması işinə rəhbərlik etmişdir. Qeyd edək ki, həmin illərdə Naxçıvan çox çətin, amma şərəfli bir qəhrəmanlıq tarixi yaşamışdır. Həmin illərin arxiv sənədlərinin çoxu itib-batsa da, məhv edilsə də arxiv fondlarındakı sənədlərdən məlum olur ki, Cəfərqulu xan, Naxçıvanın erməni tapdağına düşməməsi üçün diplomatik addımlar atmış, yeri gələndə isə döyüşmüşdür. Həmin çətin və mürəkkəb illərdə Naxçıvanda Milli Şura, Müdafiə Komitəsi, Naxçıvan Araz -Türk Respublikası və Müvəqqəti hökumət fəaliyyət göstərmişdir. Bunların hamısına sədrlik edən Cəfərqulu xan Naxçıvanski olub. Naxçıvan Milli Şurasına çox az bir müddətdə digər şəxslərin də adlarına rast gəlirik. Yəni bu illərdə, xüsusən Araz Türk Respublikası dövründə bəlkə də bir gündə bir ayın tarixi hadisələri yaşan-

mışdır. Bəzən erməni daşnakları, amerikan və ingilis hərbçiləri ilə danışıqlar aparılmış, nəticəsiz qaldığından dərhal döyüş əmri verilmişdir. Belə bir vəziyyətdə rus və digər xarici dilləri bilən, həm də hərbi işi bilən şəxs lazım idi ki, Azərbaycan Naxçıvan məsələsində uduzmasın. Belə bir çətin missiyanı ancaq Cəfərqulu xan yerinə yetirə bilərdi. Qeyd edək ki, 1918-ci ildə Cəfərqulu xan qaynı Kərim xan İrəvanskinin (Şərur taborunun komandiri) başçılıq etdiyi nümayəndə heyətini Türkiyəyə göndərmişdi [8]. Türk qoşunlarının köməyə gələn bir hissəsi Naxçıvanın xalq qoşunları ilə birlikdə daşnak erməni qoşunları ilə döyüşmüşlər.

1918-ci ilin iyun ayının 11-də türklər Milli Komitəni ləğv etmiş və Naxçıvanda yeni idarələr yaratmışlar. Naxçıvan jandarma idarəsinə Məhəmmədəli xan Naxçıvanskini rəis, Qəni bəy Vəzirovu isə müavin təyin etmişlər. Ədliyyə işlərini Şeyx Kərimə, Cabbar Kələntərova, Vəli ağa Kəngərliyə və Abbasqulu bəy Tahirova həvalə etmişlər.

Yeni yaradılan Bələdiyyə idarəsinə isə Cəfərqulu xanı sədr, Tağı Nağdəliyevi isə müavin təyin etmişlər. Cəfərqulu xan 1919-cu ilin 9 fevralına kimi Naxçıvan bələdiyyəsinin sədri olmuşdur [4, s.42].

Azərbaycan Xalq Cümhuriyyətinin tapşırığı ilə Cəfərqulu xan və oğlu III Kalbalı xan ingilislərlə danışıq aparırdı. İngilislər Naxçıvan ərazisində ingilis general-qubernatorluğu yaratdıqları bir gündən respublika ərazisində siyasi sabitlik çox ciddi surətdə pozulmuşdu. Naxçıvan Araz Türk Respublikasına nəyin və kiminsə xatirinə hakimiyyətə təyin edilmiş Əmir bəy Nərimanbəyov təzə yaradılan respublikanı heç cür idarə edə bilmirdi. Naxçıvan əhalisini erməni təcavüzündən layiqincə qoruya bilməyən Əmir bəy hökumətinin zəifliyi də buna imkan yaradırdı [5, s.53]. Əmir bəy bunun günahını isə hərbçi kəngərlilərdə görürdü. Amma əslində belə deyildi. Naxçıvanın ərazisində və şəhərin içində ermənilərlə döyüşlər gedirdi. Təklənmiş Naxçıvana və naxçıvanlılara rəhbər edəcək təcrübəli sərkərdə və yaxşı döyüşə bilən döyüşçülər lazım idi. Bax, əsl həqiqət burada gizlənir. Buna görə də Cəfərqulu xan və Rəhim xan qardaşları, onların hərbçi oğulları və qohumları qətiyyən razı ola bilməzdilər ki, ulu babalarının onlara əmanət etdikləri qədim Oğuz yurdu Naxçıvanda ermənilər ağalıq etsinlər. Buna görə də Araz-Türk Cümhuriyyətinin süqutundan sonra Cəfərqulu xan Naxçıvanda Müvəqqəti hökumət yaratmış və onun sədri olmuşdur. Naxçıvan hökumətinin sədri Cəfərqulu xan, müavini Abbasqulu bəy Tahirov, baş komandan Kərim xan İrəvanski, müavini Kalbalı xan, xarici işlər naziri Bəhram xan idi [3, s.104-108]. Ona görə də naxçıvanlılar yekdilliklə həmrəy olub xan Naxçıvanskilərin tapşırığı ilə hərəkət edirdilər. Hadisələrin sonu da göstərdi ki, Cəfərqulu xanın rəhbərliyi altında döyüşən naxçıvanlılar çox haqlı imişlər.

Bir arxiv sənədində olan məlumatlar (belə məlumatlar çoxdur) Cəfərqulu xanın çox soyuqqanlı və iradəli olduğunu təsdiqləyir. Həmin sənəddən məlum olur: "ingilis general-qubernatoru Cəfərqulu xana təklif edir ki, iki məsələni həll etsin: birincisi, Osmanlı imperiyasının ərazisindən köçürülmüş ermənilərin yenidən Naxçıvana və kəndlərinə qayıtmasına icazə verilsin. İkincisi, daşnak Ermənistanı üçün Şərurdan min pud buğda buraxılsın. Azərbaycan Xalq Cümhuriyyətinin elçiləri ilə məsləhətləşdikdən sonra Cəfərqulu xan cavab verdi ki, birinci məsələ mühacirət məsələsi kimi Paris sülh konfransında həll olunana qədər təxirə salınmalıdır, buğdanı isə yerli əhalinin ehtiyacı olduğu şəkər və neftlə dəyişmək olar" [5, s.54].

Ümumiyyətlə, Cəfərqulu xanın fəaliyyəti ilə bağlı məsələlər A. Hacıyevin ("Qars və Araz-Türk respublikalarının tarixindən, Bakı: 1994") kitabında ilk dəfə elmi dövriyyəyə daxil edilsə də bir çox məsələlər ziddiyyət təşkil edir. Xüsusən Cəfərqulu xan və digər hərbi Naxçıvanskilər haqqında. Çünki 1920-ci ildə Cəfərqulu xan Naxçıvan İnqilab Komitəsinə yazdığı məktubda (rus dilindədir) bir çox məsələlərə aydınlıq gətirib. Biz bu məktubla və digər arxiv sənədləri ilə tanış olduqda görürük ki, belə sədaqətli, vətənpərvər sərkərdə haqqında ədalət öndə olmalıdır.

Çünki onların canı-dildən müdafiə etdikləri Naxçıvan əzəmətlə durmaqdadır! Və Cəfərqulu xan 4 oğlunu (III Kalbalını, III Ehsanı, Cəmşidi və Teymuru) Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın müstəqilliyi, azadlığı uğrunda qurban verib. Ona görə də gərək biz tədqiqatçılar Naxçıvan tarixinin iki ilini (1918-20) çox həssaslıqla, emosiyalarsız və doğru-düzgün araşdıraq, ətraflı öyrənək və son fikrimizi yazaq. Mənasız fikirlərlə qəhrəmanlarımızın ruhunu incitməyək!

Bir məsələni də deməyin vaxtıdır. Araşdırmalar göstərir ki, bütün yüzilliklərdə naxçıvanlılar Azərbaycandan başqa heç bir konfederasiya-filan qəbul etməyiblər. 1918-1920-ci illərdə həmçinin!

Yeri gəlmişkən,bəzi müəlliflər Mirzə Bağır Əliyevin yazdıqlarına söykəndiklərini deyirlər. Mirzə Bağır Əliyevin "Qanlı günlərimiz" (Bakı: 1994) kitabından istifadə etdiklərini yazırlar. O müəlliflərə bir daha xatırladırıq ki, Mirzə Bağır Əliyev gündəlik yazıb və hadisələri bildiyi kimi qeyd edib. Biz də həmin kitabı diqqətlə oxuyuruq. Cəfərqulu xan heç vaxt katibə (münşiyə) deməyəcəkdi ki, diplomatik danışıqlarda söhbət nədən gedib və sair və ilaxır.

Bu səbəbdən bir məsələni də deməyə məcburuq. "Naxçıvan İnqilab Komitəsinin 10 oktyabr 1920-ci il tarixli qərarı ilə İnqilab Komitəsinin nəzdində bir neçə şöbələrlə yanaşı,"Daxili İşlər" şöbəsi də yaradılır.

İnqilab Komitəsinin qərarı ilə ümumi məlumat təlimat şöbəsinə rəis Mirzə Bağır Əliyev təyin edilmişdir" [9, v.10]. Bu arxiv sənədidir. Bizcə, artıq şərhə ehtiyac yoxdur. Bundan sonra Mirzə Bağır Əliyev öz gündəliyində Naxçıvandan sürgün edilmiş hərbi Naxçıvanskilər haqqında müsbət fikir yaza yaxud saxlaya bilərdimi? Əlbəttə ki, yox! Mətləbdən uzaqlaşmayaq. Naxçıvan tarixində maraqlı məsələlərdən biri Naxçıvandan Makuya hərbi dəmiryol çəkilməsidir. Bu hadisə 1915-ci ilə təsadüf edir.

Ədəbiyyatşünas alim Əziz Şərifin atası Qurbanəli Şərifzadənin oğluna yazdığı məktub bu işi oxuculara məlum edir: "Cəfərqulu xan mənə təklif elədi ki, dəmiryol podratı götürək və şərik olaq. Şahtaxtıdan Makuya dəmiryol çəkiləcəkdir. Cəfərqulu xan özü qulluqdadır, müqavilə mənim adıma olacaqdır. Bu neçə gündə çalışırdıq. Hüseyn xan, general adyutant, Cəfərqulu xanın qardaşı bu işdə vasitəçidir. Ona görədə çox ümid varam ki, bu iş bizə qismət ola.

Şahtaxtıdan Makuya qırx verst qədər yoldur. Əgər bu iş bizə qismət olsa, ümidvaram ki, mənfəətsiz olmaya, çünki əvvəla, əfsərlər Cəfərqulu xanın və Hüseyn xanın xatirinə bizə kömək edərlər, çünki bu yol hərbi yoldur, injinerlər tamam əfsərdirlər və saniyən Makuda Cəfərqulu xanın əqvamı xanlar fəhlə cəhətindən bizə kömək edərlər..." [14, s.467-468]. Amma həmişə olduğu kimi, Naxçıvan xanlarının Maku xanları ilə yaxın qohum olmaqları imkan vermir ki, Cəfərqulu xana çar hökuməti etibar etsin. Maku-Şahtaxtı yolunun çəkilişi Cəfərqulu xana tapşırılmır.

Maku xanlarından Əli xan Bayat I Kalbalı xanın qızı Cahanbanu ilə evlənib. Onların oğlu Teymurpaşa xandır. Teymurpaşa xanın oğlu isə Maku sərdarı Mürtəzaqulu xandır.

Cəfərqulu xanın bacısı Şahbəyim, qızı Nazlıbəyim də həmin ailənin gəlinləri olmuşlar.General İsmayıl xanın qizi Şirinbəyim Nəsrulla xan Makulunun həyat yoldaşı olub.Onların oğlu Kamilpaşa xanı General İsmayıl xan Sankt-Peterburqda oxudub.Abbasqulu xan İrəvanskinin qızı Nazxanım (Cəfərqulu xanın baldızı) da Maku xanının gəlini olub. Onun oğlu İsmayıl xanla bu sətirlərin müəllifi 2009-cu ildə Makuda, Bağçacıqda (Maku xanlarının sarayında) görüşüb, söhbətlərini qələmə alıb) [12].

Amma onu da deyək ki, Naxçıvanın çətin günlərində Maku sərdarı Naxçıvana lazım olan köməyi etməyib, daha doğrusu Cəfərqulu xana silah məsələsində köməkliyi olmayıb. Naxçıvanda sovet hökuməti qurulan kimi daşnaklar bolşevik adı altında hünərli insanlara amansız divan tutmağa başladılar. O cümlədən hərbçi xan Kəngərlilərə də.

Naxçıvan İnqilab Komitəsi 28 avqust 1920-ci il tarixli iclasında gündəliyə əsas bir məsələni daxil etmişdi. "İnqilab Komitəsinin 28 avqust 1920-ci il tarixli olmuş iclasının 1№-li qərarına əsasən Naxçıvan şəhərinin vətəndaşları Rəhim xan, onun oğlu İskəndər xan, Cəfərqulu xan Naxçıvanskilər və İbrahim paşa Kəngərlinski Naxçıvan şəhərindən Bakı şəhərinə Naxçıvan ölkəsinin zərərli elementləri kim göndərilsin"

Naxçıvan Ölkə İnqilab Komitəsi
İclasın sədri: Fyodorov
Katib: Sulixanov [10, v.4]

Avqustun 29-30-da belə amansızlığı görən Cəfərqulu xan və Rəhim xan Naxçıvan İnqilab Komitəsinə məktubla müraciət etmişlər.

Cəfərqulu xan 30 avqust 1920-ci ildə Naxçıvan İnqilab Komitəsinə məktub yazıb: "Naxçıvan İnqilab Komitəsinə. Naxçıvan İnqilab Komitəsi özünün 28 avqust 1920-ci il tarixli iclasında məni bolşeviklərə qarşı əks-fəaliyyət göstərməkdə, ermənipərəstlikdə günahlandırır. Bunun müqabilində bildirirəm ki, bolşeviklərin əleyhinə işləmə imkanım faktiki olmayıb. Belə ki, biz dünyadan təcrid olunmuşduq və ermənilərlə müharibə aparmaqla məşğul idik. Mənim ermənipərəst olmağıma gəldik-

də isə bunun heç bir əsası yoxdur. Belə ki, ermənilər Naxçıvanda olan vaxt mənim evimi və əşyalarımı dağıtmış və talan etmişlər. Mənim oğlum Kalbalı xan komandan kimi erməni ordusuna böyük zərbələr vurub. Ermənilər bu iki il ərzində (1918-1920) Naxçıvanı mənim oğluma görə tuta bilməyiblər. Mənim toxunulmaz əmlakıma gəldikdə isə o, elə də böyük deyil və aşağıdakılardan ibarətdir: şəhərdə bir bağ əkin sahəsi (16 desyatin) olan torpaq, karvansara, hərbi xəstəxana (lazaret) üçün ayrılmış ev, Təzəkənddə əkin sahəsi (20 desyatin). Bundan başqa heç bir torpağım yoxdur. Əgər mümkünsə xahiş edirəm məni əmlakımdan azad edəsiniz. Mən heç bir dövlət cinayəti etməmişəm. Sovet hökuməti əleyhinə olmamışam. Əksinə Milli Komitənin sədri olanda bütün qüvvəmlə Qızıl Ordunun Naxçıvana gəlməsinə çalışmışam. İnqilab Komitəsi, mənimkilər günahsız olsa da, onları axırıncı azuqədən məhrum edir. Xahiş edirəm məni sonrakı qəbul ediləcək qərarlardan xəbərdar edəsiniz" [10, v.5].

Cəfərqulu xanın bu məktubu da ürəyi daşlaşmış Revkomu və ətrafındakı sapı özümüzdən baltaları fikrindən döndərə bilmir. Nəhayət sentyabrın 10-da Cəfərqulu xan sonuncu ərizəsini yazır: "Bildirmək istəyirəm ki, bizdən birimiz Rəhim xan yaşı ötmüş olmaqla bərabər, qrija (dəbbəlik) və hemoreyya (babasil) xəstəliyindən əziyyət çəkir və yaşı 60-ı ötüb. Bundan başqa at üstündə getmək imkanımız yoxdur. Ona görə bizim getməyimizə araba təyin edəsiniz.

Cəfərqulu xan Naxçıvanski (imza)
10 sentyabr 1920-ci il" [10, v.7].

Bu ərizədə Cəfərqulu xan Rəhim xanı böyük qardaşı kimi təqdim edib. Aparılan araşdırmalar göstərir ki, Naxçıvanski qardaşlarının heç bir təklifi qəbul edilməyib [10]. Bu hərbçi qardaşların həyatlarında ən kədərli anlar çox sevdikləri Naxçıvandan əsir kimi aparılmaları idi. Tarixin yaddaşı çox sədaqətlidir. Son illərə qədər 1920-ci il sentyabrın əvvəllərində Naxçıvandan Şuşaya aparılan əsir Naxçıvanskilər çoxlarının yaddaşında idi.

Sovet əsgərlərinin silahlı dəstəsi ilə əhatə olunmuş Rəhim xan və Cəfərqulu xan Naxçıvanskiləri, bir də onların vəkil (sultan) qolundan olan qohumları İbrahim paşa Kəngərlini (Əsəd ağa Kəngərlinin oğlu) əsir aparırlar.Rəhim xanın oğlu İskəndər xan Iranda olduğundan onu sürgün edə bilməmişdilər. Bəlkə də bu sürgün, Cəfərqulu xanın həyatının ən böyük faciəsiydi. Hər iki qardaşa əcdadlarının müqəddəs vətəni olan Kəngərli yurdunda- Naxçıvanda yaşamaq qadağan edilmişdi.

Bəzi kitablarda guya onların Şuşada öldüklərini yazırlar. Bu məlumat tamamilə yalandır. Çünki bu sətirlərin müəllifi Gürcüstan Milli Təhlükəsizlik Nazirliyinin arxivində araşdırmalar apararkən, məxfi sənədlərin birində Cəfərqulu xan Naxçıvanskinin İranın Maku şəhərində yaşaması qeyd olunmuşdu. Sənəd 1930-cu ilə aiddir [15].

İkinci mənbə isə mərhum yazıçımız Əli Səbrinin xatirələrindəki məlumatdır. Elə o məlumatdan aydın olur ki, Cəfərqulu və Rəhim xan İrana öz ailələrinin yanına gedə bilib. Əli Səbri yazır: "Cəfərqulu xan bu məsələdən ötrü yanıma gəldi. O, bilmirdi ki, mən Əliheydər Qarayevlə dostam. Hələ inqilabdan əvvəl biz rus-tatar (Azərbaycan) məktəbində dərs demişdik.

Cəfərqulu xanı Əliheydər Qarayevlə öz evimdə görüşdürdüm. Cəfərqulu xana dedim ki, bax bu adam Əliheydər Qarayevdir. Və mən sənin xahişini ona yetirmişəm. Cəfərqulu xan Əliheydər Qarayev adını eşitdikdə həyəcanlandı, kibrit qutusu əlindən düşdü. Əliheydər isə güldü:

- Əmi, qorxma Mənim sənin haqqında az-çox məlumatım var. Sənin xalqa heç bir zülmün keçməyib, qoca kişisən kömək edərik, arvad uşağınla görüşərsən. Üç gündən sonra Cəfərqulu xanla qardaşı Rəhim xan İrana yola düşdülər". Bu görüş 1922-ci ildə olub və Cəfərqulu xan və Rəhim xan Bakıdan Ənzəliyə gəmi ilə yola düşüblər [6, s.135-136].

Ürəklərində Vətən həsrəti olan bu insanların qürbət ömürləri harada yaşanıb? Naxçıvanın ən çətin günlərində onu tərk etməyən Kəngərli xan Naxçıvanskilərin ömür faciələri hər birimizin qəlbini ağrıdır. Təskinliyi onda tapırıq ki, Naxçıvanda hamının çox sevdiyi sərkərdələr - Cəfərqulu xanın oğlanları sınmadan, əyilmədən, dillərində "Azərbaycan", "Naxçıvan" sözləriylə ölümün gözlərinə dik baxıblar. Son anlarında "Təki Naxçıvan əzəmətlə dayansın" -deyiblər.

Görkəmli sərkərdə Cəfərqulu xan Naxçıvanskinin 5 oğlundan sağ qalanı Davud xan olub. Araşdırma məlumatına görə o, İran ordusunun sərhəngi (polkovniki) olub və Təbrizdə yaşayıb. Təxminən 1972-ci ildə vəfat edib [12].

Digər oğlanlarından Teymur xanı hələ 1916-cı ildə müəmmalı şəkildə İrəvanda öldürüblər. 3 oktyabr 1916-cı ildə kornet Cəmşid xan Naxçıvanski İrəvan qubernatoruna ərizə yazıb:Əlahəzrət cənab İrəvan qubernatoruna tatar süvari polkunun korneti Cəmşid xan Naxçıvanskidən Ərizə "İrəvan quberniyasında kişi gimnaziyasında təhsil alan qardaşım Teymur xan Naxçıvanski özünü güllə ilə vurub. Mərhum qardaşımın cənazəsini Naxçıvana aparmaq üçün mənə icazə verəsiniz. Kornet Xan Naxçıvanski. 3 oktyabr 1916-cı il". İrəvan qubernatorunun verdiyi icazə məktubu və Şəhadətnaməsi işə əlavə olunub [11]. III Kalbalı xanı 1931-ci ildə Makuda döyüş zamanı arxadan güllə ilə vurublar [2, s.3]. III Ehsan xanı Gəncə üsyanında (1920-ci ildə) bolşeviklər güllələyiblər [13, s.268-269], Cəmşid Naxçıvanskini isə sovet hökuməti 1938-ci ildə Moskvada güllələyib [21, s.773].

Yazını sona çatdırarkən 1913-cü ildə nəşr olunmuş, Qafqaz Hərbi Tarix Muzeyinin bələdçi kitabındakı cümlələri xatırlayıram: "Kəngərli süvariləri bütün Şərqdə cəsurluğu ilə şöhrət qazanmışdı. Onlar döyüşə girərkən ölümə ikrah əlaməti olaraq atlarının boynuna qırmızı kaporlar geyindirirlər ki, düşmən tərəfindən tez gözə çarpsınlar. Bu, həm də düşməni vahiməyə salmaq üçün fənd idi [13, s.9].

Nəticə. XIX əsrin sonlarında və XX əsrin əvvəllərində Azərbaycanın və Rusiyanın hərb tarixində cəsur süvari döyüşçülərdən biri də görkəmli hərbçi, ictimai və siyasi xadim Cəfərqulu xan Naxçıvanski-Kəngərlidir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Naxcıvan bölgəsinin ictimai-siyasi həyatında və bölgənin ictimai-siyasi həyatında və bölgənin qarşılaşdığı problemlərin həllində mühüm rol oynamışdır. Cümhuriyyətin yaranması ərəfəsində və onun fəaliyyətinin ilk çağlarında Naxçıvan Milli Komitəsinin sədri kimi bölgənin erməni təcavüzündən müdafiəsində, əhalinin daşnakların törətdikləh qırğınlardan xilas edilməsində fəal iştirak etmiıdir. Araz-Türk Cumhuriyyətinin süqutundan sonra oğlu Kalbalı xan və qaynı Kərim xan İrəvanski ilə birlikdə mahalda yeni bir qurum - Müvəqqəti hökumət yaratmış və onun sədri olmuşdur. Cəfərqulu xan və onun hərbçi varisləri həmişə xatırlanmağa tam layiqdirlər və buna mənəvi haqları var.

ƏDƏBİYYAT

1. Cəfərov F. Cəfərqulu xan Naxçıvanski ömrü / "Şərq qapısı" qəzeti, 5, 8 oktyabr 2004-cü il.
2. "Bildiriş" qəzeti. İstanbul, 55, 20 avqust 1931.
3. Əliyev Mirzə Bağır. Qanlı günlərimiz. Bakı, 1993, 142 s.
4. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının yaranması və inkişaf tarixi. Bakı, 2024, 488 s.
5. Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən. Bakı, 1994, 124 s.
6. Qasımov Əli Səbri. Ömürdən yarpaq düşür. Bakı, 1983, 168 s.
7. NMRDA (Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi). F.23, siy.1, iş №2015.
8. NMRDA. F.63, siy.1, iş№ 5/9, 5v.
9. NMRDA. F.63, siy.1, iş№1.
10. NMRDA. F.63, siy.2, iş№9, 21v.
11. NMRDA. F.23, siy.1, iş№3570/4223, 2v.
12. Naxçıvanskilər qürbətdə."Şərq qapısı" qəzeti,31 yanvar 2009-cu il.
13. Nəzirli Ş. Arxivlərin sirri açılır. Bakı, 1999, 414 s.
14. Şərif Əziz. Keçmiş günlərdən. Bakı, 1983, 614 s.
15. Архив Госбезопасности Грузии. Фонд 6.
16. Газета «Русский инвалид», 18 июня, 1877 года, №134.
17. Газета «Русский инвалид», 20 апреля, 1878года, №88.
18. Газета «Русский инвалид», 25 марта, 1881 года, №66.
19. Газета «Русский инвалид» 24 декабря, 1885 года, №280.
20. а) Иванов Р.Н. Генерал–Адъютант Его Величества. Москва, 2006, 368 с.
б) Иванов Р.Н. Оборона Баязета: ложь и правда. Москва, 2005.
21. Иванов Р.Н. Именем Союза Советских… Москва, 2007, 832 с.
22. Нагдалиев Ф.Ф. Ханы Нахичеванские в Российской империи. Москва, 2006, 432с.
23. НАГ (Национальный Архив Грузии). Ф. 16, опись 1, дело № 7118.
24. РГИА (Российский Государственный Исторический Архив). Ф. 396, опись1, дело №979.

25. РГВИА (Российский Государственный Военно-Исторический Архив). Ф.400, опись 17, дело №1131, документ 5.

МУСА РАГИМОГЛУ-КУЛИЕВ
Ведущий научный сотрудник Института истории, этнографии и археологии Нахчыванского филиала НАНА, доктор философии по истории

ИЗВЕСТНЫЙ ВОЕННЫЙ, ОБЩЕСТВЕННЫЙ И ПОЛИТИЧЕСКИЙ ДЕЯТЕЛЬ ДЖАФАРКУЛИ ХАН НАХЧЫВАНСКИЙ -КЕНГЕРЛИ

В статье рассказывается о жизни и деятельности известного военного, общественного и политического деятеля Джафаркули хана Нахчыванского-Кенгерли. Также в статье говорится о учёбе Джафаркули хана Нахчаванского в Пажеском корпусе Санкт-Петербурге и о службе в Кавказской военной армии. После 1885-го года он уволняется с армии и возвращается в Нахчыван. Работает старостом города Нахчыван и занимается благотворительной и просветительской деятельностью.1918-1920-ых годах руководил защитой Нахчывана от армянских дашнаков. Статья написана на основе новых архивных документов и напечатанных книг.

Ключевые слова: Нахчыван, Санкт-Петербург, Пажеский корпус, Тверский полк, Эрзурум, Ахалтекинская экспедиция, староста города Нахчыван.

MUSA RAHIMOGLU GULIYEV
Leading researcher at the Institute of History, Ethnography and Archaeology, Nakhchivan Branch of ANAS, Doctor of Philosophy in History

THE PROMINENT OFFICER, SOCIAL AND POLITICAL FIGURE JAFARGULU KHAN NAKHCHIVANSKI-KANGARLI

The article speaks about the eminent officer, statesman Jafargulu khan Kalbali khan oglu Nakhchivanski's life and activity. It also deals with his getting education in the Page Corps in Saint-Petersburg and serving in Caucasus Army. He retired from the army after 1885 and returned to Nakhchivan. He was appointed mayor of Nakhchivan, acted as an enlightener and did charity. He led the protection of Nakhchivan from Armenian dashnaks in 1918-1920 as well.

Keywords: Nakhchivan, Saint-Petersburg, the Page corps, Tver regiment, Erzurum, Akhaltepe expedition, mayor of Nakhchivan city.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçi: Akademik İsmayıl Hacıyev.

UOT 94(479.24)

NURU MƏMMƏDOV
Bakı Dövlət Universitetinin
Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professoru,
tarix elmləri doktoru

FƏXRƏDDİN USENOV
Gəncə Dövlət Universitetinin dosenti
TarixVeOnunProblemleri@gmail.com

Faşizm üzərində qələbənin 80 illiyi qarşısında

AZƏRBAYCAN XALQI İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

DOI: https://doi.org/10.36719/2708-065X/108/29-36

Məqalədə bəşəriyyətin faşizm təhlükəsindən xilas edilməsində Azərbaycan xalqının böyük rolu və xidmətləri konkret faktlarla və rəsmi sənədlərlə sübut edilir. Qeyd edilir ki, müharibə illərində Sovet ordusunu silahla, döyüş sursatı ilə, yanacaqla və ərzaqla təminatında ən güclü cəbbəxanalardan biri Azərbaycan və neft Bakısı idi. Bakı "motorlar müharibəsini" aparan hərbi texnikanı yanacaqla təmin edən güclü və etibarlı baza, 130 növ silah istehsal edən potensial cəbbəxana, yaralı əsgərləri müalicə edən hərbi hospital şəhərciyi idi. Azərbaycanın kənd əməkçiləri də müharibənin ağırlığını çəkirdilər. Qəhrəman və mərd Azərbaycan xalqı bütün varlığı ilə müharibədə iştirak edirdi. Görkəmli partiya və dövlət xadimləri, o cümlədən ümummilli lider Heydər Əliyev, prezident İlham Əliyev, prezident V.Putin və sovet generalları faşizm üzərində Böyük tarixi Qələbənin qazanılmasında Azərbaycan xalqının qəhrəmanlığını qeyd etmişlər.

Açar sözlər: Azərbaycan xalq, Bakı, sovet ordusu, faşist ordusu, neft, azərbaycanlı döyüşçülər, milli diviziyalar, qəhrəman, tarixi Qələbə.

Giriş. 1941-ci il iyunun 22-də gecə saat 4 radələrində faşist Almaniyası hücum etməmək haqqında 1939-cu il müqaviləsini kobudcasına pozaraq, böyük zərbə qüvvəsi ilə –190 diviziya, 5,5 milyon canlı qüvvə, 4300 tank, 4980 döyüş təyyarəsi, 190 döyüş gəmisi, 47,2 min müxtəlif silah və minomyot ilə Sovet İttifaqına xaincəsinə basqın etdi. Güclü döyüş texnikasına və müasir hərbi təcrübəyə malik olan alman-faşist orduları, «Barbarossa planı» əsasında ildırım sürətilə SSRİ-yə 3 istiqamətdə – «Şimal», «Mərkəz» və «Cənub» istiqamətlərdə hücuma keçdi, çox qısa zamanda Pribaltikanın, Ukrayna və Belarusiya SSR-nin xeyli hissəsini, Krımı ələ keçirdi, Moskva istiqamətində irəliləməyə başladı. Düşmən Barents dənizindən Qara dənizədək 5 min kilometrlik cəbhə boyu irəliləyirdi. Beləliklə, Böyük Vətən Müharibəsi başlandı və sovet xalqı **1418** gün ağır sınaqlara, dözülməz məşəqqətlərə, qəhrəmancasına sinə gərdi, ağrılı-acılı günlərə dözdü, bütün qüvvələrini və ehtiyat imkanlarını maksimum səfərbərliyə aldı, nəhəng qüvvəyə malik olan düşmənlə ölüm-dirim savaşına qatıldı.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin dediyi kimi, "...İkinci Dünya müharibəsi alman faşizminin, Hitler ordusunun dünyaya hakim olmaq iddiası ilə başlandı... Dünya "olum ya ölüm" dilemması qarşısında qaldı."(1).

Müharibənin başlanması ilə Sovet dövlətinin və sovet xalqlarının ağır sınaq dövrü başlandı. Sovet xalqlarının vahid ailəsinə qatılan və SSRİ-nin subyektlərindən biri olan Azərbaycan xalqı müharibənin ilk günlərindən müsəlləh əsgər kimi ayağa qalxdı, möhkəm dayandı və düşmənlə ölüm-dirim savaşına girdi. Bəri başdan deyək ki, alman-faşist ordularının darmadağın edilməsində, bəşəriyyətin faşizm taunundan xilas edilməsində və Böyük tarixi qələbənin qazanılmasında Azərbaycan xalqının çox böyük rolu və xidmətləri olmuşdur. Təsadüfi deyildi ki, Hitler Almaniyasının işğal planlarında Azərbaycan, Neft Bakısı xüsusi yer tuturdu. Hitlerin «Ost» planında Bakının işğal edilməsi diqqət mərkəzində dayanırdı. Qafqazı ələ keçirmək məqsədilə alman-faşist ordusunun qərargahı «Edelveys» adlı xüsusi plan hazırlamışdı Bu plana görə düşmən üç istiqamətdə hücum edib Qərb istiqamətində Qara dəniz sahillərinə çıxmaq və oradan Zaqafqaziyaya hücum etmək, Şərq istiqamətində Qroznı, Ma-

haçqala və Bakını zəbt etmək, mərkəz istiqamətində Böyük Qafqaz aşırımını keçərək Tbilisi və Kutaisini ələ keçirmək istəyirdi. Hitler «mənim mübarizəm» kitabında yazırdı ki, onlar (yəni türkdilli xalqlar) ali irqin qullarına çevrilməlidirlər.

Ümumiyyətlə, faşist Almaniyasının Şərq siyasəti «Ost» planında öz əksini tapmışdı. «Ost» adlı işğal planının müəllifi Rozenberqin başçılığı ilə yaradılan Şərq işləri üzrə nazirliyin nəzdində olan komissarlıqlardan biri də «Qafqaz» Komissarlığı idi. Hələ 1941-ci il aprelin 29-da yaradılmış Oldeburq iqtisadi qərargahı tərəfindən tərtib edilmiş planda Qafqazın, o cümlədən Azərbaycanın və Bakının işğalı nəzərdə tutulmuşdu. «Edesveys» planına görə Qafqazın işğalı feldmarşal Listin «A» qrupu ordusuna tapşırılmışdı (23, s.115). Həmin plana görə Qafqaz 5 işğal rayonuna bölünməli idi. Onlardan biri də Azərbaycan rayonu idi.

Hitlerin əvvəlki "Barbarossa" planında cəmi 3 ay müddətində SSRİ işğal edilməli, sentyabrın 25-də isə neft Bakısı ətraf bölgələrlə birlikdə ələ keçirilməli idi. Lakin Moskva yaxınlığında məğlub olan Hitler əsas diqqəti cənuba - Stalinqrada yönəltdi. Stalinqradın işğal planı isə Qafqazdan keçirdi. Hitler komandanlığı 1942-ci il iyulun 23-də 45 nömrəli əmr imzaladı. Bu əmrə görə Hitler orduları Zaqafqaziyanı ələ keçirməli, neft Bakısı işğal etməli idi (21, s.13).

Qafqaz uğrunda döyüşlərdə «Ost» planında Bakının işğalı 1942-ci il sentyabrın 25-nə təyin edilmişdi. Faşist işğalından sonra Bakı nefti alman neft şirkətinin («Ost-oyl», «Kontinent-oyl» və b.) sərəncamına verilməli idi. Bakıda neftin çıxarılması, emalı və daşınması Almaniyanın «Kontinental» neft cəmiyyətinə tapşırılmışdı. Hitler 1941-ci il iyulun 16-da rəsmi yığıncaqda bildirmişdir ki, Bakı alındıqdan sonra hərbi məntəqəyə çevrilməlidir (17, s.22). Faşist Almaniyasının işğal planları geniş idi. Hitlerin işğal planına görə SSRİ üzərində tam qələbədən sonra türk xalqları yaşayan ərazilərdən ibarət «Böyük Türküstan» dövləti yaradılmalı idi. Bu dövlətin ərazisinə Şimali və Cənubi Azərbaycan, Başqırdıstan, Tatarıstan, Krım, Şimali Qafqaz, Qərbi Çin və Əfqanıstanın daxil olması nəzərdə tutulurdu. Hitler Bakını faşist Almaniyasını yanacaqla təmin edən mərkəzə çevirmək niyyətində idi.

Müharibənin ilk günündən Azərbaycan xalqı «Hər şey cəbhə üçün, hər şey qələbə üçün!» şüarı ilə alman faşizminə qarşı mübarizəyə qalxdı. İyunun 22-də Bakıda izdihamlı mitinq keçirildi. Hamı bir nəfər kimi cəbhəyə getmək barədə öhdəliklər götürdü. Respublikanın bütün rayonlarında hərbi komissarlıqlara gedib könüllü cəbhəyə göndərilmələrini xahiş edən on minlərlə gənc növbələrə dayanırdılar. Müharibənin birinci üç günündə Azərbaycandan 18 min nəfər könüllü Qızıl Ordu sıralarına yola düşdü. İlk günlərdə Azərbaycanın 40 mindən çox gənc oğlan və qızı cəbhəyə getmək üçün hərbi komissarlıqlara ərizə verdi. Qısa müddətdə 186.704 nəfər xalq qoşunu dəstələrinə yazıldı (7, s.286). Bakı şəhərində xalq qoşunu dəstələrinə 61.780 nəfər yazılmış və 20 rota təşkil olunmuşdu. Bakı ətrafında yarıdılmış müdafiə zonası xalq qoşunu dəstəsində 12 min döyüşçü fəal iştirak edirdi. 1941-ci ilin avqustunda Bakıda üç – 101, 102 və 103-cü xalq qoşunu diviziyaları yaradıldı. Bu diviziyalarda 21.259 nəfər döyüşçü vardı. DMK-nın qərarına uyğun olaraq 16-50 yaşlarında olan kişilərə ümumi hərbi təlim keçirilirdi. 1941-ci ilin oktyabrından 1942-ci ilin dekabrınadək respublikada 172.209 nəfər hərbi təlim keçmiş, 29.925 atıcı, 1255 snayper, 363 minamyotçu, 747 pulemyotçu və b. hazırlanmışdı. Azərbaycanda 1941-1945-ci illərdə ümumi icbari hərbi təlim xətti ilə 6500 nəfərdən çox tibbi bacısı (8, s.14), 51.254 nəfər döyüşçü hazırlanmışdı. Yaradılan qırıcı batalyonlarda işləmək üçün 12 min nəfər səfərbər edilmişdi (16, s.22). 1941-ci ilin iyul-oktyabr aylarında respublikada 30.480 nəfər səfərbər olundu. 1943-cü ilin yanvarın 1-nə qədər respublikada 464 min nəfər orduya çağırılmışdı. Respublikada 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi, 15 min nəfərlik HHM (hava hücumundan müdafiə) dəstələri yaradıldı (7, s.286).

Azərbaycanın bütün iqtisadi və mədəni resursları müharibənin tələblərinə uyğunlaşdırıldı. Bakıda, Gəncədə, Naxçıvanda və b. bölgələrdə hərbi tələbata cavab verən yeni-yeni müəssisə və zavodlar yaradıldı. Təkcə Gəncə şəhərində 12 sənaye müəssisəsi yenidən quruldu və 26 adda hərbi məhsul istehsal edildi (8, 19).

Müharibə illərində Sovet Ordusunun silahla, döyüş sursatı ilə, ərzaqla, yanacaqla təchizatının ən güclü cəbbəxanalarından biri Sovet Azərbaycanı, neft Bakısı idi. Bakı sözün əsil mənasında Sovet Silahlı Qüvvələrinin və döyüşən cəbhənin cəbbəxanası idi. O qanlı-qadalı illərdə neft sənayesinin rolu xüsusilə artmışdı. Bakı şəhərində hərbi sənaye potensialı, neft sənayesinin müxtəlif sahələri, tibbi xidmət sahəsi güclü inkişaf etmişdi. Müharibə başlanan kimi Bakının bir çox sənaye müəssisələri funk-

siyalarını dəyişdirib fasiləsiz olaraq hərbi məhsul istehsal etməyə başladılar. Bakı döyüşən ordunun əsil cəbbəxanası, «motorlar müharibəsi»ni aparan hərbi texnikanı yanacaqla təmin edən güclü və etibarlı baza, 130 növ silah istehsal edən potensial cəbbəxana idi. Bütün bunları Hitler bilirdi və ona görə də Bakının işğalına xüsusi diqqət verirdi. «...Hitlerin ad gününə hazırlanmış böyük tortun üzərində Azərbaycanın xəritəsi, Bakı göstərilmişdi. Həmin o vaxt deyilmişdi ki, Bakını ələ keçirə bilsək, qələbəni əldə etmiş olacağıq» (1). Bakıda fəaliyyət göstərən xalq təsərrüfatı əhəmiyyətli zavodlar cəbhə və döyüşən ordu üçün silah və hərbi sursat istehsal edirdilər. 1941-ci ilin dekabrında noyabrla müqayisədə 50 mm minomyot istehsalı 6 dəfə, əl qumbarası 5 dəfə, PPŞ avtomat silahı 20 dəfə artdı. Kütləvi döyüş sursatı hesab olunan mina, aviasiya bombası, əl qumbarası istehsalına başlanıldı. 1941-ci ilin dekabrından «Yak-3» qırıcı bombardmançı təyyarələrin istehsalına başlandı (21, s.74). 1942-ci ilin əvvəlindən başlayaraq cəbhənin sifarişlərini yerinə yetirən təyyarə təmiri zavodu tikildi. «Motorlar müharibəsi» deyilən müharibənin lap əvvəlindən Bakı ölkənin başlıca yanacaq bazasına çevrilib, döyüşən ordunu fasiləsiz olaraq yanacaqla, neft və benzinlə, mazut, vazelin və digər sürtgü yağları ilə təmin edirdi. Neft məhsullarına və birinci növbədə motor yanacağına, sürtgü yağlarına və yüksək oktanlı benzinə cəbhənin tələbatını ödəmək məqsədilə qısa müddətdə geniş benzin – liqroin fraksiyasını təkrar emal edən bir sıra qurğular istifadəyə verildi. Aviasiya yağlarının alınmasının yeni texnologiyası işlənib hazırlandı, xüsusi təyinatlı sürtgü yağlarının istehsalı artdı, keyfiyyəti yaxşılaşdı.

Neft sənayesinin maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə DMK-nın qərarı ilə ölkənin Cənub və qərb rayonlarından Bakıya 20 iri müəssisə qurğuları, o cümlədən 250 dəzgah, 12 vaqon maye tökən cihaz, 53 metalkəsən dəzgah və digər alətlər gətirildi (8, s.18). 1942-ci ilin əvvəlindən başlayaraq «Qırmızı proletariat», «Djerzinski» adına zavod, «Şmidt» adına maşınqayırma zavodunda poladəritmə sexi işə düşdü. Beləliklə, Bakı cəbhənin hərbi sifarişlərini yerinə yetirməyə başladı və qısa müddətdə güclü strateji bazaya çevrildi.

Bakıda aviabombaların istehsalına başlayan gəmi təmiri zavodunun, avtomobil təmiri zavodunun və başqa zavodların kollektivi 18-20 saat işləyir, müxtəlif cür silahlar istehsal edirdilər. Şmidt adına zavodda düşməni vahiməyə salan «katyuşa» raketləri hissələri istehsal olunurdu.

Bakı neftçiləri böyük əzmkarlıq və əmək xarüqələri göstərirdilər. «Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz fədakarlıqla çalışır, cəbhəni və iqtisadiyyatın bütün sahələrini yanacaqla təmin edirdilər... 1941-ci ildə neftçilərimizin gərgin səyləri nəticəsində Azərbaycanın tarixində rekord həcmdə - ***23,5 milyon*** ton neft hasil olundu ki, bu da ittifaqda çıxarılan ***neftin 71,4 faizini təşkil edirdi»*** (2, s.16). Bakı nefti Qızıl Ordunun ən etibarlı dayağı idi. Ölkədə istehsal ***edilən neftin 70-75%-ni, aviasiya benzini istehsalının 85-90%-ni*** Bakı verirdi. Ümumiyyətlə, müharibə illərində Bakı neftçiləri ***75 milyon ton neft, 22 milyon ton benzin, 22 milyon ton sürtgü yağları, 6,5 milyard kubmetr qaz*** istehsal etmişlər (21, s.74).

Xalqımızın ümummilli lideri ***Heydər Əliyevin*** dediyi kimi, müharibə illərində hər 5 təyyarə, tank və avtomaşından dördü Bakı nefti ilə işləyirdi.(2,s.16). Tanınmış dövlət xadimi N.Voznesenski yazırdı: «Bakı cəbhəni və ölkənin xalq təsərrüfatını neft məhsulları ilə fasiləsiz təmin edir, havada və yerdə yüz minlərlə motoru hərəkətə gətirirdi.» Görkəmli Sovet sərkərdələri və marşalları G.G.Jukov, R.Y. Malinovski, F.İ.Tobuxin və b. Bakının Böyük Vətən müharibəsində mühüm rolunu dönə-dönə qeyd etmişlər. ***Marşal G.G.Jukov yazırdı: «Bakı neftçiləri cəbhəyə və ölkəyə vətənimizin müdafiəsi üçün, düşmən üzərində tezliklə qələbə üçün nə qədər lazım idi, o qədər yanacaq vermişdilər***» (8, s.22).

Bakı neftçilərinin qəhrəman əməyinə yüksək qiymət verən cənab Prezident İlham Əliyev demişdir: "Azərbaycan bütün ölkəni yanacaqla təmin edib. bakının zavodlarında gecə-gündüz istehsal edilən "katyuşa" raketləri və digər silahlar düşməni dəhşətə salmışdı..."(5).

Bakı neftçilərinin qəhrəman əməyinə sovet marşalları yüksək qiymət vermişlər. ***Marşal Jukov*** demişdir: " "Böyük Vətən müharibəsi cəbhələrində istifadə olunan benzinin 70 faizdən çoxunu Bakı neftçiləri verirdi. Hər 3 sovet tankından ikisi Bakı nefti ilə işləyirdi"(20, s.23). Marşal Rokosovski demişdir: "Hər bir hərbi təyyarəmizin, tank ekipajının düşmənə zərbəsində Bakı neftçilərinin payı vardır". ***Marşal Qreçko*** demişdir: "Azərbaycandan cəbhəyə tükənməz axınla yüksək keyfiyyətli benzin, silah, döyüş sursatı və ərzaqla dolu yük qatarları gəlirdi" (15, s.15,215).

Marşal Tolbuxin demişdir: "Sovet Qızıl Ordusu Azərbaycan xalqına. cəsur Bakı neftçilərinə zəfərlər üçün, keyfiyyətli yanacağın vaxtında çatdırılmasına görə borcludur. Azərbaycan xalqına eşq olsun" (18, s.51).

Müharibə illərində akad. ***Yusif Məmmədəliyevə*** məxfi tapşırıqlar verilmiş, heç kəsin bilmədiyi nömrəli kimyəvi raketlərin hazırlanması və gizli silahlar yaradılması tapşırılmışdı, 1941-ci ilin axırlarında Y.Məmmədəliyevin sədrliyi ilə xüsusi texnoloji komissiya yaradılmışdı. Y.Məmmədəliyev müdafiə sənayesi üçün reaktiv qurğuları gücləndirən xüsusi kimyəvi sintez hazırladı və SSRİ-də ilk dəfə idi ki, yaradıldı. Bu böyük kəşfi ABŞ alimləri yüksək qiymətləndirdi. Y.Məmmədəliyevin rəhbərliyi ilə yüksək 100 faizli aviasiya benzini yaradıldı, yeni-yeni yandırıcı silah növləri yaradıldı. Bu böyük alimə Dövlət mükafatı verildi (25, s.320).

Müharibə Azərbaycan kəndindən də yan ötmədi. Azərbaycanın kənd əməkçiləri üzərində ağır yük qoyuldu. Qəhrəman və mərd Azərbaycan xalqı bütün varlığı ilə müharibədə iştirak edirdi. 1941-1943-cü illərdə Azərbaycan xalqı ölkənin müdafiə fonduna 15,5 kq qızıl, 952,5 kq gümüş, 311 milyon manatlıq istiqraz verdi, müharibə dövründə 1,5 milyard manatlıq istiqraz və lotereya aldı, tank və təyyarə dəstələri fonduna 230 milyon manat pul ayırdı. Müharibə illərində Azərbaycan əməkçiləri cəbhəyə 1 milyon 419 min ədəd şinel, 4 milyon 227 min dəst yay geyimi, 3 milyon 97 min alt paltarı, 1 milyon 977 min cüt çəkmə, 1 milyon 417 min patron çantası, 1 milyon 468 min dəst trikotaj məmulatı, 1,6 milyon ədəd müxtəlif əşya 125 min vaqon isti paltar göndərmişdi (8, s.23,40).

Volqaya, Şimali Qafqaza, Ukraynaya və b. yerlərə kömək olaraq 1943-1944-cü illərdə 177 vaqon tikinti materialı, 200 toxumsəpən maşın, 40 avtomobil, 315 traktor, 315 traktorçu, 60 traktor briqadası, 13 mexanik, 12 aqronom göndərmişdi. 1944-cü ildə respublikanın heyvandarları dövlətə plandan əlavə 20 min baş iribuynuzlu qaramal, 150 mindən artıq xırdabuynuzlu heyvan verdilər (8, s.26).

Dünya ağalığı iddiasında olan və ildırım sürətilə hücuma keçən Hitler orduları özlərinin məğlubedilməzliyi haqqında əfsanəni bütün Avropaya yayaraq elə güman edirdilər ki, onlara qarşı müqavimət göstərə biləcək qüvvə yoxdur. Ancaq Hitler və onun generalları yanılmışdı. Faşistlər müharibənin ilk günlərindən sovet xalqlarının vahid ailəsindən çıxan əsgərlərin, ölümü gözünün altına alan və ana Vətən torpağı uğrunda inadkar savaşa qatılan igid bahadırlarımızın sərt müqaviməti ilə qarşılaşdılar. Müharibənin elə ilk dəqiqələrində faşist ordularının basqınına məruz qalmış əfsanəvi Brest qalasının müdafiəsində 40 nəfərdən çox həmyerlimiz iştirak etmişdi.

Müharibənin dördüncü günü, iyunun 25-də Qara Dəniz Donanmasının 63-cü aviasiya briqadasının təyyarəçisi Məzahir Abbasov hitlerçilərin bazasını bombalamaq tapşırığını yerinə yetirərkən düşmən təyyarələrinin hücumuna məruz qalır. Qorxmaz şahin təyyarəsini düz düşmən təyyarəsinin üstünə şığıyır, onlardan birini vurub yerə salır, digər düşmən təyyarəsini isə qaçmağa məcbur edir. Ancaq təyyarəsinin yandığını görən Məzahir onu ustalıqla dənizə endirə bilmiş və bir neçə gün su üzərində qalmışdı. Göstərdiyi igidliyinə görə Qırmızı Bayraq ordeni ilə təltif edilmişdi. Baltik səmasının qorunmasında Rizvan Zeynalov da fərqlənmiş və igidlik göstərmişdi. Məzahir Abbasov və Rizvan Zeynalov Berlinin bombardman edilməsində iştirak etmişlər (14).

Müharibənin ilk günlərində Qərb cəbhəsində gedən döyüşlərdə 11 min həmyerlimiz iştirak etmiş, böyük igidliklər göstərmişlər. Moskva uğrunda qanlı vuruşmalarda Azərbaycan döyüşçüləri fərqlənmişdilər. Tank hissəsinin komandiri, kapitan Həzi Aslanov qeyri-adi sərkərdə bacarığına və göstərdiyi qəhrəmanlığa görə Qırmızı Ulduz ordeni ilə təltif olundu. 1941-cü ilin noyabrında Moskva ətrafında göstərdiyi şücaətə görə Müseyib Allahverdiyev Qırmızı Ulduz ordeninə layiq görülmüşdü. Leytenant M.Paşayevin zenitçiləri Moskva ətrafında 10 düşmən təyyarəsini vurmuşdu. M.Paşayev Qırmızı Ulduz ordeni ilə təltif olunmuşdu. Pulemyotçu İdris Vəliyev Borodino çölündə ağır yaralanmasına baxmayaraq, 75-dən artıq faşisti məhv etmişdi. İ.Vəliyev Qırmızı Bayraq ordeni ilə təltif edilmişdi. Moskva uğrunda gedən döyüşlərdə baş serjant İsrafil Məmmədovun əfsanəvi igidliyi bütün ölkəyə yayıldı. İ.Məmmədovun dəstəsi Novqorod vilayətinin Pustınka kəndi yaxınlığında mövqe tutmuşdu. Güclü top atəşindən sonra minə qədər faşist bu mövqeyə hücum etdi. İ.Məmmədov cəsarətli əmr verdi: düşmən 10-15 metr məsafəyə buraxılsın. 10 saat qanlı vuruşma getdi, sonra əlbəyaxa vuruşma başladı. Döyüşlərdə yüksək iradə və qəhrəmanlıq göstərən İ.Məmmədov özü təkbaşına 70 faşist öldürdü. Göstərdiyi igidliyə görə İsrafil Məmmədova 1941-ci il dekabrın 11-də Sovet İttifaqı Qəhrəmanı adı verildi. İsrafil Məmmədov Sovet İttifaqı Qəhrəmanı adını alan ilk azərbaycanlı idi (16, s.87).

Moskva yaxınlığında darmadağın edilən düşmən bu məğlubiyyətin əvəzini çıxmağa çalışırdı. Stalinqradı ələ keçirmək üçün xüsusi plan hazırladı. Hitler komandanlığı Stalinqrad istiqamətində güclü hərbi texnika və canlı qüvvə cəmlədi. Stalinqrada gedən yol isə Qafqazdan keçirdi. Beləliklə, Qafqaz uğrunda şiddətli döyüşlər başlandı və 15 ay davam etdi. Hitler Qafqazı ələ keçirmək üçün 1942-ci ilin iyulun 23-də 45 saylı əmr verdi. Bu plana görə Hitler orduları Zaqafqaziyanı, Bakını, Qara dəniz donanmasını işğal etməklə Yaxın və Orta Şərqə çıxmalı idi. General-feldmarşal List "A" qrupunun komandanı təyin olundu. Onun sərəncamında 167 min canlı qüvvə 1130 tank, 4500 top və minomyot, 1 min təyyarə var idi. 1942-ci ilin yayında və payızında Zaqafqaziyanın, Bakının üstünü qara buludlar aldı. Qafqaz uğrunda şiddətli döyüşlərdə 223-cü, 402-ci, 416-cı 77-ci milli diviziyalarımız əsil qəhrəmanlıq nümunələri göstərdilər. Azərbaycanlı döyüşçülər Stalinqrad yaxınlığında düşmən ordularının darmadağın edilməsində, Mozdok, Mineralnie Vodı, Pyatiqorsk, Stavropol, Armavir və b. şəhərlərin azad edilməsində igidliklər göstərmişdilər. Qafqaz döyüşləri alman-faşist ordularının və "Edelveys" planının məhvinin başlanğıcı oldu.

Qafqaz uğrunda gedən döyüşlərdə Xanqulu Sadıqov bir döyüşçü ilə 1942-ci ilə avqustun 25-dan 29-dək düşmənin 300 canlı qüvvəsini məhv etmişdi. X.Sadıqov igidliyinə görə Lenin ordeni ilə təltif olundu. 1942-ci ilin oktyabrında Qafur Məmmədov şücaət və igidlik göstərərək 13 faşisti məhv etdi. Qafur Məmmədov alman avtomatçısının rota komandiri Z.Santskini nişan aldığını görərək, sürətlə irəli atıldı və öz həyatı bahasına onu xilas etdi. 1943-cü il martın 31-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Qafur Məmmədova ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi.

«Bir addım da geri çəkilməməli, irəli, yalnız irəli!» deyə döyüşçü yoldaşlarını qələbəyə ruhlandıran və döyüş meydanında igidlik göstərən İdris Süleymanov Mozdok rayonunda qəhrəmanlıq nümunələri göstərmişdir. 13 dekabr 1942-ci il tarixli fərmanla İ.Süleymanov Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Mozdok rayonunda 402-ci atıcı diviziyasının 833 saylı alayının komandiri Akim Abbasovun döyüşçüləri düşmənin 96 tankını, 2 zirehli maşınını və çoxlu faşist məhv etmişdi. Göstərdikləri igidliyə görə alayın 72 döyüşçüsü orden və medallarla, mayor A.Abbasov isə Qırmızı Bayraq ordeni ilə təltif olunmuş, ona podpolkovnik hərbi rütbəsi verilmişdi (16, s.71).

Qafqazın müdafiəsi döyüşlərində leytenant Ziya Bünyadovun bölməsi düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhv etmişdi. Göstərdiyi igidliyə görə Z.Bünyadov Qırmızı Ulduz ordeni ilə təltif olunmuşdu. 1945-ci ilin yanvarında Plitsa çayı üstündəki körpü uğrunda göstərdiyi şücaətə görə Ziya Bünyadova Sovet İttifaqı Qəhrəmanı adı verildi. tibb işçisi Qüdrət İsmayılov igidliyinə görə Qırmızı Ulduz ordeni ilə təltif edilmişdi (8, s.54, 68).

Belarusiyanın azad olunmasında qvardiya general – mayoru, Sovet ittifaqı Qəhrəmanı Həzi Aslanovun komandanlıq etdiyi tank briqadasının döyüşçüləri böyük müvəffəqiyyətlər qazandılar. Həzi Aslanovun tank briqadası və şəxsən özü əsl igidlik və qəhrəmanlıq nümunələri göstərdilər. Onun briqadası Ali Baş Komandanın təşəkkürünə layiq görüldü. Həzi Aslanov ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Lakin ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ona çox gec – 1991-ci il iyunun 21-də verildi. 1945-ci il yanvarın 24-də Həzi Aslanov müəmmalı şəkildə yaralandı və şəhid oldu.

Döyüşlərdə göstərdikləri qəhrəmanlığa görə Qəzənfər Əkbərov, Bəhyəddin Mirzəyev, Yusif Sadıxov və başqaları Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər (8, s.54, 68).

Böyük Vətən Müharibəsi illərində Azərbaycanda yaradılan dörd milli diviziya – 271-ci, 223-cü, 396-cı, 402-ci və 416-cı diviziyalar şərəfli döyüş yolu keçərək Azərbaycan xalqının və Böyük Vətən Müharibəsi tarixinə qızıl hərflərlə daxil oldu. Bu diviziyalardan başqa 77-ci və 271-ci diviziyalar da komplektləşdirildi ki, onların da şəxsi heyətinin 30%-dən 70%-ə qədəri azərbaycanlı idi (16, s.127). Simferopolun azad edilməsində göstərdiyi qəhrəmanlığa görə 77-ci diviziyaya SSRİ Ali Soveti Rəyasət Heyətinin 24 aprel 1944-cü il tarixli Fərmanı ilə «Simferopol diviziyası» fəxri adı verilmiş, onun şərəfinə Sapundağda abidə ucaldılmışdı.

416-cı Suvorov ordenli Taqanroq atıcı diviziyası 1942-ci il noyabrın 30-dan 1945-ci il mayın 2-dək olan dövrdə – 27 ay fasiləsiz vuruşmalarda 2500 km-dən artıq şərəfli döyüş yolu keçmişdir. Diviziyanın 14.369 nəfəri orden və medallarla təltif olunmuşdur. Taqanroq şəhərini azad etdiyinə görə ali Baş Komandanın əmri ilə 416-cı diviziyaya "Taqanroq» fəxri adı verilmişdi. Qafqazdan Berlinədək

şərəfli döyüş yolu keçən 416-cı Taqanroq diviziyası 1945-ci il mayın 2-də Berlinin Brandenburq darvazasına qələbə bayrağı sancmışdı (18, s.69).

Azərbaycan diviziyaları Ukraynanın, Belorusiyanın, Polşanın, Çexoslovakiyanın, Rumıniyanın, Macarıstanın, Yuqoslaviyanın azad edilməsində fəal iştirak etmişlər. Ukrayna ərazilərinin alman – faşist işğalçılarından azad olunmasında fəal iştirak edən 223-cü Azərbaycan diviziyası Bolqarıstanın, Macarıstanın, Rumıniyanın, Yuqoslaviyanın azad edilməsində böyük xidmətlər göstərmişdir. Bu diviziya Yuqoslaviyanın paytaxtı Belqrad uğrunda göstərdiyi rəşadətə görə "Belqrad diviziyası" fəxri adına layiq görülmüşdü. 3-cü Ukrayna cəbhəsinin komandanı, marşal F.İ.Tolbuxin diviziyanın döyüşçülərinin qəhrəmanlığını xüsusi qeyd etmişdir (24, s.127).

271-ci Azərbaycan diviziyası Polşanın və Çexoslovakiyanın faşistlərdən təmizlənməsi uğrunda aparılan döyüşlərdə fərqlənmişlər. 1943-cü ilin sentyabrında "Donetsk" əməliyyatında göstərdiyi rəşadətə görə 271-ci diviziyaya fəxri "Qorlovka" adı verilmişdi. Diviziyanın igid döyüşçülərindən olan Z.Bünyadov, A.Vəzirov, M.Abdullayev və b. Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər.

Azərbaycanın oğul və qızları partizan müharibələrində və antifaşist müqavimət hərəkatlarında da böyük qəhrəmanlıqlar göstərmişlər. Əfsanəvi qəhrəman «Mixaylo» ləqəbli Mehdi Hüseynzadənin İtaliyada və Yuqoslaviyada şərəfli mübarizəsi bütün nəsillərə nümunədir. Bu gün onun məzarı milyon – milyon insanların ziyarətgahına çevrilmişdir. 1957-ci il aprelin 11-də ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Fransa generalı Şarl-De Qollun rəhbərlik etdiyi müqavimət hərəkatı tarixinə şanlı səhifələr yazmış, Xarqo təxəllüsü ilə tanınan Əhmədiyyə Cəbrayılov Fransanın Milli Qəhrəmanı adına, dövlət bayrağından irəli getmək şərəfinə layiq görülmüşdür. Azərbaycan övladları Vətəndən uzaqda olmalarına baxmayaraq, onların faşizmə qarşı nifrəti bir an belə səngiməmiş, bütün vasitələrdən istifadə edərək düşmənlə ölüm-dirim mübarizəsinə qalxmış xalqlara qoşularaq, bir sıra bölgələrdə belə mübariz və döyüşən dəstələrə rəhbərlik etmişlər.

Müharibə illərində Azərbaycanın elm və mədəniyyət xadimləri, maarif, ədəbiyyat və incəsənət nümayəndələri, çoxsaylı Azərbaycan ziyalıları öz fədakar əməyi və zəhməti ilə faşist Almaniyasına qarşı ədalətli mübarizəyə, böyük tarixi qələbəyə həlledici kömək və yardım etmiş, arxa cəbhə ilə ön cəbhənin möhkəm və sarsılmaz birliyinin təmin edilməsinin uğurlu həlli yolunda səylə və yorulmadan çalışmışlar. Müharibənin ilk günlərində SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının bir qrup əməkdaşı xalqa və dövlətə müraciətində yazmışdı: "Bakının bütün əməkçiləri ilə birlikdə biz alimlər də var qüvvəmizi düşməni tamam darmadağın etmək üçün, qəhrəman Qızıl Ordunu, igid tankçıları, sovet şahinlərini neft və benzinlə təmin etmək işinə verəcəyik" (13).

Mayın 2-də Berlin hücumla alındı, Berlin qarnizonu silahı yerə qoydu, təslim oldu. Mayın 8-də Berlində Almaniya Ali Komandanlığının nümayəndələri danışıqsız təslim olmaq haqqında akta imza atdılar. Mayın 9-u tarixə ***Qələbə Günü*** kimi daxil oldu.

1945-ci il iyunun 24-də Moskvada Qızıl Meydanda Azərbaycan döyüşçülərinin nümayəndələrinin də iştirak etdiyi Sovet Ordusunun Qələbə paradı keçirildi.

Sovet qoşunları sürətlə hücuma keçərək Yaponiyanın Kvantun ordusunu darmadağın etdi. Sentyabrın 2-də Yaponiya hökuməti Tokio körfəzində yerləşən ABŞ-ın «Missuri» xətt gəmisində təslim aktına qol çəkdi. Beləliklə, ***2194 gün*** davam edən İkinci Dünya müharibəsi başa çatdı.

Nəticə. İkinci Dünya müharibəsi bəşəriyyəti böyük tələfata, maddi və mənəvi məhrumiyyətlərə və ağır sarsıntılara düçar etdi. Müharibədə iştirak edən ölkələrdən 60 milyona yaxın adam həlak oldu. Onlardan keçmiş SSRİ 29 milyon, Almaniya 13,6 milyon, Polşa 6 milyon, Çin 5 milyon, Yaponiya 2,5 milyon, İndoneziya 2 milyon, Yuqoslaviya 1,7 milyon, Filippin 1 milyon, Fransa 600 min, İngiltərə 375 min, ABŞ 300 min, Avstraliya və Yeni Zelandiya 40 min adam itirmişdir.

Bu tarixi Qələbənin qazanılmasında Azərbaycan xalqının çox böyük xidmətləri və rolu vardır. 1941-1945-ci illərdə cəbhəyə Azərbaycandan 700 min nəfərə yaxın döyüşçü göndərilib. Onlardan 400 minə qədəri qəhrəmanlıqla döyüş cəbhələrində həlak olub (22, s.6-9). Geri qayıdan 300 min nəfərin yarısına qədəri isə şikəst və əlil olmuşdur. Müharibədə göstərdikləri igidliklərinə və şücaətlərinə görə 130 nəfər həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adı almış, 30 nəfər isə Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif olunmuşdur. Döyüşlərdə iştirak edən həmyerlilərimizin 200 min nəfərdən çoxu orden və medallarla təltif edilmişdir. Sovet İttifaqı Qəhrəmanı adına layiq görülənlərdən 43 nəfəri azərbaycanlıdır (4, s.421-422).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «1941-1945-ci illər müharibəsində Qələbənin 65 illik yubileyinə hazırlıq və yubileyin qeyd edilməsi üzrə Milli Proqram»da deyildiyi kimi, Azərbaycan xalqının igid döyüşçüləri və onların şərəfli döyüş yolu həmişə bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır (5). Heydər Əliyevin sözləri ilə desək, müharibə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan qəhrəman xalqdır (2, s.16).

Rusiya Federasiyasının Prezident V.V.Putin demişdir: "Biz Böyük Vətən müharibəsi cəbhələrində fədakarlıqla vuruşaraq ümumi qələbəmizi qazanmış 600 min azərbaycanlının şücaət və qəhrəmanlığını ehtiramla anırıq (19, s.81)".

Faşizm üzərində qələbənin 50-ci ildönümü münasibətilə yubiley mərasimində xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: "...1941-1945-ci illər müharibəsində Hitler faşizmi üzərində qələbənin qazanılmasında Azərbaycan xalqının böyük rolu olmuşdur" (3, s.421). Bu, tarixi həqiqətdir.

ƏDƏBİYYAT

1. Heydər Əliyev. Tariximizin heç bir səhifəsini unutmamalıyıq. Qələbənin 56-cı ildönümü münasibətilə təntənəli mərasimdə nitq: «Respublika» qəzeti, 11 may 2001-ci il, 55s.
2. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında, B., 2001, 575s.
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab. B., Azərnəşr, 1997, 597s.
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. B., 1997
5. İlham Əliyev. "1941-1945-ci illər müharibəsində Qələbənin 65 illik yubileyi üzrə Milli Proqram". B, 2010
6. İlham Əliyev. MDB Dövlət Başçılarının Aşqabad şəhərində keçirilən iclasda nitqi. 11 oktyabr 2019-cu il.
7. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, 2-ci cild, B., 1977
8. Azərbaycan tarixi. 7 cilddə, 7-ci cild, B., 2003.
9. Məmmədov Nuru. Azərbaycan İkinci Dünya müharibəsi dövründə. Bax: 10-cu mənbə
10. Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirə kursu. B., 2010, 544s.
11. "Azərbaycan" qəzeti, 20 fevral 1999-cu il
12. Bağırzadə Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində. B., 1970, 415s.
13. Güclü cəbbəxanalardan biri. "Azərbaycan gəncləri" qəz., 8 may 1990-cı il
14. Hacıyev Hacı. İkinci dünya müharibəsində qələbənin qazanılmasında Azərbaycanın rolu. «Respublika» qəzeti, 15 may 2001-ci il.
15. Hacıyev İ. H. Sərkərdə və döyüşçü ömrü. B., Uni Print, 2015, 228s.
16. Mədətov Q. Azərbaycan Böyük Vətən müharibəsində (1941-1945-ci illər), B., 1965, 504s.
17. Orucov Q. Azərbaycan Qafqaz döyüşlərində. B., 1984, 289s.
18. Siyasi tarix, 2-ci hissə, B., 1998.
19. Алиев Г.М. Азербайджан в годы Великой Отечественной войны. М., 2021, 517s.
20. Азербайджан в годы Великой Отечественной войны. 1941-1945гг. Б., 2015, 328с.
21. Великая Отечественная война. Энциклопедия (1941-1945гг.) М., 1985
22. Годы суровых испытаний. Б., "Vətən" 1995, 190с.
23. Ибрагимбейли Хаджи Мурат. Крах «Эдельвейса» и Ближний Восток. М., 1977,397s.
24. История Азербайджана. Т.3, 2-я часть. Б., 1963
25. Коджаева Т. история формирования и создания Академии Наук Азербайджанской ССР (1920-1945гг.) док. дисс. Б., 2019, 392с.

НУРУ МАМЕДОВ

Профессор кафедры истории Азербайджана (на гуманитарном факультете) Бакинского Государственного Университета, доктор исторических наук

ФАХРЕДДИН УСЕНОВ

Доцент Гянджинского Государственного Университета

АЗЕРБАЙДЖАНСКИЙ НАРОД ВО ВРЕМЯ ВТОРОЙ МИРОВОЙ ВОЙН

В статье конкретными фактами и официальными документами доказывается великая роль и заслуги азербайджанского народа в спасении человечества от угрозы фашизма. Отмечается,

что в годы войны одними из самых мощных арсеналов по снабжению Советской армии оружием, боеприпасами, топливом и продовольствием были Азербайджан и нефтяной Баку. Баку был мощной и надежной базой, снабжавшей горючим военную технику, ведущую «войну моторов», потенциальным оружейным складом, производившим 130 видов оружия, городом-военным госпиталем, лечившим раненых солдат. Сельские труженики Азербайджана также приняли на себя основную тяжесть войны. Героический и мужественный азербайджанский народ всем своим существом принял участие в войне. Видные партийные и государственные деятели, в том числе общенациональный лидер Гейдар Алиев, президент Ильхам Алиев, президент В.Путин и советские генералы, отметили героизм азербайджанского народа в завоевании Великой исторической Победы над фашизмом.

Ключевые слова: азербайджанский народ, Баку, Советская армия, фашистская армия, нефть, азербайджанские бойцы, национальные дивизии, герой, историческая Победа.

NURU MAMMADOV
Professor of the Department of History of Azerbaijan (on humanities faculties) of BSU, doctor of historical sciences

FAXREDDIN USENOV
Associate professor of Ganja State University

THE PEOPLE OF AZERBAIJAN DURING WORLD WAR II

The article proves the great role and services of the Azerbaijani people in saving humanity from the threat of fascism with concrete facts and official documents. It is noted that during the war, one of the most powerful armories in supplying the Soviet army with weapons, ammunition, fuel and food was Azerbaijan and oil Baku. Baku was a strong and reliable base that supplied fuel to the military equipment conducting the "motor war", a potential armory that produced 130 types of weapons, and a military hospital town that treated wounded soldiers. The rural workers of Azerbaijan also bore the brunt of the war. Heroic and courageous people of Azerbaijan took part in the war with all their being. Prominent party and state figures, including the national leader Heydar Aliyev, President Ilham Aliyev, President V.Putin and Soviet generals, noted the heroism of the Azerbaijani people in winning the Great historical Victory over fascism.

Keywords: Azerbaijani people, Baku, Soviet army, fascist army, oil, Azerbaijani fighters, national divisions, hero, historical Victory.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24); UOT: 727/479.243 / "94-99"

NAZİM MƏMMƏDOV
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun
"Qarabağ müharibələri tarixi və Böyük qayıdış hərəkatı" şöbəsinin
baş elmi işçisi, tarix elmləri doktoru, dosent
mamedov-n@yahoo.com

ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI SU TERRORU VƏ ONUN ARADAN QALDIRILMASI TƏDBİRLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/108/37-45

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ümumi ərazisinin 1,213 milyon ha torpaq sahəsi, 232,287 ha meşə fondu, 35888,4 min m^3 oduncaq fondu, ümumi dəyəri 50,782 milyard ABŞ dolları qiymətləndirilən mineral xammal ehtiyatı, 1623 min ABŞ doll / gün qiymətləndirilən içməli şirin su, 526,1 min ABŞ doll / gün qiymətləndirilən termal mineral su ehtiyatı, 13 iri çay, 9 su anbarı və relyefə uyğun yeni su anbarlarının tikintisi imkanları, təxminən 7200 meqavat külək, 2000 meqavat günəş enerjisi hasil etmək potensialı mövcuddur.

Açar sözlər: Azərbaycan, erməni separatizm, Ali Baş Komandan İlham Əliyev, Qarabağ, Türkiyə, çay, su anbarı, Şuşa, potensial, su terroru, ekosid.

Giriş. Ermənistan 30 il ərzində işğal altında saxladığı torpaqlarımıza nəinki divan tutmuş, eyni zamanda, mənbəyini öz ərazisindən götürən və Azərbaycana gələn çayları da daim çirkləndirmişdir. Məlumdur ki, ölkəmizin yerüstü su ehtiyatlarının 75 faizi qonşu ölkələrdə formalaşan transsərhəd su axınları hesabınadır. Bu təbii su mənbələrinin Ermənistan tərəfindən çirkləndirildiyi danılmaz faktdır. Azərbaycanın şirin su ehtiyatları əsasən Kür və Araz çaylarının hesabına ödənilir. Bu çaylar mənbəyini Türkiyədən götürməklə Gürcüstan və Ermənistan ərazilərindən keçərək Azərbaycan ərazisindən Xəzər dənizinə tökülür. Qonşu ölkələrin ərazilərində çay suları sənaye və məişət tullantıları ilə çirklənir. On illərlə davam edən bu proses nəticəsində Kür və Araz çaylarının sahilyanı və dib çöküntüləri kimyəvi və radioaktiv tullantılarla çirklənməyə məruz qalmışdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Monitorinq Departamentinin məlumatına əsasən, Mehri, Qaçaran, Qafan və Dəstəkert dağ-mədən kombinatlarının yüz min tonlarla qatı turş suları, ağır metal duzları və başqa tullantıları Arazın qolu olan Oxçuçaya axıdılır. Ayrı-ayrı vaxtlarda suyun tərkibində misin miqdarı normadan 25-50 dəfə, fenolların miqdarı isə mütəmadi olaraq normadan 6-15 dəfə artıq olmuşdur [5, s.6]. Qarabağ və Şərqi Zəngəzurda mövcud olan su ehtiyatı respublikamızın ümumi su resurslarının 25 faizini təşkil edir. Bu su resurslarının əsas xüsusiyyəti, müsbət tərəfi odur ki, bunlar daxili mənbələr hesabına formalaşır. Su resurslarının məişət, sənaye və kənd təsərrüfatında səmərəsiz istifadəsi, inkişaf etməkdə olan ölkələrdə baş verən əhali artımı, suvarılan sahələrin genişlənməsi, meşələrin qırılması bir tərəfdən qlobal istiləşmə və quraqlığın artmasına, digər tərəfdən, şirin su ehtiyatlarının kritik böhran həddində azalmasına gətirib çıxarmışdır.

Ermənistanın Azərbaycana qarşı ekosid siyasəti. Azərbaycan ərazisindən axan çayların əksəriyyəti öz mənbəyini Ermənistan, yaxud onun vaxtilə işğal etdiyi ərazilərdən götürür. Bu da işğalçılar tərəfindən Azərbaycan ərazilərinə, əhaliyə və iqtisadiyyata qarşı terror-təxribat əməllərinin aparılmasına şərait yaratmışdır.

Azərbaycan Respublikasının ərazilərindəki su ehtiyatlarının çirkləndirilməsi Ermənistanın ekoloji terror siyasətinin əsas təsir elementlərindən sayılır. Nəzərə alsaq ki, Cənubi Qafqazın ümumi şirin su ehtiyatlarının 62 %-i Gürcüstanın, 28 %-i Ermənistanın və yalnız 10 %-i Azərbaycanın payına düşür, bu halda problemin kifayət qədər ciddi olduğunu anlamaq mümkündür. Eyni zamanda, onu da qeyd edək ki, Azərbaycan ərazisinin 3/4 hissəsi ölkəmizin ən geniş su arteriyası olan Kür çayı hövzəsinin aşağı nahiyəsində yerləşir. Sadalanan reallıqlar fonunda kimyəvi və bioloji cəhətdən çirkləndirilmiş 350 mln. kub metrdən artıq su kütləsi hər il Ermənistan ərazisindən Kür çayı hövzəsinə tökülür [5, s.6].

Azərbaycanın su ehtiyatlarını yaradan çaylar Ermənistanda sənaye və məişət təhlükəsizliyi baxımından beynəlxalq nüvə sahəsində ixtisaslaşmış bir sıra qurumların problemli saydığı Metsamor AES-in tullantıları ilə çirklənməyə məruz qalır ki, bu da beynəlxalq hüquq normalarının ciddi surətdə pozulması deməkdir. Çünki, məhz həmin beynəlxalq sənədlərə əsasən, içməli su mənbələrinə axıdılan tullantılar zərərsizləşdirilməlidir. Lakin Ermənistan ərazisində belə tullantıların təmizlənməsindən söhbət belə gedə bilməz. Ermənistan ərazisindən Azərbaycana daxil olan sularda bütün növ kimyəvi və zərərli maddələr normadan dəfələrlə artıq olduğundan, çayboyu zonada olan flora və faunaya mənfi təsir edə, Azərbaycan əhalisinin genefonduna, su axarları boyu yaşayan əhali arasında müxtəlif xəstəliklərin yaranması və yayılmasına gətirib çıxara bilər. Ermənistanın yürütdüyü bu siyasəti məhz ekoloji terror kimi qiymətləndirmək lazımdır.

Beynəlxalq çay və göllərin çirklənməsinə yol verilməməsi və onların canlı ehtiyatlarının mühafizəsi müvafiq sahilyanı dövlətlərin üzərinə düşən vəzifədir. Bu vəzifələrin həyata keçirilməsi üçün sahilyanı dövlətlər regional və ikitərəfli müqavilələr bağlayırlar. Müqavilələrin başlıca məzmunu ondan ibarət olur ki, sahilyanı dövlətlər beynəlxalq çay və göllərin mövcud çirklənməsinin azaldılması üçün bütün zəruri tədbirləri görməlidirlər. Belə tədbirlərin məqsədi digər dövlətlərə, həmçinin, dünya okeanı sularına dəyə bilən zərərin qarşısını almaqdan ibarətdir. Bu müqavilələrdə göstərilir ki, suların çirklənməsində təqsirli olan dövlət bütün dəymiş zərəri ödəməlidir. Hazırda beynəlxalq çayların çirklənmədən qorunmasına dair 100-dən artıq beynəlxalq müqavilə mövcuddur. Bu müqavilələrdə, əsas etibarilə, neft, kimyəvi və üzvi maddələrin çay mühitinə atılmasını qadağan edən müddəalar təsbit olunmuşdur (Şuaxınlarının xloridlərlə və kimyəvi maddələrlə çirklənmədən qorunması haqqında 1976-cı il Konvensiyaları və s.). Transsərhəd su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsinə dair 1992-ci il Konvensiyası isə nisbətən ümumi xarakter daşıyır. Konvensiyanın iştirakçıları transsərhəd təsir göstərən və ya göstərə bilən çirklənmənin qarşısını almaq və azaltmaq üçün bütün müvafiq tədbirləri görməlidirlər. Bu tədbirlərin görülməsi ilə bağlı bütün xərclər çirklənməyə yol vermiş dövlətin üzərinə düşür. Konvensiya iştirakçı dövlətlərdən, habelə müvafiq hüquqi, inzibati, iqtisadi və maliyyə tədbirlərinin işlənib hazırlanmasını və həyata keçirilməsini tələb edir.

Təkcə bir faktı da qeyd edək: Müzəffər Azərbaycan Ordusu Fərrux dağına nəzarəti təmin etməklə Ağdam rayonunun su təminatında strateji paya malik Xaçınçay su anbarının tam təhlükəsizliyini təmin etmişdir. Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birinci rübün iqtisadi yekunlarına dair müşavirədəki çıxışında açıq bəyan etmişdir: "Xaçınçay su anbarı düz Fərrux dağının altındadır, Fərrux kəndinin böyründədir və ermənilərin hərbi mövqeləri bu su anbarının istismarını təhlükəyə salmışdır, yəni böyük bir təhlükə mənbəyi idi. Dəfələrlə oradan və digər kəndlərdən Ağdam istiqamətinə atəş açılırdı. Fərrux dağını məncə, indi dünyada tanımayan yoxdur və Azərbaycanın böyük dağı olan Fərrux dağı bu gün bizim nəzarətimizdədir və Azərbaycan bayrağı orada dalğalanır" [7].

Onu da qeyd edək ki, 44 günlük müharibədən sonra ermənilər Sərsəng su anbarına nəzarəti əllərində saxladıqlarını dəfələrlə üstünlük kimi vurğulayır, ondan Azərbaycanın digər ərazilərinə su verilməyəcəyini bəyan etmişdilər. Halbuki yalnız Sərsəngə deyil, əraziyə gələn suların 95 faizə yaxını Laçın-Kəlbəcərdən gedir. Tərtərçaya qoşulan bir neçə çayın suyu Sərsəngə axır. Sərsəngdən Suqovuşana qədər isə Tərtərçaya 4-5 çay tökülür.

30 il işğalda qalan Azərbaycan ərazilərində yağıntı və yeraltı suların hesabına qidalanan irili-xırdalı 7 relikt göl vardır (Kəlbəcər və Laçın rayonlarının yaylaqlarındakı Böyük və Kiçik Alagöllər, Zalxagöl, Pəriçınqıllı Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl və Ağdərə rayonu ərazisində Tərtərçayın Torağaçay qolunun yuxarısındakı Qaragöl) ki, bunlar da güclü antropogen təsirlərlə üz-üzə qalmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il aprelin 21-də Qarabağa səfərində əsas istiqamətlərdən biri də bölgədəki su ehtiyatları ilə bağlı aparılan işlərlə tanışlıq idi. Azərbaycan üçün azad olunan ərazilərdəki su anbarlarının gələcək istismarı, hidroehtiyatlarının ölkənin su təsərrüfatında rolu, bərpa prosesinin və böyük qayıdışın tərkib hissəsidir. Səfər zamanı Prezident Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri ilə tanış olub, dəyərli təklif və tövsiyələrini vermişdir [1].

Məlumdur ki, işğal dövründə on minlərlə hektar əkinə yararlı torpaq sahələrinin suvarılmaması faktiki olaraq bu sahələrin təsərrüfat dövriyyəsindən çıxarılmasına səbəb olmuşdur. Mövcud su anbarlarının qəsdən məhv edilməsi isə Ermənistanın Qarabağda aqrar sahədə dağıdıcı fəaliyyətinin nəticə-

sidir. Köndələnçay su anbarı buna bariz misaldır. Ümumi sistemə daxil olan "Köndələnçay-1", "Köndələnçay-2" və "Aşağı Köndələnçay" su anbarlarının bərpası ilə Füzuli rayonu ərazisində 6200 hektar əkin sahəsinin suvarılması imkanını reallaşdırmışdır [7].

Tədqiqatlardan məlum olur ki, 2022-2023-cü illərdə işğaldan azad olunmuş ərazilərdə ümumilikdə 9 su anbarı tikilmiş və ya təmir olunmuşdur. Qarabağın zəngin su ehtiyatlarının düzgün və səmərəli idarə olunması bütövlükdə regionun iqtisadi inkişafını sürətləndirəcəkdir. İşğaldan azad olunan ərazilərin kənd təsərrüfatı sahəsində potensialı ölkə iqtisadiyyatı üçün mühüm drayverlərdən birinə çevriləcəkdir. Su ehtiyatlarının düzgün idarə edilməsi və səmərəli istifadəsi isə bölgədə aqrar sahənin inkişafına töhfə verəcəkdir. Bərpa olunan su anbarlarının istifadəyə verilməsi ilə bu məsələ tamamilə reallaşacaqdır.

Prezident İlham Əliyevin təklifinə əsasən Həkəri çayının üzərində 130 milyon kubmetrlik içməli suyun toplanması üçün, Bəşəri çayının üzərində isə suvarmada istifadəsi nəzərdə tutulan 65 milyon kubmetrlik su anbarlarının tikilməsini planlaşdırılmışdır. Bununla yanaşı, Xudafərində 1,6 milyard kubmetr tutumu olan su anbarı da tikilir. Ondan 13 km aşağıda yerləşən, 62 milyon kubmetr tutumu olan "Qız qalası" su anbarı var. "Xudafərin" su anbarı 250 min hektardan çox sahənin suvarılmasını yaxşılaşdıracaqdır. "Qız qalası"ndan isə 50 kubmetr saniyədə tutumu olan kanalın çəkilməsi nəzərdə tutulur ki, bu da əlavə olaraq Cəbrayıl rayonunun 12 min hektar suvarma sahələrini su ilə təmin edəcəkdir [12, s.29].

2022-ci ildə Sərsəng su anbarının bərpası, tam işlək vəziyyətə gətirilməsi, öz funksiyası üzrə istifadə olunması üçün müvafiq rəsmi komissiyalar, işçi qrupları tərəfindən layihələr, təkliflər hazırlanmışdır [12, s.83].

Artıq 2023-cü ilin sentyabrında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında lokal xarakterli antiterror əməliyyatlarını reallaşdıran rəşadətli Azərbaycan ordusu işğal altında qalan bütün ərazilərimizi, o cümlədən Sərsəng Su Anbarını işğaldan azad etdi. Bu gün Sərsəng Su Anbarında Azərbaycan bayrağı dalğalanır. Bu Nəhəng Anbarda cəmləşən su Azərbaycan xalqına xidmət edir.

İşğaldan azad edilmiş ərazilərdə mövcud su anbarlarının təmir-bərpası ilə yanaşı, yeni su anbarlarının tikintisi məqsədilə araşdırmalar aparılıb. Bərgüşad çayı, Həkəri çayı üzərində yeni su anbarlarının tikintisi planlaşdırılmışdır. Bu su anbarları əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi, eyni zamanda Ağdam rayonun, eləcə də Araz boyunda yerləşən rayonların əhalisinin içməli su ilə təmin edilməsində əhəmiyyətli rol oynayacaq [11].

Yuxarıda qeyd etdiyimiz kimi Ermənistan silahlı birləşmələri və erməni vandalları 30 il Azərbaycan torpağında soyqırımı törətməklə, şəhərləri və kəndləri yerlə yeksan etməklə yanaşı, təbiətə də amansız zərbə vurmuşdular. Onlar işğal etdikləri ərazilərdə, sözün əsl mənasında, ekoloji su terroru törədiblər. Prezident İlham Əliyev onların bu vəhşiliklərini haqlı olaraq ekosid – ətraf mühitə qarşı genosid adlandırıb. Mənfur düşmən uzun müddət meşələrimizi qırıb və talayıb, meyvə bağlarındakı ağacları kəsib, son dövrdə tərk etməli olduğu rayonlarda isə yaşıllıqlara od vurublar. İşğalçı öz xəyanətkar əlini çaylarımıza da uzadıb. Onların suyundan güc alan elektrik stansiyalarını söküb aparıb, binalarını dağıdıblar.

2022-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə də bu mövzudan geniş bəhs edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev diqqəti bir daha 30 il Azərbaycan təbiətinin ekoloji terrora məruz qalması, o cümlədən çaylarımıza böyük ziyan vurulması məsələsinə yönəldib: "Çaylarımız da işğal altında idi və düşmən bizi çaylarımızdan da məhrum etmişdi. Çünki biz Tərtər çayının suyundan faktiki olaraq istifadə edə bilmirdik. Tərtər çayı isə Azərbaycanın ən böyük çaylarından biridir. Suqovuşan ermənilərin əlində olduğu üçün yayda suyu kəsirdilər, bizə qarşı ekoloji terror törədilmişdi. Qışda isə buraxırdılar ki, o da daşqınlara səbəb olurdu" [14].

Azərbaycan vətəndaşlarının özləri də bunu unutmamalı, dünya isə bilməlidir ki, ermənilər bizi nələrdən məhrum etmişdi. Ən böyük çaylarımızdan olan Həkəridən istifadə edə bilmirdik. Bazarçay, Lev çay, Zabux, Tutqun, Turqay, Bəsitçay, Qarqarçay, Quruçay, Köndələn çay... Bunların hamısını ermənilər vəhşicəsinə istismar edir və çirkləndirirdilər.

Oxçuçayın da böyük fəlakəti indi dünyanın gözü qabağındadır. İşğal etdikləri torpaqlarımızın təbii sərvətlərini gəlir mənbəyinə çevirən düşmən öz korrupsioner tərəfdaşları ilə birlikdə bizim bu gözəl, şəffaf sulu çayımıza qarşı əsl ekosid törədiblər. Azərbaycan Prezidenti bu məsələni haqlı olaraq

çox ciddi şəkildə qaldırdı. Dövlət başçısı sözügedən müşavirədə bu barədə belə deyib: "Məsələni qaldıranda bizə söz verildi ki, bu fəlakəti törədən şirkət gəlib bunu təmizləyəcək. Amma artıq bundan bir il vaxt keçib, bizə heç bir təklif verilmir. Oxçuçayı zibilləyən, zəhərləyən "Cronimet" şirkətidir. Bu, böyük şirkətdir və bəzi xarici mətbu orqanlarından gələn məlumatlara görə, korrupsiya sxemləri əsasında Serjik Sarkisyanın keçmiş xunta rejiminin nümayəndələri ilə bunların qanunsuz biznes əlaqələri olub və onlar birlikdə orada o mis kombinatını işlədiblər. Ondan sonra Ermənistan hökuməti korrupsiyalaşmış həmin o erməni nümayəndələrindən bu kombinatın payını alıbdır. Ancaq bu fəlakəti törədən "Cronimet" şirkəti buna cavab verməlidir, yoxsa yox? Mən demişəm ki, beynəlxalq məhkəmələrdə məsələ qaldırılmalıdır. İndi mən çox şey demək istəmirəm, biz artıq hüquqi iddia ilə də çıxış edəcəyik, hazırlıq işləri gedir, beynəlxalq müəssisələr cəlb olunub. Biz ermənilər törətdikləri vəhşiliklərə görə bütün dünyada ifşa edəcəyik. O cümlədən xarici şirkətləri, hansılar ki, bizim təbii yataqlarımızı istismar ediblər. Qızıl yataqlarımızı, digər yataqlarımızı qanunsuz istismar edən xarici şirkətlər hesab edirlər ki, bizdən yaxa qurtaracaqlar? Yox! Onlar etdiklərinə görə cavab verəcəklər. Biz onları məhkəməyə gətirəcəyik, onları biabır edəcəyik. Oxçuçay suyunu sarı rəngə boyayan "Cronimer" şirkəti gəlsin o zibilini təmizləsin. Yoxsa hesab edirlər ki, vaxt keçdi və biz hər şeyi unutduq. Biz heç nəyi unutmamışıq və unutmayacağıq" [14].

Onu da qeyd etmək lazımdır ki, ermənilər müharibə zamanı Şuşadan qaçarkən növbəti vəhşiliklərini törədib və su xətlərini də partladıblar. İşğal dövründə isə 17 bulağın hamısını yararsız vəziyyətə salıb, qurudublar. Əslində, bu vəhşilikləri ilə bir daha göstəriblər ki, Şuşa heç vaxt onların şəhəri olmayıb.

Ermənistan silahlı birləşmələri və erməni vandalları bir zamanlar bütün keçmiş SSRİ məkanında tanınan Kəlbəcərdəki sanatoriyanın binalarını uçurmaqla yanaşı, buradakı su mənbələrini də tamamilə dağıdıblar. 2022-ci ilin əvvəllərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə İstisu sanatoriyasının yerində müasir hotelin tikilməsi üçün layihə hazırlanmışdır. Kəlbəcər-İstisu avtomobil yolunun çəkilişi davam etdirilmiş və müalicəvi içməli suyun istehsalına da başlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı demişdir: "...İstisu yenə də öz şöhrətini qaytaracaq. Azad edilmiş torpaqlarda indi içməli su mənbələrinin layihələndirilməsi gedir. Onların arasında, əlbəttə ki, Şuşa şəhərinin içməli su layihəsi prioritetidir. Çünki artıq Şuşada insanlar yaşayırlar. Şuşada yaşayış binaları da tikilir və tezliklə yerli sakinlər doğma yurdlarına qayıdacaqlar. Ona görə Şuşanın içməli su layihəsi bu il tam istifadəyə verilməlidir... Suvarma işləri həm azad edilmiş torpaqlar üçün, həm bütün ölkə üçün ərzaq təhlükəsizliyini şərtləndirən əsas amillərdən biri olacaq. Bu layihələr elə icra edilməlidir ki, bizim ümumi suvarma təsərrüfatımıza inteqrasiya olunsun. Bax buna da çox ciddi fikir vermək lazımdır. Çünki azad edilmiş torpaqların relyefi belədir ki, – xüsusilə Kəlbəcər, laçın, Qubadlı zonasını nəzərdə tuturam, – oradan həm suvarma suyu, həm içməli su öz axarı ilə gəlib Ağdama, Bərdəyə və digər yerlərə çata bilər. Bu, ümumi suvarma sistemimizə inteqrasiya edilməlidir. Eyni zamanda, biz çaylarımızdan içməli su mənbəyi kimi istifadə etməliyik" [3].

Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycan dünyanın su ehtiyatları az olan ölkələrdəndir. Bolsulu çaylarımız Kür və Arazın mənbəyi xarici ölkələrdə formalaşır. Bu o deməkdir ki, onların suyundan ilk növbədə başqaları faydalanır. Azərbaycan Cənubi Qafqazın həm əhalisinə, həm də ərazisinə görə ən böyük ölkəsi olsa da, sudan istifadə vəziyyəti buna tam cavab vermir.

6. Бакинская инициативная группа испугала Париж до дрожи в коленях // Тема дня от Эльчина Алыоглу. – https://new.day.az [10.02.2025].
7. В Баку состоялся Саммит Контактной группы Движения неприсоединения по борьбе с COVID-19. В Саммите принял участие Президент Азербайджана Ильхам Алиев // https://azertag.az [10.02.2025].
8. В чем секрет Азиатского экономического чуда. – https://www.kcci.kharkov.ua. [10.02.2025].
9. Движение неприсоединения завоевало высокий авторитет на международной арене в период председательства Азербайджана. // https://azertag.az [10.02.2025].
10. Как война в Украине разделила Запад и остальной мир. – https://www.dw.com [10.02.2025].
11. Мартынова Е.С. Интеграционные процессы в Азиатско-Тихоокеанском регионе: новые контуры восточноазиатского регионализма. – Вестник международных организаций. М., 2012, № 4(39), с.263.

12. Наида С. Гаджинская. История колониализма и глобализации. Баку, 2024, с.403-404.
13. Постсоветское пространство в объятиях глобальных проблем. - «Независимая газета». https://www.ng.ru [10.02.2025].
14. РСМД: Прощание с «постсоветским пространством?». – https:// russiancouncil.ru [10.02.2025].
15. Цитаты о колониях. Цитаты известных личностей. – https://ru.citaty.net [10.02.2025].
16. Что такое COP и что даст Азербайджану проведение COP29? – https://azertag.az [10.02.2025].

NAHİDƏ HACINSKAYA
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti

QLOBALLAŞMANIN MÜASİR ÇAĞIRIŞLARI VƏ AZƏRBAYCAN

Məqalədə qloballaşmanın hazırkı mərhələsi kontekstində qlobal inkişafın xüsusiyyətləri araşdırılır. Vurğulanır ki, müstəmləkəçilik sisteminin dağılması ilə "müstəmləkəçilik" anlayışı siyasi lüğətdən silinməmiş, əksinə yeni bir terminə – "neokolonializm"ə həyat və davam etmişdir. Dünənki müstəmləkələrin ABŞ, Yaponiya, Fransa və Böyük Britaniyanın zülmündən formal olaraq azad edilməsi onların iqtisadi və siyasi asılılığına son qoymadı, əksinə, onlar arasında yeni münasibətlər formatı yaratdı. Məqalədə qeyd edilir ki, ABŞ və bütün Qərb dünyasını maraqlandıran regionlardan biri postsovet məkanıdır. Məqalədə Azərbaycanın müasir dünyada tutduğu mövqeyə xüsusi önəm verilir.

Açar sözlər: qloballaşma; neokolonializm; postsovet dövlətləri; Azərbaycan; Qoşulmama Hərəkatına sədrlik; COR29.

NAIDA HAJINSKAYA
Associate Professor of Azerbaijan State Pedagogical University

MODERN CHALLENGES OF GLOBALIZATION AND AZERBAIJAN

The article examines the features of world development in the context of the modern stage of globalization. It is emphasized that with the collapse of the colonial system, the concept of "colonialism" did not disappear from the political vocabulary but gave life and continuation to a new term - "neocolonialism". The formal liberation of yesterday's colonies from the oppression of the USA, Japan, France, Great Britain did not end their economic and political dependence but created a new format of relations between them. The article notes that one of the regions of interest to the USA and the entire Western world is post-Soviet space. The article attaches particular importance to the position of Azerbaijan in the modern world.

Keywords: globalization; neocolonialism; post-Soviet states; Azerbaijan; chairmanship of the Non-Aligned Movement; COP29.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.e.d. Sevinc Əliyeva, t.e.d. İbrahim Zeynalov.

UOT 070

SABİR MƏMMƏDLİ
Bakı Dövlət Universitetinin professoru,
siyasi elmlər doktoru
ORCID ID: 0000-0001-9176-2569
sabir.rm@mail.ru

QAQAUZ TÜRKLƏRİNİN MİLLİ MƏTBUATININ YARANMASI

DOI: https://doi.org/10.36719/2708-065X/108/55-59

Məqalədə qaqauz türklərinin etno-siyasi tarixinə, onların bir etnos kimi formalaşması prosesinə dair xeyli dərəcədə yeni məlumatlar verilir. Qeyd olunur ki, qaqauz türkləri azsaylı xalq olmaqlarına baxmayaraq qədim tarixə malikdirlər, müxtəlif dövlət qurumlarına sahib olmuşlar və əsrlər boyu öz milli xüsusiyyətlərini qoruyub saxlaya bilmişlər. Onların xristian dininə sitayiş etməsi qonşu xalqlarla sıx əlaqə saxlamasına şərait yaratmış və birgə yaşayış mühiti formalaşdırmışdır. Müəllif qeyd etmişdir ki, qaqauz türklərinin milli düşüncəsinin formalaşması prosesində mətbu orqanların xüsusi rolu olmuşdur. Məqalədə ilk qaqauz milli mətbuat orqanı olan "Həqiqətin səsi" qəzetinin yaranması tarixindən və onun naşiri – tanınmış pravoslav din xadimi M.Çakirin fəaliyyətindən ətraflı şəkildə bəhs edilir. "Həqiqətin səsi" missioner qəzeti olsa da, qaqauz türklərinin milli oyanışında və onların vahid ideya ətrafında birləşməsində əvəzsiz rol oynamışdır.

Açar sözlər: Qaqauz Yeri, mətbuat, türk birliyi, din xadimi, milli oyanış, naşir, milli hərəkat.

Giriş. Türk dünyasının ayrılmaz bir parçası olan Qaqauz türkləri zəngin passionar enerjiyə sahibdirlər və tarix boyu böyük şəxsiyyətlər, düşünən beyinlər, görkəmli mədəniyyət və incəsənət xadimləri yetişdirmişlər. Qaqauz xalqının ortaq səsi olan mətbuatın tarixini araşdırmaq, qəzet və jurnalların fəaliyyətini təhlil etmək ən əhəmiyyətli məsələlərdən biridir. Bu türk toplumu bütün həyatını davamlı olaraq mübarizədə keçirmişdir. Hər dövrün öz xüsusiyyətləri olduğu üçün, qarşıya çıxan problemlər və çətinliklər də müxtəlif olmuşdur. Amma tarix boyu Qaqauz türklərinin qarşısında duran əsas məsələ öz milli varlıqlarını qoruyub saxlamaq idi.

Rusiya imperiyasının ruslaşdırma siyasətinin bütün ağırlığına və həyatın ümumi çətinliklərindən doğan problemlərə baxmayaraq Qaqauz türk toplumu tarix boyu ana dilini, adət-ənənələrini qoruyub saxlamaq, folklorunu, ədəbiyyatını inkişaf etdirmək üçün var gücü ilə çalışmışdır. Bu işdə Qaqauz türklərinin ən təsirli ictimai vasitə rolunda qəzet və jurnallar çıxış etmişlər. Mətbuat orqanları qaqauzlar üçün ilk növbədə milli mərkəzlər rolunu oynamışlar. Qəzet ətrafında milli ziyalılar birləşərək xalqın inkişaf problemlərini təhlil edir, dilə gətirir və geniş təbliğat işi aparırdılar. Mətbu orqanlar xalqın milli istinad yeri olmuşdur.

Qaqauz türklərinin etno-siyasi tarixi. Qaqauzlar türk xalqıdır, xristian (provoslav) dininə etiqad edirlər, dil olaraq Azərbaycan və Türkiyə türkcəsinə ən yaxın ləhcədə danışırlar. Qaqauzlar oğuz türkləridir və Qaqauz sözünün mənası da bunu ifadə edir.

Qaqauzların əsas hissəsi Moldova Respublikasının cənubunu əhatə edən Budçak bölgəsində yaşayır. 2004-cü il siyahıya alınmaya görə Moldovada 155 600 qaqauz yaşayır. Təxmini 40 000 qaqauz sərhədin o biri üzü, Ukraynanın Odessa vilayətində məskunlaşıb. Bundan başqa qaqauzların ayrı-ayrı yaşayış məntəqələri Ukraynanın Zaporojye vilayətində, Rumıniyada, Bolqarıstanda, Rusiyada, Qazaxstanda və başqa ölkələrdə mövcuddur.

Tarixi məlumatlara əsasən qeyd etmək olar ki, XI ərsdə, yəni səlcuqlar dönəmində qaqauzlar hazırkı Ukrayna, Moldova, Bolqarıstan, Makedoniya, Yunanıstan və Rumıniya ərazilərinə səpələnmiş, amma müstəqil bir etnos kimi XIII əsrdə Bolqarıstanın şimal-şərq hissəsində formalaşmışlar. Onların ilk dövlət qurumu Uzieylət diyarı olmuşdur. XVIII əsrə dair materiallarda tədqiqatçılar Varna bölgəsində yerləşən qaqauzların Vister dövlət qurumu haqqında məlumat verirlər [1].

Rus-türk müharibələrinin nəticəsi olaraq XIX əsrin əvvəllərindən başlayaraq qaqauzların böyük hissəsi Bessarabiyanın Budçak bölgəsinə köç etmişdir. Sonralar qaqauzların bir hissəsi Moldova

ərazisində qalmış, digər hissəsi isə Ukrayna tərkibində həyatlarını sürdürmüşlər. 1905-1907-ci illərdə qaqauzlar öz milli müqəddaratları uğrunda ciddi mübarizə aparmış və Komrat Respublikasını elan etmişlər. Amma çar hökuməti qaqauzların milli-azadıq hərəkatını amansızcasına yatırtmışdır. 1917-1918-ci illərdə qaquzlar yenidən milli muxtariyyət uğrunda mübarizəyə başlamış, amma Bessarabiyanın Rumınıya tərəfindən işğal edilməsi nəticəsində bu məqsəd reallaşa bilməmişdir. 1940-cı ildə bu ərazilər Sovet İttifaqının, daha dəqiq - Moldovanın tərkibinə daxil edilmişdir.

1980-ci illərin ikinci yarısında sovet imperiyasının ictimai həyatına nüfuz edən "aşkarlıq" dalğasında qaqauz xalqının iqtisadi və mədəni tələblərini gündəmə gətirmək imkanı yarandı. 1988-ci ilin martında "Qaqauz xalkı" adı ilə ziyalıların diskussiya klubu formalaşdı. Kluba tanınmış rəssam Dmitri Sevastin rəhbərlik edirdi. Daha sonra başqa milli təşkilatlar da meydana gəldi.

21 may 1989-cu ildə qaqauz xalqının qabaqcıl nümayəndələrinin birinci qurultayı keçirilmiş və 4 milli təşkilat: "Qaqauz xalkı", "Birlik", "Vatan" və "Millet sancısı" birləşib ümummilli hərəkat yaratmışlar [2]. Qurultay nümayəndələri həmçinin Qaqauz muxtariyyətinin yaradılması haqqında qərar qəbul etmişlər və "Qaqauz xalkı" ümummilli hərəkatının sədri vəzifəsinə S.Bulqarı seçmişlər.

12 noyabr 1989-cu ildə qaqauz xalqının fövqəladə qurultayı keçirilmiş və Moldova SSR-i tərkibində Qaqauz Sovet Sosialist Muxtar Respublikası elan olunmuşdur. Amma bu qərar Moldova Ali Soveti tərəfindən rədd edilmişdir.

19 avqust 1990-cı ildə qaqauzların kompakt yaşadıqları bölgənin inzibati mərkəzində - Komrat şəhərində müxtəlif səviyyəli seçkili orqanları təmsil edən deputatların qurultayı keçirilmiş və Qaqauz Respublikası elan olunmuşdur [3].

Moldova hökuməti bölgəyə ordu və millətçi qüvvələri cəlb etmiş və nəticədə böyük ictimai-siyasi gərginlik yaranmışdır. Silahlı toqquşmalarla nəticələnə biləcək qarşıdurma Rusiyanın müdaxiləsi ilə dayandırılmışdır. 1991-ci il avqustun 27-də Moldova Respublikası öz müstəqilliyini elan etmişdir. Qaqauzların siyasi tələbləri bundan sonra da davam etmiş və 1994-cü il 23 dekabrda Moldova parlamenti Qaqauziyaya "Qaqauz Yeri" adı altında xüsusi status verilməsi ilə bağlı qanun qəbul etmişdir. Bu qanuna əsasən Qaqauziya daxili müstəqillik əldə edib və Moldova qanunlarına zidd olmayan qanunlar qəbul etmək, daxili iqtisadi və sosial həyatı təşkil etmək hüququ qazanmışdır [4].

Qaqauz Muxtar Diyarının (Qaqauz Yeri) ali rəhbəri – Başqandır (Prezident). O, ümumxalq səsverməsi nəticəsində 4 illik müddətə seçilir, eyni zamanda Moldova Respublikası hökumətinin üzvüdür. Qaqauz türklərinin ali qanunverici orqanı olan parlamenti var. Xalq Məclisi (Xalk Topluşu) adlanan ali qanunverici orqana seçkilər dörd ildən bir keçirilir, 35 deputatdan ibarətdir. Qaqauziya dövlət rəmzlərinə malikdir, özünün himni və herbi mövcuddur. Muxtar Diyarın 3 rəsmi dövlət dili var – qaqauz, moldovan (rumın) və rus dilləri. Diyarın paytaxtı Komrat şəhəridir.

Qaqauz türklərinin milli mətbuatının yaranması. XIX əsrə qədər qaqauzların öz əlifbası olmamışdır. İlk qaqauz mətnləri türkoloji əsaslarla kiril hərflərinə kiçik işarələrin artırılması ilə nəşr edilmişdir. 1957-ci ildə kiril əlifbası əsasında qaqauzların yazı dili formalaşmışdır. 1996-cı ildə Moldova Respublikası rəsmi olaraq latın qrafikasına keçmişdir. Bu prosesə əsaslanaraq qaqauzlar Anadolu türkçəsinə uyğun (bir neçə hərf əlavə etməklə) latın əlifbasını qəbul etmişlər.

Qaqauz türklərinin mənəvi və mədəni dirçəlişində Bessarabiya ərazisində fəaliyyət göstərən din xadimlərinin əvəzolunmaz xidmətməri olmuşdur. Burada ilk növbədə tanınmış qaqauz maarıfçisi Mixail Çakirin fəaliyyətini vurğulamaq lazımdır.

1880-ci illərin əvvəllərində M.Çakir Kişinyov kişi dini məktəbinə müəllim və eyni zamanda məktəb nəzdində fəaliyyət göstərən kilsənin keşişi təyin edilmişdir. Xalq arasında böyük nüfuz qazanaraq M.Çakir bütün həyatını qaqauz türklərinin maariflənməsinə sərf etmişdir. O, ilk növbədə dini kitabları rus dilindən qaqauz dilinə çevirmiş və bununla da nəinki xalqın əksər hissəsinin bilmədiyi dildə dini ayinlərin yerinə yetirilməsinin böyük məzmun kəsb etmədiyini, hətta bunun əksi olaraq milli duyğuları oyatmağa və dini ayinlərin öz ana dilində yerinə yetirməyi təşviq etmişdir. Əslində, M.Çakirin tərcüməçilik fəaliyyəti ruslaşdırma siyasətinə əks olaraq qaqauzların milli varlığını qorumağa yönəlmişdir və dini ibadətin daha anlaşıqlı və şüurlu şəkildə dərk edilməsinə xidmət edirdi [5].

Bunun davamı olaraq M.Çakir 1904-cü ildə rus provoslav kilsəsinin rəhbərliyinə məktubla müraciət edərək qaqauz dilində dini qəzetin nəşrinə icazə verilməsini xahiş etmişdir. Müvafiq razılıq aldıqdan sonra o, Kişinyovda 2 səhifəlik dini qəzet nəşr etdirməyə başlamışdır. Qəzetin adı "Xakika-

tın sesi” *(***“Хакикатын сеси” -** “Həqiqətin səsi”*)* olmuşdur. Qəzet 1907-ci ildə dini missioner nəşri kimi işıq üzü görmüşdür.

“Xakikatın sesi” qaqauz türklərinin ilk mətbuat orqanı olmuşdur. Amma onu da qeyd etmək lazımdır ki, həmin dövrdə *“*Xakikatın sesi” qəzetinin neçə nömrəsinin nəşr edilməsi haqqında indiyədək dəqiq məlumat əldə olunmayıb. Bəlli olan odur ki, bu dövrdə qəzet kiril əlifbası ilə nəşr olunurmuş. “Xakikatın sesi” qəzetinin fəaliyyətə başlaması ilə qaqauz türklərinin həyatında əslində yeni dönəm başlamışdır.

Qeyd etmək lazımdır ki, M.Çakirin fəaliyyəti dini çərçivədən xeyli kənara çıxmış və bu böyük qaqauz mütəfəkkirinin diqqət mərkəzinə etnoqrafiya, dilçilik, toponimika və s. problemlər daxil olmuşdur. 1906-ci ildə o, Kişinyovda tərcümə komissiyasının yaradılması təşəbbüsü ilə çıxış etmiş və bu qurumun fəaliyyətinə rəhbərlik etmişdir. Qısa müddət ərzində ictimai qurum provoslav kilsəsinin əsas dini kitablarını («Евангелие», «Псалтырь», «Часослов», «Акафист», «История святых») qaqauz dilinə tərcümə etmişdir.

1918-ci ildə Qaqauziyanın və bütövlükdə Bessarabiyanın Rumıniya tərəfindən işğal edilməsindən sonra da Mixail Çakir öz xalqının inkişafı üçün fəaliyyətini dayandırmamış və burada da bu istiqamətdə durmadan çalışmış və öz əzmkarlığını davam etdirmişdir. Qaqauziyanın Rumıniya tərkibində olduğu dövrdə belə (1918-1940-cı illər ərzində) M.Çakir “Xakikatın sesi” qəzetinin nəşrini davam etdirməyə müvəffəq olmuşdur. Burada qəzet latın qrafikası əsasında çap olunmuşdur. Bəzi məlumatlara görə Mixail Çakir “Xakikatın sesi” qəzetinin nəşrini ömrünün sonuna qədər, yəni 1938-ci ilə qədər davam etdirə bilmişdir [6].

Eyni zamanda M.Çakir Rumıniyada tərcüməçilik fəaliyyətini də davam etdirmişdir. O, burada rumın əlifbasından istifadə etməklə qaqauz dilində bir çox kitab nəşr etdirmişdir. Bu kitablardan ilk növbədə 1934-cü ildə çap olunmuş “Bessarabiya qaqauzlarının tarixi” adlı əsərini xüsusi qeyd etmək lazımdır.

Qaqauziya torpaqlarının 1940-cı ildə Sovet İttifaqına birləşdirilməsindən sonra yerli türk əhalisi kommunist ideologiyası və ruslaşdırma siyasətinə məruz qalmış və bunun acı nəticələri ilk olaraq qaqauz dilinin sıxışdırılmasında özünü göstərmişdir. Qaqauz türklərinin ana dili orta məktəblərdə tədris olunmurdu, bu dildə qəzet və jurnal da nəşr edilmirdi.

XX əsrin 50-ci illərində qaqauz türklərinin ictimai həyatına radio, 60-cı illərində isə televiziya daxil olmuşdur. 1974-cü ildə qaqauz kənd əhalisinin 26 faizi öz evlərində radioqəbulediciyə malik idi. Sözsüz ki, radio verilişlərində dünya, ittifaq və respublika xəbərləri ilə yanaşı yerli məlumatlar, qaqauz xalq musiqisi, ədəbi verilişlər də verilirdi. Araşdırmaçıların məlumatına görə bütövlükdə qaqauz ailələrinin 66 faizi radioqəbuledicilərə, 47 faizi isə televizorlara sahib idilər [7].

Qeyd etmək lazımdır ki, texniki və informasiya yenilikləri qaqauz milli mədəniyyətinin inkişafına təkan vermiş və öz növbəsində ana dilinin ictimai funksiyasının genişlənməsinə şərait yaratmışdır. 1957-ci ildə Moldaviya SSR Ali Sovetinin Reyasət heyəti “Qaqauz yazı dilinin yaradılması haqqında” xüsusi fərman vermişdir. Sənəd rus dili qrafikası (kiril) əsasında milli əlifbanın təşkil olunmasını təsdiq edirdi [8].

Yazı dilinin tətbiq edilməsi əsaslı şəkildə qaqauz xalqının milli özünüdərk prosesini gücləndirmiş oldu. Orta məktəblərdə ana dili əsas fənlərdən birinə çevrildi, hazırlıq siniflərdə tədris milli dildə həyata keçirilməyə başladı. Həmin ildə “Moldova soçialiste” (“Sosisalist Moldaviyası”) qəzetinin bir səhifəsi qaqauz türkcəsində çap olunmağa başladı. Bu səhifədə N.Tanasoğlu, D.Karaçoban, K.Vasilioğlu tərəfindən hazırlanan tarixi materiallar, folklor nümunələri dərc edilirdi [9].

Bununla belə, partiya rəhbərliyinin əsassız qərarı ilə 1961-ci ilin yanvar ayından orta məktəblərdə qaqauz dulinin tədrisinə qadağa qoyuldu [10]. Amma ictimai həyatda qaqauz dilinin tətbiq edilməsinə açıq şəkildə böyük ehtiyac duyulurdu. Məhz bununla əlaqədar idi ki, 1969-cu ildən 1976-cı ilədək Komrat rayon qəzetinin “Burçak dan yerleri” (“Бурчак дан йерлери”) başlıqlı əlavəsi nəşr edilirdi. Burada N.Babaoğlu, D.Karaçoban və digərlərinin ilk əsərləri işıq üzü görmüşdür. Materialların redaktorluğunu partiya rəhbərliyi jurnalist A.N.Jekova-Xarlamenkonun üzərinə qoymuşdur.

Ölkənin siyasi həyatında baş vermiş əsaslı dəyişiklərlə əlaqədar 1985-ci ildən sonra əhalinin ana dilində ictimai əhəmiyyətli informasiya almaq tələbatı qat-qat artmışdır. Bunun nəticəsində “Lenin sözü” (“Ленинское слово”, Komrat ş.), “Bayraq” (“Знамя”, Çadır-Lunqa ş.), “Oktyabr işığı”

("Свет Октября", Taraklı ş.), "Kommunizm yolu" ("Путь к коммунизму", Vulkaneşti ş.) qəzetlərində qaqauz dilində ayrıca səhifələr çap olunmağa başlanmışdır [11].

1986-cı ildə diyarın orta məktəblərdə qaqauz dilinin seçmə fənn kimi (7-10-cu siniflərdə) tədrisi bərpa edilmişdir. 1 sentyabr 1989-cu ildən isə qaqauz türklərinin sıx yaşadıqları bölgələrdə qaqauz dili birinci sinifdən məcburi fənn kimi artıq məktəblərdə tədris olunmasına başlanmışdır. Qaqauz dilində dərsliklər nəşr olunur, Kişinyov pedaqoji institutunda qaqauz dili müəllimlərinin hazırlanmasına qərar verilmişdir.

Sovet İttifaqında elan olunan yenidənqurma və sürətləndirmə siyasəti Moldova Resbublikasında, o cümlədən Qaqauziyada da ciddi şəkildə hiss olunurdu. Ölkədə mülayimləşmə siyasəti ilə əlaqədar qaqauz türklərinin ictimai həyatı da yeni dövrə qədəm qoyurdu. İctimai-siyasi həyatda böyük bir canlanma müşahidə olunuru. Qaqauz türk aydınları başqa sahələrdə olduğu kimi milli mətbuat orqanlarının yaradılmasına da böyük önəm vermişlər. Çünki "Xakikatın sesi" qəzetinin 1938-ci ildə nəşrinin dayandırılmasından sonra uzun bir vaxt kəsiyinin keçməsinə baxmayaraq qaqauz türklərinin ana dilində çap olunan heç bir mətbuat orqanı yox idi.

1989-cu ildə "Moldova soçialiste" qəzetinin əlavəsi kimi Todur Zanetin redaktorluğu ilə qaqauz türkcəsində "Ana sözü" işıq üzü gördü. İki ildən sonra "Ana sözü" ayrıca nəşr kimi yayımlanmağa başlamışdır. Bunun ardınca milli-azadlıq hərəkatı dalğası əsasında və sonrakı illərdə "Meydan", "Sabaa yıldızı", "Oğuz sesi", "Hakikatın sesi", "Güneşçik" və digər nəşrlər çap olunmağa başlamış və müasir qaqauz türk mətbuat sistemini formalaşdırmışlar.

Nəticə. Qaqauz türkləri tarixən Bolqarıstanın şimalı, indiki Rumıniya və Bessarabiya ərazilərində məskunlaşmaqla sanki ümumtürk coqrafiyasından ayrı düşmüşlər, amma eyni zamanda öz milli varlıqlarını qoruyub saxlamaqda böyük fədakarlıqlar göstərmişlər. Qaqauz türklərinin sayı cəmi bir neçə yüz min nəfər olsa da, bu toplum türk xalqları sırasında bəlkə də az rast gəlinən önəmli siyasi sıçrayış, əhəmiyyətli dövlət quruculuğu nailiyyətləri əldə etmişdir. Tarixən müxtəlif ictimai hadisələr və təsirlər ucbatından qaqauzlar davamlı olaraq öz milli dövlətçiliyinə nail ola bilməsələr də, XX əsrin əvvəllərində ilk milli mətbuat orqanı yaratmaqla və müasir milli varlıqlarını ortaya qoymaqla öz milli məram və məqsədlərini açıq şəkildə bəyan etmişlər. Bu gün isə qaqauz türkləri milli dövlət qurumuna, bütün dövlət rəmzlərinə, idarəetmə sisteminə, milli media vasitələrinə və digər ictimai, siyasi, iqtisadi, mədəni və sosial mərkəzlərə sahibdirlər.

ƏDƏBİYYAT

1. Историческая справка о Гагаузах. URL: https://gagauznews.md/1971/istoricheskaya-spravka-o-gagauzah.html [07.11.2024].
2. Рождение Гагаузии: день за днем. URL: https://web.archive.org/web/20140322013230/http://www.moldovanova.md/ru/publications/show/45 [07.11.2024].
3. Ангели Ф. Гагаузская автономия. Люди и факты (1989-2005 гг.). Кишинев, 2006, 260 с. URL: http://www.dimpo67.narod.ru/knigi/Angeli-autonom.pdf [07.11.2024].
4. Краткая история гагаузов. URL: ww.gbm.md/index.php/kratkaya-istoriya-gagauzov [07.11.2024].
5. Булгар С. Гагаузские просветители, писатели, ученые XIX – начала XX в. и роль русского языка в духовном развитии гагаузов. Журнал "Русин", 2007, № 2 (8), с.138-155.
6. Там же.
7. Там же.
8. Указ Президиума Верховного Совета МССР от 30 июля 1957 г. URL: https://gagauzinfo.md/storage/uploads/posts/202007/1596092190_116363231_2106715726119910_1886754826013287761_n.jpg [07.11.2024].
9. Покровская Л.А. Гагаузской письменности 50 лет // Вести Гагаузии, 2007, № 77-78, 12 октября.
10. Гайджаржи Г. Язык и культура гагаузов: вчера, сегодня, завтра // Ленинское слово, 1989, № 145, 2 декабря.

11. Çebotar P.A. Gagauz dilinda presanın retrospektivası hem büünkü durumu // Роль СМИ в развитии гагаузского языка: сборник докладов науч.-практ. конф. (25 марта 2015 г. г. Комрат) / вып. ред.: Д.Г.Палачор. Комрат : НИЦ Гагаузии им. М.В.Маруневич, 2019. С.7 –12. URL: https://library.kdu.md/web/viewer.html?file=roli%20SMI.pdf [07.11.2024].

САБИР МЕММЕДЛИ
Профессор Бакинского государственного университета

ВОЗНИКНОВЕНИЕ НАЦИОНАЛЬНОЙ ПЕЧАТИ ГАГАУЗСКИХ ТЮРКОВ

В статье отражается этно-политическая история гагаузских тюрков, преподносятся совершенно новые сведения о процессе формирования их как этноса. Отмечается, что, несмотря на свою малочисленность, гагаузские тюрки имеют древнюю историю, в разные периоды истории создавали свои государства и на протяжении веков сохраняли свои национальные особенности. Их поклонение христианской религии формировало условия для тесного общения с соседними народами и создало совместную среду проживания. Автор подчеркивает, что особую роль в процессе формирования национальной мысли гагаузских тюрков сыграла пресса. В статье подробно рассказывается об истории создания первой гагаузской национальной газеты «Хакикатын сеси» и деятельности ее издателя - известного православного священнослужителя М.Чакира. Хотя «Хакикатын сеси» являлась миссионерской газетой, она сыграла неоценимую роль в национальном пробуждении гагаузских тюрков и их объединении вокруг единой идеи.

Ключевые слова: Гагауз Ери, пресса, тюркское единство, религиозный деятель, национальное пробуждение, издатель, национальное движение.

SABIR MAMMADLI
Professor of Baku State University

THE EMERGENCE OF THE NATIONAL PRESS OF THE GAGAUZ TURKS

The article gives significantly new information about the ethnopolitical history of the Gagauz Turks, the process of their formation as an ethnic group. It is noted that, despite the small number of people, the Gagauz Turks have an ancient history, had various state institutions and for centuries retained their national characteristics. Their worship of the Christian religion created conditions for close communication with neighboring peoples and created a joint habitat. The author noted that the press played a special role in the process of forming the national thought of the Gagauz Turks. The article details the history of the creation of the first Gagauz national newspaper Golos Pravda and the activities of its publisher, the famous Orthodox clergyman M. Chakir. Although the Voice of Truth is a missionary newspaper, it plays an invaluable role in the national awakening of the Gagauz Turks and their unification around a single idea.

Keywords: Gagauz Yeri, press, Turkic unity, religious figure, national awakening, publisher, national movement.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 noyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: f.e.d. Həmid Vəliyev, t.e.d. İsmayıl Məmmədov.

UOT 94(479.24)

РАФИК АХУНДОВ
кандидат исторических наук,
доцент Азербайджанского Государственного
Экономического Университета, (UNEC)
Rafiq axundov@yandex.ru

ПОЛИТИЧЕСКОЕ И СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ НА СОВРЕМЕННОМ ЭТАПЕ

DOI: https://doi.org/10.36719/2708-065X/108/60-66

Подписанное в 1994 году между Азербайджаном и Арменией соглашения о перемирии предоставило возможности азербайджанскому народу для того, чтобы он сконцентрировался на решении важнейших политических и социально-экономических проблем, стоявших перед республикой. «Нефтяной контракт», заключенный правительством республики и ведущими транснациональными корпорациями мира 20 января 1994 года, принес Азербайджану не только экономическую выгоду, но и широкое политическое признание во всем мире. Новая Конституция АР от 12 ноября 1995 года провозгласившая построение правового светского государства и формирование рыночной экономики создало предпосылки для наступательного развития в экономической и политический сферах. Политические и экономические связи АР с европейскими государствами и странами постсоветского пространства охватывали широкий круг вопросов, отвечали интересам всех стран и носили взаимовыгодный характер. Все это в конечном итоге способствовало повышению благосостояния народа.

Ключевые слова: сотрудничество, проект, форум, развитие, мультикультурализм.

Введение. После обретения Азербайджаном государственной независимости в стране успешно развивались экономические и политические процессы. Заключенное в 1994 году между Азербайджаном и Арменией соглашение предоставило мирную передышку и азербайджанский народ, руководимый общенациональным лидером Гейдаром Алиевым, сконцентрировался на решении важнейших экономических, политических, социальных задач, стоявших перед республикой. 12 ноября 1995 года была принята новая Конституция независимого Азербайджана, провозгласившая построение правового, светского государства, формирования новых отношений, присущих рыночной экономике.

20 сентября 1994 года с участием крупнейших транснациональных корпораций был подписан нефтяной контракт, который помимо экономической выгоды, принес Азербайджану широкое политическое признание со стороны ведущих держав мира. Освоение газоконденсатного месторождения «Шах-Дениз» означало, что Азербайджан стал не только нефтяной, но и газовой страной. Таким образом, в стране были созданы экономические и политические предпосылки для успешного поступательного развития.

Экономическое и политическое сотрудничество Азербайджана с европейскими странами. 18 июля 2022 года в Баку Президент Азербайджанской Республики Ильхам Алиев и Председатель Европейской комиссии Урсула Фон Дер Лейнен подписали Меморандум «О взаимопонимании по стратегическому партнерству в энергетической сфере между Азербайджанской Республикой и Европейским Союзом».

1 марта 2024 года Президент Азербайджанской Республики Ильхам Алиев в ходе 10-го министерского заседания в рамках Консультативного совета Южного газового коридора и 2-го министерского заседания Консультативного совета по зеленой энергии дал интервью телевизионному каналу «Евроньюс». Президент Азербайджанской Республики Ильхам Алиев заявил: «Когда мы начинали этот проект, было много разных идей по поводу его реализации. Были и оптимисты и пессимисты, а также те, кто считал, что мы не сможем его реализовать. Но мы были полны решимости и знали, что это возможно. Нам было необходимо широкое международное

сотрудничество. И мы начали выстраивать партнерские отношения между странами, между компаниями, приглашая ведущие международные финансовые институты поддержать нас своим финансированиям. И трубопровод длиной 3500 километров теперь стал реальностью» (1).

Проект охватил большое количество стран и полностью поменял график поставок энергоносителей, а также вопросы, связанные с энергетической безопасностью. Таким образом. Южный газовый коридор как никогда важен для безопасности поставок в Европу. Посетивший Азербайджан летом 2022 года министр энергетики Румынии Попеску заявил: «Мы разработали проект для получения реверсивного газа из Трансбалканского магистрального газопровода. Через Турцию мы сможем получить газ из Азербайджана и с терминалов сниженного газа (СНГ)» (2).

Важнейшим экономическим событием стало открытие в 2018 году самого большого порта на Каспийском море – Алятского международного морского торгового порта. Таким образом, был реализован важный инфраструктурный проект, направленный на функционирование транспортного коридора Восток-Запад. Там охватывал территорию 117 сектаров, имел 12 привалов, грузоперевозная способность составляла 15 млн. Тонн, в том числе 100 тысяч контейнеров в год, значительная часть которых направлялась в европейские страны (3).

Укрепление экономического сотрудничества между Азербайджаном и Албанией занимало важное место в двусторонних отношениях. Деловые визиты, встречи и организация различных мероприятий сыграли благоприятную роль в формировании эффективного экономического партнерства. В рамках этих мероприятий 1 марта 2024 года в Баку было подписано соглашение об экономическом сотрудничестве между Азербайджаном и Албанией. Его подписали министр экономики Азербайджанской Республики Микаил Джаббаров, президент SOCAR Ровшан Наджаф и вице-премьер, министр инфраструктуры и энергетики республики Албания Белинда Баллука. Стороны договорились о создании возможностей для поощрения двухстороннего бизнес-партнерства, инвестиций и совместной деятельности, а также укрепления партнерства между странами в сферах энергетики, торговли, промышленности, сельского хозяйства туризма и транспорта. В рамках встречи состоялось подписание соглашения об экономическом сотрудничестве между правительством Азербайджанской Республики и Советом Министров Республики Албания. Документ предусматривал поощрение сотрудничества в вышеуказанных направлениях, а также в политической и гуманитарной сферах. Во многом благодаря таким контактам, товарооборот с Албанией, согласно данным Государственного Комитета Азербайджанской Республики, составил в 2024 году более 486 тысяч долларов (4).

В политической области, Азербайджан продолжал продвигать процесс заключения мирного договора с Арменией. 28 сентября 2024 года Министр Иностранных Дел Азербайджанской Республики Джейхун Байрамов, выступал на 16-м пленарном заседании Генеральной Ассамблеи ООН, отметил, что приверженность и решимость Азербайджанской Республики довести этот процесс до логического завершения, остаются неизменными. По мнению Д.Байрамова, для завершения процесса нормализации официальному Еревану необходимо юридически отказаться от территориальных притязаний к Азербайджану раз и навсегда, путем внесения изменений в конституцию Армении. Пренебрежение Армении в отношении реализации конституционных поправок в сочетании с резким увеличением военного бюджета, приобретением большого количества как у традиционных, так и у новых поставщиков, и попытки сохранить устаревшие нарраживи и структуры, основанные на конфликте, подрывали процесс нормализации и установление прочного и долгого мира (5).

Важным событием в политической жизни Азербайджана стало проведение в Баку II Саммита религиозных лидеров мира. Проведение столь значимого мероприятия в Азербайджане свидетельствовало о важной роли страны в развитии межкультурного диалога, религиозном и этническом многообразии, мультикультуральных ценностях и толерантности. Построеная в 1743 году в Шамахе Джума мечеть стала одной из первых мечетей в Исламском мире, а построенная в окрестностях Шеки церковь, относящаяся к периоду Кавказской Албании, одной из первых на Кавказе. Обращаясь к участникам и гостям II Саммита религиозных лидеров мира,

Президент Азербайджанской Республики Ильхам Алиев заявил: «Считаю, что одно из основных направлений заключается в недопущении религиозной дискриминации, использовании религии в политических целях, придании конфликтам религиозной окраски, разрушении в ходе конфликтов историко-религиозных памятников, введении совместной борьбы с ксенофобией, исламофобией, антисеметизмом, пропаганде традиционных ценностей. Считаю, что отмеченные мною вопросы отражают политики Азербайджана в данном направлении» (6).

Важным политическим мероприятием стало проведение в марте 2020 года в Кишиневе I форума азербайджанской молодежи под девизом «Вместе мы сила». В организации форума наряду с властями страны приняли участие ответственные сотрудники посольства Азербайджана в этой стране и Конгресса азербайджанцев Молдовы. Целью форума являлись консолидация азербайджанской молодежи в Молдове, выявление талантливых и активных лидеров для оказания им поддержки в участии общественно- политической жизни страны проживания. На форуме выступили государственный секретарь Министерства просвещения, культуры и исследований Молдовы Иван Георгий, директор агентства Николай Редице, руководитель отдела Государственного Комитета по работе с диаспорой Азербайджанской Республики Руслан Гулиев, общественные деятели, представители местных средств массовой информации Посол Азербайджанской Республики в Молдове Гудси Османов призвал молодежь не забывать родной азербайджанский язык, сохранять свои корни, приумножать национальный дух, бережно относиться к культуре и языку страны проживания.

В марте 2020 года по инициативе руководителя Азербайджанской диаспоры России академика Фазиля Курбанова в память жертвах в Ходжалы состоялось посещение центра поддержки семьи и детства Северо-Западного административного округа Москвы «Мой семейный центр». Воспитанникам центра были переданы школьные принадлежности, национальные сувениры, книги, знакомящие с богатой историей, культурой и традициями Азербайджана. Представитель диаспоры Айбениз Рустамова рассказала о трагических датах в современной истории Азербайджана, о трагедии в Ходжалы, во время которой зверски были убиты ни в чем неповинные люди, включая детей. Директор семейного центра Ирина Ветчинникова, выразив искреннюю признательность за чуткость и внимание к детям, вручила благодарственное письмо академику Фазилю Курбанову (7).

27 сентября 2024 года в ряде стран мира прошли мероприятия в связи с днем памяти Азербайджана. С участием Государственного Комитета по работе с диаспорой, в День памяти были организованы различные мероприятия, собрания, выставки, мемориальные уголки. В Азербайджанской воскресной школе имени Низами Гянджеви, функционирующей в Осло, столице Норвегии, состоялось мероприятие в котором приняли участие школьники. Учащиеся прочли стихи азербайджанских поэтов Гусейна Арифа «Я голосую за мир» и Баба Везироглы «Я видел Карабах прекрасным», «Вэтэн», а также стихи азербайджанских поэтов, посвященных шехидам. Педагоги школы рассказали о значении Дня памяти в истории нашего народа, героизме азербайджанских солдат и офицеров в 44- дневной Отечественной Войне. В мероприятии, организованном Европейским центром Азербайджана и посвященным 27 сентября – Дню памяти, в немецком городе Мюнстер, наряду с азербайджанцами приняли участие представители немецкой и еврейской общин. Участники заседания почтили память азербайджанских воинов, ставших шехидами в борьбе за территориальную целостность и суверенитет Азербайджана. Особо было подчеркнуто, что Азербайджан является страной с мультикультурными ценностями и в первой Карабахской войне и в Отечественной войне за территориальную целостность страны сражались и гибли представителями различных национальностей, проживавших в республике. На заседании также было рассказано об исторических дружеских связей Азербайджана и Израиля. В завершении был показан короткометражный фильм «Танк 533», Альберт Агарунов, посвященный национальному герою Азербайджана Альберту Агарунову (8).

В августе 2017 года в Баку проходил Глобальный форум молодых лидеров, организованный международным центром Низами Гянджеви. В работе форума участвовали Президенты Болгарии, Сербии, Хорватии, Латвии, Израиля, видные государственные и политические деяте-

ли из многих стран, около 80 молодых лидеров и исследователей, а также выпускники Гарвардского, Оксфордского, Калифорнийского университетов, французского университета Монпелье, Лондонской школы экономики и политики. На форуме обсуждались темы, посвященные индивидуальной оценке лидерства, формам лидерства. С участием экс –президента Болгарии Росена Плевнелиева и экс-президента Латвии Валдиса Загилерса были проведены дискуссии и семинары, затрагивающие политические и экономические вопросы (9).

Основанная в 2018 году в Париже ассоциация и «Франко- Азербайджанский диалог» главным своим направлением считала пропаганду азербайджанских ценностей в этой стране доведение до сведения французской общественности всей правды о политических и экономических процессах, происходивших в Азербайджане. Активную поддержку Ассоциации оказывали посольство Азербайджанской Республики во Франции и Государственный Комитет по работе диаспорой. Во многом благодаря их помощи в 2018 году в Лионе состоялась презентация ассоциации, на французском языке был выпушен специальный номер журнала «Ирс», проведена работа над специальным выпуском газеты парламента, посвященной 100 летию Азербайджанской Демократической Республики. В сентябре 2018 года в культурном центре при посольстве Азербайджана ассоциация провела день открытых дверей, где ознакомила французских гостей с историей и самобытной культурой Азербайджана. О планах Ассоциации на 2019 году предусматривалось проведение мероприятий, посвященных жертвам Ходжалинского геноцида, проведение национального праздника Новруз Байрам, фестиваля французских фильмов в Баку и конференции в Париже, посвященной участию азербайджанских женщин в политической жизни страны (10).

Политические и экономические связи Азербайджана со странами постсоветского пространства. 11 марта 2024 года в рамках официального визита в Азербайджан Президента Республики Казахстан Касым Жомарт Токиева состоялось первое заседание высшего межгосударственного совета Азербайджана и Казахстана. В своем выступлении Президент Азербайджанской Республики Ильхам Алиев отметил: «Два независимых государства уже более 30 лет активно взаимодействуют как в международных структурах, так и в двустороннем формате. Но в последнее время динамика наших взаимных визитов очень иллюстративна и говорит о том, что отношениям придан новый динамизм» (11). Президенты Азербайджанской Республики и Республики Казахстан посетили жемчужину Азербайджана Шушу и побывали в доме-музее Бюль-Бюль оглы и на Джыдыр дюзю. Президент Токаев был проинформирован о том, что Джыдыр дюзю является одним из символов Шушы и здесь исторически проводились скачки, а со времен Карабахского ханства – празднества по случаю Новруз Байрамы и других народных гуляний. 12 марта 2024 года главы государств приняли участие в церемонии открытия центра детского творчества имени Курман гази построенного в Физули. Как отметил Токаев, центр детского творчества построенный при содействии Казахстана станет центром дружбы и братства двух народов (11). Активно развивалось экономическое сотрудничество Азербайджана и Казахстана. 9 марта 2024 года в рамках встречи в Баку президента SOCAR и председателя правления «КазмунайГаз» стороны обсудили поэтапное увеличение объемов транзита Казахстанской нефти по нефтепроводу Баку-Тбилиси-Джейхан, а также вопросы транспортировки Казахстанской нефти по нефтепроводу Баку-Супса. Поэтапное увеличение предусматривало ежемесячную транспортировку Казахстанской нефти со 120 тысяч до 180 тысяч, что было связано с предстоящим в 2025 году пуском проекта «Тентз», являющегося сверхгигантским нефтяным месторождением в мире. Также Казахстанская компания предложила компании SOCAR рассмотреть вопросы, связанные с геологоразведкой в Казахстане в рамках улучшенного модельного контракта (УМК), принятого по распоряжению Президента Казахстана. В рамках УМК азербайджанской стороне предоставлялись наилучшие условия на геологоразведке, в том числе на добычу на сложных месторождениях. На встрече также отмечалось, что в результате принятых мер, которые отвечали экономическим и политическим интересам двух стран, объем транспортируемой нефти из Казахстана транзитом через Азербайджан, в 2023 году составил 1392 миллиона тон, что в 5,5 раза превышало объем 2022 года (12).

Важным направлением многосекторного экономического и политического сотрудничества Азербайджана являлось укрепление дружбы и партнерства с республикой Беларусь. В рамках государственного визита Президента Беларусь Александра Лукашенко в Азербайджан в 2024 году предметно рассматривались вопросы промышленной кооперации, создание совместных производств в Беларусии и Азербайджане, об увеличении потенциала совместных производств, созданных до этого времени. Это касалось в первую очередь, машиностроения, военно-промышленного комплекса, сельского хозяйства и транспорта, то есть вопросов, имеющих практическое значение для развития экономики Азербайджана и Беларусии. Президент Азербайджанской Республики Ильхам Алиев пригласил Беларусские компании активно участвовать в восстановлении Карабахской и Восточно-Зангезурской зоны как отметил Президент Азербайджанской Республики Ильхам Алиев, масштаб работ осуществляемых на этой территории, грандиозный, поскольку с нуля необходимо восстановить территорию на 50% больше чем территория такой страны, как Ливан. По мнению И.Алиева, наличие у Беларусии значительного опыта градостроительства и и современных технологий, в частности, опыт строительства агрогородков, может способствовать решению первостепенной задачи – возвращению бывших беженцев в родные места и дома обеспечению их соответствующей работой. Президент Беларусии А.Лукашенко выразил полное согласие с позицией И.Алиева, отметив, что страна располагает значительным опытом в строительстве агрогородов, фермерских хозяйств, животноводческих комплексов, а также в реализации комплексных программ в области сельского хозяйства, начиная от поставки элитного скота с тем, что бы удовлетворить потребности в молоке и мясе. По результатам государственного визита были подписаны Азербайджано-Беларусские документы, касающиеся различных аспектов политического и экономического сотрудничества между странами. Среди них такие, как «Меморандум между Министерством экономики Азербайджанской Республики и Министерством антимонопольного регулирования и торговли республики Белорусь о сотрудничестве в области конкурентной политики, государственных закупок, защиты прав потребителей и рекламной деятельности», «Меморандум о взаимопонимании между Агентством развития малого и среднего бизнеса Азербайджанской Республики и государственным учреждением» Национальное агентство инвестиций и приватизации «Министерства экономики Республики Беларусь», «Меморандум об установлении побратимских отношений между городами Баку и Минск, Гянджой и Гомелем» и ряд других документов (13).

В августе 2024 года с двухдневным государственным визитом в Баку находился Президент Российской Федерации В.Путин. Лидеры двух стран констатировали, что подписанная в феврале 2022 года Декларация о союзническом взаимодействии успешно реализовывалось как в политической так и экономической сферах. В Азербайджане работали 127 предприятий с российским капиталом, общий объем российских инвестиций в Азербайджанскую экономику превысил, 4,5 млрд. долларов США. Важные экономические проекты касались энергетики, промышленной кооперации, транспорта транзитных перевозок. Расширение гуманитарных связей дало необходимое ускорение всему комплексу межгосударственных отношений. В Азербайджане функционировали более 300 школ с русским языком обучения, филиалы ведущих высших учебных заведений Российской Федерации, постоянно работала межправительственная комиссия по гуманитарному сотрудничеству. На регулярной основе проводились Дни культуры Азербайджана в Российской Федерации и Дни культуры России в Азербайджане, тысячи молодых азербайджанцев получали высшее образовании в Российских вузах (14). Президент Российской Федерации В.Путин выразил желание его страны оказать содействие в подписании мирного договора между Азербайджаном и Арменией с тем, чтобы установить прочный мир в регионе Южного Кавказа. По результатам переговоров были подписаны важные документы и принято Совместное заявление глав государств. К таким документам относились: Меморандум о взаимопонимании между Агентством поощрения экспорта и инвестиций Азербайджанской Республики и Российской Федерации, Меморандум о взаимодействии между Министерством экологии и природных ресурсов Азербайджанской Республики и Министерством Экономического развития Российской Федерации по вопросам изменения климата и низкоуглеродного развития и др. (15). Все эти решения были призваны углубить взаимовыгодное экономическое

сотрудничество, реализовать тот потенциал, который имел у двух стран. Важную роль в гуманитарном сотрудничестве, развитии дружбы между народами Азербайджанской Республики и Российской Федерации играл Бакинский Славянский Университет. Тем, самым он выполнял не только образовательные, но и культурно-просветительские функции. Университет готовил учителей русского языка и литературы для азербайджанский школ. В 2022 году из 2500 студентов вуза 1700 были русистами, филологами, педагогами и переводчиками. В магистратуре БСУ обучение проводилось по 4 специальностям, связанным с русистикой. Университет подписал договоры о взаимном сотрудничестве в деле подготовки кадров с Московским государственным институтом международных отношений, Государственным Институтом русского языка имени А.С.Пушкина. Договоры предусматривали сотрудничество в учебно-педагогической научно-исследовательской и информационной деятельности в целях подготовки специалистов в области гуманитарных наук, обмена преподавателями и студентами, организации совместных научных сессий, конференций, публикации научных материалов (16). Таким образом, отношения дружбы и сотрудничества получили дальнейшее развитие и способствовали укреплению политического сотрудничества, а также культурному взаимообогащению народов России и Азербайджана.

Заключение. Благодаря взвешенной и продуманной линии руководства Азербайджана, возглавляемого Президентом Азербайджанской Республики Ильхамом Алиевым, в политическом социально-экономическом развитии страны были достигнуты впечатляющие успехи, что самым положительным образом отразилось на благосостоянии людей.

ЛИТЕРАТУРА

1. «Вышка», 224, 8-14 марта, №9 (20526) с.2.
2. «Вышка-94», 2022, 1 июля.
3. «Бакинский рабочий» 2018, 16 октября.
4. «Вышка-96», 2024, 8 марта.
5. «Ежедневные новости», 2024, 4 октября, с. 4 (1686) №40.
6. «Бакинский рабочий», 2019, 15 ноября.
7. «Новое время», 2020, 17-19 марта.
8. «Вышка», 2024, 4-10 октября, №37, с.16
9. «Эхо», 2017, 23 августа.
10. «Новое время», 2019, 11 февраля.
11. «Вышка», 2024, 15 марта, №10, с.2.
12. «Вышка», 2024, 15 марта, №10, с.4.
13. «Вышка», 2024, 17-23 мая, №17, с.1.
14. «Новое время» 2024, 20 августа, с.3.
15. «Новое время» 2024, 20 августа, с.2.
16. Абдуллаев К.М. Ученые записки БСУ. Серия общественно-политические науки. 2004. №1-2, с.7.

RAFİQ AXUNDOV
tarix elmləri namizədi,
Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti

MÜASİR MƏRHƏLƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ SİYASİ VƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI

1994-cü ildə Azərbaycan və Ermənistan arasında imzalanmış atəşkəs sazişi Azərbaycan xalqına diqqətini respublikanın qarşısında duran ən aktual siyasi və sosial-iqtisadi problemlərin həllinə cəmləmək imkanı verdi. 1994-cü il yanvarın 20-də respublika hökuməti ilə dünyanın aparıcı transmilli korporasiyaları arasında bağlanmış "Neft müqaviləsi" Azərbaycana nəinki iqtisadi səmərə, həm də bütün

dünyada geniş siyasi tanınma gətirdi. Hüquqi dünyəvi dövlət quruculuğunu və bazar iqtisadiyyatının formalaşmasını elan edən Azərbaycan Respublikasının 1995-ci il 12 noyabr tarixli yeni Konstitusiyası iqtisadi və siyasi sahədə aqressiv inkişaf üçün ilkin şərait yaratdı. Azərbaycan Respublikasının Avropa dövlətləri və postsovet məkanı ölkələri ilə siyasi və iqtisadi əlaqələri çoxşaxəli məsələləri əhatə edir, bütün dövlətlərin maraqlarına cavab verir və qarşılıqlı faydalı xarakter daşıyırdı. Bütün bunlar son nəticədə xalqın rifah halının yaxşılaşmasına öz töhfəsini verdi.

Açar sözlər: əməkdaşlıq, layihə, forum, inkişaf, multikulturalizm.

RAFIK AKHUNDOV
candidate of historical sciences,
associate professor of the Azerbaijan State University of Economics, (UNEC)

POLITICAL AND SOCIO-ECONOMIC DEVELOPMENT OF THE AZERBAIJAN REPUBLIC AT THE PRESENT STAGE

The ceasefire agreement signed between Azerbaijan and Armenia in 1994 provided the Azerbaijani people with the opportunity to concentrate on solving the most pressing political and socio-economic problems facing the republic. The "Oil Contract" concluded between the government of the republic and the world's leading transnational corporations on January 20, 1994, brought Azerbaijan not only economic benefits, but also broad political recognition throughout the world. The new Constitution of the Azerbaijan Republic of November 12, 1995, which proclaimed the construction of a legal secular state and the formation of a market economy, created the preconditions for aggressive development in the economic and political spheres. The political and economic ties of the Azerbaijan Republic with European states and the countries of the post-Soviet space covered a wide range of issues, met the interests of all countries and were mutually beneficial. All this ultimately contributed to the improvement of the well-being of the people.

Keywords: cooperation, project, forum, development, multiculturalism.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.e.d. Vəkil Həsənov, t.e.d. İbrahim Zeynalov.

UOT 94

TALEH CƏFƏROV
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ümumi tarix və tarixin tədrisi texnologiyaları
kafedrasının dosent əvəzi, tarix üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin
Azərbaycan tarixi (Humanitar elmlər üzrə) kafedrasının
elmlər doktoru proqramı üzrə qiyabi doktorantı
taleh.ceferov.83@mail.ru

ABŞ-DƏ TÜRK LOBBİSİNİN FORMALAŞMASI PROSESİ

DOI: https://doi.org/10.36719/2708-065X/108/67-72

Müasir dövrdə hər hansı bir dövləti lobbisiz təsəvvür etmək qeyri-mümkündür. Xüsusilə, qarşısına qlobal gücə çevrilməyi hədəf qoymuş Türkiyə Cümhuriyyəti diaspor və lobbiçilik institutunun formalaşması prosesinə təəssüflər olsun ki, çox gec başlamışdır. Baxmayaraq ki, dünyasının başlıca siyasi mərkəzi hesab olunan ABŞ-də türk diasporu XX əsrin əvvəllərində yaransa da, ancaq bu diaspor yunan və erməni lobbisi qarşısında səssiz qalmış, güclənə bilməmişdir. Xüsusilə, 2010-cu ildən Türkiyə Cümhuriyyətinin Xarici siyasət strategiyasına lobbiçilik məsələlərinin gücləndirilməsi kimi məsələ əlavə edildikdən sonra ABŞ-dəki türk lobbisi hərəkətə keçmiş, yeni lobbi quruluşları yaratmış və erməni və yunan lobbisinə qarşı Azərbaycan diasporu və lobbi quruluşları ilə koordinasiyalı şəkildə fəaliyyət göstərməkdədir. Bütün bunlara baxmayaarq, Türkiyə lobbiçilik fəaliyyəti üçün öz maraqlarına xidmət edən vahid dövlət strategiyası hazırlamalı, bu strategiyaya uyğun ABŞ-dəki türk lobbisini yönləndirməlidir.

Açar sözlər: Türk diasporu, inteqrasiya, lobbi, lobbiçilik, maraq qrupları.

Giriş. ABŞ-də türk diasporu XIX əsrin sonu-XX əsrin əvvəllərinə bu ölkəyə miqrasiya etmiş türklərin sayəsində formalaşmağa başladı. Bugünkü mənada lobbiçilik cəhdləri ilk dəfə Cümhuriyyətin elanından sonra (1924-cü ildə) "Türk Teavün Cəmiyyəti" ("Türk Rifah Dərnəyi"- "Turkish Welfare Associaton") tərəfindən başladılmışdır. Həmin ildə erməni və yunan lobbilərinin Türk-Amerikan dostluq və ticarət razılaşmasının ləğv edilməsi üçün başlatdığı "Lozannaya yox deyək" kampaniyasına qarşı fəaliyyətə keçmişdir. Türk diasporunun lobbiçilik fəaliyyəti xüsusilə XX əsrin 90-cı illərindən nəzərəçarpağa başladı. Bu gün ABŞ-dəki türk lobbisi daha çox er-məni və yunan lobbisinin Türkiyəyə qarşı atdığı addımların qarşısını almaqla kifayətlənir.

Lobbilərin strukturu, məqsədləri və funksiyaları haqqında ümumi qəbul edilmiş fikir XX əsrin ortalarından formalaşmağa başladı. Kiçik dövlətlərlə böyük dövlətlər arasında maraqların mübarizəsi nəticəsində ittifaqlar yaratmaq və siyasi nəticələri effektiv həll etmək üçün lobbilər təsis edildi. Xüsusən də kiçik dövlətlərin xarici siyasətdə həmişə yaşadıqları siyasi nəticələri ala bilmədiklərini əsas gətirərək bunu böyük dövlətlərin xarici siyasətdə qəbul etdikləri qərarlara təsir vasitəsi kimi görürdü.

Qərar vermə (hökumət tərəfindən), hökumətin təsiri və parlament üzvlərinə təsir gücü olan lobbiçilik tarixi mənşəyi ilə müəyyən edilir və qədim zamanlardan başlayır. 1999-cu ilin məlumatlarına görə, dünya lobbiçiliyinin mərkəzi hesab olunan ABŞ-ın paytaxtı Vaşinqton şəhərində 20 mindən çox lobbist fəaliyyət göstərirdi.

Lobbi ingiliscə "lobby" sözündən olub, "koridor" deməkdir. Böyük Lauurense lüğəti və ensklopediyasında "müəyyən bir maraq qrupunun istəklərini siyasi orqanlara qəbul etdirmək üçün çalışan qrup" kimi təhlil edilir.

Bu günə qədər lobbiçiliklə bağlı yazılan mənbələrdə ümumiyyətlə iki növ lobbiçilikdən bəhs edilir. Birincisi, "Birbaşa lobbiçilik", digəri isə "Dolayı lobbiçilik"dir. Birbaşa lobbiçiliklə dolayı lobbiçilik arasındakı fərqlər iki baxışdan aydın görünür. Hər ikisi dövlət siyasətinə təsir göstərməklə effektivdir, lakin bu məqsədə çatmaq yolları fərqlidir [1, s.34].

Türkiyənin lobbiçilik tarixinə nəzər salsaq, lobbiçilik fəaliyyətinin əslində Osmanlı dövründə başladığını söyləyə bilərik. II Əbdülhəmidin Avropa ictimai rəyini Osmanlı imperiyasının lehinə

yönəltmək üçün bəzi cəhdlər etdiyi məlumdur. Bugünkü mənada lobbiçilik cəhdləri ilk dəfə 1924-cü ildə Cümhuriyyətin elanından sonra "Türk Teavün Cemiyeti" ("Türk Rifah Dərnəyi"- "Turkish Welfare Associaton") tərəfindən başladılmışdır. Belə ki, həmin ildə erməni və yunan lobbilərinin Türk-Amerikan dostluq və ticarət razılaşmasının ləğv edilməsi üçün başlatdığı "Lozannaya yox deyək" kampaniyasına qarşı fəaliyyətə keçmişdir.

Qeyd edək ki, Osmanlı torpaqlarından Amerikaya köç 1860-cı illərdə başlamışdır. Köç edənlər arasında yunanlar, ermənilər və türklər də var idi. Bəhs olunan dövrdə türklər də iş tapmaq və pul qazanmaq üçün Amerikaya köç etmişdilər. Aparılan araşdırmalara görə, 1869-1915-ci illər arası 319.545 türk Amerikaya köç etmişdir. Lakin köç edənlərin 86%-i bir neçə müddət sonra geri dönmüşdür. Beləliklə, ABŞ-a gedən böyük çoxluq geri döndüyünə görə bu gün ABŞ-da tarix boyu köç etmiş, səpələnmiş erməni və yunan lobbisi kimi güclü lobbiçilik yoxdur.

"Türk Teavün Cəmiyyəti" ("Türk Rifah Dərnəyi"- "Turkish Welfare Associaton")nin qurulması zamanı I Dünya müharibəsi səbəbilə əlaqəsi kəsilən Türkiyə-ABŞ münasibətləri güclənməkdə idi. Lakin ABŞ-Türkiyə yaxınlaşması xüsusilə erməni və yunan lobbilərini narahat etməyə başladı. Buna görə də iki ölkə arasında münasibətlərin yaxınlaşmasının qarşısını almağa çalışan erməni və yunan lobbiləri türklərə qarşı təbliğat apararaq Amerika ictimaiyyətinə təsir edir və burada yaşayan türkləri də hədəf kimi görürdülər. Erməni və yunan təzyiqləri ilə üzləşən türklər bu ölkədə iş tapmaqda və şəbəkə qurmaqda çətinlik çəkmədilər. Erməni-yunan lobbiləri və Anadoludakı müharibə qurbanlarına kömək etmək üçün türklər bir araya gələrək bir dərnək qurmaq fikri ətrafında birləşdilər. Amerikada qurulan bu dərnək ilk türk lobbisi olma xüsusiyyətini qazandı.

Amerikada yaşayan türklər 3 qrupa bölünür:

- Sosial çevrəsi sadəcə türklərdən ibarət olan, yalnız öz işi ilə məşğul olub, ətrafındakı siyasi və sosial dəyişikliklərə biganə qalan qapalı bir toplum;
- Amerikan yaşam tərzinə tamamilə inteqrasiya olunmuş, orda təhsil alıb, amerikan vətəndaşlığı almış, demək olar ki, türk kimliyini ortaya çıxartmayan, ana dilindən belə istifadə etməyən, bir sözlə, yeni qitənin insanları;
- Hər iki kimliyi layiqincə daşıya bilən, Amerikanın siyasi və ictimai inkişafı ilə maraqlanan, bununla bərabər, öz milli türk dəyərlərini qoruya bilən, savadlı bir qrup. Üçüncü qrupa daxil olan toplumun sayı digərləri ilə müqayisədə nisbətən azdır. Onlar daha çox ATAA (Assembly of Turkish American Association) və TC-USA PAC üzvləridir və lobbiçilik sahəsində türk maraqlarını qorumaq üçün həmrəylik göstərirlər [2, s.70].

Prof. Dr. Tayyar Arının araşdırmasına görə Türkiyənin lobbiçilik fəaliyyətini 3 istiqamət üzrə tədqiq etmək lazımdır:

- Xarici lobbi şirkətlərinin vasitəsilə aparılan lobbiçilik fəaliyyətləri
- Türk-Amerikan dərnəkləri vasitəsilə siyasi və mədəni məqsədlər üçün həyata keçirilən lobbiçilik fəaliyyətləri
- Türk-Amerikan biznes dünyasının dərnəkləri vasitəsilə iqtisadi və daha çox ticarət məqsədləri üçün həyata keçirilən lobbiçilik fəaliyyətləri.

Amerikada fəaliyyət göstərən türk dərnək və təşkilatlarından "Türk Çalışmaları İnstitutu", "Türk-Amerikan Elm Adamları Dərnəyi" ("*Association of Turkish American Scientists"*), "Türk Amerikan İslam Dərnəyi" ("*Turkish American İslamic Foundation"*), "Amerikan-Türk Konqresi", "Türkiyənin Amerikalı Dostları" və digərləri Amerikan-Türk münasibətlərinin inkişafında xüsusi rol oynayır [3, s.221-222].

Türkiyənin Amerikadakı maraqları daha çox professional, xarici lobbi şirkətləri vasitəsilə həyata keçirilir. Məsələn, amerikan lobbi şirkətlərinin vasitəçiliyi ilə Türkiyə "Erməni soyqırımı"nın ABŞ konqresində tanınmaması üçün illik təxmini 3,5 milyon dollar xərcləməkdədir. Son vaxtlar Türkiyə adına çalışan lobbiçilərə Demokratlardan Richard Gephardt, Tom Dashle, Paul Manoford, Respublikaçılardan Jim McCrery və Donald Trumpın keçmiş Beynəlxalq Təhlükəsizlik Məsələləri üzrə müavini Michael Flynn aid etmək olar. Türkiyənin maraqları üçün çalışan lobbi şirkətləri arasında "Hill and Knowlton", "İnternational Advisors, İnc" və "McAuliffe, Kelly, Raffaelli & Seimans"in adları tez-tez hallanır [3, s.221-222].

1992-ci ildə Amerikada demokratların hakimiyyətə gəlməsi ilə Türkiyə müqavilə imzaladığı lobbi şirkətləri ilə işbirliyinə son qoyaraq, Klintona daha yaxın olan lobbiçilərin yaratdığı lobbi şirkətləri ilə əlaqələr qurmağa başladı. Bu şirkətlərin başında demokrat John Bradynin də üzvü olduğu "Capitoline İnternational Groups İnc" və "Arnold & Porter" kimi profesional şirkətlər vardı. Türkiyə məşhur Amerikan lobbi şirkəti olan "Fleishman-Hillard"a ildə 2 milyona yaxın məbləğ ödəyir. "Turkey Today" adlı newsletter məhz bu lobbi şirkəti ilə ABŞ-dəki Türk səfirliyinin birgə məhsuludur. Newsletter iki ayda bir nəşr olunur, Türkiyənin daxili və xarici siyasətində olan dəyişikliklərdən bəhs edir. Məqsəd isə Türkiyəni ABŞ ictimaiyyətinə tanıdaraq gündəmdə saxlamaqdır.

ABŞ-dakı ən fəal, ən çox üzvü olan türk dərnəyi ATAA (Assembly of Turkish American Association) 1979-cu ildə Amerikada yaşayan türklər tərəfindən yaradılıb. ATAA vergidən azad, maddi mənfəət güdməyən dərnəklərdəndir. Buna görə də büdcəsinin yalnız müəyyən bir hissəsini lobbiçilik fəaliyyətinə xərcləyə bilir. Bu da onun fəaliyyətini qismən də olsa çərçivəyə salır. Dərnək daha çox Türkiyənin mədəniyyətini, adət-ənənələrini Amerikan ictimaiyyətinə çatdırmaq, erməni lobbisinin təbliğ etdiyi təhrif olunmuş türk tarixini olduğu kimi anlatmaq – bir sözlə, türk imicini yüksək tutmaq üçün çalışmaqdadır [3, s.220]. ATAA bu məqsədlə "Turkish Times" adlı qəzət nəşr etdirir. Bu qəzet 1989-cu ildən günümüzədək ayda iki dəfə nəşr olunur və türk həqiqətlərini, mədəniyyətini ABŞ konqres üzvlərinə və ictimaiyyətinə lazımınca tanıdır. Lakin onu da qeyd edək ki, on beş gündən bir çıxan qəzet 1,25 dollara satılır . "New York Times" qəzetinin 25 centə satıldığını da nəzərə alsaq, olduqca baha qiymətə satılan "Turkish Times"ın oxucu kütləsinin də az olduğu sirr deyil. Cəmi 3000 abunəçisi olan qəzetin maliyyə sponsoru, demək olar ki, yoxdur. Bu da türkərin xalq olaraq siyasi qatılıma maraqsız olduqlarının daha bir sübutudur. 1996-cı ildən etibarən qəzetin nəzdində "Turkish Panorama" adlı newsletter Amerikan konqres üzvləri və Türk iş adamları ilə müsahibələr aparıb yayımlayır. Qurulduğu gündən ATAA Türkiyə haqqında məlumatsızlığın, türk xalqına qarşı ön mühakimələrin qarşısını almaq üçün xeyli tədbirlər görüb. [4, pp.9-15].

Bundan başqa, Gephardt Group, Greenberg Trauing Amsterdam & Partners kimi şirkətlərlə müqavilələr imzalayıb. Amsterdam & Partnersin əsas fəaliyyəti Amerikadakı FETÖ adına çalışan simaları aşkarlamaq, onların Konqresə təzyiqinin qarşısını almaqdır. APCO Worldwide və Burson Marsteller Türkiyənin ABŞ-dakı KİV-lər və media sahəsində Türkiyənin tanınması üçün lobbiçilik fəaliyyəti ilə məşğul olur. Ballard Partners və King & Spalding adlı lobbi şirkətləri isə Amerikan konqresində və komitələrində Türkiyə ilə bağlı hər hansı bir məsələ müzakirə olunanda iş başına keçir, bir sözlə, Vaşinqtondakı Türk maraqlarını qorumaq üçün səlahiyyətləndirilirlər.

Türkiyənin amerikan lobbi şirkətləri ilə imzalanan sazişləri arasında ən səs-küylüsü Kamil Ekim Alptekinin sahibi olduğu Inovo BV və Flynn Intel Group arasındakı anlaşmadır. Trumpın keçmiş Beynəlxalq Təhlükəsizlik məsləhətçisi Michael Flynnın şirkəti ilə bağladığı saziş FARA qeydlərində də yer alıb. Lakin Flynnın bu vəzifədə olduğu zaman xarici bir ölkə adına lobbiçilik fəaliyyəti ilə məşğul olmağı Amerikada müzakirələrə səbəb oldu. [5, s.95-97].

Digər tərəfdən, türk lobbisinin Amerikadakı maraqları 2 istiqamətə ayrılmışdır. Biri Türkiyənin maraqlarını qoruyan lobbiçilik fəaliyyəti, digəri isə FETO-culaın lehinə aparılan, bəzən isə Türkiyə adından aparılsa da, ölkənin mənafeyini tapdalayan lobbiçilik fəaliyyəti. Amerikada Türkiyə əleyhinə lobbiçilik fəaliyyəti yürüdən FETÖ onunla işbirliyinə razı olan şirkət tapmadığından "Washington Diplomacy Group" öz kiçik lobbi şirkətini qurmuşdur. FETÖ Washington Diplomacy Group-un vasitəçiliyi ilə həyata keçirdiyi lobbiçilik fəaliyyətlərində "Türk müxalifəti" adına hərəkət etdiyini qeyd edir. Donald Trump Obamanın strategiyasında köklü dəyişikliklər aparacağını iddia edərək iqtidara gəlmişdir. Lakin Trumpın ölkə içində yaşadığı iqtidar problemi və nizamlı bir xarici siyasət kursu müəyyənləşdirə bilməməsi ikili münasibətlərdə Obama dövründən qalma ab-havanın davam etməsinə gətirib çıxarıb [6, s.12-14] Təəssüf ki, Türkiyə lobbiçiliyin nə qədər önəmli olduğunun fərqinə varsa da, hələ də bu sahədə davamlı bir sistem qurmağa müvəffəq ola bilməyib. Xüsusilə də Türkiyə ABŞ-də lobbiçilik fəaliyyətinin nə dərəcədə vacib və əhəmiyyətli olduğunu bir qədər gec dərk etdi. Qardaş ölkə bunun önəmini anlayıb hərəkətə keçdiyində isə qarşısında artıq müxalifətdə yerini möhkəmlətmiş, davamlı və güclü lobbiçilik strategiyası olan, əllərinə düşən hər fürsətdə türk lobbisini əngəlləməyə çalışan yunan və erməni lobbisi vardı. Eyni zamanda bu sahədə Türkiyədən daha təcrübəli olan bu iki

ölkə bir-biri ilə koordinasiyalı lobbiçilik fəaliyyəti yürüdərək Türkiyənin uğur qazanmasının qarşısını almağa çalışırlar.

Uzun zaman lobbiçiliyin məğzini anlamayan Türkiyə lobbiçilik fəaliyyətində daha çox xaricdə yaşayan türklərə təsir göstərməyə çalışırdı. Buna əyani sübut isə Amerikadakı "Türk Günü" yürüyüşünü göstərmək olar. İldə bir dəfə ənənəvi keçirilən "Türk Günü" Amerikada yaşayan türklər cəlb edilir, lakin Amerikan Konqresinin nə Senatından, nə də Nümayəndələr Palatasından heç bir səlahiyyətli şəxs yürüşdə iştiraka cəlb edilmir. Halbuki başqa ölkələrin yürüş günlərində amerikalılar da həmin xalqın nümayəndələri ilə bərabər iştirak edir. Yerli amerikan vətəndaşlardan başqa, senatorlardan, konqresmenlərdən, millət vəkilləri və digər səlahiyyətli şəxslərdən də qatılanlar olur. Və beləliklə, konkret siyasi məqsədlərə xidmət etmədiyinə, yürüş zamanı amerikalılara Türkiyəni tanıtmaq mümkün olmadığına görə yüzlərcə türkün küçələrə tökülərək "Türk Günü" yürüşü təşkil etməsi də bir qədər mənasız və nəticəsiz olur.

Nyu-Yorklu millət vəkili öz müsahibəsində qeyd edir ki, bütün səlahiyyət müddətim boyunca qapımı cəmi bircə dəfə türk nümayəndə heyəti döydü, hansı ki, ermənilər ofisimizdən çıxmaq bilmirlər desəm, yanılmaram. Qeyd edək ki, Almaniyada 3 milyon türk, sadəcə 60 min erməni var. Buna baxmayaraq alman parlamentində "Erməni soyqırımı" qanun layihəsi yalnız bir səs əleyhinə və bir səs bitərəf olmaqla qəbul edildi. Əfsuslar olsun ki, qərar qəbul edilən zaman qanunun lehinə "hə" deyən diplomatlardan 12-si türkəsilli idi. Bu azmış kimi, qanun layihəsini hazırlayan Yaşıllar Partiyasının lideri də türk əsilli idi [7]. Amerikada çoxsaylı türk dərnəkləri bir-birindən xəbərsiz, koordinasiyasız şəkildə fəaliyyət göstərirlər.

Hamımıza məlumdur ki, Türkiyə illərdir, Avropa İttifaqına üzv olmaq üçün inadla çalışsa da, nəticə əldə edə bilmir. Diplomatiyada artıq Türkiyənin Avropa İttifaqına üzvlüyünü "əbədi nişanlılıq" adlandırırlar. Aİ-nın Türkiyəni gözü götürmədiyi məlumdur, bəs Türkiyə Aİ-yə qəbul olmaq üçün hansı əsaslı addımları atıb? Avropanı razı salmağın ən qısa və rahat yolu güclü lobbiçilik fəaliyyətindən keçir. Lakin Türkiyənin lobbiçiliklə uğur qazanmağı üçün daha çox yolu var.

Prof. Dr. Bener Karakartal Türkiyənin lobbiçilik fəaliyyətini analiz edərək qeyd edir ki, illərdir Türkiyə Aİ-yə üzv qəbul edilə bilmir. Deməli, Avropanın genişlənməsinə Fransa və Almaniya qərar verir. Türkiyə isə bu böyük bir həqiqəti nədənsə illərdir gözardı edir və Aİ-na üzv qəbul edilmək üçün türk lobbisi Brüsselə milyonlarla pul xərcləyir. Türk lobbisi brüsselli diplomatlara milyonları yedirdərkən Avropa İttifaqı 6 üzvdən 9-a, 9-dan 12-yə, 12-dən 27 üzvə kimi artdı. Türkiyə isə bu vaxt ərzində həmişə qapının arxasında qaldı. Türk lobbisi isə bundan nəticə çıxardıb "nəyi yanlış edirik?"-deyə fəaliyyətlərini sorğulamadı. Halbuki Türk diplomat və siyasətçiləri çox gözəl dərk edirlər ki, ermənipərəst Fransa və türkləri gözü götürməyən Almaniyada, o cümlədən ABŞ-dəki türk lobbisinin fəaliyyəti bir şəkildə razı salınmasa, Türkiyənin Aİ-yə üzvlüyü qeyri-mümkündür. Deməli, düzgün hədəfə yönəlmək lazımdır. Və Türkiyənin əlində fərqinə varmadığı və istifadə edə bilmədiyi gücü var. Bu güc Avropa və Amerikadakı heç də az olmayan türk əhalisidir. Qeyd edək ki, Amerika və Avropadakı türk sayı 5 milyonu keçib. Kifayət qədər sayları, maliyyə və iqtisadi gücləri olmasına baxmayaraq, türk lobbisi hələ də arxa planda qalıb.

Nəticə. ABŞ-dakı türk lobbisi daha çox erməni və yunan lobbisinin Türkiyəyə qarşı atdığı addımların qarşısını almaqla kifayətlənir. Halbuki, Türkiyə lobbiçilik fəaliyyəti üçün öz maraqlarına xidmət edən vahid dövlət strategiyası hazırlamalı, bu strategiyaya uyğun Amerikadakı türk lobbisini yönləndirməlidir. Bu gün türk lobbisi Amerikada hələ "image building" mərhələsindədir. Bu mərhələdə olan bir lobbinin isə Amerikan Konqresində qərar qəbuletmə prosesinə güclü təsir göstərə biləcəyinə ümid etmək, sadəcə, sadəlöhlük olardı.

ƏDƏBİYYAT

1. Bilal N. Amerikada Ermeni lobisi ve Lozan Antlaşması Kavgası (1923-1927) // Ermeni Araştırmaları, (Eylül-Ekim-Kasım 2001), Sayı: 3, Ankara, 2001, s.33-66.
2. Ələsgərova S. ABŞ-də Türk lobbisinin fəaliyyəti // Sumqayıt Dövlət Universiteti. Elmi Xəbərlər-Sosial və Humanitar elmlər bölməsi. Cild 16, №4, 2020, s.70-73.

3. Teyyar Arı. Amerikada Siyasal Yapı Lobiler ve Dış politika. Dora Basım Yayınevi, Ocak, 2000, 310 s, s.221-222.
4. Report of the Institute of Turkish Studies. 1982-1992, pp. 9-15.
5. Milbrath L. The Washington Lobbyists. Westport, Connecticut: Greenword press, 1963, s. 95-97.
6. Duran B., İnat K., Caner M. Türk Dış Politikası Yıllığı. SETA Yayınları, 2017, 475 s, s.12-14
7. /turk-diasporasi-ve-turk-lobisi https://www.sabah.com.tr/yazarlar/uluc/2016/06/07 (accessed 30 july)

ТАЛЕХ ДЖАФАРОВ
И.о. доцента кафедры всеобщей истории
и технологии преподавания истории
Азербайджанского государственного педагогического университета,
доктор философии по истории,
Заочный докторант по программе доктора наук кафедры
истории Азербайджана (гуманитарные науки)
Бакинского государственного университета

ПРОЦЕСС ФОРМИРОВАНИЯ ТУРЕЦКОГО ЛОББИ В США

В наше время невозможно представить ни одно государство без лобби. В частности, Турция, поставившая перед собой цель стать мировой державой, к сожалению, очень поздно начала процесс формирования диаспоры и института лоббирования. Хотя турецкая диаспора в США, считающихся главным политическим центром мира, сформировалась еще в начале XX века, перед греческим и армянским лобби эта диаспора хранила молчание и не смогла укрепиться. В частности, с 2010 года, после того как во внешнеполитическую стратегию Турецкой Республики был включен вопрос усиления вопросов лоббирования, турецкое лобби в США приняло меры, создало новые лоббистские структуры и действует в координации с азербайджанской диаспорой и лоббистскими структурами против армянского и греческого лобби. Несмотря на все это, Турция должна подготовить единую государственную стратегию лоббистской деятельности, отвечающую ее интересам, и направить турецкое лобби в США в соответствии с этой стратегией.

Ключевый слова: Ключевые слова: турецкая диаспора, интеграция, лобби, лоббирование, группы интересов.

TALEH JAFAROV
Acting Associate Professor of the Department of General History
and Technology of Teaching History of the Azerbaijan State Pedagogical University,
PhD in History,
Correspondence doctoral student in the Doctor of Science program of the
Department of History of Azerbaijan (Humanities) of Baku State University

THE PROCESS OF FORMATION OF THE TURKISH LOBBY IN THE USA

It is impossible to imagine any state without a lobby in the modern era. In particular, the Republic of Turkey, which has set itself the goal of becoming a global power, has unfortunately started the process of forming the institution of diaspora and lobbying very late. Although the Turkish diaspora in the United States, which is considered the main political center of the world, was formed at the beginning of the 20th century, this diaspora remained silent in the face of the Greek and Armenian lobby and could not strengthen. In particular, since 2010, after the issue of strengthening lobbying issues was added to the Foreign Policy Strategy of the Republic of Turkey, the Turkish lobby in the United States has taken action, created new lobby structures and is operating in coordination with the

Azerbaijani diaspora and lobby structures against the Armenian and Greek lobby. Despite all this, Turkey should develop a unified state strategy for lobbying activities that serves its interests and direct the Turkish lobby in the United States in accordance with this strategy.

Keywords: Turkish diaspora, integration, lobby, lobbying, interest groups.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 mart 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.e.d. Sevinc Əliyeva, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT 327

RAVİD RAMAZANOV
Bakı Dövlət Universiteti,
Dünya siyasəti ixtisası II kurs magistr
ravidramazanov327@gmail.com

GÜLGÜN QULİYEVA
Bakı Dövlət Universitetinin
Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrası,
s.e.f.d.
gulgun2004@mail.ru

RUSİYA –UKRAYNA MÜHARİBƏSİ ENERJİ AMİLİ

DOI: https://doi.org/10.36719/2708-065X/108/73-80

Rusiya-Ukrayna müharibəsində enerji amili mühüm strateji rola sahibdir. Müharibə 2022-ci ildə başladıqdan sonra enerji ehtiyatları, xüsusilə də təbii qaz və neft, Avropa və dünya iqtisadiyyatı üçün ciddi narahatlıq yaradıb. Rusiya dünyanın ən böyük enerji ixracatçılarından biridir, və onun enerji resurslarına çıxış Avropa ölkələri üçün çox vacibdir. Müharibə başladıqdan sonra Avropa Rusiyadan enerji asılılığını azaltmaq üçün alternativ mənbələr axtarmağa başlayıb, xüsusilə də bərpa olunan enerji və qaz təchizatı üçün başqa ölkələrə yönəlmək kimi addımlar atıb Bütövlükdə, enerji amili Rusiya-Ukrayna müharibəsində təkcə iqtisadi deyil, həm də siyasi təsirə malikdir. Enerji resursları uğrunda mübarizə yalnız hərbi sahədə deyil, həm də diplomatik və iqtisadi sahələrdə də strateji qərarların verilməsinə səbəb olub. Məqalədə müharibənin enerji amilinə təsiri məsələsi geniş şəkildə təhlil olunub.

Açar sözlər: Müharibə, enerji, tərəflər, sanksiya, resurslar, beynəlxalq, münasibətlər, təcavüzkar, asılılıq, ilhaq, separatçı, qlobal, təhlükəsizlik, toqquşma və s.

Giriş. Rusiya-Ukrayna müharibəsi regional sabitliyə, beynəlxalq münasibətlərə və qlobal təhlükəsizliyə çoxşaxəli təsirinə görə müasir geosiyasi mənzərədə böyük əhəmiyyət kəsb edir. Özündə münaqişə milli kimliklərin, ərazi suverenliyinin və fərqli geosiyasi istəklərin toqquşmasını təmsil edir.

Birincisi, müharibə qonşu dövlətlərin təcavüzkar hərəkətləri qarşısında dövlətlərin suverenliyinin və ərazi bütövlüyünün qorunub saxlanması problemini vurğulayır. Rusiyanın Krımı ilhaq etməsi və Ukraynanın şərqindəki separatçı hərəkatları dəstəkləməsi müəyyən edilmiş beynəlxalq hüquq normalarının və sərhədlərin müqəddəsliyinin aşınmasını göstərir.

İkincisi, münaqişə Rusiya ilə Qərb dünyası arasında münasibətləri gərginləşdirib, gərginliyin artmasına və diplomatik əlaqələrin korlanmasına gətirib çıxarıb. Ukraynada sanksiyaların tətbiqi, hərbi güclərin artırılması və etibarnamələrin tətbiqi regionda eskalasiya və daha da qeyri-sabitlik riskini artırır.

Üstəlik, Rusiya-Ukrayna müharibəsinin qlobal təhlükəsizlik üçün, xüsusən də silahların yayılması, enerji təhlükəsizliyi və beynəlxalq institutların dayanıqlılığı kontekstində daha geniş təsirləri var. Münaqişə mürəkkəb geosiyasi problemlərin həllində diplomatik səylərin, çoxtərəfli əməkdaşlığın və münaqişələrin həlli mexanizmlərinin effektivliyi üçün lakmus sınağı rolunu oynayır.

Rusiyanın enerji resurslarından siyasi təzyiq vasitəsi kimi istifadə etməsi, müharibənin gedişatına və beynəlxalq münasibətlərə təsir edib. Qərb ölkələri, Rusiyaya qarşı iqtisadi sanksiyalar tətbiq edərək, onun enerji ixracından əldə etdiyi gəlirləri məhdudlaşdırmağa çalışırlar. Bununla belə, Rusiya enerji bazarını diversifikasiya edərək Asiya ölkələrinə, xüsusilə də Çinə və Hindistana ixracını artırıb.

Bu müharibə həmçinin bərpa olunan enerjiyə keçidi sürətləndirib, çünki Avropa ölkələri enerji təhlükəsizliyini təmin etmək üçün neft və qazdan asılılığı azaltmağa çalışırlar. Alternativ enerji mənbələri olan günəş, külək və hidroenerji kimi sahələrə investisiyalar artıb.

Əsas hissə. Ukrayna-Rusiya müharibəsində enerji amili mühüm strateji rol oynayır, çünki hər iki ölkə enerji resursları və infrastrukturu ilə bağlı əhəmiyyətli geosiyasi mövqelərə malikdir. Müharibə nəticəsində enerji təchizatı, neft və qaz tədarük yolları və bazarlar üzərində ciddi təsirlər yaranıb. Enerji məsələsini müharibənin həm səbəbləri, həm də nəticələri baxımından analiz etmək olar. Rusiya dünya enerji bazarlarında böyük təsirə malik olan bir ölkədir və Ukrayna həm təbii qaz tranziti, həm də enerji resurslarının istehlakçısı kimi strateji mövqedədir. Rusiya Ukraynanı Qərbə yaxınlaşmasından çəkindirmək üçün enerji amilindən təzyiq vasitəsi kimi istifadə edib. Ukrayna qaz boru kəmərləri Avropaya Rusiya qazının tranziti üçün mühüm rol oynayır, və bu boru kəmərləri üzərində nəzarət Kreml üçün geosiyasi dəyərə malikdir.Ukraynadakı müharibə Avropanın enerji təhlükəsizliyi üçün böyük çətinliklər yaradıb. Rusiya, müharibə zamanı enerji ixracını Avropaya qarşı təzyiq vasitəsi kimi istifadə etməyə başlayıb, xüsusilə təbii qaz tədarükünü məhdudlaşdırmaqla. Bu da Avropanı digər mənbələrə yönəlməyə və enerji şaxələndirilməsinə məcbur edib. Xüsusilə qaz qiymətlərinin kəskin artması Avropa ölkələrində enerji böhranına səbəb olub. Rusiya müharibə zamanı Ukraynanın enerji infrastrukturlarını hədəf alıb. Elektrik stansiyaları, istilik və su təchizatı infrastrukturu zədələnib, bu da ölkədə ciddi humanitar böhran yaradıb. Enerji təchizatı problemləri Ukraynanın daxili iqtisadiyyatını zəiflədir və əhalinin gündəlik həyatına böyük təsir göstərir. Müharibə Avropanın enerji siyasətini də kökündən dəyişib. Avropa Birliyi, Rusiyadan enerji asılılığını azaltmaq üçün alternativ enerji mənbələrinə yönəlib, enerji tədarükünü şaxələndirmə və bərpa olunan enerji mənbələrinə keçidi sürətləndirib. Ukrayna isə müharibədən əvvəl də enerji müstəqilliyi üçün çalışırdı və müharibə bu səyləri daha da gücləndirib.

Enerji ixracatı Rusiyanın əsas gəlir mənbəyidir və müharibə ilə əlaqədar tətbiq edilən sanksiyalar bu gəlirləri əhəmiyyətli dərəcədə azaldıb. Xüsusilə Avropaya qaz tədarükünün azalması, Rusiya iqtisadiyyatına ciddi təsir göstərib, lakin Rusiya yeni bazarlar tapmaqla bu təsiri azaltmağa çalışır. Bu amillər göstərir ki, enerji Ukrayna-Rusiya müharibəsində təkcə iqtisadi və hərbi deyil, həm də diplomatik və geosiyasi əhəmiyyətə malikdir. Avropa İttifaqında enerji böhranı müharibədən daha əvvəl başlamışdı.

Post-pandemiya dövründə iqtisadi aktivliyin bərpası və enerjiyə tələbatın artması fonunda enerji, o cümlədən təbii qaz ehtiyatlarının kifayət qədər olmaması təbii qaz və elektrik qiymətlərini daha əvvəl müşahidə olunmayan həddə qədər yüksəltmişdi. Sözügedən dövrdə Avropa İttifaqının qaz saxlancı səviyyəsi 70-75% civarında olmaqla əvvəlki illərdəki 85-90% faiz səviyyəsindən aşağı idi. Rusiyanın enerji resurslarından Qərblə mübarizədə "silah" kimi istifadə etməsi səbəbindən qaz təchizatının dayanması təhlükəsi təbii qazın satış qiymətinin artmasına səbəb oldu. Aİ ərazisində artan təbii qaz qiymətləri 1 gündə 75%-dən çox artmaqla 7 mart tarixində ən yüksək həddə çatmışdı [4].

2022-ci ilin 24 fevralından etibarən Rusiyanın Ukrayna ərazisində başladığı hərbi əməliyyatlar Avropa İttifaqının Rusiyadan enerji asılılığını, xüsusən təbii qaz təchizatında Rusiyanın vacib rolunu bir daha gündəmə gətirdi. Müharibənin ilk günlərindən enerji qiymətlərində artım və təchizatın dayanması riskləri İttifaqın enerji, o cümlədən qaz təchizatı çatışmazlıqları ilə üzləşməsi vəziyyətini mümkün edirdi. Hadisələrin belə gedişatı Avropa İttifaqını mövcud enerji siyasətini yenidən gözdən keçirməyə və qaz təchizatı mənbələrinin Rusiyadan diversifikasiyası istiqamətində təcili addımlar atmağa sövq etmişdir.Lakin bütün bunlara baxmayaraq Rusiya ilə Rusiya qazı üçün rubl ilə ödənişlərə Avropa Komissiyası tərəfindən icazə verilməsi apreldən etibarən qaz qiymətlərində eniş və stabilləşməyə imkan versə də, iyunun ortalarında Rusiyanın "Şimal Axını 1" kəməri vasitəsilə Almaniya, İtaliya və Slovakiyaya qaz təchizatını azaltması qiymətlərin yenidən artmasına və 15 iyunda gün ərzində 30% yüksələrək 1 meqavatt saat üçün 146 avroya çatmasına səbəb olmuşdur. Belə ki, Rusiya "Şimal Axını 1" boru kəmərində texniki problemləri əsas gətirərək Almaniyaya günlük qaz təchizatını 60%, İtaliyaya 15%, Slovakiyaya 30% azaltmış və Avstriyaya oxşar azalma ilə bağlı xəbərdarlıq etmişdir. Avropa ölkələri bu addımın texniki səbəblərlə əlaqəli olmadığı və Rusiyanın enerji təchizatından siyasi alət kimi istifadə etdiyi qənaətindədirlər. Təchizatın bu səviyyədə davam etməsinin qeyd olunan ölkələr, xüsusən Almaniya üçün ciddi çətinliklər yaratması qaçılmazdır.

Bildiyimiz kimi Avropanın ən böyük neft-qaz tədarükçüsü Rusiya, Rusiyanın da ən böyük satış bazarı Avropadır. ABŞ Rusiyadan il ərzində gündəlik ortalama 199 min barrel xam neft, 471 min barrel neft məhsulları idxal edib. Rusiyanın Avropanın neft emalı zavodlarında da payı olduqca yük-

səkdir. Avropadakı neft emalı zavodlarının böyük əksəriyyəti, əsasən də, İtaliya, Niderland, Polşa, Çexiya və digər dövlətlər Rusiyanın "Urals" markalı nefti ilə fəaliyyət göstərir.

İkisi də itkinin böyüklüyünün miqyasından xəbərdardır və dərhal tədbir görülməli olduğunu bilirlər. Elə məhz bunun nəticəsidir ki,biz müharibənin gedişində Şultz hökümətinin Türkiyəyə səfərinin şahidi olduq.

Avropanın narazılığına səbəb olan bir başqa məqam isə ABŞ-ın yüksək enerji qiymətləridir. Rusiyadan Avropaya təbii qaz axınının dayandırılması ABŞ-ı dünyanın ən böyük mayeləşdirilmiş təbii qaz ixracatçısı edib. Yeni neft ehtiyatlarının əldə edilməsi yarışında ABŞ Venesuelaya qarşı siyasətindən geri çəkildi, sanksiyaları ləğv etdi və ölkədə xam neft hasilatını artırmaq üçün bir sıra dəyişikliklər etdi.

Avropa ABŞ-ı müharibəni qazanc alətinə çevirməkdə ittiham edir. Rusiya prezidenti Vladimir Putinin müharibəsi Qərbin birliyini məhv etməklə hədələyir, Aİ rəsmiləri isə ABŞ prezidenti Co Baydeni həddindən artıq yüksək qaz qiymətləri, silah satışı və ticarətinə görə tənqid edir. ABŞ isə Avropanın tənqidlərini əsassız hesab edir. "Avropada qazın qiymətinin artmasına səbəb Putinin Ukraynaya müdaxiləsi və Putinin Avropaya qarşı enerji müharibəsidir", - deyə Baydenin Milli Təhlükəsizlik Şurasının sözçüsü bildirib. Bununla yanaşı ABŞ-dan Avropaya maye qaz ixracatındakı böyük artımın ABŞ-ın günahı olmadığını, əksinə, Avropanın bir aləti olduğunu ifadə edən sözçü, "Bu yolla Avropanın Rusiyadan uzaqlaşmaq imkanı var və asılılığını kəsdi" deyə ittihamları kəskin şəkildə susdurdu [18, s.74]. Bu dönəmdə Almaniyanın iqtisadiyyat naziri Vaşinqtonu daha çox "həmrəylik" göstərməyə və enerji xərclərini azaltmağa kömək etməyə çağırdı, Fransa prezidenti Emmanuel Macron da yüksək Amerika qaz qiymətlərinin "dostluqdan kənar" olduğunu söylədi. İndi isə gəlin baxaq Fransa Avropada yaşanan enerji böhranını necə aradan qaldırmağa çalışır?

Bununla yanaşı artıq biz Fransa Prezidenti Emanuel Makronun Şarm-əl-Şeyxdə Maduro ilə əl sıxışmasını xatırlayırıq [18, s.56], Qışın gəldiyini və Avropanın özünün ən böyük neft-qaz tədarükçüsünü itirdiyini görməsi Fransanı Venesuella ilə yaxınlaşmağa vadar etdi. Hətta Fransa mediası belə Makronun münasibətinin kəskin dəyişməsini "ikiüzlülük", "Liberation" nəşri isə bunu Makronun Maduro ilə münasibətlərində 180 dərəcəlik dönüş adlandırmışdır [19, s.102]. LFI partiyasının lideri Jan-Lük Melanşon da Fransa Prezidentinin yanaşmasının dəyişməsinə diqqət çəkərək tviter səhifəsində yazıb ki, neftə olan ehtiyac insanları daha nəzakətli edir.

Avropanın qaz tədarükü ilə bağlı digər ümüd yeri isə EasMed layihəsi idi. 2 yanvar 2020-ci il tarixində İsrail,Yunanıstan və Cənubi Kipr arasında imzalanan Şərqi Aralıq dənizi Qaz boru kəməri (EastMed) layihəsi İsrail qazının Türkiyədən yan keçərək Avropaya daşınmasını nəzərdə tutur. Layihədə İsrailə məxsus 10 milyard kubmetr təbii qazın əvvəlcə Kiprə, sonra Yunanıstana, ordan İtaliyaya daşınması nəzərdə tutulurdu. 1900 km uzunluğunda və 7 milyard avroya başa gəlməsi gözlənilən layihənin trayektoriyasının genişliyi və dəyərinin yüksək olması ABŞ-ın dəstəyini layihədən çəkməsinə səbəb oldu. Hərçəndki, layihənin həyata keçirilməsi Avropanın 35% Rusiyadan təbii qaz aslılığını azaltmağın yolu kimi görünürdü. Avropa Birliyi və İsrailin razılaşmadan 3 il öncə verdiyi bəyanatlarda da bu öz əksini tapırdı.

Lakin başlanan Rusiya-Ukrayna müharibəsi Avropanı qısa bir zamanda neft və qazla təmin edəcək yeni ixracatçılar tapmağa vadar etdi. Bununla da İsrail və Misir qazının LNG olaraq Avropaya çatdırılmasına dair razılaşma imzalandı [2, s.87]. Lakin bu boru kəməri İsrail və Türkiyə arasında olduğu qədər qaz tədarükünü qarşılamağa yaramır. Səbəb isə İsraildən gedən boru kəmərləri İsrailin daxili bazarlarını da təbii qazla təmin edir. Bu da Avropaya yaxın vaxtda 1-2 milyard, uzaq vaxtda isə 4-5 milyard kubmetr təbii qaz daşınmasını həyata keçirə biləcəyi ilə bağlı təminat verir. Mütəxəssislərə görə isə İsraildən Türkiyəyə bir boru xətti il ərzində 10-16 milyard kubmetr qaz daşıya bilər və daha ucuz olar. Bununla yanaşı Türkiyə üzərindən Avropaya qazın daşınması Şimali Kiprlə əlaqələrin inkişafına, həmçinin iqtisadi və siyasi qazanc əldə edə biləcəyinə dair ümüd vəd edir.

Avropanın Rusiya enerjisindən aslılığını minimuma endirmək və tamamilə ləğv etməklə əlaqədar olaraq Avropa Komissiyası daha dayanıqlı enerji sistemi qurmağı hədəfləyən «REPowerEU» planını təqdim etdi.

Avropa Komissiyası hesab edir ki, bunun üçün elektrik enerjisi, nəqliyyat və istilik sektorlarında bərpa olunan enerji paylarının əhəmiyyətli dərəcədə genişləndirilməsi tələb olunacaq. REPower-

EU Planındakı tədbirlər enerjiyə qənaət, enerji təchizatının şaxələndirilməsi və evlərdə, sənayedə və elektrik istehsalında qalıq yanacaqları əvəz etmək üçün bərpa olunan enerjinin sürətlə yayılması vasitəsilə bu ambisiyaya cavab verə bilər. Plan özündə 5 əsas istiqamətdə tədbirlərin həyata keçirilməsini əks etdirir:

Ukrayna Rusiya ilə Avropa arasında strateji bir bölgədə yerləşir. Bu kimi səbəblər nəticəsində ruslar Ukraynanı "keçid zonası", "strateji maneə" və "Qərb ölkələrini Şərq blokundan ayıran bufer zonası" kimi görürdülər. Ukrayna sözünün mənasına baxanda; " *Ukrayna* " sözü rus dilində "sərhəd ölkə, kənar ölkə" deməkdir [12, s.46]. Bu səbəblərdən başqa Rusiyanın bufer zonası olan Ukrayna həm də Rusiya ilə Qərb arasında enerjinin ötürüldüyü dəhliz rolunu oynayır. Təbii qaz və neft kimi yataqları ilə enerji baxımından kasıb olan Ukrayna Rusiyadan asılı bir ölkədir. Ona görə də Rusiyanın enerji resursları var; Ukrayna qapı mövqeyində olduğu üçün iki ölkə arasında "qarşılıqlı asılılıq" mövcuddur.

Avropa İttifaqında enerji böhranı müharibədən daha əvvəl başlamışdı. 2021 ci ilin sentyabr-oktyabr aylarından etibarən İttifaq ərazisində təbii qaz təchizatı problemləri və rekord təbii qaz qiymətləri hökm sürürdü.

Post-pandemiya dövründə iqtisadi aktivliyin bərpası və enerjiyə tələbatın artması fonunda enerji, o cümlədən təbii qaz ehtiyatlarının kifayət qədər olmaması təbii qaz və elektrik qiymətlərini daha əvvəl müşahidə olunmayan həddə qədər yüksəltmişdi. Sözügedən dövrdə Avropa İttifaqının qaz saxlancı səviyyəsi 70-75% civarında olmaqla əvvəlki illərdəki 85-90% faiz səviyyəsindən aşağı idi [3, s.7]. Rusiyanın enerji resurslarından Qərblə mübarizədə "silah" kimi istifadə etməsi səbəbindən qaz təchizatının dayanması təhlükəsi təbii qazın satış qiymətinin artmasına səbəb oldu. Aİ ərazisində artan təbii qaz qiymətləri 1 gündə 75%-dən çox artmaqla 7 mart tarixində ən yüksək həddə çatmışdı.

Avropa Komissiyası hesab edir ki, bunun üçün elektrik enerjisi, nəqliyyat və istilik sektorlarında bərpa olunan enerji paylarının əhəmiyyətli dərəcədə genişləndirilməsi tələb olunacaq. REPowerEU Planındakı tədbirlər enerjiyə qənaət, enerji təchizatının şaxələndirilməsi və evlərdə, sənayedə və elektrik istehsalında qalıq yanacaqları əvəz etmək üçün bərpa olunan enerjinin sürətlə yayılması vasitəsilə bu ambisiyaya cavab verə bilər. Plan özündə 5 əsas istiqamətdə tədbirlərin həyata keçirilməsini əks etdirir:

Enerjiyə qənaət – orta və uzunmüddətli dövrdə enerji səmərəliliyinin artırılması, o cümlədən yaşayış binalarının isitmə sistemlərinin səmərəliliyinin yüksəldilməsi və qısamüddətli dövrdə əhali və bizneslərin davranışlarını qənaət yönündə dəyişməsi ilə enerji istehlakının azaldılması (Plandakı hesablamalara əsasən əhali tərəfindən evlərdə enerjiyə qənaət 2022-ci ildə 15.5 milyard m3 təbii qazı əvəz edə bilər);

Enerji mənbələrinin diversifikasiyası – qaz, LNG və hidrogenin İttifaq ölkələri tərəfindən könülü əsasda birgə alışlarını həyata keçirmək üçün yaradılmış İttifaqın Enerji Platforması vasitəsilə tələbatın strukturunun müəyyən edilməsi, qaz idxalı, saxlancı və ötürülməsi infrastrukturunun optimallaşdırılması, qaz və hidrogen alışı üzrə etibarlı tərəfdaş ölkələrlə uzunmüddətli əməkdaşlıq sazişlərinin imzalanması, təchizatın diversifikasiyası imkanlarının qiymətləndirilməsi və müqavilələr ilə bağlı məsələlərin koordinasiyası, LNG ticarəti ilə bağlı məsləhətçi qrupun yaradılması;

Bərpaolunan enerjiyə sürətli keçid – qalıq yanacaq idxalının və elektrik enerjisi qiymətlərinin azalmasına imkan verəcək sürətli keçidin təmin edilməsi üçün hidrogen və biometan istehsalının artırılması, İttifaqın günəş enerjisi strategiyasının və müəyyən kateqoriyalı binalar üçün günəş enerjisi panellərinin quraşdırılmasının məcburiliyini nəzərdə tutan tənzimləmənin qəbulu, külək enerjisi sektorunun rəqabət qabiliyyətinin artırılması, günəş, külək və termal enerji texnologiyaları üzrə dəyər zəncirlərinin gücləndirilməsi, icazə sisteminin sadələşdirilməsi və digər tədbirlər (Qeyd: Plandakı hesablamalara əsasən külək və günəş enerjisindən istifadənin artırılması 2022-ci ildə 20 milyard m3 təbii qazı əvəz edə bilər) [19, s.226];

"Ağıllı" investisiyalar – Planın icrası üçün 2027-ci ilə qədər tələb olunan əlavə 210 milyard avro investisiya üzrə ümumi maraqlara xidmət edən (Projects of Common Interest) mövcud layihələrin tamamlanması və əlavə ehtiyacların, xüsusən Mərkəzi və Şərqi Avropada və Almaniyanın şimalındakı ehtiyacların ödənilməsi üçün yeni infrastrukturun qurulmasına (o cümlədən, Cənub Qaz Dəhlizinin gücləndirilməsi) məhdud sayda yeni investisiyaların yatırılması, enerji qiymətlərinin volatilli-

yini azaltmaq və qiymətləri nəzarətdə saxlamaq, həmçinin aşağı gəlirli əhaliyə və kiçik bizneslərə dəstək üçün vəsaitlərin ayrılması;

Hazırlığın gücləndirilməsi – təchizatın pozulması riskinə qarşı hazırlığı artırmaq üçün yay müddətində saxlancların lazımi səviyyəyə qədər doldurulması, qısamüddətli dövrdə enerjiyə qənaət tədbirlərinin tətbiqi, ehtiyat planlarının yenilənməsi, qonşu İttifaq ölkələri ilə ikitərəfli həmrəylik sazişlərinin (solidarity agreements) imzalanması və enerji ötürücü sistemlərin texniki cəhətdən hazır vəziyyətdə (əks axın həyata keçirmək üçün) olması.

İttifaqın təbii qaz saxlanclarının səviyyəsi və saxlancların doldurulması üçün yeni mexanizm. Avropa Qaz İnfrastrukturu təşkilatının (Gas Infrastructure Europe) məlumatlarına əsasən İttifaq üzrə saxlanclar cari ilin 18 iyun tarixinə təxminən 53 faiz səviyyəsində doludur. Avropa Komissiyasının saxlancların məcburi doldurulması ilə bağlı təklifi növbəti qışa hazırlıqlı olmaq üçün 1 noyabradək saxlancların minimum 80% dolu olması, növbəti ildən isə bu faizin 90%-ə qaldırılmasını nəzərdə tutur. Təbii qaz saxlancları İttifaqda qış ərzində istifadə olunan qazın 25-30%-ni təmin edir. İttifaqın 27 üzv ölkəsindən 17-si saxlanclara malikdir ki, ən iri saxlanclar Almaniya, İtaliya, Fransa və Niderland ərazisindədir. Saxlancların yerləşdiyi ölkələr onların üzərinə daha böyük maliyyə yükü düşməsindən narahatdırlar [19, s.226].

Bu yükün paylaşdırılması üçün Komissiyanın təklifi 2 alternativ mexanizm nəzərdə tutur: (i) ərazisində saxlanc olmayan ölkələrin öz illik təbii qaz istifadəsinin 15 faizini digər üzv ölkələrdəki saxlanclardan alması və ya (ii) ərazisində saxlanc olmayan ölkələrin digər üzv ölkələrdəki saxlancların doldurulmasına maliyyə dəstəyini nəzərdə tutan birgə mexanizm. Təkliflə bağlı Avropa Şurası və Parlamenti artıq ilkin razılığa gəlib. Bununla belə, təcrübədə saxlancların istifadəsi zamanı İttifaq ölkələri arasında fikir ayrılıqları yaranması, təchizatın dayanması halında daha çox ehtiyata malik olan ölkələrin həmin ehtiyatları digər Aİ üzvləri ilə bölüşməkdən imtina etməsi riski mövcuddur [12, s.67].

Müharibənin digər təsirləri. Ukraynanın Rusiya tərəfindən işğalı iki ölkə arasında təhlükəsizlik narahatlığını artırmaqla yanaşı, Avropa və Şərqi Asiyada kollektiv müdafiə mexanizmlərini gücləndirdi və beynəlxalq sistemdə böyük dövlətlər arasında müttəfiqlik xətlərini aydınlaşdırdı. Ukraynadakı müharibə Çini Mərkəzi və Cənubi Asiyada öz təsirini genişləndirməkdə daha fəal olmağa sövq etsə də, ABŞ və Aİ-nin Rusiyaya qarşı həyata keçirdiyi sərt siyasət onu sosial və iqtisadi çətinliklərlə üz-üzə qoyub. Çin "uzaq diplomatiyasını" davam etdirmək üçün onun dinc inkişaf strategiyasını dəstəkləyir və Qərbin sanksiyalarına qarşı ehtiyatlı davranaraq Rusiyanı birbaşa dəstəkləməkdən yayınır. Ukrayna böhranı Çinin qarşılıqlı asılılıq strategiyası çərçivəsində iqtisadi və siyasi zəmində milli maraqlarına mənfi təsir göstərsə də, transatlantik ittifaq tərəfində və ittifaq daxilində yaranan parçalanma və ya böhranlar qarşısında inteqrativ rol oynadı. Ukrayna böhranı ilə Çin öz maraqları baxımından mövqeyinin nə qədər strateji olduğunu bir daha gördü. Ukrayna Çin üçün strateji əhəmiyyət kəsb etsə də, Qərb dövlətlərinin, o cümlədən ABŞ-ın münasibət və yanaşmalarını nəzərə alaraq Rusiyanın həm də strateji tərəfdaş olduğunu unutmaq olmaz. Çinin transatlantik alyans daxilində artan nüfuzu həm Ukrayna-Rusiya müharibəsi nəticəsində inkişaf edəcək siyasətlərdə, həm də bu müharibə ilə ənənəvi digərini qazanan Qərbin Rusiya ilə münasibətlərində həlledici olacaqdır. Beynəlxalq tarazlıqları dəyişmək üçün böyük səylər göstərən Çin iqtisadi zəmində mühüm gücə çevrildiyi halda, Rusiya hərbi mənada güc yarışındadır. Hər iki ölkə Qərb dövlətlərinin tətbiq etdiyi sanksiyalar və beynəlxalq sistemdən təcrid olunmaq təhlükəsi ilə üzləşir. ABŞ-ın Asiya Sakit Okean qitəsində həyata keçirdiyi layihələrə cavab olaraq Çin Avropa qitəsində mövcudluğunu daha da artırmağı hədəfləyir. Çin Avropa kapital bazarını cəlb etməklə ABŞ-ın Avropa coğrafiyası üzərindəki iqtisadi üstünlüyünü öz xeyrinə çevirməyi hədəfləyir. Çin Qərbə qarşı düşmənçilik yaratmadan öz iqtisadi və regional inkişafını başa çatdırmaq, Avropa ölkələrində əhali potensialını artırmaq, iqtisadi qüdrətinə siyasi zəmində qarşılıq vermək məqsədi daşıyan təşəbbüslərdə iştirak edir.

Rusiya Ukrayna-Rusiya müharibəsində enerji faktorundan yenidən şantaj elementi kimi istifadə etdikdə, Aİ ölkələri çox seçim imkanlarının olmadığını anladılar. Aİ ölkələri Rusiyadan enerji asılılığını tədricən azaltmaq və Rusiya ilə enerji əlaqələrini dayandırmaq üçün siyasət yürüdürlər. Aİ ölkələri enerji resurslarının şaxələndirilməsi ilə bağlı fikirlərini bildirsələr də, bu vəziyyətin ilk növbədə Aİ ölkələrinin vəziyyətinin gərginləşdirməsi ehtimalı var idi [17, s.78], lakin, digər alternativlərin

seçilməsi qısa müddət də vəziyyəti stabilliyi təmin etdi. Bərpa olunan enerji mənbələri AB ölkələrinin uzunmüddətli planlarına daxildir. Alternativ olaraq kömür, LNG və ya bərpa olunan enerji mənbələrinin təmin edilməsi AB ölkələrinin enerji təchizatı təhlükəsizliyi çərçivəsində variantlar olaraq görülür.

Nəticə. Rusiya-Ukrayna müharibəsində enerji faktoru həm Rusiya, həm də dünya üçün ciddi nəticələrə səbəb olub. Enerji amili müharibənin gedişatına, iqtisadi təsirlərinə və qlobal enerji bazarına təsir göstərərək bir çox dəyişikliklərə səbəb olub. Bu amilin əsas nəticələrini belə ümumiləşdirmək olar:

1. Qlobal enerji bazarında qeyri-sabitlik

- Rusiya dünyanın əsas enerji təchizatçılarından biri olduğu üçün müharibə qlobal enerji bazarında qeyri-sabitliyə səbəb olub. Bu qeyri-sabitlik nəticəsində dünya miqyasında neft və qaz qiymətləri artıb, xüsusən də Avropa İttifaqı ölkələrində enerji qiymətləri ciddi şəkildə bahalaşıb.

2. Enerji təchizatı zəncirinin pozulması

- Avropa Rusiya təbii qazına yüksək dərəcədə asılı olduğundan, müharibə ilə əlaqədar tətbiq edilən sanksiyalar və Rusiya qazının ixracına məhdudiyyətlər Avropa enerji təchizatında böyük boşluqlar yaradıb. Bu da Avropa ölkələrini alternativ enerji mənbələri axtarmağa sövq edib.

3. Alternativ enerji mənbələrinə keçid

- Avropa ölkələri enerji təhlükəsizliyini təmin etmək məqsədilə bərpa olunan enerji mənbələrinə və digər tədarükçülərə daha çox diqqət yönəltməyə başlayıb. Bu prosesin sürətlənməsi qlobal miqyasda bərpa olunan enerji texnologiyalarına investisiyaların artmasına səbəb olub.

4. Rusiya iqtisadiyyatına təsir

- Müharibə və sanksiyalar nəticəsində Rusiya neft və qaz ixracatında əhəmiyyətli dərəcədə azalma müşahidə olunub. Bu isə ölkənin gəlirlərinin azalmasına və iqtisadi böhrana səbəb olub.

5. Yeni enerji ittifaqları və tədarükçülər

- Avropa İttifaqı Rusiya qazından asılılığını azaltmaq üçün ABŞ, Norveç, Qətər kimi ölkələrlə yeni müqavilələr bağlayıb. Bu enerji təchizatını diversifikasiya etməklə yanaşı, dünya üzrə enerji bazarında yeni tədarükçülərin rolunun artmasına səbəb olub.

6. Geosiyasi təsirlər

- Enerji tədarükünün məhdudlaşdırılması və bahalaşması səbəbindən bəzi ölkələr daha qatı siyasi mövqe tutub, digərləri isə enerji təhlükəsizliyini qorumaq məqsədilə neytral və ya balanslı siyasət yürütməyə çalışıb.

Rusiya-Ukrayna müharibəsi nəticəsində enerji məsələləri yeni strateji əhəmiyyət qazanıb, bu da qlobal enerji siyasətinə uzunmüddətli təsir göstərə bilər.

ƏDƏBİYYAT

1. Alary, V., & Frija, A. (2022). Crop–livestock systems transformation in the semiarid zones of North Africa over a decade: approach and case-study in Southern Tunisia. The Journal of Agricultural Science, 160(1-2), 1-15.
2. Aras, B., Yorulmazlar, E. (2018). Turkey's Mediation Role in the Russia–Ukraine Crisis: A Three-Step Model. Turkish Studies, 19(3), 360-380. 2.
3. Ay, H. M., & Söylemez, A. (2023). Grain Corridor Agreement and Turkey's Role in the Russia-Ukraine War. *Journal of Islamic World and Politics, 7*(1), 1-10.
4. Bentley, A. R., et al. (2022). Near-to long-term measures to stabilize global wheat supplies and food security. Nature Food.
5. Borin, A., et al. (2022). Quantitative assessment of the economic impact of the trade disruptions following the Russian invasion of Ukraine. Bank of Italy Occasional Papers.
6. Carriquiry, M., Dumortier, J., & Elobeid, A. (2022). Trade scenarios compensating for halted wheat and maize exports from Russia and Ukraine increase carbon emissions without easing food insecurity. Nature Food, 3(10), 847-850.

7. Devlen, B. (2014). Don't poke the Russian bear»: Turkish policy in the Ukrainian crisis. *Norwegian Peacebuilding Resource Centre. URL:* https://www. files. ethz. ch/isn/180832/a5fa13f65a0a0fcece44339be2957279. pdf. [31.01.2025].
8. Euronews, 2022. https://tr.euronews.com/2022/03/25/ almanya-100-milyar-euroluk-savunma-butcesi-ile-neler-sat-n-alabilir [31.01.2025].
9. Fang, Y., et al. (2022). The Russia-Ukraine conflict and volatility risk of commodity markets. Finance Research Letters.
10. Foa, R., Mollat, M., Isha, H., Romero-Vidal, X., Evans, D., & Klassen, A. (2022). A World Divided: Russia, China and the West. Bennett Insitute for Public Policy, University of Cambridge. https://doi.org/10.17863/CAM.90281
11. Glauben, T., Svanidze, M., Götz, L., Prehn, S., Jamali Jaghdani, T., Đurić, I., & Kuhn, L. (2022). The war in Ukraine, agricultural trade and risks to global food security. Intereconomics, 57(3), 157-163.
12. Kesici, G. E. (2022). Rusya - Ukrayna Savaşı'nın AB'nin Enerji Politikalarına Yansımas, EURO Politika, (15), 46-54, Retrieved from https://dergipark.org.tr/ en/pub/europ/issue/75914/1255195 [31.01.2025].
13. Kotkin, S. (2014). "Stalin: Volume I: Paradoxes of Power, 1878-1928." Penguin Books.
14. Kuromiya, H. (2005). Freedom and terror in the Donbas: A Ukrainian-Russian borderland, 1870s-1990s. Slavic Review, 53(8), 1165-1187. 17
15. Kutlay, M., Öniş, Z. (2021). Turkish foreign policy in a post-western order: strategic autonomy or new forms of dependence?. *International Affairs*, *97*(4), 1085-1104.18
16. Ruta, M. (2022). The impact of the war in Ukraine on global trade and investment.
17. Stein, A. (2022). Turkey's response to the Russia-Ukraine crisis.
18. Steinbach, S. (2023). The Russia–Ukraine war and global trade reallocations. Economics Letters, 226, 111075.
19. Steinbach, S. (2023). The Russia–Ukraine war and global trade reallocations Economics Letters, 226, 111075.) 33.

РАВИД РАМАЗАНОВ
Магистрант 2 курса по специальности «Мировая политика»
Бакинского Государственного Университета

ГУЛЬГУН ГУЛИЕВА
Бакинский Государственный Университет
Кафедра дипломатии и современных интеграционных процессов,
Доктор философии по политическим наукам

РОССИЙСКО-УКРАИНСКАЯ ВОЙНА – ЭНЕРГЕТИЧЕСКИЙ ФАКТОР

Энергетический фактор играет важную стратегическую роль в российско-украинской войне. С началом войны в 2022 году энергетические ресурсы, особенно природный газ и нефть, стали серьезной проблемой для европейской и мировой экономики. Россия является одним из крупнейших в мире экспортеров энергоносителей, и доступ к ее энергоресурсам имеет решающее значение для европейских стран. После войны Европа начала искать альтернативные источники энергии, чтобы уменьшить свою зависимость от России, особенно обращаясь к другим странам за возобновляемыми источниками энергии и поставками газа. В целом энергетический фактор имеет не только экономическое, но и политическое влияние в российско-украинской войне. Борьба за энергоресурсы привела к принятию стратегических решений не только в военной, но и в дипломатической и экономической областях. В статье широко анализируется вопрос о влиянии войны на энергетический фактор.

Ключевые слова: Война, энергетика, партии, санкции, ресурсы. международные отношения. агрессивный, зависимый, аннексический, сепаратистский, глобальный, безопасность, столкновение и т. д.

RAVID RAMAZANOV
Baku State University,
Second year Master's degree in World Politics

GULGUN GULIYEVA
Department of Diplomacy and Modern Integration Processes,
Baku State University,
PhD in Political Science

THE RUSSIAN-UKRAINIAN WAR IS AN ENERGY FACTOR

The energy factor has an important strategic role in the Russia-Ukraine war. Since the war began in 2022, energy resources, especially natural gas and oil, have become a serious concern for the European and world economy. Russia is one of the world's largest energy exporters, and access to its energy resources is crucial for European countries After the war, Europe began to look for alternative sources of energy to reduce its dependence on Russia, especially by turning to other countries for renewable energy and gas supplies. In general, the energy factor has not only an economic, but also a political impact in the Russian-Ukrainian war. The struggle for energy resources has led to making strategic decisions not only in the military field, but also in the diplomatic and economic fields. In the article, the question of the impact of the war on the energy factor is widely analyzed.

Keyworlds: War, energy, parties, sanctions, resources, international relations, aggressive, dependent, annexation, separatist, global, security, collision, etc.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 31 yanvar 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.e.d. İsmayıl Musa, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT: 32.019.5(07)

NAZİM İBADOV
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, Bakı Dövlət Universieteti
ibadov.nazim1@gmail.com

AYNUR ABBASOVA
Bakı Dövlət Universitetinin magistrantı
abbasovva.aynur@gmail.com

BEYNƏLXALQ MEDİA SİSTEMİNDƏ İNFORMASİYA AZADLIĞINA DEMOKRATİK TƏMİNAT

DOI: https://doi.org/10.36719/2708-065X/108/81-86

Hazırlanmış məqalədə media və media institutu anlayışlarının mahiyyəti araşdırılaraq təhlil olunur, media institutunun müasir informasiya cəmiyyətində tutduğu yer və oynadığı rol tədqiq edilir və eyni zamanda bu sahənin cəmiyyət həyatının digər sahələri ilə qarşılıqlı əlaqəsi müəyyənləşdirilir, bunlarla yanaşı Azərbaycan Respublikasında media faktorunun gücü və təşəkkül prosesi nəzərdən keçirilir, mövcud reallıqlar və əldə olunan nəticələrdən söhbət açılır. Media və kütləvi informasiya vasitələrinin günümüzdə təsir gücünün artması prosesi davam edir və hal-hazırda hər kəs öz informasiya ehtiyacını ödəmək üçün məhz bu vasitələrə üz tutur, onların geniş imkanlarından yararlanmağa çalışırlar.

Dünyada və ölkəmizdə media sistemi və mövcud media institutlarını, onların mahiyyəti və səlahiyyətlərini, cəmiyyət həyatının digər sahələrilə qarşılıqlı əlaqəsini müəyyən etmək, Azərbaycan və dünya mediasını təhlil edərək günümüzdə baş verən aktual məsələlərə olan münasibətlərini aydınlaşdırmaq, siyasi münasibətlərin təşəkkülündə, siyasi məsələlərin müzakirəsində medianın gücünü araşdırmaq və eyni zamanda modern informasiya cəmiyyətində yer alan Azərbaycan Respublikasında media və KİV-nin inkişaf göstəricilərini təhlil etmək tədqiqat işinin qarşısında duran vacib məqsədlərdən biridir. Tədqiqatın aparılmasında analiz, sintez, tarixi, müqayisəli, proqnozlaşdırma və s. metodlardan istifadə olunmuşdur. Ümumiyyətlə, bu tədqiqatın sonunda belə qənaətə gəlmək olar ki, hazırda bütün dünyanı özünə cəlb edən texnoloji yenilik və innovasiyaların media sisteminə tətbiqi bu sektorun inkişafında mühüm köklü dəyişikliklərə səbəb olmuş, media fəaliyyətinin söykəndiyi demokratik prinsiplər informasiya azadlığına, modern və qabaqcıl informasiya cəmiyyətinin təşəkkülünə yol açmışdır.

Açar sözlər: modern informasiya cəmiyyəti, informasiya azadlığı, media, media institutu, KİV, demokratiya, inkişaf, əlaqə.

Giriş. Müasir media sisteminin təşəkkülü həm keçmiş dəyərləri, xalq ənənələrini, adət və xüsusiyyətlərini özündə əks etdirir, həm də modern dünyanın yeniliklərini, yaradıcılıq meyarlarını, çağdaş dövrün tələb və ehtiyaclarını ödəməyə çalışır. Bu onunla izah edilə bilər ki, media sistemi hər bir dövlətin daxili keyfiyyətlərini, aktual məsələ və mövzularını özündə birləşdirməklə bərabər, eyni zamanda günümüzün bütün reallıqlarını da əhatə etməli və beynəlxalq səciyyə daşımalıdır. Çünki, media milli və beynəlxalq əhəmiyyətli siyasi-iqtisadi, sosial-mədəni, ideoloji və daha artıq sahələrə siraət etməklə maarifləndirici, bilikləndirici, inandırıcı və təsiredici effektə malik ictimai rəy formalaşdıran institut olaraq xarakterizə edilir. Medianın əsasını təşkil edən informasiyaların əldə olunmasında ənənəvi ilə yanaşı yeni tipli KİV-lərin formalaşması və internetin ixtirası zaman və məkan anlayışının aradan qalxmasına, bununla da informativ və qabaqcıl modern cəmiyyətin təşəkkülünə yol açdı. Bu gün hər kəsin çox asan və rahat şəkildə dünyanın istənilən yerində özlərinə lazım olan informasiyanı əldə edə bilməsi belə bir cəmiyyətin reallığını göstərən vacib şərtdir və bu cəmiyyətin formalaşmasının əsas göstəricisi olan media sistemi bir çox məsələlərdə əsaslı müsbətyönümlü dəyişikliklər əldə etsə də, bu sahənin inkişafı ilə bağlı bəzi problemlər qalmaqdadır. Bu problemlərin aradan qaldırılması və daha güclü uğurların əldə edilməsi üçün müvafiq sahədə dövlət və informasiya təhlükəsizliyi siyasəti tətbiq edilməli, təhlil olunmalı və icrası reallaşdırılmalıdır.

Modern informasiya cəmiyyətində media institutu vacib komponent kimi. İnformasiya cəmiyyətinin formalaşması ilə əlaqədar olaraq dünyada baş verən proseslərin aydınlaşdırılması və qavranıl-

masında vacib faktor kimi media çıxış edir və onun günümüzdə rolu durmadan artır. Media qeyri-müəyyən anlayış olaraq qiymətləndirilir və o, təkcə bir vasitə kimi deyil, həm də mədəni kodların istehsal olunduğu, yayımlandığı, informasiyaların ötürüldüyü mühit kimi də nəzərdən keçirilir. "IV hakimiyyət" adlandırılan media və kütləvi informasiya vasitələrinin son dövrlərdə bu qədər geniş imkanlara və istifadəçi kütləsinə mənsub olması ilə əlaqədar kütləvi kommunikasiya tədqiqatçıları qarşıdan gələn "mediakratiya" dövrünün təşəkküründə medianın rolunu qeyd edirlər (1, s.89).

XXI yüzillik informasiya əsri olaraq səciyyələndirildiyindən modern və postmodern cəmiyyətlərdə informasiya başlıca idarəetmə vasitəsi kimi təsbit edilmiş, informasiya resurslarının artırılması və təkmil səviyyəyə çatdırılması xüsusi faktor kimi şərtləndirilmişdir. Xüsusi mübadilə və idarəetmə vasitəsi kimi xarakterizə olunan informasiya resurslarından daha düzgün və səmərəli istifadə olunması məqsədilə yeni mexanizmlərə, texnologiyalara və innovativ dəyişikliklərə istinad edilir. İnformasiya siyasətinin təşkili və reallaşdırılması, informasiya resurslarının idarə edilməsi üçün media təsisatı əhəmiyyətli rola malik vasitə kimi nəzərdən keçirilir. Media təsisatı və ya institutu modern informasiya cəmiyyətində ən əsas məlumat mübadiləsi vasitəsi hesab edilir. Kommunikasiya vasitəsi olaraq media təsisatından istifadə olunması strateji önəm daşıyır və fundamental vəzifə kimi dəyərləndirilir (2, s.38).

Məlum olduğu kimi, Birləşmiş Millətlər Təşkilatının yaranma səbəblərindən biri öz fəaliyyətində insan haqlarına, söz və mətbuat, fikir azadlığına önəm verməsi ilə əlaqəli olmuşdur. Ümumdünya İnsan Hüquqları Bəyənnaməsinin meydana gəlməsi və ardınca insan hüquq və azadlıqlarını qorumaq məqsədilə formalaşdırılan çoxsaylı beynəlxalq təşkilatların yaranması beynəlxalq informasiya mübadiləsinin demokratik prinsiplər üzərində qurulmasına şərait yaratdı. Odur ki, beynəlxalq media və jurnalistikanın formalaşmasında beynəlxalq təşkilatların rolu yüksək qiymətləndirilir, bu təşkilatların verdiyi qərarlar və qətnamələr KİV-in və medianın inkişafında güclü ideya xəzinəsi, ilham mənbəyi olmuşdur (3, s.4).

Media etikası deyilən bir anlayış mövcuddur ki, bu anlayışın mahiyyətini media davranışı, media mədəniyyəti təşkil edir. Həsən bəy Zərdabinin media və mətbuat sahəsi ilə əlaqəli çox mənalı bir deyimi vardır: "Həqiqət, qəzet camaat üçündür, camaat qəzet üçün deyildir". Bu ifadənin anlamı ondan ibarətdir ki, medianın cəmiyyət içərisindəki tək etibarlı dayağı elə həmin cəmiyyət qarşısında daşıdığı məsuliyyət hissidir. Hər bir peşədə və sahədə olduğu kimi, media və jurnalistika sahəsində də ən vacib şərt öz işini peşəkar şəkildə yerinə yetirmək, mövcud tələblərə cavab vermək, təkliflərə açıq olmaq, mədəni qaydalara riayət etmək çərçivəsində fəaliyyət göstərməkdir. Hətta, sosial bilgiləndirməni öhdəsinə götürmüş, əsas vəzifəsi cəmiyyəti maarifləndirmək olan media sahəsi üçün peşəkarlıq çox daha vacib amil kimi qiymətləndirilməlidir (4, s.8).

Media cəmiyyət həyatının müxtəlif sahələri ilə qarşılıqlı əlaqədə, onların bir hissəsi kimi günügündən inkişaf etməkdədir. Mədəniyyət, incəsənət, təhsil, siyasət, ictimaiyyətlə əlaqələr və sadalanmayan daha bir neçə sektor media ilə sıx bağlılıq təşkil edir və inkişaf göstəriciləri iki istiqamətli dəyişir. Siyasətin təşkilində və siyasi məsələlərin təhlil və müzakirəsində medianın rolu, şübhəsiz, danılmaz gerçəklikdir. Seçki proseslərinin mediada işıqlandırılması qanunvericilikdə nəzərdə tutulmuş, məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı əsaslı qanunlar qəbul edilmiş, qeyri-məhdud söz və fikir azadlığı Konstitusiyada əks olunmuşdur, bütün bunlar siyasətdə medianın gücünü bir daha təsdiq edir. Seçkilərin mediada əksi prosesində plüralizm, redaksiya müstəqilliyi və media peşəkarlığı ilkin zəruri şərtlər olaraq qiymətləndirilir. Eyni zamanda, mətbuat azadlığının sərhədləri ilə bağlı geniş konsensus mövcuddur. Siyasətin və siyasi münasibətlərin təşkili və tənzimlənməsində medianın başlıca vəzifəsi vətəndaşların bu sahə ilə əlaqədar məlumatlandırılması və siyasi məsələlərdə iştirakının təmin edilməsi ilə bağlıdır (5, s.13).

Hazırkı dövrdə medianın ən geniş yayılmış növü olan sosial media həyat gündəliyinə çevrilərək, yaş məhdudiyyəti olmadan hər kəsin istifadə etdiyi, istədiyi məlumat, şəkil, video və s. paylaşdığı, yeni dostlar, tanışlıqlar qazandığı, özünün sosial "kimliyini" yaratdığı, geniş kütlə qarşısında onlarla birgə müxtəlif problem və məsələləri müzakirə etdiyi platformadır, sosial şəbəkələrin geniş funksiyaları var və onun xüsusiyyətləri bu sadalananlarla məhdudlaşmır. Bu media növü, eyni zamanda, xalqın, cəmiyyətin səsi də adlandırılır, onun gücü KİV-in gücü ilə müqayisə olunur. Sürətli paylaşım və məsələdən anında xəbər tutmaq kimi üstünlüyə malik olan sosial media kütləvi informasiya vasitələrini geridə qoysa da, məlumatın doğruluğuna şübhə baxımından sosial mediaya inam azdır. Geniş istifadəçi kütləsinin "paylaşdığı" informasiyanın yalnış və ya şişirdilmiş olması ehtimalı bir qədər sosial mediaya güvəni sarsıdır.

Həmçinin, internetdən gec-gec istifadə edən istifadəçilər, yaşlı nəslin nümayəndələri, sosial şəbəkələrdə az vaxt keçirənlər üçün sosial media deyil, KİV daha effektiv məlumat mənbəyi hesab olunur (6, s.181).

Deyilənləri ümumiləşdirərək bildirmək olar ki, media və mətbuat xidmətlərinin ən başlıca vəzifəsi ictimai rəy formalaşdıraraq cəmiyyəti bilgiləndirmək, insanlar, qurumlar, təşkilatlar arasında xoş niyyət körpüsü yaratmaqdır. Siyasətlə sıx bağlı şəkildə fəaliyyət göstərən media hökumətlə vətəndaş arasında münasibətlərin qurulmasına xidmət etməklə, təmsil edilən qurum ilə bağlı məlumatları insanlara ötürərək vətəndaşların həmin hökumət və fəaliyyəti haqqında düşüncələrini hökumət rəsmilərinə çatdırır. Bu əlaqənin əsaslı şəkildə yaradılmasında ən təsirli vasitə olan media və mətbuatdan yaxşı istifadə edə bilmək üçün, ilk növbədə onu yaxşı öyrənmək və tanımaq lazımdır. Media vasitəsilə ictimaiyyətə ötürülən məlumatlar hökumətin rəsmi strukturlarının cəmiyyətlə bağlı məsuliyyətini artırmağa xidmət etməklə bərabər, eyni zamanda cəmiyyətə hökumətin ona yönəlik siyasətinin təsirlərini də başa düşməyə kömək edir. Media və mətbuatın azadlığı çox böyük önəm daşıyır, hökumət nümayəndələri məlumatın ictimaiyyətə çatdırılmasına maneə yaratmamalı, hansı məlumatın yaxşı, hansının pis olması ilə bağlı medianın əvəzinə qərar verməməlidirlər (7, s.62).

Dünya mediasının təşəkkülündə Azərbaycan mediasının real mənzərəsi. Azərbaycan mediası və mətbuat tarixi olduqca qədim köklərə, onları özündə əks etdirən dəyərlərə, adət-ənənələrə əsaslanır, bir neçə mərhələdə təşəkkül tapan media və mətbuat sistemi müstəqillikdən əvvəlki və sonrakı dövrləri əhatə etməklə günümüzdəki modern şəklini almışdır. "Əkinçi" qəzetinin nəşri ilə doğulan milli mediamız həyatda qalmaq üçün çox savaş vermiş, çox səy göstərmiş, sonunda dünya mediasında öz layiqli yerini almağı bacarmışdır. Bu müstəqillikdən əvvəlki dövr üçün böyük uğur idi, çünki həmin dövrdə mətbuat və medianın modernləşdirilməsi ilə bağlı tədbirlərin görülməsi, müvafiq qaydaların tətbiqi və idarəsi böyük zəhmət və cəsarət tələb edirdi. Nəhayət, çox böyük zəhmət və əzmlə, yeni islahatlara və dünya təcrübəsinə əsaslanmaqla Azərbaycan xalqı öz mediasına sahib çıxdı və bugünkü modern media sisteminin təməlini qoydu. Doğrudur, hal-hazırda mediamızın müəyyən çatışmazlıqları və nəzərəçarpacaq problemləri mövcuddur, lakin bu problemləri və məsələləri öz yoluna qoymaq, həllinə nail olmaq da öz əlimizdədir.

Azərbaycan mediası multikultural media kimi xarakterizə olunur, burada yaşayan insanların bütün məsələlərdən və hadisələrdən xəbər tutması məqsədilə müxtəlif dillərdə qəzet və jurnallar nəşr olunur ki, bu da həmin coğrafiyadan olan vətəndaşlar üçün məlumat mənbəyi kimi çıxış edir. "Multikultural media: Azərbaycanda yaşayan xalqların mətbuatı" adlı kitabda qeyd olunur: "Günümüzün əsas çağırışlarından birinin informasiya təhlükəsziliyinin təmin edilməsi olduğunu nəzərə alsaq, yazılı və elektron KİV-lə sosial media arasında rəqabətin artığı çağdaş dövrümüzdə jurnalistikanın inkişaf problemləri ilə yanaşı, hər dövlətin milli təhlükəsizliyi ilə eyni səviyyədə dəyərləndirilən, ictimai rəyin formalaşdırılmasında başlıca aparıcı rola malik informasiya təhlükəsizliyinin qorunması bütünlükdə cəmiyətin, insanların vətəndaşlıq borcu olmalıdır" (8, s.7).

Son dövrlərin media sistemində özünəməxsus yer alan və qlobal müzakirə obyektinə çevrilən "Ermənistan-Azərbaycan münaqişəsi", "Qarabağ problemi" ilə əlaqədar olaraq beynəlxalq aləmdə gedən informasiya savaşı İnternet və sosial şəbəkələrdə, müxtəlif platformalarda, portallarda əks olunaraq dünya və Azərbaycan mediasında geniş müzakirələrə yol açdı.

Münaqişənin həm cəbhədə canlı şəkildə, həm də mediada sosial baxımdan baş verməsi məsələnin dünyaya daha tez çatdırılmasına, dövlətlərin mövqeyini öyrənməyə və fikirləri təhlil edərək sonrakı mərhələləri təxmin etməyə imkan verdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Heydər oğlu Əliyev dəfələrə media qarşısında çıxış edərək qarşı tərəfi sülhə dəvət etsə də, birgəyaşayışla bağlı verdiyi zəmanəti xatırlatmağa çalışsa da, Ermənistan rəhbərliyi qəti etiraz etdi, münaqişəni qansız həll etməyi deyil, təxribatlara əl ataraq müharibə variantı ilə həll etməyi seçdi (9).

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsi dövründə media ilə keçirdiyi görüşlər, verdiyi müsahibələr, xalqa olan çağırışları həm siyasi xadimlər, həm jurnalistlər üçün böyük örnək və önəmli dərslikdir. Hər cavabında subyektivliyə yox, mediada vacib şərtlərdən biri hesab olunan obyektivliyə istinad edən Cənab Prezident ən çətin zamanlarda belə xalqın yanında oldu, onun adından çıxış etdi (10, s.22).

Media sahəsi elə bir zirvədir ki, bu zirvənin fəthi natiqlikdən, söz sənətindən, dəqiqlikdən, hətta, vicdanlı və dürüst olmaqdan keçir. Çünki media məsuliyyət daşıyaraq cəmiyyəti olanlardan və ya ola-

caqlardan xəbərdar etməyi hədəfləyir, bu yolda doğruları bildirməyi, xalqı maarifləndirməyi vəzifəsi olaraq görür. Bu sahədə misilsiz xidmətləri daim diqqət mərkəzində olan, adını hər sahədə ən yüksək pillələrdə xatırladığımız Heydər Əliyev həm media sahəsində özü bir örnək kimi qiymətləndirilmiş, həm də media ilə bağlı gördüyü işlərlə, bu sahəyə verdiyi diqqət və qayğı ilə yadda qalmışdır. Azərbaycanda azad sözün, müstəqil mətbuatın bərqərar olması üçün həyata keçirilən islahatlar, hüquqi dövlət quruculuğu və media sahəsinin dövlətlə bağlı məsələləri vətəndaşlara tam və operativ qaydada çatdırılması ilə əlaqədar görülən işlər, dövlətə qarşı edilən bütün təzyiqlərin mediada işıqlanıdırılaraq dünyaya çatdırılması ilə əlaqəli aparılan tədbirlər, Azərbaycan media və mətbuatının dünya təcrübəsinə və yeniliklərinə inteqrasiyası və bu kimi digər bütün məsələlər Heydər Əliyevin əldə etdiyi və ölkəmizə qazandırığı uğurların sadəcə kiçik bir hissəsidir. O, yaşadığı dövrün çətinliklərini qeyd edərək, bu çətin vəziyyətlə mübarizəyə başlamış, xarici resursların yoxluğu, beynəlxalq aləmə çıxışın məhdudluğuna baxmayaraq, bir çox irəliləyişlər əldə etməyi bacarmışdır (11, s.180).

Media sahəsində bir çox irəliləyişləri göz önündə saxlayaraq qeyd edə bilərik ki, cavan nəsil nümayəndələri, xüsusilə gənclər arasında yeni media və İnternet jurnalistikası, blogerlik, vətəndaş-sosial yazarlıq vərdiş və bilgilərinə xüsusi ehtiyac vardır. Çünki, modern informasiya cəmiyyəti bütün vətəndaşlardan bunları tələb edir və dövrün qlobal ənənələrinə uyğun şəkildə fəaliyyət göstərmək hər bir vətəndaşın vacib vəzifəsinə çevrilməlidir. Bütün bu qlobal proseslərdə gənclərin yaradıcılıq qabiliyyəti, virtual dünya ilə təmasları, çıxışları məhdud qiymətləndirilir və arzuolunan səviyyəyə çatdırılmasının mümkünlüyü nəzərə alınaraq daha geniş, əhatəli fəaliyyət planlarının tərtibi və təşkilinin həyata keçirilməsi tövsiyyə olunur. Bu gün bir çox istiqamətlər üzrə məlumat əldə etmək üçün xarici portallara, internet saytlarına və resurslara müraciət məhdudlaşdırılmalı, yerli məlumat bazasının artırılması istiqamətində səmərəli tədbirlər görülməlidir.

Nəticə. Modern informasiya cəmiyyətinə keçid ilə əlaqədar olaraq hazırda ehtiyac duyulan məlumatların böyük əksəriyyəti elektron qaydada mənimsənilir, XXI yüzillik informasiya əsri olaraq səciyyələndirildiyindən informasiya ən başlıca idarəetmə vasitəsi kimi qəbul edilir və belə cəmiyyətlərdə informasiya-kommunikasiya texnologiyalarının inkişafına və təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. İKT-nin durmadan inkişafı nəticəsində insan fəaliyyətinin, demək olar ki, bütün sahələrində elektron qaydada informasiyalaşdırma, məlumatlandırma bazaları təşkil edilərək, cəmiyyətin maarifləndirilməsi və rahat şəkildə informasiya əldə edə bilməsi üçün uğurlu addımlar atılmaqdadır.

Medianın inkişaf etdirilməsi bu gün bütün dünya ölkələri, eləcə də Azərbaycan dövləti üçün ən vacib və aktual prioritetlərdən biri kimi qiymətləndirilir, çünki yaşadığımız əsr informasiya və kommunikasiya əsridir. Odur ki, bu sahədə yeni texnologiyaların və innovasiyaların tətbiqi stimullaşdırılmalı, vətəndaş və cəmiyyət üçün ictimai maraq doğuran layihələrin həyata keçirilməsi ilə bağlı tədbirlər təşkil olunmalı, həmçinin dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyəti əlaqələndirilməli, əhəmiyyətli və nəticəsi öncədən proqnozlaşdırılan müsbətyönümlü fəaliyyət reallaşdırılmalıdır.

Bütün fəaliyyəti tənzimləmək, mövcud sistemin təkmil səviyyəyə çatdırılmasına nail olmaq hazırki media sisteminin reallıqlarına və nəticələrinə yenidən baxmağı, modern informasiya cəmiyyətinin, İKT-nin formalaşdırdığı virtual mühitə adaptasiya olmağı, beynəlxalq media təcrübəsinin müsbət ideya və yeniliklərinə istinad etməyi tələb edir.

ƏDƏBİYYAT

1. Serhiy Danylenko, Maryna Grynchuk. Media system of Azerbaijan: current state and problems // Wschod Europy, vol.4, 1/2018, p.89-102.
2. Hikmət Babaoğlu. İnfoimperializm və media. Bakı, MSA, 2013, 192 s.
3. Sabir Məmmədli. Beynəlxalq jurnalistika: təşəkkür prosesi və demokratik ölkələrin media təcrübəsi. Bakı, BUN, 2013, 284 s.
4. Media etikası. Redaktorlar: Rəşid R.Hacılı, Xalid D.Ağaliyev. Azərbaycan, Bakı, Media Hüququ İnstitutu, 2008, 274 s.
5. Yaşa Lange. Media və seçkilər. Məlumat kitabı. Bakı, AŞ-nın AR İnformasiya Ofisi, 2005, 63 s.
6. Aydın Xan (Əbilov), İnternet. Sosial media. Blogerlik. YYSQ – Milli Virtual Kitabxanın e-nəşri N25 (63-2013). - https://www.kitabxana.net/files/books/file/1369252808.pdf [31.10.2024].

7. Cəfər Cəfərov, İlqar İbrahimli. Mətbuat xidməti əməkdaşının stolüstü kitabı. Bakı, BMK İB, 2003, 76 s.
8. Niyaz Niftiyev. Mətbuatda multikulturalizm (Azərbaycan və dünya təcrübəsi). Bakı, "RS" Poligraf MMC, 2017, 248 s.
9. Qarabağ münaqişəsinə obyektiv baxış DÜNYA MEDİASINDA / Demokrat, Demokratik Azərbaycan, 07 arel 2021. - https://demokrat.az/az/news/73007/qarabag-munaqisesine-obyektiv-baxis-dunya-mediasinda [31.10.2024].
10. Şah və Mat Vətən müharibəsi yerli və xarici mediada, Jurnalistika Elmi Tədqiqat Laboratoriyası nəşrləri seriyası № 1(4) Bakı, Red N Line, 2021, 112 s.
11. Əflatun Amaşov, Heydər Əliyevin media dərsləri. Bakı, Nurlar NPM, 2020, 232 s.

НАЗИМ ИБАДОВ
Доктор философских наук,
доцент Бакинского Государственного Университета

АЙНУР АББАСОВА
Магистрант Бакинского Государственного Университета

ДЕМОКРАТИЧЕСКОЕ ОБЕСПЕЧЕНИЕ СВОБОДЫ ИНФОРМАЦИИ В МЕЖДУНАРОДНОЙ МЕДИА-СИСТЕМЕ

В подготовленной статье исследуется и анализируется сущность понятий медиа и медиаинститута, изучаются место и роль медиаинститута в современном информационном обществе, а также взаимодействие этой сферы с другими сферами, определяется социальная жизнь, обсуждаются текущие реалии и результаты. Сегодня процесс увеличения влияния СМИ и масс-медиа продолжается, и сегодня все обращаются к этим СМИ для удовлетворения своих информационных потребностей и стараются воспользоваться их широким спектром возможностей.

Определить систему СМИ и существующие институты СМИ в мире и в нашей стране, их сущность и полномочия, взаимодействие с другими сферами общественной жизни. Проанализировать СМИ Азербайджана и мира, уточнить их отношение к актуальным проблемам; исследовать силу мощь средств массовой информации в формировании политических отношений, при обсуждении политических вопросов и одновременно анализе показателей развития средств массовой информации в Азербайджанской Республике, находящейся в современном информационном обществе, является одной из важных целей исследования. Были использованы методы анализа, синтеза и исторические, сравнительные методы прогнозирования. В целом, по итогам данного исследования можно сделать вывод, что применение технологических инноваций и нововведений в медиасистеме, которая сегодня охватывает весь мир, вызвало важные фундаментальные изменения в развитии этого сектора, демократических принципов, на которых основана деятельность СМИ, проложили путь к свободе информации и формированию современного и развитого информационного общества.

Ключевые слова: современное информационное общество, свобода информации, СМИ, институт СМИ, средства массовой информации, демократия, развитие, коммуникация.

NAZIM IBADOV
Doctor of philosophy, associate professor, Baku State University

AYNUR ABBASOVA
Master degree of Baku State University

DEMOCRATIC ENSURE OF FREEDOM OF INFORMATION IN THE INTERNATIONAL MEDIA SYSTEM

In the prepared article, the essence of the concepts of media and media institute is investigated and analyzed, the place and role of the media institute in the modern information society is studied, and at the same time, the interaction of this field with other areas of social life is determined, current

realities and results are discussed. Today, the process of increasing the influence of media and mass media continues, and nowadays everyone turns to these media to satisfy their information needs, and they try to take advantage of their wide range of opportunities.

To determine the media system and existing media institutions in the world and in our country, their essence and powers, their interaction with other areas of social life, to analyze the media of Azerbaijan and the world and clarify their relationship to current issues, to investigate the power of the media in the formation of political relations, in the discussion of political issues, and at the same time, analyzing the development indicators of the media and mass media in the Republic of Azerbaijan, which is located in the modern information society, is one of the important goals of the research. Analysis, synthesis, historical, comparative, forecasting, etc. methods were used. In general, at the end of this study, it can be concluded that the application of technological innovations and innovations to the media system, which today engulfs the whole world, has caused important fundamental changes in the development of this sector, the democratic principles on which media activity is based have paved the way for freedom of information and the formation of a modern and advanced information society.

Keywords: modern information society, freedom of information, media, media institute, mass media, democracy, development, communication.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 noyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: s.e.f.d. Mehman Həsənov, s.e.d. Adil Mirabdullayev.

UOT 02

RƏŞAD QARDAŞOV

Bakı Dövlət Universiteti
İnformasiya və sənəd menecmenti fakültəsinin
Kitabxana informasiya resurslarının idarə edilməsi kafedrasının dosenti,
tarix üzrə fəlsəfə doktoru
qardashov@inbox.ru

UNİVERSİTET KİTABXANALARININ METODİKİ MƏRKƏZİ
(Kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsilin təşkili)

DOI: https://doi.org/10.36719/2708-065X/108/87-93

Kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemi kitabxana işçilərinin ixtisasının artırılması ilə əlaqədar ali təhsil müəssisələrində, metodik mərkəzlərdə, ixtisasartırma kurslarında məşğələlərə kömək məqsədilə xüsusi tədris planları əsasında keçirilməlidir. Respublikamızda kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sisteminin ümumi strategiyasının inkişaf etdirilməsi, vahid iyerarxiya prinsipləri əsasında yeniləşdirilməsi metodik mərkəzlərin bu prosesdə iştirakını tələb edir. Respublikamızda kitabxanaçı kadrların fasiləsiz təhsil sistemində hazırlanması kitabxana işinin metodik təminat sistemi ilə sıx vəhdətdə bir-birini tamamlayan elmi-təcrübi, pedaqoji və metodiki baxımdan əlaqələndirilmiş sistemli fəaliyyətkimi formalaşmasından ibarətdir. Məqalədə yuxarıda göstərilən müddəalar tarixi xronologiyaya uyğun olaraq mərhələli şəkildə şərh edilmişdir. Həmçinin, Universitet kitabxanalarının bu fasiləsiz təhsil sistemində metodik mərkəz kimi fəaliyyətidə qiymətləndirilmişdir.

Açar sözlər: Ali məktəb kitabxanaları, İnformasiya resursları, kitabxana şəbəkəsi, kitabxana resursları, kitabxanaçı kadrlar, metodiki mərkəz.

Giriş. Fasiləsiz kitabxanaçılıq təhsili nədir, bu necə başa düşülməlidir? Fasiləsiz kitabxanaçılıq təhsilinə aşağıdakılar aiddir:

– Kitabxanaların mütəmadi olaraq yüksək potensiallı və bilikli kadrlarla təmin olunması;

– Kitabxanaçı kadrlara müasir dövrün tələbləri səviyyəsində bilik və bacarıqların çatdırılması mexanizminin yüksək səviyyədə olması;

– Onların yeni peşəkar bacarıqlara uyğunlaşmasını təmin etmək;

– Ölkədə kitabxanaçılıq işinin geniş maddi-texniki bazaya malik olmasını təmin etmək: - Yeni fikirlər, konsepsiyalar, kitabxanaçı təcrübəsi və kitabxana texnologiyalarının öyrənilməsi;

– Peşəkar kitabxanaçılıq əlaqələrinin geniş surətdə yayılması [5, 25].

Göründüyü kimi, kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil yuxarıda göstərilən müddəaları özündə əks etdirməlidir. Ölkəmizdə dövlət kitabxanaçılıq siyasətinin təhsil mexanizminin yeni mərhələyə qədəm qoyması mütəxəssislərə peşəkar biliklərin verilməsi və maksimum peşə bacarıqlarının öyrədilməsindən ibarətdir. Bütün bunlar ölkədə kitabxanaçılıq işinin modernləşdirilməsini, bu sahədə texniki islahatların aparılmasını vacib tələb kimi qarşıya qoyur. Həyata keçirilən bu layihələr vahid elmi, metodiki əsasa malikdir.

Bu layihələrin əsas mahiyyəti ona yönəlmişdir ki, cəmiyyətdə kitabxanaçı şəxsiyyətini lazımi səviyyədə qiymətləndirmək istehsal fəaliyyətinin texniki şərtlərə uyğunlaşdırmaqdan ibarətdir. İstehsal fəaliyyətinin texniki şərtlərə uyğunlaşdırılması o deməkdir ki, uzun illər kitabxanaçılar işlədikləri müəssisələrdə müasir texniki avadanlıqlardan uzaq olmuşlar və kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində hazırlanan kadrlara bu peşə bilik və bacarıqlarının öyrədilməsi günün vacib tələblərindən biridir [9, 57].

Keçid dövründə yaşayan ölkələrdə fasiləsiz kitabxanaçılıq təhsilinin yeni modelləri işlənib hazırlanmalıdır. Bu zaman kitabxanaçıların fasiləsiz təhsil sistemində müəssisə və mərkəzlərin üzərinə böyük yük düşür. Təbiidir ki, kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində metodik mərkəzlərin iştirakı daha çox ixtisasartırma və kadrların yenidən hazırlanması mərhələsində özünü büruzə verir. Bu sahədə bir neçə onilliklər ərzində müəyyən təcrübə əldə olunmuşdur. 1990-cı illərdən başlayaraq

bu təcrübə getdikcə zəifləmiş, tədricən bərbad vəziyyətə düşmüşdür. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra respublikamızın bütün sahələrində baş verən dirçəliş mədəniyyət sahəsini də bürüdü və mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan kitabxanalar da bu dövlət qayğısı ilə əhatələndi. Şübhəsiz ki, müasir dövrdə kitabxana işçilərinin ixtisasartırma və yenidən hazırlanma prosesi kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində mühüm əhəmiyyətə malik olan müəssisə və mərkəzlərin üzərinə düşür.

Respublikamızda kitabxanaçı peşəsi üzrə fasiləsiz təhsil aşağıdakı prinsiplər əsasında aparılmalıdır:

– Peşəkar fəaliyyətdə yeni innovativ biliklərin prioritet istiqamət kimi qəbul edilməsi;

– Peşəkar kadr hazırlığında istifadə olunan tədris planları və proqramlarının modifikasiya olunması;

– Bu sahənin digər sahələrə qarşı sosial açıqlığının olması:

- Kitabxanaçılıq peşəsi cəmiyyətin bütün sahələrini əhatə edən elmi biliklərlə sıx əlaqədədir;

– Peşəkar kadr hazırlığında fərdi təhsil;

– Tədris prosesində iştirak edən bütün əməkdaşlara qarşı demokratiklik prinsipinin qorunması.

Beləliklə, respublikamızda kitabxanaçılıq təhsili yeni metod və kontekstdə - yeni prinsiplərin, pedaqoji praktikanın, yeni cəmiyyət üçün yeni kadrların hazırlanması kontekstində aparılmalıdır.

Dünya təcrübəsi sübut edir ki, inkişaf etmiş ölkələrdə kitabxanaçıların fasiləsiz təhsil sisteminin və bu peşənin daha dərindən öyrənilməsinin böyük çəkisi fasiləsiz təhsil sisteminin ixtisasartırma mərhələsinin üzərinə düşür. Bu məqsədlə Avropa ölkələrində, ABŞ-da, Rusiyada və b. ölkələrdə iri elmi kitabxanaların bazasında kitabxana işinə dair menecment, treninq, digər kitabxanaçılıq təhsili mərkəzləri yaranır və bu da fasiləsiz sistemində mühüm əhəmiyyətə malikdir [10, 165].

Respublikamızda kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində metodik mərkəzlərin mühüm rolu var.

Kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində kitabxana işçilərinin ixtisasının artırılması ilə əlaqədar metodik mərkəzlərdə, ixtisasartırma kurslarında məşğələlərə kömək məqsədilə xüsusi tədris planları tərtib edilməlidir. Belə sənədlər ölkəmiqyaslı, şəbəkədaxili və şəbəkələrarası xarakter daşıyaraq kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsinə xidmət edən problemləri əhatə etmişdir. Şübhəsiz, kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində ixtisaslı kitabxanaçı kadrlar hazırlayan təhsil müəssisələrinin, əsasən BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin böyük rolu vardır. Kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində fəaliyyətin genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir və aşağıdakı mərhələ və pillələrə bölünür:

1. Orta ixtisas təhsili;
2. Ali ixtisas təhsili: bakalavr, magistr, doktorantura;
3. İxtisasartırma və kadrların yenidən hazırlanması;
4. Şəxsi təhsil.

Respublikamızda kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində ümumi strategiya onu tələb edir ki, kitabxanaçı kadrlara daim yeniləşən biliklər tədris olunsun. Ölkəmizdə kitabxanaçılıq peşəsinin 100 ilə yaxın əməli təcrübəsi olduğunu nəzərə alaraq, bu yolun ayrı-ayrı inkişaf mərhələlərində kitabxanaçılıq təhsili üzrə tədris planları və proqramlarının formalaşan təcrübəyə uyğun olaraq dəyişdiyini görmüş olarıq.

Qeyd etdiyimiz kimi, kitabxanaçılıq təhsili sistemi ilə digər istiqamətdə mövcud olan təcrübələrin əlaqələndirilməsi metodik mərkəzlərin üzərinə düşür. Təbiidir ki, kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində metodik mərkəzlərin iştirakı daha çox ixtisasartırma və kadrların yenidən hazırlanması mərhələsində özünü büruzə verir. Bu istiqamətdə böyük təcrübəyə malik olan metodiki mərkəzlər daimi kurslar həyata keçirirlər.Bir məsələni qeyd etmək lazımdır ki, bu metodiki mərkəzlərin heç biri müvafiq kitabxana şəbəkəsi işçilərinin ixtisasartırma problemi ilə uzun illər məşğul olmamışdır. Buna görə də müasir mərhələdə respublika kitabxana işçilərinin ixtisaslarının artırılması və yenidən hazırlanması prosesində metodiki mərkəzlərin mahiyyəti, məqsəd, vəzifə və formaları müvafiq prinsip və metodlar əsasında həyata keçirilir. Metodik mərkəzlərin ixtisasartırma proseslərindəki fəaliyyəti 4 səviyyədə həyata keçirilir:

1. Kitabxanadaxili;

2. Şəbəkədaxili;
3. Şəbəkələrarası;
4. Respublika səviyyəli

Kitabxanadaxili ixtisasartırma tədbirləri müvafiq kollektivin konkret fəaliyyəti ilə sıx əlaqədardır. Bu zaman hər hansı bir kitabxananın əməkdaşlarının arzu və təklifləri nəzərə alınaraq, bu kitabxanada müvafiq bir sahədə bu kurslar təşkil olunur.

Şəbəkədaxili səviyyədə isə bir neçə müvafiq kitabxana şəbəkəsinin respublikanın kitabxana sistemlərində həyata keçirdikləri funksiyaları nəzərə alınmaqla təşkil edilir.

Şəbəkələrarası ixtisasartırma tədbirləri istifadəçilərin kitabxana-informasiya ehtiyatlarından, istifadəçilərə xidmətlərin aktual problemlərindən, kitabxanaçılar tərəfindən nəzəri biliklərin dünya təcrübəsinə əsaslanmasına yönəldilmiş tədbirlər olmalıdır.

Respublika miqyaslı ixtisasartırmada kitabxana işinin qlobal problemləri ilə əlaqədar olaraq həyata keçirilən strateji tədbirlərdir [7, 235].

Müasir dövrdə ixtisasartırma prosesində ən mühüm məsələlərdən biri də kitabxanaçıların oxuculara xidmət işində köhnə vərdişlərdən azad olub demokratik prinsiplərə yiyələnməsidir. Kitabxanaçıların ixtisasartırma təhsili prosesində metodik mərkəzlər tərəfindən nəzəriyyə, metodika uzunmüddətli təcrübə prosesində formalaşmış zəngin forma və üsullardan, pedaqoji metodlardan geniş istifadə etməsidir. Bu zaman təcrübi məşğələlər, praktikumlar, seminarlar, "dəyirmi masa"lar, disputlar, müsabiqələr və s. kimi təlim-tədris növlərinin həyata keçirilməsi vacib şərt kimi meydana çıxır. Kitabxana işçilərinin ixtisasartırma proseslərində onlara yüksək peşə vərdişlərinin aşılanmasında dünya təcrübəsindən çox geniş istifadə olunmalıdır ki, bu gün də bu məsələyə xüsusi önəm verilir.

Respublikamızda kitabxana işçilərinin ixtisasının artırılması əlaqədar metodik mərkəzlər tərəfindən həyata keçirilən tədbirlər mədəniyyət işçilərinin ixtisasının artırılması və yenidən hazırlanması daimi kurslarının fəaliyyəti ilə sıx əlaqədədir. Metodik mərkəzlər və Mədəniyyət Nazirliyinin kitabxana işçiləri üçün ixtisasartırma kurslarının fəaliyyəti arasında qismən fərq olsa da, hər iki qurum tərəfindən həyata keçirilən tədbirlər şəxsi təhsil sahəsində olduğu kimi, kitabxanaçılıq sahəsində də çalışan mütəxəssislərin formalaşmasına güclü təsir göstərir, gənc kitabxanaçı kadrların şəxsi peşə təhsilinə kömək edir. Kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsi ilə əlaqədar qeyd olunan bu mühüm iş üsulları özünün rəngarəngliliyinə və çoxşaxəliliyinə görə də seçilir.

İxtisasartırma kurslarının yaranma zərurətini araşdırdıqda məlum olur ki, bu kurslar XX əsrin 60-cı illərində (1966) mütəmadi olaraq keçirilməyə (müəyyən fasilələrlə) başlamışdır. İxtisasartırma sistemi olmadan yüksəkixtisaslı mütəxəssislərin zamanla ayaqlaşması, müasir şəraitin tələblərindən irəli gələn vəzifələri yerinə yetirə bilməsi çox çətindir.

Məhz buna görədir ki, ölkəmizdə ixtisasartırma müəssisələrinin böyük şəbəkəsi yaranmışdır. Respublikamızda geniş təkmilləşdirmə institutları və kursları fəaliyyət göstərir [12, 208].

Hələ 1966-cı ilə qədər respublikamızda kitabxana işçilərinin ixtisasları vaxtaşırı təşkil edilən, kurslar, konfranslar, seminarlar vasitəsilə artırılırdı. Bu kurslar respublikanın ənənəvi zona mərkəzlərində - Quba, Salyan, Lənkəran, Şəki, Ağdam, habelə Gəncə, Naxçıvan və Xankəndi şəhərlərində keçirilirdi. Bu kursların tədris planında əsasən ictimai elmlər və ixtisas fənlərindən 144 saatlıq dərs yükü nəzərdə tutulurdu. İxtisas fənləri Mədəniyyət Nazirliyinin, habelə müxtəlif mədəniyyət sahələri üzrə respublika metodik mərkəzlərinin işçiləri tərəfindən tədris olunurdu. Əlbəttə, bu kurslar öz vaxtında müəyyən iş görə bilmiş, respublikanın kitabxana işçilərinin ixtisaslarının artırılmasında mühüm rol oynamışdır. Lakin kursların bu istiqamətdə apardığı işlər planauyğun, sistemli xarakter daşımadığından onların daha da təkmilləşməsinə və daimi ixtisasartırma müəssisəsinin yaradılmasına böyük ehtiyac hiss edilirdi. Məhz buna görə də Azərbaycan SSR Nazirlər Soveti 1966-cı il oktyabrın 20-də "Mədəniyyət işçilərinin respublika ixtisasartırma kursunun yaradılması" haqqında sərəncam verdi. Sərəncama müvafiq surətdə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 1966-cı il dekabr ayının 4-də "Mədəni-maarif işçilərinin respublika ixtisasartırma kursunun yaradılması" haqqında əmri oldu. Əmrdə respublikanın bütün mədəni-maarif işçilərinin, o cümlədən də kitabxanaçıların 4 ildə bir dəfə, 1966-cı ilin dekabr ayından Bakıda fəaliyyət göstərən kurslarda öz ixtisaslarını artırmaları nəzərdə tutulurdu. Beləliklə, 1967-ci ildən kitabxana

işçilərinin sistemli şəkildə ixtisasartırmalarının əsası qoyuldu. Hər il kurslarda 200 nəfərə qədər kitabxana işçisi, o cümlədən 100 nəfər kənd kitabxanaçıları öz ixtisaslarını artırırdılar. Əvvəllər bu kurslara ancaq orta təhsilli kitabxana işçiləri dəvət olunurdu.

70-80-ci illərdə kitabxana işçilərinin ixtisaslarının artırılmasında bu kurs böyük rol oynamışdır. Kurslarda kitabxana işçiləri dövrün qarşıya qoyduğu vəzifələrlə əlaqədar kitabxana işində baş verən bütün yeniliklərlə tanış olurdular. Məsələn, kursun tədris planlarında son zamanlar kitabxana işinin mərkəzləşdirilməsi məsələlərinə geniş yer verilmişdi. Buna görə də kitabxana işçilərinin ixtisasartırma sistemində tədris işi fərqli şəkildə həyata keçirilirdi. Əgər əvvəllər müxtəlif qrupların yaradılması üçün kitabxana işçilərinin təhsil səviyyələri nəzərə alınırdısa, daha sonra hər şeydən əvvəl kitabxanaçının iş xüsusiyyətləri əsas götürülürdü [6, 87].

Göründüyü kimi, Azərbaycanda kitabxanaçılıq peşəsi üzrə ixtisasartırma kursları XX əsrin 60-cı illərindən başlasa da, müasir dövrə kimi davam edir. İxtisasartırma kursları fasiləsiz kitabxanaçılıq təhsilində böyük əhəmiyyətə malikdir. Yuxarıda fasiləsiz kitabxanaçılıq təhsilinin mahiyyəti, onun quruluşu və təhsil sistemində iştirak edən mərkəzlər haqqında ümumi məlumat verilmişdir.

Məlumdur ki, metodik mərkəzlər dedikdə respublikamızda mövcud olan, fəaliyyət göstərən, metodiki baza funksiyasını yerinə yetirən kitabxanalar nəzərdə tutulur. Respublikada fəaliyyət göstərən kitabxanaların hamısına M.F.Axundov adına Milli Kitabxana metodiki təminatı həyata keçirir. Başqa sözlə desək, metodiki mərkəzdir. Bu kitabxananın həyata keçirdiyi ən böyük işlərdən də biri kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində mütəxəssislərə ixtisasartırma kurslarının təşkilidir. Respublika Elmi Pedaqoji Kitabxanası məktəb kitabxanalarına metodiki baza funksiyasını həyata keçirir. Məlum olduğu kimi, respublikada fəaliyyət göstərən ali məktəb kitabxanalarına elmi metodik təminatı Bakı Dövlət Universitetinin Elmi Kitabxanası həyata keçirir. BDU-nun Elmi Kitabxanası 1919-cu ildə təşkil olunub. Geniş oxucu kütləsinə, böyük fonda və müasir texniki avadanlıqlara malik kitabxana tabeliyində olan ali məktəb kitabxanaları üçün, həmin kitabxanaların əməkdaşların üçün müşavirələr, seminarlar, kurslar təşkil edir. Həmçinin, kitabxana, kitabxananın əməkdaşları istər respublika miqyaslı, istərsə də beynəlxalq miqyaslı tədbirlərdə iştirak edir, təcrübələrini daha da zənginləşdirirlər.

Azərbaycanda kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində Azərbaycan Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən kitabxanaçı kadrlara ixtisasartırma kurslarının böyük əhəmiyyəti vardır. Azərbaycan müstəqilliyi bərpa etdikdən sonra bütün sahələrdə olan irəliləyiş qeyri-hökumət təşkilatlarının yaranmasında da özünü göstərir. Kitabxanaçılıq peşəsini tərənnüm edən qeyri-hökumət təşkilatları da yaranmışdır. Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyasının yaranması bu işə bariz nümunədir. Bu ictimai qurum kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində böyük işlər görmüşdür. Bu işdə həmçinin xarici təşkilatların, qeyri-hökumət təşkilatlarının böyük rolu vardır. Respublikada kitabxana işçilərinin fasiləsiz təhsil sistemində və xüsusən ixtisasartırma prosesində metodik mərkəzlərin iştirakı ilə bir mühüm məsələni də qeyd etmək lazımdır ki, son illər Azərbaycanın dünya ölkələri ilə əlaqələrinin genişlənməsi əlverişli imkanlar yaratmışdır [12, 204].

Bu baxımdan hazırda kitabxana işçilərinin ixtisasartırma prosesində bir tərəfdən dünya təcrübəsini öyrənmək, digər tərəfdən isə bu prosesə inkişaf etmiş xarici ölkələrin mütəxəssislərini cəlb etmək zərurəti meydana çıxır.

Universitet kitabxanalarının metodik mərkəzi bu mərkəzlərin fəaliyyət göstərməsi müasir konsepsiyalar əsasında qurulmalıdır və bu konsepsiyalar özündə müəyyən prinsipləri ehtiva edir. Metodik mərkəzlərin fəaliyyət göstərməsi üçün bu mərkəzlərə verilən tələbləri 3 əsas paradiqmada birləşdirmək olar.

1.Metodik mərkəzlərin əsas prinsipləri

2.Metodik mərkəzlərin əhəmiyyəti

3.Metodik mərkəzlərin funksiyaları [7, 237]

Metodik mərkəzlərin əsas prinsipləri:

1. Fasiləsiz Təhsil: Fasiləsiz təhsil yanaşması, hər yaşda və həyat mərhələsində öyrənmənin mümkün olduğunu qəbul edir. İnsanlar məktəb təhsilini bitirdikdən sonra da yeni biliklər əldə etməyə və bacarıqlarını təkmilləşdirməyə davam etməlidir. O cümlədən, universitet kitabxanalarında çalışan kitabxana əməkdaşları.

2. Bilik və Bacarıqların İnkişafı: Bu yanaşma insanın bilik və bacarıqlarını zamanla yeniləyib inkişaf etdirməsini önə çıxarır. Müasir dövrdə texnologiya, iqtisadiyyat və sosial həyat sürətlə dəyişir, buna görə də hər kəsin bu dəyişikliklərə uyğunlaşmaq üçün davamlı olaraq yeni məlumat və bacarıqlar qazanması vacibdir.

3. İnklüzivlik və fərdi yanaşma : Fasiləsiz təhsil, hər kəsin, o cümlədən yaşlılar, əlillər, işsizlər, etnik azlıqlar və digər az təminatlı qruplar üçün təhsil imkanları təqdim edir. Təhsil heç kim üçün məhdudlaşdırılmamalıdır və hər kəsə inkişaf etmək üçün imkanlar yaradılmalıdır. Fasiləsiz təhsil, hər bir şəxsin ehtiyaclarına uyğun təhsil metodlarının tətbiqini təşviq edir. İnsanlar öz sürətlərinə və maraqlarına uyğun olaraq öyrənməlidir, bəziləri formal təhsil alarkən, digərləri qeyri-formal və ya onlayn kurslarla öz biliklərini artırır.

Metodik mərkəzlərin əhəmiyyəti:

1. **Müasir informasiya məkanına uyğunluq**: Müasir dünyada iş bazarı sürətlə dəyişir, yeni texnologiyalar və iş tələbləri meydana çıxır. Fasiləsiz təhsil sistemi, insanların iş həyatında müvəffəqiyyətli olmaları üçün yeni bacarıqlar əldə etmələrinə şərait yaradır.

2. **Dinamik inkişaf:** Bilikli və bacarıqlı əmək bazarı, ölkə iqtisadiyyatının inkişafını təmin edir. Fasiləsiz təhsil, ölkənin əmək resurslarını daha da səmərəli və məhsuldar edir.

3. **İnformasiya məkanında bərabərlik**: Fasiləsiz təhsil, sosial bərabərliyi təşviq edir. Təhsil imkanı olmayan insanlar da cəmiyyətə inteqrasiya ola, sosial və iqtisadi baxımdan daha yaxşı şəraitə sahib ola bilərlər.

Metodik mərkəzlərin funksiyaları:

1. **İnformasiya resurslarının təminatı:** Kitabxanalar, tələbələrə və müəllimlərə dərs proqramlarına uyğun tədris materialları, kitablar, elmi məqalələr, videolar və digər tədris resurslarını təqdim edir. Bu resurslar tədrisin keyfiyyətini artırır və müəllimlərə yeni tədris metodlarını tətbiq etmək üçün ehtiyac duyduqları məlumatları təmin edir.

2. **Metodik dəstək və məsləhət**: Kitabxanalar müəllimlər və tədqiqatçılar üçün tədris metodikası ilə bağlı məsləhətlər verən mərkəzlər kimi fəaliyyət göstərir. Onlar müasir tədris yanaşmalarını, elektron resurslardan istifadəni və innovativ öyrənmə metodlarını tətbiq etmək üçün müəllimlərə təlimlər və seminarlar təşkil edirlər.

3. **Onlayn resurslardan istifadə**: Müasir universitet kitabxanaları, müxtəlif onlayn mənbələr və texnologiyalar təqdim etməklə, müəllim və tələbələrə dərs materiallarını asanlıqla əldə etmə imkanı verir. Elektron kitabxanalar, interaktiv öyrənmə vasitələri və müxtəlif onlayn kurslar vasitəsilə, tədris metodlarını inkişaf etdirə bilərlər.

4. **Təlimlərin təşkili**: Kitabxanalar, müəllimlərə və tədqiqatçılara yeni tədris texnologiyaları, elmi tədqiqat metodları və müxtəlif tədris resurslarından istifadə barədə təlimlər və seminarlar təşkil edir. Bu təlimlər, kitabxanaların metodik mərkəz funksiyasını gücləndirir və təhsil işçilərinin peşəkar inkişafını təmin edir.

5. **Resursların Paylaşılması**: Kitabxanalar, universitetlər arasında məlumat və tədris resurslarının paylaşılmasını təşviq edir. Bu, həmçinin bir neçə universitetin kitabxanası arasında əməkdaşlıq və təcrübə mübadiləsi həyata keçirilməsinə imkan verir.

Ümumiyyətlə, kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemi ideyadan başlamış yerinə yetirilməsinə qədər 5 mühüm fazada əks olunmalıdır:

Konsepsiyanın formalaşması: buraya ideyanın formalaşdırılması, məqsədinin qoyuluşu, layihənin əsas əmrlərinin formalaşdırılması, ilkin məlumatların toplanması, mövcud vəziyyətin təhlili daxildir. Sifarişçinin və digər iştirakçının tələblərinin və motivasiyalarının öyrənilməsi, alternativlərin təqdimatı kimi işlər də bu fəzada öz əksini tapmalıdır.

Texniki tapşırığın formalaşması: bu fazaya layihənin əsas məzmunu, baza strukturunun, texniki tapşırığın işlənməsi və təsdiq edilməsi, layihə iştirakçılarının, kommunikasiya vasitələrinin cəlb olunması, işin gedişinə nəzarət kimi məsələlər daxildir.

Üçüncü mərhələ **layihələşdirmə** adlanır. Buraya ayrı-ayrı texniki tapşırıqların, linqvistik təminatın işlənməsi, layihənin təqdimatı, ekspertizası və təsdiqi kimi alt mərhələlər də daxildir.

Layihənin yerinə yetirilməsi adlanan dördüncü mərhələdə proqram təminatının işlənməsi, təhsil sisteminin düzgün tətbiq edilməsi, iştirakçıların üzərinə düşən işlərin yerinə yetirilməsinə nəzarət kimi işlər aiddir.

Sonuncu faza isə **layihələrin daimi istismara verilməsi** adlanır. Buraya bu tip kursların təşkili zamanı mütəxəssis kadrların daimi cəlb olunması, xüsusi münbit mühitin formalaşdırılması kimi vacib alt mərhələlər daxildir.

Nəticə. Fasiləsiz təhsil sistemi insanların həyat boyu öyrənməyi və öz biliklərini, bacarıqlarını inkişaf etdirməyi davam etdirmələri prinsipinə əsaslanan bir yanaşmadır. Bu sistem, ənənəvi məktəb və universitet təhsilindən sonra da təhsilin davam etdirilməsini təşviq edir və həyat boyu müxtəlif yaş qruplarına, sosial statuslara və peşələrə aid olan insanlara təhsil almaq imkanı verir. Fasiləsiz təhsil, yalnız akademik bilikləri deyil, həm də şəxsi inkişafı, peşəkar bacarıqları və cəmiyyətdəki dəyişikliklərə uyğunlaşma qabiliyyətini artırmaq məqsədi güdür. Müasir tendensiyalara istinad edərək və beynəlxalq təcrübəni əsas götürərək medotik mərkəzlərin fəaliyyətini daha da təkmilləşdirmək üçün aşağıdakı nəticələrə gəlmək olar:

- Təhsil və metodika sahəsindəki inkişafları dəstəkləyən və müasir yanaşmaları tətbiq edən bir mərkəz kimi fəaliyyət göstərməlidir.

-Təhsilin və elmi tədqiqatların informasiya təminatını həyata keçirməlidir.

- Təhsil metodlarını və kitabxana işlərini ən son yeniliklərlə inkişaf etdirmək, həmçinin müəllimlər və tələbələr üçün faydalı resurslara əlçatarlılığı təmin etməlidir.

- Təhsil sistemindəki dəyişikliklərə cavab olaraq müxtəlif tədris materialları, metodik vəsaitlər, kitablar və resurslar təqdim etməli, həmçinin müasir texnologiyalar və onlayn resursları dəstəkləməlidir.

ƏDƏBİYYAT

1. “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu // “Azərbaycan” qəzeti, 1999, 14 mart.
2. “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanunu // Xalq qəzeti, 1998, 18 aprel.
3. Azərbaycanda Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə “Dövlət Proqramı”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // “Pespublika” qəz., Bakı, 2008,7 oktyabr.
4. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // “Azərbaycan” qəz., Bakı, 2007,21 aprel.
5. Xələfov A Azərbaycanda kitabxanaçılıq təhsilinin inkşafı. Bakı: Maarif, 1987,130 s.
6. Xələfov A. Azərbaycanda ali kitabxanaçılıq təhsili.Bakı, 1998,124 s.
7. İsmayılov X. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000): Monoqrafiya. B., 2000, 440 s.
8. Rzayev S. Kitabxana xidməti. Dərslik. Bakı: “Bakı Universiteti” Nəşriyyatı, 2009. – 337s.
9.Гардашев, Р. А. О. (2013). Проблемы организации непрерывного образования по библиотечному делу. *Вектор науки Тольяттинского государственного университета. Серия: Педагогика, психология*, (1), 55-58.
10.Kitabxanaçılıq-informasiya fakültəsi – 60: Biblioqrafik məlumat kitabı. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2008, 274 s.
11.Kazimi, P. F. O., & Mahammadli, D. H. O. (2021). Modern directions in library services with use of digital space (Security issues of the regional and industry information service). *Technium Soc. Sci. J.*, *25*, 819.
12.Kushzhanov, N.V., & Mahammadli, D. (2019). The digital transformation of the oil and gas sector in kazakhstan: priorities and problems. *News Natl Acad Sci Repub Kazakhstan*, *3*(435), 203-212.
13.Kazimi, P. F.O., & Mammadov, M. A.O. (2020). Assessment Of The Library Information Service (Modern Problems Of Library And Information Services). *American Scientific Journal*, (41-3), 41-44.

РАШАД ГАРДАШОВ
Доцент Бакинского государственного университета,
Доктор философии по историческим наукам

МЕТОДИЧЕСКИЙ ЦЕНТР УНИВЕРСИТЕТСКИХ БИБЛИОТЕК
(Организация непрерывного образования по специальности «Библиотечное дело»)

Система непрерывного образования по библиотечному делу должна осуществляться на основе специальных учебных программ, обеспечивающих обучение в высших учебных заведениях, методических центрах, на курсах повышения квалификации библиотечных кадров. Разработка общей стратегии системы непрерывного образования библиотечных кадров в нашей республике и ее обновление на основе единых иерархических принципов требует участия в этом процессе методических центров.Подготовка библиотекарей в нашей республике в системе непрерывного образования заключается в формировании библиотечного дела как системной деятельности, скоординированной с научно-практической, педагогической и методической точек зрения, которые дополняют друг друга в тесном единстве с системой методического обеспечения. Вышеизложенные положения трактуются в статье поэтапно в соответствии с исторической хронологией. Также была оценена деятельность университетских библиотек как методических центров в этой системе непрерывного образования.

Ключевые слова: Библиотеки вузов, информационные ресурсы, библиотечная сеть, библиотечные ресурсы, библиотекари, методический центр.

RASHAD GARDASHOV
Associate Professor of Baku State University,
Doctor of Philosophy in History

METHODOLOGICAL CENTER OF UNIVERSITY LIBRARIES
(Organization of continuous education in the specialty "Library Science")

The system of continuous education in librarianship should be implemented on the basis of special educational programs providing training in higher educational institutions, methodological centers, and advanced training courses for library personnel. The development of a general strategy for the system of continuous education of library personnel in our republic and its renewal based on uniform hierarchical principles requires the participation of methodological centers in this process. The training of librarians in our republic in the system of continuous education consists in the formation of librarianship as a systemic activity, coordinated from scientific and practical, pedagogical and methodological points of view, which complement each other in close unity with the system of methodological support. The above provisions are interpreted in the article step by step in accordance with historical chronology. The activities of university libraries as methodological centers in this system of continuous education were also assessed.

Keywords: University libraries, information resources, library network, library resources, librarians, methodological center.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Sevda Xələfova, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT 94(479.24)

RƏŞİD MEHDİYEV

Bakı Dövlət Universiteti
Azərbaycan tarixi (humanitar fakültələr) kafedrasının doktorantı
mresid.1998@gmail.com

XX ƏSRİN 70-80-Cİ İLLƏRİNDƏ AZƏRBAYCANDA HƏRBÇİ KADRLARIN HAZIRLANMASI

DOI: https://doi.org/10.36719/2708-065X/108/94-100

XX əsrin 70-80-ci illərində Ümummilli lider Heydər Əliyev Azərbaycanın hərbi tarixini və qəhrəmanlarını əbədiləşdirmək üçün bir sıra mühüm tədbirlər həyata keçirdi. Bu dövrdə Azərbaycanın hərbi potensialını gücləndirmək üçün gənclərin hərbi vətənpərvərlik tərbiyəsini təmin etməyə xüsusi diqqət yetirildi. Ordu sıralarında azərbaycanlıların sayının artmasına, peşəkar hərbçilərin yetişməsinə şərait yaradıldı. Məqalədə, hərbi təhsil müəssisələrinin inkişafı, müharibə iştirakçılarının xatirəsini yaşatmaq, onların qəhrəmanlıqlarını geniş ictimaiyyətə tanıtmaq üçün atılan addımlar, Azərbaycanın müharibə tarixinin təbliği, hərbi vətənpərvərlik ruhunun yüksəlməsi, həmçinin gənclərin hərbi xidmətə marağının artırılması istiqamətində görülən işlər təhlil edilmişdir.

Açar sözlər: Heydər Əliyev, XX əsrin 70-80-ci illəri, hərbi məktəblər, Sovet İttifaqı qəhrəmanları, hərb tarixi.

Giriş. XX əsrin 70-80-ci illərində Azərbaycanda hərbçi kadrların hazırlanması prosesi, həmçinin peşəkar hərbçilərin yetişdirilməsi məsələsi, ümummilli lider Heydər Əliyevin siyasətinin əsas istiqamətlərindən biri olmuşdur. Həmin dövrdə Azərbaycanın müstəqil hərbi vətəndaşlarını formalaşdırmaq və hərbi qüvvələrin keyfiyyətini yüksəltmək məqsədilə bir sıra mühüm islahatlar həyata keçirilmişdir. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda hərbi vətənpərvərlik tərbiyəsi və hərbçi kadrların təhsili istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Onun rəhbərliyi altında gənclərin hərbi xidmətə marağının artırılması, həmçinin vətənə xidmət etməyə hazır olan kadrların yetişdirilməsi sahəsində bir çox layihələr həyata keçirilmişdir. Bu dövrdə, gənclərin hərbi biliklərə yiyələnməsi üçün respublikada xüsusi hərbi təhsil müəssisələri və məktəblər açılmışdır. Azərbaycanın müxtəlif bölgələrində yerləşən bu məktəblərdə gənclər yalnız hərbi biliklərlə deyil, həm də əxlaq, mədəniyyət və vətənpərvərlik tərbiyəsi ilə təchiz edilmişdir.

XX əsrin əvvəllərində azərbaycanlı hərbçi kadrların olmaması, kifayət qədər azlığı milli ziyalıların narahatlıq keçirdiyi əsas məsələlərdən biri idi. Çar Rusiyası azərbaycanlılara etibar etmədiyindən onları hərbi xidmətə cəlb etmirdi. Azərbaycanlıların orduya səfərbər olunmamaları bir sıra mənfi nəticələrə səbəb olurdu. Onlar hərbi biliklərdən məhrum qalır, döyüş texnikası və taktiki əməliyyatlar barədə anlayış əldə edə bilmirdilər. Bundan əlavə, xanlıqlar dövründə mövcud olmuş özünümüdafiə ənənələri də tədricən unudulurdu. Çar hökumətinin müsəlmanlara qarşı etimadsızlığı getdikcə dərinləşirdi. Bu məsələ ilə bağlı Məhəmməd Əmin Rəsulzadə sonralar yazırdı: "Qonşuları ermənilərlə gürcülər mükəlləfiyyəti-əsgəriyyədə bulunduqlarından müdafiə üçün əsgərliyin əski üsulları ilə amma buluşuyorlardı. Halbuki müsəlmanlar təşkilatı-əsgəriyyəcə xanlıqlar dövründəki üsuli – müdafiələrini belə unutmuşlardı. Xristian generallar, miralaylar məbzul ikən, azərbaycanlı bulunan zabitləri barmaqla saymaq mümkündür" [19, s.50-51].

İkinci Dünya Müharibəsi zamanı yüksək rütbəli azərbaycanlı hərbçilərin yetişməsi üçün müəyyən imkanlar yaransa da, sovet hökuməti onların general rütbəsinə yüksəlməsinə böyük maneələr törədirdi. Azərbaycanlı zabitlər ən yaxşı halda polkovnik rütbəsinə qədər yüksəlirdi. Müharibədən sonra da bu vəziyyət dəyişmədi və sovet ordusunda xidmət edən azərbaycanlı generalların sayı çox az idi. Hərbçi kadrların hazırlanması yalnız sovet ordusunun tərkibində həyata keçirilirdi. Bununla belə, bu proses ciddi çətinliklərlə müşayiət olunurdu. Azərbaycanlı hərbçilər əsasən hərbi-texniki sahələrə – tank, raket, aviasiya bölmələrinə deyil, daha çox tikinti batalyonlarına göndərilirdi. Bu isə onların müasir hərbi texnologiyalarla işləmək imkanlarını məhdudlaşdırırdı.

1960-cı illərdə Azərbaycan hər il Sovet ordusuna təxminən 60 min əsgər göndərirdi. Ümummilli lider Heydər Əliyev hakimiyyətə gələnə qədər azərbaycanlıların yalnız 15%-i döyüş hissələrində xidmət edirdi, qalan 85%-i isə əsasən tikinti və arxa cəbhə bölmələrinə yönləndirilirdi. Döyüş bölmələrində xidmət edən 15%-in də əhəmiyyətli bir hissəsi birbaşa hərbi əməliyyatlarla deyil, yeməkxana, bərbərxana və digər xidmət sahələrində çalışırdı. Sovet rəhbərliyi türk və müsəlman xalqlarından olan yüksək rütbəli hərbçilərin sayının artacağından ehtiyat edirdi. Bu siyasətin məqsədi, onların ordu içində güclənməsinin qarşısını almaq idi. İngilis tarixçisi Cefri Hoskinq də bu məsələyə toxunaraq qeyd edirdi ki, sovet ordusunda yüksək rütbəli zabitlər arasında müsəlmanlar, gürcülər və pribaltika xalqlarının nümayəndələri demək olar ki, yox idi [22]. Mövcud acınacaqlı vəziyyətin dəyişdirilməsi, azərbaycanlılara qarşı münasibətin yaxşılaşdırılması və Moskvanın diqqətini çəkmədən milli hərbçi kadrların hazırlanması üçün əsaslı bir baza qurulması zəruri idi. Dövlətin hərbi sistemində azərbaycanlıların irəli çəkilməsi, yüksək rütbələr alması və mühüm vəzifələrdə təmsil olunması üçün ciddi tədbirlər görülməsinə ehtiyac var idi. Bu məqsədin həyata keçirilməsi isə böyük bacarıq və strateji düşüncə tələb edirdi. Belə bir şəraitdə Ümummilli lider Heydər Əliyevin əsas diqqət yetirdiyi məsələlərdən biri azərbaycanlı hərbçi kadrların yetişdirilməsi idi. O düşünürdü ki, Azərbaycan üçün milli hərbçi kadrların hazırlanması həyati əhəmiyyət daşıyır. Sovet ordusunda azərbaycanlı zabitlərin azlığı, generalların və marşalların olmaması onu ciddi narahat edirdi. Həmin dövrdə Bakıda iki ali hərbi məktəb fəaliyyət göstərirdi: biri Ali Ümumqoşun Komandirləri Məktəbi, digəri isə Hərbi Dəniz Donanmasının Ali Hərbi Dənizçilik Məktəbi idi. Hər iki məktəbə hər il ümumilikdə 600 nəfər gənc qəbul edilsə də, burada təhsil alan azərbaycanlıların sayı olduqca az idi. Ümumqoşun Komandirləri Məktəbində cəmi 5-6 nəfər, Dənizçilik Məktəbində isə 2-3 nəfər azərbaycanlı təhsil alırdı. Halbuki bu məktəblər Bakıda yerləşsə də, Azərbaycan gənclərinin burada təmsilçiliyi yox dərəcəsində idi. Ukrayna, Belarusiya, Rusiya, Gürcüstan və hətta Ermənistandan gələn gənclər asanlıqla qəbul olsalar da, azərbaycanlılar bu imkandan məhrum edilirdi. Heydər Əliyev bu ədalətsiz vəziyyətə son qoymaq üçün ciddi addımlar atdı. O, məsələ ilə bağlı dəfələrlə Moskvaya müraciətlər edərək problemin həllinə nail oldu. 1970-ci illərdən etibarən azərbaycanlı çağırışçıların böyük əksəriyyəti – təxminən 95%-i döyüş hissələrində xidmət etməyə başladı. Çağırış yaşına çatmış gənclərin sağlamlığının qorunmasına xüsusi diqqət yetirirdi. 1969-cu il 12 avqust tarixində Azərbaycan KP MK bürosunun iclasında çağırışçıların tibbi müayinəsi və sağlamlıq şəraitinin yaxşılaşdırılması ilə bağlı xüsusi qərar qəbul edildi [2]. Bu qərar ən məxfi qrifi altında sənədləşdirilərək müvafiq göstərişlər verildi. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ümumi dövlət siyasətinə uyğun olaraq orta məktəblərdə İbtidai Hərbi Hazırlıq fənninin tədrisini təşkil etdi, hərbi kadrların hazırlanmasına xüsusi diqqət yetirdi və hərbi vətənpərvərlik ruhunun gücləndirilməsinə önəm verdi. Onun Azərbaycanda hərbi təhsil sisteminin qurulması istiqamətində atdığı addımlar mühüm nəticələr verdi. 1971-ci ilin noyabrında Bakıda gəncləri ali hərbi məktəblərə hazırlayan ilk ixtisaslaşdırılmış internat məktəbi açıldı. Burada yeddinci sinfi bitirən şagirdlər həm ümumi təhsillərini davam etdirir, həm də hərbi biliklərə yiyələnir, fiziki cəhətdən möhkəmlənir və rus dilini öyrənirdilər. Bu, onların ali hərbi məktəblərə qəbul olmaq şanslarını artırırdı. Bir tərəfdən, milli hərbi kadrların yetişməsi üçün əsaslı baza yaradıldı, digər tərəfdən isə 1976-1977-ci illərdən başlayaraq SSRİ-nin ali hərbi məktəblərinə hər il 800-900 nəfər gəncin göndərildi. Təbii ki, bu gənclərin hamısı təhsillərini tamamlaya bilməsə də, onların bir hissəsi yüksək rütbəli hərbçi kimi yetişirdi. Nəticədə, məktəblərdə hər il təxminən 700 nəfər zabit hazırlanırdı. Bütün bunlar Ulu öndər Heydər Əliyevin milli hərbi kadrların formalaşması istiqamətində gördüyü mühüm işlərdən biri kimi tarixə düşdü. Bir müddət sonra bu hərbi məktəbə Azərbaycan xalqının görkəmli generalı Cəmşid Naxçıvanskinin adı verildi. Cəmşid Naxçıvanski çar ordusunun generalı, Azərbaycan Xalq Cümhuriyyəti ordusunda isə süvari hissələrinin komandanı olmuşdur. Qardaşı Kəlbalı xan Naxçıvanskinin mühacirət edib İranda antisovet fəaliyyətlə məşğul olması bəhanəsilə 1938-ci ildə həbs edilib repressiya edilmişdi. Uzun müddət antisovet damğası onun üzərində qalmışdı və Stalinin ölümündən sonra bəraət almasına baxmayaraq, adının unutdurulması davam etmişdi. Heydər Əliyev, belə bir siyasətə qarşı çıxaraq, hərbi məktəbə Cəmşid Naxçıvanskinin adının verilməsi üçün Moskvaya müraciət etdi və öz istəyinə çatdı. Lakin Azərbaycan rəhbərinin hərbi məktəb açmaq və azərbaycanlı gəncləri hərbi məktəblərə qəbul etdirmək istəyi qarşısında bir neçə obyektiv və subyektiv çətinliklər mövcud idi. Bəzi gənclər uzun müddətli hərbi xidmətə getmək istəmirdilər, bəziləri isə rus dilini bilmədikləri üçün arzularını həyata keçirə bilmirdilər. Hərbi

məktəbə daxil olmaq istəyən gənclərin bir hissəsinin fiziki hazırlıqları da zəif idi. Hərbi məktəbin açılması ilə bağlı bir sıra çətinliklər mövcud idi, bunlar əsasən ölkədə tətbiq olunan rəsmi siyasətlə əlaqədar idi. İlk növbədə, Moskvada bəzi qüvvələr belə bir məktəbin yaradılmasına müsbət yanaşmır və buna açıq şəkildə mane olmağa çalışırdılar. Eyni zamanda, Azərbaycanda bu sahədə yetərli təcrübə və peşəkar hərbçi müəllimlər az idi. Məktəbin maddi-texniki bazasının yaradılması da bir sıra çətinliklərlə qarşılaşmışdı. Heydər Əliyev 1981-ci ildə bu məsələyə münasibət bildirərək demişdi: "biz məktəbin təşəkkülü və inkişafı dövründə qarşıya çıxan və aradan qaldırılan çətinliklər barədə danışmalıyıq. Açıq deyək ki, bu yol asan olmamışdır. Qarşımıza aydın məqsəd qoymuş olsaq da, on il bundan əvvəl müvafiq təcrübəmiz, praktikamız yox idi. Bir çoxlarını ixtisaslaşdırılımış məktəbin məqsədəuyğunluğuna inandırmaq lazım gəlirdi, orta məktəbin adi kollektivindən bir qədər fərqlənən müəllim kollektivi açıb toplamaq, müvafiq maddi-texniki baza yaratmaq və başqa tədbirlər həyata keçirmək lazım idi" [16]. Məktəbin yaradılması tarixi əhəmiyyət kəsb edirdi. Azərbaycanlıların hərb elminə marağı artır, peşəkar hərbçilərin sistemli şəkildə hazırlanması üçün möhkəm əsaslar qoyulurdu. Hərbi məktəbin məktəbin yubileyinin keçirilməsinə də xüsusi diqqət yetirilirdi. Azərbaycan KP MK və Nazirlər Soveti 1981-ci ildə C.Naxçıvanski adına hərbi məktəbin 10 illik yubileyinin qeyd olunmasına qərar verdi. Qərardan məlum olur ki, həmin ilin yayına qədər məktəbi 433 nəfər bitirmişdi və onların 44-ü ölkənin ali məktəblərinə daxil olmuşdu. Məktəbin məzunlarından 62 nəfəri isə zabit kimi orduda xidmət edirdi [18, s.146]. Azərbaycanlı gənclər arasında məktəbə qəbul olmaq istəyənlərin sayı ildən-ilə artmağa başlamışdı. MK və Nazirlər Sovetinin qərarına əsasən, 1982-ci ildə internat məktəbi üçün 250 nəfərlik əlavə yataq korpusu ilə birgə üçüncü növbə tikintisinin tamamlanması planlaşdırılmışdı. İnternat məktəbinin yeni obyektləri, iki yataq korpusu, idman kompleksləri, qazanxana və digər zəruri infrastruktur üçün layihə və smeta sənədləri Dövlət Layihə İnstitutuna təqdim edilmişdi. Həmçinin, şagirdlərə göstərilən tibbi, məişət və mədəni xidmətlərin daha da yaxşılaşdırılması nəzərdə tutulurdu. 1981-ci ilin dekabrında H.Əliyevin iştirakı ilə C.Naxçıvanski adına internat məktəbinin 10 illik yubileyinə həsr olunmuş təntənəli tədbir keçirildi. Tədbirdə Heydər Əliyev geniş nitq söyləyərək, həmçinin məktəbin yaradılması üçün şəraitin təmin edildiyi məişət şəraiti ilə tanış oldu. Bu nitq, Heydər Əliyevin Azərbaycanda hərb elminə və peşəkar azərbaycanlı hərbçi kadrlarının yetişdirilməsinə böyük önəm verdiyini və həyata keçirilən tədbirlərin inkişafını nümayiş etdirdiyini göstərirdi. Onun nitqindən məlum olur ki, 1971-1981-ci illər arasında məktəbin 540 nəfər məzunu müxtəlif akademiyalara, hərbi məktəblərə və ali məktəblərə qəbul olunmuşdu. Onlar 47 ali təhsil ocağında təhsil alırdılar və bunlardan 130 nəfəri zabit rütbəsi almışdı. 1981-ci ildə hərbi məktəbdə 500-dən çox şagird təhsil alırdı və bunlardan 310-u yalnız həmin ildə qəbul olunmuşdu [16]. Bu addım Heydər Əliyevin hərbçi kadrların yetişdirilməsi sahəsindəki fəaliyyətinin böyük uğuru idi. O, bu barədə belə deyirdi: "Bu müddət ərzində onun nüfuzu istər Azərbaycanda, istərsə də ölkədə artmışdır, respublikanın ictimaiyyəti məktəbin yaradılması faktının özünü də, onun kollektivinin müvəffəqiyyətli işini də yüksək qiymətləndirir". Qısa müddət ərzində Azərbaycanda gənclərin hərb elminə marağı artdı və məktəbə qəbul üçün müraciət edənlərin sayı çoxaldı. 1981-ci ildə C.Naxçıvanski adına hərbi məktəbə 300 yer üçün 650 nəfər ərizə vermişdi. Qəbul zamanı yalnız ən istedadlı gənclər qəbul edilirdi. Heydər Əliyev bir nitqində açıq şəkildə demişdi: "…ixtisaslaşdırılmış internat məktəbinin yaradılması ilə 1971-ci ildə böyük bir işə başlanmışdır" [17]. 1985-ci ildə hərbi məktəbə 500 nəfərin qəbul edilməsi planlaşdırılmışdı. Məktəbi bitirən peşəkar hərbçilər Azərbaycanın müstəqilliyi bərpa edildikdən sonra milli ordunun əsasını qoyaraq ərazi bütövlüyü uğrunda döyüşlərdə fəal iştirak etdilər. Heydər Əliyevin təşəbbüsü ilə azərbaycanlıların yalnız C.Naxçıvanski adına hərbi məktəbə deyil, SSRİ-nin ali hərbi məktəblərinə qəbul edilməsinə də xüsusi diqqət yetirilirdi. Əgər 1971-ci ildə SSRİ hərbi məktəblərinə yalnız 71 azərbaycanlı qəbul olunmuşdusa, 1974-cü ildə bu rəqəm 149 nəfərə yüksəlmişdir. SSRİ Müdafiə Nazirliyinin Hərbi-Təhsil Müəssisələri Baş İdarəsinin rəisi, tank qoşunları general-leytenantı V.Makarov Azərbaycan KP MK-ya yazdığı 1975-ci il 14 mart tarixli 207/163 №-li məxfi məktubunda yerli azərbaycanlı gənclərin hərbi təhsil müəssisələrinə cəlb edilməsini müsbət bir addım olaraq qiymətləndirmiş və respublika rəhbərliyinə təşəkkür etmişdir [7].

70-ci illərin sonlarına doğru baş verən İran inqilabı və Əfqanıstana sovet hərbi müdaxiləsi nəticəsində SSRİ-nin beynəlxalq mövqeləri ciddi şəkildə zədələnmişdi. Sovet dövlətinin həm Qərbdə, həm də müsəlman ölkələrində həyata keçirdiyi siyasət əhali tərəfindən mənfi reaksiya ilə qarşılanmışdı.

Heydər Əliyev bu vəziyyətdən böyük ustalıqla istifadə edərək, azərbaycanlıların hərbi xidmətlərə daha geniş şəkildə cəlb olunmasına başladı. SSRİ-nin türk və müsəlman xalqlarından olan peşəkar hərbi kadrların hazırlanması əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə artdı. 1982-ci ildə ölkənin hərbi məktəblərinə Azərbaycandan 1000 gənc qəbul edildi. təmin etmişdi. Onlardan 550 nəfəri yerli azərbaycanlılar idi [13]. Sovet hakimiyyəti dövründə, 70-80-ci illərdə hərbi texniki hissələrdə xidmət edən yüksək rütbəli azərbaycanlı zabitlərin sayı heç vaxt əvvəlki illərlə müqayisədə bu qədər yüksək olmamışdı. Bu, Heydər Əliyevin Azərbaycan xalqına qarşı göstərdiyi mühüm tarixi xidmət idi və gələcək müstəqilliyin təməl daşlarından birinin qoyulması deməkdir.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə azərbaycanlılardan peşəkar hərbi dənizçilərin yetişdirilməsinə xüsusi diqqət yetirirdi. Bakıda Qafur Məmmədov adına çarizm dövründən qalma Bakı Dənizçilik Məktəbi olsa da buranı bitirənlərin çoxu başqa xalqların nümayəndələri olmuşdu. Heydər Əliyev bu vəziyyəti dəyişmək üçün ardıcıl addımlar atdı, məktəbin inkişafına və maddi-texniki bazasının gücləndirilməsinə önəm verdi. Bu məsələlər Azərbaycan KP MK bürosunda müzakirə olunaraq müvafiq qərarlar qəbul edildi. 1981-ci ilin sentyabr ayında Heydər Əliyev Sov.İKP MK-ya 20/518 №-li məxfi məxfi məktub göndərərək məktəbin 100 illik yubileyinin keçirilməsini və maddi-texniki bazasının gücləndirilməsini xahiş etdi və bu istəyi müsbət qarşılandı [21]. Məktəbin təchizatı gücləndirildi, təntənəli yubiley mərasimi təşkil olundu, dənizçilərlə bağlı mahnılar yazıldı və mətbuatda məqalələr dərc olundu. Bütün bu tədbirlər nəticəsində azərbaycanlı gənclərin dənizçilik peşəsinə olan maraqları artdı, məktəbin şagirdləri arasında azərbaycanlıların sayı çoxalmağa başladı. Hərbi dəniz donanmasında xidmət edən azərbaycanlı zabitlərin sayı artdı.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə aviasiya sahəsində də mühüm addımlar atıldı. Həmin dövrdə təyyarəçilik məktəblərində azərbaycanlıların sayı yox dərəcəsində idi. Ali məktəblərə qəbulla bağlı Mərkəzi Komitədə keçirilən iclaslardan birində Heydər Əliyev, Bakı Ümumqoşun Komandirləri Məktəbinin rəisindən azərbaycanlıların aviasiya məktəblərində təhsil alması məsələsini soruşduqda, vəziyyətin olduqca zəif olduğu ortaya çıxır. Heydər Əliyev gənclərin aviasiya sahəsində təhsil almasının vacibliyini vurğulayır. Nəticədə azərbaycanlı gənclər ölkənin müxtəlif aviasiya məktəblərinə göndərildi. Kiyev Mülki Aviasiya İnstitutuna 42 nəfər azərbaycanlı tələbə göndərildi [12]. Sonradan bu məzunların əksəriyyəti Azərbaycanın mülki aviasiyasında çalışmış, müstəqillik illərində isə ölkənin hərbi hava qüvvələrində xidmət edərək milli aviasiyanın inkişafına töhfə vermişdilər.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının II Dünya Müharibəsi zamanı göstərdiyi misilsiz fədakarlığı xüsusi vurğulayırdı. O, Azərbaycanın həm arxa cəbhədə neft və digər strateji resurslarla SSRİ-nin qələbəsinə töhfə verdiyini, həm də ön cəbhədə qəhrəmanlıqla döyüşdüyünü qeyd edirdi. Bu tarixi xidmətin unudulmaması üçün Heydər Əliyev müxtəlif təşəbbüslərlə çıxış edirdi. Onun sədrliyi ilə keçirilən 1970-ci il 13 mart tarixli Mərkəzi Komitə Bürosunun iclasında faşizm üzərində qələbənin 25 illiyinə həsr olunmuş tədbirlər müzakirə olundu və Bakıda yerləşən meydanlardan birinə "Qələbə meydanı" adı verilməsi qərara alındı [3]. Bu qərarın icrası ilə Azərbaycanın müharibədəki töhfəsi rəsmi olaraq əbədiləşdirildi. 1971-ci il 23 iyun tarixində keçirilən Azərbaycan KP MK bürosunun iclasında Bakıda Böyük Vətən müharibəsi iştirakçılarının şərəfinə abidə-lövhə qoyulması ilə bağlı qərar qəbul edildi [1]. Müharibədə qazanılan qələbənin 30 illiyi münasibətilə Azərbaycanın bir çox rayonunda, Bakı, Gəncə, Lənkəran, Cəlilabad, Yardımlı və digər şəhərlərdə ucaldılan memorial komplekslər gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynadı. Bu təşəbbüs 70-80-ci illərdə ardıcıl olaraq davam etdirildi. 1979-cu il fevralın 23-də müharibə zamanı böyük şücaət göstərmiş və həlak olmuş Xəzər dənizçilərinin xatirəsinə onlara həsr olunmuş memorialın açılış mərasimi keçirildi və bu tədbirdə şəxsən iştirak edən Heydər Əliyev dənizçilərin xidmətlərini yüksək qiymətləndirən geniş nitq söylədi. Onun çıxışı Xəzər hərbi dəniz donanmasının və azərbaycanlı dənizçilərin tarixdə oynadığı mühüm rolu bir daha vurğuladı.

Ümummilli lider Heydər Əliyev hələ Dövlət Təhlükəsizlik Orqanlarında işləyən zaman Mehdi Hüseynzadənin həqiqi qəhrəman olduğunu sübut etmiş və ona qarşı açılmış cinayət işi dayandırmışdı. Lakin Azərbaycan ictimaiyyəti hələ onun igidlikləri barədə geniş məlumata malik deyildi. Heydər Əliyev M.Hüseynzadənin tanıdılması istiqamətində fəaliyyətini davam etdirdi. Bunun üçün Heydər Əliyev onun haqqında materialları Azərbaycan komsomolunun Mərkəzi Komitəsinə təqdim etdi ki, onun haqqında bədii əsər yazılsın. Məhz bu sənədlər əsasında onun haqqında roman qələmə alındı və

sonradan bu əsər əsasında bədii film çəkildi. Ümmummilli lider respublikada rəhbərliyə gəldikdən sonra onun göstərişi ilə yazıçı İ.Qasımov 1970-ci ilin may-iyun aylarında İtaliya, Yuqoslaviya və İsveçrəyə səfər etdi. O, M.Hüseynzadənin döyüş yolu keçdiyi Triest şəhərinə, Adriatik sahillərinə baş çəkdi və qəbrini ziyarət etdi, məzarından Azərbaycana torpaq da gətirdi. Onun şərəfinə hazırlanan abidənin açılması ilə bağlı məsələ Azərbaycan KP MK bürosunun 1973-cü il 13 mart tarixli iclasında müzakirəyə çıxarıldı və müvafiq qərar qəbul edildi [11]. Həmin ilin may ayında baş tutan açılış mərasimində iştirak edən Heydər Əliyev geniş nitq söyləyərək, azərbaycanlı partizanların şücaətinə verdiyi yüksək dəyəri bir daha nümayiş etdirdi. Ulu öndər Heydər Əliyev 1975-ci il avqustun 22-də o, SSRİ müdafiə naziri A.A.Qreçkoya 14/415 №-li məktub ünvanlayaraq, tank qoşunları general-mayoru, Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun adının Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin rəsmi siyahısına daxil edilməsini xahiş etdi. Həzi Aslanovun xidmətlərini əks etdirən geniş arayış təqdim edərək, onun görkəmli sərkərdə kimi yüksək qiymətləndirilməsini vurğuladı. Nəticədə bu təşəbbüs müsbət qarşılandı və həyata keçirildi. Heydər Əliyev Stalinqrad müdafiəçilərinin şərəfinə qoyulmuş abidəni ziyarət edərkən orada Sovet İttifaqı qəhrəmanlarının adları arasında Həzi Aslanovun adını qürurla oxuduğunu, bunun ona böyük fəxarət hissi yaşatdığını ifadə etmişdi.

Müstəqilliyin çətin və məsuliyyətli bir yol olduğunu dərk edən Heydər Əliyev Azərbaycan xalqının zəngin hərbi irsinin qorunub saxlanmasına və dirçəldilməsinə xüsusi önəm verirdi. Onun təşəbbüsü ilə Moskva, Taqanroq və digər şəhərlərdə Azərbaycan tarixi şəxsiyyətlərinə və hərbi irsinə həsr olunmuş abidələr ucaldıldı. Taqanroq şəhərinin faşist işğalından azad edilməsində iştirak etmiş 416-cı Azərbaycan Taqanroq diviziyasının şücaətini əbədiləşdirmək məqsədilə 1980-ci il mayın 8-də onun rəhbərliyi ilə orada abidə qoyuldu. Açılış mərasimində çıxış edən Heydər Əliyevin söylədiyi nitq, Azərbaycanın müharibədəki rolunun və onun fədakar insanlarının xidmətlərinin yüksək qiymətləndirilməsinin bariz nümunəsi idi.

XX əsrin 70-80-ci illərində sovet hakimiyyətinin ümumi siyasəti çərçivəsində, müharibə iştirakçılarına və əlillərinə xüsusi diqqət yetirilirdi. 1972-ci ildə Azərbaycanda 26,617 nəfər müharibə əlili qeydiyyata alınmışdı [4]. Bu şəxslərə dövlət dəstəyi göstərilirdi. Qələbə bayramı ərəfəsində onların iştirakı ilə gənclərlə görüşlər təşkil olunur, müxtəlif mükafatlarla təltif edilirdilər. Müharibə iştirakçıları cəmiyyət arasında böyük hörmət və nüfuz sahibi idilər. 1981-ci ilin iyun ayında Azərbaycan KP MK bürosunda keçirilən iclasda, Böyük Vətən müharibəsi iştirakçılarının, əlillərinin və həlak olmuş hərbi qulluqçuların ailələrinin maddi-məişət şəraitinin yaxşılaşdırılmasına dair mühüm qərar qəbul edildi. Bundan əlavə, Azərbaycan hərb tarixində görkəmli sərkərdələrin yubileylərinin qeyd olunmasına xüsusi diqqət ayrıldı. Belə tədbirlərin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynadı. 1978-ci ildə general-mayor M.Ə.Əbilovun anadan olmasının 80 illiyi geniş miqyasda qeyd edildi. 1980-ci il 16 yanvar tarixində keçirilən MK bürosunun iclasında isə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun 70 illik yubileyinin keçirilməsi haqqında qərar qəbul edildi [9]. Bu qərara əsasən Həzi Aslanov adına Zabitlər evi təmir etdirildi və yeni avadanlıqlarla təmin edildi.

1981-ci il 28 iyul tarixində keçirilən Azərbaycan KP MK bürosunun iclasında, Azərbaycan sovet atıcı diviziyasının ilk komandanı general Cəmşid Cəfər oğlu Naxçıvanskinin anadan olmasının 85 illiyi ilə bağlı tədbirlərin keçirilməsi barədə qərar qəbul edildi [10]. Bu qərara uyğun olaraq genişmiqyaslı yubiley tədbirləri həyata keçirildi. Generalın adına olan məktəbin həyətində büstünün qoyulması planlaşdırılsa da, Heydər Əliyevin Moskvaya yüksək vəzifəyə təyin edilməsi səbəbilə bu iş tam başa çatdırılmadı. O, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışdığı dövrdə də qəhrəman hərbçilərin xatirəsinin əbədiləşdirilməsinə xüsusi diqqət yetirirdi. 1986-cı ilin aprel ayında bu istiqamətdə mühüm qərarların imzalanmasında onun bilavasitə rolu olmuşdur.

Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda hərbi idman oyunlarına diqqət artırıldı. Silahlı qüvvələr üçün ixtisaslı kadrlar yetişdirmək məqsədilə 1976-cı il 5 oktyabr tarixində Azərbaycan KP MK bürosunun iclasında respublikada hərbi-texniki idman növlərinin inkişafına dair qərar qəbul edildi. Bu sənəddə tədris müəssisələrinin və avtomobil məktəblərinin yaradılması nəzərdə tutulurdu [8]. Bu addım, bir tərəfdən, respublikada yeni iş yerlərinin açılmasına səbəb olur, digər tərəfdən isə gənclər arasında hərbi-vətənpərvərlik ruhunu yüksəldərək hərb elminə marağı artırırdı. Azərbaycanlı gənclərin ordu sıralarından yayınmasının qarşısını almaq və hərbi komissarlıqların fəaliyyətinin tək-

milləşdirilməsi üçün xüsusi tapşırıqlar verildi. 1973-cü il 3 aprel tarixində keçirilən MK bürosunun iclasında Azərbaycanın hərbi komissarlıqlarının 25%-nə 19 birbaşa rabitə kanallarının ayrılması, xalq təsərrüfatı ehtiyaclarını ödəmək üçün hərbi tipli 15 avtokolon ayrılması qərara alındı [6].

Nəticə. Ümmummilli lider Heydər Əliyevin hərbi kadrların hazırlanması və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi sahəsindəki əzmkarlığı müsbət nəticələrini göstərirdi. Azərbaycanlıların ordu sıralarında sayı artmağa başlamış, hərb elminə maraq daha da güclənmiş, yüksək rütbəli zabitlərin yetişdirilməsi sürətlənmiş, peşəkar hərbçilər nəsli formalaşmış, xalqın özünümüdafiə qabiliyyəti güclənmişdi. Bu tədbirlər nəticəsində ölkə miqyasında Azərbaycan xalqına olan münasibət müsbət yöndə dəyişmişdi. XX əsrin 70-80-ci illərində Azərbaycanda həyata keçirilən hərbi kadrların hazırlanması siyasəti, vətənpərvərlik və peşəkar hərbçi yetişdirilməsi sahəsində çox mühüm addımların atılmasına şərait yaratmışdır. Həmin dövrdə həyata keçirilən tədbirlər, Azərbaycanın gələcək hərbi qüvvələrinin təməlini qoymuş və xalqın özünümüdafiə qabiliyyətini artırmışdır. Həmçinin, gənclərin hərbi xidmətə olan marağı və onların vətənə xidmət etmək istəyini artırmaqla, Heydər Əliyev Azərbaycanın müstəqil ordusunun formalaşmasında önəmli rol oynamışdır.

ƏDƏBİYYAT

1. ARPİSSA, f. 1, siy. 18, iş 111 (113), pr. № 15, § 14.
2. ARPİSSA, f. 1, siy. 56, iş 49, pr. № 107, § 2, v. 2.
3. ARPİSSA, f. 1, siy. 57, iş 27, pr. № 122, § 9, v. 71.
4. ARPİSSA, f. 1, siy. 59, iş 142, v. 90-95.
5. ARPİSSA, f. 1, siy. 60, iş 19, pr. № 61, § 14.
6. ARPİSSA, f. 1, siy. 61, iş 155, v. 48-55.
7. ARPİSSA, f. 1, siy. 62, iş 138, v. 177.
8. ARPİSSA, f. 1, siy. 63, iş 86, pr. № 20, § 20, v. 83-86.
9. ARPİSSA, f. 1, siy. 67, iş 17, pr. № 125, § 6; 5.
10. ARPİSSA, f. 1, siy. 68, iş 102 (103), pr. № 19, §15.
11. ARPİSSA, f. 1, siy. 68, iş 204, v. 18.
12. ARPİSSA, f. 1, siy. 68, iş 362, v. 167-168.
13. ARPİSSA, f. 1, siy. 70, iş 203, v. 27.
14. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı. "Elm". 2008. 608 səh. + 80 səh. illüstrasiya.
15. Əliyev H. Müstəqilliyimiz əbədidir. IV kitab, B., Azərnəşr, 1997, 528 s.
16. H.Ə.Əliyevin C.Naxçıvanski adına internat məktəbin 10 illiyinə həsr edilən təntənəli yığıncaqda nitqi. – «Kommunist» qəzeti, 1981, 11 dekabr, № 285 (17919).
17. «Kommunist» qəzeti, 1981, 11 dekabr, № 285 (17919).
18. Qasımlı M.C. Heydər Əliyev - istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2006. – 608 s.
19. Rəsulzadə M. Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1990, s.50-51.
20. Zeynalov, İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında. Bakı, Azərnəşr, 2004.
21. Zeynalov, İ. Azərbaycanın Milli-Mənəvi Dəyərləri İntibah Dövründə (1969-1982-ci illər), Akademik Tarih ve Düşünce Dergisi , C.9, S.3, 2022, s.606-625.
22. Хоскинг Д. История Советского Союза. 1917-1991. Пер. с англ. М., Вагриус, 1995, с.441.

РАШИД МЕХТИЕВ
Бакинский государственный университет
Докторант кафедры истории Азербайджана (гуманитарные факультеты)

ПОДГОТОВКА ВОЕННЫХ КАДРОВ В АЗЕРБАЙДЖАНЕ В 70-80-Х ГОДАХ XX ВЕКА

В 70-80-х годах XX века общенациональный лидер Гейдар Алиев предпринял ряд значимых шагов по увековечению военной истории Азербайджана и почитанию его героев. В этот

период особое внимание было уделено военно-патриотическому воспитанию молодежи с целью укрепления военного потенциала страны. Создавались условия для увеличения числа азербайджанцев в рядах армии и подготовки профессиональных военнослужащих.

В статье анализируются шаги, направленные на развитие военных учебных заведений, увековечение памяти участников войны, популяризацию их героизма среди широкой общественности, пропаганду военной истории Азербайджана, повышение уровня военного патриотизма, а также увеличение интереса молодежи к военной службе.

Ключевые слова: Гейдар Алиев, 70-80-е годы XX века, военные учебные заведения, герои Советского Союза, военная история.

RASHID MEHDIYEV
Baku State University
PHD of the Department of History of Azerbaijan (humanitarian faculties)

TRAINING OF MILITARY PERSONNEL IN AZERBAIJAN IN THE 1970S-1980S

In the 1970s and 1980s, national leader Heydar Aliyev took a series of significant steps to immortalize Azerbaijan's military history and its heroes. During this period, particular attention was paid to fostering military-patriotic education among the youth to strengthen Azerbaijan's military capabilities. Conditions were created to increase the number of Azerbaijanis in the armed forces and to train professional military personnel.

The article analyzes the measures taken to develop military educational institutions, preserve the memory of war participants, promote their heroism to the general public, advocate for Azerbaijan's military history, elevate the spirit of military patriotism, and enhance the interest of young people in military service.

Keywords: Heydar Aliyev, 70s-80s of the 20th century, military academies, Soviet Union heroes, military history.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. Qabil Əliyev.

UOT 32:93/94

САНАМ ГАРИБОВА
преподаватель Бакинского Государственного Университета
nazligaribova@gmail.com

РОЛЬ ТРАДИЦИОННЫХ СМИ И «НОВЫЕ МЕДИА» В МЕЖДУНАРОДНЫХ КОНФЛИКТАХ

DOI: https://doi.org/10.36719/2708-065X/108/101-104

В данной статье автор раскрывает роль традиционных СМИ и «Новые медиа», оказывающих влияние на международные конфликты. Также рассматривается информационная политика государства, то как, оптимальное и эффективное построение информации влияет на международные конфликты.

Ключевые слова: коммуникация, средства массовой информации, медиа, информационная война, международные конфликты, политическая обстановка.

Введение. В современных политических конфликтах всё большую роль приобретают средства массовой информации и коммуникации. Средства массовой информации всегда оказывали большое влияние на кризисные ситуаци.

Есть множество имен для медийных объектов: пресса, коммуникация, массовая коммуникация, социальная коммуникация, средства массовой коммуникации, средства массовой информации (СМИ), журналистика, медиа, массмедиа, медиасфера, медийное пространство и тд. В политической науке принято использовать все понятия распространения информации, которые доносят её до широкого круга потребителей. Обратимся к основным – это традиционные средства массовой информации (СМИ) и «Новые медиа». К традиционным средствам массовой информации относятся: печать, радио, телевидение и Интернет. Следует выделить основные элементы СМИ:

1. Коммуникатор («Кто говорит?»)
2. Контент («Что говорит?»)
3. Канал («По какому каналу?»)
4. Аудитория («Кому говорит?»)
5. Эффекты («С каким эффектом?»).

Стремительное развитие интернет-технологий изменило систему и скорость распространения информации в современном мире, сделав «новые медиа» (электронные СМИ, блоги, новостные интернет-агрегаторы, социальные сети, мессенджеры и др.) важными акторами системы массовой коммуникации наравне с традиционными СМИ. К тому же стоит обратить внимание, что кроме основанных на компьютере технологий, о которых говорят чаще всего, есть и другие инновации, меняющие традиционные массовые коммуникации: видеозаписывающие устройства, CD-ROM, компакт-диски, DVD, iPad, и iPhon [1].

В современном обществе политические конфликты разворачиваются в динамично меняющемся глобальном информационном пространстве, и именно за счёт включения в конфликт глобальных медиаресурсов внутренние конфликты зачастую перерастают в международные. Роль СМИ и «новых медиа» в этом контексте очень важна: от качества и содержания их сообщений зависит, заметит ли общество возникновение противоречий, о наличии которых сигнализирует конфликт, или будет эти противоречия игнорировать, позволив им укорениться, стать глубокими и превратиться в постоянно действующий фактор инициирования новых конфликтов, кризисов и расколов. Нередко именно СМИ и «новые медиа» способствуют осознанию обществом в более короткие сроки не только самого факта наличия противоречий, но и их сущности и содержания, а также степени потенциальной угрозы общественным интересам, стабильности и безопасности. В рамках конфликтов информационные возможности СМИ и «новых медиа» используются всеми участниками. Конфликтующие стороны используют каналы

СМИ и «новых медиа» для того, чтобы обмениваться нотами в условиях острой фазы конфликта (когда другие каналы взаимодействия отсутствуют или сознательно разорваны конфликтующими сторонами), доносят друг до друга свои позиции по наиболее спорным вопросам, «прощупывают» возможные ответные реакции соперников методом вброса провоцирующей информации. При этом роль «новых медиа» в урегулировании современных конфликтов постепенно возрастает [2].

Влиятельные политические акторы, имеющие собственные СМИ или ресурсы для их подкупа, используют СМИ и «новые медиа» для информационно-психологического влияния на соперников, для агитации и пропаганды, идеологического давления, для дезинформации и формирования общественного мнения. При этом СМИ и «новые медиа» в современных конфликтах выступают одновременно и как специальный субъект, и как инструмент конфликтного взаимодействия. Кроме того, результаты деятельности, или продукты СМИ и «новых медиа», и реакции людей на них, выражающиеся в политически мотивированных действиях, формируют особое медиа-пространство, в котором участники политических конфликтов вступают в борьбу за власть в особой форме – информационных войн и психологических операций. Таким образом, СМИ и «новые медиа» являются также и элементом среды, в которой разворачиваются сегодня политические конфликты. Возрастающее влияние СМИ и «новых медиа» на процесс урегулирования и разрешения политических конфликтов создает такое понятие, как «медиакратия», которое придаёт СМИ статус политического субъекта, способного устанавливать собственный политический порядок и правила поведения. Такое многообразие ролей СМИ и «новых медиа» в конфликтах не случайно. Современные политические конфликты носят гибридный характер, в них столкновение сторон по вопросам власти и политического управления одновременно разворачивается в различных сферах: традиционной политической, военной, информационной, экономической, духовно-ценностной [3]. Во всех этих сферах СМИ и «новые медиа» как производитель информации, оперативных новостей и аналитики играет ключевую роль: их информационные сети, обеспечивающие мгновенное доведение информации до потребителя и охватывающие обширные аудитории на национальном, региональном и глобальном уровнях, являются для государств идеальными каналами для доведения управляющего воздействия до сознания как широких масс населения, так и конкретных целевых аудиторий. Эти же каналы применяются как средства доставки информационного оружия, используемого в информационных войнах. Цель медиавоздействий на конфликт состоит в том, чтобы завоевать расположение мирового сообщества и одновременно негативно представить противника. В условиях, когда открытые боевые действия осуждаются, именно такое медиавоздействие наиболее эффективно, поэтому СМИ и «новые медиа» превращаются в площадку, где сталкиваются информационные стратегии государств, и зачастую предопределяют победу в конфликте. Поскольку позиция массмедиа становится определяющей в столкновении государств, СМИ из канала распространения информации или инструмента эскалации конфликта превращаются в субъект политики. Современные конфликтологи отмечают, что современный вооружённый конфликт развивается в жанре репортажа. И, по законам этого жанра, для того чтобы генерируемые им новости форматом максимально близко соответствовали формату пиар-материала, необходимого для реализации технологий информационно-психологического воздействия. СМИ и «новые медиа» сегодня успешно выступают в роли инструмента трансформации объективной реальности в сознании участников конфликта и третьей стороны (включая международное сообщество). Они, по сути, конструируют образ конфликта и управляют поведением сторон, вовлечённых в конфликтное взаимодействие, путём воздействия на их восприятие происходящего. Таким образом, в современном мире СМИ и «новые медиа» являются ключевым элементом и фактором информационных войн, без которых сегодня не обходится ни один политический конфликт. Информационные атаки, которыми обмениваются участники конфликтного взаимодействия, достигают своих целей не напрямую, а посредством медиа. Технологии информационных войн основаны на манипулятивном управлении сознанием и подсознанием граждан с помощью истинной или ложной информации. Высокая эффективность информационных войн делает их неотъемлемой компонентой наиболее опасной формы современных международных конфликтов

– гибридных войн, ведущихся сегодня в Сирии и на Украине. Сегодня технологии информационных войн активно и весьма охотно применяют во всех странах.

Термин «информационная война» впервые появился в 1991 году, позднее в связи с расширением глобальных сетей, возникла необходимость исследования характера информационной войны на научном уровне. Однако общее мнение о событии еще не сформировалось, но радикальные изменения в мировой политике в этом направлении позволяют предположить, что настало время выработки новых принципов в подходах к разрешению конфликтов. В этом смысле важна подготовка соответствующей конвенции о нормах, обеспечивающих правовую классификацию информационной агрессии, а также запреты и ограничения на применение информационного оружия. Современный информационный конфликт поднялся на новый уровень благодаря информатизации различных сфер деятельности многих государств, высоким темпам развития глобальных информационных структур, а также все возрастающему воздействию на сознание и чувства людей. Также сама информация и информационные технологии стали важным инструментом ведения информационных войн.

Считается, что термин «информационная война» в широком смысле обозначает информационную войну, направленную на достижение различных политических целей в киберпространстве и в сфере массовой информации. В узком смысле под «информационной войной» понимают военную операцию, военные контрмеры с целью достижения одностороннего преимущества в сборе, обработке и использовании информации на поле боя, снижения эффективности определенных действий противника.

Информационная война в настоящее время стала реальностью дня, и ее масштабы довольно широки, но в основном она применяется в сферах ведения войны: политической, дипломатической, экономической и финансовой.

Выводы. В итоге, можно сказать, что влияние СМИ и «новых медиа» в рамках современных конфликтов очень велико: любой политический конфликт, независимо от его масштаба и состава участников, следует рассматривать в информационном контексте. Борьбу участников противостояния за власть всегда сопровождает информационная война, ведение которой невозможно без посреднических и передаточных функций СМИ и «Новая медиа», а также без изготавливаемого и транслируемого ими контента. Возможности медиа могут использоваться участниками конфликта для оказания информационного давления на соперника, манипулирования общественным сознанием, формирования позитивного или негативного образа конфликта с помощью информационных кампаний.

ЛИТЕРАТУРА

1. И.Д. Фомичева сми среди средств социальной коммуникации//вестн. Моск. Ун-та. Сер. 10. Журналистика. 2012. № 1. [müraciət tarixi: 28.10.24]
2. Василенко И.А. Роль связей с общественностью на политических переговорах // Дипломатическая служба. 2015. № 2. С. 28–36. [müraciət tarixi: 05.11.24]
3. Манойло А.В. Информационно-психологическая война: факторы, определяющие формат современного вооруженного конфликта. [müraciət tarixi: 06.11.24].
4. Кинаш Ю.С. Роль СМИ и «новых медиа» в современных политических конфликтах // Вестник Московского государственного областного университета (электронный журнал). 2017. № 4. URL: www.evestnik-mgou.ru [müraciət tarixi: 14.11.24]
5. BAU - Dijital Diplomasi Nedir? https://bau.edu.tr/icerik/4487-dijital-diplomasi-nedir. [müraciət tarixi: 18.11.24]
6. Yücel Baştan, Soner Karagül - Diplomasinin Dönüşümü ve Dijital Diplomasi https://dergipark.org.tr/tr/pub/troyacademy/issue/65560/959312 [müraciət tarixi: 18.11.24]

SƏNƏM QƏRİBOVA
Bakı Dövlət Universitetinin müəllimi

BEYNƏLXALQ MÜNAQİŞƏLƏRDƏ ƏNƏNƏVİ MEDİANIN VƏ «YENİ MEDİA»NIN ROLU

Məqalədə müəllif beynəlxalq münaqişələrə təsir edən ənənəvi medianın və «yeni media»nın rolunu açıqlayır. Həmçinin dövlətin informasiya siyasətinin, informasiyanın optimal və səmərəli qurulmasının beynəlxalq münaqişələrə necə təsir etdiyi də nəzərdən keçirilir.

Açar sözlər: rabitə, kütləvi informasiya vasitələri, media, informasiya müharibəsi, beynəlxalq münaqişələr, siyasi vəziyyət.

SANAM QARIBOVA
Lecturer of Baku State University

THE ROLE OF TRADITIONAL MEDIA AND «NEW MEDIA» IN INTERNATIONAL CONFLICTS

In this article, the author reveals the role of Traditional Media and «New Media» influencing international conflicts. The information policy of the state is also considered, how the optimal and effective construction of information influences international conflicts.

Keywords: communication, mass media, media, information war, international conflicts, political situation.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 21 yanvar 2025-ci il
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: s.e.f.d. Afət Səfərova, s.e.d. Sabir Məmmədli.

UOT 32:93/94

XALİDƏ MƏLİKOVA
Azərbaycan Respublikasinin Pezidenti yaninda
Dövlət İdarəçilik akademiyası
khalida.malikova@yahoo.de

RUSİYA FEDERASİYASININ YAXIN ŞƏRQ SİYASƏTİ: ELMİ-POLİTOLOJİ TƏHLİL

DOI: https://doi.org/10.36719/2708-065X/108/105-114

Müasir dövrdə Yaxın Şərqdə gedən geosiyasi mübarizə və rəqabətdə regional və regiondan kənar aktorlar fəal iştirak edirlər. Lakin qütbləşmə iki dövlətin - ABŞ və Rusiyanın ətrafında baş verir. ABŞ SSRİ-nin dağılmasından sonra regionda əldə etdiyi hegemonluğu əldən verməmək uğrunda mübarizə aparmaqdadır, Rusiya isə SSRİ-nin dağılmasından sonra nəinki Yaxın Şərqdə, ümumiyyətlə dünyada itirdiyi mövqeləri bərpa etmək uğrunda mübarizə aparır. Bu mübarizənin gedişində Rusiya, Çin və İranın mövqelərindəki ümumi cəhətlər onlara birgə mövqedən çıxış etməyə imkan verir. ABŞ-ın regionda terrorçuluğu dəstəkləməsi, "kürd kartını" və enerji maraqlarını ortaya qoyması Türkiyəni ehtiyatlı olmağa və Rusiya-Çin-İran birliyinə meyl etməyə vadar edir. Rusiyanın region ölkələrinə münasibətdə balanslı siyasəti daha rəğbətlə qarşılandığı halda, ABŞ-ın liderlik siyasəti keçmiş müttəfiqlərinin də açıq və ya gizli müqaviməti ilə qarşılaşır. ABŞ-ın İzraili "Vaşinqtonun dəyənəyinə"n çevirməsi isə regionda qarşıdurmanı daha da kəskinləşdirir. Məqalədə XXI əsrin 10-20-ci illərində Yaxın Şərqdə yaranmış geosiyasi mənzərənin fonunda getməkdə olan hərbi-siyasi rəqabətin mahiyyəti və məzmunu təhlil edilir və nikbin olmayan perspektivləri göstərilir.

Açar sözlər: Yaxın Şərq, Rusiya, ABŞ, Türkiyə, İran, geosiyasi maraqlar, "ərəb baharı", enerji amili, regional rəqabət, terrora qarşı mübarizə, təhlükəsizlik konsepsiyası, silah ticarəti.

Giriş. Yaxın Şərq regionunun dünyanın geosiyasi müstəvisində yeri onun loqistika baxımından əhəmiyyəti, zəngin enerji resurslarına malik olması və mövqeyi ilə müəyyənləşir. Məhz buna görə də bu region II dünya müharibəsindən sonra dünya güclərinin gərgin mübarizə və müharibələr meydanına çevrilmişdi. Vaxtı ilə İngiltərə və Fransanın mandat əraziləri olan bu ölkələrdə hegemonluq müharibədən sonra ABŞ-a keçsə də, tezliklə burada SSRİ də müstəqil aktor kimi çıxış etməyə başladı. Təsadüfi deyildi ki, Qərb müəlliflərindən U.Laker "ruslar Yaxın Şərqə girməkdədirlər"- fikrini səsləndirmişdi [18, s.392]. SSRİ-nin süqutundan sonra onun yerini tutan RF tədricən Yaxın Şərqdə itirilmiş mövqelərini bərpa etməyə başladı.

Minilliyin əvvəllərindən etibarən Rusiyanın Yaxın Şərq siyasətində İzrail, İran və Çinlə yanaşı, Türkiyə də mühüm yer tutmağa başladı. Türkiyə ABŞ-ın NATO bloku üzrə müttəfiqi kimi Yaxın Şərq siyasətində balansı gözləsə də, öz maraqlarını daha yüksək tuturdu. Məhz buna görə də ayrı-ayrı dövrlərdə Türkiyə maraqlarına cavab vermədiyinə görə, ABŞ-dan aralanmış və regiona daha təsirli alətlərə malik Rusiya ilə yaxınlaşmışdı. 2000-2015-ci illər arasındakı dövrdə Rusiya prezidentləri Türkiyəyə 6 rəsmi səfər etmiş, 2010-cu ildə iki ölkə arasında Yüksək Səviyyəli Əməkdaşlıq Şurası yaradılmışdı [19]. Fikrimizcə, Rusiya və Türkiyəni regional əməkdaşlığa vadar edən başlıca səbəblər aşağıdakılardır: Cənubi Qafqazda mövcud münaqişələrin, o cümlədən də Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi, Mərkəzi Asiya regionunda əməkdaşlıq, Ərəb-İzrail münaqişəsinin nizamlanmasına münasibətdə oxşar mövqelər, "ərəb baharı" hadisələri və regionda terrorçuluğun yayılmasına münasibət, Suriya məsələsi, İranın nüvə proqramına və onunla regional əməkdaşlığa xüsusi diqqət verilməsi, Rusiyanın Yaxın Şərqdə mövcudluğunun qorunub saxlanması, habelə regionun gələcəyi naminə əməkdaşlıq və s. Göstərilənlərlə yanaşı, regionda cərəyan edən digər hadisələr də zamanla ikitərəfli münasibətlərə öz təsirini göstərirdi və bu mənada qarşılıqlı güzəştlər edilirdi.

Əsas hissə. XXI əsrin ilk onilliyi dünyanın müxtəlif regionlarında, o cümlədən də Yaxın Şərqdə nüfuz dairələri və enerji resurslarına sahiblənmək uğrunda mübarizənin xüsusi ilə kəskinləşdiyi dövr hesab edilir. Yaranmış vəziyyətdə bu region regional və regiondan kənar güclərin potensial mü-

haribə meydanına çevrilməkdə idi. Rusiyanın İran və Çinlə birlikdə Suriyada Bəşər Əsəd rejimini müdafiə etməsi Vaşinqtonun nəzərdə tutduğu layihənin iflas olmasına gətirib çıxardı. Türkiyənin də bu məsələdə rolu az olmadı, belə ki, Türkiyənin qonşuluğunda Suriya və İraq torpaqlarının hesabına Kürdüstan dövlətinin yaradılmasına qarşı çıxması onun da Rusiya və İranla yaxınlaşmasına gətirib çıxardı. Ərazisində çoxsaylı kürd icmasının yaşadığı Türkiyə üçün Vaşinqtonun bu layihəsi kifayət qədər təhlükəli oyun idi. Rusiya-Türkiyə yaxınlaşmasını əngəlləmək və ABŞ-a qarşı çıxdığına görə, prezident R.T.Ərdoğanı cəzalandırmaq üçün 2015-ci ilin noyabrında Rusiyanın SU-24 bombardmançı təyyarəsi amerikan raketi ilə vuruldu və 2016-cı ilin iyununda Türkiyədə dövlət çevrilişinə cəhd edildi. Bununla belə, Vaşinqton nəzərdə tutduqlarının heç birinə nail ola bilmədi. Digər tərəfdən, Suriya məsələsində də Rusiya və Türkiyənin mövqeləri bir müddət üst-üstə düşmüşdü.

Yaxın Şərqdə qlobal dəyişikliklərin başlıca səbəbləri içərisində ABŞ-da başlanan və bütün dünyanı əhatə edən 2008-2011-ci illər böhranı mühüm rol oynamışdı ki, məhz bu böhran region xalqlarına ağır təsir göstərərək bütün ölkələrdə cəmiyyətləri radikallaşdırmışdı. Böhranların dünyanın iqtisadi modelinə təsiri həmişə olmuşdur və bu XX əsr boyu dəfələrlə baş vermişdi. ABŞ-ın iqtisadiyyatı da bu baxımdan istisna təşkil etmirdi, belə ki, 2008-ci ildə başlanmış ipoteka böhranı dünya pulunun və millı valyutaların dəyərini itirməsinə gətirib çıxarmaqla, dünya dövlətlərinin maliyyə həyatına sarsıdıcı zərbə vurmaqla demək olar ki, iqtisadi mexanizmləri alt-üst etmişdi. Məlum olduğu kimi, ipoteka kreditləri bazarında ilk problemlər artıq 2007-ci ildə başlasa da, qlobal maliyyə böhranının başlanğıcı ABŞ-ın "Lehman Brothers" bankının müflisləşdiyi gün – 2008-ci il sentyabrın 15-i hesab olunur [1]. Fikrimizcə, dünya böhranı nəticəsində Yaxın Şərqdə yaranmış sosial-siyasi və iqtisadi vəziyyət, əhalinin həyat şəraitinin kəskin şəkildə pisləşməsi "ərəb baharı" hadisələrinin başlanması və genişlənməsində mühüm rol oynamışdı. Region ölkələrinin hamısında sosial-iqtisadi qeyri - bərabərlik, ədalətsizlik, yoxsulluğun yüksək səviyyəsi, insan ləyaqətinin itirilməsi, korrupsiyanın cəmiyyətlərdə dərin kök salması, işsizliyin yüksək səviyyəsi kimi amillər inqilabi dəyişikliklərin mühüm səbəbləri hesab olunur. Digər tərəfdən, bu ölkələrdən çıxarılan pulların Qərb banklarına yerləşdirilməsi sosial-iqtisadi islahatların həyata keçirilməsini mümkünsüz edirdi. Regionda vəziyyəti gərginləşdirən mühüm səbəblərdən biri də ərəb dövlətləri başçılarının Fələstin ərəblərinin taleyinə biganəliyi idi ki, bütün bu faktorlar kompleks şəkildə xalq hərəkatlarına təkan vermişdi. "Ərəb baharı" hadisələrində xarici amillərin təsiri də mühüm əhəmiyyət kəsb etmişdi. Qeyd edək ki, böhranın ABŞ-da başlaması təsadüfi deyildi. Belə ki, ABŞ İraq müharibəsi dövründə və sonralar 3 trilyon dollar xərcləmişdi ki, bu maliyyə itkisi özünü ölkə iqtisadiyyatının bütün sahələrində göstərmişdi. Əslində bu göstərici dövlət üçün böyük məbləğdə rəsmi ehtiyatların itkisi demək idi [5].

Beynəlxalq aləmdə yaranmış vəziyyət Dünya Bankının hesabatında da yer almışdı. Hesabata görə, 2010-2020-ci illərdə davam edən və bütövlükdə Yaxın Şərq və Şimali Afrikanın Tunis, Misir, Yəmən, Bəhreyn, Liviya, Suriya və başqa ölkələrindəki baş verən üsyanlar və vətəndaş müharibələri ümumilikdə maddi ziyanla birlikdə adı çəkilən ərəb ölkələrində inkişaf imkanlarını da məhv etmişdi [13]. Doğrudur, politoloq və tədqiqatçılar arasında böhranın süni şəkildə yaradıldığı, bu yolla Yaxın Şərq ölkələrində əhalinin mövcud rejimlərdən narazılığını gücləndirmək üçün istifadə olunması fikrini səsləndirənlər də mövcuddur. Təsadüfi deyildi ki, ABŞ-ın keçmiş Dövlət katibi Kondoleza Rays "ərəb baharını" Mərakeşdən Çin sərhədinə qədər 22 ölkənin siyasi və iqtisadi coğrafiyasının dəyişdirən kataklizmlər kimi səciyyələndirmiş və əhəmiyyətini yüksək qiymətləndirmişdi [13]. Bu baxımdan, "ərəb bahar"ının daha çox xaricdən idarə edilən proses olduğunu demək olar.

Ərəb baharı hadisələrinin politoloji təhlili göstərir ki, dövlətlər regionda baş verənləri diqqətlə izləmiş və müvafiq strateji kurs hazırlamışdılar ki, bu baxımdan Rusiyanın region siyasətini gecikmiş kimi xarakterizə edə bilərik. Çünki Rusiya Yaxın Şərqdə cərəyan etməkdə olan hadisələrə yalnız Liviyada (Rusiyanın müttəfiqi kimi görülürdü - müəl.) baş verənlərdən sonra regiondakı demək olar tək müttəfiqi kimi qalan Suriyanı ciddi şəkildə müdafiə etməyə başlamış və bu ölkədə iki hərbi baza yaratmışdı. Daha dəqiq desək, Moskva öz yeni Yaxın Şərq siyasətini bu regiondakı müxtəlif aktorlara təhlükəsizliyin təmin olunması üzrə öz xidmətlərinin ixracı əsasında qurmuş və hazırda da həyata keçirməkdədir.

Qeyd edək ki, Rusiyanın Yaxın Şərq siyasəti regionda qüvvələr tarazlığını saxlamaq üzərində qurulmuşdu ki, bu da ilk növbədə Qərb ölkələrini, xüsusilə ABŞ-ı qane etmirdi. Ölkənin intellektual

və siyasi elitası isə mədəniyyətlərin münaqişəsinin qaçılmazlığı faktının qəbul etməkdən olduqca uzaqdır. Bunu San-Fransisko Universitetinin beynəlxalq əlaqələr üzrə professoru A.Çıqankov "Les Echos" nəşrində yer almış məqaləsində ətraflı şəkildə təhlil etmişdi. "Zəngin mənəvi rəngarəngliyə malik Rusiya mədəni və qlobal miqyaslı dialoqun tərəfdarı kimi çıxış edir və dialoqu dünyada sabitliyə və asayişə şərt olaraq görür", - deyən müəllifin fikrincə, Rusiya siyasətçiləri, o cümlədən prezident V.Putin müxtəlif dinlər və sivilizasiyalar arasındakı sərhədlərin açılmasını istəyir, ölkənin Qərb və İslam yönümlü düşərgələrə bölünməsinə qarşı çıxır [7]. Fikrimizcə, belə siyasət Rusiyanın dünya düzənində yerini saxlammaq məsələsidir.

Rusiyanın Yaxın Şərq siyasəti SSRİ dövründən qalma ənənələrin üzərində qurulmuşdur və başlıca xüsusiyyətləri regionun bütün dövlətləri ilə əlaqələrin qurulmasından və mürəkkəb böhranlarda iştirak edən oyunçuların maraqlarına birtərəfli dəstək göstərilməməsindən ibarətdir. Belə ki, Moskva üçün yalnız İran və Suriya kimi ABŞ-la mənafeləri toqquşan ölkələrlə əlaqələrin inkişafı deyil, eyni zamanda regionun Səudiyyə Ərəbistanı kimi mühafizəkar dövlətlər və ABŞ-ın Yaxın Şərqdəki müttəfiqləri ilə əlaqələrin qurulması böyük əhəmiyyət kəsb edirdi. Lakin son otuz ildə Yaxın Şərqdə İran-Rusiya münasibətləri bir tərəfdən Moskvanın qlobal maraqları və məqsədləri, digər tərəfdən İranın ABŞ və İsraillə ideoloji düşmənçiliyi nəzərə alınmaqla təhlil edilməlidir. Məlum olduğu kimi, tarix etibarı ilə xeyli zaman kəsiyində Rusiya Yaxın Şərq ölkələrini silahla təmin edən əsas ölkələrdən biri olmuş və görünür ki, bu hələ xeyli müddət, bəlkə də davamlı şəkildə davam etdiriləcəkdir. Bunu prezident V.Putinin Yaxın Şərqə səfərlərində qabarıq şəkildə müşahidə edirik.

Rusiya Prezidentinin əsrin 20-ci illərinin ortaları və sonrasında öz dövlətinin silah şirkətləri rəhbərlərinin müşayiəti ilə Səudiyyə Ərəbistanı, Misir, Qətər və İordaniyaya səfərləri və bu ölkələrin başçıları ilə silah satışı ilə bağlı apardığı danışıqlar Rusiyanın Yaxın Şərq silah bazarına xüsusi diqqət yetirdiyinin göstəricisidir. Belə ki, Yaxın Şərq Rusiya silahlarının satışına görə Çin və Hindistandan sonra üçüncü böyük bazardır. Ekspertlərə görə, Yaxın Şərq ölkələri bütün Rusiya silah ixracatının 17%-ni əhatə edir ki, bu alduqca böyük göstəricidir. İran, Əlcəzair və Birləşmiş Ərəb Əmirlikləri Rusiyadan silah alan başlıca müştərilər hesab edilirlər. Habelə, ABŞ-ın istəklərinə və müqavimətinə baxmayaraq Yəmən, Suriya və Küveyt kimi dövlətlər də Rusiyanın Yaxın Şərqdəki mühüm ixrac bazarları hesab olunurlar [3].

Minilliyin əvvəllərindən etibarən Rusiyanın Yaxın Şərq siyasətində özünü göstərən bir sıra yeniliklər SSRİ dövründə həyata keçirilən siyasətlə oxşar və fərqli xüsusiyyətləri ilə səciyyələndirilə bilər və fikrimizcə, müvafiq ənənənin olmasına baxmayaraq, oxşarlıqlarla yanaşı ciddi fərqlərin də olduğunu müəyyən edə bilərik. Belə ki, soyuq müharibə dövründən fərqli olaraq, hazırda Rusiya birbirləri ilə qarşıdurmada olan qüvvələr, yəni İsrail və İranla, ABŞ və "Hizbullah"la, Türkiyə və kürdlərin "Demokratik Birliyi" ilə intensiv şəkildə xarici siyasət maraqlarına uyğun olaraq əməkdaşlıq edir. Digər tərəfdən, müasir Rusiyanın Sovetlər birlıyinin dövlət suyasəti olan ateist ideologiyasından imtina etməsi onun dinsizlikdə ittiham edilməsindəki kimi amili, yəni xristian və müsəlman dövlətlərinin irəli sürdükləri ittihamları onların əlindən almışdır. Bu isə Moskvaya xüsusilə Yaxın Şərqdə gedən proseslərdə maliyyə imkanlarının yol verdiyi dərəcədə iştirak etməyə və təsir göstərməyə imkan verirdi.

Yaxın Şərq siyasətində prioritetlərin dəyişməsinə gəlincə, bunu ölkənin xarici siyasət konvensiyası əyani şəkildə göstərirdi. Belə ki, Rusiya Federasiyasının 2013-cü il Konsepsiyasına görə, Yaxın Şərq qlobal miqyasda əhəmiyyətli bir bölgə kimi deyil, "Rusiyanın milli maraqları üçün strateji əhəmiyyət kəsb edən dünyanın regionu" kimi götürülür və ilk dəfə olaraq region ölkələri aşağıdakı ardıcıllıqla sıralanırdı: Türkiyə, Misir, Əlcəzair, İran, Səudiyyə Ərəbistanı, Suriya, Liviya və Pakistan [15]. Bu siyahıda ilk sırada Türkiyənin olması onun uzun müddət ərzində Rusiyanın xarici ticarət tərəfdaşı olduğunun göstəricisidir. Rusiya İqtisadi İnkişaf Nazirliyinin statistikasına görə, Türkiyə ticarət sahəsində, xüsusilə enerji resursları sektorunda Rusiyanın ümumi ixracının təxminən 70-75% -ni təşkil edirdi və 2008-ci ildə ticarət tərəfdaşları arasında beşinci yeri tutdu. Bundan əlavə, Yaxın Şərq Rusiya üçün əhəmiyyətli bir bazarı təmsil edirdi, belə ki, 2008-ci ilin sonunda Rusiyanın bu regiona kənd təsərrüfatı məhsulları ixracı təxminən 3,8 milyard dollar təşkil etmişdi ki, bunun 3,3 milyard dolları taxıl məhsulları ilə əlaqədar idi [22, s.35; 17].

Qeyd edək ki, Rusiyanın Yaxın Şərq siyasəti ilk dəfə 27 noyabr 1995-ci ildə qəbul edilmiş "Böyük Aralıq dənizi" haqqında Memorandum çərçivəsində ətraflı təsvir edilmişdi. Sənədə görə, Rusiyanın Aralıq dənizi siyasəti bu regionda təhlükəsizliyin möhkəmləndirilməsi və hərtərəfli əməkdaşlığın təşviqi, münaqişələrin nizamlanması, Balkanlarda qalıcı sülhün qurulması, Kipr probleminin həllinə nail olmasından ibarət idi və bir növ Aİ-nin bu regionla əlaqədar olaraq başlatdığı Barselona prosesinə cavab kimi hazırlanmışdı. Sovetlər birliyinin dağılmasından sonra bu region da Aİ-nin xarici siyasət fəaliyyətində prioritetə çevrilmişdi və diqqətdə saxlanılırdı.

RF-in Yaxın Şərqə olan marağı ilk növbədə tarixən mövcud olmuş ənənədən qaynaqlanırdı və SSRİ-nin süqutundan sonra itirilmiş mövqelərin qaytarılmasına hesablanmışdı. Bu baxımdan Rusiyanın 2000-ci il Xarici siyasət konsepsiyasında da bu region geosiyasi baxımdan mühüm istiqamət kimi qəbul edilmişdi, çünki, 2008-ci ildə Barselona prosesi Aralıq dənizi İttifaqına çevrilmiş və Aİ-nin 2011-2013-cü illər region proqramına 5 mlrd avro yatırım edilmişdi. Konsepsiyada regionda inteqrasiyanı ləngidən amillər kimi Ərəb-İzrail, Kipr və Qərbi Saxara münaqişələri öz əksini tapmışdı. Rusiyanın 2008-ci il Konsepsiyasının mətnində də Yaxın Şərq regionu MDB, Avropa ölkələri, ABŞ və Cənub-Şərqi Asiya ölkələrindən sonra geosiyasi prioritetlər sırasında yer alırdı. Moskva təkcə ərəb dövlətlərini deyil, həm də islam ölkələrindən Türkiyə, Əlcəzair və Pakistanı da ikitərəfli və çoxtərəfli əlaqələr sisteminə daxil edirdi [14].

Politoloji təhlil və toplanmış fakt və sənədlərin elmi müqayisəli analizi göstərirdi ki, Rusiyanın 2013-cü il Xarici Siyasət Konsepsiyası məzmun baxımından əvvəlki konsepsiyalardan müəyyən dərəcədə fərqlidir və Rusiyanın geosiyasi prioritetlərində bir sıra ciddi və əhəmiyyətli dəyişikliklər edirdi. Sənəd qarşılıqlı inam, bərabərhüquqluluq və təhlükəsizliyin bölünməsi prinsiplərinə əsasən Atlantik okeanından Sakit okeana qədər əməkdaşlıq məsələlərini önə çəkirdi ki, bu ABŞ və onun avropalı müttəfiq dövlətləri üçün məqbul hesab edilmirdi, çünki Qərb beynəlxalq münasibətlər düzəninə S.Hantinqtonun "sivilizasiyaların toqquşması" nəzəriyyəsi prizmasından yanaşırdı [15] və Rusiyanı bu regionda bərabərhüquqlu tərəfdaş kimi görmək fikrindən uzaq idi. Halbuki yaxın keçmişdə region iki fövqəl güc arasında nüfuz dairələrinə bölünmüş vəziyyətdə idi ki, bunun nəticəsində lokal xarakterli və qısamüddətli müharibələri və münaqişələri nəzərə almasaq, Yaxın Şərqdə sülh, sabitlik və təhlükəsizlik əsasən təmin edilmiş vəziyyətdə idi.

Təsadüfi deyildi ki, 2013-cü il Konsepsiyasının 90-cı bəndinə görə, Rusiya Kvartet qrupunun üzvlərindən biri kimi (BMT, Aİ, ABŞ və Rusiya nəzərdə tutulur - müəl.), Yaxın Şərqdə sülhyaratma prosesində aparıcı rola malik dövlətlərdən biri sayılırdı və regional sabitlikdə mühüm rol oynayırdı [15], baxmayaraq ki, Vaşinqton bunu qəbul etmək istəmirdi. Politoloji təhlil göstərir ki, Qərbin istəyib-istəməməsindən asılı olmayaraq Rusiya 2015-ci ildən etibarən, xüsusilə Suriya hadisələrində və Ərəb-İzrail münaqişəsində fəal aktorlardan biri kimi çıxış etməkdədir və ABŞ Yaxın Şərq regionunda nəzərdə tutduqlarından bir çoxunu məhz Rusiyanın müqaviməti ucbatından sonadək reallaşdıra bilmədi. Yaxın Şərq regionunda əsrin əvvəllərindən etibarən ABŞ-ın, Rusiyanın, İranın və Türkiyənin yeritməkdə olduğu siyasi xətt burada qarşıdurma və dağıdıca rəqabətin daha da dərinləşməsinə doğru getməkdə idi ki, bunu sonrakı hadisələr göstərdi.

Dünya iqtisadi böhranının ardınca baş verən "ərəb baharı" hadisələri Yaxın Şərq regionuna böyük faciələr, bədbəxtlik və dağıntılar gətirdi, Qərbin regiona gətirmək istədiyi demokratiya və insan haqları kimi dəyərlərin iç üzünü açıb göstərdi. "Ərəb baharı"nın iflası region ölkələri və xalqlarında Qərb dünyasına və dəyərlərinə inamsızlıq, müsbət dəyişikliklərin baş verəcəyinə ümidsizlik, əvvəlki liderləri əvəz etmiş siyasətçilərə etimadsızlıq yaratdı. Regionun tarixində silahlı qarşıdurmaların və dağıdıcı müharibələrin yeni səhifəsi açıldı, başlanmış pərakəndəlik və etimadsızlığın gedişində geosiyasi güclərin əlində alətə çevrilən bir sıra radikal silahlı qüvvələr meydana gəldi, terrorçu qrup və təşkilatların güclənməsi və fəaliyyət sahələrini genişləndirməsi nəticəsində regional xaos daha da dərinləşdi. Bununla da son on ildə regiona demokratiyanın və azadlıqların gəlişi ilə başlanan eyforiya ciddi məyusluq və peşimançılıqla əvəzləndi. Nəticədə region xalqlarında öz qüvvələrinə və yaxşı gələcəyə inam itdi, qeyri-sabitlik, təhlükələrlə dolu həyat və terrorizm, davamlı silahlı münaqişələr, çoxsaylı qaçqınlar və məcburi köçkünlər ordusu yarandı, hakimiyyətlərə elə sərt reaksiyalı rejimlər gəldilər ki, yaxın keçmiş şirin xatirələrə çevrildi. İnqilabların və etirazların yaşandığı altı ölkə içərisində yalnız Tunisdə uğur qazanıldı. Regionda baş verənlər ilk növbədə Rusiyanın, Türkiyənin

və İranın mövqelərinin güclənməsinə müsbət təsir göstərsə də, geosiyasi oyunlar daha dağıdıcı xarakter aldı.

Yaxın Şərqdə gedən geosiyasi oyunlarda Rusiyanın daha çox Türkiyə, İran və Çinlə anlaşması və razılaşması həm ticarət-iqtisadi münasibətlərin genişlənməsində, həm də regional siyasətlə bağlı bir sıra məsələlərə ümumi siyasi baxışların formalaşmasında müşahidə olunurdu. Belə ki, hələ 2000-ci ildə Çinlə Türkiyə arasında beynəlxalq sülhün və sabitliyin qorunması və dünyada davamlı iqtisadi inkişafın təmin olunması sahəsində razılıq əldə olunmuşdu. Xarici siyasətdə "Türkiyə - mərkəz ölkə" yanaşması Çində "Şərqə istiqamətlənmiş" siyasi xətt kimi qəbul olunurdu. 2010-cu ilin oktyabrında isə hər iki ölkə Türkiyə-Çin əlaqələrini strateji tərəfdaşlıq səviyyəsinə qaldırmaqla bağlı niyyətlərini bəyan etmiş, ikitərəfli ticarətin dollarla deyil, milli valyutalarda aparılmasına razılıq da əldə olunmuşdu. Qeyd edək ki, buna qədər Rusiya və İran arasında analoji saziş imzalanmışdı ki, bu ABŞ-da ciddi narahatlıq yaratmışdı. Məhz Rusiya, İran və Çinin səyləri ilə bu prosesə digər dövlətlərin qoşulmasına şərait yaranmışdı ki, bu sırada Səudiyyə Ərəbistanı və Türkiyə də yer alırdılar.

XXI əsrin ikinci onilliyinin əvvəllərində Türkiyənin regionun qonşu ölkələri ilə əlaqələrinin pozulması və müstəqil xarici siyasət çərçivəsində Türkiyənin son illərdə regionda ənənəvi müttəfiq ölkəsi olan İsraillə münasibətlərinin əhəmiyyətli dərəcə pisləşməsi Rusiya-Türkiyə münasibətlərinin istiləşməsinə şərait yaradan amillərdən idi. Türkiyənin Fələstin məsələsində HAMAS təşkilatına verdiyi dəstək, 2010-cu ilin mayında Türkiyə gəmisinin İsrailin blokadasını pozması nəticəsində baş verən hadisə iki ölkə arasındakı əlaqələrə əhəmiyyətli dərəcədə mənfi təsir göstərmişdi. Əsrin 10-cu illərində Yaxın Şərqdə vəziyyətin dəyişməsi və ABŞ-ın regionda daha ciddi şəkildə fəallaşması Türkiyənin xarici siyasətidə ciddi dəyişikliklərə, habelə Rusiya ilə yaxınlaşmaya səbəb olmuşdu. Ankaranın ərəb şərqində baş verənlərlə əlaqədar Rusiya ilə yaxınlaşması hər iki ölkə üçün dost sayılan Liviya, Misir, Mərakeş, Tunis, Suriya və s. ölkələrdə siyasi rejimlərin dəyişməsi ilə nəticələnən hadisələr olmuşdu [21]. Qeyd edək ki, Türkiyənin həm NATO və ABŞ-ın siyasətini dəstəkləməklə ənənəvi Avroatlantik sadiqliyini nümayiş etdirmək, həm də regionda yaranmış vəziyyətdən öz maraqlarına uyğun şəkildə istifadə etmək imkanı yaranmışdı və Ankara yaranmış fürsəti əldən verməkfikrində deyildi, bu isə Rusiyanın mövqeyini nəzərə almağı tələb edirdi. Türkiyənin regionun iki güclü dövləti - Misir və Səudiyyə Ərəbistanı ilə münasi-bətlərinin pozulması da gələcəkdə diplomatik təcrid vəziyyətinə düşməmək üçün Rusiya və Çin amilinə ciddi diqqət verməyi tələb edirdi.

Türkiyə diplomatiyasının Rusiya amilini diqqətdə saxlaması, bu ölkənin regionda İran və Çinlə birgə çıxış etməsi əslində Ankaranın işinə yarayırdı. Təsadüfi deyildi ki, Türkiyə Prezidenti R.T.Ərdoğan xeyli sonralar etiraf etmişdi ki, Rusiya Suriyaya terrorizmlə mübarizəyə dəstək vermək üçün gəlmişdi, əgər onun köməyi olmasaydı anqlosaksların dəstəklədiyi İŞİD-i belə tezliklə məğlub etmək olmazdı, məhz buna görə də Moskvanın Yaxın Şərqdə mövcudluğunu davam etdirməsi vacibdir. Əslində Rusiyanın Suriyada 2 hərbi bazasını saxlaması hüquqi statusa malik idi (B.Əsəd dövründə imzalanmış müqaviləyə əsasən həmin bazalar 49 illiyə icarəyə götürülmüşdü) və təkcə Türkiyənin deyil, həm də regionun digər dövlətlərinin də maraqlarına uyğun idi [20]. Digər tərəfdən Suriyadakı "Müsəlman qardaşları"nın "əl-Qaidə"nin regional döyüş birliyinə çevrilməsi faktiki olaraq ona gətirib çıxardı ki, Türkiyə tədricən sərhədyanı rayonlarda vəziyyətə nəzarəti itirdi və əslində buradakı hərbi qruplaşmalara qarşı təkbaşına mübarizə aparmaq məcburiyyətində qaldı. Məhz buna görə də dəfələrlə Qərbin, xüsusilə ABŞ-ın təhdidləri ilə qarşılaşmalı oldu. Məhz buna görə də Türkiyənin həmin dövrdəki prezidenti A.Gül hələ 2013-cü ilin sentyabrında bəyan etmişdi ki, "Suriyada fəaliyyət göstərən ekstremist qruplaşmalar bizim təhlükəsizlik qüvvələrimiz üçün böyük narahatlıq mənbəyinə çevriliblər", digər tərəfdən də "biz, təəssüf ki, bütün cəhdlərimizə baxmayaraq, sərhədi tamamilə bağlamaq və onların ölkəmizin ərazisinə keçməsinin qarşısını almaq imkanında deyilik"[11, s.26].

Yaranmış vəziyyətdə ən məqbul siyasət Suriya probleminin nizamlanması prosesinin faktiki olaraq ənənəvi vasitəçi kimi Türkiyə hakimiyyətinin iştirakı olmadan həyata keçirmək ola bilərdi. Türkiyənin bu proseslərdən kənarda qalması isə bir tərəfdən onun Yaxın Şərq regionunda əsas vasitəçi roluna, bununla da Qərbin müsəlman dünyasındakı nümayəndəsi statusuna böyük zərbə vura, digər tərəfdən isə qonşuluğunda kürd dövlətinin yaradılmasına gətirib çıxara bilərdi. Nəzərə alsaq ki, Suriya və İraq Rusiyanın ənənəvi müttəfiqləri rolunda çıxış edirdilər, buna görə də regionda Qərbə qarşı dura biləcən Türkiyə-Rusiya ittifaqının qurulması vacib idi. Yaxın Şərqdə Rusiya ilə uyğun ma-

raqlara malik olan İran da belə birlikdə yer almış olardı ki, bu Türkiyəni son dərəcədə güclü bir oyunçuya çevirərdi. Təsadüfi deyildi ki, 2017-ci ildən başlayaraq Suriya siyasətində Türkiyə və Rusiya birlikdə çıxış etməyə başlamışdılar [23, s.219]. Böyük güclərin Suriyada pay sahibi olmaq niyyətləri, yəni daha dəqiq desək Suriyada ABŞ və İsrailin maraqları Rusiyanın, İranın və Türkiyənin maraqları ilə tərs mütənasib olduğu üçün bu baxımdan "ərəb baharı" əməliyyatının qanlı davamı ehtimal olunan idi ki, hadisələrin gələcək inkişafının gedişi bunun gerçək olduğunu göstərdi.

Rusiyanın Yaxın Şərq siyasətində mühüm rol oynayan amillərdən biri də enerji amilidir. Qeyd edək ki, Rusiyanın LUKoyl özəl şirkəti bu regionun İraq, Misir, Əlcəzair, İran, Livan, Mərakeş, Səudiyyə Ərəbistanı, Sudan, Türkiyə və s. ölkələrində neft-qaz sektorunda uğurlu layihələr həyata keçirməkdədir və bu baxımdan Qərb ölkələri ilə ciddi rəqabət aparır. LUKoyl 2018-ci ilin yanvarında Suriya hökuməti ilə ölkənin enerji potensialının birgə işlədilməsinə dair "yol xəritəsi" imzalasa da lakin az sonra Suriyada başlanan sonrakı hadisələr imzalanmış layihənin həyata keçirilməsinə imkan vermədi [24]. Rusiya-Türkiyə əlaqələrində enerji sahəsində əməkdaşlıq həmişə aparıcı olmuşdur, çünki Türkiyənin sürətlə inkişaf edən iqtisadiyyatı 90 faiz xarici enerji mənbələrindən asılıdır. Eyni zamanda, Türkiyə Mərkəzi Asiyanın və Fars körfəzinin enerji mənbələrinin Avropa ölkələrinə çıxışını təmin edən özünəməxsus tranzit koridoru rolundadır. Əsrin əvvəllərindən etibarən Türkiyə bu istiqamətdə ciddi və səmərəli addımlar atmış, Qara dənizin altı ilə böyük kapital və zəhmətlərə başa gəlmiş "Mavi axın" layihəsi isə artıq reallığa çevrilmişdir.

Qeyd edək ki, Türkiyə zəngin enerji mənbələrinə malik regionun dövlətidir, bununla belə Qərbin sanksiyaları altında olan bu regionda Türkiyənin davamlı enerji mənbəyinə malik olmasına mane olan başlıca amil Türkiyənin İran, İraq və Suriya ilə gərgin münasibətləridir və Türkiyə ənənəvi Yaxın Şərq tərəfdaşları ilə problemlər yaşayırdı. İraqla münasibətlərdə və Səudiyyə Ərəbistanı-Qətər-Türkiyə strateji enerji üçbucağında bu özünü daha aydın şəkildə göstərirdi. Suriya məsələsində Ankaranın və Bağdadın mövqelərinin ciddi şəkildə ayrılması Türkiyə-İraq münasibətlərini əhəmiyyətli dərəcədə mürəkkəbləşdirmişdi. Belə ki, İraq Türkiyənin Suriyanın işinə müdaxiləsini qəbul etmədiyinə görə, Ankara enerji problemini həll etmək üçün Azərbaycan və Rusiyanın resurslarından faydalanmalı olurdu. Türkiyənin Səudiyyə Ərəbistanı ilə münasibətlərinin əhəmiyyətli dərəcədə pisləşməsi və Suriyanın öz ərazisindən enerji kəmərinin çəkilməsinə imkan verməməsi təkcə Ankaranın deyil, Avropa İttifaqının da enerji şaxələndirməsi siyasətini əngəlləyirdi. "Ərəb baharı" hadisələrinin regiona gətirdiyi xaotiklik Rusiyaya regionda itirilmiş mövqelərini yenidən bərpa etmək üçün imkanlar yaradırdı. Belə ki, Rusiyanın İranla yaxın münasibətləri regional siyasətdə hər iki dövlətin işinə yarayırdı. Rusiya-Türkiyə münasibətlərində istiləşmə isə Türkiyə-İran münasibətlərinə müsbət təsir göstərirdi. Rusiyanın Suriya və İraqla ənənəvi münasibətlərini nəzərə alsaq, belə çıxırdı ki, Rusiya Yaxın Şərq regionunda arbitr rolunda çıxış etmək kimi imkanlara malikdir.

Yaxın Şərq regionunun geosiyasi mənzərəsindən bəhs edərkən Rusiya - İzrail münasibətlərinə ayrıca toxunmaq lazımdır. "Ərəb baharı" nəticəsində regionda yaranmış qarışıqlığa baxmayaraq 2012-ci ilin iyun və noyabrında Rusiya və İzrail prezidentləri V.Putin və Ş.Peresin Tel-Əviv və Moskvaya səfərləri oldu ki, həmin səfərlərin gedişində Suriya məsələsi və regionda siyasətlə bağlı bir sıra məsələlər razılaşdırıldı. Təsadüfi deyildi ki, 2015-2022-ci illərdə Rusiya və İzrail rəhbərləri 15 dəfə üzbəüz görüşmüş, 49 dəfə isə telefon danışığı aparmışdılar[16]. Lakin 2010-cu ilin mayında Türkiyə və İzrail arasında baş verniş insident, yəni Türkiyə bayrağı altında üzən və Qəzza sahillərində İsrailin dəniz blokadasını yaran "Mavi marmara" gəmisinə İsrail hərbçilərinin hücumu iki ölkə arasında gərginlik yaşatdı. Toqquşma nəticəsində gəmidəki 10 türk fəalı öldürülmüş, gəmi isə zədələnmişdi. Yaranmış vəziyyət Rusiyanı da iki ölkə arasında vasitəçiliyə vadar etmiş və nəticədə vəziyyət sabitləşmişdi.

Türkiyənin Suriya və İraqla münasibətləri bir növ regionda yaranmış reallıqlara köklənmişdi. Belə ki, 2002-ci ildə İslami köklərə söykənən AKP-nin hakimiyyətə gəlməsi, 2003-cü il ABŞ-İraq müharibəsi və Qərbin Suriyaya sanksiyaları, habelə İranın Suriya vasitəsi ilə Həmas və digət terror təşkilatlarını dəstəkləməsi NATO-nun üzvü kimi Türkiyənin region siyasətinə mənfi təsir göstərirdi. Yaranmış şəraitdə Türkiyə bir tərəfdən regional maraqlarını qoruyub saxlamaq qayğısına qalır, digər tərəfdən ABŞ-ın, Rusiyanın və İranın maraqlarını nəzərə almalı olurdu. Bununla belə məlum idi ki, Türkiyə belə tarazlığı uzun müddətə saxlaya bilməyəcəkdir. "Ərəb baharı"ndan sonra Suriya böhra-

nının ılk dövrlərindən etibarən Rusiya və İranın regional mövqelərinin möhkəmlənməsi Vaşinqtonun zəifləməkdə olduğu şəraitdə Türkiyəyə əlavə qayğılar gətirmişdi. Təsadüfi deyildi ki, məhz belə vəziyyətdə İzrail və Türkiyə həm bir-birinə, həm də Rusiyaya yaxınlaşmağa çalışırdılar, bu isə ABŞ-ın bölgədə reallaşdırmağa çalışdıqlarına imkan vermirdi. Belə olduqda ABŞ bir müddət Suriyanın bölüşdürülməsi planını təxirə salmağa və bunu zamanın ixtiyarına buraxmağa məcbur olmuşdu [13].

Göründüyü kimi, ABŞ bir tərəfdən dünyanın bu karbohidrogen ehtiyatları ilə zəngin regionunda qarşıya qoyduğu vəzifələri yerinə yetirə bilmi, digər tərəfdən Əfqanıstan hadisələrinin göstərdiyi kimi, Vaşinqton Yaxın Şərq arzuları ilə yavaş-yavaş vidalaşmağa məcbur olurdu. Fikrimizcə, "Amerika mifi"nin dağılması birbaşa Rusiyanın təsiri ilə baş verməkdə idi, doğrudur, ABŞ-ın əlində olan vasitələr və təsir imkanları hələ tükənməmişdi. Maraqlıdır ki, ABŞ-ın Türkiyə və İrana qarşı kürdləri maliyyələşdirməsi və silahlandırması, habelə İraqda kürdlərin referendumunu dəstəkləməsi sahəsində fəaliyyəti Suriyanın kürd siyasəti ilə üst-üstə düşürdü.

ABŞ Prezidenti D.Trampın Qüdsü İsrailin paytaxtı elan etməsi, amerikalıların Əfqanıstanı dağıntılar içərisində tərk etməsi, İŞİD qüvvələrinin tam darmadağın olunmasına mane olması və s. amillər nəinki region dövlətlərinin, habelə Rusiyanın maraqlarına qarşı çevrilmişdi. Vaşinqtonun Yaxın Şərq regionunda xaos strategiyası təkcə regionda mövcudluğunu saxlamağa hesablanmamışdı, ABŞ-da yaxşı bilirdilər ki, kürdlər müstəqil dövlət yaratmaq arzularını həyata keçirə bilməyəcəklər, İranın artmaqda olan ekspansiyasının qarşısı da asanlıqla alınmayaçaq, Türkiyə öz regional maraqlarından çəkilməyəcək və Rusiyanı regiondan çıxarmaq mümkünsüzdür. Təsadüfi deyildi ki, Vaşinqton regionu xaosla idarə etmək strategiyası seçmişdi [9]. ABŞ silahlarının satış bazarına çevrilən Yaxın Şərq həm də bu silahların sınaqdan çıxarıldığı poliqon sayıla bilərdi. Hazırda həmin silahlar yerli əhali tərəfindən, xüsusilə, ərəblər, kürdlər, farslar, türklər tərəfindən bir-birlərinə qarşı istifadə edilməkdədir.

Yaxın Şərqdə yaranmış mürəkkəb geosiyasi mənzərə və Qərbin bu regiona yönəlik siyasətinın təhlili göstərir ki, Türkiyənin seçdiyi və həyata keçirməkdə olduğu balanslı siyasət Türkiyənin çoxvektorlu xarici siyasət xəttini dəyişməyəcəyini göstərir. Hələ əsrin əvvəllərindən bu yönümdə gedən müzakirələrə münasibət bildirən Ə.Davudoğlu Türkiyənin həm Avropadan, həm də Yaxın Şərqdən uzaqlaşmasının tarixi olaraq mümkün olmadığını bildirmişdi [12, s.203]. Yaranmış vəziyyətdə Türkiyənin bir neçə istiqamətdə yürütdüyü əlaqələri inkişaf etdirmək siyasəti onun yerləşdiyi coğrafiyanın və zamanın tələbi ilə bağlı olmuşdu. Coğrafi mövqe üzərində qurulan siyasət dünya dövlətlərinin xarici siyasət prinsiplərinin əsasında durur, problem bu prinsipi tam şəkildə həyata keçirə bilməkdən ibarətdir. Ə.Davudoğluna görə, xarici siyasət baxışını formalaşdıran hökumətin fəaliyyəti, XİN tərəfindən "hərtərəfli və əsaslı strateji xəttin" həyata keçirilməsi vacib şərtdir ki, Türkiyə bu baxımdan kəmiyyət/keyfiyyət xarakteristikasına malik kadr ehtiyatı ortaya qoymalıdır [10, s.12]. Halbuki xarici siyasətdə büdrəmələr və prioritetlərin dəyişməsi yaranmış vəziyyətin tələbi idi və sürətli adaptasiya tələb edirdi.

Nəticə. Rusiyanın 2015-ci ildən etibarən beynəlxalq terrorizmlə mübarizə adı altında Yaxın Şərqdə çevik siyasət yeritməyə başlaması, xüsusilə İŞİD-ə qarşı apardığı mübarizənin gedişində ərəb ölkələri ilə əlaqələrə yenidən baxılması R.T.Ərdoğan hökumətini ilk növbədə Körfəz ölkələrinə münasibətdə fəallaşmağa məcbur etdi, onun 2023-cü il iyulun 17-dən 19-a qədər üç körfəz ölkəsinə - Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Qətərə səfərləri uzağagedən məqsədlərə hədəflənmişdi. İlk növbədə tərəflər ticarət həcminin artırılması və ticarət məzmununun şaxələndirilməsi istiqamətində razılaşmalara nail oldular, Türkiyənin iqtisadiyyatına qoyulan investisiyaların miqdarı əsaslı şəkildə artdı. Türkiyənin məşhur Pilotsuz Uçuş Aparatı (PUA) istehsalçısı olan "Baykar" ilə Səudiyyə Ərəbistanının müvafiq qurumu arasında Türkiyə tarixində ən böyük hərbi müqavilə imzalandı. BƏƏ ilə imzalanmış müqavilələrə əsasən Türkiyə iqtisadiyyatına 51 milyard dollar investisiya qoyulması razılaşdırıldı [4]. Qeyd edək ki, regiondakı hərbi-siyasi vəziyyətə təsir imkanlarına görə, Türkiyə bütün regional və regiondan kənar aktorlardan əlverişli vəziyyətdə idi, daha dəqiq desək, geosiyasi maraqların qarışdığı regionda həqiqi söz sahibi idi. Bunu 2024-cü ilin sonlarında Suriya hadisələri açıq şəkildə göstərdi.

Ümumiyyətlə, Yaxın Şərqdə hərbi-siyasi və geosiyasi situasiyanın təhlili göstərir ki, bura dünyanın diqqət mərkəzindədir və çox tezliklə planetin qaynar nöqtələrindən birinə çevriləcəkdir, hazır-

da isə çevrilmişdir. ABŞ-ın maraqları məhz burada Rusiyanın, Çinin və İranın maraqları ilə toqquşmaqdadır. Rusiyanın Yaxın Şərqdə izlədiyi başlıca siyasət region ölkələri arasında hərbi balansın qorunub saxlanmasını təmin etməkdir. Təsadüfi deyil ki, Moskva Türkiyəyə satdığı "S-400" müdafiə sistemlərini Səudiyyə Ərəbistanına və Misirə də təklif edir, İranda inşasına yardım etdiyi Buşehir Atom Enerji Mərkəzinin bənzərini də hazırda Türkiyədə - Akkuyuda inşa etməkdədir. Göründüyü kimi, Rusiya Yaxın Şərq ölkələri ilə çoxtərəfli əlaqələri qorumaq və inkişaf etdirmək məqsədi ilə, region ölkələrinə münasibətdə eyni siyasi məsafədə yer almağa üstünlük verir [6]. Yaxın Şərq regionu ölkələri də Rusiyaya ABŞ təsirinin zəiflədilməsi üçün alternativ kimi baxır, yaranmış vəziyyətdən çıxış yolunu yeni geosiyasi şəraitin yaranmasında görüürlər. "Ərəb baharı" və sonrakı baş verən hadisələr Qərbə, xüsusilə ABŞ-a olan inamın itirilməsinə gətirib çıxardı, islam dünyasına Qərbin etibarsız partnyor və müstəmləkəçi olduğunu göstərdi.

ƏDƏBİYYAT

1. Böyük böhrandan 10 il sonra: üç ibrətamiz dərs / https://ovqat.com/prizma/24686-boyuk-bohrandan-10-il-sonra-uc-ibrtamiz-drs.html/18.09.2018/ [15.01.2025].
2.“Ərəb baharı”ndan “ərəb müsibəti”nə/https://kaspi.az/ereb-baharindan-ereb-musibetine /25.12.2020/ [15.01.2025].
3. İran-Rusiya münasibətlərində Yaxın Şərq regionunun rolu/13.01.2022/ https://www. geostrategiya. az/news.php?id=198 [15.01.2025].
4. Qlobal hegemonluğun Yaxın Şərq sütunu dağılır - Türkiyə-Körfəz əməkdaşlığı /https://ordu.az/ az/news/276476/qlobal-hegemonlugun-yaxin-serq-sutunu-dagilir-%E2%80%93-turkiye-korfez-emekdasligi-analiz [15.01.2025].
5. Qlobal maliyyə böhranının mahiyyəti və səbəbləri. Xalq qəzeti, 2009, 18 sentyabr
6. Rusiyanın Yaxın Şərqdə "Məsafə" siyasəti - Təhlil /https://aqreqator.az/az/siyaset/ 526338/ 25.01.2020 [15.01.2025].
7. Rusiyanın Yaxın və Orta Şərq siyasəti, Xalq cəbhəsi qəz., 2014, 28 noyabr https://www. xalqcebhesi. az/news/world/6229.html [15.01.2025].
8. Türkiyə Yaxın Şərqdə diplomatiya şahmatı oynayır. https://www.bbc.com/azeri/analysis /2016/06/160630_turkey_diplomatic_chess [15.01.2025].
9. Yaxın Şərqdə uduzan Amerika: itirilən trilyonlar və xaos siyasəti/https://sputnik.az /20180216/ meqsed-qirgin-salmaqdir-414087791.html [15.01.2025].
10. Davutoğlu, A. (2014). Stratejik derinlik: Türkiyenin uluslararası konumu. İstanbul: Küre yayınları, 600 s.
11. Halil Ġbrahim Yılmaz. Ortadoğuda Sava Çın Arka Planındaki Sebep: Petro – Dolar , TESAM (Ekonomik Siyasal ve Stratejik AraÇtırmalar Merkezi), 2018
12. Zengin, G. (2014). Hoca: Türk dış politikası’nda Davutoğlu etkisi. İstanbul: İnkilâp Kitabevi, 488 s.
13. Ближневосточный конфликт в интересах России. Независимая газета, 2015, 26 ноября
14. Концепция внешней политики Российской Федерации: утверждена Президентом Российской Федерации 15.07.2008 // Официальный сайт Президента Российской Федерации. URL: http:// kremlin.ru/acts/785. [15.01.2025].
15. Концепция внешней политики Российской Федерации: утверждена Президентом Российской Федерации 12.02.2013. // Официальный сайт Министерства иностранных дел Российской Федерации. URL: http://www.mid.ru/brp_4. nsf/newsline/6D84DDEDEDBF7DA 644257B160051BF7F. [15.01.2025].
16. Новая Сирия и будущее российско-израильских отношений / https://inosmi.ru/20241219/izrail-271244401.html/19.12.2024/ [15.01.2025].
17. Петров О.В. Российско-турецкие экономические отношения на современном этапе развития/ https://cyberleninka.ru/article /n/rossiysko-turetskie-ekonomicheskie-otnosheniya-na-sovremen-nom-etape-razvitiya [15.01.2025].

18. Печатнов В., Закаурцева Т. МИД и внешняя политика СССР в 1956-1984 гг.// Очерки истории Министерства иностранных дел России. 1802-2002: В 3 т. Т. II. Под ред. И.С. Иванова. М.: ОЛМА Медиа Групп, 2002
19. Пресс-конференция по итогам заседания Совета сотрудничества высшего уровня между Россией и Турцией, 22 октября 2013 г. // Официальный сайт Президента Российской Федерации. URL: http://kremlin.ru/events/president/ transcripts/19677. [15.01.2025].
20. Россия не уйдет из Сирии: Эрдоган этого не допустит. Иначе Турция падет/ 20.12.2024/ https://dzen.ru/a/Z2WjT37nKAkEsgO- [15.01.2025].
21. Сурков Н. Риски и угрозы Арабской весны // Независимая газета. URL: http://www.ng.ru/courier /2012-03-05/9_risks.html [15.01.2025].
22. Турция: новая роль в современном мире. М.: ЦСА РАН, 2012.
23. Шаклеина Т.А. Россия и США в мировой политике. М.: Аспект Пресс, 2018, 336 с.
24. Шмелёва Т.А. О деятельности компании ЛУКОЙЛ на Ближнем Востоке и в Северной Африке /23.05.2019/ http://www.iimes.ru/?p=56291 [15.01.2025].

ХАЛИДА МАЛИКОВА
Академия государственного управления при Президенте Азербайджанской Республики

БЛИЖНЕВОСТОЧНАЯ ПОЛИТИКА РОССИЙСКОЙ ФЕДЕРАЦИИ: НАУЧНО-ПОЛИТИЧЕСКИЙ АНАЛИЗ

В настоящее время на Ближнем Востоке в геополитической борьбе и конкуренции активно участвуют региональные, а также не региональные субъекты. Но поляризация происходит в основном вокруг двух государств - США и России. США пытается не упустить гегемонию в регионе после распада СССР, а Россия борется не только за Ближний Восток но и за все позиции в мире целом, которые потерял после распада Советского Союза. В ходе этой борьбы общие интересы России, Китая и Ирана позволяют им занимать совместную позицию. Поддержка со стороны США терроризма в регионе, «курдскую карту», а также новые энергетические интересы вынуждают Турцию быть осторожными и подталкивают ее к Российско-Китайско-Иранскому союзу. В то время, когда сбалансированная политика России в регионе приветствуется, политика лидерства США встречает открытое или тайное сопротивление бывших союзников. Преобразование Израиля в руку Вашингтона на Ближнем Востоке ужесточает ситуацию в регионе еще больше. В статье анализируется суть и содержание военно-политической конкуренции, которая идет на фоне геополитической ситуации на Ближнем Востоке и показаны пессимистичные перспективы.

Ключевые слова: Ближний Восток, Россия, США, Турция, Иран, геополитические интересы, «Арабская Весна», энергетический фактор, региональная конкуренция, борьба с терроризмом, концепция безопасности, торговля оружием.

KHALIDA MALIKOVA
Academy of Public Administration under the President of the Republic of Azerbaijan

THE MIDDLE EAST POLICY OF THE RUSSIAN FEDERATION: SCIENTIFIC AND POLITICAL ANALYSIS

Currently, in the Middle East, regional and non-regional actors are actively involved in geopolitical struggle and competition. However, polarization primarily occurs around two states - the USA and Russia. The USA is trying not to lose its hegemony in the region after the collapse of the USSR, while Russia is fighting not only for the Middle East but also for all positions in the world that it lost

after the collapse of the Soviet Union. In the course of this struggle, the common interests of Russia, China, and Iran allow them to take a joint position. Support for terrorism in the region by the USA, the "Kurdish card," as well as new energy interests are forcing Turkey to be cautious and pushing it towards the Russian-Chinese-Iranian alliance. While Russia's balanced policy in the region is welcomed, the US policy of leadership meets with open or covert resistance from former allies. The transformation of Israel into Washington's hand in the Middle East further exacerbates the situation in the region. The article analyzes the essence and content of military-political competition, which is taking place against the backdrop of the geopolitical situation in the Middle East, and shows pessimistic prospects.

Keywords: Middle East, Russia, USA, Turkey, Iran, geopolitical interests,"Arab Spring", geopolotical interess, energy factor, regional competition, fight against terrorism, security concept, arms trade.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 yanvar 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Qurban Məmmədov, s.e.d. Adil Mirabdullayev.

UOT 94(479.24)

PƏRVİZ MƏHƏRRƏMOV
Gəncə Dövlət Universitetinin doktorantı
ORCİD İD: 0000-0002-3584-339
parvizmaherr@gmail.com

HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİL AZƏRBAYCANDA DƏMİR YOLU NƏQLİYYATININ İNKİŞAFI

DOI: https://doi.org/10.36719/2708-065X/108/115-122

Müasir Azərbaycan dövlətçiliyinin memarı və qurucusu, Ümummilli lider Heydər Əliyev Azərbaycanın tərəqqi və inkişaf yolunu müəyyənləşdirmiş, müstəqil dövlətçiliyimizin konseptual əsaslarını işləyib hazırlamışdır. Dahi şəxsiyyət ölkənin iqtisadi tərəqqisində nəqliyyatın özünəməxsus yeri olduğunu bilir və Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə bu sahəyə xüsusi diqqət göstərmişdi. Təsadüfi deyil ki, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə respublikanın iqtisadi qüdrətini və tranzit potensialını xeyli artdı. Şərqlə Qərb arasında strateji körpü rolunu oynayan Azərbaycan əlverişli tranzit əhəmiyyətli dövlət kimi bölgədəki lider statusunu təmin etdi. Elmi məqalədə Müstəqil Azərbaycanda iqtisadiyyatın ən vacib sahələrindən biri olan dəmir yolu nəqliyyatının inkişaf strategiyası və qanunvericilik bazasının işlənib hazırlanmasında, onun fasiləsiz və səmərəli fəaliyyətinin təşkili və inkişafında Ümummilli Lider Heydər Əliyevin müstəsna rolu sənədlər və faktlar əsasında araşdırılır.

Açar sözlər: Azərbaycan, Heydər Əliyev, dəmir yolu nəqliyyatı, inkişaf strategiyası, qanunvericilik bazası.

Giriş. Azərbaycanda dəmiryol nəqliyyatının inkişafı çar Rusiyası dövrünə gedib çıxır. Azərbaycan ərazisində ilk dəmir yolu xəttinin çəkilməsi XIX əsrin 70-ci illərində neftin daşınması və neft sənayesinin sürətli inkişafı ilə əlaqədar olmuşdur. Abşeronda əsas neftçıxarma rayonlarından (Sabunçu, Suraxanı, Balaxanı, Bibiheybət) neftin Bakı neftayırma zavodlarına, sonralar isə Rusiyanın mərkəzi rayonlarına və dünya bazarına nəql olunması Bakı neft sənayeçiləri üçün mühüm əhəmiyyət kəsb edirdi. Bununla bağlı olaraq, çar hökuməti Nazirlər Kabinetinin 1878-ci il 16 iyunda keçirilən iclasında Cənubi Qafqaz dəmir yolunun - "Neft sahəsində" dəmir yolunun tikinti layihəsi təsdiq olundu. Bakını Balaxanı, Sabunçu və Suraxanı mədənləri ilə birləşdirən 23,2 kilometr uzunluğunda dəmir yolunun çəkilməsi "Poti-Tiflis" dəmir yolu cəmiyyətinə həvalə edildi. Bütövlükdə "Neft sahəsi"ndəki dəmir yolu xəttinin tikinti xərcləri 764,9 min rubl təşkil etmişdir. Dəmir yolu xətti bir il altı ay ərzində tikilərək 1879-cu ilin dekabrında istifadəyə verildi. 20 yanvar 1880-ci ildə isə dəmir yolu xəttinin rəsmi açılışı oldu [2, s. 192].

Dünya tarixində ilk dəfə olaraq sisterna vaqonları ilə neftin daşınması bu dəmir yolu xəttində tətbiq edildi. Azərbaycanda neft sənayesinin sürətli inkişafı Bakı-Tiflis və Bakı-Dərbənd dəmir yolu xətlərinin tikintisinə səbəb oldu. 1879-cu ilin 22 dekabrında Cənubi Qafqaz dəmir yolu hissəsinin Bakı-Tiflis dəmir yolu magistralının çəkilişinə icazə verildi. 515 verst uzunluğunda bu yolun 1883-cü il 8 mayda rəsmi açılışı oldu və həmin gün Tiflisdən çıxan ilk sərnişin qatarı 9 mayda Bakıya çatdı. Maarifçi-demokrat Həsən bəy Zərdabi Cənubi Qafqaz dəmir yolu hissəsində Bakı-Tiflis dəmir yolunun çəkilməsinə böyük qiymət verərək yazırdı ki, Azərbaycan iqtisadiyyatının yüksəlməsində bu yol Bakı neftindən sonra ikinci böyük tarixi amildir [2, s. 193].

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ərazisində daha bir neçə dəmir yolu xətti çəkilib istismara verildi. 1900-cü ildə uzunluğu 217 verst olan Bakı-Dərbənd dəmir yolu istifadəyə verildi. Bununla da, Cənubi Qafqaz dəmir yolu Vladiqafqaz dəmir yolu ilə birləşdi və onun vasitəsi ilə Ümumrusiya dəmir yolu şəbəkəsinə qoşuldu. 1899-cu ildə uzunluğu 282 verst olan Tiflis-Qars dəmir yolu istismara verildi və elə həmin ildə bu yolun trassasındakı Gümri stansiyasından uzunluğu 147 verst olan dəmir yolu xətti İrəvana qədər uzadıldı. Sonralar çar Rusiyasının apardığı siyasətə uyğun olaraq İrəvandan Culfaya uzunluğu 177 verst olan Masis-Culfa dəmir yolu xətti çəkilərək, 1908-

ci ildə Tiflisdən Culfaya qədər olan magistral dəmir yolu xəttinin istismara verilməsi tamamlandı. 1916-cı ildə isə Təbrizlə Culfa arasında olan dəmir yolu xətti istifadəyə verildi. Lakin Araz çayı boyunca Culfadan Ələtə qədər olan dəmir yolunun tam istismara verilməsi Rusiyanın siyasəti nəticəsində 1941-ci ilə kimi saxlanılmışdır. Beləliklə, Azərbaycanın cənub-qərb bölgəsinin ölkənin əsas mərkəzi hissəsi ilə sabit və dayanıqlı nəqliyyat əlaqəsi saxlamaları təmin edilməmişdir. Bununla da, Azərbaycan ərazisi Rusiya və dünya dəmir yol şəbəkəsinə qoşularaq, neft məhsullarının Rusiyanın mərkəzi rayonlarına və dünya bazarlarına nəql olunması tam təmin olundu [12, s. 25].

Azərbaycan Xalq Cumhuriyyəti yaranması ərəfəsində ölkəin nəqliyyat əlaqələrində quru və su yolları, xüsusən də dəmir yolu və boru kəmərləri mühüm rol oynayırdı. Bu dövrdə dəmir yollarının ümumi uzunluğu 954,2 km idi. Onun 498,2 km-i Bakı – Böyük Kəsik, 187,8 km-i Biləcəri – Yalama, 189,2 km-i Uluxanlı – Culfa, 51,2 km-i Ələt – Buzovka (indiki Şirvan şəhəri), 27,1 km-i Bakı-Balaxanı, Sabunçu- Suraxanı xətlərinin payına düşürdü [1, s. 69].

Birinci Dünya müharibəsi ərəfəsində Azərbaycanda istifadə olan neft kəmərlərinin ümumi uzunluğu 834,7 km-ə çatırdı. Onun 525,9 km-i Bakı - Batum neft kəmərinin Azərbaycan sahəsinin, 263,5 km-i Apşeron yarımadasındakı neft kəmərlərinin, 44,3 km-i Dəllər - Gədəbəy neft kəmərinin payına düşürdü [1, s. 69].

Müharibə dövründə, xüsusən də, 1917-1918-ci illərdə baş verən hadisələrdə nəqliyyata ağır zərbə vurdu. Hökumət başçısı Fətəli Xan Xoyski Azərbaycan Parlamentinin 1918-ci il 26 dekabr tarixli iclasındakı çıxışında bildirmişdi ki, yaxın keçmişdə ölkənin dəmir yollarına aşagıdakı səbəblərdən güclü zərbələr dəymişdir: 1) 1917-ci ilin sonu 1918-ci illin əvvəllərində cəbhədən qayıdan 500 minlik rus qoşununun əsgərləri dəmir yollarının sıküb – dagıtdılar; 2) hərc – mərclik və özbaşınalıq nəticəsində yaranmış sahibsizlik və təssərrüfatsızlıq nəticəsində; 3) ən ağır zərbə Bakının azad olunması uğrunda gedən döyüşlərin gedişində vuruldu. Bakı Xalq Komissarları Sovetinin göstərişi ilə Kür çayı üzərində Qafqazın ən böyük dəmir yolu körpüsü yandırıldı, Ələt – Culfa dəmir yolunun relsləri söküldü, Gəncə ilə Bakı arasında dəmir yollarına ciddi ziyan dəydi.

Azərbaycan Xalq Cumhuriyyətinin yarandığı ilk gündən bu olduqqca vacib sahənin bərpası və inkişafına diqqət yetirilməsinə başlandı. 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti hökuməti tərəfindən Yollar Naziliyi tərkibində Azərbaycan Dəmir Yolu İdarəsi və Mühafizə İdarəsi yaradıldı. Azərbaycan Parlamentinin 1919-cu il 17 mart tarixli qərarı ilə bütün şose və torpaq yolları, onların üzərindəki süni qurğularyol nişanı və bərpa işləri Yollar Naziliyinin sərəncamına verildi. Həmin il aprelin 2-də verilən qərarla ölkədəki avtomobil emalatxanaları və anbarları da Yollar Naziliyinin ixtiyarına keçdi. Yollar Naziliyi dəmir yolu nəqliyyatını sahmana salmaq üçparovoz və vaqon parkının təmiri, yeni nəqliyyat vasitələrinin alınması dəmir yolu işçilərinin maaşlarının artırılması və sosial müdafiəsi, stansiyaların qaydaya salınması və dəmir yolu xətlərinin mühafizəsi və s. kimi mühüm tədbirlər görüldü. Yollar nazirliyinin səyləri nəticəsində 1919-cu ilin axırlarında Bakı-Tiflis, Bakı ilə Port-Petrovsk (Mahaçkala) arasındakı qatarlar işləməyə başladı, 7 depo və 26 dağıdılmış dəmiryol körpüsü bərpa edildi. Hərbi-starteji dəmir yollarının əhəmiyyətini nəzərə alan Azərbaycan hökumətinin qərarı ilə 1919-cu ildə Hərbi Dəmiryolçular Məktəbini təsis edildi və Azərbaycan Ordusunu 3 zirehli qatarla təmin ediildi.1919-cu il iyulun 15-dən Bakı – Batumi istiqamətində gündə 4 cüt qatarın, həmin ilin sonundan isə, Bakı - Port-Petrovsk (Mahaçkala) istiqamətində ciddi qrafik üzrə gündə 4 cüt qatarın hərəkəti təmin edildi [1, s. 69].

Azərbaycan hökumətinin gördüyü işlər nəticəsində ölkədə nəqliyyatın işi qaydaya salındı, dəmir yolu, su nəqliyyatı və neft kəmərinin istismsrı tezliklə ölkə büdcəsinə gəlir gətirməyə başladı [1, s.70].

Azərbaycan Dəmir Yollarının İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin təmin olunmasında da müstəsna xidmətləri olmuşdur. 1941-1945-ci illərdə Azərbaycan dəmir yolları ilə 600 mindən artıq neft və neft məhsulları ilə dolu olan 700 min vaqon yük cəbhəyə göndərilmiş, eləcə də qaçqınların ölkənin ucqarlarına çatdırılmasında, canlı qüvvənin cəbhə bölgəsinə daşınmasında Azərbaycan dəmir yolları mühüm rol oynamışdır.

Əsas hissə. Respublikamızda dəmir yolunun inkişaf tarixinin mühüm bir hissəsi görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ulu öndərin Azərbaycana rəhbərliyinin birinci, həm də ikinci mərhələsində dəmiryol şəbəkəsinin maddi-texniki bazası genişlənərək respublika iqtisadiyyatının hərtərəfli inkişafının təmin olunmasında mühüm töhfələr verdi. Məhz onun diqqət və qayğısı

nəticəsində XX əsrin sonlarında dəmir yolu infrastrukturu öz tərəqqisinin zirvəsinə çatmışdır. Azərbaycan xalqının böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyev istər Azərbaycana rəhbərlik edərkən, istərsə də SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən ölkədə dəmir yolu fəaliyyətini həmişə diqqət mərkəzində saxlamış və onun inkişafına xüsusi fikir vermişdir. Dahi rəhbərin təşəbbüsü və rəhbərliyi ilə Qafqazda ən böyük çeşidləyici stansiyalardan biri olan Şirvan stansiyası, Yevlax-Balakən, Güzdək-Qaradağ dəmir yolu xətləri, Ələt deposu, konteynerlərin təmiri üzrə Keşlə vaqon deposu, digər dəmir yolu stansiyaları və xətti müəssisələri tikilib istismara verilmişdir. Ardıcıl görülən işlər nəticəsində Azərbaycanda dəmiryol nəqliyyatı vasitəsi ilə daşınan yüklərin həcmi həmin dövrlərdə 80-90 milyon tona çatdırılmışdır. Bu dövrdə həm də, Azərbaycan dəmir yolunun maddi-texniki bazası genişləndirilərək, mütərəqqi texnologiyaların tətbiqi ilə yeni dəmir yolu xətlərinin və müəssisələrinin tikilib istismara verilməsi ön plana çəkildi [12, s. 27].

1991-1993-cü illər ərzində erməni təcavüzü nəticəsində Azərbaycan dəmir yollarının mühüm hissəsi işğal altında qaldı. Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğalı nəticəsində iqtisadiyyatın digər sahələri kimi respublikanın dəmir yolu təsarrüfatına da külli miqdarda ziyan vuruldu. Belə ki, infrastruktur və texnika ilə birlikdə 240 km-dən artıq dəmir yolu xətti işğal edildi. Culfa–Mincivan–Horadiz (o cümlədən Ermənistan ərazisindən keçən Mehri–Kərçivan) və Yevlax–Xankəndi dəmir yollarının fəaliyyəti dayandırıldı. Həmin dövrdə Azərbaycan torpaqlarının müdafiəsində yüzlərlə dəmiryolçu cəbhəyə yollanaraq düşmənlə üz-üzə vuruşmuş, dəmir yollarına məxsus sanitar qatarları yaralıların cəbhə bölgələrindən çıxarılmasında, onlara tibbi yardım göstərilməsində mühüm rol oynamışdır [17].

Azərbaycanda dəmiryol nəqliyyatının inkişafında yeni bir mərhələ 1993-cü ildən başladı. 15 iyun 1993-cü ildə Ümummilli Lider H.Əliyev xalqın arzu və istəyi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra bir çox sahələrdə olduğu kimi Azərbaycan dəmir yolunda da dönüş nöqtəsinin əsası qoyuldu və bu sahədə dirçəliş başlandı. Bu istiqamətdə ən mühüm addım 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə başlandı. Bu tarixi müqavilənin imzalanması respublikanın iqtisadi qüdrətini və tranzit potensialını xeyli artırdı. Şərqlə Qərb arasında strateji körpü rolunu oynayan Azərbaycan əlverişli tranzit əhəmiyyətli dövlət kimi bölgədəki lider statusunu təmin etdi.

Bu nəqliyyat dəhlizi ilə böyük yük daşınmasının intensivləşməsi birdən-birə başa gəlmədi. Bunun üçün 1993-cü ilin may ayında Brüssel şəhərində Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanın iştirakı ilə keçirilən Avropa Beynəlxalq Cəmiyyətləri Konfransında TRASEKA proqramının əsasının qoyulması da mühüm rol oynadı. Avropa və Asiya ölkələri ilə yeni iqtisadi-ticarət əlaqələrinin yaranması nəticəsində, yüklərin daşınma istiqamətinin dəyişməsi yönündə Avropa Birliyinin maliyyələşdirdiyi və qarşısına Qərb-Şərq istiqamətində Avropadan Qara dənizi keçərək, daha sonra Qafqaz və Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyaya çıxan nəqliyyat dəhlizini inkişaf etdirmək məqsədi güdən Texniki yardım proqramının tətbiqi haqqında razılıq qəbul edildi. TRASEKA proqramının tətbiqi üzrə işlər beynəlxalq maliyyə institutları ilə sıx əməkdaşlıq şəraitində həyata keçirilməyə başladı [9].

Azərbaycan Nazirlər Kabinetinin 8 avqust 1995-ci il tarixli 171 saylı əmri ilə "Oktyabr inqilabı" ordenli Azərbaycan Dəmir Yoluna "Azərbaycan Dövlət Dəmir Yolu" adı verildi. Bundan bir qədər sonra, 1996-cı il iyunun 18-də Heydər Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin yığıncağı keçirildi və dəmir yolundakı neqativ hallar ölkə başçısı tərəfindən kəskin tənqid olunaraq prinsipial qiymət verildi. Ölkə prezidenti böhran vəziyyətinin aradan qaldırılması üçün təcili tədbirlər görülməsini tələb etdi [3, s. 170].

Yaranmış gərgin vəziyyətin aradan qaldırılması üçün ciddi tədbirlər görüldü. Bunun üçün ilk addım kimi idarəetmə strukturunda dəyişiklik aparıldı. O zaman dəmiryolunda üçpilləli idarəetmə sistemi mövcud idi. Belə bir şəraitdə işin icraçıya çatması üçün bir neçə pilləni adlamaq lazım gəlirdi. Bu da istər-istəməz bürokratik bir idarəetmə yaradırdı. Belə olduqda nəqliyyatlararası rəqabətdə insanlar digər sahələrə üz tuturdular. Ölkə başçısının struktur dəyişiklikləri barədə fərmanına və Nazirlər Kabinetinin müvafiq qərarlarına uyğun olaraq dəmiryolunun idarəetmə strukturlarında üçmərhələli dəyişiklik həyata keçirildi: 1996-1997-ci illərdə birinci, 1998-ci ildən isə ikinci və üçüncü mərhələlər başlandı. İkipilləli idarəetmə strukturları yaradılmaqla, bu strukturlara bacarıqlı kadrların düzgün yerləşdirilməsi işi sürətləndirdi, işlək bir mexanizm yaradıldı [3, s. 170].

1996-cı ildən dəmir yollarının elektrik təminatı ilə bağlı işlər aparıldı. Puta stansiyasında kontakt xətləri, Xıdırlı stansiyasında yarımstansiya, Horadiz stansiyasında hava kabelləri bərpa olundu, Gəncə vaqon deposu üçün elektrik xətləri çəkildi, Keşlə stansiyasında transformator quruldu. 1996-cı ilin dekabrın 28-də Azərbaycan Dövlət Dəmir Yolunun ilk firma qatarı Bakı-Ağstafa marşurutu üzrə sərnişinlərin istifadəsinə verildi. Sonradan Azərbaycanın digər istiqamətlərinə hərəkət edən qatarlar firma qatarları səviyyəsində yeniləşdirildi [3, s. 171].

1996-cı ildən Azərbaycan dəmir yolu tranzit yol kimi bir neçə beynəlxalq nəqliyyat dəhlizində iştirak etməyə başladı. Buna nail olmaq üçün Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan hökuməti gərgin danışıqlar aparmalı oldu. Bu danışıqlar həm qonşu ölkələrin rəhbərləri, həm də Azərbaycan Dövlət Dəmir Yolunun üzv olduğu beynəlxalq nəqliyyat qurumları ilə aparılırdı. Belə ki, MDB və Baltikyanı dövlətlərin Dəmir Yolları Nəqliyyat Şurası (Azərbaycan 1992-ci ildən bu Şuranın üzvüdür), Dəmir Yolları Əməkdaşlığı Təşkilatı (1993-cü ildə Azərbaycan bu təşkilata daxil olub-red.), Beynəlxalq Dəmir Yolları İttifaqı (Azərbaycan 1995-ci ildən bu təşkilata daxil olub-red.) ilə aparılmış danışıqlar nəticəsində Şərqlə Qərb arasında strateji körpü rolunu oynayan Azərbaycanın əlverişli tranzit əhəmiyyətli dövlət kimi bölgədəki lider statusu təmin edildi [3, s. 171].

1996-cı ildən etibarən dəmir yolu üçün gənc kadrların hazırlanması da aktual məsələ kimi Heydər Əliyevin dəqqət və qayğısında oldu. Bu məqsədlə, Bakı Uşaq Dəmir Yolunun bərpası işləri aparıldı. 1996-cı ilin sentyabrında 2 sayı Orta Texniki Peşə Məktəbi "Dövlət Dəmir Yolu Liseyi" adlandırıldı. Belə ki, bəhs olunan məktəb 1969-cu ildən "elektrovozun maşinist köməkçisi", "teplovozun maşinist köməkçisi", "dəmir yol stansiya növbətçisi", "sərnişin vaqonlarının bələdçisi" kimi mütəxəssis kadrlar hazılayırdı [3, s. 180].

1997-ci ilin may ayında Bakıdan Moskvaya gedən qatarların hərəkəti bərpa olundu. 1997-ci il dekabrın 4-də Bakı-Rostov istiqamətində yeni sərnişin qatarı xəttə buraxıldı. Bundan sonra Kiyev, Brest, Xarkov, Həştərxan, Yekaterinburq, Sankt-Peterburq, Tümen, Novosibirsk, Voronej, Lvov, Brest, Simferopol, Odessa, Saratov, Ufa, Çelyabinsk şəhərlərinə hərəkət edən sərnişin qatarları və qoşma vaqonlar hərəkətə buraxıldı. Naxçıvan-Təbriz marşurutu üzrə qatarlar həftədə bir dəfə işləməyə başladı [15, s. 2].

1997-ci ilin dekabrın 5-dən Böyük Kəsik-Ağstafa sahəsində 12 kanallı rabitə sistemi, Bakı-Aşqabat, Bakı-Kiyev teleqraf sistemləri işə salındı. Horadizdə rabitə əlaqəsinin qurulması məqsədilə birkanallı sistem, 12 elektrik xətti, radioqatar, stansiyalararası rabitə sistemi quruldu [15, s. 2].

1997-ci ildən başlayaraq "Azərbaycan Dəmir Yol İdarəsi"nin Sərnişin daşımaları Departamenti tərəfindən sərnişinlərə göstərilən xidmət mədəniyyətinin səviyyəsinin daha da yüksəldilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirildi. Bunlardan biri də bilet kassalarında avtomatlaşdırılmış bilet satışı sisteminin tətbiq edilməsi oldu. Bilet satışı texnologiyasını daha da təkmilləşdirmək, onun beynəlxalq İnternet şəbəkəsi vasitəsilə bir mərkəzdən idarə olunmasını təmin etmək, eyni zamanda, sərnişinlərə göstərilən xidmətin səviyyəsini daha da yaxşılaşdırmaq məqsədilə Bakı-sərnişin stansiyasında Mərkəzi məlumat bazası yaradıldı [14, s. 3].

Bilet satışı texnologiyasının kompyuterləşdirilməsi və AİS "Ekspress-AZ" sisteminin genişləndirilməsi proqramına uyğun olaraq, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədrinin müvafiq əmri ilə respublikanın qərb zonasındakı xətti stansiyalarda fəaliyyət göstərən bütün bilet kassalarında beynəlxalq internet şəbəkəsinə qoşulmuş kompyuter proqramı tətbiq olundu [14, s.3].

4 yanvar 1998-ci ildə Dübəndi terminalının və stansiyasının açılış mərasimi keçirildi. Həmin mərasimdə Ümummilli Lider Heydər Əliyev iştirak etdi, burada görülən işləri, dəmir yolunun fəaliyyətini yüksək qiymətləndirdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tədbirdə çıxış edərkən demişdir: "Mən bu gün burada verilən məlumatları çox məmnuniyyəit hissi ilə qəbul edirəm ki, Azərbaycan Dövlət Dəmir Yolu İdarəsi buraxılmış səhvləpri artıq aradan qaldırır və öz işinin keyfiyyətini yaxşılaşdırır, yaxşı iqtisadi nəticələr əldə edir. Bu, çox vacib məsələdir. Çünki dəmir yolu Azərbaycan iqtisadiyyatının böyük bir hissəsidir. Azərbaycan dəmir yolunu on illərlə yaratmışıq, onun maddi texniki bazasını qurmuşuq. Təəssüflər olsun ki, 1990-cı ildən başlayaraq Azərbaycan Dövlət Dəmir Yolunda da çox şeylər dağılıbdır, itirilibdir. Yaxşı ki, indi bunların qarşısı alınır. Mən indi Azərbaycan Dövlət Dəmir Yolunda inkişafı hiss edirəm." [14, s. 2].

Ulu öndər Heydər Əliyev 6 dekabr 1998-ci ildə dəmiryolçular tərəfindən hazırlanmış, çadır şəhərciklərində məskunlaşmış qaçqınlar və məcburi köçkünlər üçün konteynerlərdən hazırlanmış evlərə, səhiyyə, məişət xidməti obyektlərinə, sinif otaqlarına baxmaq üçün Keşlə stansiyasına gəldi. O, dəmiryolçular qarşısında çıxış edərkən demişdir: "Tərcümeyi-halımdan məlumdur ki, mənim atam da dəmiryolçu olubdur. Mən dəmiryolçu ailəsində böyümüşəm. Hələ uşaq ikən dəmir yollarının üzərində, nə qədər atamın yanında olmuşam. Hesab edirəm ki, dəmir yolunu həm bilirəm, həm də sevirəm. Dəmir yolu sahəsinin Azərbaycanda dərin kökləri və böyük ənənələri var. Dəmiryolçular həmişə çox itizamlı olublar. Dəmir yolunun özü çox intizam tələb edir. Keçmişdə belə bir ənənə var idi ki, saatları həmişə dəmir yolunun saatları ilə düzəldirdilər. Çünki dəmir yolunun saatı həddindən artıq dəqiq işləyən saat idi" [14, s. 2].

1998-ci il yanvarın 4-də azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirakı ilə Dübəndi neft terminalının və stansiyasının açılışı oldu. Stansiyada quraşdırılan avadanlıq tez və ekoloji baxımdan təhlükəsiz şəraitdə sisternləri neftlə dolfurub yola salmağa imkan verirdi.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev dəmir yolunun fəaliyyətini yüksək qiymətləndirmiş və Dübəndi terminalının və stansiyasının açılış mərasimində qeyd etmişdi: "Mən bu gün burada verilən məlumatları çox böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, azərbaycan Dövlət Dəmir Yolu İdarəsi buraxılmış səhvləri artıq aradan qaldırır və öz işinin keyfiyyətini yaxşılaşdırır, yaxşı iqtisadi nəticələr əldə edir. Bu çox vacib məsələdir. Çünki dəmir yolu Azərbaycan iqtisadiyyatının böyük bir hissəsidir. Azərbaycan dəmir yolunu on illərlə yaratmışıq, onun maddi-texniki bazasını qurmuşuq. Təəssüflər olsun ki, 1990-cı ildən başlayaraq Azərbaycan Dövlət Dəmir Yolunda da çox şeylər dağılıbdır, itirilibdir. Yaxşı ki, indi bunların qarşısı alınır. Mən indi Azərbaycan Dövlət Dəmir Yolunda inkişafı hiss edirəm" [5, s. 112].

1998-ci ilin iyun ayından Bakı lokomativ deposunda elktrovoz və elektrik qatarlarının, Biləcəri və İmişli lokomotiv depolarında teplovozların cari təmirinə başlanıldı. 1998-ci ilin nəticələrinə görə Bakı vaqon təmiri zavodu keyfiyyət üzrə "Nəqliyyat üzrə beynəlxalq mükafat"a layiq görüldü [9, s.3].

1998-ci ildən etibarən Azərbaycan dəmir yollarının dünya nəqliyyat sisteminə inteqrasiya prosesinin yeni bir mərhələsi başlandı. Belə ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakıda Böyük İpək yolunun dirçəldilməsinə həsr olunmuş beynəlxalq konfrans keçirildi. 13 dövlətin və 32 beynəlxalq təşkilatın iştirak etdiyi konfransda bir sıra vacib sənədlər, o cümlədən "Beynəlxalq tarnzit daşımaları haqqında çoxtərəfli razılıq", həmçinin 5 texniki əsasnamə, o cümlədən "Dəmir yolu daşımaları sahəsində əməkdaşlıq barədə" müqavilə qəbul edildi [12, s.28].

Bu konfransın yekununda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanıb və Bakı Bəyannaməsi qəbul edildi. Əsas Çoxtərəfli Sazişin müddəalarına uyğun olaraq, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alındı və 2001-ci il fevralın 21-də rəsmi açılışı oldu [4]. Beləliklə, Azərbaycan tarixi İpək Yolunun bərpa edilməsinə öz töhfəsini verməklə, əsas inkişaf trayektoriyalarının müəyyənləşdirilməsində mühüm rol oynamağa başladı. Qədim İpək Yolunun bərpası istiqamətində həyata keçirilmiş kompleks tədbirlər əlverişli coğrafi mövqedə yerləşən respublikamızın geostrateji əhəmiyyətini daha da artırdı. Bu beynəlxalq layihənin reallaşması ümummilli lider Heydər Əliyevin gərgin fəaliyyətinin və qətiyyətinin nəticəsi idi.

Bu dövrdən başlayaraq Azərbaycan Dövlət Dəmir Yolu bir çox beynəlxalq forumlarda yaxından iştirak etməyə başladı. 1999-cu il 8-9 oktyabrda Moskvada MDB və Baltikyanı Dövlətlərin Dəmir Yolu Nəqliyyatı Şurasının yığıncaqları, həmin ilin noyabrında Astana şəhərində Tarif Konfransı, Dəmir Yolları Əməkdaşlıq Təşkilatı Nazirlər Müşavirəsinin sessiyası, İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dəmir yolu rəhbərlərinin tədbirləri bu baxımdan xüsusilə qeyd edilməlidir.

1999-cu ildə Bakı-Gəncə istiqamətində "Ekspress" tipli firma sərnişin qatarı sərnişinlərin istifadəsinə verildi. Eyni zamanda, 1999-cu ildə 29 dəmir yol körpüsü təmir olundu, həmçinin 15.500 dəmir-beton şpallar əvəzləndi. 1999-cu il aprelin 5-də Mingəçevir-şəhər-Mingəçevir-SES stansiyaları arasında 16 km-lik əsas dəmir yolu təmir olundu [13, s. 2].

1999-cu ildə Bakı dəmir yol Xəstəxanasının cərrahiyyə və terapevtik şöbələri yenidən bərpa olundu. Culfa və Naxçıva stansiyalarındakı xəstəxanalar təmir olundu, 30 çarpayılıq müalicəxana inşa edildi. Bakı dəmir yol xəstəxanasının baş korpusu 2000-ci ildə tam təmir olundu [13, s, 2].

2000-ci ildən Azərbaycan dəmir yolları ilə yükdaşımaların həcmi hər il 25% artmağa başladı. 1998-ci ildən 2000-ci ilin birinci rübünədək olan dövrdə 27 teplovoz, 17.804 vaqon əsaslı, 36.895 yük vaqonu cari təmir olundu [13, s. 3].

Azərbaycan Respublikası Prezidentinin 5 iyul 2000-ci il tarixli 904-İQ saylı fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının bəzi rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, 2005-ci ilin əvvəllərində Azərbaycan Dövlət Dəmir Yolunun kollegiya iclası yolun mövcud olan bəzi stansiyalarının adlarının dəyişdirilməsini qərara alındı. Qərara uyğun olaraq aşağıdakı stansiyaların adları dəyişdirilərək belə adlandırılmışdır: Qazıməmməd (kod 554202) - Hacıqabul, Duvannı (kod 548409) - Qobustan, Znoynı (kod 552724) - Xıdırlı, Hacıyev (kod 554310) - Qarasu, Montin (kod 547016) - Nərimanov, Fioletov (kod 547020) - PL.2-ci km"[13, s. 3].

2001-ci ildə Naxçıvan-Şərur marşurutu üzrə yeni sərnişin qatarı xəttə buraxıldı, həmçinin Ucar rayon Güləbənd kəndində dəmir yol keçidi inşa edildi. Həmin il oktyabrın 15-də TASİS proqramı çərçivəsində Bakı-Böyük Kəsik istiqamətində 503 km məsafədə fiber optik kabel xətti işə salındı. 3 iyun 2002-ci ildən Azərbaycan və Belarus dəmiryolu rəhbərliyi arasında əldə olunmuş razılaşmaya əsasən Bakı-Brest sərnişin qatarı xəttə buraxıldı [11, s. 1]. 7 aprel 2003-cü ildə isə Bakı-Dərbənd "ekspress" tipli firma sərnişin qatarı xəttə buraxıldı.

Nəticə. Beləliklə, aparılan araşdırmalar göstərir ki, XIX əsrin II yarısında əsası qoyulan Azərbaycan dəmir yolu ulu öndər Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışından sonra yeni bir inkişaf mərhələsi yaşamışdır. Sovet imperiyasının dağılması, müstəqilliyin ilk illərinin böhranlı vəziyyəti, eləcə də Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti bütün sahələrdə olduğu kimi, dəmir yolu nəqliyyatında da 1991-1993-cü illərdə böhrana səbəb olmuşdur. Bununla belə, ümummilli lider H.Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı böhranlı vəziyyəti aradan qaldırmış, dəmir yolu nəqliyyatı inkişafa başlamışdır. Əvvəlcə, əsrin müqaviləsinin imzalanması, bir qədər sonra sonra isə tarixi ipək yolunun bərpası üzrə Bakıda keçirilən konfransda imzalanmış dövlətlərarası sazişlər, eləcə də bir çox beynəlxalq layihələr dəmir yol nəqliyyatının dinamik inkişafını təmin etdi. 1993-cü ildən başlayan dəmir yol xətlərinin elektrik təminatı həyata keçirildi, yeni stansiyalar açıldı, yükdaşımaların həcmi əhəmiyyətli surətdə artdı. Ümummilli lider bütün bu tədbirlərin həyata keçirilməsi üçün ilk növbədə struktur islahatlarından başladı. Bir qədər sonra isə, 1995-ci ildə bu sahə üzrə ixtisaslı kadrları iş başına gətirdi. 1996-cı ildən isə dəmir yolu nəqliyyatı ilə bağlı Nazirlər Kabinetinin bir çox qanun və qərarları bu sahədəki boşluğu doldura bildi. Məhz bu islahatlar sayəsində gələcəkdə iqtisadiyyatın bütün sahələri kimi, dəmir yolu nəqliyyatının da perspektivli inkişafının təməli qoyuldu, uğurlu nəticələr əldə olundu. Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan nəqliyyat infrastrukturu Müzəffər Ali Baş komandan, Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Məhz bu uğurlu siyasətin nəticəsidir ki, bugün Azərbaycan Respublikasının nəqliyyat sistemi beynəlxalq standartlara uyğunlaşdırılaraq beynəlxalq logistikanın ayrılmaz tərkib hissəsinə çevrilməkdədir.

ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild. Bakı: Lider, 2004, 440 s.
2. Azərbaycan tarixi. 7 cilddə. IV cild. - Bakı: Elm, - 2007. - 503 s.
3. Azərbaycan Dəmir Yolu. - Bakı: Nurlar, - 2008. – 287 s.
4. Azərbaycan Avrasiyanın nəqliyyat qovşağı: Böyük İpək Yolunun bərpası //
https://president.az/az/pages/view/azerbaijan/silkroad [22.01.2025].
5. Əliyev H. Müdrik fikirlər. 2 cilddə. I cild. -Bakı: Çaşıoğlu, -2008. - 399 s.
6. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. Kitab II. May, 1994 – dekabr 1994 / H.Ə.Əliyev. - Bakı: Azərnəşr, Kitab II. -1997. - 601 s.
7. Əliyev H. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr [46 cilddə] -Bakı: Azərnəşr, Kitab I. -1997. -597 s.

8. Əsədov A.M. Azərbaycan Respublikasında yeni nəqliyyat sisteminin formalaşması və davamlı inkişafı. - Bakı: Avropa, - 2014. - 338 s.
9. Əsgərov A. Azərbaycanda dəmir yol şəbəkəsinin inkişafı ulu öndər Heydər Əliyevin adı ilə qırılmaz bağlıdır // https://www.azerbaijan-news.az/posts/detail/azerbaycanda-demir-yol-sebekesinin-inkisafi-ulu-onder-heyder-eliyevin-adi-ile-qirilmaz-baglidir-2490 [22.01.2025].
10. Əsgərov A. Azərbaycanın yol-nəqliyyat kompleksi davamlı inkişaf yolunda // Respublika qəzeti, 21 aprel, 2009.
11. Əsgərov A. Qüdrətli Azərbaycanın bütün uğurları üçün Heydər Əliyev zəkasına borcluyuq // Respublika qəzeti, 23 aprel, 2013-cü il
12. Məmmədov M. Nəqliyyatın dinamik inkişaf strategiyası. [2 cilddə]. Məcmuələr toplusu - Bakı: Çaşıoğlu, c.1 - 2015. - 228
13. Məmmədov Z. Azərbaycan Avrasiya məkanında etibarlı nəqliyyat dəhlizidir // Xalq qəzeti, 1 may 2012-ci il.
14. Məmmədov Z. Heydər Əliyev və dəmir yolunun inkişaf mərhələləri // Azərbaycan qəzeti, 1 iyul 2000.
15. Məmmədov Z. Nəqliyyat infrastrukturu müasir tələblər səviyyəsində qurulur // Respublika qəzeti, 17 dekabr, 1997
16. Məmmədov M. Azərbaycan dəmir yolu tarixinin Heydər Əlyev dövrü.- Bakı, 2007.- 327 s.
17. Tarixi irsimiz: 1991-1994 // https://corp.ady.az/tarixi-irsimiz#1991-1994 [22.01.2025].

ПАРВИЗ МАГЕРРАМОВ
Докторант Гянджинского Государственного Университета

ГЕЙДАР АЛИЕВ И РАЗВИТИЕ ЖЕЛЕЗНОДОРОЖНОГО ТРАНСПОРТА В НЕЗАВИСИМОМ АЗЕРБАЙДЖАНЕ

Архитектор и основоположник современной азербайджанской государственности, Общенациональный лидер Гейдар Алиев определил путь прогресса и развития Азербайджана, разработал концептуальные основы нашей независимой государственности. Гейдар Алиев знал, что транспорт занимает особое место в экономическом развитии страны, и во все периоды руководства Азербайджаном уделял этой сфере особое внимание. Неслучайно подписание «Контракта века» в 1994 году значительно увеличило экономическую мощь и транзитный потенциал республики. Играя роль стратегического моста между Востоком и Западом, Азербайджан закрепил за собой статус лидера региона как важной транзитной страны. В данной научной статье на основании документов и фактов исследуется исключительная роль Общенационального лидера Гейдара Алиева в разработке стратегии развития и законодательной базы железнодорожного транспорта, который является одной из важнейших отраслей экономики независимого Азербайджана, а также об организации и развитии непрерывного и эффективного функционирования железнодорожного транспорта.

Ключевые слова: Азербайджан, Гейдар Алиев, железнодорожный транспорт, стратегия развития, законодательная база.

PARVIZ MAHARRAMOV
Doctoral student at Ganja State University

HEYDAR ALIYEV AND THE DEVELOPMENT OF RAILWAY TRANSPORT IN INDEPENDENT AZERBAIJAN

The architect and founder of modern Azerbaijani statehood, National Leader Heydar Aliyev determined the path of progress and development of Azerbaijan, developed the conceptual foundations of our independent statehood. Heydar Aliyev knew that transport occupies a special place in the

economic development of the country, and during all periods of leadership of Azerbaijan he paid special attention to this area. It is no coincidence that the signing of the "Contract of the Century" in 1994 significantly increased the economic power and transit potential of the republic. Playing the role of a strategic bridge between East and West, Azerbaijan has secured its status as a leader in the region as an important transit country. This scientific article, based on documents and facts, examines the exceptional role of National Leader Heydar Aliyev in developing the development strategy and legislative framework for railway transport, which is one of the most important sectors of the economy of independent Azerbaijan, as well as the organization and development of the continuous and effective functioning of railway transport.

Keywords: Azerbaijan, Heydar Aliyev, railway transport, development strategy, legislative framework.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 yanvar 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Kəmalə Nəcəfova, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24); UOT 94

RAUF QURBANOV
Bakı Dövlət Universitetinin doktorantı
qurbanovrauf7@gmail.com

TÜRKİYƏ VƏ RUSİYA MÜNASİBƏTLƏRİNİN AZƏRBAYCANIN QARABAĞ ZƏFƏRİNDƏN SONRAKİ XARİCİ SİYASƏT PRİORİTETLƏRİNƏ TƏSİRİ

DOI: https://doi.org/10.36719/2708-065X/108/123-127

İkinci Qarabağ müharibəsindən sonra əldə olunan uğurun daimi və davamlı olması üçün Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioritetlərinin müəyyən edilməsi vacib əhəmiyyətə malikdir. Cənubi Qafqaz regionunda qədim aktorlar olan Rusiya Federesiyası və Türkiyə Respublikasının Azərbaycan xarici siyasətindəki rolu və təsiri xüsusi önəm kəsb edir. Rusiya tarixin müxtəlif dövrlərində bu regionda mövcud olmuş və burada baş verən hadisələrdə fəal rol oynamışdır. İkinci Qarabağ müharibəsində Türkiyənin Azərbaycana olan mənəvi dəstəyi və əldə olunan uğur onun regiondakı təsirini olduqca artırmış və regionda söz sahibi olan ölkəyə çevirmişdir. Bu hadisə Türkiyənin həmdə qlobal sferada nüfuzunun artamasına gətirib çıxarmışdır.Məqalədə Qarabağ zəfərindən sonra Azərbaycanın xarici siyasətindəki sözügedən aspektlər tədqiq edilir.

Açar sözlər: Azərbaycan Respublikası, Türkiyə Respublikası, Rusiya Federesiyası, xarici siyasət, Qarabağ zəfəri.

Giriş. Qarabağ zəfərinin qazanılması, Azərbaycanın beynəlxalq hüquq çərçivəsində tanınan ərazi bütövlüyünün bərpası yolunda ən mühüm addımlardan biri olmuşdur. Bununla yanaşı, Ermənistan tərəfi müharibə gedişində "12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyası"nın müharibə zamanı mülki şəxslərin müdafiəsi ilə bağlı müddəalarını pozmuş, mülki obyektlərə hücumlar təşkil edərək sivil əhalinin ölümünə səbəb olan hərbi cinayətlərə yol vermişdir [4]. Müharibə dövründə bir çox ölkələr beynəlxalq platformalarda bu məsələ ilə bağlı fikirlərini ifadə edərək, Ermənistanın hücumlarını müharibə cinayəti kimi qiymətləndirmiş və Azərbaycanın haqlı mübarizəsini dəstəklədiklərini bəyan etmişdir. Türkiyə Respublikası isə bu ölkələr arasında ön sıralarda yer almışdır. Azərbaycanın 2020-ci ilin iyulunda baş verən İkinci Qarabağ müharibəsindən sonra əldə etdiyi zəfər, regiondakı geostrateji mühitə dərin təsir göstərərək həm dəyişdirici, həm də transformativ rol oynamışdır. Azərbaycan regionda möhkəmlənmiş millət və dövlət quruculuğu ilə daha güclü bir ölkəyə çevrilib. Türkiyə isə özünü regional güc olaraq yenidən təsdiq etdi və müharibə prosesində fəal rol aldı. Türkiyə ictimai rəyi Azərbaycanı xarici siyasətdə ən yaxın ölkə kimi qəbul edir. Türkiyə Ermənistanı Azərbaycan ərazisi olan Qarabağı və yeddi rayonu tərk etməyə və bu torpaqları beynəlxalq hüquqa görə onlara sahib olan Azərbaycana təhvil verməyə çağırdı [5]. İkinci Qarabağ müharibəsindən sonra atəşkəsə nəzarət etmək üçün Türkiyənin də iştirak etdiyi Türkiyə-Rusiya Birgə Müşahidə Mərkəzində mühüm rol oynaydı. Bu mərkəzdə bərabər sayda türk və rus əsgəri də daxil olmaqla 120 əsgər xidmət edirdi. Türkiyənin bu rolu Rusiyanı uzun illər hegemonluğu altında saxladığı Cənubi Qafqazda güc imkanlarını artırmağa və maraqlarını maksimuma çatdırmağa sövq edib. Bu vəziyyət Azərbaycan və Türkiyənin regional və qlobal səviyyədə birgə fəaliyyət göstərməsinə, iki qüdrətli aktor arasında münasibətlərin möhkəmlənməsinə səbəb olub.

Əsas hissə. İkinci Qarabağ müharibəsindəki qələbə Azərbaycan-Türkiyə münasibətlərində yeni dövr başlatdı. Hər iki tərəf xarici siyasətdə Cənubi Qafqazdaki geostrateji əməkdaşlığın yeni mərhələsindən bir çox fayda əldə edir və edəcəkdir. Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş 20 faiz torpaqlarının azad edilməsi və bu torpaqların ölkənin iqtisadi sisteminə inteqrasiyası prosesinə start verdi. Bu proses yeni investisiya imkanları yaratmağa başladı. Bu investisiya mühitindən ən çox digər xarici ölkələrlə yanaşı Türkiyənin investisiya təsirinin çox olacağı gözlənilir. Qarabağ münaqişəsinə son qoyulması Azərbaycan Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi, yeni əməkdaşlıqların əsasını qoyacaq. Bu, yeni layihələr və qlobal inkişaf imkanlar deməkdir. Azərbaycanın regional müttəfiqi kimi

Türkiyənin bu layihələrdə mühüm fazalarda iştirak edəcəyi mütləqdir. İkinci Qarabağ müharibəsi zamanı imzalanan birgə bəyannamədə Ermənistan ərazisindən keçmək şərti ilə Azərbaycanla Naxçıvan arasında yeni nəqliyyat dəhlizinin açılması nəzərdə tutulurdu. Bu, təkcə Naxçıvanın Azərbaycanın digər bölgələri ilə əlaqəsi üçün deyil, həm də Türkiyənin regionda baş verən iqtisadi proseslərdə daha fəal iştirak etməsi baxımından böyük əhəmiyyət kəsb edir. Məhz bu fikir Ermənistanın gələcək siyasi reallıqda Türkiyə və Azərbaycan dövlətləri ilə əlaqələrinin müsbət şəkildə imkanına şərait yaradacaq.

Ermənistan ekspansionist mövqeyindən əl çəksə, onun regionda yeni əməkdaşlıq imkanlarından yararlanması, yeni layihələrdə iştirak etməsi mümkündür. Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunmasında bütün tədbirləri görməyə hazırdır. Ancaq Ermənistanın hər hansı əks fəaliyyətində bunun qarşısını alacaq həm diplomatik həm də hərbi gücə malikdir. Ümumilikdə Azərbaycanın Qarabağ Zəfərindən sonra Türkiyə ilə olan münasibətlərin bəzi göstəricilərini sıralamaq mümkündür:

1. Azərbaycan xaricə sərmayə yatırılmasını daha da genişləndirmiş və Türkiyəyədə böyük vəsaitdə investisiya yatırmışdır;

2. Azərbaycan beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirmiş və Türkiyəyə dəstək olmuşdur;

3. Türkiyənin daxili siyasətində Azərbaycanın humanitar fəaliyyəti getdikcə artmışdır və artmaqdadır;

4. Ordu quruculuğunda əməkdaşlıq daha da inkişaf etmiş və hərbi-müdafiə sənayesində birlikdə istehsal olunacaq silahlar gündəmə gəlmişdir;

5. Türkdilli dövlətlər arasında əməkdaşlığın strukturlaşması baxımından Azərbaycan Qazaxıstan və Türkiyə ilə birlikdə aparıcı rol oynamışdır.

Bütün bunlar Azərbaycan xarici siyasətinin potensialının daha da artmasını göstərən amillərin başında gəlir. Xarici siyasətin uğurla reallaşdırılması milli-dövlət maraqlarının uğurla həyata keçirilməsi üçün əsas prioritetdir. Azərbaycan balanslaşdırılmış xarici siyasət diplomatiyasını müharibədən sonra da uğurla həyata keçirmişdir. Türkiyə daxilində Qarabağ zəfərindən sonra Azərbaycanın balanslaşdırılması xarici siyasətdən Türkiyə yönümlü siyasətə keçid etdiyini bildirən fikirlərdə ortaya çıxmışdır. Bunun təbii hal kimi qarşılanması normaldır. Buna səbəb olaraq Azərbaycan və Türkiyədə yaşayan xalqlar arasında mədəni, irsi, tarixi bağlılıqlar mövcud olduğu demək mümkündür. Xüsusilə, Azərbaycan müstəqilliyini əldə etdikdən sonrakı dövrdə iki ölkə arasında bu əlaqələr daha da möhkəmləndi və bu ümumiləşdi. Müstəqillikdən əvvəl mövcud olan mədəni və sosial əlaqələr dövlətimizin müstəqlliyinin bərpa edilməsindən sonra iqtisadi, diplomatik, hərbi və başqa sferalarda daha da genişlənmişdir. 2020-ci ildə Azərbaycan və Ermənistan arasında İkinci Qarabağ müharibəsindən sonra Türkiyənin müharibədə Azərbaycanın xeyrinə fəal mövqe tutması nəticəsində iki ölkə arasında münasibətlər "strateji tərəfdaşlıq" səviyyəsinə yüksəldi. Türkiyənin Azərbaycanın xarici siyasətində oynadığı rol 2020-ci ildən sonrakı dövrdə özünü daha qabarıq göstərib. Türkiyə İkinci Qarabağ müharibəsi zamanı Azərbaycana verdiyi hərbi və diplomatik dəstəyi ilə seçildi və bu dəstək Azərbaycanın Qarabağda qələbəsinin əsas elementlərindən biri oldu. Müharibədən sonra Türkiyənin Qarabağda hərbi müşahidəçi qismində olması və bölgədə mövcudluğunun artması Azərbaycanın Rusiya ilə münasibətlərində balans axtarışında mühüm elementə çevrilib. Sözügedən ölkələr müxtəlif platformalarda bağlanmış müqavilələrlə onsuz da mövcud olan strateji əlaqələrini daha da dərinləşdirdilər. Məlumdur ki, Rusiya keçmiş sovet məkanında "dondurulmuş münaqişələrdən" istifadə edərək Cənubi Qafqaz regionunu təsiri altında saxlamağa çalışırdı. Bununla belə, Türkiyə regional güc olaraq son zamanlar daha fəal siyasət qurur, Azərbaycanı dəstəkləyir və regionda təsirinin artmasına nail olur. Bununala da Türkiyə Cənubi Qafqaz regionunda hərbi və siyasi təsirini artırmağa imkan yaradır. Hətta Azərbaycan və Türkiyə arasındaki əməkdaşlıq hərbi müttəfiqlik səviyyəsinə qədər yüksəlmişdir. 2021-ci ildə iki ölkə arasında "Şuşa bəyannaməsi" imzalanıb və tərəflər arasında hərbi müttəfiqlik əlaqələri gücləndirilib [1]. Bu bəyannaməyə görə, iki ölkədən birinə hücum olarsa, digəri hərbi və digər sahələrdə kömək edəcək. Əslində bu məzmununa görə müqaviləni həmdə "təhlükəsizlik paktı" xüsusiyyətinə malik olduğunu söyləmək olar. Türkiyənin Qarabağda baş verən müharibədə Azərbaycana açıq şəkildə dəstək göstərməsi onun beynəlxalq aləmdə Cənubi Qafqaz mühüm aktorlarından biri olduğu göstərdi. Türkiyə ilə Azərbaycan arasında quru əlaqəni təmin edəcək Zəngəzur dəhlizinin açılması geosiyasi və geostrateji aspektdən əhəmiyyəti çox vacibdir. Zəngəzur dəhlizinin açılmasında ən böyük faktorlardan

biridə Rusiyadır. Rusiya-Ukrayna müharibəsindən sonra Türkiyənin hər iki tərəfə qarşı apardığı balans siyasəti ilə Rusiyanın Zəngəzur dəhlizinin açılmasına münasibətində daha müsbət münasibət gözləmək olar. Qeyd etmək lazımdır ki, yeni dövrdə Qafqaz, Mərkəzi Asiya və Rusiyanın enerji tranzit mərkəzinə çevrilmək məqsədi ilə regionda vacib rol oynayan Azərbaycan Türkiyə və Türk dünyası üçündə xüsusi əhəmiyyətə vacibdir. İstər dünyada baş verən iqtisadi proseslər, istər qlobal aktorlarla münasibətlər, istərsə də neftin qiymətinin artmasının təsiri ilə Azərbaycan regionda iqtisadi mövqeyini günügündən möhkəmləndirir.

İkinci Qarabağ müharibəsindən sonra qazanılan qələbədən sonra regionda normallaşmanın başlaması ilə Qərb dövlətlərinin və beynəlxalq təşkilatların regiona münasibətində müəyyən dəyişikliklər müşahidə olundu. Bir çox təşkilat və qurumlar, xüsusilə ATƏT (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) və Aİ (Avropa İttifaqı) tərəfindən regional miqyasda enerji, nəqliyyat, infrastruktur və s. sahələrdə aparılacaq araşdırmalara dəstək veriləcəyi açıqlandı. Bu çərçivədə Azərbaycan və Ermənistan liderləri Brüsselin ev sahibliyi ilə iki görüş keçirib. Birincisi 14 dekabr 2021-ci ildə, ikincisi isə 6 aprel 2022-ci ildə Brüsseldə keçirilib. Bir araya gəlinən bu görüşdə sülh və etimadın artırılması istiqamətində addımların atılması prioritet məsələlər arasında olsa da, sərhəd xətləri, humanitar problemlər, mədənlər, dəmir yolu əlaqələri və yolların bərpası məsələləri də gündəmə gəldi. Görüş zamanı problemin həlli üçün sazişin hazırlanması və birgə komissiyanın yaradılması da müzakirə olundu. Xarici İşlər Nazirliyinin son bəyanatı aprelin 6-da Brüsseldə olub. Keçirilmiş görüşlərin müsbət qarşılandığı da bildirildi. Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin ev sahibliyi ilə Brüsseldə keçirilən bu ikinci görüşün nəticəsi olaraq iki ölkənin xarici işlər nazirlərinin sülh sazişinə hazırlıq işlərinə başlamaq üçün töhfələr verməsini mühüm hadisə kimi qiymətləndirdi [2].

Azərbaycan-Rusiya münasibətləri daim dəyişən, mürəkkəb, çoxşaxəli və əsasən asimmetrik qarşılıqlı təsirlər toplusu kimi xarakterizə edilə bilər. Vladimir Putin və İlham Əliyevin prezidentlikləri dövründə Azərbaycan və Rusiya arasında praqmatik və tranzaksiya xarakteri daşıyan münasibətlər mövcud olub. Münasibətlər mürəkkəbdir, çünki iki ölkə arasındakı əlaqələr tək bir məsələ ilə məhdudlaşmır, həm dövlətlərarası, həm də transmilli səviyyədə geniş spektrli məsələləri – siyasi, iqtisadi, enerji, hərbi və mədəni – əhatə edir. Azərbaycan Cənubi Qafqaz regionunda daim sülhün və təhlükəsizliyin təmin olunması üçün digər ölkələrlə həll yollarının axtarılması, tapılması və həyata keçirilməsində maraqlı olmuşdur. Azərbaycan MDB (Müstəqil Dövlətlər Birliyi) məkanında ən mürəkkəb coğrafiyada yerləşməsinə baxmayaraq Rusiya ilə münasibətlərdə öz müstəqilliyini daim qoruyan, dövlətin milli maraqlarını tamamilə həyata keçirməyə nail olan yeganə lider və qabaqcıl ölkə olmağa nail oldu. Azərbaycan və Rusiya münasibətləri kontekstində iqtisadi əməkdaşlıq sahəsindəki əlaqələrdə olduqca əhəmiyətlidir. 2021-ci ilin hesabatına görə Azərbaycan və Rusiya dövlətləri arasında baş tutan ticarət dövriyyəsi 2.995.131,31 min Amerika Birləşmiş Ştatları (ABŞ) dolları oldu. 2022-ci ilin fevral ayının 22-də Moskvada İlham Əliyev və Vladimir Putin tərəfindən "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalandı [3]. Bu sənəd Azərbaycan və Rusiya arasında olan əlaqələrin bütün sahələrini əhatə edən 43 bənddən ibarət olmuşdur. Bu bəyənnamənin əsasında hər iki dövlətin ərazi bütövlüyünə, dövlət sərhədlərinin toxunulmazlığına, ölkə suverenliyinə, hüquq bərabərliyinə və bunun kimi prinsiplərə sadiqlik prinsipləri durur. Bəyanatda bir digər sahələr olan ölkələrarası iqtsadi, siyasi, təhsil, müdafiə, sosial və digər sahələrdə də əməkdaşlıq qeyd olunmuşdur. Azərbaycan enerji sahəsindəki strateji mövqeyini Rusiya ilə münasibətlərində balanslaşdırıcı amil kimi də qiymətləndirmək olar. Eyni zamanda bəyannamədə qeyd olunur ki, sülhün və sabiltliyin təmin olunması, təhlükəsizliyin təmin olunması məqsədilə Azərbaycan Respublikası və Rusiya Federesiyası bir-birinə BMT Nizamnaməsi, müxtəlif beynəlxalq müqavilələr və tərəflərdən hər birinin beynəlxalq-hüquqi öhdəliklərini nəzərə almaqla hərbi sahədə yardım göstərilməsi imkanını nəzərdən keçirə bilərdilər. Rusiya ilə enerji əməkdaşlığını davam etdirsə də, Avropa ilə enerji əlaqələrini gücləndirərək Avropa ölkələri üçün xüsusən də Rusiya-Ukrayna müharibəsinin doğurduğu böhran şəraitində vacib rol oynamışdır. 2022-ci ildə Rusiyanın Ukraynaya hücumu 2023-cü ildə də davam etdi və bunun Azərbaycan-Rusiya münasibətlərinə dolayı təsirləri oldu. Azərbaycan bu müharibədə bitərəf qalmağı seçdi və Ukraynaya humanitar yardım göstərdi. Bu siyasəti Azərbaycanın xarici siyasətdə balans strategiyasının tərkib hissəsi kimi də qiymətləndirmək olar. Azərbaycan Rusiya ilə strateji münasibətlərini qoruduğu kimi, Qərblə də münasibətlərini inkişaf etdirməyə davam etdi.

Nəticə. Qarabağ Zəfəri Azərbaycanın xarici siyasətinə və regional mövqeyinə dərin təsirlər göstərdi. Bu zəfərdən sonra regionda xarici siyasətin yenidən qurulmasına səbəb oldu. Türkiyə bu qələbə ilə bölgədəki nüfuzunu artırdı və strateji əhəmiyyətli rol oynamağa davam etdi. Türkiyənin hərbi və diplomatik sahədə mənəvi dəstəyi Azərbaycanın qələbəsinə böyük töhfə verdi və Ankaranın Cənubi Qafqazda nüfuzunu möhkəmləndirdi. Azərbaycan başda Türkiyə və Rusiya olmaqla, önəmli ölkələrlə münasibətlərini yenidən formalaşdırdı. Bu prosesdə Azərbaycan həm Türkiyə ilə strateji tərəfdaşlığını gücləndirdi, həm də Rusiyanın regionda təsirini tarazlaşdırmaq üçün addımlar ataraq daha müstəqil xarici siyasət qurmaq imkanı əldə etdi. Əldə olunan qələbədən sonra Türkiyə ilə əlaqələr daha əhatəli strateji əməkdaşlığa çevrildi. İki ölkə arasında hərbi, iqtisadi və mədəni əlaqələrin möhkəmlənməsi Azərbaycanın xarici siyasət prioritetlərində bilavasitə öz əksini tapıb, Türkiyənin Qarabağda olması təhlükəsizlik sahəsində daha möhkəm zəmin yaratdı. Türkiyənin Azərbaycana dəstəyi Azərbaycanın regional diplomatiya təşəbbüslərini gücləndirdi və bu əməkdaşlıq Qara dəniz və Xəzər regionlarında yeni strateji layihələrə yol açdı. Digər tərəfdən, Rusiya ilə münasibətlər Azərbaycanın balanslaşdırılmış siyasət yürütməsinin zəruriliyini ortaya qoydu. Azərbaycanın Rusiya ilə Türkiyə arasında balanslaşdırılmış siyasəti regionda sabitliyin qorunmasına töhfə verdi, eyni zamanda Azərbaycanın öz maraqlarını mərkəzləşdirməyə imkan verdi. Türkiyə və Rusiyanın Cənubi Qafqazdakı strateji münasibətləri və xarici siyasətlərini necə formalaşdırdıqlarını ortaya qoydu. Azərbaycanın qələbəsi regionda qüvvələr balansına və xarici siyasətə yenidən baxılması prosesinə təkan verdi. Türkiyə Azərbaycanla qardaşlıq və strateji tərəfdaşlıq bağlarını gücləndirərək hərbi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı inkişaf etdirmiş və regionda fəal aktora çevrilmişdir. Bu prosesdə Türkiyənin geosiyasi çəkisi Qərbi Asiyadan Qafqaza doğru genişləndirdi.

Qarabağ zəfərindən sonrakı dövrdə Türkiyə ilə Rusiya arasındakı münasibətlər Azərbaycanın xarici siyasət prioritetlərində həlledici rol oynayır. Azərbaycan Türkiyə ilə strateji tərəfdaşlığını gücləndirir və Rusiya ilə balanslaşdırılmış münasibətləri inkişaf etdirir. Bu vəziyyət Azərbaycana nəinki regional, həm də qlobal miqyasda daha müstəqil, səmərəli və praqmatik xarici siyasət aparmağa imkan verir.

Gələcək dövrdə də Azərbaycanın xarici siyasət prioritetlərində Türkiyə və Rusiya ilə olan münasibətləri önəmli yer tutacaq. Türkiyə ilə olan tarixi dostluq və qardaşlıq münasibətlərini həm xalqlarımız arasında həmdə siyasi munasibətlər konteksində yüksələn xətt üzrə inkişaf etdirilməsi vacib hədəflərdən biri olacaqdır. Rusiya ilə olan münasibətlərdə isə balanslaşdırılmış siyasət və ortaq hədəflər uğrunda əməkdaşlıq əlaqələri öz vacibliyi qoruyacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb: [Elektron resurs] / Prezident.az – 15 iyun 2021. URL: https://president.az/az/articles/view/52115 [23.01.2025].
2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Aİ Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi və iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə baş tutan görüşünə dair məlumatı: [Elektron resurs] / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi – 7 aprel 2022. URL: https://mfa.gov.az/az/news/no16422 [23.01.2025].
3. Azərbaycan-Rusiya diplomatik münasibətləri: [Elektron resurs] / Prezident kitabxanası– URL: https://files.preslib.az/projects/azerrus/a1.pdf [23.01.2025].
4. Müharibə zamanı mülki şəxslərin müdafiəsi ilə bağlı Konvensiya (IV) // 12 avqust 1949 – Cenevrə: Beynəlxalq Qızıl Xaç Komitəsi, – 231s.
5. Yukarı Karabağ'da 44 günde gelen zafer: Türkiye-Azerbaycan kardeşliğinin nişanesi // – İstanbul: Prezident Administrasiyasının İctimaiyyətlə Əlaqələr İdarəsi nəşriyyatı, 2021.

РАУФ ГУРБАНОВ
Докторант Бакинского Государственного Университета

ВЛИЯНИЕ ОТНОШЕНИЙ ТУРЦИИ И РОССИИ НА ПРИОРИТЕТЫ ВНЕШНЕЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА ПОСЛЕ ПОБЕДЫ В КАРАБАХЕ

Важно определить основные приоритеты внешней политики Азербайджанской Республики, чтобы успех, достигнутый после второй Карабахской войны, был постоянным и устойчивым. Особое значение во внешней политике Азербайджана имеют роль и влияние Российской Федерации и Турецкой Республики, которые являются давними игроками в регионе Южного Кавказа. Россия присутствовала в этом регионе на протяжении всей истории и принимала активное участие в происходящих процессах. Во время Второй карабахской войны моральная поддержка Турции Азербайджану и достигнутые ею успехи значительно увеличили ее влияние в регионе и сделали ее страной, имеющей право голоса в регионе. Это событие также привело к усилению влияния Турции в мировой сфере. В статье исследуются упомянутые аспекты внешней политики Азербайджана после победы в Карабахе.

Ключевые слова: Азербайджанская Республика, Турецкая Республика, Российская Федерация, внешняя политика, победа в Карабахе.

RAUF GURBANOV
PhD student at Baku State University

IMPACT OF TURKEY AND RUSSIAN RELATIONS ON AZERBAIJAN'S FOREIGN POLICY PRIORITIES AFTER THE VICTORY OF KARABAGH

It is important to determine the main priorities of the foreign policy of the Republic of Azerbaijan in order for the success achieved after the second Karabakh war to be permanent and sustainable. The role and influence of the Russian Federation and the Republic of Turkey, which are ancient actors in the South Caucasus region, in Azerbaijan's foreign policy is of particular importance. Russia has been present in this region throughout history and closely participated in the ongoing processes. In the Second Karabakh War, Turkey's moral support to Azerbaijan and the success it achieved greatly increased its influence in the region and made it a country that has a say in the region. This event has also led to the increase of Turkey's influence in the global sphere. The mentioned aspects of Azerbaijan's foreign policy after the Karabakh victory are studied in the article.

Keywords: Republic of Azerbaijan, Republic of Turkey, Russian Federation, foreign policy, Karabakh victory.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 23 yanvar 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Kəmalə Nəcəfova, t.e.d. İbrahim Zeynalov.

UOT 32:93/94

KÖNÜL QASIMOVA
Azərbaycan Respublikası Prezidenti Yanında
Dövlət İdarəçilik Akademiyasının doktorantı
gasimovakonulz@gmail.com

TÜRKİYƏ VƏ AZƏRBAYCANIN CƏNUBİ QAFQAZDA REGİONAL TƏHLÜKƏSİZLİK SİYASƏTİNDƏ ENERJİ AMİLİ

DOI: https://doi.org/10.36719/2708-065X/108/128-133

Cənubi Qafqazda regional təhlükəsizliyə təsir edən əsas amil 2020-ci ilin payızında Azərbaycan və Ermənistan arasında hərbi əməliyyatların aktiv hala gəlməsi ilə yenidən beynəlxalq aləmin gündəminə gəlmişdir. Bu hadisələr regionda qüvvələr balansını dəyişdi. Türkiyə tərəfinin siyasi və hərbi dəstəyinə arxalanan Azərbaycanın öz tarixi torpaqlarının qaytarması ilə nəticələndi. 2020-ci ilin payızında baş verən hadisələr Ermənistana mənfi təsir göstərərək daxili siyasi mübarizəni gücləndirdi. Türkiyə öz mövqeyini regionda gücləndirdi. Ankaranın bölgədəki siyasətçiləri geosiyasi problemləri həll etmək və Cənubi Qafqaz ölkələrində iqtisadi maraqlarını təşviq etməklə yanaşı, Azərbaycana təsirini artırmaq da daxil olmaqla, enerji mövcudluğunu genişləndirmək məqsədi daşıyırdı. "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçirilməsi Türkiyəni Cənubi Qafqazda enerji sektorunda əsas "oyunçu"ya çevirmişdir. Ankara Avropaya qaz tədarükünə təsir etmək imkanı qazandı, eyni zamanda Azərbaycanın qaz axınının "açarını" öz əlinə almış olurdu. Bununla da gələcəkdə Türkiyə Xəzərin şərq sahillərindəki karbohidrogen ehtiyatlarına, xüsusən də Türkmənistan qazına çıxış əldə etmək istəyirdi. Ümumiyyətlə, Türkiyənin Cənubi Qafqazda sülh və sabitlik yaratmaq siyasəti enerji dəhlizinin şərq-qərb istiqamətində inkişafına öz təsirini göstərmişdi. Buna üçlü Türkiyə-Azərbaycan-Gürcüstan birliyi Ankaranın bu siyasətinə müəyyən dərəcədə kömək etdi. Bu, Ankaraya Cənubi Qafqazda mövcudluğunu əhəmiyyətli dərəcədə genişləndirməyə, Azərbaycan və Gürcüstanın siyasi və iqtisadi inkişafına təsir göstərməyə imkan verdi. Bununla da Ankaranın siyasəti regional təhlükəsizliyə mənfi təsir göstərərək, regiondankənar aktorlar arasında Cənubi Qafqazda təsir rəqabətini artırdı.

Açar sözlər: Cənubi Qafqaz, Rusiya, Türkiyə, boru kəmərləri, Azərbaycan, Ermənistan.

Giriş. Cənubi Qafqaz geosiyasi maraqların bir-birinə qarışdığı region olaraq dünya siyasi gündəmində aktual olaraq qalmaqda idi. Cənubi Qafqazın inkişafında enerji amili böyük rol oynayır. Bu, ilk növbədə, karbohidrogen xammalının hasilatı və xarici bazarlara çıxarılması məsələləri ilə bağlıdır. Azərbaycanın bunda böyük rolu var. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi qərb istiqamətində Xəzərin karbohidrogen ehtiyatlarına çıxışı təmin edən yeni enerji dəhlizinin həyata keçirilməsi istiqamətində ilk addım idi. Qərb dövlətləri və neft-qaz şirkətləri bu strategiyanın həyata keçirilməsində böyük rol oynamış, Azərbaycanın bu istiqamətdə apardığı siyasəti dəstəkləmişdilər. Gürcüstan Azərbaycanın enerji siyasətinin həyata keçirilməsində böyük rol oynayıb və bu siyasət yeni boru kəmərləri layihələrində mühüm həlqə rolunu oynamışdır. Gürcüstanın ixrac boru kəmərlərinə dəstəyi Qərb ölkələri, ilk növbədə ABŞ və Aİ ilə əməkdaşlığın genişləndirilməsinə yönəlmiş xarici siyasətin tərkib hissəsi kimi həyata keçirilib. Bu siyasət Gürcüstana ölkəyə əlavə investisiya cəlb etməyə imkan vermişdi [8, 38]. Ermənistan isə boru kəməri layihələrindən kənarda qaldı. Azərbaycanla münaqişə Ermənistan tərəfinin yeni boru kəməri layihələrinə qoşulmasına imkan vermədi. Bu işdə Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlı olan, Azərbaycan neftini və qazını almağa ümid edən Türkiyə öz təsirini göstərdi [5, 76]. Nəticədə Azərbaycan Türkiyənin dəstəyi və Gürcüstanın iştirakı ilə Cənubi Qafqazda boru xətti siyasətini həyata keçirdi. Lakin boru kəməri layihələrinin həyata keçirilməsi Cənubi Qafqazda geosiyasi vəziyyətin normallaşmasına kömək etmədi. Regional əməkdaşlığın genişlənməsinə və ölkələr arasında münasibətlərin normallaşmasına Ermənistan-Azərbaycan münaqişəsi mane olurdu.

Azərbaycanın enerji siyasəti. Müstəqillik qazandıqdan sonra Azərbaycan qarşısında milli maraqları rəhbər tutaraq enerji siyasətini formalaşdırmaq və sonra həyata keçirmək vəzifəsi dayanırdı

[3]. Bu məqsədlə 1992-ci ilin sentyabrında ölkədə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) yaradılmışdır. Ölkənin karbohidrogen ehtiyatlarının işlənilməsi və sonradan xarici bazarlara çıxarılması üçün planlar hazırlanırdı. Qarşıya qoyulan məqsədlərə çatmaqda Qərbin iri neft şirkətləri ilə əməkdaşlığa xüsusi diqqət yetirildi. Bakı öz enerji siyasətini həyata keçirmək kontekstində Dağlıq Qarabağ münaqişəsinin həllinə, ölkədə sosial vəziyyəti yaxşılaşdırmağa və ümumilikdə Cənubi Qafqazda mövqelərini möhkəmləndirməyə ümid edirdi.

Xəzər dənizinin Azərbaycan hissəsində olan karbohidrogen ehtiyatlarının işlənməsinə dair Qərb şirkətləri ilə danışıqlar və ilk müqavilələrin imzalanması bir neçə il davam etdi. Buna Azərbaycanda ağır daxili siyasi vəziyyət və Ermənistanla münaqişə öz təsirini göstərdi. Lakin 1994-cü il sentyabrın 20-də Azərbaycan xarici neft şirkətləri ilə üç neft yatağının - "Azəri", "Çıraq" və "Günəşli"nin birgə işlənməsi haqqında müqavilə imzaladı. "Əsrin müqaviləsi" adlandırılan saziş ölkənin sonrakı inkişafını, o cümlədən enerji sektorunu müəyyənləşdirdi. Lakin imzalanmış saziş Azərbaycanla xarici neft-qaz şirkətləri arasında bağlanmış digər sazişlər kimi rəsmi Bakının regiondakı geosiyasi vəziyyətə dərhal müsbət təsir göstərməmişdir. Yeni boru kəməri layihələri fəal müzakirə olunsada, bəzi məsələlər səbəbindən onların həyata keçirilmə vaxtı qeyri-müəyyən olaraq qalmaqda idi. Bundan əlavə, karbohidrogen ehtiyatlarının gələcək həcmlərinin Türkiyəyə və ya Rusiya ərazisi vasitəsilə ixracı istiqamətləri müzakirələr davam etməkdə idi. Yeni kəmər layihələrinin həyata keçirilməsi üçün dəqiq müddətin olmaması Azərbaycan neftinin Bakı-Novorossiysk neft kəməri ilə nəqlinə dair Rusiya ilə müqavilənin imzalanmasına səbəb oldu [11, 22-23]. Sənəd 1996-cı ilin yanvarında imzalandı. Qərb ölkələri isə Gürcüstan ərazisindən keçməklə Türkiyə ilə neftin təhlükəsiz nəqlini istəyirdilər. Nəticədə 1996-cı ilin martında Gürcüstan və Azərbaycan arasında Azərbaycan neftinin Bakı-Tbilisi-Supsa kəməri ilə nəqli haqqında saziş imzalandı. 1999-cu ildə istifadəyə verilmişdir.

Azərbaycanın Qərb şirkətləri ilə apardığı danışıqların və Rusiya ilə Qərb arasında rəqabətin əsas nəticəsi neft və qazın qərbə ixracı ilə bağlı yekun qərarın qəbul edilməsi oldu. Bu saziş çərçivəsində Azərbaycan Türkiyə və Gürcüstanla Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin tikintisinə dair 1999-cu ilin noyabrında hökumətlərarası saziş imzalandı. Xəttin tikintisinə isə 2003-cü ilin aprelində başlanılmışdır. Neft kəməri 2006-cı ilin iyulunda istismara verildi. BTC-nin gücü ildə 50 milyon tondur. Bununla belə, son illərdə onun vasitəsilə 30 milyon tona yaxın neft ixrac edilmişdir (2016-cı ildə - 28,8 milyon ton Azərbaycan nefti, 2019-cu ildə - 31,1 milyon ton neft, o cümlədən 4,4 milyon ton tranzit neft) [1]. Neft kəmərindən kifayət qədər istifadə edilməməsi son illər Azərbaycanda neft hasilatının azalması ilə əlaqələndirilir. 2017-ci ildə neft hasilatı 39,2 milyon ton təşkil edib ki, bu da 2016-cı illə müqayisədə 5,2% azdır. 2020-ci ildə istehsal 34,5 milyon ton təşkil etmişdir [9]. Bu tendensiya bir sıra amillərin təsiri ilə əlaqələndirmək mümkündür.

Azərbaycanda neft hasilatının azalması ilə yanaşı, qaz hasilatı da artmaqda idi. Belə ki, 1999-cu ildə "Şahdəniz" yatağında böyük ehtiyatlar aşkar edildikdən sonra qaz hasilatı artıb. Bu amil Azərbaycan və Türkiyəni Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsini həyata keçirməyə sövq edirdi. Onun tikintisinə 2002-ci ildə başlamışdır. Qaz kəməri 2007-ci ildə istifadəyə verilmişdir. 2017-ci ilə qədər qaz kəməri ilə ildə 5-6 milyard m3 qaz ixrac edilirdi. Azərbaycana öz ehtiyatlarını qərb istiqamətində Rusiyadan yan keçməklə təmin etmək imkanı verən neft və qaz kəmərlərinin reallaşdırılması onun Cənubi Qafqazda geosiyasi mövqeyini gücləndirdi. Bununla Azərbaycan iqtisadi səmərə ilə yanaşı, sosial-iqtisadi problemləri də həll etmək imkanı əldə etdi. Neft və qazın satışından vəsaitlərin ölkəyə daxil olması iqtisadiyyatı da möhkəmləndirirdi.

Türkiyənin Cənubi Qafqaz siyasətində enerji amili. SSRİ-nin dağılmasından sonra Türkiyə Cənubi Qafqazda mövqelərini möhkəmləndirməyə çalışdı. Türkiyənin Cənubi Qafqaz siyasəti Xəzərdəki neft və qaz yataqlarına çıxış əldə etməyə yönəlmişdi. Məhz Türkiyə köməkliyi ilə Azərbaycan, Xəzərin karbohidrogen ehtiyatlarının ölkə ərazisindən xarici bazarlara çıxarılmasını təmin etməli olan boru kəməri layihələrinin təşəbbüskarı olmuşdur. Türkiyədə Azərbaycandan neft tədarükü və Qazaxıstanın resurslarına çıxış əldə etmək uzunmüddətli problemlərin həlli kimi qəbul edilirdi. Bundan başqa, Türkiyə Azərbaycan və Qazaxıstan neftinin bir boru kəmərində birləşdirilmənə çalışırdı ki, BTC lahiyəsi ilə demək olar ki, buna nail ola bilmişdir [6]. 1995-ci ildə "Qazaxıstan və Türkiyə arasında əməkdaşlığın gələcək inkişafı və dərinləşdirilməsi haqqında" birgə Bəyannamə imzalamışdılar. Bəyannamədə hər iki tərəf Xəzər regionundakı karbohidrogen ehtiyatlarının təhlükəsiz şə-

kildə Türkiyə ərazisindən Aralıq dənizinə boru kəmərinin tikintisinin texniki, maliyyə və digər aspektləri üzrə əməkdaşlığı davam etdirmələrini öhdələrinə götürmüşdülər [10, 101]. Lakin Qazaxıstan bu öhdəsinə götürdüyü məsələləri tam həll edə bilməmişdi. Türkiyənin isə 90-cı illərdə bu vəzifələri həyata keçirməyə imkan verəcək resursları yox idi. Nəticədə 90-cı illərdə Türkiyə Azərbaycanla əməkdaşlığı ardıcıl olaraq inkişaf etdirməklə öz istəklərinə müəyyən qədər də olsa nil ola bilmişdir. Ona görə də Türkiyə əlverişli coğrafi mövqeyə malik olan Gürcüstanla öz mövqelərini möhkəmləndirməyə çalışırdı. Gürcüstanın tranzit dövlət kimi rolu - bu amillər Ankaranı cəlb edirdi. Hazırda Türkiyə bu Cənubi Qafqaz dövlətinin iqtisadiyyatının bir sıra sektorlarında aparıcı mövqelər tutmuşdur.

Gürcüstanın əhəmiyyətinə baxmayaraq, Türkiyənin əsas diqqəti Azərbaycanın enerji ehtiyatlarının təhlükəsiz dünya bazarlarına daşınması idi. Bu işdə Ankara Qərb dövlətlərinin dəstəyinə arxalanırdı ki, bu da Türkiyə region siyasətini reallaşdırmasına təsir göstərirdi. Qərb, Azərbaycanın enerji ehtiyatlarının Türkiyə ərazisindən ixracını prioritet hesab edərək Ankaranın regiondakı strateji roluna önəm verirdi. Nəticə etibarı ilə Türkiyənin Xəzər dənizinə doğru irəliləməsi Qafqazda Rusiya üçün "türk səddinin" formalaşması demək idi [7, 493]. Türkiyənin səyləri öz nəticəsini verdi. 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri tikildi. Bu layihənin həyata keçirilməsi ilə Xəzər neftinin ixrac edildiyi neft kəmərləri üzərində Rusiyanın monopoliyası məhv edildi və Rusiyanın Azərbaycanın neft siyasətinə təsir göstərməsinə imkan verən Bakı-Novorossiysk neft kəməri öz strateji əhəmiyyətini itirdi [3, 215].

2007-ci ilin yanvarında isə Astanada Qazaxıstan neftinin Xəzər dənizi vasitəsilə tankerlə ixracı üçün nəzərdə tutulan Qazaxıstan Xəzər neft nəqli sisteminin yaradılması layihəsi üzrə anlaşma memorandumu imzalandı. İlkin olaraq bu sistemin gücü ildə 25 milyon ton neft, daha sonra isə 38 milyon tona çatdırılması planlaşdırılırdı [2, 199-200]. Qazaxıstan və Azərbaycan arasında Bakı-Tbilisi-Ceyhan boru kəməri üçün tankerlərlə 10 milyon tonadək Qazaxıstan neftinin tədarükü haqqında da saziş də imzalanmışdı.

Bakı-Tiflis-Ərzurum qaz kəməri istifadəyə verildikdən sonra Azərbaycan xarici bazara qaz tədarükünün genişləndirilməsinin müxtəlif variantlarını nəzərdən keçirməyə başladı. Bu siyasət kontekstində Avropanın Nabukko layihəsində iştirak imkanları, həmçinin Transxəzər qaz kəmərinin inşasına başlamışdır. Lakin layihə qaz ehtiyatlarının, eləcə də tədarük olunan karbohidrogen ehtiyatlarını ala biləcək istehlakçıların çatışmazlığı ilə üzləşdiyindən həyata keçirilmədi. Buna cavab olaraq 2011-ci ildə Azərbaycan və Türkiyə ilə hissədən ibarət Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsinə dair bəyannamə imzalamışdı: Trans-Anadolu boru kəməri (TANAP) və Trans -Adriatik Boru Kəməri (TAP). TANAP qaz kəməri layihəsi qaz mənbələrinin şaxələndirilməsi siyasətini Aİ tərəfindəndə dəstək aldı.

Eyni zamanda, Azərbaycan Aİ-nin layihəni həyata keçirməsini gözləməyərək, Türkiyə ilə birlikdə yeni boru kəməri infrastrukturunu reallaşdırmağa çalışmışdır. Bu ikitərəfli danışıqların nəticəsi olaraq 2012-ci ildə Azərbaycan və Türkiyə Trans-Anadolu Boru Kəmərinin tikintisinə dair saziş imzaladı. Fikrimizcə Türkiyənin Xəzərin karbohidrogen ehtiyatlarına diqqətini artırması bir sıra amillərlə müəyyən edilə bilər. İlk növbədə Türkiyə adı çəkilən boru xətlərini reallaşdırmaqla özünün enerji ehtiyatlarını ödəmişdir. İkincisi Türkiyə Xəzər dənizində mövcudluğunu genişləndirməklə Yaxın Şərqdən gələn enerji xətlərini də birləşdirərək "mərkəz" ölkə olmaq niyyətindədir [4, 39]. Buna uyğun olaraq, Cənub Qaz Dəhlizi Türkiyə üçün böyük maraq kəsb edirdi. Sonrakı illərdə layihə Qərbin siyasi dəstəyi ilə Azərbaycan və Türkiyə tərəfindən ardıcıl olaraq həyata keçirildi. 2016-cı ildə Avropa Komissiyası Trans-Adriatik Boru Kəmərinin (TAP) tikintisinə başlanılmışdır. 2018-ci ilin may ayında Trans Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) istifadəyə verilmişdi. Gürcüstan-Türkiyə sərhədindən başlayan TANAP lahiyəsi Türkiyənin qərb sərhəddində sona çatır. 2020-ci ilin sonunda TAP layihəsi başa çatdı. Boru kəməri Yunanıstan, Albaniya ərazisindən, oradan Adriatik dənizinin dibi ilə keçərək İtaliya ərazisinə qədər uzanırdı. Qaz kəmərinin gücü 16 milyard m3 qaz təşkil edib. Bunun 6 milyard kubmetr qaz Türkiyə, 10 milyard kubmetr qaz İtaliya, Yunanıstan və Bolqarıstan üçün nəzərdə tutulmuşdur. Cənub Qaz Dəhlizinin ümumi uzunluğu 3500 km idi. Qaz kəmərləri sisteminin doldurulma mənbəyi Xəzərin Şahdəniz yatağı olmalı idi. Trans-Adriatik Boru Kəmərinin 2020-ci ilin sonunda başa çatması ilə Cənub Qaz Dəhlizi artıq tam gücü ilə işə başlamışdır. Bununla da Azərbaycan öz qazını Avropa ölkələrinə təhlükəsiz çatdırmaq imkanı əldə etmişdi.

Türkiyə Cənub Qaz Dəhlizindən əlavə, Xəzərin qərb və şərq sahillərini birləşdirməli olan Transxəzər qaz kəməri layihəsinə də maraq göstərməkdədir. Türkiyə üçün bu layihə təkcə iqtisadi əhəmiyyət kəsb etmirdi. Ankaranın bu layihənin həyata keçirilməsinə Türkiyənin Mərkəzi Asiya ölkələrində təsir imkanlarının genişləndirilməsinə kömək etməli olan geosiyasət kimi qəbul edilirdi. Türkmənistanla Azərbaycan arasında Xəzər dənizində mübahisəli yataqla bağlı (Türkmənistanda Serdar, Azərbaycanda Kəpəz) razılaşmalar Türkiyənin mövqeyini möhkəmləndirmişdir. Beləliklə, 2021-ci ilin yanvarında iki Xəzəryanı dövlət XX əsrin 90-cı illərində başlayan mübahisəni həll etmiş olmuşdur. Əldə edilən razılaşmaya əsasən Türkmənistanın birgə layihələrdə iştirakına yol açdı və eyni zamanda, Transxəzər qaz kəməri layihəsi yenidən gündəmə gəlməsinə imkan yaratdı.

Nəticə. Hazırda Xəzərin karbohidrogen ehtiyatları Cənubi Qafqazdakı vəziyyətə əhəmiyyətli dərəcədə təsir etməkdə davam edir. Türkiyə, Xəzər regionundan neft və qazın hasilatı və xarici bazara nəqlinə xüsusi diqqət yetirməkdədir. Çünki yeni enerji dəhlizinin reallaşması Türkiyəyə öz regionunda mövqelərini möhkəmlənməyə imkan vermiş olacaqdır. Nəticədə Ermənistanın enerji izolyasiyası baş vermiş olacaqdır ki, bu həm də Türkiyənin "mərkəz ölkə" olmaq istəyinə də köməklik edəcəkdir. Bir tərəfdən də Azərbaycan və Türkiyənin bu geosiyasəti siyasəti regionda gərginliyin davam etməsinə səbəb olurdu. Ona görə ki, Xəzərin karbohidrogen ehtiyatlarının xarici bazarlara daşınması ilə bağlı böyük güclərin buna qarşı çıxması regionda siyasi vəziyyəti gərginləşdirməklə yanaşı Cənubi Qafqazın inkişafına mənfi təsir göstərirdi.

ƏDƏBİYYAT

1. Chizhevsky A. Oil transportation through the Baku-Tbilisi-Ceyhan oil pipeline in January-July 2020 decreased by 11%. 2020.17 August. URL: https://neftegaz.ru/news/transport-and-storage/626270-transportirovka-nefti-po-mnp-baku-tbilisi-dzheykhan-v-yanvare-iyule-2020-g-sokratilas-na-11/ [22.01.2025].
2. Central Asia. Geopolitics and economy of the region. Institute of Strategic Assessments and Analysis (under the general editorship of V. A. Guseinov). Moscow: Red Star; 2010. 290 p.
3. Kaymarazova M.A. Caspian territories of Russia and neighboring states in new geopolitical conditions // Collection of reports of the inter-national scientific conference "Russian Neighborhood Policy". Moscow, October 12-13, 2007. Moscow: 2008; 456 p.
4. Kim Y., Blank S. The new great game of Caspian energy in 2013–14: «Turk Stream», Russia and Turkey. Journal of Balkan and Near Eastern Studies. 2015, 18(1), - 37–55.
5. Kurtov A.A. Caspian dispute: relations between Azerbaijan and Turkmenistan / Independent Azerbaijan: new guidelines: in 2 volumes. Vol.2 / Ed. EAT. Kozhokin. Moscow: Russian Institute for Strategic Studies; 2001. P.76–77.
6. Palaria A. Recklessness any game of cards. Especially in geographic. 1995. August 29. URL: https://www.kommersant.ru/doc/11429 [22.01.2025].
7. 10. Polievktov M.A. Exit to the sea // Caspian transit. T II. Compiled by and preparation by A.I. Kurkchi. Moscow: Publishing house DI-DIK Tanais; 1996. 616 p
8. Prokofiev I.V. Fuel and energy complex / Georgia: problems and development prospects: in 2 volumes. Vol. 1 / Ed. EAT. Kozhokin. Moscow: Russian Institute for Strategic Studies; 2001. P. 38–39.
9. Shevchenko A. Azerbaijan reduced oil production by 7.9 % in 2020, while gas production increased by 4.3%. 2021.19 January. URL: https://neftegaz.ru/news/dobycha/659735-azerbaydzhan-snizil-dobychu-nefti-na-7-9-v-2020-ga-dobychu-gaza-narastil-na-4-3 [22.01.2025].
10. Zhiltsov S.S., Zonn I.S., Ushkov A.M. Geopolitics of the Caspian region. Moscow: International relations; 2003. 196 p.
11. Zhiltsov S.S, Slisovskiy D.E., Shulenina N.V., Bazhanov E.P. Azerbaijan's energy policy: results, problems, prospects. Central Asia and the Caucasus. 2017:18(1): 20–24

КОНУЛЬ ГАСЫМОВА
Докторант Академии государственного управления при Президенте Азербайджанской Республики

ЭНЕРГЕТИЧЕСКИЙ ФАКТОР В РЕГИОНАЛЬНОЙ ПОЛИТИКЕ БЕЗОПАСНОСТИ ТУРЦИИ НА ЮЖНОМ КАВКАЗЕ

Основной фактор, влияющий на региональную безопасность на Южном Кавказе, вновь вышел на международную повестку дня с активизацией военных действий между Азербайджаном и Арменией осенью 2020 года. Эти события изменили баланс сил в регионе. Опираясь на политическую и военную поддержку турецкой стороны, Азербайджан вернул свои исторические земли. События, произошедшие осенью 2020 года, оказали негативное влияние на Армению и обострили внутриполитическую борьбу. Турция укрепила свои позиции в регионе. Политики Анкары в регионе преследовали цель решения геополитических задач и продвижения своих экономических интересов в странах Южного Кавказа, а также расширения своего энергетического присутствия, в том числе усиления влияния на Азербайджан. Реализация проекта «Южный газовый коридор» превратила Турцию в крупного «игрока» в энергетическом секторе на Южном Кавказе. Анкара получила возможность влиять на поставки газа в Европу, и одновременно взяла в свои руки «ключ» к потокам азербайджанского газа. Таким образом, в перспективе Турция хотела получить доступ к углеводородным ресурсам на восточном побережье Каспийского моря, особенно к туркменскому газу. В целом политика Турции по созданию мира и стабильности на Южном Кавказе оказала свое влияние на развитие энергетического коридора в направлении Восток-Запад. Трехсторонний союз Турция-Азербайджан-Грузия в определенной степени способствовал этой политике Анкары. Это позволило Анкаре значительно расширить свое присутствие на Южном Кавказе и влиять на политическое и экономическое развитие Азербайджана и Грузии. Таким образом, политика Анкары оказала негативное влияние на региональную безопасность и усилила конкуренцию за влияние на Южном Кавказе среди внерегиональных игроков.

Ключевые слова: Южный Кавказ, Россия, Турция, трубопроводы, Азербайджан, Армения.

KONUL GASİMOVA
PhD student at the Academy of Public Administration under the President of the Republic of Azerbaijan

THE ENERGY FACTOR IN TURKEY'S REGIONAL SECURITY POLICY IN THE SOUTH CAUCASUS

The main factor affecting regional security in the South Caucasus has again come to the international agenda with the activation of military operations between Azerbaijan and Armenia in the fall of 2020. These events have changed the balance of power in the region. Relying on the political and military support of the Turkish side, Azerbaijan has returned its historical lands. The events that took place in the fall of 2020 have had a negative impact on Armenia and have intensified the internal political struggle. Turkey has strengthened its position in the region. Ankara's politicians in the region aimed to solve geopolitical problems and promote its economic interests in the South Caucasus countries, as well as expand its energy presence, including increasing its influence on Azerbaijan. The implementation of the "Southern Gas Corridor" project has turned Turkey into a major "player" in the energy sector in the South Caucasus. Ankara gained the opportunity to influence gas supplies to Europe, and at the same time, it has taken the "key" to the flow of Azerbaijani gas into its hands. Thus, in the future, Turkey wanted to gain access to hydrocarbon resources on the eastern shores of the Caspian Sea, especially Turkmen gas. In general, Turkey's policy of creating peace and stability

in the South Caucasus had its impact on the development of the energy corridor in the east-west direction. The tripartite Turkey-Azerbaijan-Georgia union contributed to this policy of Ankara to a certain extent. This allowed Ankara to significantly expand its presence in the South Caucasus and influence the political and economic development of Azerbaijan and Georgia. Thus, Ankara's policy had a negative impact on regional security and increased competition for influence in the South Caucasus among extra-regional actors.

Keywords: South Caucasus, Russia, Turkey, pipelines, Azerbaijan, Armenia.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 yanvar 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Kərəm Məmmədov, t.e.d. Qabil Əliyev.

UOT 32:93/94

VƏFA İSMAYILOVA
Bakı Dövlət Universitetinin
"Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasının doktorantı
vafaismayilova@shahgroup.az

AZƏRBAYCANIN ENERJİ RESURSLARI AVROPA DÖVLƏTLƏRİ İLƏ ƏLAQƏLƏRİNDƏ MÜHÜM FAKTOR KİMİ

DOI: https://doi.org/10.36719/2708-065X/108/134-140

Azərbaycanın enerji resursları Avropa ilə əlaqələrində strateji əhəmiyyət daşıyaraq, qlobal enerji təhlükəsizliyində mühüm rol oynayır. Rusiya-Ukrayna müharibəsi nəticəsində Avropanın enerji asılılığı məsələləri yenidən gündəmə gəldi və Azərbaycan etibarlı tərəfdaş kimi ön plana çıxdı. Xüsusilə Cənub Qaz Dəhlizi, TAP və TANAP layihələri Avropanın enerji təchizatını şaxələndirərək, Rusiyadan enerji asılılığını əhəmiyyətli dərəcədə azaltmağa xidmət edir. 2023-cü ildə SOCAR-ın "Equinor" şirkətindən iştirak paylarını alması və Aİ ilə qaz təchizatının artırılması üzrə memorandum bu əməkdaşlığın strateji və uzunmüddətli perspektivlərini daha da gücləndirdi. Azərbaycanın enerji siyasəti təkcə iqtisadi deyil, həm də diplomatik alət kimi çıxış edərək, Avropa ilə siyasi-iqtisadi əlaqələri möhkəmləndirir. Rusiya maneələr yaratmağa çalışsa da, Azərbaycanın artan rolu Avropanın enerji təhlükəsizliyinə töhfə verir və beynəlxalq bazarda yeni tarazlıqlar yaradır. Beləliklə, Azərbaycanın zəngin enerji resursları və strateji layihələri Avropa ilə əlaqələrində həm regional, həm də qlobal səviyyədə dərin təsir göstərir. Bu resurslar təkcə enerji təminatını diversifikasiya etmir, həm də Azərbaycanın beynəlxalq nüfuzunu artıraraq, daha çevik və davamlı əməkdaşlıq perspektivləri yaradır.

Açar sözlər: Azərbaycan, enerji resursları, Avropa, enerji siyasəti, Rusiya-Ukrayna münaqişəsi.

Giriş. Azərbaycanın enerji resursları regionda və dünyada geosiyasi və iqtisadi əhəmiyyətini artıraraq beynəlxalq münasibətlərin mühüm tərkib hissəsinə çevrilmişdir. Xüsusilə, Rusiya-Ukrayna müharibəsi nəticəsində Avropada enerji təhlükəsizliyi məsələlərinin daha da aktuallaşması, Azərbaycanın enerji təchizatında strateji tərəfdaş kimi rolunu gücləndirmişdir. Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlığı, xüsusilə Cənub Qaz Dəhlizi, TAP və TANAP kimi layihələr vasitəsilə daha da intensivləşmiş və bu əməkdaşlıq qlobal enerji bazarındakı tarazlığın formalaşmasında mühüm təsir göstərmişdir. Bu baxımdan, Azərbaycanın enerji siyasəti yalnız iqtisadi deyil, həm də diplomatik aspektdən böyük aktuallıq kəsb edir. Bu baxımdan, tədqiqatın əsas məqsədi Azərbaycanın enerji resurslarının Avropa dövlətləri ilə münasibətlərində necə strateji bir faktor kimi çıxış etdiyini analiz etməkdir. Mövzu həm Avropa enerji təhlükəsizliyinə töhfəsi baxımından, həm də Azərbaycanın beynəlxalq arenada artan rolunu izah etmək baxımından nəzərəçarpacaq elmi dəyərə malikdir. Ədəbiyyata töhfə olaraq, bu tədqiqat enerji siyasətinin Azərbaycan-Avropa əlaqələrində oynadığı çoxşaxəli rolu daha dərin şəkildə anlamağa imkan yaradır və enerji resurslarının beynəlxalq münasibətlərdəki roluna dair mövcud müzakirələri zənginləşdirir.

Araşdırmada əsasən analitik və müqayisəli tədqiqat metodlarından istifadə edilmişdir. Tədqiqatda enerji layihələrinin statistik göstəriciləri, Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlıq çərçivələri və bu layihələrin siyasi təsirləri analiz olunmuşdur. Tədqiqatın əsas sualı belədir: Azərbaycanın enerji resursları Avropa dövlətləri ilə münasibətlərinin dərinləşməsinə necə təsir göstərir və bu, beynəlxalq enerji təhlükəsizliyində hansı rol oynayır? Bu suala cavab tapmaq üçün tədqiqatda genişhəcmli ədəbiyyat və rəsmi mənbələrdən istifadə edilmişdir.

Avropa ölkələrinin enerji ehtiyacının formalaşması xüsusiyyətləri. 2014-cü ildə Rusiyanın Ukraynaya müdaxiləsi tarixi, geosiyasi və daxili amillərin mürəkkəb qarşılıqlı təsirinin nəticəsi idi. Bu hadisə Rusiyanın Qərblə münasibətlərində yeni mərhələyə yol açdı və həm regional, həm də qlobal təhlükəsizliyə ciddi təsir göstərdi. Xüsusilə Rusiyanın Krımda atdığı addımlara qarşı Qərbin sərt iqtisadi sanksiyaları diqqət çəkir. Enerji, maliyyə və müdafiə sektorlarını hədəfə alan bu sanksiyalar Moskvanın Ukrayna siyasətini dəyişdirmək üçün təzyiq vasitəsi kimi istifadə edildi. Eyni zamanda,

münaqişənin dayandırılması üçün müxtəlif təşəbbüslər irəli sürüldü, o cümlədən 2014-cü ilin sentyabrında və 2015-ci ilin fevralında imzalanan Minsk Protokolları sülhün bərqərar olması üçün çərçivə yaratmağı hədəfləyirdi. Bu böhran NATO-Rusiya münasibətlərinə də dərin təsir göstərdi. NATO Rusiya ilə əməkdaşlığını dayandıraraq Şərqi Avropada hərbi mövcudluğunu gücləndirdi və üzv dövlətlərinin təhlükəsizliyini təmin etməyə çalışdı. Bu çərçivədə, 2017-ci ildə Çernoqoriyanın NATO-ya üzv olması alyansın strateji prioritetlərini nümayiş etdirdi. Rusiya isə NATO-nun bu addımlarını öz təhlükəsizliyinə təhdid kimi qiymətləndirdi. NATO ilə əlaqələr gərginləşdikcə, regiondakı hərbi və siyasi dinamika daha da mürəkkəbləşdi. Eyni zamanda, Avropa İttifaqı (Aİ) Rusiyaya qarşı sanksiyalar tətbiq etdi və ümumi siyasətini "seçici iştirak" prinsipi üzərində qurdu. Bu yanaşma Aİ-nin bəzi məsələlərdə, məsələn, İranın nüvə razılaşması kimi mövzularda Rusiya ilə dialoqu davam etdirməsinə imkan yaratsa da, tərəflər arasında əsasən gərgin münasibətlər hökm sürürdü. Beləliklə, Ukrayna böhranı yalnız regional deyil, həm də beynəlxalq səviyyədə strateji və siyasi əlaqələrdə dərin izlər buraxdı [7, s.391-392].

Rusiya uzun müddət Avropanın əsas enerji təchizatçılarından biri kimi çıxış edərək təbii qaz, neft və kömür tədarükündə mühüm rol oynamışdır. 2021-ci ildə Avropa İttifaqının təbii qaz tələbatının təxminən 40%-i, neftin 27%-i və kömürün 46%-i Rusiyadan təmin olunmuşdur ki, bu da qitənin enerji təminatında Rusiyadan ciddi asılılığını nümayiş etdirir [3]. Lakin Rusiya-Ukrayna müharibəsi ilə Avropanın enerji bazarlarında ciddi sarsıntılar baş vermişdir. Rusiya qaz tədarükünü məhdudlaşdırdığı üçün enerji qiymətləri kəskin artmışdır; məsələn, 2022-ci ilin yayında təbii qazın qiyməti əvvəlki illə müqayisədə üç dəfə yüksəlmişdir. Eyni zamanda, neft və elektrik enerjisinin qiymətləri də nəzərəçarpacaq dərəcədə bahalaşmışdır [3].

Enerji böhranı Avropa ölkələrini Rusiyadan asılılığı azaltmaq və alternativ enerji mənbələrinə yönəlmək məcburiyyətində qoymuşdur. 2022-ci ildə Avropa Komissiyası "REPowerEU" strategiyasını qəbul etmişdir ki, bu plan çərçivəsində 2030-cu ilə qədər təbii qaz idxalının 155 milyard kubmetrdən 100 milyard kubmetrə endirilməsi və yenilənə bilən enerji mənbələrinin istifadəsinin artırılması hədəflənmişdir. Bunun nəticəsində günəş, külək və digər alternativ enerji mənbələrinin payı 2022-ci ilin sonuna Aİ-nin ümumi enerji istehlakında 37%-ə çatmışdır [9]. Eyni zamanda, enerji səmərəliliyini artırmaq üçün müxtəlif təşəbbüslər həyata keçirilmiş, məsələn, Almaniya bu sahəyə 2 milyard avrodan çox sərmayə qoymuşdur [6].

Rusiya-Ukrayna müharibəsi yalnız enerji bazarlarında deyil, həm də siyasi və iqtisadi münasibətlərdə dəyişikliklərə səbəb olmuşdur. Rusiya təbii qazı Avropa ölkələrinə qarşı təzyiq vasitəsi kimi istifadə etmiş, nəticədə Aİ Rusiyaya qarşı sərt sanksiyalar tətbiq etmişdir. Eyni zamanda, enerji təhlükəsizliyinin təmin edilməsi məqsədilə Avropa ölkələri arasında əməkdaşlıq və dialoq gücləndirilmişdir. Bu proses Avropanın enerji müstəqilliyi istiqamətində yeni addımlar atmasına və qlobal enerji bazarında yeni tarazlıqların formalaşmasına təkan vermişdir.

Azərbaycan enerji resursları Avropanın enerji böhranına qarşı alternativ həll yolu kimi. 2023-cü ildə SOCAR, Norveçin "Equinor" şirkətinin "Azəri-Çıraq-Günəşli" (AÇG), "Qarabağ" yataqları və Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri layihələrindəki iştirak paylarını satın aldı və bu məqsədlə müvafiq sənədlər imzalandı. Əvvəllər "Equinor" AÇG-də 7,27 %, BTC-də 8,71 % və "Qarabağ" yatağında 50 % paya sahib idi, SOCAR isə müvafiq olaraq AÇG-də 25 %, BTC-də 25 % və "Qarabağ" yatağında 50 % paya malik idi. Bu satınalma ilə SOCAR, AÇG-də ümumi iştirak payını 25 %-də saxlasa da, BTC-dəki payını üçdə birdən çoxa çıxardı. Bununla yanaşı, "Equinor" enerji aktivlərini satmasına baxmayaraq, SOCAR ilə dekarbonizasiya və bərpa olunan enerji sahələrində əməkdaşlıq üçün Anlaşma Memorandumu imzaladı [10].

2023-cü ilin mühüm nailiyyətlərindən biri "Qərbi Azəri" platformasında bir milyardıncı barel neftin hasil edilməsidir. Şirkətin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə hasilat vitse-prezidenti Elxan Məmmədov bunun AÇG yataqlarında bir milyard barel sərhədini keçən ikinci platforma olduğunu və artıq ikinci milyard barelə doğru irəlilədiyini vurğulamışdır. Bu mərhələni ilk dəfə keçən platforma isə 2021-ci ilin iyul ayında bu nailiyyətə çatan "Mərkəzi Azəri" olmuşdur. "Qərbi Azəri," AÇG yatağında Xəzər dənizində fəaliyyət göstərən yeddi hasilat platformasından biridir və 1997-ci ildən bu yana çıxarılan 4,3 milyard barel neftə mühüm töhfə vermişdir [10].

Azərbaycan ilə Avropa İttifaqı və Balkan ölkələri arasındakı əlaqələr son dövrlərdə nəzərəçarpacaq dərəcədə güclənmişdir. Azərbaycanın Avropaya inteqrasiyasına təkan verən əsas mexanizmlərdən biri Avropa Qonşuluq Siyasəti, Şərq Tərəfdaşlığı Proqramı və Cənub Qaz Dəhlizidir. Bu çərçivədə Avropa İttifaqı uzun müddət sonra ümumi enerji siyasəti sahəsində əhəmiyyətli irəliləyiş əldə etmişdir. TAP və TANAP layihələri Avropanın müxtəlif bölgələrini enerji ilə təmin etməklə, enerji tədarükündə müxtəlifliyi artırır və tək mənbədən asılılığı azaldaraq qitənin enerji təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm rol oynayır [1].

Digər tərəfdən, Rusiya maneələr yaratmaqla Aİ-nin yeni mənbələrdən təbii qaz almasına mane olmağa çalışır. Bu maneələr geosiyasi sferada hadisələrin gedişindən asılı olaraq dəyişir. Bu məqamda Azərbaycan əsas ölkə rolunu oynayır və Qara dəniz ölkələrinin enerji resurslarının müxtəlifliyinin artırılmasında böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, Rusiya ilk mərhələdə mənfi şərhləri ilə Cənub Qaz Dəhlizinin reputasiyasına xələl gətirməyə çalışır. Eyni zamanda, Azərbaycan və Türkmənistanın enerji ixracı infrastrukturunun əsasını təşkil edəcək Transxəzər boru kəməri Rusiyanın maraqlarına ziddir. Rusiyanın növbəti addımları irimiqyaslı geosiyasi manevrlərlə layihənin hər hansı inkişafının qarşısını ala bilər. Lakin Azərbaycanın Cənubi Qafqazda əhəmiyyətinin artması və 2020-ci ildə TAP kəməri ilə ilk təbii qazın nəqlinə başlaması rusları çətin vəziyyətə salıb.

2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində TAP boru kəmərinin təməli qoyulmuşdur. TAP-ın istismara verilməsindən sonra Bolqarıstanın qaz tələbatının 33%-i, Yunanıstanın 20%-i və İtaliyanın 10,5%-i bu boru kəməri vasitəsilə təmin edilir. Cənub Qaz Dəhlizinin bir hissəsi olan TAP, Avropanın enerji təhlükəsizliyini artırmaq və Rusiyadan enerji asılılığını azaltmaq məqsədilə həyata keçirilmişdir. Layihənin üç əsas investoru BP İtaliyanın SNAM şirkəti və SOCAR-dır, hər biri 20% paya malikdir. ABŞ-ın Avropada enerji təhlükəsizliyi üzrə xüsusi səfiri Riçard Morninqstar Azərbaycanın ehtiyatları ilə yanaşı, regionda əlavə mənbələrin mövcud olduğunu və "Türkmənistandan qaz idxal etmək hələ də mümkündür" deyə vurğulamışdır [5].

Cənub Qaz Dəhlizi Avropa İttifaqı üçün strateji əhəmiyyətə malik olsa da, Rusiya üçün ciddi narahatlıq mənbəyidir. Məsələn, Qərbin dəstəklədiyi Nabukko layihəsinin gündəmdə olduğu dövrdə, Rusiya Qara dəniz vasitəsilə Bolqarıstana qaz nəql etməyi hədəfləyən "Cənub axını" boru kəməri layihəsini irəli sürdü. Lakin bu layihə Avropa İttifaqının rəqabət qaydalarına uyğun gəlmədiyi üçün həyata keçirilmədi. Daha sonra "Türk axını" adı ilə yeni bir boru kəməri layihəsi təklif olunsa da, bu təşəbbüs də uğursuz oldu. Rusiya, onun iştirakı olmadan həyata keçirilən qaz nəqli layihələrinə qarşı skeptik mövqedə qalır. Nəhayət, 2020-ci ilin oktyabrında Yunanıstan-Türkiyə sərhədindən başlayaraq İtaliyanın cənubunda yerləşən qəbul terminalına qədər uzanan TAP boru kəməri tamamlandı və 15 noyabr 2020-ci ildə Cənub Qaz Dəhlizinin son mərhələsi olaraq kommersiya qaz nəqlinə başlandı [8].

Üstəlik, TAP-ın işə düşməsindən il yarım sonra başlayan Rusiya-Ukrayna müharibəsi Qara dəniz regionunda enerji ticarəti və nəqli üçün mühüm tranzit marşrutuna təsir göstərir. Xüsusilə, Azərbaycan kimi enerji istehsal edən və ixrac edən ölkələr Qara dənizdən keçən enerji nəqli marşrutlarının təhlükəsizliyindən asılıdır. Avropa İttifaqının Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar bölgədəki enerji balanslarına və ticarət əlaqələrinə əhəmiyyətli dərəcədə təsir edir. Avropa İttifaqı Rusiyanın enerji resurslarından asılılığını azaltmaq və Rusiyanın siyasətinə qarşı tarazlıq yaratmaq üçün sanksiyalar tətbiq edir. Bu sanksiyalar Avropanın enerji təchizatının təhlükəsizliyini təmin etmək səylərinin bir hissəsi kimi qiymətləndirilir. Rusiyaya qarşı tətbiq edilən sanksiyalar Avropanın alternativ enerji mənbələrinə ehtiyacını artırıb. Ona görə də Avropa İttifaqının Rusiyaya qarşı sanksiyaları nəticəsində Azərbaycanın enerji ixracı və ticarət potensialı artıb. Avropa Rusiyadan enerji asılılığını azaltmaq üçün Azərbaycan kimi alternativ enerji mənbələrinə müraciət edir.

Avropa İttifaqı (Aİ) Azərbaycanla təbii qaz idxalını artırmaq məqsədilə 2027-ci ilə qədər illik idxal həcmini iki dəfə artırmağı nəzərdə tutan bir anlaşma memorandumu imzalamışdır. Memorandum çərçivəsində Aİ, Azərbaycan qazının idxalını 20 milyard kubmetrə çatdırmağı hədəfləyir. Hazırda Trans-Adriatik Boru Kəməri ilə ildə 8 milyard kubmetr qaz nəql edən Azərbaycan, bu həcmi 2027-ci ilə qədər iki dəfədən çox artıracaq. Bu təşəbbüs Avropanın təchizat təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfə verərək, Rusiya qazının tədarükündəki mümkün fasilələri kompensasiya etməyi nəzərdə tutur [2]. Bu anlaşma Avropanın şəkil 1-də göstərilmiş enerji tədarükü hədəfləri ilə uyğunluq təşkil edir.



Şəkil 1. Avropanın enerji tədarükü strategiyası

Aİ üçün enerji təchizatının şaxələndirilməsi prioritet məsələ olaraq qalır. Rusiyanın enerji təchizatını siyasi alət kimi istifadə etməsi fonunda, Aİ Azərbaycanı etibarlı və uzunmüddətli bir enerji tərəfdaşı kimi qəbul edir. 2020-ci ildən fəaliyyət göstərən Cənub Qaz Dəhlizi bu əməkdaşlığın əsas platformasıdır. Avropa liderləri Rusiya neft idxalını tədricən dayandırmağa qərar versələr də, 2021-ci ildə Aİ ehtiyaclarının 40%-ni təmin etmiş Rusiya qazına tam qadağa qoya bilməmişdir. Bu baxımdan, Azərbaycanın qaz təchizatı Aİ üçün strateji əhəmiyyət kəsb edir.

Azərbaycan Rusiya-Ukrayna münaqişəsindən sonra çətin vəziyyətə düşmüş Qazaxıstana da yardım əlini uzatdı. Qazaxıstanın magistral neft kəməri üzrə milli operatoru olan "Kaztransoil" şirkəti Aktau limanından Bakı limanı istiqamətində "Tengiz" yatağından çıxarılan neftin ixracına başlamışdır. 2023-cü il yanvar-noyabr aylarında neft tədarükü 1 milyon 238 min tona çatmışdır. Aktau limanından Qazaxıstan neftinin ixracı 3 milyon 62 min ton təşkil etmişdir ki, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 1 milyon 14 min ton və ya 50 % artım deməkdir. Qeyd etmək lazımdır ki, 2022-ci ildə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Transxəzər dəhlizi ilə neft nəqlinin artırılması barədə göstəriş vermişdir. Bu göstərişə uyğun olaraq, "KazMunayQaz" və SOCAR arasında "Tengiz" yatağından hasil edilən neftin Bakı-Tbilisi-Ceyhan kəməri vasitəsilə ildə 1,5 milyon ton nəqlini nəzərdə tutan saziş imzalanmışdır [10].

Enerji siyasəti Azərbaycan Respublikasının Avropa dövlətləri ilə münasibətlərində mühüm üstünlük kimi. II Qarabağ müharibəsindən sonra Azərbaycan ilə Avropa dövlətləri arasında enerji sahəsindəki əməkdaşlıq yeni bir mərhələyə qədəm qoymuşdur. Azərbaycanın zəngin təbii qaz ehtiyatları və mövcud boru kəməri infrastrukturu Avropa üçün strateji əhəmiyyət kəsb edir. Müharibədən sonra yaranmış geosiyasi reallıqlar Azərbaycanın enerji resurslarından daha effektiv istifadə etməsinə və regional əməkdaşlıq imkanlarını genişləndirməsinə şərait yaratdı. Xüsusilə, Cənub Qaz Dəhlizinin tam istismara verilməsi Avropa dövlətlərinin enerji təhlükəsizliyini gücləndirməklə yanaşı, Azərbaycanın Avropanın etibarlı enerji tərəfdaşı kimi mövqeyini möhkəmləndirdi. Avropa İttifaqı ilə imzalanan yeni enerji memorandumu və qaz təchizatının artırılması planları bu əməkdaşlığın uzunmüddətli perspektivlərə malik olduğunu göstərir.

II Qarabağ müharibəsindən sonra Azərbaycanın artan regional təsiri və enerji resurslarından səmərəli istifadəsi Avropa ilə əlaqələrin daha da intensivləşməsinə imkan yaratmışdır. Rusiya-Ukrayna müharibəsi fonunda Avropa dövlətləri enerji mənbələrini şaxələndirmək üçün alternativ tədarükçülərə yönəlmişdir ki, bu kontekstdə Azərbaycan etibarlı tərəfdaş kimi ön plana çıxmışdır. TAP və TANAP kimi layihələr Avropanın enerji təminatında strateji mövqe tutmuşdur. Azərbaycanın qaz təchizatı

Rusiyadan enerji asılılığını azaltmaqla yanaşı, enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində Aİ-yə mühüm dəstək verir. Bununla yanaşı, Azərbaycan enerji resursları vasitəsilə yalnız iqtisadi fayda təmin etmir, həm də siyasi dialoq və əməkdaşlıq üçün əlverişli zəmin yaradır [4].

Enerji resursları Azərbaycanın xarici siyasətində əsas vasitələrdən biri olaraq, müharibədən sonrakı dövrdə ölkənin beynəlxalq arenadakı mövqeyini daha da gücləndirmişdir. Azərbaycanın təbii qaz tədarükündəki artımı və enerji bazarındakı strateji rolu, təkcə Avropa ilə iqtisadi əlaqələri dərinləşdirmir, həm də siyasi müttəfiqlik üçün yeni imkanlar yaradır. Xüsusilə, enerji resurslarının Avropa ölkələrinə təhlükəsiz və dayanıqlı tədarükü Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərini daha da inkişaf etdirmişdir. Bu dövrdə Azərbaycan həm də "yaşıl enerji" layihələrinə maraq göstərərək, Avropa ilə enerji əməkdaşlığını daha geniş miqyasda davam etdirməyi hədəfləyir. Beləliklə, II Qarabağ müharibəsindən sonra enerji resursları Azərbaycanın beynəlxalq mövqeyini gücləndirmək üçün mühüm vasitəyə çevrilmişdir.

Nəticə. Beləliklə, tədqiqatımızın nəticəsi olaraq deyə bilərik ki, Rusiya-Ukrayna müharibəsi Avropanın enerji təhlükəsizliyini təhdid edərək, bu məsələnin strateji əhəmiyyətini yenidən gündəmə gətirmişdir. Münaqişə nəticəsində Avropa ölkələri enerji siyasətlərini dəyişdirmək, təchizat şaxələndirilməsinə üstünlük vermək və yenilənə bilən enerji mənbələrinə daha çox sərmayə yatırmaq məcburiyyətində qalmışdır. Bu proses uzunmüddətli perspektivdə Avropanın enerji müstəqilliyini artırmağa və qlobal enerji bazarındakı tarazlığın bərqərar olunmasına yönəlmiş strateji bir addım kimi qiymətləndirilir. Mövcud vəziyyət Avropanın daha çevik və davamlı enerji strategiyaları tətbiq etmək zərurətini ön plana çıxarmışdır. Bu kontekstdə, Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayaraq, strateji tərəfdaş kimi mövqeyini daha da gücləndirmişdir. Azərbaycanın zəngin enerji resursları və Cənub Qaz Dəhlizi, TAP və TANAP layihələri vasitəsilə təbii qazı Qərbə təhlükəsiz şəkildə nəql edilməsi Avropanın Rusiya enerjisindən asılılığını əhəmiyyətli dərəcədə azaltmağa xidmət edir. Bununla yanaşı, Azərbaycanın enerji siyasəti yalnız tədarükçü kimi deyil, həm də qlobal enerji bazarında tarazlıq yaratmaq və Avropa ilə siyasi-iqtisadi əməkdaşlığı gücləndirmək üçün bir vasitə kimi çıxış edir.

Azərbaycanın enerji siyasəti onun beynəlxalq nüfuzunu artırmaqla yanaşı, "yaşıl enerji" sektoruna yönəlməklə daha da genişləndirilməlidir. Dünya miqyasında enerji resurslarından istifadənin ekoloji nəticələrinə artan diqqət Azərbaycanın gələcəkdə bərpa olunan enerji mənbələrinə üstünlük verməsini zəruri edir. Xüsusilə, Kəlbəcər və Laçın kimi regionların su və külək enerjisi potensialı Avropaya əlavə təbii resurslar təklif edə bilər və bu sahədə əməkdaşlıq üçün yeni imkanlar yarada bilər. Eyni zamanda, Azərbaycan enerji resurslarının tədarükündə yalnız iqtisadi deyil, həm də diplomatik alət kimi hərəkət edə bilər. Avropanın enerji tələbatının ödənilməsi ilə yanaşı, enerji siyasəti vasitəsilə regional münaqişələrin həllində də daha fəal rol oynamaq mümkündür. Bu, Azərbaycanın həm regionda, həm də qlobal miqyasda daha güclü mövqeyə sahib olmasına töhfə verəcək və Avropa ilə daha dərin strateji əməkdaşlıq perspektivlərini gücləndirəcəkdir.

ƏDƏBİYYAT

1. Amerikanın Səsi Bakı Bürosu. TAP layihəsi: Avropanın enerji təhlükəsizliyinə təsirlər. URL: https://www.amerikaninsesi.org/a/tap-layihesi/3345986.html [10.02.2025].
2. EU signs deal to double gas imports from Azerbaijan by 2027. euractiv. URL: https://www.euractiv.com/section/energy/news/eu-signs-deal-to-double-gas-imports-from-azerbaijan-by-2027/ [10.02.2025].
3. Fuelling change: Europe's battle against Russian fossil fuels. URL: https://shorturl.at/G8ZyG [10.02.2025].
4. Jahangirli, J. and Jabarov, J. The Significance of Zangezur Corridor for Global Powers in The Complex Geopolitical Conjuncture. "Beynəlxalq nəqliyyat-logistika dəhlizləri: Zəngilandan inkişaf impulsları" III Beynəlxalq elmi-praktiki konfrans. Bakı. 2024. s.383-392.
5. Kaya, N.E. Turkey to benefit from many gas supplies and best prices, Anadolu Haber Ajansı, 05.03.2019. URL: https://www.aa.com.tr/en/economy/turkey-to-benefit-from-many-gas-supplies-best-prices-/1409431 [10.02.2025].

6. McGovan, J. Germany sets binding 2030 target for energy consumption reduction. URL: https://www.cleanenergywire.org/news/germany-sets-binding-2030-target-energy-consumption-reduction [10.02.2025].
7 Stent, A. Putin's World: Russia Against the West and with the Rest. New York: Twelve Press, 2019. 448 pages.
8 TAP layihəsi işə düşdü. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi. URL: https://aircenter.az/az/single/tap-layihesi-ise-dusdu-521 [10.02.2025].
9 WWF. REPowerEU: A good plan marred by a few really bad ideas. URL: https://www.wwf.eu/?6622916/REPowerEU-A-good-plan-marred-by-a-few-really-bad-ideas [10.02.2025].
10. Zeynallı, O. Azerbaycan enerji politikaları petrol ve petrol dışı sektör ekonomik analiz. İstanbul: İstanbul Üniversitesi, 2023. 146 s.

ВАФА ИСМАИЛОВА
Докторант кафедры «Дипломатия и современные интеграционные процессы» Бакинского государственного университета

ЭНЕРГЕТИЧЕСКИЕ РЕСУРСЫ АЗЕРБАЙДЖАНА КАК ВАЖНЫЙ ФАКТОР В ОТНОШЕНИЯХ С ЕВРОПЕЙСКИМИ ГОСУДАРСТВАМИ

Энергетические ресурсы Азербайджана имеют стратегическое значение в его отношениях с Европой, играя важную роль в глобальной энергетической безопасности. В результате войны России и Украины вопросы энергетической зависимости Европы вновь оказались в центре внимания, и Азербайджан выступил надежным партнером. В частности, проекты Южного газового коридора, TAP и TANAP способствуют диверсификации поставок энергии в Европу, значительно снижая зависимость от российского газа. Покупка SOCAR долей компании «Equinor» в 2023 году и меморандум с ЕС об увеличении поставок газа укрепили стратегические и долгосрочные перспективы этого сотрудничества. Энергетическая политика Азербайджана выступает не только экономическим, но и дипломатическим инструментом, укрепляющим политико-экономические связи с Европой. Несмотря на препятствия со стороны России, растущая роль Азербайджана способствует энергетической безопасности Европы и созданию новых балансов на международных рынках. Таким образом, богатые энергетические ресурсы и стратегические проекты Азербайджана оказывают глубокое влияние на его отношения с Европой как на региональном, так и на глобальном уровнях. Эти ресурсы не только способствуют диверсификации поставок энергии, но и повышают международный авторитет Азербайджана, создавая более гибкие и устойчивые перспективы сотрудничества.

Ключевые слова: Азербайджан, энергетические ресурсы, Европа, энергетическая политика, российско-украинский конфликт.

VAFA ISMAYILOVA
PhD candidate of the Department of Diplomacy and Modern Integration Processes of Baku State University

AZERBAIJAN'S ENERGY RESOURCES AS A KEY FACTOR IN RELATIONS WITH EUROPEAN STATES

Azerbaijan's energy resources hold strategic importance in its relations with Europe, playing a crucial role in global energy security. The Russia-Ukraine war brought Europe's energy dependency issues back into focus, positioning Azerbaijan as a reliable partner. In particular, the Southern Gas Corridor, TAP, and TANAP projects diversify Europe's energy supplies, significantly reducing depen-

dence on Russian gas. SOCAR's acquisition of Equinor's shares in 2023 and the memorandum with the EU on increasing gas supply further strengthened the strategic and long-term prospects of this cooperation. Azerbaijan's energy policy serves not only as an economic tool but also as a diplomatic instrument, enhancing political and economic ties with Europe. Despite Russia's attempts to create obstacles, Azerbaijan's growing role contributes to Europe's energy security and fosters new balances in international markets. Thus, Azerbaijan's abundant energy resources and strategic projects have a profound impact on its relations with Europe at both regional and global levels. These resources not only enable energy diversification but also enhance Azerbaijan's international standing, paving the way for more flexible and sustainable cooperation prospects.

Keywords: Azerbaijan, energy resources, Europe, energy policy, Russia-Ukraine conflict.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Kərəm Məmmədov, t.e.d. Qabil Əliyev.

UOT 321:342.3; 321.6/.8

NADİR MİRZƏLİZADƏ
Bakı Dövlət Universitetinin
Politologiya və sosiologiya kafedrasının doktorantı
nadirmirzalizade@gmail.com

SİYASİ HAKİMİYYƏTİN CƏMİYYƏT ÜZƏRİNDƏ TƏSİRİ

DOI: https://doi.org/10.36719/2708-065X/108/141-144

Siyasi hakimiyyətin cəmiyyətə təsirinin təhlili həm müasir siyasi nəzəriyyələr, həmdə praktiki idarəetmə baxımından vacibdir. Bu məqalə, siyasi hakimiyyət anlayışını, siyasi hakimiyyətin müxtəlif formalarının cəmiyyətin üzərində təsirini, cəmiyyətin idarə olunmasında müxtəlif yollardan istifadəni və insanların bu idarəetməyə münasibətini geniş aspektdən araşdırır. Xüsusilə demokratik və qeyri-demokratik hakimiyyətin cəmiyyət üzərindəki təsirlərinin oxşar və fərqli cəhətləri nəzərdən keçirilir. Müasir dövrdə siyasi hakimiyyət formalarının transformasiyası problemi və bu sahədə həyata keçirilmiş uğurlu cəhdlər hərtərəfli izah edilir. Məqalənin əsas məqsədi siyasi hakimiyyətin və onun idarəetmə metodlarının cəmiyyətdəki sabitlik, inkişafa və dəyişikliklərə necə təsir etdiyini müəyyənləşdirməkdir.

Açar sözlər: Siyasi hakimiyyət, cəmiyyət, avtoritar hakimiyyət, totalitar hakimiyyət, demokratik hakimiyyət, sabitlik problemi, idarəetmə.

Giriş. Siyasi hakimiyyət, dövlətin və ya başqa bir siyasi qurumun cəmiyyətdəki fərdlər üzərində güc tətbiq etməsi və onları idarə etməsi prosesidir. Bu güc, qanunlar və qaydalar vasitəsilə həyata keçirilir, eyni zamanda müxtəlif siyasi mexanizmlər və strukturlar tərəfindən dəstəklənir. Siyasi hakimiyyətin əsas məqsədi cəmiyyətdə nizamın təmin olunması, sosial ədalətin bərqərar edilməsi və dövlətin maraqlarının qorunmasıdır. Hakimiyyətin tətbiqi, həmçinin fərdlərin hüquqları,azadlıqları və iqtisadi imkanları ilə sıx əlaqəlidir. Siyasi hakimiyyətin iki əsas forması vardır. Legitim, yəni cəmiyyət tərəfindən qəbul edilən və ilegitim, yəni cəmiyyətin rədd etdiyi hakimiyyət [4]. Demokratiya, avtoritarizm və totalitarizm kimi müxtəlif siyasi rejimlər, hakimiyyətin həyata keçirilmə yollarını müəyyən edir. Siyasi hakimiyyətin cəmiyyətə təsiri çoxşaxəlidir. Hakimiyyətin təzyiqi altında olan cəmiyyətlərdə, xüsusilə avtoritar və totalitar rejimlərdə, fərdi azadlıqlar məhdudlaşır, sosial bərabərlik pozulur və iqtisadi inkişafın tempi azalır. Digər tərəfdən, demokratik sistemlərdə, siyasi iştirakın genişləndirilməsi və gücün bölüşdürülməsi, sosial sabitliyi və inkişafı təşviq edir [7]. Beləliklə, siyasi hakimiyyət yalnız dövlətin strukturu deyil, həm də cəmiyyətin bütün sahələrinə təsir göstərən güclü bir amildir. Siyasi hakimiyyətin düzgün idarə edilməsi, cəmiyyətin rifahı və inkişafı üçün mühüm əhəmiyyət kəsb edir [6].

****

Siyasi hakimiyyət cəmiyyətdəki güc və idarəetmə strukturlarını müəyyən edən əsas faktordur. Dövlətin hakimiyyəti, cəmiyyətin iqtisadi, sosial, hüquqi və mədəni həyatını formalaşdırır, bəzən isə bu təsir cəmiyyətin bütün sahələrini əhatə edir [5]. Siyasi hakimiyyətin formaları müxtəlifdir və hər birinin cəmiyyətə təsiri fərqlidir. Siyasi hakimiyyətin cəmiyyətə təsiri, onun necə qurulmasından və idarə edilməsindən asılıdır [1]. Bu təsirlərin öyrənilməsi, hakimiyyətin idarəetmə mexanizmlərinin və cəmiyyətə necə təsir etdiyinin daha yaxşı anlaşılmasına kömək edir. Siyasi hakimiyyətin cəmiyyətə təsiri, bir çox faktordan asılı olaraq müxtəlif ola bilər. Bunlar arasında siyasi rejim, hakimiyyətin mərkəzləşdirilməsi və ya paylanması, idarəetmə formaları və vətəndaşların dövlətə münasibəti xüsusi yer tutur.

Demokratik hakimiyyətin cəmiyyətə təsiri. Demokratiya, bir dövlətin və cəmiyyətin idarə edilməsində xalqın iradəsinin əsas rol oynadığı idarəetmə formasını təsvir edir. Demokratiyanın ən əhəmiyyətli xüsusiyyətlərindən biri, vətəndaşların siyasi qərarlara təsir etmək hüququnun olmasıdır. Bu, yalnız səsvermə hüququ ilə deyil, həm də müxtəlif siyasi partiyaların və vətəndaş cəmiyyətinin təsir göstərməsi ilə həyata keçirilir. Demokratik sistemlərdə siyasi hakimiyyət xalqın iradəsinə əsaslanır. Siyasi hakimiyyətin cəmiyyət üzərindəki təsiri, əsasən insanların hüquqlarını və azadlıqlarını təmin

etmək üzərində cəmlənir. Bu cür hakimiyyət formaları cəmiyyətdə daha çox siyasi iştirak, hüquq və azadlıqların qorunması, eyni zamanda sosial və iqtisadi inkişaf üçün şərait yaradır. Demokratik hakimiyyətin əsas xüsusiyyətləri, gücün bölüşdürülməsi, müxalifətin mövcudluğu, siyasi rəqabət və vətəndaşların öz seçimini sərbəst şəkildə edə bilməsi kimi amillərdir [7]. Burada güc, xalq tərəfindən seçilən nümayəndələr vasitəsilə həyata keçirilir və dövlətin bütün strukturları seçkilərlə müəyyən olunur. Bu sistemlərdə cəmiyyətin fərqli təbəqələri müxtəlif münaqişə və maraq sahələrinə sahibdir, lakin hüquqi sistem və hüquq dövlətinin təmin etdiyi təhlükəsizlik mühitində sosial sabitlik yaranır.

Demokratik hakimiyyətin cəmiyyətdə yaratdığı təsirlərdən biri, vətəndaşların dövlətin idarə olunmasında fəal iştirak etməsidir. İctimai müzakirələr, seçkilər, vətəndaş cəmiyyəti institutlarının güclənməsi və insan hüquqlarına hörmətin artırılması demokratik cəmiyyətin əsas göstəriciləridir [7]. Demokratik hakimiyyətin cəmiyyətə müsbət təsir etməsi, ümumilikdə, inkişafın və sosial rifahın artırılmasına gətirib çıxarır. Məsələn, demokratik sistemlərdə daha çox resurs təhsilə və səhiyyəyə ayrılır, sosial proqramlar və iqtisadi islahatlar həyata keçirilir ki, bu da cəmiyyətdəki gəlir bərabərsizliyini azaltmağa və cəmiyyətin ümumi inkişafına xidmət edir. Bununla yanaşı, hər hansı bir demokratik sistemdə sosial ədalət, azadlıq və bərabərlik təmin edildikdə, sosial münaqişələrin qarşısı alınmış olur və cəmiyyətdə siyasi sabitlik əldə edilir [2].

Avtoritar və totalitar hakimiyyətin cəmiyyətə təsiri. Avtoritar və totalitar rejimlərdə siyasi hakimiyyət, cəmiyyətin idarə olunmasında gücün mərkəzləşdirilməsinə əsaslanır [3]. Avtoritar və totalitar rejimlərdə siyasi hakimiyyət cəmiyyət üzərində ciddi nəzarət və idarəetmə tətbiq edir. Bu hakimiyyət formalarında əsas məqsəd dövlətin gücünü qorumaq və sosial nəzarəti artırmaqdır [3]. Avtoritar rejimlərdə, adətən, liderin və ya kiçik bir qrupun gücü təhlil edilir, yəni dövlətin gücü bir şəxsə və ya kiçik bir qrupa məxsusdur, hüquq və azadlıqlar isə məhdudlaşdırılır. Bu rejimlərə əsaslanan hakimiyyətdə, adətən, dövlətin və onun liderinin maraqları cəmiyyətin ümumi maraqlarından daha önəmlidir. Bu sistemlərdə, siyasi rəqabət və müxalifət fəaliyyətləri çox vaxt boğulur, vətəndaşların sərbəst siyasi fəaliyyət imkanları daralır. Bu cür hakimiyyət formaları, cəmiyyətin inkişafını tormozlaya bilər, çünki insanlar adətən öz fikirlərini ifadə etməkdən çəkinirlər, sosial bərabərlik və azadlıq isə ciddi şəkildə pozulur.

Totalitar rejimlərdə isə siyasi hakimiyyət, daha da sərt şəkildə cəmiyyətin bütün sahələrinə müdaxilə edir [3]. Hər bir fərdin həyatına müdaxilə olunur, sosial, mədəni və ideoloji sahələrdə dövlətin hakimiyyəti genişlənir. Bu cür sistemlərdə insanlar adətən qorxu altında yaşar, hər bir fəaliyyət və təfəkkür dövlətin maraqlarına uyğunlaşdırılır. Totalitar hakimiyyətlərdə azad düşüncə, bəşəri hüquqlar və fərdi azadlıqlar demək olar ki, sıfıra enir. Fərdlərin şəxsi həyatına, düşüncələrinə və davranışlarına belə ciddi müdaxilələr olur. Cəmiyyətin təfəkkürü ideoloji və siyasi olaraq idarə olunur və dövlətin verdiyi ideologiya xaricində düşünmək və ya davranmaq mümkünsüz hala gətirilir. Belə bir hakimiyyət forması cəmiyyətdə sabitliyi deyil, əksinə, sosial ədalətsizliyi və zülmü artırır [3].

Siyasi hakimiyyətin transformasiyası və cəmiyyətin inkişafı. Müasir dövrdə siyasi hakimiyyətin formaları və idarəetmə metodları getdikcə dəyişir. Bu dəyişikliklər, həm siyasi təzyiqlər, həm də cəmiyyətin dəyişən tələbləri ilə əlaqədardır. Məsələn, bəzi ölkələr avtoritar rejimdən demokratik sisteme keçmiş, bəziləri isə inkişaf etməkdə olan demokratik strukturlarda islahatlar həyata keçirmişdir [6]. Siyasi transformasiya, adətən, cəmiyyətin hüquqi və siyasi institutlarının inkişafına gətirib çıxarır. Demokratiyaya keçid, bəzən təbii və ya zorla baş vermir, əksinə uzun müddətli proses tələb edir. Avtoritar və totalitar rejimlərdən demokratiyaya keçid, həmçinin siyasi hakimiyyətin daha ədalətli və bərabər paylanması istiqamətində atılan addımlar, cəmiyyətin inkişafına mühüm təsir göstərir [6]. Bəzi ölkələrdə siyasi hakimiyyətin dəyişməsi ilə sosial, iqtisadi və mədəni sahələrdə əhəmiyyətli müsbət dəyişikliklər baş verib. Demokratik islahatlar, vətəndaşların daha sərbəst şəkildə iştirak etməsi və mülki cəmiyyətin inkişafı, inkişaf etmiş dövlətlərdə hakimiyyətin cəmiyyət üzərindəki təsirini müsbət istiqamətdə dəyişdirir.

Ancaq bəzən siyasi hakimiyyətin dəyişməsi, müəyyən müqavimətlər və qarşıdurmalarla da müşayiət olunur. Xüsusilə, avtoritar rejimlərdən demokratik sistemlərə keçid, bəzən siyasi sabitliyin pozulmasına səbəb ola bilər [2]. Bu keçid prosesində siyasi və iqtisadi quruluşun dəyişməsi, bəzən iqtisadi tənəzzülə və sosial gərginliyə səbəb olur. Lakin bu cür transformasiya, uzun müddətli dövr ərzində cəmiyyətin daha ədalətli və güclü inkişafını təmin edə bilər.

Siyasi hakimiyyətin cəmiyyətə təsiri və sabitlik problemi. Siyasi hakimiyyətin cəmiyyətə təsirini öyrənərkən sabitlik məsələsi vacibdir. Siyasi hakimiyyətin cəmiyyətə təsiri yalnız idarəetmə və güc strukturlarının cəmiyyətin müxtəlif sahələrinə təsiri ilə bağlı deyil, həm də sosial sabitliyin qorunması ilə sıx əlaqəlidir. Avtoritar və totalitar rejimlərdə sabitlik çox zaman zorla qorunur. Bu sabitlik qeyri-təbii olduğu üçün uzun müddətli inkişafı təmin etməkdə çətinliklər yaranır. İnsanların əsas hüquqları pozularkən, sosial münaqişələr və qeyri-sabitlik artar. Demokratiya isə hər nə qədər sabitliyi təmin etməyə çalışsa da, açıq və sərbəst siyasi rəqabət nəticəsində müvəqqəti qeyri-sabitlik yaşana bilər. Lakin demokratik sistemlərin əhəmiyyətli üstünlüyü odur ki, onlar sosial və siyasi problemləri qanuni yollarla həll etməyə çalışır və bu, uzun müddətdə sabitliyin bərqərar olmasına gətirib çıxarır [3]. Avtoritar və totalitar rejimlərdə hakimiyyətin cəmiyyətdəki təsiri bəzən cəmiyyətin inkişafını ləngidir, çünki bu sistemlərdə sosial narazılıq və qeyri-sabitlik artır. Demokratik sistemlər isə cəmiyyətdə müsbət sosial dəyişikliyi və inkişafı təşviq edir, çünki burada siyasi iştirak, azadlıq və hüquq bərabərliyi təmin edilir. Lakin, siyasi hakimiyyətin hər bir forması özündə müəyyən sabitlik və ya qeyri-sabitlik problemləri daşıyır. Cəmiyyətin sosial strukturunda və siyasi mühitində dəyişikliklər baş verdikcə, cəmiyyətin dəyişikliyə adaptasiyası müəyyən vaxt tələb edir. Bu zaman hakimiyyətin tətbiq etdiyi siyasətlər və islahatlar, sosial ədalət və inkişafın təmin olunmasına böyük təsir göstərir.

Nəticə. Siyasi hakimiyyətin cəmiyyət üzərindəki təsiri, həm pozitiv, həm də neqativ ola bilər. Demokratik hakimiyyətlərdə, vətəndaşların siyasi iştirak imkanları, hüquqlarının qorunması və sosial rifahın artırılması cəmiyyətin inkişafına töhfə verir. Əksinə, avtoritar və totalitar rejimlərdə, cəmiyyətin inkişafı məhdudlaşdırılır və sosial ədalətsizliklər artar. Bununla yanaşı, siyasi hakimiyyətin cəmiyyətə təsirini anlamaq, həm də inkişaf etməkdə olan ölkələrdə tətbiq ediləcək islahatların effektivliyini qiymətləndirmək üçün vacibdir. Bu məqalədə araşdırılan məsələlər, siyasi hakimiyyətin idarəetmə metodlarının və güc strukturlarının cəmiyyət üzərindəki çoxşaxəli təsirini daha dərindən anlamağa kömək edir.

ƏDƏBİYYAT

1. Friedrich Hayek. The Road to Serfdom. UK: Routledge Press, 1944, s. 87-112.
2. İsmail Erdoğan. Siyasi Sistemler ve Demokrasi. Ankara: Nobel Yayınları, 2004, s. 145-180.
3. Juan J. Linz. Totalitarian and Authoritarian Regimes. Boulder, Colorado: Lynne Rienner Publishers, 2000, s. 75-100.
4. Max Veber. Economy and Society. University of California Press, 1978, s. 53-110.
5. Michel Foucault. Discipline and Punish: The Birth of the Prison. UK: Pantheon Books, 1977, s.25-55.
6. Mümtaz Sosyal. Siyasi İdeolojiler. İstanbul: Remzi Kitabevi, 1991, s. 85-120.
7. Robert A. Dahl. Democracy and İts Critics. Yale University Press, 1989, s. 21-43.

НАДИР МИРЗАЛИЗАДЕ
Бакинский Государственный Университет
Докторант кафедры политологии и социологии

ВЛИЯНИЕ ПОЛИТИЧЕСКОЙ ВЛАСТИ НА ОБЩЕСТВО

Анализ воздействия политической власти на общество важен как с точки зрения современных политических теорий, так и практического управления. В статье рассматривается понятие политической власти, влияние различных форм политической власти на общество, использование различных методов управления обществом и отношение людей к этому управлению в широкой перспективе. В частности, рассматриваются сходства и различия между влиянием демократического и недемократического правления на общество. Всесторонне освещена проблема трансформации форм политической власти в современную эпоху и успешные попытки, предпринимаемые в этой области. Основная цель статьи - определить, как политическая власть и методы ее управления влияют на стабильность, развитие и изменения в обществе.

Ключевые слова: Политическая власть, общество, авторитарная власть, тоталитарная власть, демократическая власть, проблема стабильности, управление.

NADIR MIRZALIZADE
Baku State University
Doctoral student of the Department of Political Science and Sociology

THE IMPACT OF POLITICAL POWER ON SOCIETY

The analysis of the impact of political power on society is important both in terms of modern political theories and practical management. This article examines the concept of political power, the impact of various forms of political power on society, the use of various methods in managing society, and people's attitude to this management from a broad perspective. In particular, the similarities and differences in the impact of democratic and non-democratic power on society are considered. The problem of the transformation of forms of political power in modern times and successful attempts made in this area are explained in detail. The main purpose of the article is to determine how political power and its management methods affect stability, development and changes in society.

Keywords: Political power, society, authoritarian power, totalitarian power, democratic power, stability problem, management.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: s.ü.f.d. Mehman Həsənov, s.e.d. Adil Mirabdullayev.

UOT 32:93/94

MƏHƏBBƏT SEYİDOVA
Bakı Dövlət Universiteti
Beynəlxalq münasibətlər kafedrasının doktorantı
https://orcid.org/0009-0000-1094-8477
mahabbatseyidova78@gmail.com

BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ HƏRBİ GÜCDƏN İSTİFADƏ

DOI: https://doi.org/10.36719/2708-065X/108/145-150

Hüquq və güc arasında qarşılıqlı əlaqə problemi bütün dünya üçün aktual olaraq qalıb. Bu problemin həllindən yalnız ayrı-ayrı dövlətlərin deyil, bütün bəşəriyyətin taleyi asılıdır. Bu problem indiki "qlobal dəyişikliklər dövründə" xüsusi əhəmiyyət və aktuallıq qazanmışdır. Son illərdə baş verən sürətli dəyişikliklər ilə nəinki milli, həmçinin beynəlxalq hüquq sistemləri belə ayaqlaşa bilmirlər. Məqalədə hüququn gücü və güc hüququ arasında nisbət ilə bağlı ziddiyyətlər nəzərdən keçirilir. Beynəlxalq münasibətlərdə hərbi gücdən istifadənin qanuni olub-olmadığı məsələsi araşdırılır. Həmçinin dövlətlərarası hərbi toqquşmalar və beynəlxalq münasibətlərdə praktikada müəyyən sahələri tənzimləyən beynəlxalq hüquq mənbələrinin müqayisəli-hüquqi təhlili aparılır.

Açar sözlər: beynəlxalq münasibətlər, aqressiya, beynəlxalq sülh, BMT Nizamnaməsi, Beynəlxalq məhkəmə, hərbi gücdən istifadə, təhlükəsizlik, silahlı qüvvələr.

Giriş. Hüququn gücü və güc hüququ arasında nisbətlə bağlı ziddiyətlər beynəlxalq münasibətlərdə hərbi gücdən istifadənin qanuni olub-olmamasından ibarətdir. Bu məqsədlə dövlətlərarası hərbi toqquşmalar və beynəlxalq münasibətlərdə praktikada müəyyən sahələri tənzimləyən beynəlxalq hüquq mənbələrinin müqayisəli-hüquqi təhlilin aparılması lazımdır.

Beynəlxalq münasibətlərdə güc təhdidindən və ya gücdən istifadə dövlətlərin ümumi məcburi davranış qaydası hesab edilir. BMT Nizamnaməsini 2-si maddəsinə əsasən, hərbi güc təhdidindən və ya hərbi gücdən istifadə qanunsuz sayılır, əgər o, "hər hansı dövlətin ərazi toxunulmazlığına və ya siyasi müstəqilliyinə, habelə BMT məqsədlərinə zidd hədəflərə qarşı yönəlibsə" [1, 1]. BMT Nizamnaməsinin 39-cu maddəsinə uyğun, sülhə təhdidin, sülhün pozulması və ya təcavüz aktının olmasını BMT Təhlükəsizlik Şurası müəyyən edir, beynəlxalq sülhün və təhlükəsizliyin saxlanması və ya bərpası üçün görüləcək tədbirlər (hərbi qüvvələrdən istifadə etməklə) barədə tövsiyələrini verir və ya qərar qəbul edir. Nəticə etibarilə, beynəlxalq hüquq normaları dövlətlər tərəfindən hərbi gücün tətbiqi ilə bağlı qanuni və qanunsuz tərəflərini təyin edir. Birinci kateqoriyaya təcavüz aktı (aqressiya) aiddir. BMT Baş Assambleyasının 14 dekabr 1974-cü il tarixli 3314 saylı Qətnaməsinin preambulasında təcavüz aktı beynəlxalq münasibətlərdə "hərbi gücdən qanunsuz istifadənin ən ciddi və təhlükəli forması" kimi müəyyən edilir. Qeyd etmək lazımdır ki, bu qətnamə daha yüksək rəsmi statusa malikdir, belə ki BMT Beynəlxalq məhkəməsinin "Nikaraqua ABŞ-a qarşı" işi üzrə qəbul edilən 27 iyun 1986-cı il tarixli qərarına uyğun, 3314 saylı qətnamə beynəlxalq hüququn adi normasına çevrildi. Qətnaməyə uyğun, aqressiya dövlət və ya dövlətlər qrupu tərəfindən başqa dövlətin suverenliyi, ərazi toxunulmazlığı və ya siyasi müstəqilliyinə qarşı hərbi gücdən istifadə deməkdir [3, 103].

BMT Nizamnaməsinin normalarına uyğun (2-ci maddə) BMT TŞ müxtəlif mövcud şərtləri, o cümlədən mövcud aqressiya aktının və ya onun nəticələrinin kifayət qədər ciddi xarakterə malik olub-olmadığını nəzərə alaraq hərbi gücdən istifadə faktının hüquqi qiymətləndirməsini verə bilər. Məhz bu cür o, İraq qoşunları 1991-ci ildə Küveyti işğal etdiyi zaman hərəkət etdi. BMT TŞ İraqın hərəkətlərini aqressiya deyil, "qanunsuz müdaxilə" və Küveytin "qanunsuz işğalı" kimi səciyyələndirdi [2, 2].

Qətnamənin 3-cü maddəsinə əsasən, müharibənin elan edilməsindən asılı olmayaraq, aşağıdakı hərəkətlər aqressiya aktı kimi təsnif edilir:

a) bir dövlətin başqa dövlətin ərazisinə müdaxiləsi və ya silahlı qüvvələrinin hücumu, müvəqqəti xarakter daşımasından asılı olmayaraq istənilən hərbi işğal və hərbi gücdən istifadə etməklə başqa dövlətin anneksiyası;

b) bir dövlətin hərbi qüvvələrinin başqa dövlətin ərazisini bombardman etməsi və ya ərazisinə qarşı istənilən silahdan istifadə etməsi;

c) dövlətin liman və sahillərinin başqa dövlətin hərbi gücüylə blokadaya salınması;

d) bir dövlətin silahlı qüvvələrinin başqa dövlətin quru, dəniz və hava qüvvələrinə və ya dəniz və hərbi donanmalarına hücumu;

e) bir dövlətin ərazisində razılıq əsasında yerləşən başqa dövlətin silahlı qüvvələri tərəfindən razılığın şərtlərini pozaraq hərbi gücdən istifadə etməsi və ya razılıq müddətinin bitməsindən sonra həmin ərazidə qalmasını davam etdirməsi;

f) bir dövlətin öz ərazisindən üçüncü dövlətə qarşı aqressiya aktının törədilməsi məqsədilə başqa dövlətin istifadəsinə verilməsinə icazə verən hərəkətləri;

g) dövlətin və ya dövlətin adından başqa dövlətə qarşı hərbi gücün tətbiqi məqsədilə hərbi bandaların, qrupların və müntəzəm qüvvələrin və muzdluların göndərilməsi və onların törətdikləri hərəkətlər yuxarıda qeyd edilən hərəkətlər kimi ciddi xarakter alarsa.

Qətnamənin 4-cü maddəsində deyilir ki, aqressiya aktı kimi təsnif olunan yuxarıda qeyd edilən hərəkətlər tam deyil və BMT Təhlükəsizlik Şurası BMT Nizamnaməsinin 39-cu maddəsinə uyğun digər hərəkətləri də aqressiya aktı kimi müəyyən edə bilər. BMT Baş Assambleyasının bu qətnaməsinin şərtlərinə uyğun BMT Beynəlxalq Məhkəməsi "Nikaraqua ABŞ-a qarşı" iş üzrə qeyd etmişdir ki, "hazırda hərbi hücum hesab edilən aktların xarakteri ilə bağlı ümumi razılıq mövcuddur". BMT TŞ bu hüququndan 2001-ci il 11 senytabr hadisələri ilə bağlı 28 sentyabr 2001-ci il tarixli 1368 və 1373 saylı qətnamələrin qəbulunda istifadə etdi [3, 92-93]. Bu qətnamələrə əsasən, törədilən aqressiya aktları beynəlxalq sülhə və təhlükəsizliyiə təhdid olan irimiqyaslı terror aktları kimi təsnif edilmişdir. Mahiyyət etibarilə BMT TŞ bu aktları silahlı hücuma bərabər tuturdu və bununla da BMT Nizamnaməsində bəyan edilən "özünümüdafiə hüququnu" təsdiq edirdi. Özünümüdafiə hüququna əsaslanaraq, BMT TŞ təhlükəsizliyə dəstək və terrorizmin ləğvi məqsədilə beynəlxalq qüvvələrin yaradılmasına icazə verdi və mahiyyətcə, ABŞ-nin "Əl-Qaidə" və Əfqanıstandakı taliban rejiminə qarşı hərbi əməliyyatlar aparmaq hüququnu təsdiq etdi. Bununla da "hərbi hücum" anlayışı genişləndirildi və bura nəinki dövlət, habelə hər hansı dövlət tərəfindən dəstəklənən və başqa dövlətə qarşı yönələn beynəlxalq terror təşkilatı tərəfindən törədilən irimiqyaslı terror aktları daxil edildi.

Qeyd etmək lazımdır ki, 3-cü maddənin tələbləri silahlı hücumun müəyyən növlərinə şamil edilmir. Misal üçün, dinc yolla həll edilməsi mümkün olmayan məsələlərin həlli məqsədilə bir dövlətin başqa dövlətə müharibə elan etməsi, hətta birinci dövlətin faktiki hərbi əməliyyatlar başlamaması hüquqi nəticələr baxımdan silahlı hücuma bərabər ola bilər və ikinci dövlətə özünümüdafiə hüququndan istifadə üçün əsas verir.

Qətnamənin 5-ci maddəsində qeyd edilir ki, siyasi, iqtisadi, hərbi və başqa hallar aqressiya aktına haqq qazandıra bilməz. Təcavüzkar müharibə beynəlxalq sülh əleyhinə cinayətdir və beynəlxalq məsuliyyətə səbəb olur. Aqressiya aktı zamanı əldə edilən hər hansı ərazilər və ya maddi mənfəət qanuni hesab edilə bilməz.

BMT Baş Assambleyasının qətnamələri ilə yanaşı, hərbi güc və təhdiddən bilvasitə və bilavasitə istifadəni tənzimləyən digər hüquqi normalar mövcuddur. 1970-ci il Beynəlxalq hüququn prinsipləri haqqında bəyannamə dövlətlərin üzərinə "başqa dövlətlərin ərazisinə müdaxilə məqsədilə qeyri-müntəzəm hərbi qüvvələrin və silahlı bandaların, o cümlədən muzdluların təşkilindən və təşkilinin təşviqindən çəkinməyə" çağıran məsuliyyətlər qoyur, həmçinin hərbi gücdən istifadə və tətbiqi ilə bağlı olan "başqa dövlətin ərazisində vətəndaş müharibəsində və ya terror aktlarında iştirakdan, yardımın göstərilməsindən və öz ərazisindən bu cür aktların törədilməsi üçün istifadə etməkdən çəkinməyə" çağırır [4, 92-93].

1970-ci il Beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi barədə bəyannamə təsdiq edir ki, "dövlətin ərazisi Nizamnamənin şərtlərini pozaraq hərbi gücdən istifadə nəticəsində hərbi işğal obyekti olmamalıdır, bir dövlətin ərazisi hərbi güc və təhdiddən istifadənin köməyilə başqa dövlət tərəfindən əldə edilməməlidir, hərbi güc və təhdiddən istifadə zamanı əldə edilən hər hansı bir şey qanuni hesab edilə bilməz və hər bir dövlət başqa dövlətin ərazisində vətəndaş müharibəsi və ya terror aktlarının törədilməsində iştirakdan və ya dəstəyin göstərilməsi və ya təşkilindən çəkinməlidir" [4, 92-93].

ATƏT-in 1975-ci il Yekun aktında qeyd edilir ki, ATƏT-in üzv-dövlətləri bir-birinə qarşı "bilvasitə və ya bilavasitə hərbi gücdən istifadədən" çəkinəcəklər [5, 3].

1981-ci il "Dövlətlərin daxili işlərinə qarışmağın və müdaxilənin qəbuledilməzliyi barədə" bəyannamədə bu problemin bir sıra əhəmiyyətli kompleks tədbirləri qeyd edilib. 1987-ci il "Beynəlxalq münasibətlərdə güc təhdidindən və ya onun istifadəsindən imtina prinsipinin effektivliyinin gücləndirilməsi barədə" Bəyannamənin preambulasında qeyd edilir ki, "dövlətlər öz beynəlxalq əlaqələrində digər dövlətin siyasi müstəqilliyinə və ya ərazi töxunulmazlığına qarşı yönələn hərbi, siyasi, iqtisadi və istənilən təzyiq formasından çıkinməlidir".

BMT Baş Assambleyasının 8 dekabr 1998-ci il tarixli 53/101 saylı qətnaməsinin "Danışıqların aparılması prinsipləri və qaydaları" bölməsi dövlətlərin beynəlxalq münasibətlərdə BMT Nizamnaməsini pozaraq güc təhdidindən və ya onun istifadəsindən və istənilən dövlətin daxili işlərinə qarışmaqdan çəkinməklə bağlı öhdəliklərini təsdiq edir (I-b və I-d bəndləri) və müəyyən edir ki, "BMT Nizamnaməsində qeyd edilən beynəlxalq hüquq normalarını pozaraq güc təhdidinin və ya onun istifadəsinin nəticəsi olaraq bağlanan istənilən saziş əhəmiyyətsizdir" (I-g bəndi) [6, 1].

1994-cü ildə ATƏT-in Budapeşt sammitində təşkilatın üzv-dövlət rəhbərləri tərəfindən qəbul edilən təhlükəsizliyin hərbi-siyasi aspektləri ilə bağlı Davranış kodeksində qeyd edilir ki, "istənilən dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı, habelə BMT Nizamnaməsinə və Helsinki Yekun Aktının başlıca prinsiplərinə uyğun gəlməyən şərtlərdə güc təhdidindən və ya onun istifadəsindən imtina etməyən dövlətlərə hər hansı dəstək və ya yardım göstərilməyəcək"(III-8 bənd).

BMT Nizamnaməsinin VII bölməsi beynəlxalq hüquq subyektləri olan dövlətlərin hərbi gücdən istifadənin qanunauyğunluğu ilə bağlı halları tənzimləyir.BMT Nizamnaməsinə əsasən, dövlətlər iki halda hərbi gücdən qanuna uyğun şəkildə istifadə edə bilərlər [1, 41]:

a) BMT TŞ-nin qərarına uyğun beynəlxalq sülh və təhlükəsizliyə istənilən təhdid və pozulmasının aradan qaldırılması məqsədilə;

b) Silahlı hücum zamanı özünümüdafiə qaydası: gücdən preventiv istifadə və gücdən qabaqlayıcı istifadə.

BMT Nizamnaməsinin 39-cu maddəsinə uyğun, BMT TŞ sülhə istənilən təhdid faktı, sülhün pozulması və ya təcavüzkarlıq aktının təyin olmasından sonra hərbi gücdən istifadə ilə bağlı qərar qəbul edir. Bundan sonra BMT TŞ öz hüququndan istifadə edərək maraqlı tərəflərdən onun aradan qaldırılması ilə bağlı müvəqqəti tədbirlərin görülməsini tələb edə bilər (40-cı maddə). Qərarın icrası ilə əlaqədar BMT TŞ təşkilatın üzv-dövlətlərindən silahlı qüvvələrdən istifadə ilə bağlı olmayan tədbirlərin görülməsini tələb edə bilər, misal üçün, iqtisadi, dəmiryol, dəniz, hava, teleqraf, radio və digər əlaqə vasitələrinin, həmçinin diplomatik əlaqələrin tam və qismən kəsilməsi (m.41). BMT TŞ bu kimi tədbirlərin kifayət etmədəyinə qərar versə, beynəlxalq sülh və təhlükəsizliyin təmini məqsədilə BMT üzv-dövlətlərinin hava, dəniz və ya quru qüvvələrindən istifadə edə bilər (m.42) [1, 20].

BMT Nizamnaməsinin VIII bölməsi beynəlxalq sülhün təmini məqsədilə BMT TŞ ilə regional təşkilatlar arasındakı qarşılıqlı əlaqəni tənzimləyir. BMT Nizamnaməsinin 53-cü maddəsinin 1-ci bəndində qeyd edilir ki, BMT TŞ öz rəhbərliyi altında məcburetmə tədbirləri üçün bu cür regional sazişlərdən və təşkilatlardan istifadə edə bilər.BMT TŞ-nin ilkin razılığı olmadan regional təşkilatların müstəqil hərəkətləri regional mübahisənin həlli məqsədilə sülh təşəbbüsləri ilə məhdudlaşır (m.53 b.2) [1, 45].

Beynəlxalq münasibətlərin təkamülü prosesində BMT TŞ-nin səlahiyyətlərinə və BMT Nizamnaməsinin VIII bölməsinin qaydalarına yenidən baxılma ilə bağlı dəfələrlə fikirlər səsləndirilib. Belə ki, BMT-nin 2005-ci il sammitində BMT TŞ-nin səlahiyyətlərinin bir qisminin NATO hərbi komandanlığına verilməsi ilə bağlı təkliflər iştirakçıların böyük əksəriyyəti tərəfindən qəbul edilmədi. Sammitin yekun sənədində BMT TŞ ilə regional təşkilatlar arasında əməkdaşlığı tənzimləyən hüquqi qaydaların təkmilləşdirilməsi ilə bağlı beynəlxalq ictimaiyyətin səyləri qeyd olundu:

a) Silahlı münaqişələrin qarşısının alınması məqsədilə hakim rol regional təşkilatlara (misal üçün, NATO) deyil, BMT-yə məxsus olmalıdır;

b) Sülhməramlı əməliyyatların aparılması məqsədilə BMT-nin üzv-dövlətləri silahlı münaqişələrin aradan qaldırılması sahəsində potensial yaradır və öz qüvvələrini BMT-nin sərəncamına verir.

Özünümüdafiə məqsədilə gücdən istifadə ilə bağlı onun preventiv və qabaqlayıcı xarakter daşıyan formalarını nəzərdən keçirmək lazımdır. BMT Nizamnaməsinin 51-ci maddəsi qəbul edir ki, "BMT üzv-dövlətlərindən biri silahlı hücuma məruz qalarsa, beynəlxalq sülh və təhlükəsizliyin təmini məqsədilə BMT TŞ tərəfindən zəruri tədbirlərin görülməsinədək, fərdi və kollektiv özünümüdafiə kimi ayrılmaz hüquqa malikdir" [1, 42].

"Özünümüdafiə məqsədilə görülən tədbirlər barədə BMT üzv-dövlətləri dərhal Təhlükəsizlik Şurasına məlumat verməlidir və bunlar TŞ-nin məsuliyyətini və beynəlxalq sülh və təhlükəsizliyin saxlanması və ya bərpası üçün zəruri hesab etdiyi tədbirləri görmək səlahiyyətlərini məhdudlaşdırmır" qaydası onu təsbit edir ki, beynəlxalq ictimaiyyət hərbi münaqişəni artıq onun inkişafının ilkin mərhələsində məhdudlaşdırmaq imkanını nəzərdə tutub.Beləliklə, "özünümüdafiə hüququ" silahlı hücum nəticəsində pozulan beynəlxalq qanun və qaydanı bərpa etmək məqsədi güdür.

BMT Nizamnaməsinin 51-ci maddəsinin mahiyyətinə əsasən silahlı hücum subyekti dədiqləşdirilmir. Uzun müddət nəzərdə tutulurdu ki, silahllı hücum dövlət və ya dövlətlər qrupu tərəfindən həyata keçirilir. Bu həm də aqressiya ifadəsində də özünü göstərir.Lakin amerikalı professor M.Şmittin fikrincə, terror aktlarının sayının və miqyasının artması nəticəsində beynəlxalq ictimaiyyət terror aktlarına silahlı hücum kimi beynəlxalq sülhə təhdid kimi yanaşmağa başladı [8,21]. Bununla əlaqədar, "özünümüdafiə" anlayışının daha geniş təfsir olunması zərurəti yarandı. Misal üçün, BMT TŞ 1992-ci ildə "Pan-American" şirkətinin təyyarəsinə (Lokerbi işi, 1988-ci il) və "UTA" şirkətinin təyyarəsinə (1989-cu il) qarşı terror aktlarına cavab olaraq "bütün dövlətlərin öz vətəndaşlarını beynəlxalq sülh və təhlükəsizlik üçün təhdid olan beynəlxalq terror aktlarından qorumaq hüququnu" təsdiq etdi. BMT TŞ BMT Nizamnaməsinin 2-ci maddəsi 4-cü bəndi əsasında təsdiq etdi ki, "hər bir dövlət başqa dövlətlərdə terror aktlarının təşkilindən, onlara dəstəyin göstərilməsindən və ya onlarda iştirakdan, habelə öz ərazisində terror aktları törədən təşkilatların fəaliyyətinə yol verməkdən çəkinməlidir".

Misir prezidentinin həyatına sui-qəsd cəhdindən sonra BMT TŞ 1996-cı il tarixli 1044 saylı qətnaməsində təsdiq edir ki, "beynəlxalq terrorizm aktının qarşısının alınması beynəlxalq sülh və təhlükəsizliyin təmini üçün vacib elementdir". 1998-ci ildə ABŞ-nin Nayrobi və Dar-əs-Salam şəhərlərindəki səfirliklərində törədilmiş partlayışlar BMT TŞ tərəfindən "beynəlxalq münasibətlərə zərərli təsir göstərən və dövlətin təhlükəsizliyini təhlükə altına qoyan aktlar" qismində qınanmışdır.

XX əsrin 90-cı illərində Əfqanıstanda cərəyan edən hadisələr BMT TŞ-nin xüsusi narahatlığına səbəb olurdu. BMT TŞ dəfələrlə "Əfqanıstan ərazisindən, xüsusilə Taliban rejiminin nəzarəti altında olan rayonlardan terrorçuların gizlənməsi və təlimi və terror aktlarının planlaşdırılması məqsədilə istifadəsini" davam etdirən terror təşkilatlarını qınayırdı və bir daha təsdiq edirdi ki, beynəlxalq terrorizmin qarşısının alınması beynəlxalq sülh və təhlükəsizliyin saxlanması üçün vacibdir [7, 1].

Əfqanıstanda cərəyan edən hadisələr göstərdi ki, terror təşkilatlarının fəaliyyətindən irəli gələn sülhə təhdid regional deyil, qlobal xarakter daşıyırdı. Beləliklə, professor M.Şmitt hesab edirdi ki, "2001-ci ilin sentyabrı üçün aydın təsəvvür yaranmışdı ki, beynəlxalq terrorizm və öz ərazisindən terror fəaliyyəti üçün istifadə "sülhə təhdid" kimi təsnif edilə bilər". BMT TŞ isə bu kimi hallarda gücdən istifadə də daxil olmaqla, məcburetmə tədbirlərinin görülməsi barədə qərar qəbul etmək üçün tam hüquqa malikdir" [8, 21].

11 sentyabr 2001-ci ildə Nyu-York və Vaşinqton şəhərlərində baş vermiş terror aktlarından sonra BMT Təhlükəsizlik Şurası 1368 və 1373 saylı qətnamələrində ABŞ-nin özünümüdafiə hüququnu və Əfqanıstanda "Əl-Qaidə" və Taliban rejiminə qarşı hərbi əməliyyat aparmaq hüququnu tanıdı. Bu qərarla BMT TŞ "silahlı hücum" anlayışını daha da genişləndirdi və onu dövlət tərəfindən deyil, həm də hər hansı ölkənin hökuməti tərəfindən dəstəklənən və ya başqa bir dövlətə qarşı fəaliyyət göstərən beynəlxalq terror təşkilatı tərəfindən törədilən iri miqyaslı terror aktlarına şamil etməyə başladı.

Bundan başqa, "özünümüdafiə hüququ" anlayışı daha geniş təfsir olunmağa başladı. Başqa sözlə desək, dövlət tərəfindən özünümüdafiə məqsədilə nəinki başqa dövlətin müntəzəm silahlı qüvvələrinin silahlı hücumlarına qarşı, habelə başqa dövlətin dəstəyi və ya yardımı ilə beynəlxalq terror təşkilatı tərəfindən törədilən irimiqyaslı terror aktlarına cavab olaraq hərbi gücdən istifadə etməsi qanunidir.

Beynəlxalq məhkəmənin "Nikaraqua ABŞ-ə qarşı"işi üzrə qərarında beynəlxalq münasibətlərdə hərbi gücdən qanunsuz istifadəni "silahlı hücum" kimi təsnifləşdirməyə imkan verən və nəticə

etibarilə özünü müdafiə hüququnun yaranmasını şərtləndirən halları təyin etmək imkanı verən əlavə şərtlər qeyd edilib. Beynəlxalq məhkəmənin qərarına görə, gücdən bu cür istifadə "əhəmiyyətli miqyası" ilə fərqlənməli və "nəticələri" olmalıdır [3, 195].

Ehtimal olunur ki, Beynəlxalq məhkəmənin bu qərarı BMT Baş Assambleyasının aqressiya aktının tərifi barədə 3314 saylı qətnaməsinin 2-ci maddəsinə əsaslanır və buna əsasən, BMT TŞ "müvafiq aktların və ya nəticələrinin o qədər də ciddi xarakter daşımadığını nəzərə alaraq" aqressiya aktının törədilməməsi barədə qərar verə bilər [6, 1]. Beynəlxalq məhkəmənin qərarında təsbit olunur: "Məhkəmə hesab edir ki, "silahlı hücum" anlayışı özündə yalnız silahlı qruplaşmaların əhəmiyyətli miqyasa malik hərəkətlərini deyil, həmçinin qiyamçılara silahların və digər maddi-texniki yardımın göstərilməsi kimi köməyi də ehtiva edir. Bu cür yardıma hərbi güc və ya ondan istifadə təhdidi kimi və ya başqa dövlətlərin daxili işlərinə qarışmaq kimi baxılacaq".

Beləliklə, BMT TŞ tərəfindən qəbul edilən "silahlı hücum" və özünümüdafiə hüququ" anlayışlarının genişləndirilmiş təfsiri BMT Beynəlxalq məhkəməsinin tərifinə uyğun gəlir.

XXI əsr beynəlxalq münasibətlər praktikasında "silahlı hücum" və "özünümüdafiə hüququ" kimi anlayışlar dövlətlərin siyasi maraqları naminə geniş şəkildə təfsir edilməsi müşahidə edilməkdədir. Hər hansı konkret vəziyyətdə özünümüdafiə məqsədilə hərbi gücdən istifadənin qanuna uyğun olub-olmaması BMT TŞ tərəfindən deyil, dövlətlərin özləri tərəfindən müəyyən edilir. BMT-nin keçmiş baş katibi Kofi Annan öz məruzəsində özünümüdafiə məqsədilə gücdən dolayı və ya birbaşa istifadə ilə bağlı beynəlxalq hüququn iki yeni normasını qəbul etməyi təklif etdi [9, 15]:

a) BMT TŞ-nin qərarı ilə gücdən preventiv istifadə (Preventive Use of Force) qaydalarını təyin etmək;

b) Gücdən qabaqlayıcı istifadənin (Pre-emptive Use of Force) qanunauyğunluğunu təyin etmək.

Hər iki təklif elmi və diplomatik dairələrdə geniş müzakirələrə səbəb oldu. Gücdən preventiv istifadə ilə bağlı belə bir sual meydana çıxırdı – qərarı kim qəbul edəcək – dövlətlər öz istəyinə uyğun və ya BMT TŞ-nin qətnaməsinə uyğun?Bir tərəfdən, bu cür qərarları BMT TŞ xüsusi qətnamə olmadan da qəbul edə bilər. Digər tərəfdən, beynəlxalq hüququn əsas prinsiplərindən birinin dəyişilməsi təhlükəsi yaranır. Məhz buna görə BMT Nizamnaməsinin VII bölməsinin maddələrindən birinə əlavə olaraq norma qəbul edilməlidir, belə ki bu, dövlətlərin birtərəfli preventiv hərəkətlər etmək praktikasına mane ola bilər. Bu məsələ ilə bağlı BMT TŞ tərəfindən qətnamənin qəbulu presedent yarada bilər və onun əsasında BMT Nizamnaməsində əks olunan beynəlxalq hüquq prinsiplərinə dəyişikliklər edilə bilər.

Nəticə. Gücdən qabaqlayıcı istifadə ilə bağlı da çox saylı ziddiyyətlər mövcuddur, belə ki, BMT Nizamnaməsində qabaqlayıcı və preventiv özünümüdafiənin hüquqi əsasları qeyd edilməyib. Ehtimal olunur ki, "qabaqlayıcı zərbə" anlayışı hərbi əməliyyatların aparılma qaydaları qeyd edilən silahlı qüvvələrin leksikonundan daxil edilib. Eyni zamanda "qabaqlayıcı" və "preventiv" anlayışlar arasında kifayət qədər incə xətt mövcuddur. Hərbi gücdən və ya güc təhdidindən istifadə edən dövlətlərin hərəkətlərinin qanunauyğun olub-olmaması onların inandırma dərəcəsindən asılı olacaq və subyektiv olaraq təfsir olunacaqdır. Bu zaman çox böyük ehtimal hüququn gücü deyil, gücün hüququ hökmranlıq edəcək.

ƏDƏBİYYAT

1. BMT Nizamnaməsi.San-Fransisko, ABŞ. 24.10.1945.
2. BMT TŞ-nin 02.08.1990-cı il tarixli 660 saylı qətnaməsi, 09.08.1990-cı il tarixli 662 saylı qətnaməsi, 25.08.1990-cı il tarixli 665 saylı qətnaməsi, 29.10.1990-cı il tarixli 674 saylı qətnaməsi, 28.11.1990-cı il tarixli 677 saylı qətnaməsi, 02.03.1991-ci il tarixli 686 saylı qətnaməsi, 03.04.1991-ci il tarixli 687 saylı qətnaməsi.
3. Case concerning Military and Activities in and against Nicaragua. International Court of Justice/ Reports of Judgements Advisory Opinions and Orders. Judgement of 27 June 1986.
4. 2005-ci il Dünya sammitinin yekun sənədi.BMT-nin hesabatı. A/RES/60/1. 2005.24 oktyabr. https://www.un.org/en/development/desa/population/migration/generalassembly/docs/globalcompact/A_RES_60_1.pdf [07.01.2025].

5. Helsinki Final Act of 1975. The OSCE. 1975
6. BMT Baş Assambleyasının XXIX sessiyasında qəbul edilmiş 14.12.1992-ci il tarixli qətnaməsi (aqressiyanın tərifi).
7. S/RES/1267 (1999) 15 October 1999 RESOLUTION 1267 (1999) adopted by the UN Security Council at its 4051st meeting on 15 October 1999.
8. Schmitt, M. (2002) Ethics and military force: the jus in bello. Carnegie Council for Ethics in International Affairs (Carnegie Council for Ethics in International Affairs).
9. Secretary General's Report on Prevention of armed conflict 7 June 2001. S/2001/574 http://www.un.org/Docs/sc/reports/2001/574e.pdf [07.01.2025].

МАХАББАТ СЕИДОВА
Докторант кафедры международных отношений
Бакинского государственного университета

ПРИМЕНЕНИЕ ВОЕННОЙ СИЛЫ В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ

Проблема взаимодействия права и силы остается актуальной для всего мира. От решения этой проблемы зависит судьба не только отдельных государств, но и всего человечества. Эта проблема приобрела особую важность и актуальность в нынешнее «время глобальных перемен». Не только национальные, но и международные правовые системы не успевают за быстрыми изменениями, произошедшими в последние годы. В статье исследуются противоречия между силой права и соотношением права силы. Исследуется вопрос о правомерности применения военной силы в международных отношениях. Также проводится сравнительно-правовой анализ источников международного права, регулирующих на практике отдельные сферы международных отношений и межгосударственных военных конфликтов.

Ключевые слова: международные отношения, агрессия, международный мир, Устав ООН, Международный суд, применение военной силы, безопасность, вооруженные силы.

MAHABBAT SEYIDOVA
Doctoral student of Baku State University
Department of International Relations

USE OF MILITARY FORCE IN INTERNATIONAL RELATIONS

The problem of interaction between law and force remains relevant for the whole world. The fate of not only individual states, but also all of humanity depends on the solution to this problem. This problem has acquired particular importance and relevance in the current “time of global change.” Not only national but also international legal systems have not kept pace with the rapid changes that have occurred in recent years. The article examines the contradictions between the power of law and the relationship between law and power. The question of the legality of the use of military force in international relations is explored. A comparative legal analysis of the sources of international law that regulate in practice certain areas of international relations and interstate military conflicts is also carried out.

Keywords: international relations, aggression, international peace, UN Charter, International Court, use of military force, security, armed forces.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 yanvar 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Qurban Məmmədov, s.e.d. Adil Mirabdullayev.

UOT 32:93/94

ALI EYVAZOV
Bakı Dövlət Universitetinin
Politologiya və Sosiologiya kafedrasının doktorantı
eyvazli.ali@mail.ru

PARLAMENTİN ANTİK İZLƏRİ VƏ İNGİLTƏRƏ NÜMUNƏSİNDƏ İNKİŞAF TARİXİ

DOI: https://doi.org/10.36719/2708-065X/108/151-159

Bu məqalə parlament institutunun antik dövrdəki izlərindən başlayaraq İngiltərə nümunəsində müasir dövrədək keçdiyi inkişaf mərhələlərini araşdırır. İlk olaraq, antik Yunanıstandakı Ekklesia adlanan xalq yığıncaqları və Roma Senatının parlamentin ilkin formaları kimi meydana çıxması təhlil edilir. Bu qrumların qərar qəbul etmə və təmsilçilik funksiyaları müasir parlamentlərin təməl prinsiplərini formalaşdırmışdır. Daha sonra orta əsrlər mütləqiyyəti dövründə İngiltərə parlamentinin yaranması, təşkilati-funksiyonal cəhətdən formalaşması, parlamentin yüksəlişi fonunda monarxiyadan parlamentalizmə keçid prosesi mərhələli surətdə, tarixi-politoloji kontekstdə araşdırılır. İngiltərə parlamentinin qanunlar üzərində suverenliyinin təmin olunması, icra hakimiyyəti üzərində nəzarət mexanizminə əsaslanan yeni siyasi sistem, Parlamentalizmin meydana çıxması və sonrakı əsrlərdə onun inkişafına təsir edən mühüm ictimai-tarixi proseslərin səbəb və nəticələri təhlil edilmişdir.

Açar sözlər: Afina demokratiyası, Ekklesia, Roma Senatı, Maqna Karta, Lordlar Palatası, İcmalar palatası, İngiltərə Parlamenti, Hüquqlar Haqqında Bill, Şanlı İnqilab, Parlamentalizm, Vest Minster hökuməti.

Giriş. Parlament institutunun yaranması və inkişafı dövlət idarəçilik sistemlərinin təkamülündə mühüm rol oynamışdır. Müasir dövrdə qanunverici hakimiyyətin əsasını təşkil edən parlamentin kökləri antik dövrlərə gedib çıxır. Qədim Yunanıstanda "ekklesia" adlanan xalq yığıncaqları və Roma Senatı demokratiyanın ilkin formalarını əks etdirərək parlament ideyasının əsasını qoymuşdur. Bu qurumlar xalqın idarəçilik prosesində iştirakını təmin etməklə yanaşı, qərarların kollektiv şəkildə qəbul olunmasına şərait yaratmışdır. Zaman keçdikcə müxtəlif mədəniyyətlərdə parlamentə bənzər qurumlar formalaşmış və inkişaf etmişdir. Orta əsrlərdə feodalizm dövründə yerli məclislər və zadəganların toplantıları parlamentin daha mürəkkəb formalarının yaranmasına səbəb olmuşdur. Xüsusilə, İngiltərədə "Maqna Karta" ilə əsası qoyulan qanunun aliliyi prinsipi və demokratik ideyalar parlamentin və onun inkişafında mühüm əhəmiyyətə malik konstitusiyanın ideya əsasını qoymuş oldu.“Şanlı İnqilab”a qədər İngiltərə parlamenti fundamental hüquqlar və qanunun aliliyi uğrunda kral mütləqiyyəti ilə mübarizədə təkamülünü başa vuraraq hakimiyyətin bölünməsi prinsipi ilə müasir konstitusiyalı idarəetmənin təmilini qoyan “Hüquqlar Haqqında Bill “ adlı tarixi sənədi qəbul etdi. Bu sənədin qəbulu dünya siyasi düşüncəsində mühüm dönüş nöqtəsi hesab olunur, çünki o, kral hakimiyyətini qanuna tabe edərək onu məhdudlaşdırdı, Parlamentin üstünlüyünü elan edərək dünya dövlətlərinə örnək ola biləcək yeni bir siyasi sistem və idarəetmə forması təqdim etdi, liberal-demokratik dəyərlərin və parlamentalizmin inkişafına yol açdı. Lakin bütün bunlar birdən birə deyil, ingilis xalqı və parlamentinin monarxiya ilə uzun sürən ideologi və fiziki mübarizəsinin nəticəsi olaraq əldə edilmişdir. Məqalədə antik cəmiyyətlərdən müasir tarixə kimi qanunverici orqanın təkamül yoluna nəzər salacağıq.

Müasir parlamentlərin meydana gəlməsi və səlahiyyətlərinin formalaşması hakimiyyətin demokratikləşməsi uğrunda aparılan mübarizənin nəticəsidir. Onun ideya təməlini isə hakimiyyətin bölgüsü prinsipi təşkil edir. Monarxın mütləq hakimiyyətinin məhdudlaşdırılması, iqtidarın başqa bir iqtidarla, xalq suverenliyini təmsil edən institutla balanslaşdırılması Avropada maarifçilik hərəkatı dönəmində siyasi ədəbiyyatda işlənən əsas mövzuya çevrildi. Hakimiyyətdən sui-istifadənin qarşısının alınması, hökumətin hesabatlılığının təmin edilməsi, qanunun aliliyi və fərdi azadlıqların qorunması üçün həlledici mexanizm kimi hakimiyyət bölgüsü prinsipi konsepsiya halına salındı. Əslində, bu ideyaların kökləri daha qədimə, antik dövr yunan demokratiyasına və aristokratik Roma respublikasına qədər

uzanır. Bu cəmiyyətlərdə təcrübədən keçirilmiş hakimiyyətin bölgüsü prinsipi antik sivilizasiyanın hər sferada inkişafına səbəb olmuş ən böyük tarixi nəaliyyəti hesab edilə bilər. Demosun mülkiyyət və siyasi hüquqlar uğrunda uzun sürən mübarizəsi son nəticədə xalq yığıncağı- Ekklesiyanın yaradılması ilə Aristokratların tək hakimiyyətini xeyli dərəcədə məhdudlaşdıraraq bölüşdürmüş oldu [1, s.120]. Afinanın siyasi, sosial, iqtisadi həyatında mühüm rol oynayan bu xalq yığıncağında ordu və donanmaya rəhbərlik edən strateq və digər vəzifələrin seçilməsi reallaşır, müharibə, sülh, vergilər kimi mühüm məsələlər müzakirə olunurdu. Bununla yanaşı, hər filadan (inzibati vahid) 100 nümayəndə seçilərək dörd yüzlər şurası yaradılmışdı ki, bu da xalq yığıncaqlarına köməkçi orqan olaraq, demək olar ki, hökumət funksiyalarını da yerinə yetirirdi. Bütün vətəndaşlardan seçilən kollegiyal hakimlərdən ibarət Helieya adlanan orqan isə məhkəmə funksiyalarını həyata keçirir, vəzifəli şəxslərin hesabatlarını yoxlayır, vətəndaşlar arasında baş verən münaqişələri araşdırırdı. Beləliklə, biz antik Afinanın siyasi sistemində hakimiyyətin ilkin bölgüsünü müşahidə etmiş oluruq. Bu mexanizm uzun müddət praktikada özünü doğrultmuş, effektiv, çevik və faydalı siyasi sistem formalaşdırmışdır. Siyasi sistemin sabitliyi və praktikliyi qədim yunan cəmiyyətinin digər yarımsistemlərinin, elm, fəlsəfə, ədəbiyyat, incəsənət, memarlıq, iqtisadiyyat kimi sahələrinin də inkişafına əlverişli mühit yaratmışdır. Hakimiyyət bölgüsünün əsas məqsədi azad əhalinin bütün təbəqələrinin dövlətin ictimai, siyasi, iqtisadi, mədəni həyatında iştirakı və azadlığının təmin edilməsi olmuşdur. E.ə. V yüzilliyin ortalarında, strateq Perikilin idarəetməsində quldarlıq quruluşunda Afina demokratiyası özünün çiçəklənmə dövrünü yaşayırdı, belə ki, hər bir azad afinalı Strateq də daxil olmaqla istənilən vəzifəni tutmaq hüququ aldı. Qədim Romanın Aristokratik respublikasından fərqli olaraq vəzifəyə görə maaş verilməsi vətəndaşların siyasi fəallığını daha da artırmış oldu. Tarixçi Fukudid tərəfindən dövrümüzə qədər gəlib çıxmış Perikilin çıxışı bizə antik dövr Afina dövlət quruluşunun üstünlükləri haqqında məlumat verir: " Bizim quruluş xalq hakimiyyəti adlanır, ona görə də azlığa yox, xalqın çoxluğuna əsaslanır. Qanunlarımız bizə özəl işlərimizdə bərabər imkanlar verir. Bizdə hər kəsə xidmətinə görə hörmət olunur… Öz həyatımızda zülm tanımadığımızdan, biz ictimai həyatda qanunsuzluqdan dəhşətə gəlməyi bacarırıq" [13]. Bu nitqdən antik yunan sivilizasiyasının inkişafının üç təməl prinsipini görürük: xalq hakimiyyəti, qanunların aliliyi və fərdlərin azadlığı. Çünki hər cür inkişafın təməlində insanın yaradıcı fəaliyyəti üçün münbit zəmin yaradan onun azadlığı və hüquqlarının qorunması təminatıdır. Bütün bunları nəzərdən keçirən amerikan siyasi nəzəriyyəçisi John Montford Dun Qədim Yunanıstanı, haqlı olaraq, "demokratiyanın beşiyi" adlandırır [7, s.24]. Bununla belə, Afina demokratiyası təmsilçi deyil, birbaşa olduğu üçün ekklesiya parlament sistemindən fərqli olsa da, parlamentalizm yolunda qanunverici orqan kimi mühm bir başlanğıc institutu hesab oluna bilər.

Afina demokratiyası nümunəsindən çıxış edən Aristotel hakimiyyət bölgüsünün vacibliyini vurğulayaraq onu politoloji ədəbiyyata gətirən ilk müəllif olmuşdur. Pelopennes müharibələrindən sonra zəifləmiş siyasi sistemi tiraniyadan qurtarmaq üçün təklif etdiyi dövlət modelində Aristotel idarəetməni qanun tərtib edən orqan, vəzifələr (inzibati) və məhkəmə hakimiyyətləri kimi hissələrə ayırmışdı [2, s.173].

Təxminən Qədim Yunanıstanda baş verən ictimai-siyasi dəyişikliklərə analoji olaraq Qədim Romada da pleybeylər və patrisilər arasında gedən uzun mübarizənin gedişində hüquqsuz olan pleybeylər siyasi sferada iştirak və təsir etmək yolunda mühüm nailiyyətlər əldə etdilər. Tək hakimiyyətliliyə son qoyulduqdan sonra latınca "ümumi iş" mənasını verən dövlət quruluşunun yeni forması- respublika yaradıldı. Roma Respublikası senatın məsləhəti ilə bir il fəaliyyət göstərən iki seçilmiş konsul tərəfindən idarə olunurdu. Padşahlıq devriləndən sonra "ümumi iş" də senatın rolu artsa da, xalq yığıncağı həlledici səsə malik idi. Belə ki, senat tərəfindən hazırlanan qanun layihələri xalq yığıncağında təsdiq olunurdu [1, s.488]. Senat daxili və xarici siyasətə, büdcə-maliyyə işlərinə nəzarət edirdi. İcra hakimiyyəti funksiyasını yerinə yetirən magistrat konsul, xəzinədar və hakimlərdən ibarət qurum idi. Magistratın işinə senatın nəzarət etməsi hakimiyyət bölgüsündə tarazlığı təmin etməklə bərabər, müasir parlamentlərin hökumətə nəzarət funksiyasının təməlini qoymuş oldu. Müasir parlamentlərin çoxusunun sahib olduğu kimi büdcəyə, xəzinənin mədaxil və məxaricinə sərəncam vermək və tənzimləmək kimi mühüm hakimiyyət senatın icraedici hakimiyyəti nəzarətdə saxlamaq üçün sahib olduğu əhəmiyyətli rıçak idi. Pleybeylərin tam hüquqlu vətəndaş hesab edilərək dövlətin siyasi idarəedilməsinə buraxılması ilə Roma respublikası vətəndaş cəmiyyətinə çevrilmək yolunda çox mühüm addım atmış oldu.

Lakin bir sıra tarixçi və politoloqlar Roma respublikasının öz aristokratik xarakterini qoruyaraq demokratik respublikaya çevrilmədiyi fikrini müdafiə edirlər. Tezislərini isə belə əsaslandırırlar ki, Romada Yunanıstandan fərqli olaraq dövlət idarəçiliyində vəzifəyə görə əməkhaqqı verilmədiyindən yoxsullar vəzifə tutmaqda maraqlı deyildilər. Vəzifələrdə daha çox soylular və quldarlar təmsil olunurdular. Böyük əksəriyyətlə 300 nəfərlik Roma senatı əsasən zadəgan ailələrindən seçilirdi. Lakin məsələyə hakimiyyət bölgüsü prinsipindən yanaşdıqda Roma respublikasına dövlət idarəsinin 3 formasının- monarxiya, aristokratiya və demokratiyanın təzahürlərinin sintezi kimi baxmaq olar. Belə ki, konsullar 1 il ərzində icra hakimiyyətinin, ordu və donanmanın başçısı kimi monorxiyanı, öz tərkibinin zadəgan tərkibi ilə senat aristokratiyanı, xalq yığıncağı isə demokratiyanı təcəssüm etdirirdi. Bu cür tarazlığa əsaslanan, hər üç hakimiyyət tipinin təmsil olunduğu siyasi sistem İngiltərədə "şanlı inqilab" dan sonra qurulmuş və o dövrün ictimai tarixi şərtləri daxilində xeyli dayanıqlı və işlək olmaqla uzun müddət, bəzi dəyişikliklərlə müasir günümüzə qədər davam etmişdir. "Qanunların Ruhu" əsərində Ş.Monteskyö İngilis konstitusiyasına məftunluğunu göstərərək bildirir ki, İngiltərədə hakimiyyətin zəruri bölgüsü və tarazlığı monarxiya (kral) , aristokratiya (lordlar palatası) və demokratiyanın (icmalar palatası) qarışığından yaranmışdır [14]. Hər üç hakimiyyət tipinin dövlətin siyasi həyatında təmsilçilik məmnuniyyəti, mümkün sosial və siyasi ziddiyyətlərin konsensusla, siyasi sabitliyi pozmadan həll etmək imkanı yaradır. Təbii ki, qanunverici orqanının xalq suverenliyi və hakimiyyətin legitimliyini təmsil etdiyi üçün bu tarazlıqda digər hakimiyyət qolları və ya tiplərindən daha üstün statusa malik olması çoxluğun mənafelərinin təmin olunması baxımından daha məntiqlidir. Beləliklə, biz antik Yunanıstan və Roma siyasi sistemlərində hakimiyyətin ilkin bölgüsünü və bu bölgüdə qanunverici hakimiyyətlər, eklesiya və senatın müasir parlamentin xələfləri kimi mövqeyi və funksiyalarını nəzərdən keçirtdik.

IV əsrin II yarısında "Xalqların böyük köçü" gedişində german tayfalarının Roma ərazilərinə basqınları Yunan - Roma mədəniyyəti, elm, dünyagörüşü, hüquq və siyasi sistemlərinin tənəzzülünə, keyfiyyət və mahiyətcə dəyişməsinə səbəb oldu. Yazılmamış qaydalar və tayfa adət-ənənələrinə əsaslanan german cəmiyyəti yazılı qanunlarla idarə olunan Roma hüquq və siyasi sistemi ilə inteqrasiya edərək yeni bir cəmiyyət və ictimai münasibətlər sistemini yaratdı. Feodalizm adlanan bu cəmiyyətdə krallarla xristian dini arasında yaranmış ittifaq siyasi sistemə yeni, daha güclü aktor, xristian dini və kilsəsini gətirdi. Bununla da, antik dövrdə bərqərar olmuş hakimiyyət bölgüsündə tarazlıq monarxiyanın xeyrinə pozulmuş oldu. Monarxlar öz iqtidarlarını kilsənin mənəvi hakimiyyəti ilə gücləndirmiş və legitimləşdirmiş oldular. Lakin erkən orta əsrlərin sonlarına doğru bəzi avropa ölkələrində kral yanında məsləhətçi orqanların fəaliyyətlərini parlamentin işartısı kimi formalaşdığını qeyd etmək olar. Onların içərisində müəyyən fasilələr olsa da, parlamentin inkişafının bütün dövrlərindən keçmiş və monarxın mütləq hakimiyyətini məhdudlaşdıraraq öz siyasi funksiyalarını formalaşdırmış olan İngiltərə parlamentinin təkamül yoluna nəzər salmağı uyğun görürük.

Hələ Anglo-Sakson krallıqları zamanı ölkənin vacib məsələlərinin həllində krala kömək edən Uitenagemot adlı məsləhət şurası fəaliyyət göstərirdi. "Müdriklərin görüşü" mənasını verən bu orqanın daimi üzvləri və toplanma zamanı yox idi, tərkibi monarxın çağırdığı zaman görüşən zadəganlardan ibarət idi. Vitanların qanunlar çıxarmaq səlahiyyəti olmasa da, hökmranlıq etmək üçün zadəganların dəstəyinə arxalanan monarx məclislə məsləhətləşməyə diqqətli idi. 1066-cı ildə Normandiya hersoqu Vilyam İngiltərəni işğal etdikdən sonra torpaqların böyük hissəsini özünə sadiq insanlara paylayaraq İngiltərədə feodal qaydalarını, senyor-vassal münasibətləri və təhkimçiliyi möhkəmlətmiş oldu. Fateh ləqəbi ilə kral olan Villiam, anqlo-sakson adəti Vitanı ləğv edərək onun yerinə Kral Şurasını (Curia Regis) təşkil etdi. Kral Şurası Vitandan fərqli olaraq daimi xarakter daşıyırdı. Məşvərətçi oqan olan Şura kralın təyin etdiyi, ona sədaqət andı içən iri torpaq sahibləri, zadəganlar və kilsə rəhbərlərindən ibarət idi. Əvəz edilmiş Vitan kimi həm məsləhətçi təbiətinə görə, həm də seçkili orqan olmadığından rəsmi olaraq heç kimi təmsil etmirdi. Kral bəzən daha mühüm məsələləri Böyük Şura (Magnum Concilium) kimi tanınan daha böyük zadəganlar və kilsə xadimləri qrupu ilə məsləhətləşirdi. Xüsusi hallarda çağırılan nəcib məsləhətçilərin bu daha böyük qrupu zamanla Lordlar Palatasına çevrildi. Mübahisəli məsələləri, yerli problemləri müzakirə etmək və məhkəmə işlərinə baxmaq üçün hər mahalda və şirdə keçirilən məclislərdə yerli lordlar, yepiskoplar, şərif və hər kənddən 4 nümayəndə iştirak edirdi. Yerli nümayəndələrin öz icmaları üçün qərar qəbul etmə təcrübəsi sonda İcmalar Palatasının yaradılmasına gətirib çıxardı. Bu qrumları İngiltərə parlamentini əmələ gətirən onun ilkin əcdadları hesab

etmək olar. Parlament nümayəndəli orqan olaraq xalq təmsilçiliyini ehtiva etsə də onun yaranması 13 cü əsrdə elitanın, iri torpaq aristokratiyası və baronların siyasi hakimiyyət uğrunda mübarizəsinin nəticəsi ilə əlaqədardır. Fransa ilə müharibələrdə iri torpaq sahibləri və baronlar üzərinə qoyulan vergilər dolayısı ilə xalqın orta və aşağı təbəqəsinin də vəziyyətini ağırlaşdırırdı. 1215-ci ildə kral Conun tələblərindən və onlarla məsləhətləşməməsindən bezən baronlar bütün narazı qüvvələri, cəngavərləri, şəhər əhalisini ətrafında birləşdirərək üsyan qaldırdılar. Mübarizə Böyük Azadlıqlar Xartiyası- "Magna Cartan" ın imzalanması ilə nəticələndi. Kralla ali zümrə arasında münasibətləri tənzimləyən bu sənədin ən mühüm tarixi əhəmiyyəti qanunçuluğun, konstitusionalizmin ideya əsasını təşkil etməsidir. Belə ki, bu sənəd monarx hakimiyyətini qanundan üstün tutmur, onu qanuna tabe etməklə məhdudlaşdırırdı. Kralın vergi, məhkəmə sistemləri və fərdlərin hüquqlarına yönəlik müdaxilələrinə məhdudiyyətlər 25 barondan ibarət şura vasitəsilə həyata keçirilməli idi. Bu şura ingiltərə parlamentinin, Böyük Azadlıqlar Xartiyasının müddəaları isə milli nümayəndəlik institutunun təşkilati-funksional cəhətdən formalaşması və inkişafında mühüm rol oynayan hüquqi sənədlərin xələfi oldu. 59 maddədən ibarət sənədin əksər hissəsi kral və baronlar, kilsə xadimləri arasında hakimiyyət bölgüsündən bəhs edərkən fərdlərin hüquqlarına da istinad edirdi, belə olmasaydı, bu sənəd heç vaxt mövcudluğunu qoruya bilməzdi [5, s.22]. Ən məşhur bölmələrdən biri ədalətli məhkəmə araşdırması hüququ prinsipinin yaradılması hesab olunur. Azad fərdlərin vətəndaşlıq, mülkiyyət, bərabərlik, toxunulmazlıq, sərbəst hərəkət, müdafiə kimi hüquqlarını təminat altına alan bu liberal sənəd demokratiyanın sonrakı inkişafı istiqamətində mühüm addım atdı. Tarixdə ilk liberal sənəd hesab olunan Maqna Karta İngiltərədə "Şanlı İnqilab" ın nəticəsi kimi qəbul edilmiş "Hüquqlar Haqqında Bill", Amerika konstitutsiyası, Fransa inqilabı zamanı hazırlanmış "İnsan və Vətəndaş Hüquqları" kimi sənədlərin ideya mənbəyinə çevrilmiş oldu.

1265-ci ildə III Henriyə qarşı üsyan edən Simon de Montfort kralın icazəsi olmadan tərəfdarlarından ibarət parlamenti çağırdı. Arxiyepiskoplar, yepiskoplar, abbatlar, qraflar və baronlar, hər şirdən iki cəngavər və hər mahaldan iki azad icmaçı çağırıldı. Əvvəlki məclislərə cəngavərlər çağırılırdı, lakin azad icmaaçıların təmsil olunması o dövr üçün parlamentin təşkilatı və təmsilçi qrum kimi formalaşmasında misilsiz hadisə idi. 1295-ci ildə I Edvard Simon De Montfortun təmsilçilik ideyaları əsasında parlament çağırdı. Bu, sonrakı parlamentlər üçün nümunə olduğu üçün Model Parlament kimi tanındı. Kral tərəfindən rəsmən qəbul edildiyi üçün əksər tarixçilər parlamentin meydana gəlməsi tarixini I Edvardın hakimiyyəti zamanı qeyd edirlər [7, s.181]. Nümunəvi Parlament ilə əvvəlki Kral Şurası arasındakı əhəmiyyətli fərq isə torpaq mülkiyyətçilərinin və şəhər əhalisinin seçilmiş nümayəndələri, azad icmaçıların parlamentə əlavə edilməsi idi. Beləliklə, ingilis idarəetmə sisteminin ən məşhur qolu olan parlament tədricən müasir formaya düşdü. Lakin ilk vaxtlar parlamenti çox çətinliklə xalq təmsilçisi adlandırmaq olardı, çünki ingiltərə əhalisinin yüksək əksəriyyəti təhkimli kəndlilərdən ibarət idi, qadınların seçki hüququnun olmadığı faktını da nəzərə alsaq parlamentin təmsilçilik dairəsinin əhalinin az bir kəsimini əhatə etdiyi fikrini qətiyyətlə söyləmək olar. Qraflıqların və xırda şəhərlərin imkanlı əhalisini təmsil edən icmaçılar başlanğıcda monarxiya barədə xoş təəssürat yaratmaq üçün çağrılmış, kral və kübarlar tərəfindən alət kimi istifadə olunurdular. 1327-ci ildən xalq nümayəndələri daimi olaraq Parlamentdə oturdular. 1332-ci ildən icmaçılar müntəzəm olaraq parlamentdə öz palatalarında toplaşaraq onun etiraf edilən təşkilatı hissəsinə çevrildi və İcmalar Palatası adlandı.14-cü əsrin ortalarına gəldikdə isə Fransa ilə aparılan yüzillik müharibə parlamentdə aşağı palatanın öz funksiyalarından istifadə etməklə daha da güclənməsinə səbəbiyyət verdi. Belə ki, əsasən əhalinin orta və aşağı təbəqəsindən toplanan müharibə xərcləri və vergilər aşağı palatanın razılığı olmadan yığıla bilməzdi. Bu hüquq ona hökumətə xeyli dərəcədə təsir etmək və onu nəzarətdə saxlamaq imkanı verirdi. Müharibə gedişində cəngavərlərlə birlikdə əhalinin aşağı təbəqəsindən toplanan ingilis oxçuları və piyadalarının uğurları da parlamentdə aşağı palatanın statusunu gücləndirirdi. Əgər palata müharibəyə qarşı çıxaraq yeni vergiləri təsdiq etməsə tezliklə sülh müqaviləsinin bağlanmasına nail ola bilərdi. Buna görə də hər bir vacib məsələdə kralın onun nümayəndələri ilə sövdələşməsi lazım gəlirdi. 14-cü əsrdə parlamentin iki palataya bölünməsiylə bərabər onun qanunlar qəbul etmək, vergiləri təsdiq etmək, siyasi işlər üzrə məhkəmə aparmaq kimi səlahiyyətləri də müəyyənləşmiş oldu. 1414 -cü ildə parlament razılaşır ki, İcmalar Palatasının razılığı olmadan heç bir qanun layihəsi qanuna çevrilə bilməz, Kral və ya Lordlar Palatası onun təsdiqi olmadan İcmalar tərəfindən təqdim edilən hər hansı qanun

layihəsinin mətnini dəyişdirə bilməz. Bununla da, İcmalar Palatasının qanunvericilik səlahiyyətləri Lordlar Palatasının səlahiyyətlərindən daha üstün oldu. Beləliklə, mübaliğəsiz olaraq demək mümkündür ki, ingilis xalqının 14-15 -ci əsrlərdə əldə etdiyi bütün hüquqlar kral və aşağı palatanın güzəşt mübadilələrinin nəticəsi idi. Parlamentin yüksəlişi 15-ci yüzillikdə İngiltərəni tez-tez vətəndaş müharibəsinə sürükləyən sülalələr arası mübarizələrin fəsadlarını məhdudlaşdırmaq mənasında xüsusilə vacib idi. Parlament taxt-tacın uyğun varisləri olmadıqda belə ölkəni idarə edirdi və onun qərar qəbul edən orqan kimi legitimliyi siyasi sistemin mövcudluğunu təmin etmişdir. Parlamentin sonrakı yüzillikdə yüksəlişinə şərait yaradan amil isə iki monarx – kral və kilsənin mübarizəsi oldu. Avropanın bürümüş reformasiya hərəkatı nəticəsində Roma kilsəsi öz nüfuzunu və əmlakının çox hissəsini itirmiş oldu. Nəticədə Roma papasına tabe olmayan bir sıra məzhəblər və kilsələr yarandı. Yaranmış vəziyyətdən istifadə edən VIII Henri siyasi və şəxsi məqsədləri üçün parlamentin də dəstəyini alaraq kilsə islahatı uğrunda mübarizə apardı. Məqsəd kilsəni dövlətin idarəçiliyi altına almaqdan ibarət idi. İngilis kilsələri müntəzəm olaraq papaya böyük vergi ödədikləri üçün kilsə islahatında parlamentlə kralın maraqları üst-üstə düşürdü. Təsadüfü deyildi ki, Henri hakimiyyətinin ilk yeddi ilində parlamenti altı dəfə çağırdı. 1534-cü ildə Parlament qəbul etdiyi "Alilik Aktı" sənədində yeni situasiyanı qısaca belə ifadə etdi: "kral ədalətli və haqlıdır və İngiltərə kilsəsinin Ali Başçısı olmağa borcludur". Beləliklə, bir sıra Avropa ölkələrindən fərqli olaraq İngiltərədə kral tərəfindən aparılan reformasiya qanuniləşdi və dini hakimiyyət nəzəriyyəsi puç oldu [8, s. 237]. VIII Henrix özünü İngiltərə kilsəsinin başçısı elan etməklə yalnız mütləqiyyətin üstünlüyü bərqərar edə bilməzdi. O, Parlament üçün də mühüm imtiyazlar verdi ki, bunlardan ən önəmlisi söz və fikir azadlığı idi. Henri hər şeyin Parlamentdə açıq şəkildə danışılmasına icazə verdi və spikerlər buna görə həbs edilə bilməzdilər. Bu azadlıq Parlamentə sonrakı yüzillikdə siyasi sistemdə tək rəqibi, dini gücü də özündə birləşdirən kral monarxiyası ilə açıq şəkildə mübarizə aparmağa imkan yaratdı. Buna baxmayaraq, VIII Henrixin dövründəki parlament monarxın istəklərinə çox az etiraz etdi. Onun və Edvardın hakimiyyəti dövründə qanunverici orqan kralların qərarlarının əksəriyyətinə həvəslə əməl edirdi. Uilyamın təsvir etdiyi kimi, "Kral və parlament ayrı-ayrı qurumlar deyil, monarxın baş tərəfdaşı, Lordlar və Commonlar isə kiçik, lakin yenə də vacib üzvləri olan vahid orqan idi" [3, s. 415]. Tüdorların sonuncusu, Henrinin qızı Elizabetin hökmüranlığı zamanı parlament ilə monarxın birgə uğuru nəticəsində İspaniya məğlub edilmiş, dənizlərdə hökmranlıq İngiltərəyə keçmişdi. Bu zaman İngiltərə mütləqiyyəti özünün çiçəklənmə dövrünü yaşayırdı. 1603-cü ildə Elizabetin ölmü ilə varisi olmadığı üçün İngiltərə taxt-tacında sülalə dəyişdi, hakimiyyətə Stüardlardan I Ceyms gəldi. Şotland olduğu üçün ingilislərlə işləmək qabiliyyətində olmayan Ceyms iqtisadiyyat və dövlət işlərindən uzaq idi. İngilis taxt-tacının müəyyən olunmuş gəlirləri çərçivəsindən kənara çıxan kral qiymətlərin yüksəldiyi dövrdə də daima pula ehtiyac duyurdu. Bu kimi məziyyətlərinə görə parlament nə Ceymsə, nə də oğlu Çarlza etimad göstərmədiyindən adekvat vergi ayırmırdı. Hakimiyyətinin ilk dövründə liberal islahatlar aparacağı gözləntilərinin əksinə olaraq Ceyms mütləqiyyətin iplərini daha da möhkəmləndirmək qərarına gəldi, hətta, bu barədə "Azad monarxiyanın həqiqi qanunu" adlı kitab da yazdı. Onu ingilis tarixşünaslığında "kral mütləqiyyətinin filosofu" adlandırırlar. Ceymsə görə krallar hakimiyyəti Allahdan aldığı üçün o bütün partiyalardan, mənafe qruplarından, parlamentdən, qanunlardan üstündür və iqtidarı heç bir güc tərəfindən məhdudlaşdırıla bilməz [6, s. 63]. Kralla soyuq müharibə dövründə tərkibi əsasən puritan hüquqşünaslardan ibarət parlament də kral siyasətini və kilsəni tənqid edən adekvat faktlara söykənirdi. Onlar VII Henrixin səlahiyyətli məhkəmələrdən qurduğu Ulduz palatasından, Elizabetin təsis etdiyi Yüksək komissiyadan narazı idilər, kralla birlikdə onların fəaliyyətinin İngiltərənin ənənəvi icma qanununu təhlükə altına saldığını düşünürdülər. Yeni zadəganlar və torpaq sahibləri qorxurdular ki, kral öz hakimiyyəti naminə vergiləri artırmaqla onların sərvətini təhlükə altına qoya bilər. Digər tərəfdən, Elizabet dini iğtişaşları tənzimlədiyi halda Ceyms puritanları öz torpaqlarından qovmaqla, 1625-ci ildə onu əvəz edən I Çarlz isə anqlikan kilsəsini dəstəklməklə dini qarşıdırmanı daha da dərinləşdirirdi. Puritianizm- anqlikan kilsəsinin dəbdəbəli həyatını və bahalı dini ayinləri tənqid edən cərəyan isə yeni zadəganlar və burjuaziya arasında surətlə yayılmaqda idi. Beləliklə, kral və parlament arasındakı ideologi savaşın hər an real müharibəyə çevrilməsi üçün şərait yaranmışdı. Narazılıqlar öz pik həddinə çatdıqda 1628-ci ildə parlament krala "Hüquqlar haqqında petisiya" təqdim etdi. Bu sənəddə Maqna kartanın prinsipləri təkmilləşdirilərək yenidən canlandırıldı [6, s.66-67] məhkəmə və parlamentin qərarı olmadan qanun-

suz həbslərin keçirilməsi, vergilərin tələb edilməsi pislənirdi. Bundan qəzəblənən Çarlz ölkəni parlamentsiz idarə etmək niyyətiylə növbəti il parlamenti qovdu. Avropanın digər ölkələri ilə müqaisədə İngiltərədə parlament elə təşkil olunmuşdu ki, krala qarşı səmərəli müqavimət göstərəcək gücdə idi. Fransa, Hollandiya, İspaniya, Almaniyada əyalət və yerli ştatlar olduğu üçün güclər bölünmüş olduğu halda İngiltərə parlamenti kral müxalifətini bir yerdə cəmləmiş vahid, tək qrum idi. Parlament palataları arasında torpaq mənafeyi və dini ideoloji birlik hakim idi. Parlament təkcə təşkilatında deyil, həm də təmsil etdiyi sosial mənafelərdə və sahib olduğu var dövlətdə də güclü idi. Çarlz parlamenti qovduqdan sonra səmərəli idarəetmə yaradaraq uğurlu olsaydı, İngiltərə siyasi sistemi Fransa mütləqiyyəti ilə analoji olardı. Lakin Çarlzın Şotlandiyada apardığı dini siyasətdə uğursuzluğunun qarşısını nə yaratdığı fondlar nə də ki qoyuduğu "Gəmi pulu" kimi vergilər ala bilmədi. Parlament bu fondları icazəsi olmadan yaradıldığı üçün qeyri qanuni hesab edirdi. "Yepiskop müharibələri"ndəki məğlubiyyətlərdən sonra kral vergilər qoymaq üçün 11 il çağırmadığı parlamenti, nəhayət, yenidən toplamağa məcbur oldu. Bu parlament 1640-cı ildən 1653-cü ilə qədər yeni seçkilər keçirilmədən fəaliyyət göstərdiyi üçün "Uzunmüddətli Parlament" adlanır. Parlament krala nəinki kömək etməyə razılaşmadı, həm də yaranmış vəziyyətdən öz tələblərini irəli sürmək üçün istifadə etdi. Jon Pim və icmalar palatasının digər 4 üzvü parlamentin şikayətlərinin siyahısı olan "Böyük Etiraz" layihəsini hazırladı. Tələblərə görə Ulduz palatası və Yüksək komissiya ləğv edildi. Kral məsləhətçilərinin ölümə məhkum edilməsi tələbi isə krala qarşı açıq müharibə elan etmək idi. Parlament ilk dəfə idi ki, monarxa bu qədər açıq etiraz edirdi. Çarlz bunu xəyanət olaraq qiymətləndirdi və icmaların etiraz layihəsini hazırlayan üzvlərini həbs etdirməyə cəhd etdi. Bununla da, İngiltərədə parlament və kral arasında vətəndaş müharibəsi başladı. Oliver Kromvelin başçılıq etdiyi parlamentin yeni tipli ordusu qalib gəldikdən sonra Avropa tarixində ilk dəfə İngiltərədə 1649-cu ildə kral edam olundu. İngiltərə Respublika elan olundu. Lordlar palatası ləğv edildi, yeni siyasi sistemdə qanunverici hakimiyyət birpalatalı parlamentə, icraedici hakimiyyət isə Dövlət Şurasına məxsus idi. Parlament və Dövlət Şurasında əsasən burjuaziya və yeni zadəganlar təmsil olunduqları üçün xarici və daxili siyasət bu təbəqələrin maraqlarına xidmət edirdi. Kromvel parlamentə qarşı olan narazı qüvvələrdən istifadə edərək hərbi çevriliş etdi və 1653-cü ildə Lord Protektor titulu ilə faktiki hökmdara çevrildi. Ölkəni generalların köməyi ilə idarə edən Kromvel hərbi-diktatura rejimi yaratdı. Despotizmdə, müharibə cinayətlərində və hətta soyqırımda ittiham olunan Kromvel inqilab tarixində mübahisəli şəxsiyyət olmasına baxmayaraq, İngiltərədə demokratiyanın inkişafı üçün vacib bir fiqur hesab olunur. [12, s.188-89] Protektoratlıq ölkədə sosial və siyasi sabitliyi təmin edə bilmədiyi üçün 1660-cı ildə parlament ilk toplantısında stüardlar monarxiyasının müəyyən şərtlərlə bərpası haqqında qərar verdi. Lakin hakimiyyətə gəldikdən sonra II Çarlz və qardaşı II Ceyms verdiyi vədlərə əməl etməyərək mütləqiyyəti möhkəmlətməyə cəhd etdilər. Xüsusilə, II Ceymsin krallığı zamanı bu daha açıq şəkildə hiss olunmağa başladı. Fransada XIV Luinin katolik-mütləqiyyət rejiminə bənzər monarxiya yaratmaq arzusu və bunun üçün onunla gizli saziş bağlaması ona qarşı parlament və din adamlarının geniş müxalifətini təşkil etdi. Avropada katolikliyə qayıtmaq tendensiyasının baş verdiyi həssas bir dönəmdə İngiltərə milli hissiyatı anti-katolik və anti-fransız ruhda idi [3, s.178]. Bu dövrdə hələ də bir çox avropa dövlətlərində, eləcə də, İngiltərədə siyasi görüşlər din üzərində formalaşırdı. Kralın dini siyasətinə, hətta, krala loyallıqda bilinən Torilər partiyası da etiraz edərək Viqilər müxalifətinə qoşulmuşdu. Hər iki partiyanın nüfuzlu zadəganları yeni bir vətəndaş müharibəsinə getmədən hakimiyyət dəyişikliyi barədə düşünürdülər. Ən uyğun namizəd isə karalın protestant və anti-fransız kürəkəni Hollandiyadan olan Uilyam idi. Öz ölkəsini qorumaq üçün Uiliyamın İngiltərədə yeganə marağı İspanıya ilə müttəfiq olan Fransaya qarşı qüvvələr tarazlığını qorumaq idi. Bu ümumi maraqlar Tori və Viqiləri birləşdirdiyi kimi Uilyamın da onlarla sövdələşməsini asanlaşdırdı. Beləliklə, 1688-ci ildə çevriliş nəticəsində II Ceyms Fransaya qaçdı, taxt-taca Meri və III Uilyam sahib oldu. Hakimiyyət dəyişikliyi dinc yolla, qan tökülmədən baş verdiyi üçün İngiltərə tarixində bu hadisə "Şanlı İnqilab" adlanır [3, s.254-55]. İngiltərə Parlamenti 17-ci əsrdə kralı məğlub edərək ən mühüm nailiyyətlərini əldə etdi. Hər şeydən əvvəl qanunun hökmüranlığı prinsipləri qorundu, parlamentin inkişafına əhəmiyyətli dərəcədə təsir edən faktor kimi monarxın fəaliyyəti formal xarakter daşıyacaq həddə qədər məhdudlaşdırıldı. Maqna Kartada əsası qoyulmuş konstusiyaçılıq daha da təkmilləşərək təkamülünü başa vurdu. 17-ci əsrin sonu dünyada bir dənə də yazılı konstitusiya yox idi. Bununla belə, 1689-cu ildə İngiltərə Parlamenti, şübhəsiz ki, konstitusiya əhəmiyyətinə malik olan

və bütün dünyada parlament təsisatlarının sonrakı inkişafına mühüm təsir göstərən bir akt- "Hüquqlar Haqqında Bill" qəbul etdi. Bu qanun parlamentlə irsi dövlət başçısı - kral arasında münasibətlərdə yeni hüquqi prinsiplər müəyyən etdi qanunun aliliyini təspit etdi, parlamentin kral hökuməti üzərində total nəzarətini formalaşdırdı. "Bill" ə görə kral parlamentin razılığı olmadan ordu saxlamayacaq, heç bir vətəndaş qanuni proses olmadan həbs edilməyəcəkdi. Bu anlamda qanun İngilis parlamentini avropada yeganə etməklə digərlərinə numunə olacaq yeni bir siyasi quruluş, idarəetmə sistemi- parlamentarizmi təqdim etmiş oldu. Hüquqlar haqqında Bill parlamentin razılığı olmadan heç bir qanunun qəbul edilə bilməyəcəyini və onun təsdiqi olmadan heç bir vergi və ya rüsumun tutula bilməyəcəyini müəyyən etdi. Kralın qanunlara veto qoymaq hüququnu əlidən alınmaqla Parlamentin qanunlar üzərində suverenliyi təmin olundu. Bu aktın tarixi əhəmiyyəti ondan ibarətdir ki, o, dövlət başçısının heç bir qanunvericilik bazası ilə məhdudlaşdırılmayan hakimiyyəti həyata keçirmək iddialarına hüquqi maneələr qoydu. Qanunların aliliyinə dayanan hüquqi dövlətin əsası qoyuldu, Parlament tərəfindən kral hakimiyyətinin məhdudlaşdırıldığı konstitusiyalı monarxiya idarəetmə forması bərqərar oldu. Hüquqlar haqqında Bill Parlamentin Tacdan ayrı bir qurum kimi möhkəmlənməsinə və inkişafına möhkəm zəmin yaratdı, demokratiyanın bəzi ideya və sistemlərinə öncülük etdi [3, s.474]. İngiltərə parlamenti işlək idarəetmə forması kimi ölkədə görünməmiş sabitlik təmin etdi. Sabitlik, öz növbəsində, daha effektiv idarəetmə, təşkilatlanma və səmərəliliyi təmin etməyə kömək etdi. 18-ci əsrdə tədricən İngiltərənin siyasi sistemi təkmilləşərək müasir formaya düşdü. Böyük Britaniya Krallığında monarx, nəzəri olaraq, kabinetə rəhbərlik edir və nazirləri seçirdi. Praktikada alman əsilli kral I Georqun ingiliscə danışa bilməməsi kabinetə sədrlik etmək məsuliyyətini aparıcı nazirə, sözün əsl mənasında, baş nazir Robert Valpola həvalə etdi. Səsvermə hüququnun genişləndirilməsi ilə parlamentin tədricən demokratikləşməsi hökumətin idarə edilməsində və kralın hökuməti qurmaq üçün kimə müraciət edə biləcəyinə qərar verməkdə parlamentin rolunu artırdı. "Parlamentin qızıl dövrü" adlandırılan XIX əsrdə Britaniya dövləti parlament islahatları keçirərək onun təşkilatı, funksional və xalq nümayəndəliyi prinsipi ilə inkişafına şərait yaratdı. 1832-ci il Böyük İslahat Aktı parlamentin üstünlüyünə gətirib çıxardı, onun seçimi həmişə kimin baş nazir olacağına və hökumətin rənginə qərar verdi [11]. Parlament üzvlərindən təşkil olunmuş hökumət parlamentin aşağı palatası qarşısında cavabdeh olmaqla hökumət başçısı, Əlahəzrətin səlahiyyətlərini onun adından həyata keçirir [10, s.40-41]. Vestminster hökumət sistemi adlandırılan belə bir sistem, xüsusilə, Britaniya parlamenti tərəfindən konstitusiyaları qəbul edilmiş köhnə Britaniya dominionlarında geniş yayıldı. 1867-ci islahatı ilə İngiltərədə Parlament sosial tərkibini genişlədərək xalqın orta və aşağı təbəqələrinə yaxınlaşdı, xırda burjuaziya və fəhlələrin yuxarı təbəqəsi seçki hüququ qazandı [9, s. 58-59]. Beləliklə, parlamentin təmsilçilik dairəsi daha da genişlənmiş oldu.

Demokratiya və parlamentarizm Avropada Birinci Dünya Müharibəsindən sonrakı illərdə getdikcə daha çox yayıldı. Parlament hesabatlılığı və məsuliyyətli hökumət ideyası ABŞ, Böyük Britaniya və Fransa tərəfindən məğlub olan ölkələrə və onların varislərinə, xüsusən Almaniyanın Veymar Respublikasına və Avstriya Respublikasına tətbiq edildi. Lakin 1930-cu illərdə bir sıra ölkələrdə iqtisadi böhranın gətirmiş olduğu sosial-iqtisadi və siyasi kriz zamanında populist çıxışlarla radikal sol yönümlü, milliyətçi güclər hakimiyyətə gələrək parlament demokratiyasına son qoydu. İkinci Dünya Müharibəsindən sonra məğlub olan faşist dövlətlərində parlament konstitusiyaları həyata keçirildi, tək adam və ya rejim idarəçiliyinin müharibə təcrübəsi və cəmiyyət üçün ağır nəticələri parlament prinsiplərinə ictimai sadiqliyi daha da gücləndirdi. Parlament institutunun daha çox siyasi sistemlərə yayılması keçən əsrin sonlarında bir sıra totalitar rejimlərin çöküşü ilə də əlaqədar olmuşdur. Sovet İttifaqının dağılması ilə böyük bir coğrafi məkanda tək ideologiyanın hakim olduğu totalitar sistemlər çökmüş, siyasi pluralizm və hakimiyyət bölgüsünə dayanan demokratik sistemlərə keçid prosesi post- sovet ölkələri üçün prioritet olmuşdur. Demokratiyanın hələ kövrək olduğu bu ölkələrdə hüquqi dövlət və vətəndaş cəmiyyətinə transformasiya üçün parlament institutlarının vacibliyi əhəmiyyətli dərəcədə artmışdır.

Nəticə. Biz hakimiyyətin ilkin bölgüsünü və Parlamentin antik izlərini, xalq təmsilçiliyi və qanunverici mahiyyətini Qədim yunanıstan və Roma respublikalarında müşahidə edirik. Antik sivilizasiyanın dağılması və yeni ictimai-iqtisadi formasiya olan feodalizm cəmiyyətində din və monarx tandeminin güclü olduğu dövrdə məsləhətçi orqanların qanunverici və nəzarətedici instituta çevrildiyini, onun funksional və təşkilatı baxımından təkamül etdiyini İngiltərə parlamentinin tarixi inkişaf kontekstində araşdırmış olduq. Monarxiyadan qanunların aliliyi prinsipinə dayanan Parlamentlizmə keçi-

ddə qanunçuluğun, hakimiyyət bölgüsünün, demokratik prinsiplərin və tarixi şəraitdən asılı olaraq dini ideologiyanın siyasi elita və cəmiyyətin mübarizəsində rolunu araşdırdıq. Müasir dövrdə demokratiyanın əsas göstəricilərindən olan parlament müxtəlif dövlətlərdə fərqli siyasi sistem və rejimlərdən, ictimai- tarixi şəraitdən asılı olaraq hələ də özünün demokratiya yolunda səyahətini davam etdirir.

ƏDƏBİYYAT

1. Немировский.А.И. История древнего мира: Античностъ. Москва, «Рус-Олимп», 2007, 927 с.
2. Чанышев А.М. Аристотель. Москва, «Мысль», 1987, 224 с.
3. Steve Pincus. 1688: The First Modern Revolution. New Haven, «Yale University Press», 2009, 705 p.
4. Richard W. Kaeuper. War Justice and Public Order: England and France in the Later Middle Ages. Oxford, «Clarendon press», 1988, 451 p.
5. David Carpenter. Magna Carta:1215 its social and political context (pp17-24)/Magna Carta. Edited by Lawrence Goldman «University of London Press», 2018, 138 p.
6. Rachel Foxley. Magna Carta and seventeenth-century politics (pp. 61-78)/Magna Carta. Edited by Lawrence Goldman «University of London Press», 2018, 138 p.
7. Jhon Dunn. Democracy: A History. New York, «Atlantic Monthly Press», 2005, 240 p.
8. Orucov T. Ümumdünya tarixi (II kitab). Orta əsrlər tarixi. Bakı, «ADİLOĞLU», 2011, 384 s.
9. Jhon.K.Walton. The Second Reform Act. London, «Routledge», 1987, 62 p.
10. Bryum E.Carter. Office of the Prime Minster. Princeton, «Princeton University Press», 2015, 364 p.
11. Philip Salmon. Victorian Commons / Who would vote? From potwallopers to tenpounders: post-1832 franchises explained. Novomber 7, 2024 https://victoriancommons.wordpress.com/tag/1832-reform-act/ [17.02.2025].
12. Barry Coward. Oliver Cromwell. London, «Routledge», 2014, 216 p.
13. Ancient History Soursbook. Fordham University. - https://sourcebooks.fordham.edu/ancient/pericles-funeralspeech.asp [17.02.2025].
14. Oxford University Comparative Law Forum “Montesquieu in England: his “Notes on England“ https://ouclf.law.ox.ac.uk [17.02.2025].

АЛИ ЭЙВАЗОВ
Докторант кафедры политологии и социологии,
Бакинский Государственный Университет

ДРЕВНИЕ СЛЕДЫ ПАРЛАМЕНТА И ИСТОРИЯ ЕГО РАЗВИТИЯ НА ПРИМЕРЕ АНГЛИИ

В данной статье рассматриваются этапы развития парламентского института, начиная от его следов в античности и до современной эпохи на примере Англии. Сначала анализируется возникновение народных собраний, называемых Экклезией в Древней Греции, и Римского Сената как начальных форм парламента. Решающие и представительские функции этих собраний сформировали основные принципы современных парламентов. Затем в поэтапном историко-политическом контексте рассматривается возникновение английского парламента в период средневекового абсолютизма, его организационное и функциональное становление, переход от монархии к парламентаризму на фоне становления парламента. Анализируются причины и последствия важных социально-исторических процессов, повлиявших на возникновение новой политической системы - парламентаризма, обеспечившего суверенитет английского парламента над законами и контролировавшего исполнительную власть.

Ключевые слова: Афинская демократия, Экклесия, Римский сенат, Великая хартия вольностей, Палата лордов, Палата общин, Английский парламент, Билль о правах, Славная революция, парламентаризм, Вестминстерское правительство.

ALI EYVAZOV
PhD student at the Department of Political Science and Sociology,
Baku State University

ANCIENT TRACES OF PARLIAMENT AND THE HISTORY OF ITS DEVELOPMENT IN THE EXAMPLE OF ENGLAND

This article examines the development stages of the parliamentary institution, starting from its traces in antiquity and continuing to the modern era, using the example of England. First, the emergence of the people's assemblies called Ekklesia in ancient Greece and the Roman Senate as the initial forms of parliament is analyzed. The decision-making and representative functions of these assemblies have formed the basic principles of modern parliaments. Then, the emergence of the English parliament during the medieval absolutism, its organizational and functional formation, and the transition from monarchy to parliamentarism against the background of the rise of parliament are examined in a phased historical and political context. The causes and consequences of important socio-historical processes that influenced the emergence of a new political system - Parliamentarism, which ensured the sovereignty of the English parliament over the laws and controlled the executive branch are analyzed.

Keywords: Athenian democracy, Ecclesia, Roman Senate, Magna Carta, House of Lords, House of Commons, English Parliament, Bill of Rights, Glorious Revolution, Parliamentarism, Westminster government.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: f.ü.f.d. Orucova Vəsxanım, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT 32:93/94

YOU XIN
Baku State University
Doctoral Student in International Relations
ORCID: 0009-0002-7830-8382
you.rita.1998.88@gmail.com

AZERBAIJAN-CHINA RELATIONS: THE IMPACT OF THE SUCCESSFUL CONVENING OF THE COP 29 IN BAKU

DOI: https://doi.org/10.36719/2708-065X/108/160-165

The successful convening of COP 29 in Baku has not only brought attention to the urgent challenges posed by climate change but has also greatly strengthened the relations between Azerbaijan and China. This research employs a blend of literature analysis and case study methodologies, by examining the impact and achievements of the successfully convened the COP 29, the author aims to assess the contributions that Azerbaijan and China, as key players in the global community, can make in tackling the increasingly urgent climate challenges and the potential for collaboration between the two sides.

Keywords: COP-29, Climate Change, International Cooperation and Coordination, Azerbaijan-China Relations.

Introduction. In recent years, global climate change has emerged as a critical global issue, with more frequent extreme weather events posing an imminent risk to the survival and development of humankind. To tackle this worldwide challenge, the COP (the Conference of the Parties to the UNFCCC), as a key platform for international climate governance, has taken on the vital task of fostering international cooperation and developing response measures. The United Nations Framework Convention on Climate Change (UNFCCC) and the Paris Agreement constitute the legal basis for international climate governance and provide a framework and objectives for cooperation among countries.

In 1992, majority of countries around the world joined an international agreement known as the UNFCCC, which serves as a framework for global collaboration aimed at addressing climate change by restricting the rise of in greenhouse gases in the atmosphere, and dealing with potential risks and impacts caused by climate change. There are now 197 Parties to the Convention. In the same vein, all nations embraced the 2015 Paris Agreement to strengthen the worldwide effort against the looming danger of climate change by capping the rise in global temperatures this century to significantly below 2 degrees Celsius compared to pre-industrial levels and striving to limit the increase to 1.5 degrees Celsius [1, p.2-4].

The COP 29, which took place in Baku, Azerbaijan, in November 2024, gathered world leaders, scientists, and business executives to address the climate emergency and advocate for a sustainable transition. Among the main objectives of the COP 29 is establishing a new target for climate finance, ensuring all nations possess the resources needed to implement significantly stronger climate actions, reducing greenhouse gas emissions, and fostering resilient communities. Nevertheless, being an emerging country in the global energy market, Baku was involved in a contentious debate on hosting COP 29 while its economy is heavily dependent upon oil and gas output. Mr. Ilham Aliyev, the President of the Republic of Azerbaijan, addressed during COP 29 opening speech that every natural resource is a gift from God, including oil and gas. The country should neither be faulted for possessing them, nor should it be blamed for delivering these resources to the market because the market demands them" [6]. To a broad sense, the successful holding of COP 29 in Baku is not only conducive to improving the status of Azerbaijan in the international arena, but also provides impetus to the country's sustainable energy transformation and green development strategy.

Nearly 72,000 delegates representing 196 countries and parties registered to take part in the COP 29 in Baku, which could make it the second-largest COP on record. As a host country, it was common to see at the COP summits that Azerbaijan became the largest delegation with 2229 individuals signing

up for the badges. Following by Brazil (1914 participants, due to the fact that Brazil will be hosting COP 30 in 2025) and Turkiye (1862 participants, close neighboring and brotherly country), China is ranking the fourth delegation size with 969 participants [5]. As significant participants, Chinese delegation actively showcased its green technologies and achievements at the conference and explored further opportunities for collaboration.

The COP 29 summit serves as an excellent opportunity for nations to enhance cooperation in various domains, including but not limited to reducing greenhouse gas emissions, advancing renewable energy initiatives, reinforcing the development and enforcement of environmental protection laws and regulations, and collectively fostering improvements in the global climate governance framework. As far as we know, Azerbaijan and China are developing countries, yet who always are committed to accelerate energy transition, reduce carbon emissions, and innovate green technologies. To lower greenhouse gas emissions and encourage energy diversification, both Azerbaijan and China have developed a national strategy for renewable energy advancement.

Since 2019, President Aliyev of Azerbaijan signed a document titled "Measures for the Implementation of Pilot Projects in the Field of Renewable Energy Utilization," which exempts renewable energy investment initiatives from land tax [8]. Additionally, companies involved will receive tax benefits, including a seven-year reduction in income tax. The news reported by AZERTAC special correspondent in 2022 that China ranks first in the world in terms of the amount of electricity produced by solar panels. Last year, 53 GW of solar energy was produced in China [7]. In line with this, Azerbaijan aims to collaborate with Chinese companies to create a carbon-neutral future collectively, assisting in the diversification of its economy and decreasing reliance on oil and natural gas.

Consequently, by examining the impact and achievements of the successfully convened the COP 29, the author aims to assess the contributions that Azerbaijan and China, as key players in the global community, can make in tackling the increasingly urgent climate challenges and the potential for collaboration between the two sides. For example, the two nations can pursue extensive cooperation in various sectors, including but not limited to, decreasing greenhouse gas emissions, advancing renewable energy initiatives, enhancing the development and implementation of environmental protection laws, and working together to improve the international climate governance framework. Through the exchange of knowledge, technologies, and resources, Azerbaijan and China will be better equipped to address the difficulties posed by climate change and positively contribute to safeguarding our collective planet.

Research Methods and Data Sources. This research employs a blend of literature analysis and case study methodologies. The literature analysis is primarily utilized to examine and evaluate the historical context, conference agendas, and outcome documents from the United Nations Climate Conference, along with the policy documents and action plans of Azerbaijan and China regarding climate change. The case study approach offers an in-depth analysis of specific collaborative efforts between China and Azerbaijan in climate governance, seeking to identify areas of alignment in their cooperation and governance strategies.

The data sources consist of the official site of the United Nations Framework Convention on Climate Change, the governmental websites of Azerbaijan and China, reports from pertinent international and non-governmental organizations, as well as academic journals.

The outcomes of the COP 29 and Expectations of international community. On 24 November, after the meeting was extended for 35 hours, the COP 29 eventually closed its sessions. Within the two-week negotiation among nearly 200 countries in Baku, first and foremost, the COP 29 reached a remarkable agreement regarding climate finance. This includes that to increase financial support to developing nations, raising the previous target from USD 100 billion per year to USD 300 billion per year by 2035; ensure collaborative efforts among all stakeholders to boost financing for developing countries, reaching a total of USD 1.3 trillion annually by 2035 from both public and private sources. However, $300 billion climate finance goal might be hindered by the complexities of international economical-political dynamics.



Source: OECD, date based on an average of OECD scenarios

Originally, developed countries, during the COP 15 in Copenhagen, who committed to supplying $100 billion (£78 billion) annually to developing countries for climate actions by the close of 2020. However, by the conclusion of that year, the total amount reached $83.3 billion (£65 billion) – the target was ultimately achieved three years later [2, p.7-9]. Therefore, it is difficult to determine if developed nations will be able to meet their pledged amounts on schedule by 2035. On the other hand, the reelection of Donald Trump of the United States probably overshadows climate actions of international community. The analysis by Carbon Brief earlier this year indicated that Trump's presidency could result in an extra 4 billion tons of carbon dioxide equivalent (GtCO2e) in US emissions by 2030, in comparison to the ongoing plans of current-President Joe Biden [5].

Least developed countries (LDCs) are classified as low-income nations that face structural barriers to achieving sustainable development. Based on the three criteria set by the United Nations Committee for Development Policy (CDP), there are 45 countries that are considered as low-income nations. Similarly, small island developing states (SIDS) denotes a collection of small island nations (or states) that are developing and generally face comparable challenges in sustainable development. Both LDCs and SIDS are among the most susceptible nations impacted by climate-related issues [3, p.14-31].

An instance worth highlighting is that in November 2024, coinciding with the COP 29 summit period, the Indonesian Parliament enacted legislation to relocate the capital from Jakarta. Despite issues like swift urban growth and excessive depletion of groundwater, increasing sea levels due to global warming are also a decisive factor why small island nations like Indonesia have to relocate their capital. For this reason, The COP plays an irreplaceable role as one of the important platforms for s LDCs and SIDS to express their concerns. For the LDCs in Africa and Asia, climate change will lead to the inundation of coastal regions that are low-lying, heightened water shortages, reduced agricultural productivity and fishery resources, as well as a decline in biological diversity.

Nevertheless, in the past ten years, merely 2.8% of existing international climate funding has been directed towards Small Island Developing States, while 18% has been allocated to LDCs. It is an undeniable responsibility of countries in the Global North and South to provide more support and access to the LCDs and SIDS and help them cope with the disasters caused by climate change.

The Impact of the COP 29 on Azerbaijan-China.

4.1 Increasing public awareness and education for sustainable development

The climate change crisis poses a significant risk to sustainable development and demands immediate intervention at global, national, and local scales. Climate change is connected to other challenges associated with the loss of biodiversity, health concerns, food security, and sustainable production and consumption practices. Every nation across the globe should put in their utmost effort

and collaborate to safeguard the planet that we depend on for our existence. Azerbaijan and China actively engage in the United Nations (UN) and the United Nations Educational, Scientific and Cultural Organization (UNESCO), both of which are essential in fostering the global sustainable development agenda, increasing national awareness of sustainable development, and amplifying the urgency of climate change and the importance of environmental protection.

Intergarting education for sustainable development to economic growth is a vital strategy for fostering a sustainable future. For example, research conducted at Baku State University (BSU) related to environmental conservation and addressing climate change has been growing, with numerous projects underway to enhance environmental awareness and promote greater environmental responsibility. In 2024, BSU became a member of the Association for the Advancement of Sustainability in Higher Education. A variety of ecology and environmental conservation projects carried out by students in collaboration with faculty at BSU showcase the university's dedication to advancing sustainable development and safeguarding the environment. These initiatives not only contribute to the university's academic excellence but also foster a sense of responsibility and stewardship among its students and faculty towards the natural world.

Furthermore, a delegation headed by Isa Habibbayli, the President of the Azerbaijani National Academy of Sciences, visited the China Biodiversity Conservation and Green Development Foundation (CBCGDF) and engaged in detailed discussions regarding responses to climate change, scientific and technological collaborations, and partnerships in green development. Both parties signed a strategic cooperation agreement aimed at actively participating in Global Climate Governance and other related matters. Secretary General Zhou Jinfeng of CBCGDF called on nations globally to engage in the COP 29 and collaboratively provide insights and efforts in the battle against climate change.

4.2 Promoting green development and sustainable energy cooperation

Increasing greenhouse gas (GHG) emissions commonly indicate a reliance on energy systems that utilize environmentally damaging sources, including fossil fuels and biomass, which are vulnerable to different types of disruptions. Only by diversifying the energy structure and investing in clean energy and green technology can we effectively reduce GHG emissions and ultimately achieve a zero-carbon community. However, for numerous developing nations, attaining zero carbon emissions is not an immediate process, particularly for those that depend on a singular oil resource as the cornerstone of their economy.

The COP 29 offered Azerbaijan with more opportunities for experience sharing and technical exchanges regarding the transition to green energy. As China's continued progress in renewable energy innovations and its capabilities in green investment and financing, the conference presents considerable potential for collaboration in energy transformation between the two sides. As early as October 2023, the China State Construction Engineering Company (CSCEC) commenced its photovoltaic power generation project, which is located in Gobustan [4, p.18]. The Gobustan photovoltaic initiative currently stands as the largest renewable energy project in Azerbaijan. Once it becomes operational, it is anticipated to generate 500 million kWh of electricity annually, which will be enough to provide power for 110,000 homes in the area, reduce carbon dioxide emissions by over 200,000 tons each year, and significantly improve the local energy infrastructure. This project is owned by the Masdar Company from the United Arab Emirates, with subcontracting managed by Chinese firms.

Similarly, the data published on Chinese automobile manufacturer BYD's official website in July 2024, the company has secured the bid for the Azerbaijani government's electric bus procurement project, receiving an order for 160 electric buses. BYD stated that this shipment of electric buses will contribute to the COP29 initiative for promoting green and low-carbon hosting. Moreover, the Chinese electric vehicle brand NIO signed a strategic partnership with its Azerbaijani collaborator Green Car during the COP 29, announcing that it will commence operations in Azerbaijan and offer electric vehicle products and services to the local market.

4.3 Deepening bilateral diplomacy and climate governance cooperation

His Excellency Mr. Ilham Aliyev, the President of Azerbaijan, has extended an invitation to Heads of State and Government (HoS/G) to take part in the World Leaders Climate Action Summit (WLCAS), scheduled for 12 and 13 November 2024. The invitation to the WLCAS in Azerbaijan

during COP 29 highlights the necessity for global leaders to actively participate and elevate their commitments, facilitating efforts to decrease emissions, adapt to the impacts of climate change, and respond to loss and damage. On this occasion, Chinese Vice Premier Ding Xuexiang, as the special representative of Chinese President Xi Jinping, met with Azerbaijani President Ilham Aliyev. Vice Premier Ding stressed the importance of the promising prospects inherent in the strategic partnership between the two countries and conveyed a wish for Azerbaijan and China to collaborate in building a green and sustainable future.

After the meeting, Chinese Vice Premier delivered a speech at the Summit stated that the international community need to work jointly to fight against global warming with the principle of common but differentiated responsibilities. For instance, developed countries need to boost sustainability goals and action, take the initiative in meeting emission reduction obligations, and accelerate the timescale for carbon neutrality. The People's Republic of China, as a developing country, should also do the best within its capabilities. It plans to present its 2035 nationally determined contribution, which encompasses the entire economy and all greenhouse gases, and aims to reach carbon neutrality by 2060 [8].

Through negotiations at the COP 29, delegations from Azerbaijan and China have established plenty of agreements aimed at promoting the adoption of advanced technologies and executing large-scale renewable energy initiatives. One of the key agreements is between China Energy Overseas Investment Co. Ltd. and SOCAR Green, which involves the development of a 160 MW solar power facility in the Fizuli region. The plans also entail setting up a research and development center in Azerbaijan, intended to be a center for innovation and the exchange of knowledge. This initiative highlights the dedication of both countries to a progressive energy strategy, using state-of-the-art technologies and research to facilitate the green transition.

Azerbaijan is recognized for its substantial potential in renewable energy resources, which includes 3000 MW of wind energy, 23000 MW of solar energy, 380 MW of bioenergy capacity, and 520 MW from mountain rivers. China's expertise in solar and wind energy technologies is anticipated to enhance Azerbaijan's renewable energy industry. Conversely, Azerbaijan's strategic location and robust infrastructure make it a vital contributor to the development of green energy routes under China's Belt and Road Initiative.

Conclusion. The successful convening of COP 29 in Baku has not only brought attention to the urgent challenges posed by climate change but has also greatly strengthened the relations between Azerbaijan and China. The event served as a platform for both countries to showcase their commitments to green growth and sustainable development. Azerbaijan, hosting the conference, emphasized its desire to build understanding and solidarity between the "Global North" and "Global South," with China being praised as a champion for green technology.

At the two-week summit, countries conducted in-depth negotiations in terms of climate actions and funding and finally adopted more than 20 important decisions. Among them, the most groundbreaking result is the establishment of a climate finance target of US$300 annually for developing countries by 2035. Azerbaijan and China, as significant participants in the global community, should collaborate to tackle the escalating climate challenges together. By exchanging experiences, technologies, and resources, the two nations can more effectively address the difficulties posed by climate change and contribute positively to the safeguarding of our survival. In summary, the COP 29 in Baku has enhanced the current partnership between Azerbaijan and China, and offered a worldwide platform for joint efforts to tackle climate change and advance green development. As both countries further strengthen their collaboration, they will undoubtedly be instrumental in creating a sustainable future for the planet.

REFERENCE

1. C. Skidmore and W. Farrell, A Brief History of the United Nations Climate Change Conferences: COPs 1-26. Harvard Kennedy School, 2021, pp. 2–4. (Retrieved Dec. 23, 2024).
2. OECD, "Climate Finance Provided and Mobilised by Developed Countries," 2024, pp.7-9. (Retrieved: Jan. 08, 2025).
3. UN, "The impact of climate change on the development prospects of the least developed countries

and small island developing states," 2009, pp.14-31. (Retrieved: Jan. 08, 2025).
4. X. Xiao, "Azerbaijan actively develops renewable energy," People's Daily, Oct. 22, 2024 [N] pp.18. (Retrieved: Jan. 07, 2025).
5. Carbon Brief, "Analysis: Which countries have sent the most delegates to COP29?" Nov.12, 2024. -https://www.carbonbrief.org/analysis-which-countries-have-sent-the-most-delegates-to-cop29/ (Retrieved Dec. 23, 2024).
6. I. Aliyev, "Speech by Ilham Aliyev at the opening ceremony of World Leaders Climate Action Summit at COP29» Official web-site of President of Azerbaijan Republic," Nov. 12, 2024. (Retrieved Dec. 27, 2024).
7. S. Jafarov, "China exported photovoltaic products worth $28.4 billion last year," Feb. 21, 2022. -https://azertag.az/xeber/chin_oten_il_284_milyard_dollar_deyerinde_ fotovoltaik_mehsullar_ixrac_edib-2022983 (Retrieved Jan. 08, 2025).
8. X. Ding, "Address by Chinese Vice Premier Ding Xuexiang at World Leaders Climate Action Summi," Nov. 12, 2024. -https://www.fmprc.gov.cn/web/zyxw/ 202411/- t20241114_11526095.shtml (Retrieved: Jan. 16, 2025).

YOU XIN
Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər üzrə doktorantı

AZƏRBAYCAN-ÇİN MÜNASİBƏTLƏRİ: BAKIDA COP 29-UN UĞURLA KEÇİRİLMƏSİNİN TƏSİRİ

Bakıda COP 29-un uğurla keçirilməsi təkcə iqlim dəyişikliyinin yaratdığı təcili çağırışlara diqqəti cəlb etməklə kifayətlənməyib, həm də Azərbaycan və Çin arasındakı münasibətləri xeyli gücləndirib. Bu tədqiqat ədəbiyyatın təhlili və nümunə araşdırması metodlarından istifadə edir. Müəllif COP 29-un uğurla keçirilməsinin təsiri və nailiyyətlərini araşdırmaqla, qlobal icmanın əsas iştirakçıları olan Azərbaycan və Çinin getdikcə daha aktual olan iqlim çağırışlarının həllində göstərə biləcəyi töhfələri və iki tərəf arasında əməkdaşlıq potensialını qiymətləndirməyi hədəfləyir.

Açar sözlər: COP-29, İqlim Dəyişikliyi, Beynəlxalq Əməkdaşlıq və Koordinasiya, Azərbaycan-Çin münasibətləri.

YOU XIN
Бакинский Государственный Университет
Докторант по международным отношениям

ОТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И КИТАЕМ: ВЛИЯНИЕ УСПЕШНОГО СОЗЫВА COP 29 В БАКУ

Успешный созыв COP 29 в Баку не только привлек внимание к неотложным проблемам, связанным с изменением климата, но и значительно укрепил отношения между Азербайджаном и Китаем. Это исследование использует сочетание методов анализа литературы и изучения случаев. Изучая влияние и достижения успешно проведенного COP 29, автор стремится оценить вклады Азербайджана и Китая, как ключевых игроков мирового сообщества, которые могут внести важные изменения в решение все более неотложных проблем, связанных с климатом, а также потенциал сотрудничества между двумя сторонами.

Ключевые слова: COP-29, изменение климата, международное сотрудничество и координация, отношения между Азербайджаном и Китаем.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 yanvar 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: s.ü.f.d. Rauf Həsənov, t.e.d. Sevinc Yusifzadə.

UOT 32

GÜLŞƏN BABAYEVA
Gəncə Dövlət Universiteti
Sosial fənlər kafedrasının dissertantı
e_durustkari@mail.ru

AZƏRBAYCAN DİASPOR TƏŞKİLATLARININ ERMƏNİ LOBBİSİNƏ QARŞI FƏALİYYƏTLƏRİ (1994-2020-ci illər)

DOI: https://doi.org/10.36719/2708-065X/108/166-172

Danılmaz faktdır ki, erməni diasporu öz təşkilatlanma səviyyəsinə, lobbi təşkilatları şəbəkəsinin təsir gücünə və bədxah təcrübəsinə görə dünyanın ən güclü diasporlarından biridir. Belə bir güclü diasporun bədxaq təcrübəsinin formalaşmasında şübhəsiz "türk" faktoru aparıcı rol oynamışdır. Belə bir sistemli gücün Azərbaycan dövlətinə və xalqına qarşı amansız faəliyyətini və bədxah əməllərinin təsirini 30 ildən çoxdur ki, dərindən hiss edirik. Bu məqalədə atəşkəş dövründə erməni diasporunun Azərbaycan əleyhinə fəaliyyətləri və bu fəaliyyətlərin təsir gücünü azaltmaq və Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycan dövlətinin xaricdə yazayan azərbaycanlıları təşkilatlandırmaq məqsədli fəaliyyətləri tədqiq edilmiş, bu təşkilatların gördüyü işlərin təhlili aparılmışdır. Tədqiqat zamanı humanitar və siyasi elmin bir sıra metodlarından istifadə edilmişdir. Bu metodlar arasında müqayisəli təhlil, analogiya, sistemli təhlil, induksiya, sənədlərin təhlili və s. yer alır. Tədqiqatın başlıca elmi yeniliyini erməni diasporunun fəaliyyətinin təsir dairəsinin məhdudlaşdırılması məqsədilə Azərbaycan diasporunun iki müharibə dövründə fəaliyyətinin ətraflı təhlili təşkil edir. Tədqiqatın başlıca nəticəsi ondan ibarətdir ki, Azərbaycan dövlətinin planlı və sistemli fəaliyyəti nəticəsində ölkəmizdən xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması getdikcə genişlənmiş, mənbusu olduqları millətin maraqlarına dəstək verməyə başlamışlar. Bunun nəticəsində, Azərbaycan diasporunun təsir gücü və miqyası genişlənmiş, nəticədə erməni lobbisinin Azərbaycan əleyninə və Qarabağ həqiqətlərini gizlətmək, dezinformasiya yaymaq cəhdləri məhdudlaşdırılmışdır.

Açar sözlər: Azərbaycan diasporu, erməni diasporu, erməni lobbisi, dezinformasiya, lobbiçilik fəaliyyətləri.

Giriş. Təşkilatlanma səviyyəsinə görə dünyanın ən güclü icmaları arasında yer alan erməni diasporu, uzun illər ərzində yaratdığı lobbi təşkilatları şəbəkəsinin təsir gücündən həmişə təmsil etdiyi xalqın bədxah əməllərinə dəstək əldə etmək, əsl simasını ört-bas etmək üçün istifadə etmişdir. Belə güclü diasporun bədxah təcrübəsinin formalaşmasında şübhəsiz "türk" faktoru aparıcı rol oynamışdır.

Belə bir sistemli gücün Azərbaycan dövlətinə və xalqına qarşı amansız faəliyyətini və bədxah əməllərinin təsirini 30 ildən çoxdur ki, dərindən hiss edirik. Qarabağ müharibəsində Ermənistana güclü hərbi-siyasi dəstək verən dövlətlərin bu dəstəyi sayəsində torpaqlarımızın 20%-ni işğal edən ermənilər, güclü lobbi təşkilatları vasitəsilə dünya miqyasında öz işğalçılıq əməllərini haqlı çıxarmağa çalışmış və Azərbaycan əleyhinə geniş miqyaslı fəaliyyət göstərmişlər. Müstəqilliyin ilk illərində ölkə daxilində hərbi-siyasi və sosial-iqtisadi vəziyyətin mürəkkəb olmasından istifadə edən ermənilərə qarşı Azərbaycan dövləti adekvat reaksiya verə bilməmiş, bu isə xalqımızın haqq səsinin dünyada eşidilməsinin qarşısını almışdır. Bu reallığı vaxtından başa görən uzaqgörən ümummilli liderimiz Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması və fəaliyyətlərinin sistemləşdirilməsi istiqamətində sürətli addımlar atmış, dövlət-diaspora münasibətlərinin yüksək səviyyətə təşkil edilməsi üçün hüquqi-təşkilati işlər görmüşdür. Bütün bunlar isə illər geçtikcə öz nəticəsini daha aydın göstərməyə başlamış və Erməni lobbisi sözün əsl mənasında balanslaşdırılmışdır.

Erməni lobbi təşkilatlarının Azərbaycan əleyhinə fəaliyyətləri. 1994-2020-ci illər arasında, yəni atəşkəs dövründə, erməni lobbi təşkilatları Azərbaycan əleyhinə geniş və sistematik fəaliyyət göstərmişdir. Bu fəaliyyətlər əsasən aşağıdakı istiqamətlərdə aparılmışdır:

- Təbliğat və dezinformasiya kampaniyaları [8]: Erməni lobbi təşkilatları müxtəlif media platformalarında Azərbaycanın əleyhinə təbliğat apararaq Qarabağ münaqişəsində öz mövqelərini beynəlxalq

ictimaiyyətə qəbul etdirməyə çalışmışdır. Qarabağ münaqişəsini "ermənilərin müstəqillik mübarizəsi" kimi təqdim etməklə, Azərbaycanı "təcavüzkar" kimi göstərməyə cəhd etmişlər. Sosial media, beynəlxalq media qurumları və qeyri-hökumət təşkilatları (QHT) vasitəsilə Azərbaycanın Qarabağdakı tarixi irsini inkar edən və təhrif edən məqalələr yayılmışdır.

- Diplomatik təzyiqlər və tanınma cəhdləri: Erməni diasporu və lobbi təşkilatları dünya ölkələrində, xüsusilə ABŞ və Avropa dövlətlərində Qarabağda qondarma "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyinin tanınması üçün çalışmışdır. ABŞ-ın bəzi ştatlarında və Avropanın bəzi parlamentlərində Qarabağla bağlı Azərbaycan əleyhinə qətnamələrin qəbul edilməsinə nail olmuşlar. Avropa Parlamenti və BMT kimi beynəlxalq qurumlarda Ermənistanın maraqlarına xidmət edən qətnamələrin qəbuluna çalışmışlar.

- İqtisadi sanksiyalar və blokadalar üçün təşəbbüslər [7]: Azərbaycanın enerji layihələrini sabotaj etmək məqsədilə erməni lobbisi müəyyən ölkələrdə Azərbaycanın neft və qaz ixracatına maneə törətməyə cəhtlər etmişdir. Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTE) kimi enerji layihələrinin reallaşmasının qarşısını almaq üçün "ekoloji və insan hüquqları pozuntuları" kimi cəfəng iddialarla bir sıra kampaniyalar aparmışdır. Ermənistanın iqtisadi blokadadan çıxması üçün beynəlxalq təşkilatlara təzyiqlər göstərmişdir.

- Hüquq və insan haqları məsələləri üzərindən manipulyasiyalar: Xocalı soyqırımını inkar edən və Azərbaycanı "müharibə cinayətləri törətməkdə" ittiham edən kampaniyalar təşkil olunmuşdur. Beynəlxalq məhkəmələrdə və insan hüquqları təşkilatlarında Azərbaycanın Qarabağda apardığı siyasətə qarşı iddialar qaldırılmışdır. Ermənilərin "məcburi köçkün" statusu ilə bağlı beynəlxalq arenada diqqət çəkməyə çalışmışlar.

- Türkiyə və Azərbaycan əleyhinə birgə fəaliyyətlər: Erməni diasporası xüsusilə ABŞ-da və Fransada "erməni soyqırımı" iddialarını gündəmdə saxlayaraq Türkiyə və Azərbaycanı birgə şəkildə hədəfə almışdır. Azərbaycan-Türkiyə strateji əməkdaşlığına mane olmaq məqsədilə erməni lobbiçiləri müxtəlif siyasi və iqtisadi təşəbbüslərlə çıxış etmişlər.

- Lobbiçilik və siyasi təsir [10]: ABŞ-da ANCA (Armenian National Committee of America), Fransa və digər ölkələrdə isə ARF (Armenian Revolutionary Federation) kimi lobbi təşkilatları vasitəsilə Azərbaycanın maraqlarına zərbə vurmağa çalışılmışdır. Erməni diasporu ABŞ Konqresi və Avropa Parlamentində Azərbaycan əleyhinə qanunların qəbuluna təsir göstərmişdir. Erməni lobbiləri müxtəlif QHT-lərə maliyyə yardımı göstərərək anti-Azərbaycan məqalə və hesabatların hazırlanmasını təşviq etmişdir.

- Mədəni və tarixi irsə yönəlik iddialar: Azərbaycan mədəniyyətinin Qarabağda "erməni irsinin bir hissəsi" kimi təqdim olunmasına çalışılmışdır. UNESCO və digər beynəlxalq mədəniyyət qurumlarında Azərbaycanın tarixi abidələrinin "ermənilərə məxsus olduğu" barədə saxta məlumatlar yayılmışdır.

Bu dövr ərzində Azərbaycan isə informasiya və diplomatik mübarizəsini gücləndirərək bu cəhdlərin qarşısını almaq üçün müxtəlif strategiyalar həyata keçirmişdir.

Erməni lobbisinə qarşı Azərbaycan diasporunun təşkilatlandırılması fəaliyyətləri. Azərbaycan diasporunun mütəşəkkil varlıq kimi meydana gəlməsində və milli maraqların qorunması uğrunda effektiv və ardıcıl fəaliyyət göstərməsində ulu öndər Heydər Əliyevin və onun xarici siyasət kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu böyükdür. 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olmuş Heydər Əliyevin və 2003-cü ildən Prezident İlham Əliyevin diaspor quruculuğu ilə əlaqədar imzaladığı qərarlar, fərmanlar və sərəncamların təhlili, xarici səfərlərdə diaspor təşkilatları ilə görüşləri, çıxışları və bəyanatları onu göstərir ki, erməni lobbisinin Azərbaycan əleyhinə, Qarabağ həqiqətlərini dünyadan gizlətmək səylərinin qarşısını almaq üçün diasporun təşkilatlanması üçün ardıcıl kurs həyata keçirilmişdir [3; 2; 5]. Milli dövlətin maraqlarına sadiqliq və onun maraqlarının qorunmasının əhəmiyyətinin dərk olunması bu kursun başlıca tərkib hissəsini təşkil etmişdir.

Hazırda dünyanın əksər ölkəsində 300-ə yaxın icma və birliyimiz fəaliyyət göstərir və diasporumuzun təşkilatlanma prosesi bu gün də davam edir. Hələ diaspor komitəsi yaranmamışdan əvvəl formalaşmış və ayrı-ayrılıqda fəaliyyət göstərən çoxsaylı cəmiyyət və birliklər bir araya gələrək, Azərbaycan federal birlikləri yaratmağa başladılar. Onların sırasında Ümumrusiya Azərbaycan Konqresini,

Ukrayna Azərbaycanlıları Konqresini, Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyətini, Almaniya Azərbaycan Cəmiyyətləri Federasiyasını, İsveç-Azərbaycan Federasiyasını, Qazaxıstan, Qırğızıstan və Özbəkistan Azərbaycanlılarının "Turan" Konqresi və Qırğızıstanda "Azəri" İctimai Birliyini qeyd etmək olar [14, s.72].

Azərbaycan xalqının dünyanın müxtəlif dövlətlərində yaşayan nümayəndələri öz təşkilatlanma və mütəşəkkillik səviyyəsinə görə ermənilərlə müqayisə edilməyəcək dərəcədə zəif görüntü vermişdir. Bunun bir sıra səbəblərinin olduğunu qeyd etmək olar. Ancaq başlıca səbəblərdən biri ana vətən və mərkəzi dövlət təşkilatı ilə əlaqələrin ya olmaması və yaxud aşağı səviyyədə olmasıdır. Məsələn, sovet dövründə erməni lobbisi ilə Ermənistanın münasibətləri yüksək səviyyədə davam etmişdir. Sovet rejimi də bu münasibətlərin davam etməsində maraqlı olmuşdur. Çünki NATO-ya qarşı, alyansın üzvlərindən biri olan Türkiyəyə qarşı Erməni diasporunun, erməni lobbi təşkilatlarının, hətta erməni terror təşkilatlarının gücündən istifadə etməkdə sovet rəhbərliyi həmişə maraqlı olmuşdur. Bu isə imkan vermişdir ki, erməni lobbisi ilə Ermənistan dövlətinin münasibətləri davam etsin, lobbi təşkilatları Sovet İttifaqının və dolayısı ilə Ermənistanın maraqlarına xidmət göstərsin. Azərbaycan diasporu üçün isə bunları demək mümkün deyil. Müqayisə üçün qeyd etmək olar ki, dünya azərbaycanlılarının böyük əksəriyyətinin yaşadığı İran İslam Respublikasında belə soydaşlarımızın Azərbaycan Respublikasının milli maraqlarını qorumaq, rəsmi Tehranın bu maraqlara zidd addımlar atmasının qarşısını almaq üçün təzyiqlər göstərmək baxımından gücü yetəri səviyyədə olmamışdır. Xarici dövlətlərdə yaşayan azərbaycanlıların təşkilatlanma səviyyəsinin zəifliyi, onların lobbiçilik imkanlarının yetərsizliyi, mərkəzi dövlət aparatı ilə münasibətlərin zəif olması və bütün bunlardan qaynaqlanan Azərbaycan diasporunun beynəlxalq səviyyədə milli maraqlarımızın qorunmasında passiv qalması ən çox ulu öndər Heydər Əliyevi narahat etmişdir. Ulu öndər Azərbaycan dövlətçiliyinin ən ağır günlərində, üzünü həm də diaspora tutmuş, onların təşkilatlanmasına dəstək vermiş və milli maraqlarımızın qorunmasında, xalqımızın haqq səsinin dünyaya çatdırılmasında üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməsində fəal rol oynamağa səsləmişdir. Heydər Əliyev 29 yanvar 1995-c il tarixində İsveçrədə yaşayan həmvətənlərlə görüşdə diasporun əhəmiyyətini belə qeyd edirdi:

"Bilirsiniz ki, mən 14 il - 1969-cu ildən 1982-ci ilə qədər Azərbaycan Respublikasına rəhbərlik etmişəm, o vaxt Azərbaycan Sovetlər İttifaqının on beş respublikasından biri idi. Xatirəmdədir, o vaxt çalışırdım ki, azərbaycanlılar, xüsusən gənclər təkcə Azərbaycanda qalmasınlar, Sovetlər İttifaqının başqa şəhərlərində, respublikalarında da yaşasınlar, yayılsınlar, səpələnsinlər. Qoy hər yerdə Azərbaycanın diasporu olsun, lobbisi olsun" [1, s.23].

Ulu öndər bununla da qalmamış, diasporla iş üzrə öz siyasi kursunu ardıcıl olaraq həyata keçirmişdir. 1997-ci ildə "Dünya Azərbaycanlıları Konqresi"nin ABŞ-də yaradılması və 1997–2001-ci illərdə Dünya azərbaycanlılarının I, II, III, IV və V konqresləri keçirilməsi dahi liderin rəhbərliyi ilə bu istiqamətdə əldə edilən uğurlardır [12, s.8]. Ulu öndərin təşəbbüsü ilə xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması istiqamətində həyata keçirdiyi işlər, bu istiqamətdə Azərbaycan dövlətinin maraqlı tərəf olduğunu göstərən addım kimi 2001-ci ilin noyabrında "Dünya azərbaycanlılarının birinci qurultayı"nın təşkil edilməsi, 2002-ci ilin 5 iyununda "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi"nin yaradılması, həmçinin 2003-cü ilin 21 fevralında "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi bu istiqamətdə həyata keçirilən müstəsna əhəmiyyətə malik işlər olaraq göstərilə bilər [5, s.218].

Ulu öndər Heydər Əliyevin diaspor məsələsinə verdiyi önəm və dəstək, onun imkanlarının hərəkətə keçirilməsi üçün müəyyən etdiyi faəliyyət strategiyası, onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də davam etdirilmişdir. Bu diqqət qayğının nəticəsidir ki, taleyüklü məsələlərimizində, haqq səsimizin dünyaya çatdırılmasında diaspor təşkilatlarının fəaliyyəti özünü getdikcə daha qabarıq şəkildə büruzə vermişdir. Bədii dillə desək, "tək əldən səs çıxmaz, güc birlikdədir" atalar sözündə olduğu kimi, pərakəndə şəkildə yaşamağı sevən, təşkilatlamaqda həvəssiz olan xaricdə yaşayan azərbaycanlıları birləşdirən "üstün və birləşdirici ağıl" ulu öndər və cənab Prezidentin timsalında bu missiyanı da həyata keçirmiş və qələbəyə gedən yolda diasporumuzun fəallıq səviyyəsi yüksəlmişdir. Konkret misal çəkmək lazım gəlsə, Tovuz təxribatları, Ermənistanın işğalçılıq siyasəti, ordumuzun torpaqlarımızın bütövlüyü uğrunda apardığı hərbi əməliyyatlarla bağlı həqiqətləri əks etdirən müxtəlif dillərdə minlərlə məktub Azərbaycan diaspor könüllüləri, xaricdə yaşayan gənclər

vasitəsilə dünyanın aparıcı siyasətçilərinə və ABŞ konqresmenlərinə göndərilmişdir. Dövlət Komitəsinin koordinasiyası ilə 50-dən çox ölkədə fəaliyyət göstərən 300-ə yaxın diaspor təşkilatı, beynəlxalq təşkilatlar, BMT, Avropa Parlamenti, Avropa Şurası və digər beynəlxalq qurumlara 23 dildə 500-dən artıq bəyanat göndərilmişdir [12, s. 8].

Azərbaycan diasporunun milli maraqlarımıza xidmət edən fəaliyyət istiqamətlərinə yaxından nəzər yetirək.

Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan diasporunun rolu. Hər şeydən əvvəl onu qeyd etmək yerinə düşər ki, diaspor təşkilatları mənsubu olduqları millətin və milli dövlətin mənafeyi uğrunda geniş təbliğat işi aparmaqla, mənşə dövləti ilə donor dövlət arasında dostluq və əməkdaşlıq münasibətlərinin qurulmasında və inkişafında yaxından iştirak edərək, tarixi missiya həyata keçirirlər. Diasporun təşkilatlanma səviyyəsi onun bağlı qapıları açan "sehirli açar" rolunu daha fəal yerinə yetirməsində böyük rol oynayır [11, s.5-6]. Bunu Azərbaycan diasporunun timsalında görmək mümkündür. Pərakəndə hərəkət edən diaspor təşkilatlarımızı, milli dövlətin dəstəyi və koordinasiyası sayəsində sürətlə milli maraqlara xidmət edən fəaliyyət proqramı həyata keçirməyə başlamış, erməni lobbisinin fəaliyyətini balanslaşdırmağı bacarmışdır.

Görülən əsas işlərə yaxından nəzər yetirək [15, s.2-3,76-77]:

- Diaspor təşkilatlarının yaradılması və gücləndirilməsi: Dünyanın müxtəlif ölkələrində Azərbaycan icmaları və diaspor təşkilatları yaradılıb və onların fəaliyyəti gücləndirildi. "Diasporla İş üzrə Dövlət Komitəsi" və "Azərbaycan Diaspor Gəncləri" kimi qurumlar koordinasiya işləri aparır. Xüsusilə ABŞ, Fransa, Almaniya, Rusiya və digər ölkələrdə diaspor təşkilatları mütəmadi olaraq Azərbaycan həqiqətlərini yaymaq üçün tədbirlər görür.

- İctimai diplomatiya və maarifləndirmə: Diaspor təşkilatları müxtəlif ölkələrdə konfranslar, sərgilər və seminarlar təşkil edərək Qarabağ həqiqətləri barədə məlumat verir. Xarici mediada məqalələr dərc etdirərək, ictimaiyyətin diqqətini tarixi və hüquqi faktlara yönəldirlər. Bunun üçün beynəlxalq mediada məqalələr dərc etdirilir və nüfuzlu jurnalistlər, ekspertlər Azərbaycanın mövqeyini ifadə edirlər. Sosial media platformalarında kampaniyalar apararaq geniş auditoriyaya çıxış əldə edirlər. Erməni lobbisinin dezinformasiyalarına qarşı Azərbaycan həqiqətlərini çatdırmaq üçün media platformalarından (sosial media, xəbər portalları, televiziya) aktiv istifadə olunur. İnformasiya müharibəsi çərçivəsində diaspor gəncləri sosial mediada aktiv iştirak edirlər. Kanadanın "Omni Television" kanalı 2020-ci ildən Azərbaycan dilində verilişlərin yayımına başlamış yeganə televiza kanalı kimi həm milli maraqlarımızın müdafiəsini, həm də bu ölkədə yaşayan soydaşlarımız arasında əlaqələndirici rolunu həyata keçirir [13].

- Siyasi və hüquqi mübarizə: Diaspor nümayəndələri yaşadıqları ölkələrin parlament üzvləri, siyasətçiləri və QHT-lərlə əlaqələr quraraq Azərbaycan həqiqətlərini onların diqqətinə çatdırırlar. Azərbaycan diasporu yerləşdiyi ölkələrin qanunverici orqanlarında Azərbaycanla bağlı müsbət qərarların qəbul edilməsi üçün lobbiçilik fəaliyyətləri aparır. Yerli və beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək hüquqi müstəvidə Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu vurğulayırlar. İctimai rəyin formalaşdırılması üçün deputatlarla, ictimai xadimlərlə və diplomatlarla iş aparılır.

- Xocalı soyqırımının tanıdılması [9, s.65]: Xocalı faciəsinin beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə "Justice for Khojaly" (Xocalıya Ədalət) kampaniyası həyata keçirilir. Bəzi ölkələrin parlamentləri artıq Xocalı soyqırımını tanayan qərarlar qəbul etmişdir. Hər il müxtəlif ölkələrdə yürüşlər, seminarlar və konfranslar təşkil edilir.

- Mədəni tədbirlər: Azərbaycan mədəniyyətini, Qarabağın tarixi və mədəni irsini tanıtmaq məqsədilə musiqi festivalları, incəsənət sərgiləri və ədəbiyyat günləri təşkil edirlər. Qarabağın maddi və qeyri-maddi irsinin təbliğ olunması üçün müxtəlif mədəni layihələr həyata keçirirlər.

- Lobbizm və əlaqələrin genişləndirilməsi: Beynəlxalq təşkilatlarda, nüfuzlu tədbirlərdə iştirak edərək Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmağa çalışırlar. Xarici ölkələrdə yaşayan azərbaycanlılar yaşadıqları cəmiyyətlərdə aktiv şəkildə iştirak edərək Azərbaycanın mövqeyini müdafiə edirlər.

- Humanitar təşəbbüslər: Qarabağ müharibəsi nəticəsində zərərçəkmiş insanlara dəstək məqsədilə yardım aksiyaları təşkil edərək, beynəlxalq ictimaiyyətin diqqətini bu məsələyə yönəldirlər.

Qaçqın və məcburi köçkünlərin vəziyyəti haqqında məlumatların yayılması üçün müxtəlif layihələr həyata keçirirlər.

- Qarabağ zəfərinin tanıdılması [6]: 44 günlük Vətən müharibəsində əldə olunan qələbə dünya ictimaiyyətinə çatdırılır və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mövqe gücləndirilir. Qarabağın bərpası və inkişafı ilə bağlı layihələr beynəlxalq ictimaiyyətə təqdim edilir.

- Erməni yalanlarının ifşası: Diaspor təşkilatları müxtəlif sənədlər, filmlər və araşdırmalar vasitəsilə erməni yalanlarını ifşa edir. Qondarma "erməni soyqırımı" iddialarına qarşı tarixi faktlar əsasında cavablar verilir.

Bu fəaliyyətlər Azərbaycanın milli maraqlarının qorunmasına və erməni lobbisinin uzun illər ərzində yaratdığı təhrif olunmuş təsvirin aradan qaldırılmasına yönəlmişdir.

Nəticə. Azərbaycan diasporu 1990-cı illərin əvvəllərində sərgilədiyi pərakəndə görüntüdən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə xilas olmuş və getdikcə vahid orqanizm şəklini almışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısını həmişə hiss edən Azərbaycan diaspor təşkilatlarının gücü daha da artmış və onun fəaliyyəti hərtərəfli və səmərəli səviyyəyə çatmışdır.

Azərbaycan diasporu Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində çoxşaxəli rola malik olmuş və onun bu istiqamətdəki fəaliyyəti təşkilatma səviyyəsi artdıqca daha da güclənmişdir. Belə demək olar ki, Ermənistanla mübarizədə yeni bir cəbhə - Azərbaycan diasporu cəbhəsi açılmışdır.

44 günlük Vətən müharibəsi günlərində xaricdə yaşayan soydaşlarımız həm ədalətin yenidən təcəlli etməsi uğrunda ordumuzun aldığı qələbələri dünyaya çatdırmış, erməni lobbisinin dezinformasiya təbliğatının qarşısını almış, həmçinin milli ordumuza, şəhid ailələrinə, qazilərə maddi kömək göstərilməsində fəal iştirak etmişlər.

Diasporun fəaliyyətinin effektivliyini artırmaq üçün vahid strategiya, koordinasiya və kommunikasiya mexanizmlərinin vacibliyi, onun fəaliyyətinin yalnız informasiya yaymaqla məhdudlaşmaması, eyni zamanda Azərbaycan həqiqətlərinin beynəlxalq hüquq çərçivəsində tanınması məqsədinə yönəlməsi vacibdir.

ƏDƏBİYYAT

1. Azərbaycan diasporu. Tammətnli elektron materiallar məcmuəsi / Bakı: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, – 2005. – 693s.
2. Azərbaycan diasporu: böyük yolun başlanğıcı // tərtib edən N.Qurbanov və b., - Azərb. Res. Dias. İş Üzrə Döv. Komitəsi. – Bakı: Çaşıoğlu, – 2006. – 208s.
3. Azərbaycan diasporuna dövlət qayğısı /Heydər Əliyevin çıxışları. –Bakı: Çaşıoğlu, –2003. –301s.
4. Azərbaycan diasporuna dövlət qayğısı/red: N.Qurbanov, – Bakı: Adiloğlu, – 2009, – 284s.
5. Azərbaycan diasporuna dövlət qayğısı / Bakı: Adiloğlu, – 2009. – 284 s.
6. Azərbaycan diasporunun fəaliyyət dairəsi genişlənəcək: [elektron resurs] / - Noyabr 02, 2023. URL: https://1news.az/az/news/20231101055725284-Azerbaycan-diasporunun-fealiyyet-dairesi-genishlenecek-MUSAHIBE [10.02.2025].
7. Azərbaycana qarşı hücumlar- Erməni diasporunun siyasi korrupsiya fəaliyyəti- Sensasion faktlar [elektron resurs] / Yeni Müsavat qəzeti. – 2023, 22 noyabr. URL: https://musavat.com/news/dezinformasiyaya-qarsi-mubarize-ifsa-detektoru-layihesi_1023178.html [10.02.2025].
8. Cəfərov, T. Erməni diasporu / Taleh Cəfərov. – Bakı: Elm və Təhsil, – 2019. – 232s.
9. Diaspor quruculuğu: lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi / Mahir İbrahimov (redaktor). – Bakı: AMEA "Nəşriyyat" şöbəsi, – 2023. – 358 s.
10. Erməni lobbisi Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyəti qarşısında aciz qaldı: [elektron resurs] / Azərtac, - Avqust 10, 2020. URL: https://azertag.az/xeber/ermeni_lobbisi_azerbaycan_ve_turk_diaspor_teskilatlarinin_birge_fealiyyeti_qarsisinda_aciz_qaldi-1557457 [10.02.2025].
11. Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu / Z. Əliyev. – Bakı: Nurlan, –2001. – 150s.

12. Əsgərova, Z. Birlik və həmrəylikdən keçən tarixi yol / Xalq qəzeti. – 2025, 9 yanvar. – s. 8.
13. Kanadada Azərbaycan dilində yayımlanan yeganə telekanal fəaliyyətini genişləndirmək niyyətindədir: [electron resurs] / Azərtac. – Yanvar 31, 2020. URL: https://azertag.az/xeber/1401098 [10.02.2025].
14. Məmmədov, R. Diasporla əlaqələr, dövlət-diaspor münasibətləri // - Bakı: AMEA Xəbərlər. İctimai və humanitar elmlər seriyası. – 2012. №1/8, – s. 68-73.
15. Tağıyeva M. (tərtib edən). Azərbaycan Diasporu: 2016: [elektron resurs] /Diasporla İş üzrə Dövlət Komitəsi. URL: https://diaspor.gov.az/upload/20220624025238_2016.pdf [10.02.2025].

ГЮЛЬШАН БАБАЕВА
Диссертант кафедры социальных наук
Гянджинского государственного университета

ДЕЯТЕЛЬНОСТЬ АЗЕРБАЙДЖАНСКИХ ДИАСПОРОВЫХ ОРГАНИЗАЦИЙ ПРОТИВ АРМЯНСКОГО ЛОББИ (1994-2020)

Неоспоримым фактом является то, что армянская диаспора является одной из сильнейших диаспор в мире по уровню своей организованности, силе влияния сети лоббистских организаций и мерзкому опыту. Несомненно, “турецкий” фактор сыграл ведущую роль в формировании зловещего опыта такой сильной диаспоры. На протяжении более 30 лет мы глубоко ощущали беспощадную деятельность такого системного правительства против азербайджанского государства и народа и влияние его злодейских действий. В этой статье рассматривались антиазербайджанские действия армянской диаспоры в период прекращения огня и деятельность азербайджанского государства по организации переписки азербайджанцев за рубежом с целью уменьшения влияния этих действий и доведения карабахских реалий до мирового сообщества, а также анализировалась работа, проделанная этими организациями.

В ходе исследования был использован ряд методов гуманитарной и политологической науки. К таким методам относятся сравнительный анализ, аналогия, системный анализ, индукция, анализ документов и др. Главным научным новшеством исследования является детальный анализ деятельности азербайджанской диаспоры во время двух войн с целью ограничения сферы влияния деятельности армянской диаспоры.

Главным результатом исследования является то, что в результате планомерной и систематической деятельности азербайджанского государства организация азербайджанцев, проживающих за рубежом, постепенно расширилась, и они начали поддерживать национальные интересы нации, к которой принадлежат. В результате расширились влияние и масштабы азербайджанской диаспоры, и, как следствие, попытки армянского лобби скрыть правду об Азербайджане и Карабахе и распространить дезинформацию были ограничены.

Ключевые слова: Азербайджанская диаспора, армянская диаспора, армянское лобби, дезинформация, лоббистская деятельность.

GULSHAN BABAYEVA
Dissertation student at the Department of Social Sciences,
Ganja State University

ACTIVITIES OF AZERBAIJAN DIASPORA ORGANIZATIONS AFAINST THE ARMENIAN LOBBY (1994-2020)

It is an indisputable fact that the Armenian diaspora is one of the strongest diasporas in the world in terms of the level of its organization, the strength of the influence of the network of lobbyist orga-

nizations and the vile experience. Undoubtedly, the "Turkish" factor played a leading role in the formation of the sinister experience of such a strong diaspora. For more than 30 years, we have deeply felt the merciless activity of such a system government against the Azerbaijani state and people and the influence of its evil actions. This article examined the anti-Azerbaijani actions of the Armenian diaspora during the ceasefire period and the activities of the Azerbaijani state in organizing Azerbaijanis writing abroad in order to reduce the impact of these actions and bring the Karabakh realities to the world community, and analyzed the work done by these organizations.

A number of methods of humanitarian and political science were used during the research. These methods include comparative analysis, analogy, systematic analysis, induction, document analysis, etc. The main scientific innovation of the study is a detailed analysis of the activities of the Azerbaijani diaspora during the two wars, with the aim of limiting the sphere of influence of the activities of the Armenian diaspora.

The main result of the study is that as a result of the planned and systematic activities of the Azerbaijani state, the organization of Azerbaijanis living abroad has gradually expanded, and they have begun to support the national interests of the nation of which they are members. As a result, the influence and scale of the Azerbaijani diaspora have expanded, and as a result, the attempts of the Armenian lobby to hide the truth about Azerbaijan and Karabakh and to spread disinformation have been limited.

Keywords: Azerbaijani diaspora, Armenian diaspora, Armenian lobby, disinformation, lobbying activities.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: s.e.f.d. Asim Məmmədov, t.e.d. Qabil Əliyev.

UOT 32:93/94

СОНА АБАСОВА
Диссертант Бакинского Государственного Университета
Sabasova9@gmail.com

ИТОГИ COP29: МИР НА ПОРОГЕ ГЛОБАЛЬНЫХ РЕФОРМ

DOI: https://doi.org/10.36719/2708-065X/108/173-176

В статье анализируются итоги и решения 29-й сессии Конференции сторон Рамочной конвенции ООН об изменении климата (COP29), а также ее влияние на международный имидж страны. Основным инструментом международного имиджа страны в данной статье рассматривается международное событие COP29, которое гуманизирует международные отношения. В статье также констатируется проведение многочисленных встреч вовремя COP29.

Ключевые слова: COP29, международный имидж государства, зеленая политика, международные события**,** туристическая область, межкультурные связи, международное сотрудничество, дискуссия.

Введение. Решения, принятые по итогам 29-й сессии Конференции сторон Рамочной конвенции ООН об изменении климата (COP29), имеют исключительное значение для будущего человечества и еще раз продемонстрировали лидерские способности и международный авторитет Азербайджана. Официальный Баку мобилизовал все силы для завершения мероприятия, начавшегося 11 ноября, на котором проходили дискуссии по глобальным климатическим изменениям, принятием решений, ожидаемых странами мира, особенно развивающимися государствами.

В рамках COP29 состоялись тематические дни, одно из них мероприятие на тему *«Меры устойчивости для Кавказских гор и их окрестностей: Национальные планы адаптации (НПА) и региональные подходы».* Специальный представитель Президента Кыргызской Республики Динара Кемелова отметила важность Национальных планов адаптации и региональных подходов в борьбе с изменением климата. «Одних национальных действий недостаточно для защиты наших горных регионов. Мы должны объединить наши усилия и найти решения, основанные на диалоге, обмене и сотрудничестве, действуя сообща, мы сможем обеспечить устойчивость наших гор и добиться защиты ресурсов, важных для людей и природы - сказала она [1].

На мероприятии в рамках COP29 на тему *«Леса для климата, природы и людей: использование климатического финансирования для лесов»* заместитель министра экологии и природных ресурсов Азербайджана Умайра Тагиева заявила, что в июне следующего года Азербайджан проведет Международную конференцию на тему «Синергия для устойчивого лесного хозяйства и биоразнообразия: диалог сотрудничества во имя зеленого мира». «Это мероприятие, нацеленное на решение проблем в области лесного хозяйства и сохранения биоразнообразия, укрепление партнерства и продвижение инновационных решений для глобальной устойчивости, объединит экспертов, политиков и заинтересованные стороны. Мы с нетерпением ждем вашего участия в этом важном мероприятии. Чтобы достичь этого, мы должны усилить политику, направленную на борьбу с вырубкой лесов и деградацией экосистем», - сказала она.

Выступившая на мероприятии на тему *«Гендер в прозрачности»* в рамках COP29 руководитель Секции по расширению экономических прав и возможностей структуры «ООН Женщины» Джемима Нджуки отметила - мы должны защищать права женщин и девушек. Мы обладаем уникальными возможностями, и в этой связи нам нужно хорошо изучить, какие меры будут приняты в отношении климатических финансов. Это финансирование должно охватывать девушек и женщин. На африканском континенте имеются проблемы с питьевой водой, Джемима Нджуки подчеркнула, что основная нагрузка здесь ложится на плечи женщин: «В поисках питьевой воды они преодолевают большие расстояния. К 2050 году около 150 миллионов жен-

щин окажутся за чертой бедности. Мы должны работать над тем, чтобы усилить женский голос в процессе решения проблем, связанных с климатом» [2].

В рамках COP29 состоялся круглый стол лидеров зеленых городов региона SPECA, организованный Европейским банком реконструкции и развития (ЕБРР). На панельных сессиях представители экономической комиссии ООН по Европе, Азиатского банка инфраструктурных инвестиций, Азиатского банка развития, а также Экономической и социальной комиссии ООН для Азии и Тихого океана (ЭСКАТО) подчеркнули значимость партнерских инициатив в рамках SPECA. Глава Исполнительной власти города Гянджа Ниязи Байрамов и первый заместитель председателя города Душанбе Джамшид Т. сказали, что форум климатически умных городов SPECA предоставит всем городам-участникам возможности для эффективной реализации поставленных целей. По итогам круглого стола была подписана Бакинская декларация форума климатически умных городов SPECA. Документ предполагает тесное сотрудничество городов-участников для реализации общих целей в области климата.

Также в рамках COP29 приняли Водную декларацию. Круговорот воды подвержен изменениям, главным образом, из-за изменений климата. Нам необходимо обсуждать тему воды на разных климатических платформах, потому что она очень важна с точки зрения климата. «Мы очень хорошо осознаем трудности, связанные с водной безопасностью в Азербайджане. Как вы знаете, уровень Каспийского моря снижается, и эта тема также поднималась в рамках COP29. Мы посчитали, что когда Азербайджан будет избран председателем COP29, должны представить тему Каспийского моря на данной климатической платформе и найти взаимоприемлемые пути решения для выхода из этой сложной ситуации. Многие рассматривают воду как проблему, в то время как вода является решением, частью адаптации к изменению климата, а также смягчения последствий изменения климата. Именно поэтому сегодня, впервые в истории COP, мы примем *Водную декларацию*, - сказала Кямаля Гусейнли-Абишова.

Азербайджану удалось добиться исторических результатов на переговорах по климату. Глава государства подчеркнул, что руководствуясь лозунгом "Солидарность во имя зеленого мира", Азербайджан выступал в качестве честного посредника и использовал все возможности для беспристрастного содействия переговорам. На протяжении всего процесса мы призывали к достижению результата, учитывающего потребности развивающихся стран, в частности малых островных развивающихся и наименее развитых государств, поскольку они несут основное бремя климатических изменений и сталкиваются с экзистенциальной угрозой.

На COP29, была достигнута историческая договоренность по полной согласованности шестой статьи Парижского соглашения по климату. Хотя на COP28 в Дубае возлагались большие надежды на согласование пункта 6.4 Парижского соглашения, это оказалось невозможным. Однако на саммите в Баку стороны смогли договориться по пунктам 6.2, 6.4 и 6.8, дав зеленый свет функционированию углеродного рынка под полным контролем Рамочной конвенции ООН об изменении климата (UNFCCC). Шестая статья в целом предусматривает сотрудничество стран в реализации мероприятий по сокращению выбросов. Государства должны отчитываться друг перед другом о принятых мерах по сокращению выбросов углекислого газа и их переработке.

Сайт Traveldaily News отмечает, что лидеры государственного и частного секторов на COP29 признали значительное влияние изменения климата на туристический сектор. В то же время подчеркивается активное продвижение стратегий адаптации к изменению климата и восстановления туризма. Сообщается, что в мероприятиях Дня туризма, организованного в рамках COP29, приняли участие более 700 заинтересованных сторон [3].

С технической и организационной точки зрения COP29 был проведен на должном уровне и в определенной мере послужил достижению имиджевых целей. В целом высоко оценили мероприятие по климату COP29 проведенное Баку:

- председатель Организации сотрудничества железных дорог (ОСЖД) Мирослав Антонович. «Азербайджанские железные дороги» играют ключевую роль в развитии железнодорожной линии Баку-Тбилиси-Карс, которая является важной частью Среднего коридора. Председа-

тель ОСЖД подчеркнул стратегическое значение этого коридора для ускорения и упрощения грузоперевозок между Азией и Европой [4].

- Представитель Международной Федерации обществ Красного Креста и Красного полумесяца Нинни Иккала Найман отметила активное участие молодежи и общественности в COP29.

- Представитель Танзании Джудика Соломон Лосай - основной темой COP29 являются финансы: «Думаю, что решения, принятые на этой конференции, будут иметь положительный результат с точки зрения финансирования бедных или развивающихся стран».

- Руководитель Национального музея Грузии член-корреспондент Академии наук Грузии профессор Давид Лордкипанидзе в рамках COP29 сказал, - «Я думаю, что это еще один шаг для Азербайджана и Баку, чтобы быть на большой карте». Он подчеркнул значение Гобустана как исторического наследия не только для Азербайджана, но и для всего мира.

Также на брифинге в Москве официальный представитель МИД РФ Мария Захарова отметила превосходную организацию Конференции ООН по климату COP29 в Баку. М.Захарова подчеркнула «традиционно теплый, радушный» прием азербайджанской стороной делегации РФ. «Мы убеждены, что проведение этого мероприятия в Азербайджане повысит авторитет Баку на мировой арене, тем более такие результаты, успехи и такой уровень был продемонстрирован».

Заключение. Азербайджан успешно справился с широкомасштабным мероприятием, продемонстрировав организаторский талант высокого уровня в этой сфере. Наглядным свидетельством этого является то, что все стороны единогласно решили официально поблагодарить Азербайджан за организацию COP29 на высоком уровне.

Участники COP29 обязались выплачивать 300 миллиардов долларов в год, чтобы помочь более бедным и уязвимым государствам адаптироваться к изменению климата и перевести свою экономику на "зелёную" энергетику к 2035 году. Эти деньги должны позволить развивающимся странам финансировать меры для борьбы с изменением климата, а также адаптироваться к последствиям глобального потепления, таким как более частые засухи, штормы и наводнения.

Основные результаты COP29:

- Увеличение государственного финансирования мер по борьбе с изменением климата в три раза до 300 млрд долларов США в год для развивающихся стран, начиная с 2025 года и до 2035 года.

- Укрепление сотрудничества между всеми заинтересованными сторонами в области климата для увеличения финансирования развивающихся стран из всех источников (государственных и частных, включая многосторонние банки развития) до 1,3 трлн долларов США в год к 2035 году.

ЛИТЕРАТУРА

1. В рамках COP29 обсуждены меры устойчивости для Кавказских гор и региональное сотрудничество. URL: https://azertag.az/ru/xeber/v_ramkah_sor29_obsuzhdeny_mery_ustoichivosti_dlya_kavkazskih_gor_i_regionalnoe_sotrudnichestvo-3295404 [08.11.2024].
2. Изменение климата усугубляет гендерное неравенство. URL: https://azertag.az/ru/xeber/muhtar_babaev_izmenenie_klimata_usugublyaet_gendernoe_neravenstvo-3294956 [08.11.2024].
3. COP29 – в центре внимания мировых СМИ. URL: https://azertag.az/ru/xeber/itogi_cop29___v_centre_vnimaniya_mirovyh_smi-3302120 [08.11.2024].
4. Председатель Организации сотрудничества железных дорог: Развитие Среднего коридора имеет стратегическое значение для глобальной транспортной сети. URL: https://azertag.az/ru/xeber/predsedatel_organizacii_sotrudnichestva_zheleznyh_dorog_razvitie_srednego_koridora_imeet_strategicheskoe_znachenie_dlya_globalnoi_transportnoi_seti-3294408 [08.11.2024].

5. Харбих С.К. Международный имидж государства. Факторы формирования // Журнал «Социально-гуманитарные знания», 2015, №2, с.308-313.
6. Семененко И.С. Образы и имиджи в дискурсе национальной идентичности. – Полис. Политические исследования. 2008. № 5. С.7.
7. Леонова О.Г. Барьеры имиджа страны // Журнал «Социально-гуманитарные знания», 2014, №1, с.135-146.

SONA ABASOVA
Bakı Dövlət Universitetinin dissertantı

COP29-UN NƏTİCƏLƏRİ: DÜNYA QLOBAL İSLAHATLAR ASTANASINDADIR

Məqalədə müəllif BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyasının nəticələrini və qərarlarını, habelə onun ölkənin beynəlxalq imicinə təsirini təhlil edir. Bu məqalədə beynəlxalq münasibətləri humanistləşdirən COP29 beynəlxalq tədbiri ölkənin beynəlxalq imicinin əsas aləti hesab olunur. Məqalədə COP29 çərçivəsində keçirilən çoxsaylı görüşlərə də yer verilib.

Açar sözlər: COP29, dövlətin beynəlxalq imici, yaşıl siyasət, beynəlxalq tədbirlər, turizm sahəsi, mədəniyyətlərarası əlaqələr, beynəlxalq əməkdaşlıq, müzakirə.

SONA ABASOVA
Dissertant of Baku State University

COP29 RESULTS: THE WORLD ON THE THRESHOLD OF GLOBAL REFORMS

In the article, the author analyzes the results and decisions of the 29th session of the Conference of the Parties to the UN Framework Convention on Climate Change (COP29), as well as its impact on the international image of the country. The main instrument of the international image of the country in this article is the international event COP29, which humanizes international relations. The article also notes that numerous meetings were held during COP29.

Keywords: COP29, international image of the state, green policy, international events, tourism, intercultural relations, international cooperation, discussion.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 08 noyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: s.ü.f.d. Afət Səfərova, t.e.d. Sevinc Yusifzadə.

UOT 94

AYTƏN KƏRİMLİ
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin doktorantı
aytenkerimli92@gmail.com

İRAQDA SİYASİ VƏZİYYƏTİN FORMALAŞMASINDA ABŞ VƏ TÜRKİYƏNİN ROLU (2010-2012-Cİ İLLƏRDƏ)

DOI: https://doi.org/10.36719/2708-065X/108/177-182

ABŞ-ın işğalından sonra İraq gözlənilən siyasi quruluşa çata bilmədi, iqtisadi və təhlükəsizlik problemləri daha da gərginləşdi, ictimai quruluşu dağıldı və ölkə ümumiyyətlə xaosa sürükləndi. İraqda baş verən hadisələr ABŞ-ın qlobal mövqeyinə, eləcə də regional tarazlıqlara təsir etmişdir. Region ölkəsi olan Türkiyə də İraqla bağlı hadisələrdən təsirlənmiş və təsirlənməyə davam etməkdə idi. "İraq məsələsi" artıq Türkiyə üçün sadəcə bir xarici siyasət məsələsi deyil, onun "daxili siyasət" məsələsi halına gəldiyini söyləmək mümkündür. Bu kontekstdə araşdırmanın məqsədi; İraq probleminin necə inkişaf edəcəyi və ortaya çıxa biləcək mümkün ssenarilər haqqında proqnozlar verməklə mümkün alternativlər və nəticələr haqqında təhlil etməklə Türkiyə üçün mümkün siyasət alternativlərini ortaya çıxarmaqdır.

Açar sözlər: Türkiyə, Yaxın Şərq, ABŞ, BMT, Səddam Hüseyn, İraq, 11 sentyabr.

Giriş. 2010-cu ildən sonra xüsusi ilə ABŞ qoşunlarının İraqdan çıxması Yaxın Şərq regionunda ümumi sabitliyinin pozulmasına və bir sıra ölkələrdə silahlı qarşıdurmaların başlanması fonunda Vaşinqtonun ərəb dünyasına təsirini əhəmiyyətli dərəcədə azalmışdır. Lakin Suriya və İraqın Türkiyəyə bitişik ərazilərində "İslam Dövləti"nin (İŞID) elan edilməsi bu konteksdə müəyyən dönüş nöqtəsi olmuşdur. Belə ki, 2010-cu ildən sonra Yaxın Şərqdə beynəlxalq vəziyyətin inkişafında xarakterik tendensiya regional aktorların rolunun çoxşaxəli siyasətlərinin güclənməsinə səbəb olmuşdur. Onların fonunda Türkiyə xüsusilə seçilirdi. Ankaranın xarici siyasəti AKP-nin hakimiyyətə gəlməsi ilə başlayan dərin dəyişikliklər nəticəsində Yaxın Şərq və Şimali Afrika regionu demək olar ki, müasir Türkiyənin siyasi, iqtisadi və hərbi fəaliyyətinin əsas zonasına çevrilmişdir. Şübhəsiz ki, son illərdə siyasi və akademik diskursda ən çox diqqət çəkən Vaşinqton və Ankaranın hələ də münaqişədə olan bir ölkədəki hadisələrə təsir göstərmək imkanının olmaması idi (burada son zamanlar Suriyadakı müxalifətin çıxışları və Bəşər Əsəd rejiminin devrilməməsi nəzərdə tutulur). Bununla belə, İraqdakı siyasi vəziyyətdə mühüm amilə çevrilmişdir. Bu sahədə Türkiyənin fəaliyyəti də çox əhəmiyyətli miqyas almışdır [1, 122]. Nəzərdən keçirilən dövr ərzində BMT-nin Təhlükəsizlik Şurası İraqdakı siyasi vəziyyətlə bağlı 2 qapalı iclas daxil olmaqla ümumilikdə 16 iclas keçirmiş və beş qətnamə (onlardan üçü Xartiyanın VII fəslinə uyğun olaraq) qəbul edilmişdir. Təşkilatın Baş katibin İraq üzrə xüsusi nümayəndəsi və BMT-nin İraqa Yardım Missiyasının (UNAMI) fəaliyyəti, eləcə də ölkədəki ümumi siyasi və təhlükəsizlik vəziyyəti barədə məlumat vermiş, həmçinin İraqdakı parlament seçkilərinə hazırlıq və yeni hökumətin formalaşdırılması üçün sonrakı səylər müzakirə olunmuşdur. 2010-2011-ci illər arasında Şura UNAMI-nin mandatını iki dəfə, hər dəfə bir il müddətinə uzadmağı qərara almışdır [7]. Həmçinin 2010-cu ilin fevral ayının 26-da Şura İraqın Xarici İşlər Nazirinin 18 yanvar 2010-cu ildə göndərdiyi məktubu İraq Hökumətinin beynəlxalq silahların yayılmaması rejiminə dəstəyini bir daha təsdiqləmiş, tərksilah müqavilələrinə və digər müvafiq beynəlxalq sənədlərə riayət edilməsi, İraqın 2008-ci ildə Atom Enerjisi üzrə Beynəlxalq Agentliklə imzaladığı Hərtərəfli Təminatlar Sazişinə Əlavə Protokolun ratifikasiyasının vacibliyi vurğulanmışdır. Bununla yanaşı Şura zəruri addımlar atıldıqdan sonra 687 (1991) və 707 (1991) qətnamələri ilə kütləvi qırğın silahlarına və mülki nüvə fəaliyyətlərinə qoyulan məhdudiyyətləri aradan qaldırmaq məqsədilə nəzərdən keçirməyə hazır olduğunu da bildirirdi. 2010-cu il noyabr ayının 12-də İraqın yeni hökumətinin formalaşdırılmasına dair əldə edilmiş razılaşmanı alqışlamış və ölkədəki sabitliyə nail olmaq üçün öz öhdəliklərini təsdiqləməyə çağırdı [2].

Beləliklə 2010-cu ilin mart ayında İraqda keçirilən seçkilərdə qərbyönlü və dünyəvi şiə lideri İyad Allani seçkilərdə qalib gəldi, lakin Nuri Əl Malikinin qurduğu hökumətin İraqda təsirini artır-

maq üçün sünniləri və kürdləri kənarlaşdıran siyasət yürütməyə başlaması da ölkədəki siyasi gərginliyə müəyyən qədər təsir göstərmişdir. Allaninin prezidentliyini dəstəkləyən Türkiyə, Malikinin hakimiyyətinə qarşı çıxması təsadüfi deyildir. Çünki İraqdan qoşunlarını çıxarmaq prosesində olan ABŞ-ın bu vəziyyətə Bağdada müdaxilə edə bilməyəcəkdir. Burada digər məsələ ABŞ-ın Türkiyə ilə olan münasibətlərində siyasi gərginlik yaratmamaq istəməsi idi. Lakin ABŞ prezidenti B.Obamanın Cefferson çu siyasətinə uyğun gələn passiv yanaşma nəticəsində bölgədə "atmosferin" gərginləşməsinin qarşısını almaq üçün rəsmi Vaşinqton Bağdadla münasibətlərini davam etdirmək niyyətində idi. Çünki ABŞ-ın bölgədən uzaqlaşması Malikinin gücünü artırmaqla yanaşı, onun təcrid siyasətini davam etdirməsinə və İranla yaxınlaşmasına imkan yaratmış olacaqdır. Eləcə də Malikinin Ərəb baharından təsirlənən Suriyada Əsəd rejimini dəstəkləmişdir [9].

İraqda keçirilən seçkilər və ondan sonrakı 9 aylıq hökumət qurma prosesindən sonra nisbətən gərginləşməyə başlayan Türkiyə-İraq münasibətləri isə 2012-ci ilə Tarik Haşimi böhranının da daxil olması ilə daha qabarıq şəkil almışdır. Belə ki, Tarik Haşimi və onun bəzi köməkçilərinin edam cəzasına məhkum edilməsi şiddətlə tənqid edilməsinə baxmayaraq, Türkiyənin Haşimiyə dəstək verməsi baş nazir Nuri Malikinin böyük reaksiyasına səbəb olmuşdur. Çünki Türkiyə Haşimi hadisəsini Malikinin İraqda sünni ərəblərə təzyiq edərək avtoritar hakimiyyət qurmaq cəhdinin bir hissəsi və ölkənin ərazi bütövlüyünü təmin etmək üçün həyati əhəmiyyət kəsb edən sistemdə sünni ərəblərin varlığına zərbə kimi qəbul etmişdir. Maliki isə öz gücünü bütün ölkəyə yaymaqda əsas maneə kimi Türkiyənin İraqın işlərinə müdaxiləsi formasında görürdü [6, 94]. Əslində İraqda Türkiyənin təsirini gücləndirmək üçün ilkin şərtlər hələ Səddam rejiminin ABŞ-ın rəhbərlik etdiyi "koalisiyası" tərəfindən devrilməsindən sonra yaranmışdır. ABŞ "rejim dəyişikliyi" edərək İraq dövlətçiliyini asanlıqla məhv edə bilsə də, lakin onu yenisi ilə əvəz etməyi bacarmadı [6, 95]. Belə ki, Türkiyənin İraq işlərinə qarışması artıq AKP-nin regional siyasətinin istiqamətlərindən birinə çevrilmişdi. İraqa ABŞ müdaxiləsinin nəticələrindən ölkə yenidən silahlı qarşıdurma meydanına çevrilmişdir.

Məlum olduğu kimi, Əfqanıstanda Taliban qüvvələrinə qarşı mübarizə davam etdiyi və hələ də sabitliyin əldə olunmadığı bir dövrdə ABŞ, Türkiyənin bu məsələdə daha böyük rol oynamasını istəyirdi. Əslində ABŞ-ın müdafiə naziri Robert Qeytsin Vecdi Gönülə göndərdiyi məktubda da bu açıq aydın başa düşülən idi. Beləliklə həmin ilin noyabr ayının 5-də keçirilən görüşdən sonra Türkiyə Şimali İraqda PKK ilə birgə mübarizəyə cavab olaraq bu məsələnin birbaşa və ya dolayısı ilə fikirlərə rast gəlmək mümkündür. Çünki ABŞ, Əfqanıstanda hərbi əməliyyat keçirməklə və burada hakimiyyətini möhkəmləndirməklə Orta Asiyada təsirli olmağı planlaşdırmış, Qafqazda rəngli inqilablar edərək bu bölgəyə nəzarət etməklə öz nüfuzunu qorumağa çalışırdı. Lakin Əfqanıstanda hələ tam sabitliyin əldə olunmaması ABŞ-ın adları çəkilən regionlala bağlı planlarını yarımçıq qoydu. Bu vəziyyət NATO-nun gələcəyi ilə bağlı olduğu da bildirilirdi. İraqa edilən müdaxilə ilə ABŞ, regionda dominat güc olmaq istəyən İran və Suriyanı nəzarətdə saxlamaq idisə, Vaşinqtonun İraqda istədiyi nəticəni əldə edə bilmədiyi üçün reallaşa bilmədi. İraq daxilində təsirinin zəifləməsi də ABŞ-ın bölgədə gücün azaldılması ilə nəticələnmişdi ki, bu da region daxilində münasibətləri gərginləşdirmişdir. Lakin ABŞ hərbi qüvvələrinin böyük hissəsini İraqdan çıxarsa belə, Vaşinqton İraqın şimalından imtina etməyi məlum hadisə idi. Çünki İraqın şimalı yüksək keyfiyyətli və zəngin neft ehtiyatlarına malik olmaqla yanaşı, ABŞ üçün strateji əhəmiyyətli bölgə kimi xarakterizə olunurdu. Bu bölgə İran, İraq, Suriya və Türkiyəyə birbaşa və dolayısı ilə digər Yaxın Şərq ölkələrinə təsir etmək xüsusiyyətinə malik idi. Bundan əlavə Şərqi Aralıq dənizi bölgəsinə də nəzarəti ələ keçirməyə ABŞ-a imkan yaradacaqdır. Elecə də bölgə İsrailin təhlükəsizliyi üçün bufer yarada biləcək vəziyyətdə idi. Bu səbəblərdən Yaxın Şərq regionu rəsmi Vaşinqton tərəfindən vazkeçilməz bir bölgə olaraq görülürdü. Belə ki, bölgədə qurulacaq ABŞ-ın hakim olduğu bir idarənin və İraqın şimalında yaradılacaq bazaların rəsmi Vaşinqtonun effektivliyinə xidmət etməli idi. Bu çərçivədə ABŞ-ın İraq və onun şimalı ilə bağlı siyasətini nəzərdən keçirmək faydalıdır. Ancaq ABŞ bu siyasətinin Türkiyənin zərərinə olmamasına diqqət yetirilməli, rəsmi Ankara tərəfindən belə bir vəziyyətin yaranmamasına yol vermək olmazdı. Belə ki, Türkiyə və ABŞ keçmişdə strateji tərəfdaş olmayıblar, indi də, gələcəkdə də olmayacaqlar. Strateji tərəfdaşlıq beynəlxalq münasibətlərdə ortaq siyasət yaratmaq və onu birgə həyata keçirmək deməkdir. Nümunə olaraq ABŞ-Böyük Britaniya, ABŞ-İsrail və qismən ABŞ-Kanada strateji tərəfdaşlığını göstərə bilərik. ABŞ-la Türkiyənin münasibətlərinin NATO və ikitərəfli sazişlər vasitəsi-

lə "Alyans" anlayışı çərçivəsindədir. Bu müttəfiqlik münasibətini strateji kontekstdə də düşünmək olar. Müttəfiqlər və xüsusilə strateji müttəfiqlik münasibətləri qarşılıqlı fayda və mübadilə üzərində qurulur. O, qarşılıqlı maraq doğuran və bir-birinin qarşılıqlı maraqlarına xələl gətirməyən məsələləri əhatə edir. Bu səbəbdən də bu anlayışla PKK terroru ilə mübarizədə ABŞ-ın verdiyi və verəcək dəstəyi nəzərə almaqda fayda var. Onu da yaddan çıxarmaq olmaz ki, keçmişdə baş verənlər bu istiqamətdə nəticə verəcək təşəbbüslər və Türkiyənin təhlükəsizliyini narahat edən digər yanaşmalarda ehtiyatsızlıqdan ABŞ-a etibar etməyin nə qədər təhlükəli olduğunu göstərmişdir. Bir dövlət üçün təhlükəsizlik başqa ölkəyə və ya təşkilata ötürülməyəcək qədər vacibdir, hətta həyati əhəmiyyət kəsb edir.

Şimali İraq problemini yuxarıda göstərilən şəkil çərçivəsində nəzərə alsaq, buradakı kürd məsələsinin ən qısa zamanda nizama salınmasının vacibliyi bir daha ortaya çıxır. Belə ki, 2012-ci ilin əvvəlinə İraqdakı ab-hava ABŞ və Türkiyə arasındakı siyasi münasibətlərin gərginləşdirmişdir. Bu gərginliyi iki ölçüdə dəyərləndirmək mümkündür. Birincisi İraq daxilində siyasi tarazlıqların dəyişməsidir. Kürdlər və bəzi sünni şiə ərəblər ABŞ-ın dəstəklədiyi baş nazir Malikinin ifrat mərkəzçilik siyasətinə qarşı olması idi ki, bu cəbhənin də ən böyük dəstəkçisi Türkiyə olmuşdur. Xüsusilə Türkiyənin Səudiyyə Ərəbistanı və İordaniya kimi ölkələrlə birlikdə parlamentdə baş nazir Malikiyə qarşı etimadsızlıq səsverməsi təşəbbüsünü dəstəkləməsi münasibətləri daha da gərginləşdirmişdir. ABŞ və Türkiyənin münasibətlərinin İraq daxilində siyasi tarazlığın dəyişməsi bağlı olsa da, digər tərəfdən rəsmi Ankaranın İraq kürdləri ilə xüsusi iqtisadi əlaqələri inkişaf etdirməsi də Vaşinqtonun bölgə siyasətinə zidd olması ilə əlaqədar idi. Belə ki, Türkiyə-İraq əlaqələrində ticarət rəqəmləri rekordlar qırarkən, araşdırmalar əslində onun Şimali İraqa əsaslanan iqtisadi əlaqələrinin olduğunu göstərirdi. Türkiyənin 2012-ci ildə İraqa ixracı təxminən 11 milyard dollar olduğu halda, İraqdan idxalın təxminən 150 milyon dollar olmuşdur [11, 2]. Bölgədə uzunmüddətli sülhü təmin etmək üçün Türkiyə KRİ-yə münasibətdə bütün sahələrdə əlaqələri artırmağa çalışırdı. Lakin qarşılıqlı inamsızlığın və psixoloji maneələrin aradan qaldırılmasının vacibliyi vurğulansa da, gərginlik və regional problemlərin iqtisadi yolla həll oluna biləcəyi də irəli sürülmüşdür. Belə ki, bəhs olunan dövrdə İKB hərbi maşınlar və tanklar yerinə ticarət donanmalarına üstünlük verilməsi onun ABŞ və Türkiyə üçün əhəmiyyətli bir iqtisadi genişlənmə sahəsi olduğu inancı gücləndirmişdir [4, 88]. Çünki ABŞ-ın 2003-cü il İraq müharibəsinin bölgədə yaratdığı yeni təhdidlər və risklər Türkiyənin Şimali İraq siyasətində dəyişikliyə səbəb olmuşdur. Xüsusi ilə TBMM-nin 1 mart 2003-cü il tarixli qərarı ilə ABŞ-ın Türkiyənin İraq müharibəsində ikinci cəbhə açmaq üçün quru və hava məkanından istifadə tələbinin yerinə yetirilməməsi Ankara-Vaşinqton münasibətlərində böhrana yolaçmışdır. Lakin İraqın şimalında PKK ilə mübarizə aparmaq üçün Türkiyənin ABŞ-a ehtiyacı var idi. Buna görə də İraqın şimalında Türkiyə ABŞ ilə münasibətləri gərginləşdirməməyə çalışırdı. Ancaq ABŞ qoşunlarının İraqdan çıxmasından sonra PKK-nın fəallaşması ilə vəziyyət dəyişmişdir.

KYB-nin lideri olduğu müddətdə PKK ilə münasibətlərini müəyyən qədər qoruyan İraq prezidenti Cəlal Təlabani, Ankaraya rəsmi səfərindən sonra terror təşkilatının üzvləri də daxil olmaqla heç bir kürdü Türkiyəyə təhvil verməyəcəyini bəyan etmişdir. 2008-ci ilin martın 9-da Abdullah Gülün dəvəti ilə Türkiyə səfər edən İraq prezidenti C.Təlabani ilə danışıqlarda PKK ilə mübarizədə Bərzaniylə dialoq qurulması lazım olduğunu deməsinə baxmayaraq, Talabanin qeyd olunan açıqlaması dolayısı ilə onun terror təşkilatına dəstək verməsini istəmişdi. Rəsmi Bağdad Türkiyə ilə əməkdaşlıqlarını davam etdirmək niyyətində olsa da, amma PKK ilə qarşıdurmalarda tərəfsiz olaraq qalmaqda idi [8]. Belə ki, İraqın bu cür açıqlama verməsi Türkiyənin PKK ilə mübarizəsinin İraq kürdlərinin müstəqilliyinin qarşısını almaq məqsədi daşıdığını və Türkiyənin sərhədyanı əməliyyatının müharibə sayılacağını anlamına gəlirdi. Bərzani bu açıqlamaları ilə həm də KRİ-yə qarşı hədəflərinin olduğunu və Şimali İraqda möhkəmlənmək istədiyini bildirmiş olurdu. KRR-nin baş naziri Neçirvan Bərzani də PKK məsələsinin silahlı mübarizə ilə həll edilə bilməyəcəyini açıqlamış və M.Bərzaninin yanaşmasını dəstəkləyən bir mövqe nümayiş etdirmişdi [3]. Bu səbəbdən də Türkiyə İraqda xüsusi ilə şimal bölgəsində KDP, KYP və Kürdüstan İslam Hərəkatı arasındakı ideoloji, siyasi və sosial çatışmazlıqlar yaxından izləməklə, müttəfiqlik əlaqələri və problemlərə strateji yanaşmalar ətraflı təhlil etməyə, fikir ayrılıqları və bölücü amillər müəyyən etməyə çalışmışdır. Çünki Türkiyə üçün Şimali İraqda PKK məsələsinin həll həyati əhəmiyyətə malik idi. Bu səbəbdən də AKP hökuməti İraqın şimalında demək olar ki, bütün hakimiyyəti öz əlində cəmləşdirən KRİ ilə münasibətlərin normallaş-

Benjamin Jensen's 2023 Congressional testimony asserts that China "cheated" to achieve its 21st-century goals, a claim that aligns with the strategic vision outlined in the Chinese Communist Party's "Made in China 2025" plan. Jensen argues that AI weapons, capable of performing the work of thousands simultaneously, offer an effective countermeasure against China's substantial human potential, especially given that the United States dominates in quantum computing [1]. He also highlights a significant vulnerability: small businesses, which represent 44% of the U.S. economy, are the least likely to invest in cybersecurity.

The modern cybersecurity landscape increasingly depends on robust cloud security. AI systems require vast datasets and powerful processing capabilities to function effectively, making the protection of data a strategic national security priority. This necessity is underscored by the fact that state-sponsored cyber attackers are actively targeting cloud infrastructures and AI models to steal economic and military secrets, aiming to gain technological and strategic advantages.

In response to these evolving threats, many states have established "cyber armies" within their armed forces. The growth of these digital military units is evident: while only five states maintained cyber armies in 2000, this number rose to over 10 in 2009 and reached 38 by 2018 [19]. These units - often referred to as "Unmanned Armed Forces," "Cyber Army," or "National Cyber Defense Unit" - are designed to both defend against cyber threats and project power, marking a shift toward what is increasingly being described as a "digital cold war".

Moreover, the proliferation of digital espionage, information theft, and attacks on critical infrastructures signals that the digital cold war extends beyond the economic and political spheres into the military domain. In this context, cyber armies and digital defense structures have become indispensable elements of national security policies, influencing military conflicts as well as diplomatic relations in the digital age.

Artificial Intelligence (AI) and quantum technologies are rapidly transforming cyber warfare by reshaping both offensive and defensive strategies. AI enables real-time threat detection, attack analysis, and automated defenses through machine learning, enhancing cybersecurity adaptability. However, AI also introduces new risks, such as adversarial attacks and deepfake-based disinformation [12]. Concurrently, quantum technologies challenge existing encryption standards; quantum computers threaten to break RSA and ECC encryption, accelerating the need for post-quantum cryptography. Conversely, quantum key distribution (QKD) offers enhanced secure communication, as demonstrated by China's quantum networks [35].

The growing reliance on digital infrastructure has driven states to establish cyber armies as essential components of national defense. Unlike conventional military forces, these cyber units operate in the digital realm, employing sophisticated offensive and defensive operations ranging from espionage to digital sabotage with minimal physical engagement [29]. This shift not only provides plausible deniability but also complicates attribution and accountability, leading to a rise in state-sponsored cyber operations.

Global powers have adopted distinct cyber strategies: the U.S. Cyber Command (USCYBERCOM) utilizes persistent engagement strategies to proactively deter threats; China's People's Liberation Army (PLA) Strategic Support Force focuses on cyber espionage and information warfare; and Russia integrates cyber-enabled hybrid warfare into its military doctrine, as seen in its campaigns against Ukraine and other geopolitical adversaries [34]. These developments contribute to what has been termed the "Digital Cold War" state of continuous cyber conflict characterized by espionage, infrastructure attacks, and disinformation campaigns rather than direct military confrontation. In this environment, enhancing cyber resilience and establishing robust international cybersecurity agreements are imperative to prevent escalation and ensure national and global security.

Governments collaborate extensively with cybersecurity firms, highlighting their critical role in national security. For instance, CrowdStrike provides cloud-based antivirus services to the U.S. Department of Justice [14]. This demonstrates the influence of cybersecurity companies. However, their power also carries risks. The 2024 "CrowdStrike Scandal" exemplifies this, where a software failure caused critical systems in airlines, banks, and other organizations to crash, leading to flight cancellations and financial disruptions [30]. Further emphasizing their significance, numerous firms, including Fortinet, Palo Alto Networks, Cloudflare, Cisco, Microsoft, and Amazon, serve as government contractors, reinforcing their integral role in cybersecurity.

State Control, Private Security Companies, and the Protection of Critical Infrastructure. Effective state control and legal frameworks are essential for cybersecurity regulation and national security. While regulations like the GDPR enhance data protection, excessive restrictions may hinder innovation. Private security firms support cyber defense through threat intelligence and incident response, complementing government efforts but requiring stronger oversight. Protecting critical infrastructure - energy, transportation, and healthcare - relies on cybersecurity firms developing tailored solutions and collaborating with governments to ensure resilience and prevent disruptions.

Scientific-Technical Progress and Cybersecurity - New Paradigms and Challenges.

⊙ **AI and Quantum Technologies in Cybersecurity:** Artificial Intelligence (AI) has transformed cybersecurity by enabling advanced threat detection through machine learning, though it remains

vulnerable to adversarial attacks that can lead to misclassification and security breaches [25]. Quantum computing, while offering new opportunities, also threatens traditional encryption methods (e.g., RSA, ECC) and has driven research into quantum-resistant cryptography, intensifying international competition.

◉ **Digital Transformation and Emerging Cyber Threats:** The rapid adoption of cloud computing and the Internet of Things (IoT) introduces significant vulnerabilities, such as data breaches and large-scale Distributed Denial of Service (DDoS) attacks. Additionally, AI-driven attacks, including deepfakes, challenge information integrity and necessitate robust security protocols and international collaboration [21].

◉ **Impact on International Security Strategies:** The integration of AI and quantum technologies into the cyber domain requires a fundamental reassessment of national defense policies. Cybersecurity now underpins national security, prompting international alliances to prioritize the development of quantum-safe encryption, the fortification of AI systems, and the establishment of global norms to manage emerging technological risks [23].

Conclusion. The rapid expansion of digital technologies has reshaped international security, introducing both opportunities and unprecedented challenges. Nations must navigate the complexities of cyber warfare, digital disinformation, and evolving cyber threats. State-sponsored cyber operations, cybercrime, and misinformation campaigns emphasize the need for robust cybersecurity policies and international cooperation. Attacks like Stuxnet, WannaCry, and the Colonial Pipeline incident highlight the strategic role of cyber capabilities in modern conflicts. Meanwhile, AI and quantum computing present both security risks and advancements, influencing encryption and defense mechanisms. Disinformation campaigns further disrupt political stability, shaping public opinion and electoral outcomes. As the "Digital Cold War" intensifies, states must enhance cybersecurity governance, strengthen regulatory frameworks, and foster collaboration between public and private entities. The cyber arms race calls for investment in resilient infrastructure, AI-driven threat detection, and quantum-resistant encryption. A coordinated, multilateral approach - uniting governments, international organizations, and private sectors - is essential to ensuring global cybersecurity and stability. Without proactive measures, escalating cyber threats will continue to endanger international security, economic stability, and global peace.

REFERENCES

1. "16 Most Advanced Countries in Quantum Computing," *Yahoo Finance*, Dec. 06, 2023. Available: https://finance.yahoo.com/news/16-most-advanced-countries-quantum-131132253.html [14.02.2025].
2. "Kaseya Ransomware Attack: Guidance for Affected MSPs and their Customers | CISA," *Cybersecurity and Infrastructure Security Agency CISA*, Jul. 12, 2021. Available: https://www.cisa.gov/news-events/news/kaseya-ransomware-attack-guidance-affected-msps-and-their-customers [14.02.2025].
3. "The Top 7 Cyberattacks on U.S. Government: A closer look at the evolving landscape of cybersecurity," *SecurityScorecard*, Jan. 24, 2025. Available: https://securityscorecard.com/blog/top-cyberattacks-on-us-government [14.02.2025].
4. "U.S. targeted political cyberattacks 2023," *Statista*, 2023. Available: https://www.statista.com/statistics/1428610/us-targeted-political-cyberattacks-by-characteristic/ [14.02.2025].
5. "What is WannaCry? WannaCry Ransomware Attack Case Study," *Fortinet*. Available: https://www.fortinet.com/resources/cyberglossary/wannacry-ransomware-attack [14.02.2025].
6. A. Wolf, "Top Cyber Attacks on Government Agencies | Arctic Wolf," *Arctic Wolf*, Sep. 19, 2024. Available: https://arcticwolf.com/resources/blog/notable-cyber-attacks-on-government-agencies [14.02.2025].
7. ANI, "Business Standard," 2025. Available: https://www.business-standard.com/article/news-ani/chinese-hacked-obama-mccain-campaigns-say-us-officials-11360700607_1.html [14.02.2025].

8. B. Jensen, “How the Chinese Communist Party Uses Cyber Espionage to Undermine the American Economy,” *www.csis.org*, Oct. 2023, Available: https://www.csis.org/analysis/how-chinese-communist-party-uses-cyber-espionage-undermine-american-economy [14.02.2025].
9. Bugcrowd, “Night Dragon Operation,” *Bugcrowd*. Available: https://www.bugcrowd.com/glossary/night-dragon-operation/ [14.02.2025].
10. C. Cadwalladr and E. Graham-Harrison, “Revealed: 50 million facebook profiles harvested for cambridge analytica in major data breach,” *The Guardian*, Mar. 17, 2018. Available: https://www.theguardian.com/news/2018/mar/17/cambridge-analytica-facebook-influence-us-election [14.02.2025].
11. D. Kushner, “The Real Story of Stuxnet,” *IEEE Spectrum*, Feb. 26, 2013. Available: https://spectrum.ieee.org/the-real-story-of-stuxnet [14.02.2025].
12. D. M. J. Lazer, M. A. Baum, Y. Benkler and etc., “The Science of Fake News,” *Science*, vol. 359, no. 6380, pp. 1094–1096, Mar. 2018, doi: https://doi.org/10.1126/science.aao2998.
13. European Cybercrime Centre (Europol), "Ransomware Threat Assessment Report," 2022.
14. ExecutiveGov, “10 Government Cybersecurity Company Contractors,” May 08, 2024. Available: https://executivegov.com/articles/10-cybersecurity-company-contractors/ [14.02.2025].
15. Fortinet, “Top 20 Most Common Types Of Cyber Attacks,” *Fortinet*, 2023. Available: https://www.fortinet.com/resources/cyberglossary/types-of-cyber-attacks [14.02.2025].
16. G. Coleman, "*Hacker, Hoaxer, Whistleblower, Spy: The Many Faces of Anonymous"*, London: Verso, 2014, p. 482.
17. G. Greenwald, "*No Place to Hide: Edward Snowden, the NSA, and the U.S. Surveillance State"*, New York: Metropolitan Books, 2014, p. 272.
18. H. Ritchie, “Read all about it: The biggest fake news stories of 2016,” *CNBC*, Dec. 30, 2016. Available: https://www.cnbc.com/2016/12/30/read-all-about-it-the-biggest-fake-news-stories-of-2016.html [14.02.2025].
19. J. Blessing, "The Global Spread of Cyber," *CCDCOE*, 2018. p. 23. Available: https://ccdcoe.org/uploads/2021/05/CyCon_2021_Blessing.pdf [14.02.2025].
20. J. Fox, “8 biggest cyberattacks in history | cobalt,” *www.cobalt.io*, Oct. 07, 2022. Available: https://www.cobalt.io/blog/biggest-cybersecurity-attacks-in-history [14.02.2025].
21. J. Kietzmann, L.W. Lee, I.P. McCarthy, and T.C. Kietzmann, "Deepfakes: Trick or treat?" *Business Horizons*, vol. 63, no. 2, pp. 135-146, 2020.
22. J. Markoff, “Vast Spy System Loots Computers in 103 Countries,” *The New York Times*, Mar. 28, 2009. Available: https://www.nytimes.com/2009/03/29/technology/29spy.html?_r=1 [14.02.2025].
23. J.Nye, “Cyber Power Cyber Power,” 2010, p.30. Available: https://www.belfercenter.org/sites/default/files/pantheon_files/files/publication/cyber-power.pdf [14.02.2025].
24. K. Waddell, “Why Google Quit China-and Why It’s Heading Back,” *The Atlantic*, Jan. 19, 2016. Available: https://www.theatlantic.com/technology/archive/2016/01/why-google-quit-china-and-why-its-heading-back/424482/ [14.02.2025].
25. L. Buczak and E. Guven, "A survey of data mining and machine learning methods for cybersecurity intrusion detection," *Information Sciences* , vol. 380, pp. 18-38, 2016.
26. M. Clayton, “Stealing US business secrets: Experts ID two huge cyber ‘gangs’ in China,” *Christian Science Monitor*, Sep. 14, 2012. Available: https://www.csmonitor.com/USA/2012/0914/Stealing-US-business-secrets-Experts-ID-two-huge-cyber-gangs-in-China [14.02.2025].
27. M. Conway, "Deterring Terrorism Online: The Case of ISIS," *Perspectives on Terrorism*, vol. 11, no. 3, pp.1-15, 2017.
28. N. Inkster, *China’s Cyber Power*. Routledge, 2018, p. 156.
29. R. A. Clarke and R. Knake, *Cyber War: the Next Threat to National Security and What to Do About It*. New York: Harpercollins E-Books, 2010, p. 320.

30. R.Plummer, "CrowdStrike and Microsoft: What we know about global IT outage," *www.bbc.com*, Jul. 19, 2024. Available: https://www.bbc.com/news/articles/cp4wnrxqlewo [14.02.2025].
31. S. Bradshaw and P. Howard, "OII | The Global Disinformation Order: 2019 Global Inventory of Organised Social Media Manipulation," *Ox.ac.uk*, 2019. Available: https://www.oii.ox.ac.uk/news-events/reports/the-global-disinformation-order-2019-global-inventory-of-organised-social-media-manipulation [14.02.2025].
32. S. Gorman, A. Cole, and Yochi Dreazen, "Computer Spies Breach Fighter-Jet Project," *WSJ*, Apr. 21, 2009. Available: https://www.wsj.com/articles/SB124027491029837401 [14.02.2025].
33. S. Subashini and V. Kavitha, "A Survey on Security Issues in Service Delivery Models of Cloud Computing," *Journal of Network and Computer Applications*, vol. 34, no. 1, pp. 1–11, Jan. 2011, doi: https://doi.org/10.1016/j.jnca.2010.07.006.
34. T. Rid, *Cyber War Will Not Take Place*. Oxford University Press, 2013, p. 218.
35. Y. Benkler, R. Farris, and H. Roberts, *Network Propaganda: Manipulation, Disinformation, and Radicalization in American Politics*. Oxford University Press, 2018. doi: https://doi.org/10.1093/oso/9780190923624.001.0001.
36. Z. Zhang, "Study Confirms Influence of Russian Internet 'Trolls' on 2016 Election | Columbia SIPA," *www.sipa.columbia.edu*, Mar. 29, 2022. Available: https://www.sipa.columbia.edu/news/study-confirms-influence-russian-internet-trolls-2016-election [14.02.2025].

ELGÜN TAĞIZADƏ
Bakı Dövlət Universitetini doktorantı

BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYİN YENİ SƏRHƏDLƏRİ: RƏQƏMSAL DÖVRDƏ KİBER GÜC DİNAMİKASI

Rəqəmsal infrastruktur və kiber məkan beynəlxalq təhlükəsizliyi yenidən formalaşdıraraq yeni təhdidlər, iştirakçılar və çağırışlar yaradır. Bu məqalə kiber gücün geopolitika, müdafiə və iqtisadi sabitlikdəki rolunu araşdırır və WannaCry, Stuxnet, Colonial Pipeline hücumları kimi nümunələrlə kiber əməliyyatların dağıdıcı potensialını göstərir. Həmçinin, süni intellekt və kvant texnologiyalarının müdafiə və hücum strategiyalarında ikiqat istifadə imkanları və dezinformasiya kampaniyalarının siyasi sabitliyə təsiri müzakirə olunur. Artan kiber münaqişələrin mürəkkəbliyini nəzərə alaraq, tədqiqat yaranan "Rəqəmsal Soyuq Müharibə" şəraitində davamlılığı artırmaq üçün güclü kiber təhlükəsizlik idarəçiliyi, beynəlxalq tənzimləyici çərçivələr və strateji ittifaqların vacibliyini vurğulayır.

Açar sözlər: Kiber təhlükəsizlik, Rəqəmsal transformasiya, Beynəlxalq təhlükəsizlik, Kibercinayətkarlıq, Dezinformasiya, Kritik infrastruktur, Dövlət sponsorlu kiber əməliyyatlar.

ЭЛГУН ТАГИЗАДЕ
Докторант Бакинского государственного университета

НОВЫЕ ГРАНИЦЫ МЕЖДУНАРОДНОЙ БЕЗОПАСНОСТИ: ДИНАМИКА КИБЕРМОЩИ В ЦИФРОВУЮ ЭПОХУ

Цифровая инфраструктура и киберпространство изменили международную безопасность, вводя новые угрозы, участников и вызовы. В данной статье рассматривается роль кибермощи в геополитике, обороне и экономической стабильности, с примерами таких инцидентов, как WannaCry, Stuxnet и атака на Colonial Pipeline, иллюстрирующими разрушительный потенциал кибероперации. Также обсуждается двойственное применение технологий искусственного интеллекта и квантовых вычислений в оборонительных и наступательных стратегиях, а также влияние кампаний дезинформации на политическую стабильность. В условиях растущей сложности киберконфликтов исследование подчеркивает необходимость создания надеж-

ного управления кибербезопасностью, международных нормативных рамок и стратегических альянсов для повышения устойчивости в формирующейся «Цифровой холодной войне».

Ключевые слова: Ключевые слова: Кибербезопасность, Цифровая трансформация, Международная безопасность, Киберпреступность, Дезинформация, Критическая инфраструктура, Кибероперации, спонсируемые государством.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: s.e.f.d. Kərəm Məmmədov, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT 94(479.24)

PƏRVANƏ MƏMMƏDOVA

Gəncə Dövlət Universiteti,
"Sosial fənlər" kafedrasının dissertantı
mammedovaparvane@gmail.com

AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN TƏMİN EDİLMƏSİNDƏ DİASPOR TƏŞKİLATLARININ FƏALİYYƏTİ VƏ ONUN NƏTİCƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/108/198-204

Uzun illərdir ermənilər " Böyük Ermənistan " xülyasını reallaşdırmaq üçün hər cür vasitəyə əl atıblar. Onlar bu arzularını həyata keçirmək üçün çoxdankı mənfur planları olan Azərbaycan torpaqlarını ələ keçirmək siyasətindən uzun müddət əl çəkməmişdilər. 1980-ci illərin sonlarından başlamış Ermənistan-Azərbaycan münaqişəsi qarşı tərəfin ərazi iddiaları, təxribatlar və terror əməlləri ilə başlamışdır. Baş verən bu münaqişəsi XX yüzilliyin ən faciəli münaqişələrdən biri kimi tarixə daxil olub.

Azərbaycan barədə, xüsusilə də Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdıra bilmək üçün dövlətimizin formalaşmış diasporu vardır. Ancaq uzun illər idi ki, erməni diasporu qərbdə Azərbaycan barəsində mənfi rəy yaratmaq istiqamətində mənfur siyasət yürüdürdülər. Artıq erməni diasporunun saxtalaşdırılmış məlumatlarının diasporumuzun gərgin əməyi sayəsində qarşısı alınır. Ümummilli liderimiz Heydər Əliyevin müstəqil Azərbaycanın prezidenti olduqdan sonra, diaspor quruculuğu dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Qüdrətli Azərbaycan dövləti getdikcə diasporumuzun güclənməsinə və vahid ideya ətrafında birləşməsinə kömək edir. Dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi, Azərbaycan dilinin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsində Dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi mühüm rol oynayır. Dünya azərbaycanlılarının I qurultayı Heydər Əliyevin 2001-ci ilin may ayının 23-də xüsusi sərəncamına müvafiq olaraq 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmişdir. II qurultay Prezident İlham Əliyevin Sərəncamına əsasən 2006-cı ildə, III qurultay 2011-ci ildə, IV qurultay 2016-cı il, V qurultay isə 2022-ci ilin aprelində keçirilib. Dünya azərbaycanlılarının V qurultayı Qarabağ müharibəsində qazanılan qələbədən sonra keçirildiyi üçün Zəfər qurultayı adlandırılır. Qurultayda "Post-müharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr", "Qarabağın bərpası və yenidən qurulmasına Azərbaycan diasporunun töhfələri" mövzuları müzakirə olunub. Son illər Azərbaycan diasporu yüksək təşkilatlanma və birlik nümayiş etdirərək beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynamışdır.

Açar sözlər: Dağlıq Qarabağ münaqişəsi, erməni mühacirəti, Azərbaycan diasporu, diaspor fəaliyyəti.

Giriş. Müstəqillik əldə edəndən sonra otuz il ərzində Azərbaycan dövlətinin müsbət siyasi imicinin formalaşı, beynəlxalq arenada nüfuz qazanması və ən nəhayət Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından güclü formalaşmış diaspora ehtiyac var idi. Müstəqillik əldə etdikdən ulu öndər Heydər Əliyevin qayıdışınadək olan dövdə informasiya blokadasını aradan qaldırmaq üçün Azərbaycan diasporunun imkanlarının səfərbər edilməməsi və lobbi quruculuğu sahəsində heç bir ciddi addımın atılmaması xarici siyasətdə problemlər yaratmışdı. Qədim tarixə malik olan Azərbaycan diasporu ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra vahid ideologiya – Azərbaycançılıq ətrafında sıx birləşdi. Heydər Əliyev xarici ölkələrdə Azərbaycan diasporunun, lobbiçilik fəaliyyətinin əsas istiqamətlərinin formalaşdırılmasının vacibliyini bəyan etmişdir.

Dağlıq Qarabağ müharibəsi. Bəşəriyyət tarix boyu müharibələrlə üzləşmişdir. Tarixi inkişafda dövlətlərarası və ya ittifaqlararası münaqişələrin olmadığı bir mərhələ yoxdur. Tarixən müharibələr ərazi və resurslar uğrunda aparılmış, dini, mədəni, ideoloji, etnik və digər zəmində meydana gəlmişdir

[7, s.42]. Ermənistan-Azərbaycan münaqişəsinin təməlini təşkil edən ərazi iddiaları, meydana gəldiyi andan etibarən onların arasındakı etnik mübahisənin açıq silahlı münaqişə mərhələsinə transformasiya olunmasını şərtləndirirdi [7, s.10].

Azərbaycan tarixin müxtəlif dövrlərində ədalətsizliklə üzləşmiş, bir çox ərazilərini itirmişdir. Birinci Qarabağ müharibəsində isə torpaqlarımızın 20%-ni itirdik. Bu müharibə hələ bitmədi, 30 ilə yaxın davam etdi. Cəmiyyət bu məğlubiyyətlə barışmadı, hər zaman müharibəyə hazır idi. Çox populyar olan bir misalı söyləmək yerinə düşər: "Sülh istəyirsənsə, müharibəyə hazır ol". Cəmiyyətdə, xüsusən, gənclər arasında müharibə əhvalının davam etməsi çox zəruri idi. Əks təqdirdə biz Dərbənd, Zəngəzur, Borçalı kimi Qarabağ haqqında da yalnız kitablarda, xatirələrdə danışacağıq. Bu isə nəinki bu torpaqların, gələcəkdə digər torpaqların da itirilməsi ilə nəticələnə bilərdi. 2021-ci il sentyabrın 27-dən noyabrın 10-a kimi davam edən 44 günlük müharibə göstərdi ki, 30 il ərzində gənclərin Vətən eşqi, Qələbə əzmi daha da yüksəlmiş və nəticədə Dövlət, Xalq və Ordu birliyi Böyük Zəfər əldə etməyə zəmin yaratmışdır [10, s.12].

Ermənistan tarixi məlumatların saxtalaşdırılması, həyasızcasına böhtan hücumları kimi bütün yollarla qanunsuz əməllərini əsaslandırmağa çalışır. Ermənistan Qarabağın və ona qonşu olan 7 rayonun işğalını ermənilərin "xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə hüququ"nun reallaşdırılması kimi qələmə verir. Ermənilərin fikrincə, onlar bu torpaqların yerli sakinləridir və son vaxtlara qədər Azərbaycanın istismarı altında idilər. Bu səbəbdən, erməni separatçılarının və terrorçularının hərəkətləri, guya, "başı bəlalı" erməni xalqının milli azadlıq hərəkatıdır [12, s.311].

Dağlıq Qarabağ, Ermənistan - Azərbaycan münaqişəsi haqqında məlumat verərkən, əvvəlcə ermənilərin Azəbaycana məskunlaşmasına diqqət yetirmək lazımdır. Məsələ burasındadır ki, ermənilər Azərbaycana xeyli sonralar köçürülüb.

Tarixi faktlar göstərir ki, strateji baxımdan mühüm əhəmiyyətə malik olan Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə İrandan və Türkiyədən çoxlu sayda erməni əhalisinin köçürülməsinə XIX əsrin əvvəllərində başlanmışdır. Bu dövrdə regionun zəngin təbii sərvətləri üzərində nəzarəti ələ keçirmək istəyən çar Rusiyası XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Türkiyə və İrana qarşı müharibə apararkən "erməni amili"ndən siyasi alət kimi istifadə etməklə, əhalinin erməniləşdirilməsi siyasətini də həyata keçirmişdir. Bu zaman ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri məhz mühüm strateji əhəmiyyət kəsb edən Qarabağ ərazisi olmuş, bu bölgəyə çarizm tərəfindən xüsusi diqqət yetirilmişdir [6, s.18].

Qarabağın dağlıq hissəsində erməni əhalisinin xeyli dərəcədə çoxaldılması XIX əsrin 20-ci illərində, xüsusilə, Cənubi Qafqazm Rusiya tərəjindən işğal edilməsindən sonra baş vermişdir. 1804-1813-cü, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrinin gedişində, həm də sonralar ermənilərin İran və Türkiyədən kütləvi surətdə Cənubi Qafqaza, o cümlədən Qarabağa köçürülməsi nəticəsində burada onların sayı ilbəil artmağa başladı [6, s.19].

Ermənilər ərazilərimizdə məskunlaşdıqdan sonra öz dövlətlərini yaratmaq haqqında düşünməyə başladılar. Elə bunun nəticəsi idi ki, 1905-1906-cı illərdə Azərbaycanda ermənilər tərəfindən kütləvi soyqırımı aktları həyata keçirilmişdir. Bu illər ərzində onlar Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda kütləvi şəkildə azərbaycanlıları məhv etmiş, dəhşətli cinayətlər törətmişdilər. Tarixi qaynaqlarda təsdiqlənir ki, ermənilər həmin hadisələr zamanı Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl ərazilərində 75 Azərbaycan kəndini tamamilə yerlə yeksan etmiş, İrəvan və Gəncə quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsini dağıtmışdılar [1, s.9].

1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Muğanda, Qubada, Lənkəranda ermənilər tərəfindən minlərlə azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan öz vətənindən didərgin salınmışdır. Bu dövrdə Bakıda və Şamaxıda ermənilərin həyata keçirdiyi kütləvi soyqırımı aktları daha dəhşətli olmuşdur. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycanda ermənilərin məskunlaşdırılması xalqımızın tarixi ərazisinin parçalanmasına, azərbaycanlıların bir millət olaraq məhvinə və müstəqil dövlətimizin mövcudluğunun qarşısının alınmasına xidmət etmişdir [1, s.10].

Sovet İttifaqı rəhbərliyində təmsil olunan ermənilər, Ermənistan SSR-in rəhbərliyi və xaricdəki erməni diasporu 1980-ci illərin sonlarında SSRİ-nin mərkəzi hakimiyyətinin zəifləməsindən istifadə edərək Azərbaycan SSR-in tərkibində 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi üçün məqsədyönlü hərəkətə keçiblər.

1987-ci ilin sonlarında Ermənistan SSR-in Qafan rayonunda azərbaycanlıların öz tarixi torpaqlarından qəddarlıqla deportasiya prosesi başlayıb. 1988-1989-cu illərdə Ermənistanın müxtəlif şəhər və rayonlarında yaşayan azərbaycanlılar da eyni aqibətlə üzləşiblər. Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından zorla qovulub, onlardan 216 nəfər vəhşicəsinə qətlə yetirilib, 1154 nəfər isə yaralanıb. Onlar erməni zorakılığından öz həyatlarını xilas etmək üçün Azərbaycana sığınmaq məcburiyyətində qalıblar [16].

Beləliklə, hadisələrin təhlili tarixi və faktlar göstərir ki, ermənilər tərəfindən bütün proseslər planlı, məqsədyönlü və düşünülmüş şəkildə keçirilmişdir: 1. Cənubi Qafqazda kütləvi şəkildə məskunlaşdırmalar (XIX əsr); 2. İlk etnik inzibati ərazilərin yaradılması; 3. XX əsrin əvvəllərində Cənubi Qafqazın mərkəzi şəhərdə Tiflisdə əhali üstünlüyünə sahib olmaları; 4. Milli zəmində qarşıdurmaların baş verməsinə səbəb olmaları, nəticədə etnik sıxışdırma və təmizləmə yoluilə ermənilərin yaşadığı vahid etnik tərkibə malik ərazilərin yaradılması (1905-1906-cı illər erməni-Azərbaycan qarşıdurması, 1918-1920-ci illər erməni-Azərbaycan və erməni-gürcü müharibəsi, 1948-1953-cü illər azərbaycanlıların deportasiyası, 1988-cı ildən başlayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, 1989-cu ildə Gürcüstandan azərbaycanlıların deportasıiyası [11, s.35].

Qarabağ münaqişəsi həm də o məqsədlə törədilmişdi ki, müstəqil Azərbaycan ona uğur qazandıra biləcək nəhəng layihələri reallaşdırmaq, Cənubi Qafqazda sabitliyin qarantına çevrilmək imkanlarından məhrum olsun. Müəyyən xarici qüvvələr regionumuzda uzun sürən və idarə edilən xaosun bərqərar olmasını istəyirdi. Bu xaos isə erməni separatizmi və millətçiliyinin əlləri ilə yaradılmışdı və günlər, aylar keçdikcə daha da alovlanır, dərinləşirdi. Təəssüf ki, regionda ağalıq etmək fikrinə düşənlərin köhnə "Parçala, hökm sür!" siyasəti özünü Birinci Qarabağ müharibəsinin nəticələrində də göstərdi: Azərbaycan ərazisinin 20 faizi işğal edildi [15, s.8].

Təcavüzkar Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü pozmasına imkan verən əsas səbəblərdən biri də dünya birliyinin beynəlxalq təhlükəsizliyi qorumaq üçün həyata keçirdiyi tədbirlərin lazımi səviyyədə görülməməsidir. Yalnız beynəlxalq prinsip və normaların pozulmasına dərhal reaksiya göstərən və bütün sülhsevər qüvvələrin konsolidasiyasını özündə cəmləşdirən bir mexanizm münaqişə ocaqlarını birdəfəlik yox edə bilər. Beynəlxalq hüquq dövlətlərin "ərazi bütövlüyü" prinsipini qoruyur, separatizmi və bu prinsipə zidd hərəkətləri təşviq etmir [12, s.17].

Çoxsaylı faktlar sübut edir ki, Ermənistan təcavüzkar ölkədir və Azərbaycanın 20% ərazisini məhz bu ölkənin silahlı qüvvələri işğal etmişdir. Misal üçün Human Rights Watch beynəlxalq təşkilatının 1994-cü ildə hazırladığı "Dağlıq Qarabağda münaqişənin yeddi ili" adlı məruzəsində göstərilir ki, əldə edilmiş faktlar Ermənistanın münaqişə tərəfi olduğunu sübuta yetirir. Məruzədə çoxsaylı müşahidələr və sübutlar əsasında nəticə çıxarıhr ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərində olması hüquqi nöqteyi-nəzərdən bu ölkəni münaqişə tərəfi edir, bu münaqişə tərəfləri Ermənistan və Azərbaycan olan beynəlxalq silahlı münaqişə kimi qiymətləndirilir [13, s.16].

Amma təkzibolunmaz faktlara, qanlı hadisələrə baxmayaraq, ermənilər dünya ictimayyətinə çoxəsrlik, erməni saxtakarlığının tərkib hissəsi olan qondarma və uydurma "erməni soyqırımı" mifini məkrli ustalıqla yeridə bilmişlər."Erməni soyqırımı" əfsanəsi altında başqa xalqlara, xüsusən türklərə və azərbaycanlılara qarşı amansızlığı və qəddarlığı ilə seçilən soyqırımlar törətmişlər [11, s.35].

2020-ci il sentyabrın 27-dən noyabrın 10-na qədər olan 44 günlük müharibənin nəticələrinin ilkin təhlili onu deməyə əsas verir ki. Azərbaycan rəhbərliyi həm hərbi, həm də diplomatik sahədə mühüm əhəmiyyət kəsb edən qələbə qazanmışdır. Belə ki noyabrın 10-da Ermənistanın hərbi-siyasi rəhbərliyi onlar üçün təslimçilik anlamı verən üçtərəfli bəyanatı imzalamalı oldu. Elə həmin gün Silahlı Qüvvələrin Ali Baş Komandanı bununla bağlı xalqa müraciətində demişdir: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm kı, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar [9, s.114].

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycan diasporunun fəaliyyəti. Heydər Əliyev dünyada Azərbaycan diasporunun yaradılmasına tarixi zərurət kimi baxıb. Bu baxımdan Azərbaycan diasporunun təşkilatlandırılması məsələsi onu ciddi narahat edib və həlli istiqamətində gərgin əməli fəaliyyət göstərib. Diplomatik və ideoloji fəaliyyətin əsasları elmi-təcrübi olaraq araşdırılıb, öyrənilib və praktikaya tətbiq edilib [8, s.161].

Ümummilli lider Heydər Əliyevin peşəkar siyasət və diplomatiyası nəticəsində vətənpərvər soydaşlarımız təşkilatlanır, harada yaşamasından asılı olmayaraq ənənlərinə sadiq qalır, milli-mənəvi köklərinə bağlı olur, Tarixi Vətənə – Azərbaycana müqəddəs övladlıq borcunu ləyaqətlə yerinə yetirirlər [8, s.164].

1994-1995-ci illərdə Azərbaycanın ciddi təhlükələrlə üzləşdiyi zaman ümummilli lider Heydər Əliyevin çağırışı ilə yüz minlərlə azərbaycanlının ölkə başçısının ətrafında toplaşması, ona dəstək verməsi milli birlik və həmrəyliyimizin tarixində ən parlaq səhifələrdən birinə çevrilmişdir. İctimai-siyasi sabitliyin, vətəndaş sülhünün təmini, habelə 1996-ci ildən başlayaraq ölkədə aparılan quruculuq tədbirləri, bazar iqtisadiyyatının elmi əsaslarının formalaşması, hüquqi dövlət quruculuğu, sosial sahənin inkişaf etdirilməsi milli diaspor quruculuğu prosesinə başlamaq üçün etibarlı zəmin formalaşdırmışdır. Bütün bu proseslər dünyanın müxtəlif bölgələrinə səpələnmiş, qəlbi vətən eşqi ilə döyünən soydaşlarımızın diqqət mərkəzində olmuş, onlarda böyük qürur va sevinc hissləri doğurmuşdur. Respublikamızın beynəlxalq aləmda daha geniş tanınması, dünya ölkələri ilə siyasi-iqtisadi, mədəni əlaqələrinin inkişaf etdirilməsi xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması prosesinə ciddi dəstək vermişdir [14, s.107].

2008-ci ildə Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının Bakıdakı iclasında qəbul olunmuş "Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası" diasporun fəaliyyətinin başlıca istiqamətlərini müəyyən edən konseptual sənəd kimi qiymətləndirilməlidir. Sənəddə Azərbaycan xalqının tarixi, etnogenezi, milli özünüdərk prosesi, özünəməxsus xüsusiyyətləri, milli-mənəvi dəyərləri və müasir inkişaf səviyyəsi təhlil edilmiş, soydaşlarımızın yaşadıqları ölkələrin cəmiyyətlərinə inteqrasiyası, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, qondarma "erməni soyqırımı" iddialarının ifşasi və digər məsələlərlə bağlı diasporun üzərinə düşən vəzifələr əksini tapmışdır [14, s.110].

İnformasiya cəmiyyətinin müasir tələblərinə uyğun olaraq, diaspor təşkilatları dünya azərbaycanlılarının həmrəyliyinin informasiya təminatı istiqamətində ana dilində və ya yaşadıqları ölkələrin dövlət dilində kütləvi informasiya vasitələri təsis etmək, milli icma üzvləri və yerli əhali arasında təbliğat və maarifçilik işi aparmaq hüququna malikdirlər. Azərbaycanlı icmalarının fəaliyyət göstərdikləri ölkələrin kütləvi informasiya vasitələri ilə əlaqələri yaxşılaşdırılmalı, yeni müstəqil qəzet, jurnal, radio, televiziya və informasiya agentliklərinin yaradılması prosesi davam etdirilməli, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında fəal iştirak edən və Azərbaycan diasporuna ictimai münasibətlərin qurulmasında yardım göstərə biləcək alim, siyasətçi və jurnalistlərlə, soydaşlarımızın yaşadıqları ölkələrin və digər dövlətlərin qeyri-hökumət təşkilatlarının təmsilçiləri ilə sıx münasibətlər qurulmalı, onlaıla məqsədyönlü iş aparılmalıdır [2, s.21].

Son illər Dağlıq Qarabağ münaqişəsinə, tarixin müxtəlif mərhələlərində xalqımızın məruz qaldığı terror və soyqırımı aktlarına dair faktlara beynəlxalq aləmin diqqətinin cəlb olunması sahəsində atılan addımlar Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin tövsiyələrinə uyğun olaraq diasporumuzun hücum taktikasına keçdiyini nümayiş etdirir. Bu gün diasporumuzun fəaliyyəti hücum taktikasına əsaslanır. İndi informasiya müharibəsində Azərbaycan işğalçı Ermənistandan daha güclü, çevik və sistemli fəaliyyət göstərir. Azərbaycan diaspor təşkilatları tərəfindən bu istiqamətdə müxtəlif formatlı tədbirlər keçirilib, xarici ölkələrin KİV-də ölkəmizlə bağlı mütəmadi olaraq məlumatlar yayımlanır.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində Azərbaycan diasporunun fəaliyyətinə nəzər salarkən belə deyib: "Dünyanın istənilən yerində bizim nümayəndələrimiz istənilən aksiyanı keçirə bilərlər və keçirirlər. Biz hücum diplomatiyası aparırıq və resurslarımız da var - həm intellektual, həm də maddi resurslarımız. Ona görə təsadüfi deyil ki, son illərdə biz artıq erməni lobbisi ilə mübarizədə qalib gəlirik". Ermənistanın ölkəmizə qarşı keçirdiyi təcavüzkarlıq siyasətinin bütün dünyaya çatdırılması və ifşa olunması məqsədilə ABŞ, Kanada, Almaniya Federativ Respublikası, Türkiyə Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, İsveç Krallığı, Litva Respublikası, Gürcüstan, Rusiya Federasiyası, Fransa Respublikası, Belçika Krallığı, Niderland Krallığı və digər ölkələrdə Azərbaycan diaspor təşkilatları tərəfindən müxtəlif məzmunlu tədbirlər, kütləvi etiraz aksiyaları, konfrans və seminarlar təşkil olunub. 20 Yanvar faciəsi, Xocalı faciəsi ilə əlaqədar Azərbaycan icmaları tərəfindən təşkil olunmuş anım mərasimləri, foto və rəsm sərgiləri, təbliğat kampaniyaları,

elmi-praktik konfranslar və digər tədbirlərdə sovet imperiyasının dinc əhaliyə qarşı törətdiyi cinayətlər diqqətə çatdırılıb, müxtəlif beynəlxalq təşkilatlara müraciətlər ünvanlanıb və bu faciəyə beynəlxalq qiymət verilməsinin zəruri olduğu bildirilib [3, s.5].

İkinci Qarabağ müharibəsi - Vətən müharibəsinin 10 noyabr Bəyyannaməsi ilə Zəfərlə bitməsindən sonrakı dövrdə, noyabr-dekabr ayları ərzində xaricdə yaşayan azərbaycanlılar dövlətimizə və ordumuza dəstək məqsədilə müvafiq fəaliyyətlərini davam etdirmişlər. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" və "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" sərəncamlarına əsasən Azərbaycan diasporu məlumatlandırılmış və bununla əlaqədar digər addımlar atılmışdır. O cümlədən, bütünlükdə soydaşlarımızın və həmvətənlərimizin bayramı sayılan "31 dekabr - Dünya azərbaycanlılarının həmrəyliyi günü" münasibətilə silsilə tədbirlər reallaşdırılıb. Bu istiqamətdə ümumilikdə 83 tədbir həyata keçirilib [4, s.88].

Ötən dövrdə Ermənistanın Cənubi Qafqaz regionunda həyata keçirdiyi separatçılıq, ekstremizm, özünüküləşdirmə siyasəti ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizə qarşı erməni diasporu və lobbisi tərəfindən həyata keçirilən kampaniyaların qarşısının alınması, Xocavənd rayonunun Edilli kəndində kütləvi məzarlıqların tapılması ilə əlaqədar xarici ölkələrdə Azərbaycan diaspor təşkilatları tərəfindən toplantılar, sərgilər, piketlər, nümayişlər və digər zəruri tədbirlər təşkil olunub. Ermənistanın 12-14 sentyabr təxribatı ilə əlaqədar Azərbaycan diaspor təşkilatları Avropanın aparıcı paytaxtlarında və şəhərlərində aksiyalar keçirərək, Ermənistan rəhbərliyinə etirazlarını bildiriblər. Ümumilikdə diaspor fəalları yaşadıqları ölkələrin ictimai-siyasi dairələrinə və dövlət-hökumət nümayəndələrinə təxribat barədə 70, diaspor təşkilatları isə 143 müraciət və bəyanat ünvanlayıblar. 2022-ci ildə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Zəfər Günü ilə əlaqədar müxtəlif ölkələrdə yüzdən artıq tədbir keçirilib. Bu tədbirlər 44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbənin təbliği, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılması məqsədinə xidmət edib [5, s.5-6].

Nəticə. Qarabağ müharibəsi bir daha informasiya məkanında aparılan mübarizənin rolunun olduqca əhəmiyyətli olduğunu göstərdi. Belə ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə olduğu kimi çatdırılması Qarabağ müharibəsinin xalqımızın maraqlarının qorunması və ərazi bütövlüyümüzün təmin olunması ilə başa çatmasında əvəzsiz rol oynadı. İşğal olunan ərazilərin təkcə hüquqi deyil, eyni zamanda tarixi müstəvidə də Azərbaycana məxsus olduğunu təsdiqləyən bir çox faktlar mövcuddur. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Ermənistanın təcavüzü və torpaqlarımızın işğalı dövrünə təsadüf etmişdir və beynəlxalq ictimaiyyətin ölkəmizin problemlərinə biganəliyi fonunda xaricdə yaşayan həmvətənlərimizin dünyadakı haqq səsimiz ola biləcəyinin reallığını təbliğ edərək bu istiqamətdə atılan addımları dövlət siyasəti xəttinə çevirmişdir. Nəticədə diaspor quruculuğu dövlət siyasətinin ptioritet istiqaməti olmuşdur.

ƏDƏBİYYAT

1. Abdullayev E. Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində. Bakı: "Təhsil", 2004, 216s.
2. Azərbaycan diaspor təşkilatları üçün sənədlər və məlumatlar toplusu (I kitab). Bakı:"Şirvannəşr" - 2008. -308 s.
3. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi 2016-ci illik hesabat.
4. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi 2020-ci illik hesabat.
5. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi 2021-ci illik hesabat.
6. Əhmədov E., Ermənistanın Azər bavcana təcavüzü: təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı: 2012, 912 s.
7. Əliyev N. Vətən müharibəsində Azərbaycanın qələbəsi. İnformasiya-analitik material. Bakı: "Afpoligraf", 2021, 1096 s.
8. Əsgərli Ə. Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət. Bakı:"Elm və təhsil", 2023, 456 s.
9. Hüseynova İ.M. İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri. Bakı: "Füyuzat", 2021, 224 s.
10. Məmmədov S., Məmmədov T. Qarabağ: mif və həqiqət. Dərs vəsaiti. Bakı: "Təhsil", 2021, 480 s.
11. Məmmədov S., Məmmədov T. Dağlıq Qarabağ həqiqətləri və beynəlxalq hüquq. Dərs vəsaiti. Bakı: "Mütərcim", 2018, 184 s.
12. Nuriyeva İ.T. Ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərinə etnosiyasi yanaşma. Bakı: "Mütərcim", 2021, 352 s.

13. Süleymanov E., Süleymanov V. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. Bakı: 2012, 181 s.
14. Vəliyev İ. Sabitlik və rifah naminə siyasət. Baki: "Təhsil", 2018, 672 s.
15. Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru (27 sentyabr - 10 noyabr 2020-ci il). Bakı:"Şərq-Qərb", 2021, 444 s.
16. Ermənistan – Azərbaycan münaqişəsi / Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı. URL: https://president.az/az/pages/view/azerbaijan/karabakh [18.12.2024].

ПАРВАНА МАМЕДОВА
Диссертант кафедры «Социальных наук»
Гянджинского Государственного Университета

ДЕЯТЕЛЬНОСТЬ ДИАСПОРОВЫХ ОРГАНИЗАЦИЙ ПО ОБЕСПЕЧЕНИЮ ТЕРРИТОРИАЛЬНОЙ ЦЕЛОСТНОСТИ АЗЕРБАЙДЖАНА И ЕЕ РЕЗУЛЬТАТЫ

На протяжении многих лет армяне прибегали ко всем средствам для реализации мечты о «Великой Армении». Чтобы осуществить эти мечты, они не отказались от политики захвата азербайджанских земель, которая была их давним гнусным планом. Армяно-азербайджанский конфликт, начавшийся в конце 1980-х годов, начался с территориальных претензий другой стороны, провокаций и террористических актов. Этот конфликт вошел в историю как один из самых трагических конфликтов XX века.

Для того, чтобы донести до мирового сообщества правду об Азербайджане, особенно о Нагорно-Карабахском конфликте, в нашем государстве существует диаспора. Однако на протяжении многих лет армянская диаспора проводит ненавистническую политику по созданию негативного мнения об Азербайджане на Западе. Фальсифицированная информация армянской диаспоры уже предотвращается благодаря упорной работе нашей диаспоры. После того как наш общенациональный лидер Гейдар Алиев стал президентом независимого Азербайджана, строительство диаспоры стало одним из приоритетных направлений государственной политики. Мощное государство Азербайджан все больше помогает нашей диаспоре укрепляться и объединяться вокруг единой идеи. Съезды азербайджанцев мира играют важную роль в обеспечении национального единства и солидарности азербайджанцев мира, укреплении связей между Азербайджанским государством и азербайджанцами мира, объединении усилий в решении проблем, сохранении и развитии азербайджанского языка, наших национально-нравственных ценностей. Согласно специальному указу Гейдара Алиева от 23 мая 2001 года в Баку 9-10 ноября 2001 года был проведен I Съезд азербайджанцев мира. Согласно Указу Президента Ильхама Алиева, II Съезд был проведен в 2006 году. III Конгресс в 2011 году, IV Конгресс в 2016 году и V Конгресс в апреле 2022 года. Пятый Конгресс азербайджанцев мира называется Конгрессом Победы, потому что он был проведен после победы в Карабахской войне. На съезде обсуждались темы «Задачи, стоящие перед азербайджанской диаспорой в послевоенный период», «Вклад азербайджанской диаспоры в восстановление и реконструкцию Карабаха». В последние годы азербайджанская диаспора сыграла особую роль в информировании международного сообщества о реалиях Азербайджана, продемонстрировав высокую организованность и сплоченность.

Ключевые слова: Нагорно-Карабахский конфликт, армянская эмиграция, азербайджанская диаспора, диаспорская деятельность.

PARVANA MAMMADOVA
PhD student of the Department of "Social Sciences"
of Ganja State University

THE ACTIVITY OF DIASPOR ORGANIZATIONS IN ENSURING THE TERRITORIAL INTEGRITY OF AZERBAIJAN AND ITS RESULTS

For many years, Armenians have resorted to all means to realize the dream of "Greater Armenia". In order to realize these dreams, they did not give up the policy of seizing Azerbaijani lands, which

was their long-standing nefarious plan. The Armenian-Azerbaijani conflict, which began in the late 1980s, began with the territorial claims of the other side, provocations and acts of terrorism. This conflict has gone down in history as one of the most tragic conflicts of the 20th century.

In order to convey the truth about Azerbaijan, especially the Nagorno-Karabakh conflict, to the world community, our state has a diaspora. However, for many years, the Armenian diaspora has been conducting a hateful policy to create a negative opinion about Azerbaijan in the West. The falsified information of the Armenian diaspora is already being prevented thanks to the hard work of our diaspora. After our national leader Heydar Aliyev became the president of independent Azerbaijan, diaspora building became one of the priority directions of state policy. The powerful state of Azerbaijan is increasingly helping our diaspora to strengthen and unite around a single idea. Congresses of World Azerbaijanis play an important role in ensuring national unity and solidarity among Azerbaijanis of the world, strengthening relations between the Azerbaijani state and world Azerbaijanis, joining efforts in solving the problems, preserving and developing the Azerbaijani language and our national and moral values. The 1st Congress of the World Azerbaijanis was held in Baku on November 9-10, 2001, according to the special decree of Heydar Aliyev on May 23, 2001. According to the Decree of President Ilham Aliyev, the II Congress was held in 2006, the III Congress in 2011, the IV Congress in 2016, and the V Congress in April 2022. The Fifth Congress of World Azerbaijanis is called the Victory Congress because it was held after the victory in the Karabakh war. At the congress, the topics "Tasks facing the Azerbaijani diaspora in the post-war period", "Contributions of the Azerbaijani diaspora to the reconstruction of Karabakh" were discussed. In recent years, the Azerbaijani diaspora has played a special role in informing the international community about the realities of Azerbaijan by demonstrating high organization and unity.

Keywords: Nagorno-Karabakh conflict, Armenian emigration, Azerbaijani diaspora, diaspora activity

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 dekabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Cavid Bağırzadə, t.e.d. İbrahim Zeynalov.

UOT 32:93/94

ƏSGƏR ƏSGƏROV
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının doktorantı
askeraskerovv222@gmail.com

AZƏRBAYCAN-TÜRKİYƏ STRATEJİ ƏMƏKDAŞLIĞININ REGİONAL GÜC BALANSINA TƏSİRİ

DOI: https://doi.org/10.36719/2708-065X/108/205-209

Bu məqalə Azərbaycan-Türkiyə strateji əməkdaşlığının Cənubi Qafqaz və Yaxın Şərq regionlarındakı güc balansına təsirini araşdırır. Son illərdə bu iki ölkə arasındakı əməkdaşlıq regional təhlükəsizlik və sabitlik üçün mühüm əhəmiyyət kəsb edən siyasi, hərbi, iqtisadi və mədəni sahələrdə genişlənmişdir. Azərbaycanın zəngin enerji resursları və Türkiyənin güclü iqtisadi və hərbi potensialı bu əməkdaşlığı gücləndirən əsas amillərdir. Xüsusilə, 2020-ci il Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana verdiyi diplomatik dəstək Azərbaycanın ərazi bütövlüyünün bərpasına və regionda güc balansının dəyişməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Müharibədən sonra imzalanan Şuşa Bəyannaməsi iki ölkə arasındakı əlaqələri daha da gücləndirmiş və Cənubi Qafqazda sabitlik və təhlükəsizlik üçün yeni perspektivlər yaratmışdır. Məqalə həmçinin, Azərbaycan-Türkiyə əməkdaşlığının regiondakı digər aktorlar, o cümlədən Ermənistan və Rusiya ilə olan güc balansını necə dəyişdiyini və bu əməkdaşlığın iqtisadi, hərbi və siyasi sahələrdə necə bir dinamik yaratdığını təhlil edir. Bu strateji tərəfdaşlıq həm də Türk Dövlətləri Təşkilatı və digər regional forumlar vasitəsilə daha geniş regionda iqtisadi, siyasi və hərbi inteqrasiyaya töhfə verir.

Açar sözlər: Azərbaycan-Türkiyə əməkdaşlığı, Regional güc balansı, Vətən müharibəsi, Şuşa Bəyannaməsi, Cənubi Qafqaz təhlükəsizliyi.

Giriş. Azərbaycan-Türkiyə strateji əməkdaşlığı son illərdə Cənubi Qafqaz və Yaxın Şərq regionlarında güc balansını dəyişən mühüm amillərdən biri kimi önə çıxmışdır. İki ölkə arasındakı bu strateji tərəfdaşlıq təkcə siyasi və hərbi sahələrdə deyil, həm də iqtisadi, enerji və mədəni sahələrdə də geniş miqyasda inkişaf edir. Azərbaycanın zəngin enerji resurslarına və Türkiyənin güclü iqtisadi və hərbi potensialına əsaslanan bu əməkdaşlıq regional təhlükəsizlik və sabitlik üçün mühüm əhəmiyyət kəsb edir. Mövzunun aktuallığı regionda baş verən geosiyasi dəyişikliklər fonunda daha da artır; xüsusilə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli və Türkiyənin Cənubi Qafqazdakı rolunun güclənməsi, bu əməkdaşlığın təsir dairəsini genişləndirir.

Azərbaycan-Türkiyə strateji əməkdaşlığı Azərbaycan siyasi elmi üçün əhəmiyyətli bir tədqiqat mövzusudur. Bu əməkdaşlıq Azərbaycanın milli təhlükəsizlik strategiyasını, xarici siyasət prioritetlərini və regional inteqrasiya səylərini formalaşdırmaqda əsas rol oynayır. Eyni zamanda, bu tərəfdaşlıq bölgənin güc balansını dəyişdirərək, Azərbaycanın regional və qlobal siyasi arenada mövqeyini gücləndirir.

Bu tədqiqatın məqsədi Azərbaycan-Türkiyə strateji əməkdaşlığının regional güc balansına olan təsirini təhlil etmək və bu təsirin müxtəlif siyasi, iqtisadi və hərbi aspektlərini araşdırmaqdır. Tədqiqat həmçinin, bu əməkdaşlığın regionda sabitlik və təhlükəsizlik təminatına necə töhfə verdiyini qiymətləndirəcək. Elmi ədəbiyyata töhfə olaraq, bu tədqiqat Azərbaycan-Türkiyə əməkdaşlığının geosiyasi təhlilini genişləndirərək, müasir geosiyasət nəzəriyyələrinə və beynəlxalq əlaqələr diskursuna yeni perspektivlər gətirəcək.

Vətən müharibəsindən əvvəl Azərbaycan-Türkiyə hərbi-siyasi əməkdaşlığı. 2020-ci ildən əvvəlki dövrü təhlil etdikdə görürük ki, Rusiya-Ermənistan ittifaqının qarşısında Cənubi Qafqazda güc balansını saxlamaq və regional təhlükəsizliyi təmin etmək məqsədilə Türkiyə-Azərbaycan ittifaqı durur. Cənubi Qafqazla qonşu olan Türkiyə bölgədə sülh və sabitlik mühitinin yaradılmasında əhəmiyyətli bir rola malikdir. Azərbaycan-Türkiyə ikitərəfli və Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli mü-

nasibətlərinin inkişafı həm geosiyasi, həm də iqtisadi amillərlə bağlı olub, regionda sabitlik və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Bu üç ölkənin əməkdaşlığı onların ortaq maraqları və qarşılıqlı ehtiyacları ilə formalaşıb. Azərbaycanın zəngin enerji resursları, Türkiyənin enerji ehtiyacları və Gürcüstanın strateji coğrafi mövqeyi bu əməkdaşlığı zəruri edən əsas amillərdəndir. 2008-ci ildə Rusiyanın Gürcüstana hərbi müdaxiləsindən sonra Azərbaycan, Gürcüstan və Türkiyənin regional ittifaq qurması zəruri bir addım kimi qəbul edildi. Bu istiqamətdə ilk vacib addım, 8 iyun 2012-ci ildə Trabzonda xarici işlər nazirləri səviyyəsində keçirilən üç görüş və bu görüşlər nəticəsində qəbul olunan bəyannamə idi [8]. Bəyannamənin mətnində demokratiya, hüquq, insan hüquqları, sərbəst bazar iqtisadiyyatı, ölkələrin suverenliyi və ərazi bütövlüyü vurğulanmış və Cənubi Qafqazdakı problemlərin bu prinsiplər əsasında həll ediləcəyi bildirilmişdir. Bu, üçtərəfli əməkdaşlığın hüquqi və siyasi əsaslarını formalaşdıran mühüm bir sənəd idi.

Üçtərəfli əməkdaşlığın inkişafı üçün qəbul edilən növbəti sənəd üç ölkənin xarici işlər nazirləri tərəfindən 28 mart 2013-cü ildə imzalanmış Batumi Birgə Komünikesidir [9]. Bu sənəd Gürcüstanda daxili siyasi güc balansının dəyişdiyi bir vaxtda imzalanmışdır və regional əməkdaşlığın gücləndirilməsi üçün vacib bir platforma yaratmışdır. Bir il sonra, 19 fevral 2014-cü il tarixində Gəncədə xarici işlər nazirlərinin zirvə görüşü keçirildi. Bu sammitdə qəbul edilmiş bəyannaməyə əsasən, tərəflər Trabzon bəyannaməsi və Batumi komünikesini regional əməkdaşlığın, siyasi dialoqun və üçtərəfli layihələrin həyata keçirilməsi üçün vacib bir platforma kimi istifadə etməyi qərara aldılar.

Hərbi və müdafiə sahəsində əməkdaşlıq üçtərəfli münasibətlərin vacib bir komponentidir. Bu sahədə ilk əhəmiyyətli addım "Üçtərəfli Müdafiə Tədbirləri Fəaliyyət Planı"nda əks olunan yeni əməkdaşlıq mexanizmləri olmuşdur. 10 dekabr 2014-cü il tarixində Qarsda imzalanan bəyannamədə hər üç dövlət bir daha öz ittifaqlarına sadiq olduqlarını göstərdilər. Sənəd əvvəlki bəyannamələri təkrarlayaraq, üçtərəfli və ikitərəfli münasibətlərin inkişafından duyduqları məmnunluğu ifadə edirdi [6].

23 dekabr 2019-cu il tarixində Tbilisi, Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirlərinin səkkizinci üçtərəfli yığıncağına ev sahibliyi etdi. Bu görüş üç ölkənin regional və qlobal səviyyədə əməkdaşlığını daha da gücləndirmək üçün vacib bir platforma təmin etdi. Üçtərəfli formatda həyata keçirilən ortaq hərbi təlimlər və təhlükəsizlik layihələri Cənubi Qafqazda stabillik və inkişaf üçün əhəmiyyətli töhfələr verdi [7].

2020-ci ilin sentyabr-noyabr aylarında baş verən 44 günlük Vətən müharibəsində Türkiyənin rolu Azərbaycanın qələbəsində və ərazi bütövlüyünü bərpa etməsində mühüm əhəmiyyət kəsb etmişdir. Türkiyə müharibə dövründə və sonrasında Azərbaycanın yanında duraraq siyasi və diplomatik dəstəklər göstərmişdir. Müharibənin ilk günlərindən etibarən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın Azərbaycan ərazilərinə hücumunu qəti şəkildə pisləmiş və Türkiyənin Azərbaycanın yanında olduğunu bəyan etmişdir. Ərdoğan sosial şəbəkələrdə etdiyi paylaşımda türk millətinin hər zaman azərbaycanlı qardaşlarının yanında olduğunu vurğulamışdır. Türkiyə hökuməti beynəlxalq ictimaiyyəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ədalətli mövqe tutmağa çağırmış və Ermənistanın təcavüzkar siyasətini ifşa etmişdir. Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop Ermənistan ordusunun Azərbaycan ərazilərindən çıxmasının zəruriliyini vurğulamış və Azərbaycanın haqq işində dəstək olmağa davam edəcəyini bəyan etmişdir [5].

Post-müharibə dövründə Azərbaycan-Türkiyə ittifaqının regiona təsirləri. 2020-ci ildə 44 günlük Vətən müharibəsindən sonra isə Azərbaycan və Türkiyə arasındakı ikitərəfli əməkdaşlıq daha da intensivləşdi. Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi və Türkiyənin bu prosesdə göstərdiyi siyasi dəstək iki ölkə arasında əlaqələrin daha da güclənməsinə səbəb oldu. Müharibədən sonra hərbi, iqtisadi, siyasi və mədəni sahələrdə əməkdaşlıq genişlənmiş, birgə hərbi təlimlər, strateji layihələr və iqtisadi əməkdaşlıq proqramları həyata keçirilməyə başlanmışdır. Azərbaycan və Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsi iki ölkə arasındakı strateji tərəfdaşlığı və qardaşlıq əlaqələrini daha da möhkəmləndirərək Cənubi Qafqazda sabitlik və təhlükəsizlik üçün yeni perspektivlər açdı. isə 2021-ci ilin iyun ayının 15-də Şuşa şəhərində imzalanmış Şuşa bəyənnaməsi Cənubi Qafqazda güc balansına ciddi təsir etdi. Bu bəyannamə iki dövlətin siyasi, hərbi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığını daha da gücləndirmək üçün bir çərçivə təmin edir. Şuşa Bəyannaməsinin Cənubi Qafqazda güc balansına təsiri regional sabitlik və təhlükəsizlik baxımından böyük əhəmiyyət kəsb edir. Bəyannamə Azərbaycan və Türkiyə arasında siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsini

və qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edir. Bəyannamədə vurğulanır ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoymuş və torpaqlarını işğaldan azad etmişdir. Bəyannamənin əsas məqsədlərindən biri Cənubi Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası və region dövlətləri arasında münasibətlərin normallaşdırılmasıdır. Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə arasında siyasi və diplomatik əməkdaşlığı gücləndirmək üçün mühüm bir platformadır. Bəyannaməyə əsasən, tərəflər müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edirlər. Bu əməkdaşlıq Cənubi Qafqazda güc balansının qorunmasında və regional sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bəyannamə beynəlxalq hüququn prinsip və normalarına uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini vurğulayır [3].

Şuşa Bəyannaməsi iqtisadi və nəqliyyat sahələrində də əməkdaşlığı gücləndirməyi nəzərdə tutur. Tərəflər regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qaz mənbə və marşrut şaxələndirilməsini təmin edən strateji Cənub Qaz Dəhlizinin həyata keçirilməsində qabaqcıl rol oynayırlar. Tərəflər Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəlmiş səyləri əlaqələndirilmiş şəkildə davam etdirəcəklər. Bu, regionun enerji təhlükəsizliyini təmin etmək və Azərbaycanın enerji resurslarını beynəlxalq bazarlara çıxarmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Bəyannamə həmçinin Zəngəzur dəhlizinin açılmasını və Naxçıvan-Qars dəmir yolunun tikintisini nəzərdə tutur. Bu layihələr Azərbaycan və Türkiyə arasındakı nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcək və regionda iqtisadi inteqrasiyanı gücləndirəcəkdir. Bu, Cənubi Qafqazda güc balansına müsbət təsir edərək, Azərbaycanın iqtisadi potensialını artırır və Türkiyənin regionda strateji mövqeyini gücləndirir [4].

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan və Türkiyə birgə hərbi təlimlər, kəşfiyyat məlumatlarının mübadiləsi və müdafiə sənayesində əməkdaşlıq vasitəsilə təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı dərinləşdirib. 2020-ci ildə Dağlıq Qarabağ münaqişəsi zamanı Türkiyənin dəstəyi Azərbaycanın qələbəsində mühüm rol oynayıb. Geosiyasi dinamika baxımından hər iki ölkə regional çağırışlara qarşı mübarizədə ümumi maraqları bölüşür və sabitliyə, iqtisadi inkişafa və suverenliyə üstünlük verir. Onların strateji tərəfdaşlığı regional dinamikaya təsir edir, həm qonşu ölkələrə, həm də böyük güclərə təsir göstərir. Bundan əlavə, Azərbaycan və Türkiyə Türk Şurası və İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) kimi regional forumlarda fəal iştirak edir və burada sülh, münaqişələrin həlli və iqtisadi əməkdaşlığı müdafiə edirlər. Onların diplomatik səyləri daha geniş regionda sabitliyin təşviqinə, münaqişələrin həllinə və qarşılıqlı maraqların inkişaf etdirilməsinə yönəlib [1].

İqtisadi sahədə Azərbaycan və Türkiyə arasında əməkdaşlıq müxtəlif layihələr və müqavilələr vasitəsilə davam edir. Azərbaycanda yüngül sənaye məhsullarının əsas hissəsinin Türkiyə və Çindən idxal olunduğunu nəzərə alaraq, bu sahədə əməkdaşlıq xüsusilə əhəmiyyətlidir. İki ölkə arasında yüngül sənaye məhsullarının istehsalını artırmaq və bu sahədə investisiyaları təşviq etmək, hər iki ölkənin ÜDM-nin artımına səbəb ola bilər. Azərbaycanda yüngül sənaye məhsullarının istehsalına əsaslanan sənayeləşmə siyasətinin qurulması və bu sahələrin inkişaf etdirilməsi, həmçinin regionda iqtisadi canlanmaya səbəb ola bilər. Türk dövlətlərinin iqtisadi inteqrasiyası və Zəngəzur dəhlizinin açılması, Azərbaycan-Türkiyə münasibətlərini daha da gücləndirəcək və regionun iqtisadi inkişafına mühüm töhfə verəcəkdir. Şəkillərdə qeyd olunduğu kimi, Türk dövlətlərinin ümumi bazarı 1,2 trilyon dollar dəyərində qiymətləndirilir və bu dövlətlər arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi böyük potensiala malikdir. Xüsusilə Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan və Türkmənistan kimi ölkələrin təbii sərvətlərinin və enerji resurslarının birləşdirilməsi, regionda iqtisadi inteqrasiyanı gücləndirəcəkdir [2].

Nəticə. Tədqiqatın nəticəsi olaraq demək mümkündür ki, Azərbaycan və Türkiyə arasındakı strateji tərəfdaşlıq Cənubi Qafqaz və Yaxın Şərq regionlarında güc balansını əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Bu əməkdaşlıq siyasi, hərbi və iqtisadi sahələrdə təsirli olmuş, regionda sabitlik və güc dinamizmlərini yenidən formalaşdırmışdır. Bu baxımdan, Azərbaycan və Türkiyə arasındakı strateji əlaqələr hər iki ölkənin beynəlxalq arenada mövqeyini gücləndirmişdir. Türkiyə Azərbaycanın ərazi

bütövlüyünü və Qarabağ məsələsindəki haqlı mövqeyini dəstəkləməklə regionda təsirini artırmışdır. Bu, Azərbaycanın diplomatik mövqeyini gücləndirmiş və regionda digər aktorlarla olan münasibətlərində üstünlük qazanmasına kömək etmişdir. Eyni zamanda, Türkiyənin Avropa və NATO ilə olan əlaqələri Azərbaycanın Qərblə münasibətlərini yaxşılaşdırmaq üçün bir körpü rolunu oynayır. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı regionda güc balansını əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Vətən müharibəsi zamanı Türkiyənin hərbi dəstəyi Azərbaycanın müharibədə qələbə qazanmasına böyük töhfə vermişdir. Bu, Azərbaycanın hərbi gücünü artırmış və regionda digər aktorlar, xüsusilə Ermənistan və Rusiya ilə olan güc balansını dəyişdirmişdir. Türkiyə ilə hərbi əməkdaşlıq Azərbaycan Silahlı Qüvvələrinin müasir texnologiyalar və təlimlər vasitəsilə gücləndirilməsinə imkan yaratmışdır. Azərbaycan və Türkiyə arasındakı iqtisadi əməkdaşlıq, hər iki ölkənin iqtisadi gücünü artırmış və regionda iqtisadi inteqrasiyanı gücləndirmişdir. Zəngəzur dəhlizinin açılması və yeni iqtisadi layihələrin həyata keçirilməsi regionda iqtisadi əlaqələrin və ticarətin inkişafına töhfə verir. Bu, Azərbaycanın və Türkiyənin regionda iqtisadi gücünü artırır və digər aktorlarla olan iqtisadi güc balansını dəyişir. Azərbaycan və Türkiyə arasındakı strateji tərəfdaşlıq Türk Dövlətləri Təşkilatı (TDT) kimi regional təşkilatlar vasitəsilə də təsirini göstərir. Bu əməkdaşlıq, türk dövlətləri arasında iqtisadi, siyasi və hərbi inteqrasiyanı gücləndirir və regionda kollektiv güc balansını dəyişdirir. Azərbaycan və Türkiyə TDT vasitəsilə regionda daha güclü və təsirli aktorlar olaraq çıxış edir.

ƏDƏBİYYAT

1. Manoba, D.E. Assessing Azerbaijan-Turkiye relations in 2022. URL: https://thediplomaticinsight.com/assessing-azerbaijan-turkiye-relations-in-2022/#google_vignette [24.02.2025].
2. Türk Dövlətləri Təşkilatı daxilində əməkdaşlığın əhatəsi genişlənir. Azərbaycan.-2024.- 18 may. № 103.- S.9.
3. Özdemir, D.M.; Kantar, G. Şuşa Beyannamesi'nin Önemi ve Olası Etkileri. MANAS Sosyal Araştırmalar Dergisi, 12(2), 733-744.
4. Kamalqızı, R. Şuşa Bəyannaməsi - əməkdaşlıqdan müttəfiqliyə. Səs.-2022.- 11 avqust.- S.12.
5. Emrahov, M. 44 günlük II Qarabağ-Vətən müharibəsində Türkiyə. Akademik Tarih ve Düşünce Dergisi, 2023, 10(2), 492-515.
6. Azərbaycan, Gürcüstan və Türkiyənin xarici işlər nazirləri Qars Bəyanatı imzalayıblar. ModernAz. 11 Dekabr 2014. URL: https://modern.az/az/news/68754 [24.02.2025].
7. Güncər, Ə. Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirlərinin 8-ci üçtərəfli görüşü. TRT Azərbaycan. 27.02.2020. URL: https://www.trt.net.tr/azerbaycan/iqtisadiyyat/2019/12/23/azrbaycan-gurcustan-v-turkiy-xarici-isl-r-nazirl-rinin-8-ci-uct-r-fli-gorusu-1328253 [24.02.2025].
8. Azərbaycan, Gürcüstan və Türkiyə arasında Trabzon Bəyannaməsi imzalanıb.URL: https://modern.az/tehsil/25133/azerbaycan-gurcustan-ve-turkiye-arasinda-trabzon-beyannamesi-imzalanib/ [24.02.2025].
9. Asker, A.; Ünal, T. Müstəqillik Dövründə Gürcüstanda Milli Dövlət Quruculuğu, İslam Siyasəti və Regional Əməkdaşlıq. Avrasya İncelemeleri Dergisi, 9, 2 (2020): 125-139.

АСКЕР АСКЕРОВ
Академия государственного управления при Президенте Азербайджанской Республики

ВЛИЯНИЕ АЗЕРБАЙДЖАНО-ТУРЕЦКОГО СТРАТЕГИЧЕСКОГО СОТРУДНИЧЕСТВА НА РЕГИОНАЛЬНЫЙ БАЛАНС СИЛ

Эта статья исследует влияние стратегического сотрудничества между Азербайджаном и Турцией на баланс сил в регионах Южного Кавказа и Ближнего Востока. В последние годы сотрудничество между этими двумя странами расширилось в политической, военной, экономи-

ческой и культурной сферах, что имеет важное значение для региональной безопасности и стабильности. Богатые энергетические ресурсы Азербайджана и мощный экономический и военный потенциал Турции являются основными факторами, укрепляющими это сотрудничество. Особенно во время Отечественной войны 2020 года дипломатическая поддержка, оказанная Турцией Азербайджану, значительно повлияла на восстановление территориальной целостности Азербайджана и изменение баланса сил в регионе. Подписанная после войны Шушинская декларация ещё более укрепила отношения между двумя странами и создала новые перспективы для стабильности и безопасности на Южном Кавказе. В статье также анализируется, как сотрудничество между Азербайджаном и Турцией изменяет баланс сил с другими акторами в регионе, включая Армению и Россию, и каким образом это сотрудничество создаёт динамику в экономической, военной и политической сферах. Это стратегическое партнёрство также способствует экономической, политической и военной интеграции в более широком регионе посредством таких региональных форумов, как Организация Тюркских государств.

Ключевые слова: сотрудничество Азербайджан-Турция, региональный баланс сил, Отечественная война, Шушинская декларация, безопасность Южного Кавказа.

ASKER ASKEROV
The Academy of Public Administration
under The President of The Republic of Azerbaijan

INFLUENCE OF AZERBAIJANI-TURKISH STRATEGIC COOPERATION ON THE REGIONAL BALANCE OF POWER

This article examines the impact of the strategic partnership between Azerbaijan and Turkey on the balance of power in the South Caucasus and Middle East regions. In recent years, the cooperation between these two countries has expanded in political, military, economic, and cultural spheres, which is of great importance for regional security and stability. Azerbaijan's rich energy resources and Turkey's strong economic and military potential are the main factors that strengthen this cooperation. Notably, during the 2020 Patriotic War, Turkey's diplomatic support for Azerbaijan significantly contributed to the restoration of Azerbaijan's territorial integrity and the shift in the regional power balance. The Shusha Declaration, signed after the war, further strengthened relations between the two countries and created new perspectives for stability and security in the South Caucasus. The article also analyzes how the Azerbaijan-Turkey cooperation changes the balance of power with other regional actors, including Armenia and Russia, and how this partnership creates dynamics in economic, military, and political spheres. This strategic alliance also contributes to economic, political, and military integration in the broader region through platforms such as the Organization of Turkic States and other regional forums.

Keywords: Azerbaijan-Turkey cooperation, Regional power balance, Patriotic War, Shusha Declaration, South Caucasus security.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.e.d. Sevinc Yusifzadə, t.e.d. İbrahim Zeynalov.

UOT 94(479.24)

RAMİLA AĞALAROVA
Bakı Dövlət Universitetinin doktorantı
ORCİD İD: 0009-0005-6916-282X
alr.aghalarova@gmail.com

AZƏRBAYCAN DÖVLƏTİNİN SOSİAL SİYASƏTİNDƏ QARABAĞ MÜHARİBƏSİ QAZİLƏRİNİN SOSİAL MÜDAFİƏSİ MƏSƏLƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/108/210-214

Azərbaycan dövləti müharibə iştirakçılarının qayğısına qalmağı, sosial müdafiə ilə bağlı problemlərinin həllini özünün daxili siyasətində prioritet istiqaməti kimi elan edir. Bu istiqamətdə görülmüş işlər və həyata keçirilən proqramlar çoxsahəli və zəngin olaraq müharibə veteranlarının, qazilərin, bundan sonrakı həyat tərzini və əmək fəaliyyəti şəraitini yaxşılaşdırmaq üçün, şəhidlərin ailə üzvlərinin sosial problemlərinin həllinə kömək üçün kompleks xarakteri daşıyır. Bu gün müharibə qazilərinin ailələrinə dövlət tərəfindən mənzillər verilir, müxtəlif yardımlar göstərilir və onların ehtiyaclarına uyğun digər addımlar atılır. Azərbaycanda əlil və qazilərə dövlət qayğısı, ölkənin sosial siyasətinin mühüm tərkib hissəsidir. Hökumət, bu şəxslərin rifahını artırmaq və onların cəmiyyətə inteqrasiyasını təmin etmək üçün müxtəlif layihələr və proqramlar həyata keçirir.

Açar sözlər: müharibə, Qarabağ, veteran, sosial, müdafiə, yardım.

Giriş. 2020-ci ilin sentyabr-noyabr aylarında baş verən 44 günlük İkinci Qarabağ Müharibəsi, Azərbaycan və Ermənistan arasında 30 ildən çox davam etmiş münaqişənin aradan qaldırılmasına nail ola bildi, Qarabağ və ətraf bölgələrindəki ərazilərin böyük bir hissəsinin azad edilməsi ilə nəticələndi. Bu müharibə həm də çox sayda qazinin həyatına təsir etdi. Müharibədə iştirak edən hər bir şəxs, döyüşlərdən əvvəl və sonra fərqli şəraitlərdə həyat və fəaliyyətini davam etdirirdi, bəzilərinin isə sağlamlığına ciddi zərər dəydi. Bütün sivil cəmiyyətlərdə olduğu kimi, Azərbaycan dövləti müharibə iştirakçılarının qayğısına qalmağı, sosial müdafiə ilə bağlı problemlərinin həllini özünün daxili siyasətində prioritet istiqaməti kimi elan etdi. Məqalədə Birinci və İkinci Qarabağ müharibələrinin qaziləri və onların sosial müdafiəsinin təşkili ilə bağlı bir neçə aspekt nəzərdən keçirilmişdir.

Vətən müharibəsi veteranlarının sosial təminatı növləri. Azərbaycanda qazilərin müharibə veteranları kimi dövlət qayğısı ilə əhatə edilməsi ölkə siyasətinin mühüm prioritetlərindən biri olmuşdur. Qazilər və qəhrəmanlar, Azərbaycan cəmiyyətində xüsusi dəyər və hörmətə malikdir. Bu səbəbdən qazi olan şəxslərə dövlət tərəfindən müxtəlif sosial dəstək və yardımlar göstərilir. Dövlət, bu şəxslərin həyat şəraitini yaxşılaşdırmaq, onların cəmiyyətə inteqrasiyasını təmin etmək və sosial rifahını yaxşılaşdırmaq üçün müxtəlif proqramlar həyata keçirir.

İkinci Qarabağ Müharibəsi günlərində Azərbaycan Silahlı Qüvvələri çoxsaylı hərbi şəhidlər verdi və yaralılar oldu. Döyüşlərdə iştirak edən qazilər, ölkənin müdafiəsindəki müvəffəqiyyətin əsas sütunlarından biri oldular. Onların hərbi şücaəti yalnız Milli Ordumuzun qələbə və mübarizəsinə deyil, həm də xalqımızın mətanətinə və sarsılmaz iradəsinə işıq tutmaqdadır. Belə ki, İkinci Qarabağ Müharibəsində yaralanan və həm fiziki, həm də mənəvi travmalar alan qazilər müharibədən sonra müxtəlif fiziki və psixoloji çətinliklərlə qarşılaşmışdılar. Bu çətinliklər onlara yalnız döyüş meydanında deyil, müharibə sonrasında da təsir etmişdir.

Bu cür hallar yalnız müharibə dövründə deyil, qazilərin müalicə və reabilitasiya proseslərində də Azərbaycan dövlətinin diqqət mərkəzində olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Vitze-Prezident Mehriban Əliyevanın bu istiqamətdə gördükləri işlər əvəzsizdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Vətən uğrunda öz canlarını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvləri dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır və biz bunu bu gün əyani şəkildə görürük. Öz sağlamlığını itirmiş, yaralanmış qazilər bütün dövlət orqanları tərəfindən daim qayğı ilə əhatə olunmalıdır və biz bunu təmin edirik. Onu da bildirməliyəm ki, bizdə bu sahədə tətbiq olunan prinsiplər öz unikallığı ilə seçilir [3, s.82].

Vətən Müharibəsi ilə yanaşı Birinci Qarabağ müharibəsi qazi və əlillərinin güzəranları da daim dövlətin diqqət mərkəzində saxlanılırmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin fərmanı ilə Əmək və Əhalinin Soaial Müdafiə Nazirliyi Birinci Qarabağ Müharibəsi əlillərininə birdəfəlik ödəmələrin verilməsinə başlanılması da bu prosesin tərkib hissəsi idi [10, s.11].

Azərbaycan dövləti, eləcə də xalqımız veteranlarımıza böyük hörmət və minnətdarlıqla baxırlar. Dövlət tərəfindən müharibədən sonra veteran döyüşçülərə daim maddi və mənəvi dəstək göstərilir. Bundan əlavə, müharibə qəhrəmanlarına müxtəlif dövlət mükafatlar və yeni hərbi rütbələr də verilmişdir. Eyni zamanda Azərbaycan hökuməti veteranların müalicə prosesini və həyat şəraitini asanlaşdırmaq üçün müxtəlif proqramları həyata keçirməkdədir [5, s.1].

Qazi və əlillərin reabilitasiyasını yaxşılaşdırmaq tədbirləri. Azərbaycan dövləti, İkinci Qarabağ Müharibəsindən sonra qazilərin sosial təminatını və reabilitasiyasını yaxşılaşdırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirmişdir. Qazilərə maddi dəstək verilərək, onlar üçün müxtəlif təqaüdlər təyin edilmişdir. Bununla bərabər, fiziki və psixoloji reabilitasiya, müalicə və bərpa proqramları da həyata keçirilir. Həmçinin, qazilər üçün müxtəlif peşə təhsili və məşğulluq proqramları təşkil edilir və bu, onların cəmiyyətdə yenidən faydalı vətəndaşlar kimi fəaliyyətlərini davam etmələrinə kömək edir.

Bu gün müharibə qazilərinin ailələrinə sosial yardımlar da verilməkdədir. Onlara dövlət tərəfindən mənzillər verilir, müxtəlif yardımlar göstərilir və onların ehtiyaclarına uyğun digər addımlar atılır. Belə ki, bu işdə cəmiyyətin qazilərə yanaşması da vacib bir məsələyə çevrilmişdir. Çünki müharibə qaziləri təkcə döyüş meydanında deyil, cəmiyyətin gündəlik həyatında da əhəmiyyətli rol oynayırlar. Onlara olan hörmət və göstərilən rəğbət, cəmiyyətin vəhdətinin göstəricisidir.

Bunlarla yanaşı, cəmiyyətdə qazilərə dəstək məqsədilə müxtəlif ictimai təşkilatlar və qeyri-hökumət təşkilatları də səmərəli fəaliyyət göstərirlər.

Azərbaycanda müharibənin ilk günlərindən başlayaraq qazilərin hüquqlarının qorunması və onların həyat şəraitinin yaxşılaşdırılması məqsədilə bir çox hüquqi sənəd və qanunlar qəbul edilmişdir. Azərbaycan Respublikasının qazilərin hüquqları haqqında qanunları, həmçinin Prezidentin fərmanları, sosial proqramlar və digər normativ-hüquqi aktlar onlara dövlət qayğısının təmin edilməsi istiqamətində mühüm rol oynayır. Qazilərin sosial müdafiəsinin təmin edilməsi məqsədilə bir sıra maliyyə yardımlar göstərilir. Bunlara pensiyalar, müavinətlər, yaşayış şəraitinin yaxşılaşdırılması, tibbi xidmətlər və digər sosial dəstək proqramları daxildir.

Azərbaycanın ərazisində fəaliyyət göstərən sosial müdafiə orqanları qazi şəxslərin ehtiyaclarını ödəmək məqsədilə davamlı olaraq müxtəlif proqramlar hazırlayır və həyata keçirir.

Əlillər və qazilərin sağlamlıq vəziyyətlərini yaxşılaşdırmaq üçün geniş tibbi və reabilitasiya xidmətləri mövcuddur. Bu zaman onların məişət şəraitini və iş yeri ilə təmin olunmalarını yaxşılaşdırmaq üçün onların fiziki və psixoloji reabilitasiyası ön planda tutulur. Dövlət tərəfindən əlil və qazilərin bərpa mərkəzlərində müalicə, reabilitasiya və psixoloji dəstək xidmətləri göstərilir. Bu, onların fiziki və psixoloji cəhətdən sağlam yaşamasına və cəmiyyətə uyğunlaşmalarına kömək edir.

Sosial təminat tədbirlərinin gücləndirilməsi. Qeyd edildiyi kimi, Azərbaycanda qazi olan şəxslərin işlə təminatı mühüm əhəmiyyət kəsb edir. Dövlət, bu şəxslərin işlə təmin olunmalarını və öz əmək potensiallarını gerçəkləşdirmələrini asanlaşdırmaq üçün müxtəlif proqramlar həyata keçirir. Qazilər üçün xüsusi iş yerləri yaradılır, peşə təhsili və yeni ixtisas qazanma imkanları təşkil edilir. Bununla yanaşı, Azərbaycanda qazilərin rahat həyatını təmin etmək məqsədilə ictimai yerlər əlil arabalarından istifadəyə uyğunlaşdırılır, onlar üçün xüsusi şərait yaradılır. Digər tərəfdən, yaşayış binaları və infrastrukturlar da onlar üçün əlverişli hala gətirilir. Nəqliyyat xidmətləri də xüsusi olaraq qazilərin istifadəsi üçün uyğunlaşdırılır ki, bu da onların hərəkətlilik imkanlarını genişləndirir.

Hazırda fəaliyyətdə olan və Prezident İlham Əliyevin imzaladığı 27 oktyabr 2021-ci il tarixli fərmanla yaradılmış "Zəfər" altsisteminə aidiyyəti qurumlar tərəfindən şəhid və şəhid ailəsi, müharibə veteranı statusları almış şəxslərə, müharibə əlillərinə dair məlumatlar daxil edilir. Bu altsistemə artıq 200 minədək şəxsə aid məlumatlar daxil edilmişdir. "Zəfər" altsistemi dövlət orqanlarına və özəl qurumlara şəhid ailələri və qazilərə sosial dəstəyin təmin edilməsi işlərində daha operativ, sistemli, məqsədəuyğun tədbirlərin görülməsi üçün çevik məlumat mübadiləsi imkanı yaratmışdır [2, s.5].

Vətən Müharibəsi Qəhrəmanı Vüsal Yaqubov postmüharibə dövründə şəhid ailələri və qazilərin rifahının yaxşılaşdılması üçün ardıcıl şəkildə həyata keçirilən tədbirlərin bu kateqoriyadan olan

vətəndaşlara xüsusi qayğıdan xəbər verdiyini vurğulamışdır. Həmçinin qazilər – Qurbanəli İslamov, Namiq Seyfəddinli, Nurlan Mazanov, Allahverən Nurəliyev, Mobil Əhmədzadə, Əvəz Banipaşa, Elvin Vəliyev, Vasif Məlikov, Elşən Lalayev, Məhəmmədli Baxışov və yüzlərlə digərləri müharibədən sonra qazilərin mənzillə, avtomobillə, işlə, reabilitasiya xidmətləri ilə təminatı və s. istiqamətlərdə aparılan işlərdən razılıq ifadə etmişlər.

Onlar, həmçinin qazilər hələ müalicə alarkən ziyarət edildiklərini və müalicə müddətindən dərhal sonra operativ şəkildə sənədləşmə aparılmaqla əlilliklərinin qiymətləndirilməsinin təşkilinin, Vətən Müharibəsində yaralanaraq əzalarını itirmiş qazilərin son nəsil protezlərlə təmin olunmasının və onlara göstərilən digər xidmətlərin təqdirəlayiq olduğunu qeyd etmişlər.

Prezident İlham Əliyevin göstərişi ilə şəhid ailələri, müharibə iştirakçıları ilə bağlı nazirliyin sosial dəstək paketinin hazırda da davam etdirildiyi bildirilir. Bu cür sosial dəstək paketləri artıq 100 min şəxsi əhatə edir və onlara 175 min xidmət göstərilməkdədir. Həmin şəxslərdən 93 min nəfərə proaktiv qaydada 103 min sosial ödəniş təyin olunmuşdur. Müalicə müddəti başa çatan qazilərdən artıq 3 min şəxsə əlillik dərəcələri və avtomatik şəkildə sosial ödənişlər təyin edilmişdir.

Vətən müharibəsindən sonra həmin müharibədə şəhid olanların ailələrinin və qazilərin də mənzillə təminatına başlanılmışdır. Postmüharibə dövründə 3 min 500, ümumilikdə, ötən dövrdə 12 min 500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilmişdir. Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə, 300 müharibə əlili yüksək texnologiyalı son nəsil protezlərlə təmin olunmuşdur. 1400 müharibə əlilinə 18 mindən çox reabilitasiya vasitəsi verilmişdir. 5 min ailə sosial-psixoloji, 2 min 500 qazimiz reabilitasiya xidmətləri ilə təmin edilmişdir. Artıq 11 mindən çox qazi və şəhid ailəsi üzvü olan şəxs aktiv məşğulluq proqramlarına cəlb edilmişdir. Son 4 ildə 1450-dək, ümumilikdə, ötən dövrdə 7 min 400 müharibə əlilinə avtomobil verilmişdir [2, s.5].

Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyi xətti ilə görülən işlər. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Yevlax Reabilitasiya Mərkəzində Vətən Müharibəsi qazilərinə göstərilən reabilitasiya və sosial-psixoloji xidmətlərlə tanış olmaq üçün həmin mərkəzə mediatur təşkil edilmişdir. Prezident İlham Əliyevin tapşırığına əsasən Nazirlik tərəfindən son illərdə reabilitasiya infrastukturunun müasir tələblərə uyğun qurulması istiqamətində mühüm işlər aparılmışdır. 2019-2020-ci illərdə Yevlax şəhərindəki Reabilitasiya Mərkəzi də daxil olmaqla 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidən qurmadan sonra, müasir avadanlıqlarla təchiz edilmiş şəkildə istifadəyə verilmişdir. Həmin müəssisələrdə qazilərimizə keyfiyyətli reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilir [8].

Bununla yanaşı, 44 günlük Vətən Müharibəsində yaralanaraq aşağı ətrafları amputasiya olunmuş 114 hərbçi 118 ədəd yüksək texnologiyalı müasir protezlə təmin edilmişdir. Əlavə olaraq 2021-ci ildə Birinci və İkinci Qarabağ müharibəsi əlillərindən ibarət 1157 nəfərin 8612 reabilitasiya vasitəsi ilə təminatı həyata keçirilmişdir. Yuxarı ətrafları amputasiya olunmuş qazilərimizin də yüksək texnologiyalı protezlərlə təminatı üçün işlər aparılır [4].

Qeyd etmək lazımdır ki, ölkədəki reabilitasiya mərkəzləri şəbəkəsi Vətən Müharibəsində yaralanmış qazilərin bərpa müalicəsi və sosial-psixoloji xidmətlərlə təminatında xüsusi önəm kəsb edir. Prezident İlham Əliyevin tapşırığı əsasında son illər müasir tələblərə uyğun qurularaq istifadəyə verilən belə mərkəzlərdən biri də Naftalan Reabilitasiya Mərkəzidir [6]. Nazirliyin tabeliyindəki Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Naftalan Reabilitasiya Mərkəzinə mediatur təşkil edilmişdir. Mediatur Vətən müharibəsi qazilərinə göstərilən reabilitasiya və sosial-psixoloji xidmətlərlə media əməkdaşlarının əyani tanışlığı məqsədilə təşkil olunmuşdur.

Bundan başqa Mediaturda bildirilmişdir ki, 2019-2021-ci illərdə 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra müasir avadanlıqlarla təchiz edilərək istifadəyə verilmişdir. Postmüharibə dövründə reabilitasiya müəssisələrində müharibədə yaralanmış qazi və yaxınlarının, habelə şəhid ailəsi üzvlərinin sosial-psixoloji və reabilitasiya xidmətləri ilə təminatı həyata keçirilir. Artıq min dörd yüzədək şəxs bu xidmətlərlə əhatə olunmuşdur. Qeyd olunan dövrdə 115 hərbçi 119 yüksək texnologiyalı aşağı ətraf protezi ilə təmin edilmişdir. Naftalan Reabilitasiya Mərkəzində effektiv fizioterapevtik üsulların tətbiqi əsasında reabilitasiya xidmətləri göstərilir. Eləcə də Naftalan nefti ilə sınanmış müalicə prosedurları tətbiq edilir [7].

Qazilərin sosial müdafiəsi sahəsində aparılan işlərin əhəmiyyəti. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində təşkil edilən görüşdə bir qrup Vətən müharibəsi qazisi ölkəmizdə şəhid ailələri və qazilərin sosial müdafiəsi sahəsində aparılan işlərdən razılıqlarını bildirmişlər. Görüşdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev Prezident İlham Əliyevin göstərişi ilə şəhid ailələri, müharibə iştirakçıları ilə bağlı nazirliyin sosial dəstək paketinin hazırda da davam etdirildiyini bildirmişdir. 29 dekabr 2021-ci il tarixli sərəncamla "Müharibə veteranı" adı verilmiş veteranlara Prezidentin aylıq təqaüdünün təyinatı prosesi icra olunur [1, s.1].

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemində də bir çox əməkdaşın Vətən müharibəsinin qaziləri olduğu, həmçinin əlilliyinin qiymətləndirilməsi sistemində də müharibədə iştirak etmiş həkim ekspertlərin çalışdığı qeyd edilmişdir [9].

Veteranlar xalqın mənəviyyat mənbəyinə çevrilmiş, müharibədən sonra ölkənin quruculuq prosesinə öz töhfələrini vermişlər. Bir çox veteranlar digər vətəndaşlar üçün ilham mənbəyinə çevrilərək, mülki həyatlarında uğurlu karyera qurmağa davam etdilər. Bundan əlavə, müharibənin fəsadlarını unutmamaq, gələcək nəsillərə doğru tarixi çatdırmaq üçün veteranlar müxtəlif təşkilatlarda iştirak edərək cəmiyyəti məlumatlandırmışlar.

Nəticə. Azərbaycanda əlil və qazilərə dövlət qayğısı, ölkənin sosial siyasətinin mühüm tərkib hissəsidir. Hökumət, bu şəxslərin rifahını artırmaq və onların cəmiyyətə inteqrasiyasını təmin etmək üçün müxtəlif layihələr və proqramlar həyata keçirir. Bu yanaşma, həmçinin əlil və qazi olan insanların öz hüquqlarını daha yaxşı anlamağa, onlara qarşı diskriminasiyanın qarşısını almağa və sosial inteqrasiyaların gücləndirilməsinə xidmət edir. Hər bir əlil və qazi, dövlətin dəstəyi ilə daha yaxşı həyat şəraiti və imkanlar əldə edə bilər.

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə "Müharibə veteranı" adının verilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 29 dekabr 2021 // Azərbaycan. - 30 dekabr 2021. - s.1.
2.Bəşirqızı, Z. Şəhid ailələri və qazilər ən böyük diqqətə layiqdirlər // Xalq qəzeti. -10 iyun, -2022. - s.5.
3.Əliyev İlham.İnkişaf məqsədimizdir. Yüz on üçüncü kitab. iyun 2021 – avqust 2021. Azərnəşr, Bakı: - 2021. - 392 s.
4.Media nümayəndələri qazilərə göstərilən reabilitasiya və sosial-psixoloji xidmətlərlə tanış olublar. - URL: https://sosial.gov.az/media/xeberler/post_473324?hl=az [08.02.2025].
5. Muradlı Xəyalə. Şəhid ailələrinə və qazilərə qayğı dövlətin prioriedir // Azərbaycan. 14 mart 2021. s.1.
6.Naftalan Reabilitasiya Mərkəzinə mediatur təşkil olunub. – URL: https://sosial.gov.az/media/xeberler/post_474532 [08.02.2025].
7.Nihat Göytürk. Yüzədək qazi sosial-psixoloji və reabilitasiya xidmətləri ilə təmin edilib. - URL: https://www.bayraqdar.info [08.02.2025].
8.Yevlaxda əlillər üçün Regional Bərpa Mərkəzi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. – URL: https://yeniazerbaycan.az/Sosial_e50044_az.html [08.02.2025].
9.Qazilər göstərilən sosial dəstəyə görə minnətdarlıqlarını ifadə etdilər. 6 İyun, 2022 // URL: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST agentliyi. – URL: https://dost.gov.az/news/422 [08.02.2025].
10.Xəlilov Aydan. Birinci Qarabağ müharibəsiqazilərinə növbəti dəstək proqramı // Azərbaycan. 4 avqust 2022. - s.11.

РАМИЛА АГАЛАРОВА
Докторант Бакинского государственного университета

ВОПРОСЫ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ ВЕТЕРАНОВ КАРАБАХСКОЙ ВОЙНЫ В СОЦИАЛЬНОЙ ПОЛИТИКЕ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА

Азербайджанское государство объявляет заботу о ветеранах войны и решение их проблем социальной защиты приоритетом своей внутренней политики. Проделанная работа и реа-

лизуемые программы в этом направлении многогранны и насыщенны, носят комплексный характер, способствуют решению социальных проблем ветеранов и участников войны, улучшению их дальнейшего быта и условий труда, способствуют решению социальных проблем членов семей шехидов. Сегодня государство предоставляет семьям ветеранов войны квартиры, оказывает различную помощь и предпринимает другие шаги для удовлетворения их нужд. Государственная забота об инвалидах и ветеранах в Азербайджане является важной составляющей социальной политики страны. Правительство реализует различные проекты и программы для улучшения благосостояния этих людей и обеспечения их интеграции в общество.

Ключевые слова: война, Карабах, ветеран, социальная, защита, помощь.

RAMILA AQALAROVA
Doctoral student of Baku State University

ISSUES OF SOCIAL PROTECTION OF VETERANS OF THE KARABAKH WAR IN THE SOCİAL POLICY OF THE STATE OF AZERBAIJAN

The Azerbaijani state declares the care of war veterans and the solution of their social protection problems as a priority of its internal policy. The work done and the implemented programs in this direction are multifaceted and rich, have a complex character, contribute to the solution of social problems of veterans and war participants, improve their further life and working conditions, contribute to the solution of social problems of members of the families of martyrs. Today, the state provides the families of war veterans with apartments, provides various assistance and takes other steps to meet their needs. State care of the disabled and veterans in Azerbaijan is an important component of the country's social policy. The government implements various projects and programs to improve the welfare of these people and ensure their integration into society.

Keywords: war, Karabakh, veteran, social, protection, assistance.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 08 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.e.d. Fazil Baxşəliyev, t.e.d. İbrahim Zeynalov.

UOT 327

NURANƏ ABBASOVA
Bakı Dövlət Universiteti
Dünya siyasəti ixtisası üzrə I kurs magistrant
Nuranaabbasova2020@gmail.com

CƏNUBİ QAFQAZ ABŞ-IN GEOSİYASİ MARAQLARI KONTEKSTİNDƏ

DOI: https://doi.org/10.36719/2708-065X/108/215-222

Cənubi Qafqaz ABŞ-ın geosiyasi maraqları baxımından strateji əhəmiyyət kəsb edən bir regiondur. Bu əhəmiyyət bir neçə əsas faktora dayanır: regionun enerji resurslarına çıxışı, Avropa ilə Asiyanı birləşdirən tranzit dəhlizi kimi rolu, Rusiya, İran və Türkiyə kimi əsas regional oyunçularla həmsərhəd olması, həmçinin ABŞ-ın bölgədəki demokratik inkişafı və sabitliyi dəstəkləmə məqsədləri. Bu kontekstdə, ABŞ-ın Cənubi Qafqaz siyasəti enerji təhlükəsizliyinin təmin edilməsi, Rusiyanın təsirini balanslaşdırmaq, region ölkələri ilə əməkdaşlığı gücləndirmək və Qərblə inteqrasiyanı təşviq etmək kimi prioritetləri əhatə edir. Bu gün Cənubi Qafqaz beynəlxalq rəqabət meydanına çevrilib və ABŞ-ın buradakı maraqları çox vaxt Rusiya və Çinin strategiyaları ilə kəsişir. Bu, regionun ABŞ-ın xarici siyasət gündəmində niyə önəmli yer tutduğunu anlamaq üçün əsas bir baxış bucağı təqdim edir. Bu və digər məsələlər məqalədə ətraflı təhlil olunub. Xüsusilə məqalədə ABŞ-ın Cənubi Qafqaza geosiyasi maraqları kontekstində Azərbaycanın önəmli rolundan bəhs olunur.

Açar sözlər: İnteqrasiya, prioritet, maraqlar, strategiyalar, siyasət, təhlükəsizlik, rəqabət, geosiyasət, beynəlxalq, mübarizə, milli maraqlar, qlobal.

Giriş. Cənubi Qafqaz ABŞ üçün strateji əhəmiyyətə malikdir. Bu əhəmiyyət bir neçə əsas faktordan irəli gəlir: Cənubi Qafqaz Avropa ilə Asiya arasında körpü rolunu oynayır. Bu regionun əhəmiyyəti, xüsusilə: Avrasiya enerji dəhlizi: Qafqaz regionu Xəzər dənizinin zəngin enerji resurslarının Avropa bazarlarına çatdırılmasında əsas rol oynayır. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələr, o cümlədən BTC və Cənub Qaz Dəhlizi, ABŞ üçün enerji təhlükəsizliyi baxımından mühümdür. Çin və Rusiya ilə yaxınlıq: Cənubi Qafqaz Rusiyanın cənub sərhədi və Çinin təsir dairəsinə yaxın yerləşdiyindən ABŞ üçün bölgədə mövcudluq regional balansı qorumaq baxımından vacibdir**.** Enerji Təhlükəsizliyi**.** ABŞ uzun müddətdir Avropanın enerji resurslarında Rusiyadan asılılığını azaltmağa çalışır. Bu kontekstdə Azərbaycan nefti və qazı mühüm alternativ mənbədir. ABŞ Azərbaycanın enerji layihələrini dəstəkləyir, Xəzər dənizi hövzəsində hasilat və nəql proseslərinə sərmayələr yatırır.

***Regional sabitlik və təhlükəsizlik*.** Cənubi Qafqaz regionunda münaqişələr və qeyri-sabitlik potensialı ABŞ-ın maraqlarına təhlükə yaradır. ABŞ münaqişələrin dinc yolla həllinə çalışır, ATƏT-in Minsk Qrupunun həmsədri kimi münaqişələrin həllinə töhfə verir, regionda terrorizm və qeyri-qanuni fəaliyyətlərin yayılmasının qarşısını almaq üçün əməkdaşlıq edir**.**

***İqtisadi maraqlar*.** ABŞ şirkətləri, xüsusilə enerji sektorunda, regionda geniş fəaliyyət göstərir. Bununla yanaşı**,** Cənubi Qafqaz regionu ABŞ üçün yeni bazar və investisiya imkanları təqdim edir, regional iqtisadi inteqrasiya ABŞ-ın ticarət maraqlarına xidmət edir.

Demokratiyanın və İnsan hüquqlarının təşviqi**.** ABŞ regionda demokratiya, insan hüquqları və hüququn aliliyinin gücləndirilməsini dəstəkləyir. Gürcüstan bu kontekstdə ABŞ-ın yaxın tərəfdaşıdır və ABŞ regionda demokratik institutların inkişafına önəm verir

Çin və Rusiyaya qarşı strateji balans**.** ABŞ Cənubi Qafqazda Rusiyanın təsirinin artmasına qarşı çıxır və regionun Çinin "Bir Kəmər, Bir Yol" təşəbbüsündəki roluna diqqət yetirir. Regionda ABŞ-ın mövcudluğu Rusiyanın enerji və hərbi üstünlüyünü məhdudlaşdırmağa, eləcə də Çinin təsirini tarazlaşdırmağa yönəlib. Cənubi Qafqaz ABŞ üçün həm enerji təhlükəsizliyi, həm də strateji balans baxımından əhəmiyyətli bir regiondur. ABŞ regionun sabit, təhlükəsiz və Qərblə inteqrasiya olunmuş bir mühit kimi inkişaf etməsini dəstəkləməklə yanaşı, həm də öz iqtisadi və geosiyasi maraqlarını qorumağa çalışır.

Müasir beynəlxalq münasibətlər sisteminin bu günü gələcək perspektivləri müzakirə olunanda həmişə diqqət mərkəzində ABŞ dayanır. Yəni ABŞ-ın xarici siyasət strategiyası, bütövlükdə onun qlobal liderliyi və bu strategiyanın həyata keçirilməsində ABŞ ın tutduğu mövqe dünyanın gələcək görünüşünün formalaşdırılmasını müəyyənləşdirir. Bu baxımdan ABŞ-ın Cənubi Qafqaz siyasəti zaman keçsədə həmişə maraq kəsb edən mövzulardan olub.

SSRİ-nin süqutu ilə müstəqilliyinə qovuşan Cənubu Qafqaz respublikaları ABŞ-la sıx əlaqələrin qurulmasında maraqlı olduğunu göstərdi və bu istiqamətdə ardıcıl cəhdlər etdilər. Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində də ABŞ-ın imkanları yüksək qiymətləndirilirdi. Azərbaycan tərəfi bütün hallarda regionda ciddi enerji maraqlarına malik olan ABŞ-ın məhz onun ədalətli mövqeyini dəstəkləyəcəyinə ümid edirdi. Beləki özünün zəngin karbohidrogen ehtiyatları ilə Azərbaycan ABŞ üçün ən cəlbedici Cənubi Qafqaz ölkəsi idi. Təbii ki, bu ABŞ tərəfindən də etiraf olunurdu və 1991 ci ilin dekabrında ABŞ prezidenti C.Buş (ata) Azərbaycanın müstəqilliyini tanıdığını bildirmişdi (5, s.135).

Azərbaycanın zəngin enerji resurslarına malik olduğunu xüsusi qabardan ABŞ-ın məşhur strateqlərindən olan Zb.Bjezinski yazırdı: "Məhdud ərazi miqyasına və azsaylı əhaliyə malik olmasına baxmayaraq, Azərbaycan özünün nəhəng enerji resursları və əlverişli geosiyasi mövqeyi ilə mühüm strateji əhəmiyyət kəsb edir. O, Xəzər dənizinin və Orta Asiyanın zəngin ehtiyatlarının olduğu qabın tıxacıdır. Zb. Bjezinski hesab edir ki, regionda Rusiya üçün prioritet Azərbaycandır (17, s.143).

ABŞ-ın baş strateqinin fikirlərindən aydın olur ki, Cənubi Qafqaz Xəzər hövzəsi regionunun zəngin karbohidrogen ehtiyatlarına çıxış imkanları əldə etmək üçün Azərbaycanın müstəqilliyinin qorunması və onunla strateji əlaqələrin qurulması vacibdir. Zb. Bjezinski hesab edir ki, Azərbaycana xüsusi diqqət ayırmadan regionda enerji maraqlarının etibarlı təmin olunmasına nail olmaq mümkün deyil . Strateq həmçinin qeyd edir ki, Azərbaycana şimaldan Rusiyanın, cənubdan isə İranın təzyiqləri var. Bu realliq Azərbaycanın Qərblə sərbəst əlaqələr qurmasını məhdudlaşdıra bilər. O hesab edir ki, Azərbaycanı bu təzyiqlərdən qorumaq ABŞ ın özünün maraqları baxımından vacibdir (17, s.129).

ABŞ - Azərbaycan münasibətlərinin strateji trendlərini, əsasən, enerji və hərbi-siyasi sahələrdə intensiv əməkdaşlıq təşkil edir. ABŞ-ın özünün isə Azərbaycanla bağlı müəyyənləşdirilmiş strategiyası mövcuddur ki, bunun da əsasını geosiyasi, geoiqtisadi, hərbi və təhlükəsizlik məsələsi ilə bağlı maraqları təşkil edir. Bu baxımdan ABŞ-ın Cənubi Qafqaz siyasətində Azərbaycan amili məsələsi öz aktuallığını bu gün də qoruyub saxlayır.

Cənubi Qafqaz respublikaları öz müstəqilikləri dövründə xarici siyasət prioritetləri arasında ABŞ-la münasibətlər daim mühüm yer tutub. Bu münasibətlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın müxtəlif sferalarını əhatə etməklə, hər üç dövlətin mili maraqlarına cavab verməkdədir.

Amerikanın dövlət xadimləri, siyasətçiləri və ekspertləri Amerika üçün Cənubi Qafqazın hətta inkişaf etmiş Avropa dövlətlərindən daha etibarlı tərəfdaş, müttəfiq olduğunu qeyd edirlər. Onların qənaətinə görə, yaxın gələcəkdə ABŞ-ın regiondakı ən yaxın müttəfiqi isə Azərbaycan olacaqdır. Belə hesab edilir ki, hazırda soyuq müharibənin başa çatdığı bu dövrdə çox mürəkkəb siyasi proseslər baş verir. ABŞ-ın müttəfiqləri sayılan Avropa ölkələri dərin iqtisadi böhran içindədir. Bu qitədəki dövlətlərin mövqeləri qətiyyən uzlaşmır. Halbuki, Avropa ölkələrinin əksəriyyəti NATO-nun üzvüdür və ilk baxışdan siyasi mövqelər üst-üstə düşməlidir.

Ümumilikdə isə qeyd etmək olar ki, müstəqillik dövründə ABŞ-Azərbaycan strateji tərəfdaşlığı yüksələn xətlə inkişaf edib. Xüsusilə son 10 il ərzində tərəflər arasında 2000-ci illərin əvvəllərindən, 11 sentyabr terror hücumlarından sonra genişlənən strateji tərəfdaşlıq münasibətlərində önəmli nəticələr əldə olunub. Belə ki, 10 il ərzində Azərbaycan ABŞ-ın terrora qarşı qlobal mübarizədə ən mühüm tərəfdaşlarından biri olaraq qaldı, Əfqanıstan və İraqda beynəlxalq sülhməramlı əməliyyatlara dəstək verdi, Əfqanıstandakı Amerika qüvvələrinin təchizatı üçün Azərbaycan üzərindən keçən yeni nəqliyyat dəhlizi açıldı, Azərbaycan sülhməramlı qüvvələri İraqda 2008-ci ildə ABŞ Hərbi Dəniz Qüvvələri ilə yanaşı öz beş illik hərbi xidmətini uğurla başa vurdu, Birləşmiş Ştatlar üçün Azərbaycanın Amerikanın maraqlarını və xarici siyasətini müəyyən edəcək üç regionun – Yaxın Şərq, Avropa və Asiya regionlarının kəsişdiyi yerdə yerləşən strateji tərəfdaş kimi əhəmiyyəti daha da artdı.

Əsas hissə. Tarixən Rusiya, Türkiyə və İran arasında nüfuz mübarizəsinin getdiyi Cənubi Qafqaz regionu müasir dövrümüzdə qlobal geosiyasi güclərin mübarizə meydanına çevrilmişdir. XX əsr

boyunca Qafqaz Qərb bloku üçün Sovetlər Birliyi ilə mübarizənin ön cəbhəsi olmuşdur. Bu regionda Qərb öz maraqlarını NATO üzvü olan Türkiyə üzərindən qurmuşdur.

"Soyuq müharibə"nin başa çatmasından sonra yaranmış geosiyasi şəraitdə isə Qərb, ilk növbədə, qlobal güc olaraq ABŞ üçün Cənubi Qafqaz iki böyük dövlətə qarşı rəqabət məkanı olmuşdur. ABŞ-ın bu regionda əsas geosiyasi hədəfləri Rusiya və İrana qarşı mübarizə və Xəzər-Mərkəzi Asiya regionunun enerji ehtiyatlarına çıxış olmuşdur. Yəni, bütün hallarda ABŞ-ın regionla bağlı strategiyasında region ölkələri ilə bağlı hədəflər yox, bu platformadan qlobal mübarizə üçün istifadə edilməsi nəzərdə tutulur. Belə olan halda isə ABŞ üçün region ölkələrinin milli maraqları arxa plana keçir. Son dövrlər İranla Qərb arasında münasibətlərin istiləşməsi, Türkiyədə baş verən siyasi təlatümlər, Gürcüstanda etimadın azalması və digər proseslər ABŞ-ın Cənubi Qafqaz siyasətində geostrateji hədəflərin qeyri-müəyyənliyinə səbəb olmuşdur. Belə bir şəraitdə isə tarix boyu hər zaman maşa kimi istifadə olunan Ermənistan və onun Türkiyə ilə sərhədləri məsələsi ABŞ rəsmi dairələrini daha çox narahat etməyə başlamışdır. Tanınmış beyin mərkəzlərindən olan Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin hazırladığı "ABŞ-İran strateji rəqabəti: Türkiyə və Cənubi Qafqaz" adlı hesabatda da bu fikrə üstünlük verilir ki, "Region uğrunda mübarizədə qlobal güclərin qarşıdurmaya meyilli olması risk amilini yüksəldir. Ermənistandan isə bu məqsədlə istifadə oluna bilər". Beləliklə, Ermənistana ABŞ siyasətində verilən rol aydındır. Cənubi Qafqaz-Sovetlər Birliyinin dağılması ilə ortaya çıxan güc boşluğunun tapıldığı və bu səbəblə güc mübarizələrinin yaşandığı, əhəmiyyətli sabitsizliklərin ortaya çıxdığı, Türkiyənin yanı başında və onun milli mənfətləri ilə milli təhlükəsizliyinə təsir edən bir bölgədir. Bu coğrafiya, tarix, dil, din və mədəniyyət bağı ilə bağlı olduğumuz Türk respublikalarının iştirak etdiyi bir bölgə olması ilə yanaşı SSRİ nin dağılmasından sonra ortaya çıxan milliyyətçılık cərəyanlarının təsiriylə, öz mənlikləri və mədəniyyətlərini canlandırmaq üçün kömək gözləyən çox sayda Türk birliyinin də iştirak etdiyi bir bölgədir. Xüsusilə Orta Asiyada olan, bu Türk dövlət və birlikləri ilə əlaqə Cənubi Qafqaz və Xəzər Dənizi üzərindən reallaşmaqdadır. Dünyəvi və demokratik Türkiyəni model olaraq götürmək istəyən Rusiyanın əsrlərdir zülmünü yaşamış və sərbəst bazar iqtisadiyyatı qaydalarını mənimsəməyə istəkli, güclü bir Türk dünyası, Rusiya imperializminə qarşı, Türkiyənin təhlükəsizliyi baxımından da əhəmiyyətli görünür. Eyni zamanda Türkiyə bu dövlətləri Rusiya federasiyasına qarşı bir zəmanət olaraq görməkdədir.

Mustafa Kamal Atatürk vaxtilə SSRİ-nin gələcəiyinə, çökəcəyinə və postsovet ümumtürk həmrəyliyinə dair çox əsaslı mülahizələr söyləmiş, özünü yetərincə doğruldan proqnozlar vermişdi. O, Türkiyə Cümhuriyyətinin 10 illiyi ilə əlaqədar söylədiyi nitqində gələcəyə aid müfəssəl bir proqram irəli sürmüşdü. Həmin proqram səciyyəli nitqdə vurğulanan başlıca və prinsipial müddəalar tezisvarı belə ifadə oluna bilər: Bu gün Sovetlər Birliyi dostumuz, qonşumuz, müttəfiqimizdir və bu dostluğa ehtiyacımız vardır: fəqət sabah nə olacağını kimsə deyə bilməz. O da Osmanlı, Avstriya-Macarıstan kimi parçalana, kiçilə bilər və indi əlində möhkəm tutduğu millətlər ovuclarından qaça bilərlər. Dünya yeni bir düzən ala bilər. Türkiyə bu zaman nə edəcəyini bilməlidir (Sözgəlişi, Böyük Atatürkün tarixi öngörmə xəbərdarlığına baxmayaraq Türkiyə göstərilən beynəlxalq köklü dəyişikliklərə, xüsusilə də SSRİ-nin dağılması kimi yeni şəraitə tam hazır görülmədi). Bu dostumuzun idarəsində dili, inancı, özü (kökü) bir qardaşlarımız vardır .Onlara sahib çıxmağa hazır olmalıyıq hazir olma, susub yalnız o günü gözləmək deyildir. Mənəvi körpüləri əsas tutaraq hazırllanmaq lazımdır. Dil, inanc və tarixsə bu körpülərdir. Onların bizə yaxınlaşmasını gözləməməliyik. Bizim onlara yaxınlaşmağımız gərəkdir (4, s.583). 1991-ci ildə Sovetlər Birliyinin dağılmasıyla Türkiyə, Cənubi Qafqaz ölkələrinin müstəqilliklərini, heç bir ayrı-süçkilik salmadan tanımış, bölgə ölkələri ilə əməkdaşlıq arzusunu ortaya qoymuşdur. Türkiyəni Qafqazlardan ayrı düşünmək mümkün deyil. Qafqazlar-Türkiyənin beynəlxalq xarici siyasətlərinin təsiri yanında, Bölgədəki Türk elementlərin varlığı ilə daxilli siyasətində də əhəmiyyətli rol oynamaqdadır. Orta Asiya Respublikaları ilə Türkiyənin əlaqələrinin təmin edilməsində, Cənubi Qafqaz sanki bir körpü vəzifəsi daşıyır. Cənubi Qafqaz coğrafi yaxınlıq, iqtisadi əməkdaşlıq imkanları və təbii qaynaqları səbəbiylə Türkiyə üçün əhəmiyyətli bir əlaqə sahəsi meydana gətirməyə də davam edəcək. Cənubi Qafqaz tarixən Şərq və Qərb arasında bir körpü olmuş və bu gündə bu əhəmiyyətini qoruyur. Bu körpünün olmaması Türkiyənin Türk dünyası ilə əlaqələrinin qopması deməkdir. İndiki zamanda SSRİ nin mirası olan Rusiya federasiyası, bütün gücü və imperialist ənənələri ilə Anadoluya ən böyük təhdidi meydana gətirməkdədir. Beləcə Qafqaz bölgəsi,

Türkiyə ilə Rusiya arasında bir maraq zonası olaraq günbəgün artırmaqdadır.Cənubi Qafqazın öz müstəqiliyini bərpa etməsi, Türkiyənin də təhlükəsizliyi baxımından əhəmiyyətlidir. Bölgənin zəngin yeraltı sərvətlərinin Türkiyə vasitəsilə Qərbə çatdırılması, bölgədəki Türk varlığının müstəqillik və suverenliyinin davamı üçün əhəmiyyətlidir.

Cənubi Qafqazın lider dövləti olan Azərbaycan isə beynəlxalq arenada milli maraqlara əsaslanan müstəqil xarici siyasət həyata keçirən ölkə kimi tanınmışdır. Ölkəmizin yerləşdiyi regionun geosiyasi əhəmiyyətini nəzərə aldıqda bütün tərəflərlə bərabərhüquqlu əsasda əməkdaşlığa söykənən bu müstəqilliyin olduqca çətin əldə edildiyini vurğulamaq lazımdır.

Azərbaycan-qlobal yolayrıcında etibarlı tərəfdaş Şərqlə Qərbin, Şimalla Cənubun, İslamla xristianlığın kəsişməsində yerləşən Azərbaycan bütün tarixi mərhələlərdə geosiyasi proseslərin diqqət mərkəzində olmuşdur. Azərbaycan müxtəlif sivilizasiya və mədəniyyətlərin irsini özündə birləşdirir. Bütün bunlar Azərbaycanın həyat tərzində, inkişaf tarixində, siyasətində özünü göstərir. Buna görədir ki, ölkəmizdə bəşəri dəyərlər milli və dini dəyərlərlə paralel qorunub saxlanılır.

Müstəqilliyimizin ilk illərindən ölkəmiz Qərb dövlətləri və şirkətləri ilə fəal əməkdaşlıq edir. Qərb ölkələri Azərbaycanın əsas ticarət tərəfdaşlarıdır, ölkəmizdə əsas investorlar Qərb şirkətləridir. Azərbaycanın əsas ixrac marşrutları olaraq neft və qaz boru kəmərləri Avropaya doğru istiqamətlənmişdir. Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ikinci bir başqa dövlət tapmaq mümkün deyil ki, Qərblə bu qədər yaxından əməkdaşlıq etsin.

Azərbaycan ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın səylərinə böyük ümidlər bəsləyirdi. Lakin görünən bu idi ki, BMT-nin Azərbaycan torpaqları ilə bağlı qətnamələrinin icra olunmaması ilə bağlı vəziyyət ABŞ-ı narahat etməsə də, Ermənistan-Türkiyə sərhədlərinin bağlı olması ABŞ-da həm rəsmi, həm də ictimai dairələri ciddi narahat edirdi. ABŞ müxtəlif vasitələrlə bu prosesə dəstək verir. Məlum olduğu kimi, Qərbin siyasi sifarişi ilə Türkiyə ilə Ermənistan arasında normallaşma prosesi "səssiz diplomatiya" vasitəsilə aparılır. Bu diplomatiyanın əsas aktorları olaraq isə qeyri-hökumət təşkilatları, araşdırma mərkəzləri və akademik dairələr seçilmişdir. ABŞ təkcə Ankara və İrəvandakı səfirlikləri vasitəsilə xalq diplomatiyası olaraq istifadə etdiyi QHT-lər arası əməkdaşlığı dəstəkləmək üçün 2010-cu ildən etibarən 4,7 milyon dollar vəsait ayırmışdır. ABŞ türk və erməni QHT-lərə İrəvandakı səfirliyi vasitəsilə 2,4 milyon dollar, Ankara səfirliyi vasitəsilə isə 2,3 milyon dollar həcmində qrant vermişdir.

Digər tərəfdən, ABŞ Konqresinin Dağlıq Qarabağdakı separatçı rejimə hər il maliyyə yardımı ayırması, USAİD-in Dağlıq Qarabağda müxtəlif layihələr həyata keçirməsi humanitar məqsədlərin reallaşmasından daha çox separatçı rejimin iqtisadi cəhətdən güclənməsinə imkan yaradır. Separatçı rejimin rəhbərləri maliyyə vəsaiti toplamaq üçün sərbəst şəkildə ABŞ-a səfərlər edir, müxtəlif marafonlar təşkil edirlər. Bütün bunların fonunda, Azərbaycana münasibətdə qəbul edilmiş "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş isə hələ də ləğv olunmayıb.

Azərbaycan antiterror çağırışlarına qoşulan ilk ölkələrdən biri olmuşdur. Azərbaycan hərbçiləri Əfqanıstanda, İraqda NATO komandanlığında xidmət etmişlər. Hazırda NATO-nun Əfqanıstana yükdaşımalarında Azərbaycan mühüm rol oynayır və ölkəmizin əhəmiyyətinin 2014-cü ildən sonra NATO qoşunlarının Əfqanıstandan çıxarılması prosesi ilə əlaqədar daha da artacağı gözlənilir. Lakin Azərbaycanın Qərblə fəal əməkdaşlığına baxmayaraq, çox təəssüflər olsun ki, heç də həmişə həm ABŞ, həm də Avropa ölkələrindən Azərbaycanın tərəfdaşlıq səylərinə adekvat addımlar atılmır. Bu, Azərbaycanın əsas problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yanaşmada özünü daha dolğun göstərir. Qərb ölkələri Azərbaycanın ərazi bütövlüyünü dəstəkləsələr də, bununla bağlı konkret addımlar atmırlar. BMT qətnamələrində erməni qoşunlarının Azərbaycan ərazilərindən qeyd-şərtsiz dərhal çıxarılması tələb olunurdu. Lakin dünya birliyi və Qərb öz qəti mövqeyini ortaya qoymadığı üçün heç bir qətnamənin tələbləri yerinə yetirilmədi. Halbuki, Liviya ilə bağlı qətnamə qəbul olunduqdan cəmi 2 saat sonra bu qərarın icrası üçün fəaliyyətə başlandı. Yəni, beynəlxalq hüquq yalnız böyük güclərin maraqlarına lazım olduqda tətbiq mexanizmini işə salır. Bütün bunlar isə dünyada ədalətli yanaşmaya olan inamı azaldır, müxtəlif radikal qüvvələrin tərəfdarlarının artmasına səbəb olur. Belə demək mümkünsə beynəlxalq müstəvidə tətbiq olunan ikili standartlar dünyada ədalət böhranının yaranmasına səbəb olur.

Soros Fondu-ABŞ geosiyasətinin aksioması ABŞ-ın rəsmi dairələri ilə yanaşı beynəlxalq müstəvidə qeyri-rəsmi oyunçuları da Türkiyə-Ermənistan münasibətlərinin yaxınlaşmasının əsas havadarlarıdır. Bu mənada Soros Fondunun xüsusi fəallığı müşayiət olunur. ABŞ-ın marağı olan dünyanın bütün regionlarında Soros Fondunun aktivliyi artıq "geosiyasi aksioma" kimi qəbul olunur. Corc Soros Türkiyədə yaratdığı "beşinci kolon" vasitəsilə proseslərə aktiv müdaxilə edir. Onun təsis etdiyi Açıq Cəmiyyət İnstitutunun Türkiyə bölməsi 2001-ci ildən fəaliyyət göstərir. Soros fondu Türkiyə İqtisadi və İctimai Etüdlər Fondu (TESEV), Açık Radyo, Açık Site, Bianet, Umut Vakfı, Anne Çocuk Eğitim Vakfı (AÇEV), Tarih Vakfı, Helsinki Yurttaşlar Derneği, Avropa Hərəkatı kimi təşkilatlara maddi dəstək göstərir. Bilgi, Boğaziçi, Sabancı Universitetləri də Corc Sorosun maliyyə yardımından faydalananların siyahısındadır.

Sorosun Türkiyədəki "beşinci kolon"u ilə bağlı bir məqamı da qeyd etmək istərdik ki, bu təşkilatlar irəli sürdükləri müxtəlif layihələrlə Azərbaycan cəmiyyətinin qeyd olunan prosesə sərt reaksiyasını yumşaltmağa çalışırlar. Bu mənada türk serialları vasitəsilə Azərbaycan cəmiyyətinə təsir etmək planları gündəmdədir. Türk İqtisadi və Sosial Tədqiqatlar Fondu (TESEV) və Avrasiya Əməkdaşlıq Fondunun 2012-ci ilin mart ayında Tiflisdə keçirdiyi tədbirdə türk seriallarının Azərbaycana təsir etmək planları müzakirə olunmuşdur. Avropa İttifaqının Cənubi Qafqaz üzrə sabiq xüsusi nümayəndəsi Piter Semnebi, ABŞ-ın Gürcüstandakı keçmiş səfiri Kenneth Yalovitz, Beynəlxalq Böhran Qrupunun Avropa proqramının direktoru Sabina Freyzerin qatıldığı tədbirdə türk seriallarının Azərbaycan-Ermənistan münasibətlərində Azərbaycanı sülhə yönləndirmək üçün istifadə edilməsi bir tələb olaraq ortaya qoyulmuşdur.

Beləliklə təhlillər göstərir ki, ABŞ-ın Cənubi Qafqaz siyasətində hazırkı mərhələdə ən mühüm prioritet Türkiyə-Ermənistan sərhədlərinin açılmasıdır. Bununla ABŞ-ın nə qazanacağı və ya Cənubi Qafqazda geosiyasi mənzərənin necə dəyişəcəyi dumanlı görünür. Lakin əsas fakt odur ki, ABŞ bu istiqamətdə həyata keçirdiyi siyasət zamanı regionda əsas müttəfiqləri ilə münasibətləri nəzərə almır. Birincisi, bu sərhədlərin regiona sülh gətirəcəyi və ilk növbədə Azərbaycan-Ermənistan münasibətlərinə töhfə verəcəyi ilə bağlı iddialar real siyasi şəraitdən tamamilə kənardır. İkincisi, bu regionda ABŞ-ın əsas siyasi müttəfiqi Türkiyədir. Türkiyə Qafqaz və Mərkəzi Asiyaya açılan enerji və nəqliyyat qovşağı kimi geosiyasi əhəmiyyətə malikdir və bu mövqe qlobal rəqabətdə ABŞ üçün olduqca vacibdir. Hazırkı normallaşma prosesinin Azərbaycanın milli maraqlarının nəzərə alınmadan həyata keçirilməsi isə Azərbaycan-Türkiyə münasibətlərinə zərbə vura bilər. Bu isə daha geniş mənada qeyd etdiyimiz enerji və nəqliyyat dəhlizlərinin gələcəyi üçün təhlükədir.

Məlum olduğu kimi, Türkiyə-Ermənistan sərhədləri Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğal edilməsi ilə əlaqədar bağlanmışdır. Sülh müqaviləsi imzalanmayana qədər regionda mövcud münasibətlərin dəyişdirilməsinin əsas məqsədi Türkiyə-Azərbaycan münasibətlərinə zərər vurmaqdır. ABŞ-ın bu geosiyasi oyunları yalnız Ermənistanın xeyrinə olan amillərdir. Türkiyə və Azərbaycan qardaş və strateji müttəfiq olaraq bu oyunların mahiyyətini gözəl başa düşür və birgə addımlayırlar. Ermənistan isə üçüncü bir ölkənin forpostu olaraq bu geosiyasi oyunlardan uduşlu çıxmaq istəyir. ABŞ-ın Cənubi Qafqazda prioritetinin nə olduğu isə ümumiyyətlə bəlli deyil. Qlobal məkanda əsas rəqibinin forpostu olan ölkəni öz nüfuz dairəsinə salmaq üçün regionda əsas müttəfiqi olan Türkiyəni və Qərblə bu qədər sıx əməkdaşlıq edən Azərbaycanı itirə bilmək belə ABŞ strateqlərini narahat etmir. Bu isə Cənubi Qafqazla bağlı ABŞ-ın strateji prioritetlərinin yanlışlığından və dövlət maraqlarının lobbi maraqlarına qurban verilməsindən xəbər verir. Nəhayət, müasir dövrdə ABŞ-la region dövlətləri arasında münasibətləri inkişaf etdirmək, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına diqqət ayırmaq ən prioritet məqamlardan sayılır. Bu baxımdan da ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin səfəri mühüm əhəmiyyət kəsb edir. Aparılacaq müzakirələr Azərbaycanla ABŞ arasında münasibətləri daha da inkişaf etdirmək üçün müasir çağırışları özündə ehtiva edən mühüm baza formalaşdırma imkanları yaradır. Azərbaycanın hazırda Avropa İttifaqının enerji təhlükəsizliyində mühüm rola malik olduğunu nəzərə alsaq, ənənəvi enerji sahələri ilə yanaşı bərpa olunan enerji sahələrinə də xarici investisiyaların cəlbi ölkəmizin marağındadır. Bu isə həmin sahədə yüksək peşəkarlığa malik ABŞ şirkətləri üçün olduqca cəlbedici təklifdir.

Beləliklə apardığımız təhlillər belə nəticəyə gəlməyə əsas verir ki, ABŞ ın Cənubi Qafqaz məkanındakı geosiyasətində ən önəmli yerlərdən biri Azərbaycana məxsusdur. ABŞ ın bir neçə strateji hədəfləri baxımından Azərbaycanın əhəmiyyəti yüksək qiymətləndirilir. ABŞ Azərbaycanı regiona Rusiyanın və İranın müdaxiləsinin qarşısını almaq üçün istinad nöqtəsi kimi nəzərdən keçirir. Xəzər hövzəsi və Orta Asiya regionunun enerji mənbələrinə birbaşa çıxış qapısı məhz Azərbaycandır. Bu baxımdan ABŞ Azərbaycan münasibətlərinin nüvəsini enerji və regional təhlükəsizlik məsələləri təşkil edir. Regional təhlükəsizlik məsələsində Azərbaycan ABŞ ı tam dəstəkləyir və qarşı tərəfdən də analoji addım gözləyir.

Özünün zəngin karbohidrogen ehtiyatları və enerji daşıyıcılarının nəqli üçün unikal imkanları Azərbaycan ABŞ üçün xüsusi cəlbedici edir. ABŞ-ın və Avropanın ən iri neft şirkətlərinin Azərbaycanda ciddi maraqları vardır (5, s.147). Azərbaycanın ABŞ-ın regionla bağlı həyata keçirdiyi strategiyası üçün bütün üstünlüklərinə baxmayaraq, ABŞ bir çox hallarda Azərbaycan təzyiq taktikasına üstünlük verir. ABŞ-ın əsas gözləntisi ondan ibarətdir ki, Azərbaycan tam ABŞ meyilli kurs götürsün və Rusiya ilə əlaqələrini zəiflətsin. Demokratiya və insan haqları ilə bağlı ABŞ-ın tələblərinin və iradlarının arxasında da məhz geosiyasi məqamların dayandığı qənaətindəyik. Məsələn, 2014-cü ilin sonunda Ukraynada cərəyan edən proseslərə münasibətdə və Rusiya tərəfindən Krımın ilhaq olunması məsələsinə Azərbaycanın neytral mövqe nümayiş etdirməsi ABŞ-ı qane etmirdi. Hesab edirik ki, ABŞ tərəfindən Azərbaycana qarşı demokratiya və insan haqları ilə bağlı iradların son dövrlərdə intensivləşməsi Azərbaycanın qeyd edilən məsələlərdə ABŞ-la eyni mövqedən çıxış etməməsi ilə bağlıdır. Təbii ki, birtərəfli mövqe nümayiş etdirmək Azərbaycanın maraqlarına uyğun deyil və o, bütün tərəflərlə münasibətlərin saxlanmasını daha optimal taktika kimi nəzərdən keçirir. Hesab edirəm ki, Azərbaycanın bu taktikası ABŞ-ın regiondakı maraqlarının təmin olunması baxımından müsbət qiymətləndirilməlidir. Müşahidələrimiz göstərir ki, Azərbaycan tərəfinin ABŞ-la yaxın dostluq münasibətləri qurma cəhdləri ABŞ hökuməti tərəfindən lazımı diqqətlə qarşılanmır. Çünki ABŞ-ın bütün cəhdlərinə baxmayaraq, Azərbaycan onun regional siyasətinin katalizatoruna çevrilmədi. Cürcüstanın 2008-ci ilin avqust təcrübəsi göstərdi ki, ABŞ-a tam loyal münasibət həm ABŞ üçün, həm də bu münasibəti sərgiləyən tərəf üçün arzuolunmaz nəticələrə səbəb ola bilər. Belə ki, Azərbaycan da ABŞ-a münasibətdə Cürcüstan kimi tam loyallıq nümayiş etdirəcəyi təqdirdə ABŞ regionda strateji tərəfdaşını itirmək riski ilə üz-üzə qalardı. Çünki bu halda Azərbaycanın ciddi geosiyasi problemlərlə üzləşmə ehtimalları kifayət qədər böyükdür. ABŞ Dövlət Departamenti bəyan edir ki, ABŞ Azərbaycan əməkdaşlığının prioritetlərini təhlükəsizlik, iqtisadi və enerji sahəsində əməkdaşlıq və demokratik inkişaf məsələsi təşkil edir. Bu prioritetlərin gələcəkdə də qalacağını bəyan edən Dövlət Departamenti hər üç istiqamətin əhəmiyyətinin eyni səviyyədə qiymətləndirdiyini bildirmişdir (16).

Nəticə. Beləliklə, Cənubi Qafqaz ABŞ-ın geosiyasi maraqları üçün strateji əhəmiyyət kəsb edən bir bölgədir. Bu maraqların müxtəlif aspektlərini nəzərə alaraq aşağıdakı nəticələrə gəlmək olar:

1. **Enerji təhlükəsizliyi:** Cənubi Qafqaz neft və qaz ehtiyatlarının Qərbə daşınmasında mühüm tranzit bölgəsidir. Xüsusilə, Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri və digər enerji layihələri ABŞ-ın Avropa üçün alternativ enerji təchizatı yollarını dəstəkləmək istəyinin bir hissəsidir. Bu, Rusiyanın enerji təsirini balanslaşdırmaq məqsədini də güdür.
2. **Rusiyanın təsirini azaltmaq:** ABŞ Cənubi Qafqazdakı ölkələrin (Azərbaycan, Gürcüstan, Ermənistan) müstəqilliyini və suverenliyini gücləndirməyə çalışır. Bu yanaşma, Rusiyanın bölgədəki təsirini məhdudlaşdırmaq məqsədi daşıyır. Xüsusilə Gürcüstan ABŞ-ın bu kontekstdə əsas tərəfdaşıdır.
3. **Regional sabitlik və münaqişələr:** ABŞ bölgədə sülhün və sabitliyin təmin edilməsində maraqlıdır. Qarabağ münaqişəsi, Ermənistan və Azərbaycan arasında davam edən gərginlik, həmçinin Gürcüstanın separatçı bölgələri (Abxaziya və Cənubi Osetiya) ABŞ-ın diqqət mərkəzindədir. Vaşinqton münaqişələrin diplomatik yollarla həllinə töhfə verməyə çalışır.
4. **Çin və İran amili:** Cənubi Qafqaz həm də ABŞ-ın Çin və İranla bağlı strategiyasında əhəmiyyətlidir. Bölgə Çinin "Bir Kəmər, Bir Yol" təşəbbüsünün bir hissəsi kimi çıxış edə bilər, buna görə ABŞ burada öz mövqelərini gücləndirməyə çalışır. Eyni zamanda İranla sərhəd paylaşan Azərbaycan və Ermənistan ABŞ-ın regional siyasətində mühüm rol oynayır.

5. **Demokratiya və İnsan haqları:** ABŞ bölgədə demokratiyanın və insan haqlarının inkişafını dəstəkləməklə həm öz qlobal imicini möhkəmləndirmək, həm də avtoritar rejimlərin təsirini azaltmaq niyyətindədir. Gürcüstan bu sahədə ən çox dəstək alan ölkələrdən biridir.

ABŞ-ın Cənubi Qafqazdakı siyasəti əsasən enerji təhlükəsizliyi, regional sabitlik, Rusiyanın təsirini məhdudlaşdırmaq, Çinə və İrana qarşı strategiyalar və demokratik dəyərlərin təşviqinə yönəlib. Bu maraqların reallaşması həm ABŞ-ın qlobal geosiyasi mövqeyini gücləndirir, həm də bölgənin beynəlxalq əhəmiyyətini artırır. Bununla belə, ABŞ-ın Cənubi Qafqaz siyasəti çox vaxt Rusiya, İran və digər güclərin müqaviməti ilə qarşılaşır ki, bu da mürəkkəb balanslaşdırma siyasəti tələb edir.

ƏDƏBİYYAT

1. Baxışov M. ABŞ-ın yeni və müasir tarixi (dərs vəsaiti). Bakı, AzTU-nun nəşri, 2012, 178 s.
2. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər sistemi və Azərbaycanın xarici siyasəti. Bakı, "Azərbaycan» nəşriyyatı, 2005, 752 s.
3. Quliyeva G.M. Azərbaycan yeni geosiyasi münasibətlər sistemində. Bakı, "Elm", 2011, 422 s.
4. Musa İ. Azərbaycanın xarici siyasəti. Üçüncü hissə. Bakı, Bakı Unversiteti Nəşriyyatı, 2010, 779 s.
5. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1991-1995-ci illər. Bakı, Gənclik, 1996, 135 s.
6. Алиев Г. Азербайджанский нефть в политике мира. Баку, Азербайджан, 1998, 328 с.
7. Алиев И Каспийский нефть Азербайджана. М., Известия, 2003, с 7.
8. Баталов Э.Я. Русская идея и Американская мечта / США-Канада-экономика, политика, культура, 2000, 11, с.19.
9. Бжезинский З. Великая шахматная доска (Господства Америки и его геостратегические императивы). М., Междунар. Отношения, 1998, 216 с.
10. Ваджра А. Путь зла. Запад матрица глобальной гегемоний. М., 2007, 544 с.
11. Гаджиев К. Геополитика. М., Юрайт. 2011, 479 с.
12. Глебов Г.И., Милаева О.В. Современные международные отношения. Учебное пособие. Пенза, Изд. Пенз. Гос. Ун-та, 2010.
13. Киссинджер Г. Нужна ли Америке политика. Геополитика. Антология. М., 2006, с.562-568.
14. Лавренов С.Я. Война XXI века. Стратегия и вооружение США. М., 2005, с.7.
15. Место Кавказа в геополитике США. - http/ kavpolit/ com/mesto-kafkaze-v-geopolitike-ssha-2 [22.01.2025].
16. Нартов Н.А. Геополитика. М. ЮНИТИ-ДАНА, Единство, 2004, 544 с.
17. Brzezinski.Zb. The Grand Chessboard/ American Primacy and its Geostrategic Imperatikt.
18. Nicole Schley. Die Kriege der USA. Chronik einer aggressiven Nation. Diederichs, 2003, S.68, p.129.
19. Jager W. Die Geschichte der USA. Von der Kolonialzeit zu den Herausforderungen de 21. Cornelsen Verlag. 2005, p.47.

НУРАНА АББАСОВА
Магистрант Бакинского государственного университета

ЮЖНЫЙ КАВКАЗ В КОНТЕКСТЕ ГЕОПОЛИТИЧЕСКИХ ИНТЕРЕСОВ США

Южный Кавказ - регион, имеющий стратегическое значение для геополитических интересов США. Эта важность основана на нескольких ключевых факторах: доступ региона к энергетическим ресурсам, его роль как транзитного коридора, соединяющего Европу и Азию, его граница с ключевыми региональными игроками, такими как Россия, Иран и Турция, а также цели США по поддержке демократическое развитие и стабильность в регионе. В этом контексте политика США на Южном Кавказе направлена на обеспечение энергетической безопасности. В него входят такие приоритеты, как уравновешивание российского влияния, укрепление сотрудничества со странами региона и содействие интеграции с Западом. Сегодня

Южный Кавказ стал ареной международной конкуренции, и интересы США здесь часто пересекаются со стратегиями России и Китая. Это дает ключевую перспективу для понимания того, почему регион так важен для внешней политики США. Эти и другие вопросы подробно анализируются в статье.

Ключевые слова: Интеграция, приоритет, интересы, стратегии, политика, безопасность, конкуренция, геополитика, международный, ресурс, борьба, национальные интересы, глобальный.

NURANA ABBASOVA
Master student of Baku State University

THE SOUTH CAUCASUS IN THE CONTEXT OF US GEOPOLITICAL INTERESTS

The South Caucasus is a region of strategic importance for US geopolitical interests. This importance is based on several key factors: the region's access to energy resources, its role as a transit corridor connecting Europe and Asia, its proximity to key regional players such as Russia, Iran, and Turkey, and the US's goal of supporting democratic development and stability in the region. In this context, US policy in the South Caucasus encompasses priorities such as ensuring energy security, balancing Russian influence, strengthening cooperation with regional countries, and promoting integration with the West.Южный Кавказ в контексте геополитических интересов США. Today, the South Caucasus has become an arena of international competition, and US interests there often intersect with the strategies of Russia and China. This provides a key perspective for understanding why the region occupies a prominent place on the US foreign policy agenda. These and other issues are analyzed in detail in the article.

Keywords: Integration, priority, interests, strategies, politics, security, competition, geopolitics, international, struggle, national interests, global.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 yanvar 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: s.e.f.d.Gülgün Quliyeva, t.e.d. Sevinc Yusifzadə.

UOT 32:93/94

AZADXAN VƏLİZADƏ
Bakı Dövlət Universiteti
Azadxan1616@gmail.com
https://orcid.org/0009-0001-7139-5164

DEMOKRATİK İDARƏETMƏDƏ SİYASİ LİDERLİK NƏZƏRİYYƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/108/223-228

Siyasi liderlik anlayışını izah etmək üçün siyasi liderin kim olduğunu kifayət qədər təsvir etmək vacibdir. Liderlər normal olaraq xüsusiyyətləri, inancları və əməlləri ilə müəyyən edilir və çox vaxt yüksək siyasi mövqeləri tuturlar. Liderlərə hökumət başçıları, kabinet nazirləri, yüksək vəzifəli qanunvericilər, əsas partiya rəsmiləri, siyasətçilərin məsləhətçiləri və yüksək vəzifəli dövlət məmurları daxil ola bilər. Siyasi liderliyin rolu həyati əhəmiyyət kəsb edir, çünki dövlət siyasəti siyasətçilərin ictimai problemlərin həllində fəaliyyətini təsvir edir. Problemlərin həlli bacarıqları idarə olunan insanların gələcək taleyini müəyyənləşdirir və siyasi liderlik islahedici siyasətlərin həyata keçirilməsində təsir göstərənlərə imkan verən və ya qarşısını alan daxili və xarici amilləri təcəssüm etdirir. Bundan əlavə, liderliyin müzakirəsində "siyasi"nin vacib mahiyyətini və onun arzuolunan (bəzi hallarda etiraz edilə bilən) meylini, xüsusən də onun siyasi tədqiqatlarda az təmsil olunmasını nəzərə alaraq, daha dərindən araşdırmaya ehtiyac var. Onun demokratik siyasi prosesə və dövlət siyasətinin formalaşmasına təsirini müəyyən etmək siyasi liderlik tədqiqatları üçün konseptual çərçivə hazırlamaqdır.

Açar sözlər: lider, hökumət başçıları, kabinet nazirləri, yüksək vəzifəli qanunvericilər, partiya rəsmiləri, siyasətçilərin məsləhətçiləri, yüksək vəzifəli dövlət məmurları.

Giriş. Siyasi liderliyin öyrənilməsini birləşdirən vahid nəzəriyyə yoxdur (2) həmçinin liderliyin öyrənilməsi ilə bağlı bir neçə yanaşma və nəzəriyyə mövcuddur, buna görə də bu sahəyə ciddi maraq göstərilir, lakin "siyasi" liderlik tədqiqatlarda illər ərzində diqqəti cəlb edir. Selznick (15, s.272) illərdən bəri liderliklə bağlı müzakirələr əsasən biznes, təşkilatlar və insanlar üzərində fikirlər irəli sürmüşlər. Dünyada bir çox liderlik mərkəzlərinin meydana çıxması ilə demokratik tədqiqatlarda liderlik üzrə təqaüdün davamlı olmaması məsələsi və mövcud ədəbiyyatlarda çatışmazlıq liderlik haqda adekvat şəkildə bir nəzəriyyədir. Bu gün dünyanın hər hansı bir yerində baş verən münaqişə və ya disfunksiya tez-tez "zəif liderlik" ilə əlaqələndirildiyi üçün diqqətsizlik maraq doğurur və bir qayda olaraq, tövsiyə olunan həll yolu isə "yaxşı rəhbərlik"dir. Demokratiyaının nəticələrinə dair müzakirələr liderlik mərkəzi, istər təəssüflə (zəif liderliyə görə), istərsə də arzu olunan şəkildə (yaxşı lider səbəbi ilə), liderliyi nəzərdə tutmaq müasir demokratik cəmiyyətlərin uğurları və yaxud uğursuzluqlarının əsasını təşkil edir.

Robertson (14) izah etdi ki, demokratiyada siyasi liderlik arzuolunan hesab olunur və lider tutduğu mövqedən həddən artıq şüurlu olması nəticəsində lider partiya və ya seçicilər qarşısında hesabat verməyincə, siyasi prosesin normal xüsusiyyəti hesab olunmur. Bu hadisə davamlı siyasi institutların və iqtisadi artımın olmaması və ya qeyri-adekvat ola biləcəyi ölkələrdə geniş yayılmışdır. Siyasi liderliyin buraxılması təsadüfi deyil, onun çətin təbiətini nəzərə alaraq nəzəriyyəçilər üçün bir kor nöqtədir (5, s.28). Rəhbərlik müzakirəsində "siyasi"nin olmaması həm də onun gətirdiyi narahatçılıqla əlaqədar ola bilər, çünki bu, siyasətçilərə inamın olmamasına diqqət çəkir və onun təqdimatı ilə demokratiyada liderliyin mahiyyət etibarilə antidemokratik olması ilə bağlı ümumi arqument güzəştə gedə bilər.

Liderlik demokratik idarəetmə. Siyasi liderlik liberal demokratiya üçün zəruridirmi? Yoxsa demokratik idarəetmənin müzakirəsində liderlikdən qaçmaq olar? Demokratiya liderliklə birlikdə mövcud ola bilər, çünki yaxşı idarəetmə yaxşı rəhbərlikdən asılıdır. Təqaüddə yaxşı idarəetmənin yaxşı liderlikdən asılılığı geniş şəkildə müzakirə olunur. Körösényi (7, s.365) iddia edir ki, kreativ liderlik, xüsusən də siyasətin idarə edilməsi sahəsində yaxşı idarəetmədən asılıdır. O, lider demokratiyası üçün model yaratmaq üçün Weber və Şumpeterin nəzəriyyələrini yenidən işləyərək liderliyin demokratik siyasət üçün vacib olduğunu göstərdi. Vətəndaşların demokratik liderlərin motiv və niyyətlərinə qarşı kinli münasibətini tənqid edir və izah edərək demokratik liderlik demokratik cəmiyyətlərin qurulmasında mühüm tərkib hissəsidir. Həmçinin, Lowenthal və Bitar (9) avtoritar idarəçilikdən çoxpartiyalı

demokratiyaya keçidlə bağlı araşdırmada keçmiş 13 prezidentlə müsahibə aparıb və nəticəyə gəliblər ki, liderlik "gənc" müasir demokratiyanın davamlılığının mərkəzidir. Siyasi liderliyin siyasi tədqiqatlarda yerinin arqumentasiyası ilə bağlı konsensus yoxdur, lakin liderlərin ölçülə bilən nəzarətdən kənarda güc əldə etməsindən qaynaqlanan narahatlıq olsa da, hakimiyyətdən sui-istifadəyə gətirib çıxarır, demokratik təcrübələr problemin həlli olduğunu sübut edir. Rəhbərlik bərabərlik və siyasi mərkəzsizləşdirmə kimi demokratik qanunlarla ziddiyyət təşkil edə bilər. Bununla belə, hakimiyyət bölgüsü, qanunun aliliyi və əxlaqi universalizm kimi liberal demokratik ideologiyalar hakimiyyətdən potensial sui- istifadə hallarına xidmət edir.Buna görə də, demokratiya sistemi siyasi liderləri müəyyən edilmiş etikaya uyğun hərəkət etmək üçün tənzimləmək və istiqamətləndirmək üçün kifayət qədər təchiz edilmişdir. Bununla belə, bunun əksini iddia edən ədəbiyyat getdikcə artır. Yeni yaranan ədəbiyyat demokratik idarəçilikdə liderliyin roluna yenidən baxılmasını tələb edir.Çünki aşağı səviyyəli rəhbərlik hökumətin uğursuzluğu və siyasi fəlakətlə nəticələnir, üstün rəhbərlik isə müsbət nəticələrə və milli rifaha nail olmaq üçün həyati əhəmiyyət kəsb edir. Bundan əlavə, tədqiqatlar göstərir ki, liderliyin yaxşı idarəçilik üzərində təsiri var və güclü və yenilikçi liderlərin mövcudluğu, məsələn, sosial müdafiə və iqtisadi inkişaf sahələrində arzu olunan nəticələrə gətirib çıxarır (8).

Liderlik demokratik idarəetmənin mərkəzidir. Hansısa liderlik forması olmadan siyasi məqsədlərə nail olmaq mümkün deyil. Bunun tədqiqatı üçün lideri üç əsas perspektivdən, yəni ardıcıllarla münasibətdən, xüsusiyyətlərə və inanclara görə şəxsiyyət və strukturlara qarşı hərəkətlərdən təsvir etməyə çalışır:

Siyasi lideri təsvir etməyə çalışarkən, bunun yalnız liderləri qoruya bilməyəcəyi üçün "fərdi" yanaşmadan "plüralist" paradiqmaya keçidə ehtiyac olduğunu təklif etdi. Liderlik termini ardıcıllığı nəzərdə tutur, ona görə də iki anlayışı vahid psixoloji çərçivədə birləşdirməyə ehtiyac var. Haslam və Reicher iddianı müdafiə etmək üçün dörd səbəb göstərdilər: 1) liderlik tətbiq olunur və sahib deyil. Bu, sahiblik deyil, həyata keçirilməli bir fəaliyyətdir; 2)rəhbərlik etmək üçün təşkilati funksiyasına görə, liderdən kənarda başqalarının da cəlb edilməsini tələb edən başqalarının daxil edilməsinə ehtiyac var. Liderlik liderlərin ardıcıllara təsirinin təzahürüdür. Beləliklə, liderin taleyi ardıcılların taleyi ilə bağlıdır; 3) liderlik məcburiyyət və ya resursların bölüşdürülməsi deyil, təsirdir. Lideri məcbur edən güc tətbiq etmədən ardıcılları ilhamlandırmaq bacarığıdır.

Liderlik üçün vacib olan amil strukturlardır, çünki güc bölgüsü təklif etdiyi nəzarət və tarazlıqlar olmadan liderlər şəxsi mənfəətləri üçün çox güc və səlahiyyət toplamış ola bilər ki, bu da ardıcılları öz sərvətlərinin müəyyən edilməsində iştirak etmək hüquqlarından məhrum edir. Bərabər hüquqlar uğrunda və ayrı-seçkiliyin bütün formalarına qarşı mübarizədə kütlələrin rolu liderlər və ardıcıllar arasında münasibətlərin dəyişməsinə kömək edir, həmçinin hakimiyyətin ötürülməsi sahələrində davamlı tərəqqini təmin edərək elitanın mənfi məcburiyyətini azaldır.

Liderlikdə konseptual çərçivə. Konseptual çərçivə təhlilinin əsas xüsusiyyətləri ondan ibarətdir ki, o, sadəcə anlayışların litaniyası deyil, əksinə, anlayışlar arasında inteqrativ əlaqələri olan bir strukturdur. Bundan əlavə, metod sosial hadisələrin izahını deyil, təhlili deyil, həm də dərk edilməsini təmin edir. Bundan əlavə, qeyri-müəyyən təbiətinə görə, metod nəticəni proqnozlaşdırmağa çalışmır, əksinə, niyyət və motivlərin şərhini təmin etməyə çalışır. Nəhayət, metod üçün məlumat mənbələri ümumiyyətlə multidissiplinar nöqteyi-nəzərdən nəzəriyyələrə əsaslanır. Bunlar konseptual çərçivə təhlili üçün empirik xarakter daşıyan məlumat mənbələrini təşkil edir.

Jabareen (4, s.49-62) konseptual çərçivənin hazırlanmasında bələdçi kimi aşağıdakı səkkiz addımı təqdim edir:

Mərhələ 1: Seçilmiş məlumat mənbələrinin xəritələşdirilməsi: Sözügedən hadisə ilə bağlı multidissiplinar ədəbiyyatdan məlumat mənbələrinin müəyyən edilməsi və seçilməsi. Bu addım multidissiplinar məlumatların geniş nəzərdən keçirilməsi ilə həyata keçirilir.

Mərhələ 2: Seçilmiş məlumatların geniş oxunması və təsnifatı: Bu mərhələnin məqsədi seçilmiş məlumatların əhəmiyyət səviyyəsinə görə uyğunluğunu müəyyən etməyə kömək etmək və həmçinin onların hər bir fənn üzrə tətbiqini müəyyən etməkdir.

Mərhələ 3: Konseptlərin müəyyən edilməsi və adlandırılması: Bu addımda məqsəd yaranan anlayışları müəyyən etməkdir. Bu, seçilmiş məlumatları oxumaq və yenidən oxumaqla əldə edilir. Bu mərhələdə ziddiyyətli və ya təzadlı anlayışları müəyyən etmək mümkündür.

Mərhələ 4: Konseptlərin dekonstruksiyası və təsnifatı: Bu mərhələ elementlərini, xüsusiyyətlərini, konvensiyalarını, xüsusiyyətlərini müəyyən etmək üçün hər bir konsepsiyanı sökmək və daha sonra onları xüsusiyyətləri və rollarına görə təşkil etmək və təsnif etmək məqsədi daşıyır.

Mərhələ 5: Konsepsiyaların inteqrasiyası: Bu addımın məqsədi oxşar anlayışları qruplaşdırmaq və mümkün olduqda onları yeni konsepsiyada birləşdirməkdir. Bu, müəyyən edilmiş anlayışların azaldılmasına imkan verir.

Mərhələ 6: Sintez, yenidən sintez və bunların hamısını mənalı etmək: Bu mərhələdə məqsəd yaranan anlayışları nəzəri çərçivədə sintez etməkdir. Bu proses açıqlıq, dözümlülük və çeviklik tələb edir. Bu proses adətən təkrarlanır və mənalı nəzəri çərçivə yaranana qədər bir neçə sınaq tələb olunur.

Mərhələ 7: Konseptual çərçivənin təsdiqi: Bu mərhələnin məqsədi təklif olunan çərçivənin digər alimlər və praktiklər üçün məna kəsb edib-etmədiyini müəyyən etməkdir. Bunu etmənin yaxşı yolu onu digər tədqiqatçılardan rəy almaq üçün konfranslarda, seminarlarda təqdim etməkdir.

Mərhələ 8: Konseptual çərçivənin yenidən nəzərdən keçirilməsi: Multidissiplinar təbiətinə görə, bu yanaşma çərçivəsində nəzəri çərçivələrdəki anlayışlar həmişə dinamik olacaq və ortaya çıxan təkliflərə, ədəbiyyata və rəylərə uyğun olaraq nəzərdən keçirilə bilər. Yenə də, çərçivə multidissiplinar olduğundan, nəzəriyyə bu fənlər arasında məna kəsb etməlidir. Nəzəriyyə həm də müvafiq fənlər üzrə bilikləri inkişaf etdirməlidir.

Jabareenin təklif etdiyi kimi, konseptual çərçivə təhlili üçün seçilmiş mətnlər tədqiqatın hədəf almağa çalışdığı mühiti, sosial dinamikanı və multidissiplinar sahələri təmsil etməlidir. Seçilmiş mətnlər həmçinin tədqiq olunan fenomenlə əlaqəli vəziyyətləri təqdim etməlidir. Məlumatlar əsas və ya ikincil ola bilər, lakin təbiətcə müxtəlif olmalıdır. Nəhayət, əksər mətnlər və məlumatlar adətən konkret sahələr daxilində nəzəriyyələrə müraciət edir. Konseptual çərçivə təhlilində multidissiplinar tədqiqat apararkən, bu intizam yönümlü nəzəriyyələr tədqiqatın empirik məlumatlarını təşkil edir.

Siyasi liderliyin konseptual çərçivəsinin qurulması siyasi liderliyin sosial, mədəni və psixoloji tərəflərini əhatə edən ədəbiyyatın ətraflı nəzərdən keçirilməsini və sistemləşdirilməsini tələb edirdi. Ədəbiyyatı öyrənmək üçün hazırkı tədqiqat sosiologiya, ictimai siyasət, politologiya və psixologiya kimi akademik fənlərin və sahələrin qarışığına daxil olub. Siyasi liderliyin mərkəzi konsepsiyalarını və mövzularını yaratmaq, kateqoriyalara ayırmaq və müəyyən etmək üçün hazırkı məqalə şəxsi xüsusiyyətləri, liderlik tərzini, motivasiyasını və stresə dözümlülüyünü onun ilkin konseptual çərçivəsinin əsası kimi təsvir edir.

Şəxsiyyət xüsusiyyətlərinin beş faktorlu modeli (Böyük beş) insan davranışının qiymətləndirilməsində çox istifadə olunan nəzəriyyələrdən biridir.

Siyasi liderləri öyrənmək üçün yanaşma şəxsiyyət nəzəriyyələri vasitəsilə liderləri fərdi şəkildə yoxlamaq olacaq. Bunun səbəbi, insanın şəxsiyyətinin siyasi davranışa və seçim etməsinə təsir etdiyini göstərən elmi dəlillər var.

Liderin üslubunun bir cəhəti də ritorikadan istifadə edərək inandırmaq bacarığıdır. Fairclough (3) tərəfindən müşahidə edildiyi kimi siyasi ritorika dil inandırmaq üçün istifadə edilən müxtəlif üsulların məcmusudur və siyasi ritorikanın axıcı və daimi olmadığını vurğulayır. Liderin müəyyən bir repertuar əvəzinə dillərin qarışığından istifadə etmək bacarığı siyasi ünsiyyəti yaxşılaşdıra bilər. Dörd kateqoriya liderin repertuarını aşağıdakı üsullarla fərqləndirir: 1) sual verən şəxslə ünsiyyətdə olmaq istəyini özündə ehtiva edən siyasi iddia; 2) zidd maraqlardan gələn fikir ayrılıqları nəticəsində yarana bilən siyasi münaqişələrin idarə edilməsi; 3) vəzifələrin aydınlaşdırılmasına və hökumətin hərəkətlərinin qanuniləşdirilməsinə kömək edən rolların müəyyənləşdirilməsi; və 4) arzuolunmaz qarşıdurmalardan qaçmaq üçün taktiki qabiliyyət olan siyasi yayınma.

Kaarbo və Hermann (6, s.250) oriyentasiyanın liderin ardıcılları və ya müasirləri ilə qarşılıqlı əlaqəsinə aid olduğu üçün liderin üslubunu təhlil etmək üçün həlledici amil olduğunu izah edirlər. Orientasiyalar üç suala əsaslanır: 1)liderlər öz mühitlərindəki siyasi məhdudiyyətlərə necə reaksiya verirlər, liderlər bu cür məhdudiyyətləri qəbul edirmi və ya etiraz edirmi?; 2)liderlər daxil olan məlumatlara nə dərəcədə açıqdırlar, liderlər informasiyadan seçici şəkildə istifadə edirmi və ya məlumatın birbaşa reaksiyasına icazə verməyə açıqdırlar?; və 3)liderlərin vəzifələr axtarmasının səbəbləri nələrdir, liderlər öz daxili diqqət mərkəzinə və ya seçicilərin cavablarına görə idarə olunurlar? Suallara

verilən cavablar liderin siyasi situasiyaya həssaslıq səviyyələri barədə məlumat verir və həmçinin situasiyanın həllində avtokratik və ya müşaviröçi yanaşmalardan istifadə ediləcəyini müəyyən edir.

Siyasi liderin siyasi karyera qurmaq motivi fəaliyyət nəticələrinin mərkəzidir. Məqalədə də motivasiyanı siyasi liderlik nəzəriyyəsinin mərkəzi kimi təklif edilir. Siyasi liderin motivasiyası siyasətin qurulmasına və siyasi nəticələrə təsir göstərir. Müllerin (11, s.281) göstərdiyi kimi, siyasətçilərin iki ifrat növü var, yəni populizm motivli olanlar və siyasət uğuru ilə motivasiya olunanlar. Eynilə belə nəticəyə gəlinir ki, səhiyyədə siyasətin qurulması siyasətçinin vəzifədə qalmaq motivindən və iradəsindən çox asılıdır. Siyasi liderin motivlərinə güc istəyi, məqsəd (mövcud problemi həll etmək, fəlsəfə təqdim etmək, fövqəladə vəziyyət), məsuliyyət hissi, başqaları tərəfindən bəyənilmək və tanınmaq istəmək, başqaları tərəfindən tanınmağa çağırış ola bilər. mövqe, prestij və etiraf ehtiyacını və şəxsi çatışmazlıqları düzəltmək ehtiyacını gətirir. Bu hökumətin qərar qəbulunun keyfiyyəti motivasiyadan asılıdır. Siyasi liderlik tədqiqatları müasir liberal demokratiya üçün vacibdir və buna görə də siyasi tədqiqatlarda nəzərə alınmamalıdır. Çərçivə siyasi liderliyi multidissiplinar bir konsepsiya kimi izah etməyə çalışır (ən çox vaxt siyasət elmləri, ictimai siyasət, sosiologiya və psixologiya arasında). Siyasi liderliyin konseptual çərçivəsi qeyd etdiyimiz kimi, bir-biri ilə əlaqəli dörd konsepsiyanın konstruksiyasıdır.

Konsepsiyaların hər biri siyasi liderlik çərçivəsində xüsusi rol oynayır. Bu siyasi liderlik çərçivəsinin nəzəri töhfəsi, bu anlayışları siyasi liderlik fenomeni ilə əlaqələndirərək stress tolerantlığı, liderlik üslubları, motivasiya və şəxsiyyət xüsusiyyətləri arasında əlaqələr yaradan ontoloji yanaşmasındadır. Domen daxilindəki anlayışlar arasındakı əlaqələri göstərməklə, çərçivənin ontoloji xarakteri onun nəzəriyyəyə töhfəsi üçün əsas yaradır. Tədqiqat siyasi liderliyin müəyyənedici amillərini təhlil etməklə onun aktuallığını, mənalarını, nüanslarını və siyasi diskursdakı yerini nümayiş etdirir.

Şəxsiyyət xüsusiyyəti anlayışı xarizma, fərdilik, temperament, xarakter və davranışın siyasi liderin şəxsi və siyasi məqsədlərinə çatması üçün amillər olduğunu göstərir. Siyasi liderlərin şəxsiyyət xüsusiyyətlərinin öyrənilməsi onların qərar qəbul etmələrinin əsasını təşkil edən davranışların etibarlı başa düşülməsini təmin edir. Tədqiqat göstərir ki, siyasətçinin liderlik tərzi onun şəxsiyyət xüsusiyyətlərindən təsirlənir. Araşdırma həmçinin bəzi şəxsiyyət xüsusiyyətlərinin digərlərindən daha çox siyasi liderlik üçün uyğun olduğunu ortaya qoyur. Liderlik üslubu anlayışı, liderin maraqlı tərəflərlə qarşılıqlı əlaqəyə yanaşması ilə onun qarşıya qoyulmuş məqsədlərə çatmaqda olan əlaqəsi arasında əlaqəni nümayiş etdirir. Məsləhətçi, iştirakçı və məsləhətçi liderlik üslublarına üstünlük verilir.

Nəticə. Konseptual çərçivəni inkişaf etdirərkən, tədqiqat şəxsiyyət xüsusiyyətlərinin, liderlik tərzinin, siyasi motivasiyanın, stressə dözümlülüyün də siyasi liderlik nəzəriyyəsinin mərkəzi anlayışları olduğunu təklif edir. Bu anlayışlar müxtəlif atributlara malik olsalar da, bir-biri ilə əlaqəlidirlər. Konseptual çərçivəni tərtib edərkən, Jabareen (4, s.49-62) fenomenin ortaya çıxan anlayışlarının bir-biri ilə əlaqə qurma imkanını vurğulayır. Yaranan mərkəzi konsepsiyaların tədqiqi gələcək müzakirələrə səbəb olan qarşılıqlı əlaqələri və qarşılıqlı əlaqəni ortaya qoyur. Müəllif qeyd edir ki, anlayışlar arasında müəyyən edilmiş qarşılıqlı əlaqə qəti deyil və onların təqdimatı onların qarşılıqlı əlaqələrin müstəsnalığını göstərmir. Bu müzakirə 1) şəxsiyyət xüsusiyyətləri və liderlik tərzi arasında yaranan əlaqələrə diqqət yetirir; 2) şəxsiyyət xüsusiyyətləri və stressə dözümlülük; 3) siyasi liderlik üslubu və siyasi motivasiya və; 4) siyasi motivasiya və stressə dözümlülük.

- Şəxsiyyət xüsusiyyətləri liderlik tərzinə rəhbərlik edir: Tədqiqat şəxsiyyət xüsusiyyətləri ilə liderlik tərzi arasında əlaqə tapır. Bu müddəa liderlik qabiliyyətlərinin fərdlərin qabiliyyətlərindən qaynaqlandığı ilkin əsasına əsaslanır. Ekstraversiyanın transformasiya liderliyinin ən güclü əlaqəsi olduğu da irəli sürülür. Adams (1) həmçinin şəxsiyyət xüsusiyyətləri ilə liderlik yanaşması arasında korrelyasiya tapdı və qeyd etdi ki, nizam-intizam və hərtərəfliliyə üstünlük verən lider direktiv-nəzarət yanaşmasından istifadə edər, daha empatik olan lider isə liderlik üçün əməkdaşlıq yanaşmasını mənimsəyir, həmçinin razılıq və vicdanlılıq kimi xüsusiyyətlərə malik liderlərin etik liderlik üslublarını təsvir etdiyini tapır.
- Şəxsiyyət xüsusiyyətləri stresə dözümlülüyünə fərdin şəxsiyyət xüsusiyyətləri onun liderliyinin yaranmasına və effektivliyinə təsir göstərir və liderin stresə dözümlülük səviyyəsi böhran vəziyyətində onların reaksiyasını müəyyən edir. Şəxsiyyət xüsusiyyətləri stressə dözümlülüklə bağlı təhlil edildikdə, müəyyən şəxsiyyət xüsusiyyətlərinə malik olan şəxslərin böhran zamanı streslə mübarizədə digərlərindən daha yaxşı olduğu aşkar edilmişdir. Carver və Connor-Smith (2009) müəyyən edir ki, razılıq, ekstraversiya, vicdanlılıq və təcrübəyə açıqlıq kimi şəxsiyyətlərə sahib olan fərdlər böhranla

bağlılıq və qarşıdurma yolu ilə öhdəsindən gəlirlər, nevrotik şəxsiyyətləri olan fərdlər isə böhran baş verdikdə işdən çıxmağa və ondan qaçmağa meyllidirlər. Leandro və Castillo (Leandro P.G. & Castillo M.D. 2010) iddia edir ki, şəxsiyyət xüsusiyyətləri stressə dözümlülük üslublarına təsir göstərir, yüksək özünə hörməti olan fərdlər vəzifəyə yönəlmiş mübarizə üslublarına müraciət edirlər, emosiyaya əsaslanan yanaşmalar isə adətən aşağı özünə hörməti olan insanlar tərəfindən istifadə olunur. Fərdlərin şəxsiyyət tipologiyasının böhran və stresə bioloji reaksiyasına təsir etdiyi qənaətinə gəlirlər**.** COVID-19 dövründə 61 hökumət başçısını tədqiq etdi və aşkar etdi ki, ekstraversiya və təcrübəyə açıqlıqda yüksək bal toplayan liderlər səyahət məhdudiyyətlərini daha tez tətbiq edirlər, halbuki vicdan, razılıq və nevrotiklik baxımından daha yüksək bal toplayan liderlər formada daha təsirli cavabdan istifadə edirlər. Liderin böhrana reaksiyası ilə onların şəxsiyyət xüsusiyyətləri arasında qarşılıqlı əlaqəni vurğulayır.

- Siyasi motivasiya liderlik tərzini müəyyən edir: Tədqiqat göstərir ki, siyasi motiv və liderlik tərzi arasında səbəb-nəticə əlaqəsi mövcuddur. Müəyyən edilmişdir ki, güclə idarə olunan liderlər nəzarət edir və (12) mənsubiyyət motivi liderləri adətən passivdirlər və nailiyyət motivi liderlər tamamlanma şansı yüksək olan vəzifələri axtarırlar. Güc motivi bəziləri tərəfindən liderlik üçün ideal hesab olunur. Məsələn, McClelland və Boyatzis (1982) izah edir ki, güc motivlərinə ehtiyac liderlik üçün vacibdir, mənsubiyyət motivlərinə ehtiyac isə liderliyə mane olur. Aparılan araşdırmadan birində göstərir ki, güc motivi liderlik üçün funksional, mənsubiyyət motivi isə qeyri-funksionaldır. Bu, funksional və ya qeyri-funksional motivlərin liderlik üslubu üçün stimul olduğuna inamı göstərir. Spangler və başqaları. Belə nəticəyə gəlir ki, yeni bürokratik təşkilatlar üçün (bəzi siyasi institutlarda olduğu kimi) nailiyyət üçün ehtiyac motivi aşağıdır, lakin gücə ehtiyac motivi və mənsubiyyət ehtiyacı yüksəkdir.

ƏDƏBİYYAT

1. Adams, D. L. (2009). Personality Type and Leadership Approach. Journal of Leadership Education, 8, 111-134. https://doi.org/10.12806/V8/I2/RF1
2. Elgie, R. Studying Political Leadership. Palgrave Macmillan. https://doi.org/10.1007/978-1-137-34708-4
3. Fairclough, N. (2000). New Labour, New Language? Routledge
4. Jabareen, Y. (2009). Building Conceptual Framework: Philosophy, Definitions and Procedure. International Journal of Qualitative Methods, 8, 49-62. https://doi.org/10.1177/160940690900800406
5. Kane, J., & Patapan, H. (2008). The Neglected Problem of Democratic Leadership. In P. ‘t Hart, & J. Uhr (Eds.), Public Leadership: Perspectives and Practices (pp. 25-36). ANU Printing Services. https://doi.org/10.22459/PL.11.2008.02
6. Kaarbo, J., & Hermann, M. G. (1998). Leadership Styles of Prime Ministers: How Individual Differences Affect the Foreign Policymaking Process. The Leadership Quarterly, 9, 243-263. https://doi.org/10.1016/S1048-9843(98)90029-7
7. Körösényi, A. Political Representation in Leader Democracy. Government and Opposition, 40, 358-378. https://doi.org/10.1111/j.1477-7053.2005.00155.x 1999
8. Lord, Martin, Atkinson, & Mitchell, 2009; Beer və digərləri, 2019
https://doi.org/10.1177/160940690900800406
9. Lowenthal, A. F., & Bitar, S. (2015). From Authoritarian Rule toward Democratic Governance: Learning from Political Leaders. International Institute for Democracy and Electoral Assistance
10. Leandro və Castillo (Leandro, P. G., & Castillo, M. D. (2010). Coping with Stress and Its Relationship with Personality Dimensions, Anxiety, and Depression. Procedia-Social and Behavioral Sciences, 5, 1562-1573. https://doi.org/10.1016/j.sbspro.2010.07.326
8. 11. Müller, M. (2007). Motivation of Politicians and Long-Term Policies. Public Choice, 132, 273-289.
12. McClelland, D. C. (1975). Power: The Inner Experience. Irvington McClelland
13. Political Leaders: The Paradox of Freedom and Democracy. Revista Enfoques, 10, 113-131. https://doi.org/10.1111/j.1478-9302.2012.00264_4.x Teles, 2012
14. Robertson, D. (2004). The Routledge Dictionary of Politics. Routledge.
https://doi.org/10.4324/9780203362068

15. Selznick, P. (1957). Leadership in Administration. Harper and Row Publishers) və Bennis (Bennis, W. G. (1959). Leadership Theory and Administrative Behavior: The Problem of Authority. Administrative Quarterly, 4, 259-301. https://doi.org/10.2307/2390911

АЗАДХАН ВАЛИЗАДА
Бакинский Государственный Университет

ТЕОРИЯ ПОЛИТИЧЕСКОГО ЛИДЕРСТВА В ДЕМОКРАТИЧЕСКОМ УПРАВЛЕНИИ

Чтобы объяснить концепцию политического лидерства, важно адекватно описать, кто такой политический лидер. Лидеры обычно определяются своими характеристиками, убеждениями и действиями и часто занимают высокие политические должности. В число лидеров могут входить главы правительств, министры кабинета, старшие законодатели, ключевые партийные функционеры, советники политиков и старшие государственные служащие. Роль политического руководства жизненно важна, поскольку государственная политика описывает действия политиков по решению общественных проблем. Умение решать проблемы определяет будущую судьбу управляемых, а политическое лидерство воплощает в себе внутренние и внешние факторы, которые способствуют или препятствуют тем, кто оказывает влияние на реализацию политики реформ. Кроме того, необходимо более глубоко изучить важную природу «политического» в обсуждении лидерства и его желательную (а иногда и предосудительную) тенденцию к включению, особенно учитывая его недостаточную представленность в политических исследованиях. Определение его влияния на демократический политический процесс и формирование государственной политики заключается в разработке концептуальной основы для исследования политического лидерства.

Ключевые слова: лидер, главы правительства, министры кабинета, старшие законодатели, партийные функционеры, советники политиков, старшие государственные служащие.

AZADKHAN VALIZADA
Baku State University

THEORY OF POLITICAL LEADERSHIP IN DEMOCRATIC GOVERNANCE

To explain the concept of political leadership, it is important to adequately describe who a political leader is. Leaders are normally defined by their characteristics, beliefs, and actions, and often occupy high political positions. Leaders may include heads of government, cabinet ministers, senior legislators, major party officials, advisors to politicians, and high-ranking civil servants. The role of political leadership is vital because public policy describes the actions of politicians in solving public problems. Problem-solving skills determine the future fate of the governed, and political leadership embodies the internal and external factors that enable or hinder those who influence the implementation of reform policies. Furthermore, the essential nature of the "political" in the discussion of leadership and its desirable (and sometimes objectionable) orientation, especially given its underrepresentation in political research, needs to be explored in more depth. Determining its impact on the democratic political process and public policy formation is to develop a conceptual framework for political leadership research.

Keywords: leader, heads of government, cabinet ministers, senior legislators, party officials, advisors to politicians, senior civil servants.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: s.ü.f.d. İsmayıl Eyyublu, t.e.d. Sevinc Yusifzadə.

UOT 327

TALEH ƏLİYEV
Muğla Sıtkı Koçman Universiteti
Siyasət elmi və Beynəlxalq münasibətlər ixtisası üzrə I kurs magistrant
taleheliyev2020t@gmail.com

XANIM ƏLİZADƏ
Bakı Dövlət Universiteti
İctimai siyasət ixtisası üzrə I kurs magistrant
xanimelizade77@gmail.com

3-CÜ İLİNDƏ RUSİYA-UKRAYNA MÜHARİBƏSİNƏ BAXIŞ: STATİSTİKA VƏ TƏHLİLLƏR

DOI: https://doi.org/10.36719/2708-065X/108/229-235

21-ci əsrin insan sayı, iqtisadi, hərbi, ekoloji cəhətdən ən tələfatlı müharibəsi Rusiya-Ukrayna müharibəsi hesab edilir. 3 ildir ki, davam edən bu müharibədə strateji və hərbi üstünlük beynəlxalq siyasi proseslərdən asılı olaraq dəfələrlə dəyişmiş, hətta bəzi situasiyalarda nüvə silahından istifadə gündəmə gəlmişdir. Rusiya-Ukrayna müharibəsinə nəzər saldıqda 2 dövlət arasında deyil ittifaqlararası bir müharibə olduğunu görürük. Məqalədə günümüzdə aktual siyasi problemlerdən biri olan Rusiya-Ukrayna müharibəsinin xronoloji inkişafı, tərəflərin müharibəyə sərf etdiyi resurslar və hər iki tərəfin itkiləri statistik göstəricilərlə tədqiq edilmişdir.

Açar sözlər: NATO, Avropa İttifaqı, Demokratlar, sanksiya, Krım, ABŞ.

Giriş. 1991-ci ildə SSRİ-nin dağılmasından sonra müstəqil olan dövlətlərdən biri olan Ukrayna Rusiya və ABŞ-dən sonra dünyanın ən böyük 3-cü nüvə gücü idi. Ölkədə SSRİ tərəfindən yerləşdirilən 5000-dən çox nüvə başlıqlı silah vardı. Müstəqillikdən sonra Ukrayna yaxın qonşusu Rusiya ilə münasibətlərin inkişafından yana addımlar atdı. Ukraynanın 1994-cü ildə Rusiya, ABŞ və İngiltərə ilə Budapeşt protokolunu imzalayaraq öz nüvə gücündən imtina etməsi qərarı ən çox Rusiyanın maraqlarına uyğun idi.

1994-cü ildə Rusiya, Ukrayna, İngiltərə və ABŞ tərəfindən imzalanan Budapeşt protokolu ilə heç bir ölkənin Ukraynaya qarşı güc və təhdiddən istifadə etməyəcəyi, ölkənin müstəqilliyi və mövcud sərhədlərinə hörmət ediləcəyi sözü Ukraynaya verildi. 1996-cı ildə Ukrayna sonuncu nüvə silahını Rusiyaya geri verdi. Lakin 2014-cü ildə Vladimir Putin rəhbərliyində Rusiyanın Krım yarımadasını işğal etməsi ilə protokolun çatışmazlığı öz əksini tapdı. Ardınca Putinin Budapeşt prokolunu etibarsız saydığı açıqlamaqda da gecikmədi [1].

Zamanla Ukraynanın qərbə yönələrək ABŞ və NATO ilə yaxın əlaqələr qurması "sərhədlərimizdə heç vaxt NATO üzvü dövləti qəbul etməyəcəyik'' ideologiyasını mənimsəyən Rusiya ilə toqquşmalara gətirib çıxardı.

Rusiyanın Ukraynaya qarşı hərbi müdaxiləsi 2014-cü ildə Krımın işğalı ilə başlasa da, 2 dövlət arasındakı müharibənin aktiv fazası 2022-ci il 24 fevralda Rusiyanın Ukraynaya hücumu ilə başladı. Beləliklə, eyni mədəniyyət, dini inanc və tarixi ənənələrə sahib olan 2 xalq siyasi seçimlər və xarici təsirlər nəticəsində 3 ildir davam edən müharibəyə sürükləndi.

Rusiya-Ukrayna müharibəsinin qısa xronoloji inkişafı. Rusiya prezidenti Vladimir Putinin 2022-ci il 24 fevral "Ukraynada xüsusi hərbi əməliyyatın" başlamasını elan etməsi ilə 21-ci əsrin ən dəhşətli və ən uzunmüddətli müharibələrindən biri olan Rusiya-Ukrayna müharibəsi başladı. 3 ildir ki, davam edən bu müharibədə qalib tərəfin kim olduğu söyləmək hələ də mümkün deyil. 3 il ərzində üstünlük dəfələrlə dəyişmiş, bəzən nüvə silahından istifadə bəzən isə sülh müqaviləsinin imzalanması kimi fikirlər gündəmə gəlmişdir. Bu fikirlər bizə Rusiya-Ukrayna müharibəsinin dinamikliyindən xəbər verir. Müharibənin başladığı zaman həlledici üstünlük Rusiyada olsa da zamanla Ukrayna ordusu onun üçün hava-su kimi vacib olan Qərb dəstəyi ilə Rusiya ordusunu bəzi ərazilərdə geri çəkilməyə məcbur etmiş, hətta Rusiya ərazisi olan Kursk vilayətinin əhəmiyyətli hissəsini də ələ keçirmişdir.

Putinin sözlərinə görə, "xüsusi hərbi əməliyyat" qondarma separatçı administrasiyaların Rusiyadan hərbi yardım istəməsindən sonra başlamış eyni zamanda, əməliyyatın məqsədi "mülki əhaliyə, o cümlədən Rusiya vətəndaşlarına qarşı çoxsaylı qanlı cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi, habelə Ukraynanı nasizm və militarizmdən təmizləmək" idi [2].

Putinin müvcud Ukrayna hökumətini nasist və militarist olmaqda günahlandırmasında əsas məqsədi beynəlxalq ictimaiyyəti çaşdırmaq və bütün oxları Ukrayna üzərinə yönləndirmək idi. O, Avropaya tarixdən dərs çıxarmasını, Avropanın nasist Almaniyasına göz yumduğu kimi Ukraynaya göz yumarsa ağır fəsadlarla üzləşəcəyi fikrini müdafiə edirdi. Hərçənd, Putin bu müharibədə sərt güclə bərabər yumşaq güc elementi olan propaqandadan istifadə etsə də, əksər dövlət, beynəlxalq təşkilat, KİV və siyasi analitiklər tərəfindən işğalçı olaraq dəyərləndirilməkdən xilas ola bilmədi.

Müharibənin başlamasından dərhal sonra ABŞ başda olmaqla Qərb ölkələri Rusiyanın zəif nöqtəsi olan iqtisadiyyatını hədəf alaraq çoxsaylı sanksiyaların tətbiqinə başladılar. 2023-cü il 23 fevralda olan statistikaya görə Rusiyaya qarşı tətbiq edilən sanksiyaların ümumi sayı 14 min 22-yə çatmış və bu rəqəmlə o 4 min 268 sanksiya ilə 1-ci sıranı tutan İranı geridə buraxaraq dünyanın ən çox sanksiya məruz qalan ölkəsi kimi tarixə düşmüşdür.

Aşağıdakı cədvəldə 2022-ci il 23 fevral 2024-cü il 12 fevral tarixləri arasında Rusiyaya ən çox sanksiya tətbiq edən 5 ölkə və tətbiq etdiyi sanksiyaların sayı göstərilmişdir.

Cədvəl 1. [3]

Rusiyaya sanksiya tətbiq edən ölkələr / təşkilatlar	Tətbiq edilən sanksiyaların sayı
ABŞ	3585
Kanada	2765
İsveçrə	2403
Avropa İttifaqı	1785
İngiltərə	1749

Tətbiq edilən sanksiyalar Rusiyanın enerji, maliyyə, müdafiə sənayesi, logistika sektoruna ciddi zərbələr vurmuşdur. Həmçinin, Rusiya bankları beynəlxalq SWIFT sistemindən çıxarılmış, Rusiyaya məxsus 300 milyard dollardan çox maliyyə aktivləri dondurulmuşdur. Buna cavab olaraq da Rusiya beynəlxalq ticarətdə, saxlanılan maliyyə ehtiyyyatlarında avro və dollardan imtina edərək dollardan asılılığı azaltmaq üçün Qərbə qarşı olan ölkələri BRICS ətrafında birləşdirmişdir.

Müharibənin ilk günlərindən Rusiya Ukrayna üçün strateji əhəmiyyətə malik olan nöqtələrin ələ keçirilməsinə çalışdı. 2022-ci il martın 4-də Ukrayna elektrik enerjisi ehtiyacının 30 %-ni qarşılayan Zaparojya nüvə stansiyasını işğal etdi. Bu hadisədən sonra Ukrayna tərəfi və onun müttəfiqlərindən açıqlamalar gecikmədi.

Qərbli liderlər Rusiyanın bütün qitənin təhlükəsizliyini təhlükə altına atdığını söyləyir, Ukrayna prezidenti Volodomir Zelenski isə Moskvanı "nüvə terrorizmi"ndə ittiham edirdi. Zelenkski Rusiyanın tarixin ən böyük nüvə fəlakəti olan Çernobilin təkrarlanmasını istədiyini müdafiə edərək, "Bir partlayış olarsa, hər şey bitəcək və bu, Avropanın sonu olacaq" dedi. ABŞ prezidenti C.Bayden Rusiyanı elektrik stansiyası ətrafında hərbi əməliyyatları dayandırmağa çağırmış, Kanadanın baş naziri Castin Trüdo da "Rusiyanın dəhşətli hücumları"nın dərhal dayandırılmalı olduğunu bildirmişdir. Böyük Britaniyanın baş naziri Boris Conson isə bildirmişdir ki, "bu məsuliyyətsiz hücum" bütün Avropanın təhlükəsizliyini birbaşa təhlükə altına qoya bilər [4].

Müharibənin 2-ci ayında Rusiya silahlı qüvvələri Kiyev, Xerson, Melitopol şəhərlərinə birbaşa hücuma keçsə də, sentyabr ayından etibarən buradakı mövqelərini itirməyə başladı. İrəliləyən zamanda Ukrayna qüvvələrinin də Rusiya ordusunun nəzarətində olan şəhər mərkəzlərinə hücumlarını davam etdirməsi Rusiya və Ukrayna ordularının qarşılıqlı hücumları zamanı mülki əhali arasında itki sayının artması ilə nəticələndi.

22 iyul 2022-ci ildə İstanbulda Türkiyənin vasitəçiliyi və BMT, NATO, Aİ və ABŞ rəhbərliyi ilə "Qara Dəniz Taxıl Koridoru" müqaviləsi imzalandı. Rusiya və Ukrayna arasındakı müharibə başda taxıl məhsulları olaraq ərzaq təhlükəsizliyinə səbəb olmuş və dünya gündəmində önəmli mövzuya çevrilmişdir. Rusiya və Ukraynanın taxıl məhsullarında dünyanın ən böyük ixracatçıları olması səbəbi ilə onlar arasındakı müharibə digər ölkələrdə də ağır iqtisadi nəticələrə səbəb olmuşdur. Bunun istiqamətdə axtarılan həll yollarının nəticələrindən biri olaraq ortaya çıxan "Qara Dəniz Taxıl Koridoru" müqaviləsi qida qiymətlərinin enməsinə və qida təchizatı zəncirindəki axsamaların azalmasına səbəb olmuşdur [5].

Müharibənin gedişi zamanı 2022-ci ilin sentyabrında Donetsk, Luqansk, Zaporojya və Xersonda Rusiyaya qoşulmaq üçün referendum keçirildi və iştirak edənlərin əksəriyyətinin ilhaq qərarına "hə" deməsi ilə Rusiya Krımdan sonra Ukrayna ərazisinin 15 faizini qanunsuz olaraq ilhaq etmiş oldu. Referendumun ardından Qərb və Ukrayna rəsmilərinin mövqeləri gecikmədi.

Ukraynanın xarici işlər naziri Dmitro Kuleba referendumla bağlı qərarlara reaksiya vermiş və "Saxta referendumlar heç nəyi dəyişməyəcək", Türkiyənin Xarici İşlər Nazirliyi "Ukraynanın bəzi bölgələrində Rusiyanın nəzarəti altında olan birtərəfli referendumların keçirilməsi cəhdlərindən narahatıq", ABŞ prezidenti Co Bayden isə referendumların Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin" ciddi şəkildə pozulması" olduğu kimi fikirlər bildirmişdir [6].

Putinin müharibəyə başlamasının səbəblərindən biri də Ukraynanın Aİ və NATO ilə yaxınlaşmaq istəyi idi. Müharibə olmasına rəğmən Aİ-yə üzvlük prosesindən əl çəkməyən Ukrayna ötən il bu istiqamətdə irəliləyiş əldə etdi. Avropa İttifaqına üzv ölkələrin liderləri 2023-cü ilin dekabrında Ukrayna və Moldova ilə üzvlük danışıqlarına başlamaq qərarına gəldilər [7].

2024-cü ilin 6 avqustunda Ukrayna silahlı qüvvələrinin Rusiya sərhəd qoşunlarını zərərsizləşdirərək irəliləməsi ilə bütün dünya üçün şok yaradan bir əməliyyat olan Kursk əməliyyatı başladı. Faktiki olaraq, 2-ci dünya müharibəsindən sonra ilk dəfə olaraq Rusiya ərazisi xarici müdaxiləyə məruz qalaraq işğal edilirdi. Mediyada Rusiyanın "qırmızı xəttinin" keçilməsinə baxmayaraq güclü cavab verməməsi xəbərləri yayılırdı. Eyni zamanda, Cənubi Ukraynada hücumlarına diqqət verən Kremlinin Kursk bölgəsinə əlavə qüvvə göndərmədi. Burada əsas məqsəd Kursk hərəkatını önəmsiz bir hadisə kimi qiymətləndirərək Ukraynanın uğuruna kölgə salmaq idi.

Ukraynanın əməliyyat üçün Kursku seçməsində strateji əhəmiyyəti ilə yanaşı tarixi önəminin də olması idi. Təsadüfi deyildir ki, II dünya müharibəsi zamanı tarixin ən böyük tank müharibələrindən biri olan Kursk döyüşü zamanı SSRİ-nin qalib gəlməsi ilə müharibədə "əsaslı dönüş" başa çatdı və Şərq cəbhəsində üstünlük SSRİ-yə keçdi. Ukraynanın bir məqsədi də bu mifi dağıtmaq və Rusiyaya psixoloji təzyiqi artırmaq idi.

2024-cü ilin oktyabrında Cənubi Koreya Milli Kəşfiyyat Xidmətinin məlumatlarına əsaslanan bir çox mənbə Şimali Koreya əsgərlərinin Rusiyanın şərqində təlim keçdiyini bildirdi. Cənubi Koreya kəşfiyyat agentliyi qeyd edib ki, Ukraynada mümkün yerləşdirmə və Rusiya-Ukrayna müharibəsinə qoşulmaq üçün təlimə göndərilən 1500-ə yaxın şəxsi heyət var. NATO-nun baş katibi Mark Rutte və Ukrayna prezidenti Vladimir Zelenski də ayrı-ayrı mətbuat bəyanatlarında bu xəbərləri bir daha təsdiqləyiblər [8].

Amerikanın Washington Post (WP) qəzetinin iki yüksək səviyyəli ABŞ rəsmisinə əsaslanaraq verdiyi xəbərə görə, Bayden administrasiyası Şimali Koreya əsgərlərinin Ukraynaya qarşı döyüşmək üçün Rusiyaya gətirilməsindən sonra Kiyevə Rusiya ərazisində uzaqmənzilli Amerika silahlarından istifadə etmək icazəsi vermək qərarına gəlib. Kreml isə ABŞ-nin Ukraynanın Rusiya ərazisinə uzaqmənzilli silahlarla hücum etməsinə icazə verməsini "gərginliyin yeni mərhələsi" kimi qiymətləndirib. Belə ki, Rusiya-Ukrayna müharibəsinin 1000-ci günündə ABŞ-nin Ukraynaya tədarük etdiyi uzaqmənzilli silahların Rusiya ərazisində istifadəsinə icazə verəcəyi ilə bağlı iddiaların münaqişələri yeni müstəviyə daşıyacağı proqnozlaşdırılır [7].

Rusiya-Ukrayna müharibəsinə sərf edilən maliyyə resursları. 2025-ci il yanvar ayına olan statistik göstəricilərə əsasən Ukraynaya ayrılan maliyyə vəsaiti yardımlarının həcminə görə ilk üçlüyə müvafiq olaraq, ABŞ, Böyük Britaniya, NATO aiddir. Müharibə başlayandan bu günə qədər ABŞ 66,5 milyard dollar, NATO 40 milyard avro, Böyük Britaniya 12,8 milyard funt sterlinq həcmində hərbi yardım dəstəyi göstərmişdir.

Aşağıdakı cədvəldə Ukraynada müharibənin başlamasından 2024-cü il avqust ayının 31-nə qədər olan Avropa İttifaqı ölkələrinin Ukraynaya göstərdiyi hərbi yardımın miqdarı qeyd edilmişdir.

Cədvəl 2. [9]

Hərbi yardım göstərən ölkələr	Hərbi yardımın miqdarı (Avro ilə)
Almaniya	11,4 milyard
Danimarka	7 milyard
Hollandiya	5,5 milyard
İsveç	4,6 milyard
Polşa	3,5 milyard
Fransa	3,4 milyard
Finlandiya	2,4 milyard

Ümumilikdə 27 Avropa İttifaqı dövlətindən Ukraynaya təqribən 45 milyard avro həcmində hərbi yardım ayrılmışdır. Ümumi Daxili Məhsulun (ÜDM) 1,86 faizi Danimarkanın payına düşmüşdür. Bu isə rəqəmləri müqayisə etdikdə digər ölkələrlə nisbətdə 5 dəfə çoxdur. Təkcə ABŞ-nin ayırdığı hərbi yardımın 27 Avropa İttifaqı dövlətindən 1,5 dəfə çox olması müharibənin gedişatına təsir edən mühüm amillərdəndir.

Ukraynadan fərqli olaraq Rusiya müharibəni öz resursları hesabına maliyyələşdirmişdir. Statistik göstəricilərdən məlum olur ki, Rusiyanın hərbi büdcəsi Soyuq müharibə dövründən bəri ən yüksək səviyyəyə yüksəlmişdir.

Müharibənin başlanmasından bəri Rusiyanın müdafiə büdcələri:

2022-ci ildə 86,4 milyard dollar, 2021-ci ildən 31% artım, ÜDM-in 4,4%-ni, 2023-cü ildə 109,5 milyard dollar, əvvəlki ilə nisbətən 26,7% artım, 2024-cü ildə 112 milyard dollar təşkil etmişdir. Rusiyanın müdafiə büdcəsi 2025-ci ildə dövlət xərclərinin 32,5%-ni təşkil edərək 142 milyard dollara yüksələcəyi proqnozlaşdırılır. Rusiya hökuməti ümumi daxili məhsulun (ÜDM) 6%-ni hərbi xərclərə ayırmağı planlaşdırır, müdafiəni sosial proqramlardan üstün tutaraq, müharibə iqtisadiyyatının tam miqyaslı olduğunun bariz göstəricisidir. Müqayisə üçün, NATO üzv dövlətlərindən müdafiəyə ÜDM-in 2%-ni ayırmağı tələb edir. Diqqətçəkən istisnalara Polşa, Litva və ABŞ kimi ölkələr daxildir ki, onlar ÜDM-in 4%-ə yaxınını müdafiə xərclərinə ayırırlar [10].

Fevralın 16-sı ABŞ-nin yüksək rütbəli müdafiə rəsmisi cümə günü bildirib ki, Rusiya Ukraynadakı əməliyyatlar üçün qoşunlarını təchiz etmək, yerləşdirmək və saxlamaq üçün 211 milyard dollar xərcləyib və Moskva ləğv edilmiş və ya təxirə salınmış silah satışlarından 10 milyard dollardan çox itirib [11].

Rusiya-Ukrayna müharibəsində tərəflərin itkiləri. Müharibədə və xüsusilə 2024-cü ildə nə qədər rus əsgərinin həyatını itirməsindən asılı olmayaraq, ekspertlər Rusiyanın itki rəqəmlərinin İkinci Dünya Müharibəsindən bəri rekord həddə və ən yüksək səviyyədə olması ilə razılaşırlar.

Ukrayna Müdafiə Nazirliyi yanvarın 2-də yayımladığı bəyanatda Rusiyanın keçən il itkilərini 430 min 790 əsgər olaraq açıqlayıb. İkinci Dünya Müharibəsi zamanı təxminən 8,7 milyon sovet hərbi qulluqçusu öldürüldü ki, bu da istənilən ölkə üçün ən yüksək rəqəmdir. 15 sovet respublikası arasında ən çox əsgər itirən ölkə 6,7 milyon nəfərlə Rusiya olub [12].

2024-cü il fevralın 27-də Rusiya Federasiyasının müdafiə naziri vəzifəsini tutan Sergey Şoyqu xüsusi əməliyyat başlayandan bəri Ukrayna Silahlı Qüvvələrinin ümumi itkilərinin 444 min nəfəri keçdiyini bəyan etmişdir [13].

Ukrayna prezidenti Vladimir Zelenski Rusiyanın Ukraynaya təcavüzünün ikinci ildönümündə Ukraynanın 31 min əsgər itkisi olduğunu bildirməsi tərəflərin öz itki sayını gizlədərək qarşı tərəfin itki sayının şişirtməsini sübut edir.

Ukrayna Silahlı Qüvvələrinin 2024-cü ilin sonundakı açıqlamasına görə Rusiyanın döyüş meydanındakı hərbi təchizat itkilərinə aşağıdakılar daxildir: 9584 tank, 20600 Pilotsuz Uçuş Aparatları, 19823 zirehli personal maşınları, 2943 qanadlı roketlər, 21220 artilleriya sistemləri, 28 döyüş gəmisi, 1256 MLRS, 1 sualtı qayıq, 1027 təyyarə əleyhinə sistemlər, 31793 nəqliyyat vasitələri və yanacaq çənləri, 369 təyyarə, 3662 xüsusi avadanlıq, 329 helikopter. Ukraynanın maliyyə mediası olan Minfin tərəfindən hazırlanan maliyyə modellərinə görə, Rusiyanın məhv edilmiş hərbi texnikasının ümumi dəyərinin 79 milyard dolları ötdüyü təxmin edilir [10].

2025-ci il fevral ayında Ukraynanın hərbi təchizat itkilərinə isə aşağıdakılar daxildir: 21276 tank və BTR/BMP, 31404 zirehli maşın, 21403 minaatan və artilleriya qurğusu, 42710 PUA, 1516 çoxsaylı raket atan, 653 təyyarə, 593 Zenit raket kompleksi, 283 helikopter [14].

Nəticə. Rusiya-Ukrayna müharibəsi beynəlxalq siyasət və qlobal güc balanslarında dərin dəyişikliklərə yol açmışdır. Soyuq müharibədən sonra ilk dəfə dünya 2 cəbhəyə ayrılmış və tərəflər özünü bəlli etmişdir. Rusiya müharibəni öz resursları hesabına davam etdirməyə çalışsa da Qərbin Ukraynaya böyük maliyyə və hərbi yardımları Rusiyanın həlledici nəticə göstərə bilməsinə əngəl olaraq müharibənin uzanmasına səbəb olur. Müharibəyə dəstək verən ölkələr və bu dəstəyin miqdarına baxdıqda bu müharibənin 2 dövlət arasında deyil, Qərb-Şərq qarşıdurması olduğunu görürük. Rusiya-Ukrayna müharibəsində Ukrayna NATO, Avropa İttifaqı, ABŞ, Kanada kimi güclü təşkilat və dövlətlərdən çoxtərəfli hərbi yardım alsa da, Rusiya müttəfiqlərindən sadəcə 2 əhəmiyyətli yardım ala bilmişdir:

1) 11 000 Şimali Koreya əsgərinin Kursk ətrafında döyüşlərdə iştirakı;

2) Müharibənin gedişində İranın nüvə proqramına dəstək vədi qarşılığında Rusiyaya təqribən 3000 ədəd Mühacir-6 və Şahed-136 modelləri PUA satması.

Bu 2 faktor müharibənin qütblərarası bir sferaya daşındığının göstəricisidir.

Rusiya-Ukrayna müharibəsinin hər iki tərəf üçün ağır nəticələri olsa da, " super güc" iddiasında olan Rusiyanın Yaxın Şərq regionunda tarixi və ən yaxın müttəfiqi olan Suriyadakı Əsəd rejiminə yardım edə bilməməsi onun beynəlxalq nüfuzunun ciddi şəkildə sarsılmasına səbəb oldu. Həmçinin, beynəlxalq ictimaiyyəti ciddi şəkildə maraqlandırdığı üçün ABŞ-dəki 2024-cü il prezident seçkilərində seçicilərinə Rusiya-Ukrayna müharibəsini qısa zamanda bitirəcəyini söz verən namizəd Donald Trampın qalib gəlməsi də müharibənin təsir etdiyi hadisə kimi qiymətləndirilə bilər. Bu vəd ABŞ-dəki əksər kəsimin Rusiya-Ukrayna müharibəsinin dolaylı olaraq başlatdığı və qatı Rusiya əleydarı olan Demokratlara deyil, Trampa səs verməsinə səbəb oldu. Rusiya-Ukrayna müharibəsi zamanı baş verən bu siyasi proseslər müharibənin regional deyil qlobal xarakter daşımasından xəbər verir.

Rusiya-Ukrayna müharibəsi 1-ci dünya müharibəsində Almaniya və Fransa arasında baş verən "Verden döyüşünü" xatırladır. 6 ay davam edən bu döyüşdə hər iki tərəf 1 milyondan çox itki versə də, heç biri həlledici qələbə qazana bilməmişdi. Artıq 3 ildir ki, davam edən bu müharibədə də qazananın kim olmasını söyləmək çətin olsa da, statistik göstəricilərə baxdıqda müharibənin nəticəsinin qazanan üçün "Pirr qələbəsi" olacağı fikrinin sübuta ehtiyacı yoxdur.

ƏDƏBİYYAT

1. Budapeşte memorandumu nedir? Ukrayna nükleer silahından ne zaman vazgeşti? / Euronews, 03/03/2022. URL: https://tr.euronews.com/2022/03/03/budapeste-memorandumu-nedir-ukrayna-nukleer-silahlardan-ne-zaman-vazgecti [13.02.2025].

2. Alila Raimbekova. Rusya-Uktrayna Savaşı'nın başlanmasının üzerinden 1000 gün geçti / AA, 19.11.2024. URL: https://www.aa.com.tr/tr/dunya/rusya-ukrayna-savasinin-baslamasinin-uzerinden-1000-gun-gecti/3397558 [13.02.2025].

3. https://cbr.ru/eng/ [13.02.2025].

4. Rusya, Ukrayna'daki Avrupa'nın en büyük nükleer santralını ele geçirdi / BBC News Türkçe, 4 Mart 2022. URL: https://www.bbc.com/turkce/haberler-dunya-60618057 [13.02.2025].

5. Bayazıt A., Gürbüzer G.B. Karadeniz Tahıl Koridoru Anlaşmasının Uluslararası Ticaret Açısından Değerlendirilmesi // Akademik Tarih ve Düşünce Dergisi, 2023, 10 (6), 2215-2235.

6. Donetsk ve Luhansk'ta referandum başladı / İndependent Türkçe, 23 Eylül 2022. URL: https://www.indyturk.com/node/555851/d%C3%BCnya/donetsk-ve-luhanskta-referandum-ba%C5%9Flad%C4%B1 [13.02.2025].
7. Rusya-Ukrayna Savaşı'nın başlamasının üzerinden 1000 gün geçti / TRT Haber, 19.11.2024. URL: https://www.trthaber.com/haber/dunya/rusya-ukrayna-savasinin-baslamasinin-uzerinden-1000-gun-gecti-888798.html [13.02.2025].
8. Fate of North Korean Soldiers in the Russia-Ukraine War / Profolus, January 6, 2025. URL: https://www.profolus.com/topics/fate-of-north-korean-soldiers-in-the-russia-ukraine-war/ [13.02.2025].
9. Tom Edgington. Ukraine weapons: What arms are the US, UK and other nations supplying? / BBC News, 17 February 2025. URL: https://www.bbc.com/news/world-europe-62002218 [13.02.2025].
10. Daniel Kosoy. How Much Russia Has Spent on Its War in Ukraine / United24 Media, Dec 24, 2024. URL: https://united24media.com/war-in-ukraine/how-much-russia-has-spent-on-the-war-4674 [13.02.2025].
11. Idrees Ali. Russia operations in Ukraine have probably cost up to $211 billion-US official / Reuters, February 16, 2024. URL: https://www.reuters.com/world/europe/russia-operations-ukraine-have-probably-cost-up-211-billion-us-official-2024-02-16/ [13.02.2025].
12. Derya Doğan. Ukrayna savaşı ve Rusya'nın rekor kayıpları / NTV, 09.01.2025. URL: https://www.ntv.com.tr/yazarlar/derya-dogan/ukrayna-savasi-ve-rusyanin-rekor-kayiplari,cqrtbvZYl0OFLXE3Wg346g [13.02.2025].
13. ТАСС: потери ВСУ с начала СВО превысили 900 тыс. военных убитыми и ранеными / ТАСС, 19 ноября 2024. URL: https://tass.ru/armiya-i-opk/22437533 [13.02.2025].
14. Потери Украины за время специальной военной операции (СВО) / Время МСК. URL: https://mskvremya.ru/article/2023/1520-poteri-ukrainy-za-vremya-spetsoperatsii [13.02.2025].

ТАЛЕХ АЛИЕВ
Университет Мугла Ситки Коцман
Студент первого курса магистратуры по направлению «Политология и международные отношения»

ХАНЫМ АЛИЗАДЕ
Бакинский Государственный Университет
Студент первого курса магистратуры по специальности «Государственная политика»

РОССИЙСКО-УКРАИНСКАЯ ВОЙНА В 3-М ГОДЕ: СТАТИСТИКА И АНАЛИЗ

Российско-украинская война считается самой разрушительной войной 21 века с точки зрения численности населения, экономики, армии и экологии. В этой войне, которая длится уже 3 года, стратегическое и военное преимущество неоднократно менялось в зависимости от международных политических процессов, даже в некоторых ситуациях речь шла о применении ядерного оружия. Когда мы смотрим на российско-украинскую войну, мы видим, что это межсоюзная война, а не между двумя государствами. В статье с использованием статистических показателей изучено хронологическое развитие российско-украинской войны, которая является одной из актуальных политических проблем, ресурсы, затраченные сторонами на войну, и потери обеих сторон.

Ключевые слова: НАТО, Евросоюз, демократы, санкция, Крым, США.

TALEH ALIYEV
Muğla Sitki Kochman University
1st year master's student in Political Science and International Relations

KHANIM ALIZADEH
Baku State University
1st year master's student in Public Policy

A LOOK AT THE RUSSIA-UKRAINE WAR IN ITS 3RD YEAR: STATISTICS AND ANALYSIS

The Russia-Ukraine war is considered the most devastating conflict of the 21st century in terms of human casualties, economic impact, military losses, and environmental damage. Over the past three years, strategic and military advantages have shifted multiple times, influenced by international political dynamics, and at certain points, even the possibility of nuclear weapon use has been raised. When analyzing the Russia-Ukraine war, it becomes evident that this is not merely a conflict between two nations but rather a war between alliances. The article examines the chronological development of the Russia-Ukraine war, one of today's most pressing political issues, along with the resources spent by both sides and their respective losses, supported by statistical data.

Keywords: NATO, European Union, Democrats, sanction, Crimea, USA.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: s.e.ü.f.d. Nuran Məmmədli, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT 32

AYSEL KƏRİMOVA
Bakı Dövlət Universitetinin I kurs magistrantı,
Müasir danışıqlar təcrübəsi
ayselkarimovaelman@gmail.com

DANIŞIQLAR PROSESİNDƏ ŞƏXSİYYƏTİN YERİ VƏ ROLU

DOI: https://doi.org/10.36719/2708-065X/108/236-244

Məqalədə insanın fərdi xüsusiyyətlərinin və şəxsiyyət xarakteristikalarının danışıqların uğurlu gedişatına təsiri araşdırılır. Bu mövzu psixologiya, kommunikasiya və liderlik sahələrində geniş şəkildə öyrənilir. Şəxsiyyət danışıqlar prosesinin uğurlu gedişatını müəyyən edən əsas faktorlardan biridir. Şəxsi xüsusiyyətlərin, emosional zəkanın və ünsiyyət qabiliyyətinin düzgün idarə olunması, danışıqların məqsədlərinə çatmaq üçün vacibdir. Danışıqlar prosesində şəxsiyyətin yeri və rolu danışıqların uğurlu nəticəsi üçün mühüm əhəmiyyət kəsb edir. Danışıqlar zamanı iştirakçıların fərdi xüsusiyyətləri, ünsiyyət tərzləri və emosional zəka səviyyəsi prosesin gedişatını və nəticəsini birbaşa təsirləndirir. Bu, müxtəlif sahələrdə özünü göstərir. Məqalədə diplomatiya sahəsində çalışan diplomatlarımızın danışıqlar prosesindəki yeri və rolundan bəhs olunur.

Açar sözlər: Danışıqlar, şəxsiyyət, diplomatiya,məqam, ünsiyyət, xüsusiyyət, qabiliyyət, proses, psixalogiya, komunikasiya, emosional. Liderlik.

Giriş. Danışıqlar prosesində şəxsiyyət sadəcə bir atribut deyil, həm də strateji vasitədir. Hər bir şəxs öz güclü və zəif tərəflərini anlayaraq, bu prosesə daha yaxşı hazırlaşa və qarşı tərəflə effektiv əməkdaşlıq edə bilər. Şəxsiyyət xüsusiyyətlərinin nəzərə alınması həm də uzunmüddətli münasibətlərə və qarşılıqlı anlaşmaya şərait yaradır. Beynəlxalq danışıqlarda dövlətlərin və ya təşkilatların maraqları öz nümayəndələri vasitəsilə həll olunur. Bu mənada danışıqların iştirakçısı iki cür iştirak edir: bir tərəfdən təmsil etdiyi institutun (dövlətin, beynəlxalq təşkilatın və s.) maraqlarını reallaşdırmaq, digər tərəfdən ona məxsus olan milli mədəniyyət, fərdi stil və bacarıqla. Bununla əlaqədar olaraq danışıqların aparılması prosesinə təsir edən şəxsi xüsusiyyətlər məsələsi yaranır.

Şəxsiyyətin danışıqlar prosesində rolu

1. Ünsiyyət bacarıqları: Danışıqların əsas elementi ünsiyyətdir. Şəxsin aydın, inandırıcı və empatik ünsiyyət qurma bacarığı qarşı tərəfi dinləmək və öz mövqeyini aydın şəkildə ifadə etmək qabiliyyətini artırır.

2. Emosional zəka: Emosiyalar üzərində nəzarət, empatiya göstərmək və stressli vəziyyətlərdə sakit davranmaq uğurlu danışıqların ayrılmaz hissəsidir. Yüksək emosional zəka həm də qarşı tərəfi anlamağa və münasibətləri inkişaf etdirməyə kömək edir.

3. Liderlik və inandırıcılıq: Liderlik xüsusiyyətləri, o cümlədən inandırıcılıq, qərarlılıq və təşəbbüs göstərmək bacarığı danışıqlarda tərəfdaşların etimadını qazanmağa və daha effektiv nəticələr əldə etməyə imkan verir.

4. Problemlərin həlli bacarığı: Şəxsin yaradıcı düşüncə və çeviklik qabiliyyəti problemli vəziyyətlərdə kompromislər tapmağa və konfliktləri aradan qaldırmağa imkan verir.

5. Etika və dəyərlər: Şəxsin davranışı və qərarları onun etik prinsiplərinə əsaslanır. Etibarlı və dürüst bir şəxsiyyət qarşı tərəfin hörmətini qazanır və uzunmüddətli əməkdaşlığa şərait yaradır.

Şəxsiyyət növlərinin təsiri. Danışıqlarda iştirak edən şəxsin şəxsiyyət tipi də önəm daşıyır:

- **Ekstrovertlər**: Aşkar, açıq və aktiv kommunikasiya ilə fərqlənir. Onlar qarşı tərəflə daha asan ünsiyyət qururlar.
- **İntrovertlər**: Dinləmə və analiz etmə qabiliyyətləri ilə güclüdürlər. Həssas yanaşmaları ilə münaqişələri həll edə bilərlər.
- **Analitiklər**: Məlumat və detallara diqqət yetirən şəxslər daha yaxşı strukturlaşdırılmış qərarlar qəbul edə bilirlər.
- **Sosial tipli insanlar**: Qarşılıqlı münasibətləri inkişaf etdirmək və harmoniyanı qorumaqda

güclü rol oynayırlar.

Praktiki olaraq danışıqlar prosesində şəxsi keyfiyyətlər nə qədər vacibdir məsələsi ilə bağlı birbirinə zidd nöqteyi-nəzər söylənilir. Belə ki, bir sıra müəlliflər bildirirlər ki, danışıqlarda şəxsiyyət keçmişdə vacib idi, bu gün isə danışıqlar iştirakçısı obyektiv faktorların kifayət qədər qəti çərçivəsində hərəkət edir. Danışıqlarda şəxsiyyətin rolu haqda bu fikri tez-tez həm tədqiqatçılar, həm də praktiklər bildirirlər. Məsələn, C.Uinhem hesab edir ki, beynəlxalq danışıqların iştirakçılarının şəxsi keyfiyyətlərinə çox diqqət ayırmaq lazım deyil [16].

Eyni zamanda demək olmaz ki, danışıq iştirakçılarının şəxsi keyfiyyətlərinə tədqiqatçı marağı yoxdur və ya azalır. Əks tendensiyadan danışmaq olar hansı ki, Fars körfəzi krizisində daha çox təzahür edilir. Konfliktin danışıqlar yolu ilə həll olunması imkanının müzakirəsində bir sıra tədqiqatçılar C.Buş və S.Hüseynin şəxsiyyət xüsusiyyətlərinin analizinə müraciət etdilər hansı ki, bu məsələyə toxunan çoxlu sayda məruzələrdə əksini tapmışdır. Danışıqların konkret iştirakçılarının davranış xüsusiyyətlərinin şərhində göstərilir ki, indiki vaxt memuar ədəbiyyatına marağın artması müşahidə olunur.

Danışıqların aparılmasında şəxsiyyət aspektlərinə böyük rolu H. Nikolson ayırmışdır. Nikolson 50 ildən çox bundan əvvəl qeyd etmişdir ki, uğurlu danışıqların əsası - mənəvi təsirdir və bu təsir 7 xüsusi məziyyətə söykənir: 1) gerçəklik, 2) dəqiqlik, 3) arxayınlıq, 4) xarakterin müntəzəmliyi, 5) səbir, 6) təvazökarlıq, 7) loyallıq. Y. Nerqes bu cür danışıqların aparılması üçün zəruri olan əlaməti güclü xarakterin olması, qətiyyət, məqsədyönlülük, qərar qəbuluna hazır olmaq, şöhrətpərəstlik, vicdanlılıq adlandırır.

Yəqin ki, beynəlxalq danışıqların iştirakçısının malik olduğu və beynəlxalq danışıqlar prosesinə təsir edən keyfiyyətlər siyahısı çox davam edə bilər. C.Rubin və B.Braun danışıqlar iştirakçılarının şəxsi keyfiyyətlərinin analizinə həsr olunmuş müxtəlif tədqiqatları ümumiləşdirərək bu keyfiyyətlərin kifayət qədər geniş siyahısını almışlar. Tarixdə bu cür bir-birinə oxşamayan nümayəndə heyyətlərinin rəhbərlərinin və beynəlxalq danışıqların ayrı-ayrı iştirakçılarının olduğu məlumdur.

Bununla əlaqədar beynəlxalq danışıqlar prosesində şəxsi xüsusiyyətlərə baxaraq müzakirə modeli çərçivəsində, danışıqlar şəraitində hansı şəxsi keyfiyyətlərin vacib olması sualı deyil, hansı şəraitdə danışıq iştirakçılarının şəxsi xarakteristikaları daha əhəmiyyətlidir sualı durur.

Birinci sualın cavabını D.Drakmanın işi verir. Eksperimental tədqiqatlara əsaslanaraq, o, danışıqlarda şəxsiyyət faktorlarının roluna nəzərən aşağıdakı nəticələrə gəlir:

- danışıqlar şəraitində rolların təyin olunması nə qədər aydındırsa, şəxsiyyət faktorlarının(milli faktorların deyil) danışıqların gedişinə təsirinin çox olması bir o qədər az ehtimallı olacaq;
- danışıqlar şəraiti nə qədər çox müxtəlifdirsə və partnyorların məqsədləri nə qədər çox naməlumdursa, şəxsiyyət faktoru danışıqlar prosesinə bir o qədər çox təsir edir;
- mürəkkəb, müxtəlif şəraitdə o parametrlər daha çox əhəmiyyət daşıyır ki, hansılar ki, danışıq iştirakçılarının qəbul etmə prosesinə təsir edir və ya asan interpretasiya olunur.

Danışıq iştirakçılarının şəxsi xüsusiyyətlərinin daha çox özünü göstərdiyi D.Drakmanın adlandırdığı şərtlərdən iki nəticə çıxarmaq olar. Birincisi ondan ibarətdir ki, danışıqların aparılmasının milli üslubundan fərqli olaraq, şəxsi üslub danışıqların bu xarakteristikası ilə daha çox dərəcədə bağlıdır: danışıqların aparılma siyasəti nə qədər yüksəkdirsə qərarın qəbulunda iştirakçılar bir o qədər sərbəstdirlər, onların rolları az müəyyənləşib, bu səbəbdən şəxsiyyət faktoru daha çox əhəmiyyət qazanır. Buna görə də şəxsi xüsusiyyətlərlə bağlı olan danışıq aparma məsələləri danışıqların yuxarı və ən aşağı səviyyədə aparılmasını vacib edir.

D.Drakmanın ikinci fikrindən başqa nəticə çıxır və həmin nəticə ondan ibarətdir ki, danışıq iştirakçılarının şəxsi xüsusiyyətləri konflikt münasibətləri şəraitində, vəziyyətin tam məlum olmadığı halda daha əhəmiyyətlidir, nəinki, əməkdaşlıq şəraitində.

Konflikt şəraitində sual hər şeydən əvvəl ondan ibarətdir ki, liderlər nəyə orentirlənə bilər, danışıqlar həllinəmi, yoxsa birtərəfli hərəkətlərəmi. Bu planda amerikalı müəlliflər Ç.Germann və M.Germannın aldığı nəticələr maraqlıdır. Onlar I Dünya müharibəsinə cəlb olunmuş dövlətlərin başçılarının şəxsi xüsusiyyətlərini analiz etmişlər və sonra aşağıdakı eksperimenti aparmışlar. Eksperimentin aparılması üçün iki tələbə qrupu yaradılmışdı. Birinci qrup təsadüfi formalaşmışdı. İkinci

qrupa isə şəxsi testlərlə seçilmiş tələbələr daxil olunmuşdu. Testlərlə seçilən həmin tələbələr şəxsi keyfiyyətlərinə görə I Dünya müharibəsində iştirak edən dövlətlərin liderlərinin şəxsi xüsusiyyətlərinə uyğun gəlirdilər. Sonra seçilən hər iki qrupa bir-birindən asılı olmadan ssenari təklif olunmuşdu. Ssenaridə müharibənin başlanğıcına olan vəziyyət təsvir olunurdu və hadisələrin sonrakı gedişatı oynanılırdı. Bununla belə ssenaridə həqiqi ölkələr və hadisələr elə şifrələnmişdilər ki, tələbələr onları tarixi hadisələrlə əlaqələndirə bilməsinlər.

Məlum oldu ki, oyunçuların şəxsi xüsusiyyətlərinə görə keçmiş siyasi liderlərə yaxın olduqları qrupda vəziyyətin inkişafı əhəmiyyətli dərəcədə hadisələrin tarixi gedişatını xatırlatdı.

Həmin metodoloji vasitə ilə yerinə yetirilən digər işdə "tanınmamış hücum" halında qərar qəbul olunarkən şəxsi xarakteristikanın əhəmiyyəti tədqiq olunur. Oyunlarda 5 nəfərdən ibarət qruplar iştirak edirdilər (bu cür cəmi 65 qrup var idi), həmin qruplar "əks atom zərbəsinin" baş verdiyi və ya danışıqların aparıldığı hərbi hərəkətlərin başlanğıcını imitasiya edən hərəkətlər edirdilər. Nəticədə yaranmış vəziyyətlərdə 26% halda danışıqların aparılması qərarı qəbul olundu, 33% halda əks hücum, qalanlarında isə heç bir qərar qəbul olunmadı. Şəxsiyyət faktorunun danışıqların aparılması və ya cavab zərbəsi qərarının qəbul edilməsinə təsirinin analizi üçün müəlliflər A.Koenanın özünü qiymətləndirmə metodikası ilə oyunçuların testlənməsini aparmışlar. Nəticədə tədqiqat müəllifləri qərara gəlmişlər ki, özünü yüksək qiymətləndirən şəxslər danışıqların aparılması qərarının qəbul olunmasına daha çox meyillidirlər.

Danışıqlar prosesinin gedişində şəxsi keyfiyyətlər nə qədər büruzə verər, burada hansı göstəricilər var sualına gəldikdə qeyd etmək lazımdır ki, birincisi, "sırf" şəxsiyyət komponentini ayırmaq kifayət qədər mürəkkəbdir. Bir qayda olaraq, o, konkret danışıqların çoxlu digər xüsusiyyətlərinə qoyulur. İkincisi, şəxsiyyətin təzahürü cürbəcürdür və məsələn, alver və ya tərəfdaşla birlikdə problemin analizinə yönəlir.

C.Rubin və B.Braunun qiymət verməsinə görə şəxsiyyətin əhəmiyyətli təzahürlərindən biri danışıq iştirakçılarının məqsədidir. Vəziyyətə və yaxud şəxslərarası qarşılıqlı münasibətə görə oriyentasiyadan asılı olaraq onlar iki cür ola bilərlər. Əsasən vəziyyətə oriyentasiyalanmış danışıq iştirakçıları, onların partnyorlarının hansı şəxsi keyfiyyətlərə malik olduğuna az əhəmiyyət verərək hərəkət edirlər. Onlar ümumiyyətlə danışıqlar prosesində qüvvələr nisbətinin, vəziyyətin parametrlərinin və s. daha çox obyektiv tərəfini göstərməyə meyillidirlər. Digər adamlar, əksinə tərəfdaşlarla şəxslərarası münasibətə böyük əhəmiyyət verirlər. Burada, öz növbəsində, əməkdaşlığa meyl edənlər seçilirlər və tərəfdaşdan analoji davranış gözləyirlər və əks tərəflə konkurent münasibətlərinə üstünlük verənlər, yəni daha çox alverə istiqamətlənənlər seçilirlər. C.Rubin və B.Braunun fikrinə görə şəxslərarası oriyentasiya əsasən insanın xarakteristikasıdır və daha az səviyyədə konkret danışıqlardan asılıdır. Digər sözlə, bu, danışıqdan danışığa dəyişən göstərici deyil.

Eyni zamanda nəzərə almaq lazımdır ki, vəziyyətin obyektiv parametrinə və ya şəxslərarası münasibətə oriyentasiya sırf şəxsi xarakteristika deyil və milli üslubdan çox asılıdır. Məsələn, L.Pay qeyd edir ki, çinlilər həm rəsmi, həm də qeyri-rəsmi danışıqlarda əhəmiyyətli dərəcədə daha yüksək statuslu adamlara oriyentasiyalanırlar. Ondan başqa tərəfdaşın nümayəndə heyyətində Çin tərəfə simpatiya ifadə edən adamlara hörmətlə yanaşılır. Məhz bu insanlar vasitəsilə çinlilər əks tərəfə öz təsirlərini göstərməyə çalışırlar. Bu halda onlar üçün ümumiyyətlə "dostluq ruhu" danışıqlarda çox böyük əhəmiyyət kəsb edir.

Digər şəxsi göstərici emosional və gizli sahələrin münasibəti əvvəlkinə o mənada yaxındır ki, təkcə şəxsi yox, həm də milli xüsusiyyətlərini də əks etdirir. Yuxarıda qeyd olunduğu kimi əsaslandırma qiymətləndirmə və yaxud istintaq səbəbiyyət xarakteri daşıya bilər. Uyğun olaraq, birinci halda emosional sfera, ikinci halda isə gizli sfera böyük rol oynayır. Bu sferaların danışıqlardakı münasibətini təsvir etmək üçün amerikalı müəllif U. Kitçinin ayırdığı parametrlər istifadə oluna bilər:

- emosionallığın ümumi dərəcəsi;
- müsbət və mənfi emosiyaların sayının nisbəti;
- əyani müqayisənin istifadə faizi;
- keçmişə, indiyə, yaxud gələcəyə əsas(başlıca üstün) oriyentasiya.

U.Kitçin ondan çıxış etmişdir ki, zəif emosionallıq, həmçinin yaxşı işlənmiş çıxış strukturu ilə

yanaşı əyani müqayisənin istifadəsinin aşağı faizi rasional qiymətin emosional qiymət üzərində üstünlük təşkil etməsinin göstəricisidir. Amerika prezidentlərinin çıxışlarını öyrənərkən o, göstərmişdir ki, R.Reyqan üçün, həmçinin R.Nikson üçün də emosional qiymət çox böyük dərəcədə xas olandır, eyni zamanda C.Kennedi üçün rasional qiymət xasdır. U.Kitçinin metodikasına əsaslanan danışıq stenoqramlarının kontent analizi beynəlxalq danışıqların bu və ya digər iştirakçısı üçün arqumentlərin tiplərinin şəxsi üstün tutmalarını təyin etməyə imkan verir.

Ümumiyyətlə kontent-analiz və digər kəmiyyət metodlarının danışıqların aparılmasında şəxsi xüsusiyyətlərin tədqiqində imkanları kifayət qədər genişdir.

Kontent-analiz xüsusi halda mövqe irəli sürməyin müxtəlif üsullarının nisbətini aydınlaşdırmaq üçün də istifadə oluna bilər. Məsələn, fransız nümayəndə heyyətinin üzvü M.Joberin 1973-cü ildə ATƏT-in 1-ci mərhələsində və V.Jiskar d'Estenin 1975-ci ildə ATƏT-in 3-cü mərhələsində çıxışlarının analizində müəyyən olunmuşdur ki, M.Jober üçün mövqe bildirməyin ən xarakterik üsulu ümumiliyin qeyd olunmasıdırsa, eyni zamanda V.Jiskar d'Esten üçün mövqenin açıqlanmasıdır. Bu göstərilənlərin nəticələrinin şəxsi xüsusiyyətlərin təzahürü kimi birqiymətli interpretasiya edilə bilməməsi özü özlüyündə digər faktların çıxarılmasında danışıqların aparılması prosesi üçün məna ifadə edən şəxsi xüsusiyyətləri üzə çıxarmağa imkan verir.

Bəzi hallarda mövqe göndərmənin aparıcı üsulu kifayət qədər aydın görünür və kəmiyyət qiymətləndirməsi tələb etmir. Misal olaraq, A.Y.Vişinskinin BMT-nin Baş Assambleyasının 6-cı və 7-ci sessiyalarındakı çıxışlarını göstərmək olar, hansı ki, ritorik suallarda qışqırmalarla, öz opponentlərinin ünvanına "ağıllı olardı", "gobud səhv", "yaxşı olardı ki, nəzərdə tutasınız", "ABŞ siyasətinin aqressiv xarakterini bütün dünya görür", "əlbəttə aqressorların marağında... bu məsələdə su bulandırmaqdan güclüdür" və s.

Danışıqların aparılması prosesinin şəxsi aspektlərinə baxmanın sonunda qeyd etmək lazımdır ki, adları çəkilən göstəricilər ehtimal xarakteri daşıyırlar və bir-birindən asılılıq xaricində birqiymətli interpretasiya oluna bilməzlər. Praktiki planda konkret iştirakçıların danışıq aparmanın xüsusiyyətlərini bilmək onların qarşılıqlı ünsiyyətinin ən ehtimal olunan xarakterini proqnozlaşdırmağa imkan verir.

Danışıqlar prosesinin təşkilati, elmi və kadr təminatı. II Dünya müharibəsindən sonra beynəlxalq danışıqların rolunun kəskin artması, intensivliyi, mürəkkəbliyi, forma və metodlarının çoxluğu danışıqların yeni təşkilat formaları almasına səbəb oldu. Bu cür yeni addımlardan biri BMT-nin və onun xüsusi orqanlarının yaradılması oldu. Bunun üçün əsas diqqət bütün münasibətlər dairəsində dövlətlərin daimi qarşılıqlı ünsiyyətinin institutlaşdırılmasına yönəldi. Yeni sistemin ideyası ondan ibarət idi ki, beynəlxalq həyatın daha müvəffəqiyyətli və effektiv idarəsi üçün müvafiq beynəlxalq təşkilat zəruri idi. Bunun çərçivəsində dövlətlərin daimi ünsiyyət prosesini təmin etmək mümkün olsun (o cümlədən ən mühüm problemlər üzrə danışıqlar rolu ilə) və bununla beynəlxalq sistemə krizislərin qarşısını almağa daha stabil və idarə olunan xarakter vermək, qarşılıqlı anlaşmanı gücləndirmək, ümumi qəbul olunmuş demokratik prosedur yolu ilə ikitərəfli və çoxtərəfli problemlərin həllinə nail olmaq mümkün olsun.

Lakin 80-ci illərin əvvəlinə beynəlxalq danışıqların daha effektiv təşkilat tələb etdiyi aydın oldu: "beynəlxalq danışıqların aparılmasına və onların tədqiqatına əlaqəsi olan şəxslərin əksəriyyəti tam əsasla qeyd edirlər ki, birincisi, beynəlxalq danışıqlar prosesi çox böyük və çətindir; ikincisi, bir qayda olaraq həmin problemlərin inkişaf dinamikasından zamana görə geri qalır; üçüncüsü, əldə edilmiş razılaşmalara tez-tez balanslaşdırılmamış və ya dayanıqsız kimi baxılır. Bəzi hallarda müəyyən vaxtdan sonra bu razılaşmalar onları imzalayan bir və ya bir neçə tərəfin tənqidinə və şübhələrinə məruz qalır. Olur ki, müqavilə ratifikasiya olunmur və ya birtərəfli qaydada dayandırılır." Bu danışıqlar prosesinin təkmilləşdirmə mexanizminin realizasiyası sualının tədqiqatçılar və iştirakçılar tərəfindən qoyulmasına gətirdi [7].

Beynəlxalq danışıqlar mexanizminin effektivliyini qaldırmaq üçün müxtəlif tədbirlər təklif olunur. Onların ümumiləşməsi aşağıdakı əsas sahələri ayırmağa imkan verir:

1. Danışıqların aparılmasının bürokratik mexanizmlərini sadələşdirməkdən, çevik prosedurların formalaşdırılmasından, beynəlxalq danışıqların aparılmasında dövlət və qeyri-dövlət strukturları-

nın ahəngini nəzərdə tutan danışıqlar prosesinin təşkilinin təkmilləşdirilməsi.

2. Milli və beynəlxalq səviyyədə(kadrların hazırlanması) beynəlxalq danışıqlar sahəsində mütəxəssislərin hazırlanmasına istiqamətlənmiş formaların və metodların inkişafı.

3. Tətbiq istiqamətli (danışıqların elmi təminatı) tədqiqatlar daxil olmaqla danışıq problematikasının elmi tədqiqatının aparılması və təşkili.

Danışıqların təşkilati təminatı. Bu vaxta qədər olan beynəlxalq danışıqların aparılma prosedurlarının və mexanizmlərinin qeyri-mükəmməlliyi bir çox müəlliflər tərəfindən qeyd olunur. Danışıqlar prosesinin effektivliyinin yüksəldilməsinin axtarılması yollarının öyrənildiyi iki istiqamət fərqlənir. Birinci istiqamət şərti "unifikasiyalanmış" danışıqlar prosesinin optimallaşdırılmasını təmin edən, həmçinin beynəlxalq danışıqların aparılmasını təmin edən infrastrukturun yaradılmasını, vahid institutun, qaydaların, prosedurların işlənməsini nəzərdə tutur. Məsələn, Robert Fişer:

- vacibliyi dərəcəsindən asılı olaraq danışıqların və məsləhətləşmələrin iyerarxiyasının yaradılmasının;
- müxtəlif ölkələrin ekspertlərinin qərar qəbul etmə modelinin birlikdə işlənməsinin;
- danışıqlarda konfrantasiyadan problemin birgə analizinə keçilməsinin təmin edilməsinin zəruriliyini göstərir.

V.A.Kremenyuk beynəlxalq danışıqlar sistemi haqda danışarkən təkrarlamadan qərarların qəbulunda paralellikdən qaçmaq üçün konkret beynəlxalq danışıqların yaxın problematika üzrə aparılan digər danışıqlarla qarşılıqlı əlaqədə aparılmasını və bununla bütövlükdə beynəlxalq danışıqların effektivliyinin yüksəldilməsini təklif edir.

Vasitəçidən tələb olunan (neytrallıq, kompetentlik) vasitəçilik funksiyasının və tələblərin artması ilə əlaqədar beynəlxalq vasitəçi xidmətinin yaradılması məsələsi ayrıca qoyulur. Bu fikir dəfələrlə bir çox müəlliflər tərəfindən konfliktlər və danışıqlar üzrə işlərdə səsləndirilmişdir.

İştirakçıların birgə fəaliyyətini və onların gələcəyi planlaşdırmasını nəzərdə tutan, konfliktlərin və krizislərin ümumi struktur və mexanizmlər yaratmaqla qarşısının alınmasına yönəlmiş təklifləri xüsusi olaraq qeyd etmək lazımdır. Bütövlükdə gələcəyə diqqət yetirmək danışıqlar prosesində çox vacib momentdir. Məsələn, Q.Nikolson yazırdı ki, danışıqların iştirakçıları özlərinin gələcək münasibətlərini diqqətlə analiz etməlidirlər, nə qədər ki, tərəflər razılaşmalar nəticəsində "gələcək inkişaf ssenarisin müəyyənləşdirilməsi prosesini planlaşdırırlar" və onunla öz əlaqələrini gücləndirirlər. Qarşılqılı əlaqənin ən yüksək səviyyəsi tərəflərin birgə struktur və təşkilat yaratdıqları halda yaranır. Bü halda həmin strukturlar və mexanizmlər tərəflərin qarşılıqlı münasibətlərinin nizamlayıcısı kimi iştirak edirlər və bununla strateji əməkdaşlığın istifadəsi və problemin birlikdə analizinin realizasiyası üçün geniş imkanlar yaradırlar.

Son illərdə lokal və regional konfliktlərin artması konflikt potensialının azalmasına kömək edən regional strukturların xarakteri məsələsini gündəmə gətirdi. Burada başlıca şərtlərdən biri onların qütbləşməsinə imkan verməməkdir, çünki bu halda konfliktlərin ehtimalı güclənir. Digər sözlə desək, çoxlu müxtəlif amma polyarlaşmamış sistem ən dayanıqlı sabitliyi təmin etməyə və konfliktləri danışıqlar yolu ilə həll etməyə imkan verir.

Ümumilikdə danışıqlar prosesinin təşkilində "unifikasiya" istiqaməti danışıq dairəsinin genişlənməsi və intensivləşdirilməsi ilə, həmçinin dünyada baş verən inteqrasiya prosesləri ilə təyin olunur. Kompüter texnikasının və müasir rabitə vasitələrinin inkişafı və tətbiqi son illərdə "unifikasiya istiqaməti" çərçivəsində irəli sürülən bir çox ideyaları texniki olaraq reallaşa bilən edirlər.

İkinci istiqamət olan "diversifikasiya" daha az ifadə olunmuş təsəvvür yaradır, nəin ki birinci. Onun nümayəndələrini isə daha çox şərtiliklə birləşdirmək olar. "diversifikasiya" istiqamətinə misal olaraq konflikt vəziyyətlərinin nizamlanmasında qeyri-rəsmi və rəsmi vasitəçiliyin birləşməsinin verdiyi imkanı göstərmək olar. "diversiya" istiqamətinin nümayəndələri öz tədqiqatlarını mümkün qədər daha çox konkret texniki üsul və metodların işlənməsinə, konkret vəziyyətdən asılı olaraq onların müxtəlif ahənginə isitiqamətləndirirlər. Məsələn, qeyri-rəsmi diplomatiyanın forma və metodları küllisinin inkişafı vəziyyətə daha dəqiq və daha effektiv təsir etməyə imkan verir.

Hər iki istiqamət - "unifikasiya" və "diversiya" bir-birini təkzib edən deyil, əksinə beynəlxalq danışqılar praktikasında baş verən inteqrasiya proseslərini əks etdirərək bir-birini tamamlayırlar.

Beynəlxalq danışıqlarda iştirak üçün kadrların hazırlanması. Danışıqlar fəaliyyətinin digər optimallaşdırma dairəsi beynəlxalq danışıqlarda iştirak edən və ya danışıqlarda ekspert kimi çıxış edən professional kadrların hazırlanmasıdır. Bir sıra ölkələrdə ali təhsil müəssisələrində, hansılar ki, xarici siyasət təşkilatları üçün kadr hazırlığı üçün məşğuldurlar, müvafiq kurslar var. Bu cür kurslar, məsələn ABŞ-ın dövlət departamentinin xarici xidmət institutunda vardır. Həm də bu kurslarda aktiv təhsil metodlarına xüsusi diqqət yetirilir: konkret vəziyyətlərin analizinə, danışıqlar prosesini əks etdirən imitasiya və danışıq oyunlarına, hansılar ki, eyni zamanda həm öyrənmə metodu, həm də analiz və proqnozlaşdırma metodu kimi iştirak edirlər [14].

Diplomatik kadrların hazırlanması üçün bu sahədə ilk sınaqlardan biri 1972-ci ildən başlayaraq bir-neçə il ərzində aparılan Xarici xidmət institutunun bazasında ABŞ dövlət deportamentinin apardığı imitasiya oyundur. C.Uinhem və Y.Bovis başlıca olaraq təhsil məqsədi daşıyan bu oyunun əhatəli təsvirini və analizini vermişlər. Lakin bir neçə il ərzində onun dəfələrlə təkrarlanması müəlliflərə danışıqların aparılması prosesinə görə bir sıra elmi ümumiləşdirmələr etməyə, o cümlədən razılaşmaların hazırlanmasında müxtəlif suallarda uyğunluğun rolunu göstərməyə imkan vermişdir.

1977-ci ilin aprelində Xarici xidmət institutu rəhbər işçilər üçün seminar çərçivəsində oyun keçirdi, hansının ki məqsədi danışıqların aparılması sxeminin hazırlanması və danışıqlar mərhələlərinin hər birində iştirakçıların hərəkətlərinin sxeminin işlənməsidir. Oyunun gedişində "Danışıqlar iştirakçıları üçün yaddaş" işlənib hazırlandı və sınaqdan çıxarıldı. Sonra onu daha aşağı səviyyəli danışıq iştirakçılarının hazırlanması üçün istifadə etmək fərz edilir.

Beynəlxalq danışıqlarda iştirak etmək üçün diplomat kadr hazırlığı probleminə Xarici xidmət institutunun daim diqqəti haqda 1980-ci ildə təşkil olunmuş beynəlxalq danışıqlar prosesinə həsr olunmuş, bu sahədə aparıcı amerikalı mütəxəssislərin dəvət olunduğu konfransda danışıqlar prosesinin öyrənilməsinin əsasını qoyanlardan birinin X.Raffin məruzəsi təlim alma məsələlərinə həsr olunmuşdur.

Bir sıra Avropa ölkələrində də beynəlxalq danışıqlar iştirakçılarının hazırlanması üçün kurslar var. Məsələn, danışıqların aparılmasının nəzəri suallarının öyrənilməsinə böyük diqqət, həm də uyğun vərdişlərin öyrənilməsinə diqqət Hollandiya xarici siyasət təşkilatları üçün kadr hazırlığı ilə məşğul olan Niderlandın beynəlxalq münasibətlər institutu "Klinqeldayel"də yetirilir. Bu institutda nəzəri və praktiki dərslərin olduğu xüsusi proqramlar hazırlanmışdır. Analoji proqramlar Vyana diplomatik akademiyasında, həmçinin Fransanın, İsveçrənin və digər dövlətlərin təhsil müəssisələrində var.

Baxmayaraq ki, keçmiş SSRİ-də ABŞ və Qərbi avropa ölkələri ilə müqayisədə danışıqlara görə xüsusi kurslara daha az diqqət yetirilirdi. Keçmiş SSRİ ərazisində yaranmış ölkələr fonunda Rusiya və Azərbaycan danışıqlarda iştirak üçün mütəxəssislərin hazırlanması sahəsində nisbətən qabaqcıldırlar. Bu, iki səbəblə şərtlənir. Birincisi, Rusiya SSRİ-dən varis kimi keçmişdə beynəlxalq siyasi diplomatik və ticarət danışıqlarına cəlb olunmuş əsas peşəkar danışıq iştirakçılarını özündə saxlamışdır. Ikincisi, 80-ci illərin sonunda 90-cı illərin əvvəlində Moskvada (Moskva dövlət beynəlxalq münasibətlər institutunda, diplomatik akademiyada, Moskva dövlət universitetində) beynəlxalq danışıqlar prosesi kursları tədris olunurdu. Azərbaycan diplomatiya akademiyası yaradılmış və həmin akademiyada çox yüksək səviyyədə bir çox xarici inkişaf etmiş ölkələrin ən qabaqcıl mütəxəssis diplomatları kursları tədris edirlər. Lakin hal-hazırda danışıqlarda iştirak etmək üçün professional kadrlara tələbat kəskin artdığı zaman mövcud olan təhsil müəssisələri və proqramlar şübhəsiz kifayət deyil. Kadrların hazırlanması üçün iqtisadiyyat, hüquq, psixologiya fakültələrində, universitetlərin və institutların əksəriyyətində, digər ölkələrdə olduğu kimi danışıqlar və vasitəçilik üzrə kursların olması tələb olunur. Proqramlar dinləyicilərin danışıqlarda iştirak təcrübəsindən və ali təhsil müəssisəsinin profilindən asılı olaraq manevrlənməlidirlər.

Danışıqlar prosesinin elmi təminatı. Danışıqlar prosesinin optimallaşdırılması və danışıq iştirakçılarının hazırlanması danışıqlar nəzəriyyəsi sahəsində kompleks elmi tədqiqatlar aparmadan mümkün deyil. Bu vaxta qədər ən geniş elmi baza ABŞ-da var. Məsələn, təkcə Boston şəhərində və onun ətrafında 10-a qədər elmi tədqiqat mərkəzi var və həmin mərkəzlərdə 40-a qədər konfliktlərin öyrənilməsi və danışıqların konfliktləri nizamlaması vasitəsi kimi müxtəlif proqramlar həyata keçirilir, həmçinin onların əsasında müvafiq kurslarda tədris aparılır. Bu işlərin nəticələri praktikada aktiv

istifadə olunurlar. Tez-tez universitetlərin tədqiqatlarında və yaxud onlardan asılı olmadan, lakin onların aldıqları nəticələrə oriyentasiyalanan, məqsədi konflikt tərəflərinə qarşılıqlı uyğun həllin tapılmasına kömək etmək olan konsultativ mərkəzlər yaradılır. Bu bir tərəfdən praktiki məsələləri həll etməyə, digər tərəfdən nəzəri vəziyyətin aprobasiyasını aparmağa imkan verir. Məsələn, belə konsultativ mərkəz ABŞ-ın Virciniya ştatındakı Corc Meyson universitetindədir. Mövcud olan praktika indiki vaxtda amerikalı tədqiqatçılara dünyanın müxtəlif yerlərində konflikt və krizis vəziyyətinin nizamlanmasının praktiki tədbirlərində daha aktiv iştirak etməyə imkan verir. Öz növbəsində bu təcrübə nəzəri analiz edilir və elmi nəşrlərdə öz əksini tapır.

Lakin V.A.Kremenyuk qeyd etdiyi kimi elmi tədqiqatların effektivliyini və onların praktiki səmərəsini yüksəltmək üçün "alimlərin beynəlmiləl kollektivi"nin birgə işi zəruridir. Ayrı bir ölkədə işlənmiş yanaşma, hətta onun bütün effektivliyində və məntiqliyində ayrıca bir ölkənin alimlərinin beyinlərinin məhsulu olaraq qalırdı. Digər ölkələrin alimləri və praktikləri tərəfindən nəsə yad olan bir şey kimi kənardan opponentin marağında olan yanaşma kimi qalardı [15].

Nəticə. Danışıqlar prosesində şəxsiyyət sadəcə bir atribut deyil, həm də strateji vasitədir. Hər bir şəxs öz güclü və zəif tərəflərini anlayaraq, bu prosesə daha yaxşı hazırlaşa və qarşı tərəflə effektiv əməkdaşlıq edə bilər. Şəxsiyyət xüsusiyyətlərinin nəzərə alınması həm də uzunmüddətli münasibətlərə və qarşılıqlı anlaşmaya şərait yaradır. Nəticədə, ünsiyyət problem üzərində tərəflərin birgə işi təkcə həmin problemin həllinə aparmır, həm də tərəflərin bir-birini daha dərindən anlamasına, problemə yanaşmalara, həm də bütövlükdə beynəlxalq problemlərin anlanmasına aparır. Bu mənada danışıqlar prosesi əhəmiyyətli dərəcədə iştirakçıları, onların danışıqlar predmeti və bir-biriləri haqda təsəvvürlərini dəyişərək, onları formalaşdırır. Bununla belə söhbət təkcə və hətta o qədər də beynəlxalq danışıqlar iştirakçılarının hər hansı vahid "mədəniyyət" yaratmalarından deyil, həm də nəticədə bir-birini öz dövlətlərindən daha yaxşı başa düşmələrindən gedir. Bu fenomenə R.Fişer də diqqət yetirmişdir. R.Fişer danışıq iştirakçılarının ikili rol oynamalı olduqlarını, bir tərəfdən təmsil etdikləri dövlətin maraqlarını qorumağı, digər tərəfdən isə öz ölkələri ilə digər tərəfin ölkəsi arasında vasitəçi rolunu yerinə yetirməli olduqlarını göstərməlidir [3]. Bu fenomen həqiqətən bir çox danışıq forumlarında mövcuddur, xüsusən illərlə uzanan danışıqlarda, həm danışıq prosesinin özünə, həm də onun son nəticəsinə çox güclü təsir göstərir. Lakin burada M.M.Baxtinin işlərində ən çox inkişaf etdirilmiş başqa bir hadisəyə diqqət yetirmək lazımdır. O, göstərmişdir ki, dialoq prinsipi ilə qurulan ünsiyyət prinsipində subyektlərin əsl inkişafı baş verir [9]. Görünür ki, heç də həmişə danışıq prosesini dialoq prinsipinə görə qurmaq olmur. Buna görə də tərəflərin qarşılıqlı inkişafı heç də danışıqların mütləq xarakteristikası deyil, təkcə belə imkanı təmsil etməkdir.

Şəxsiyyətin danışıqlara təsiri: Şəxsiyyətin tipi (məsələn, ekstravert və ya introvert) insanların danışıqlar prosesində davranış tərzini müəyyənləşdirir.

Açıq, ünsiyyətcil və empatik şəxslər danışıqlarda qarşı tərəflə daha yaxşı əlaqə qurur və razılıq əldə etməyə meyillidir.

Qətiyyətli və özünə inamlı şəxslər çətin qərarları daha asan qəbul edə bilirlər.

1. Emosional zəka və empatiyanın rolu:

a.Yüksək emosional zəka və empatiya qabiliyyəti şəxsin qarşı tərəfin ehtiyaclarını və mövqelərini daha yaxşı anlamasına kömək edir.

b. Empatiya qarşı tərəfin etimadını qazanmağa və gərgin situasiyaların idarə olunmasına şərait yaradır.

2. Şəxsiyyət xüsusiyyətlərinin konflikti idarə etməkdə rolu:

a. Məsuliyyətli və sakit şəxsiyyətlər konfliktləri idarə etməkdə daha bacarıqlı ola bilər.

b. Agressiv və ya qapalı şəxslər isə konflikti daha da kəskinləşdirə bilər.

3. İnandırma bacarığı və şəxsiyyət:

a. İnandırıcı şəxsiyyətlər, güclü arqumentasiya qabiliyyəti və müsbət ünsiyyət tərzi ilə danışıqları öz xeyirlərinə yönləndirmə potensialına malikdir.

b. Şəxsiyyətin dürüstlük və etibarlılıq kimi xüsusiyyətləri qarşı tərəfin qərarlarına təsir edə bilər.

4. Rol bölüşdürülməsi:

a. Danışıqlarda hər bir tərəfin rolu şəxsiyyətlərinə əsaslanaraq formalaşa bilər. Məsələn, lider-

lik qabiliyyəti olan şəxs koordinator və ya danışıqların başçısı rolunda çıxış edə bilər.

5. Mədəniyyətlərarası fərqlər:

a. Şəxsiyyətin mədəniyyətlərarası kontekstdəki təsiri də danışıqlarda önəmli rol oynayır. Məsələn, kollektivist mədəniyyətlərdə empatiya və harmoniya, fərdiyyətçi mədəniyyətlərdə isə şəxsi maraq və təşəbbüs ön plandadır.

Son olaraq, şəxsiyyət danışıqlar prosesinin uğurlu gedişatını müəyyən edən əsas faktorlardan biridir. Şəxsi xüsusiyyətlərin, emosional zəkanın və ünsiyyət qabiliyyətinin düzgün idarə olunması, danışıqların məqsədlərinə çatmaq üçün vacibdir.

Danışıqlar prosesində şəxsiyyətin yeri və rolu danışıqların uğurlu nəticəsi üçün mühüm əhəmiyyət kəsb edir. Danışıqlar zamanı iştirakçıların fərdi xüsusiyyətləri, ünsiyyət tərzləri və emosional zəka səviyyəsi prosesin gedişatını və nəticəsini birbaşa təsirləndirir. Bu, müxtəlif sahələrdə, o cümlədən biznes, siyasət, diplomatiya və gündəlik həyat situasiyalarında özünü göstərir

ƏDƏBİYYAT

1. A.Abbasbəyli, V.Cəfərov. Diplomatik protokol. B., 2002, 165 s.
2. V.Cəfərov. Danışıqların aparılması texnologiyası. B., 2018, 184 s.
3. Фишер Р., Юри У. Путь к согласию, или переговоры без поражения: Пер. с анг. М.: Наука, 1990, 340 s.
4. Нергеш Я. Поле битвы - стол переговоров. М.: Международные отношения, 1989, 256 s.
5. Г.Никольсон. Дипломатия. - М.: ОГИЗ, 1941.438 s
6. Кашкин В.Б. Введение в теорию коммуникации. Учебное пособие. Воронеж: Изд-во ВГТУ, 2000, 175 с.
7. Клюев Е. В. Речевая коммуникация. М.: Рипол Классик, 2002, 320 с.
8. Druckman D., Hopmann T. Behavior Aspects of Negotiations on Mutual Security // Behavior Society and Nuclear War / Ed. by Ph.Tetlock, J.Husbands a.o. - N.Y.: Oxford University Press, 1989, P.85-173.
9. Ikle' F. Ch. How Nations Negotiate. N.Y. a.o.: Harper & Row, 1976, P347.
10. Druckman D., Lebedeva M. The Comparative Analysis of BPA and TMR. Paper prepared for Vancouver ISA Meeting, March, 19-23, 1991.
11. Kremenyuk V.A. The Emerging System of International Negotiations // Negotiation Journal. – 1988, V.4, N3, P.211-220.
12. Mastenbroek W. Negotiate. N.Y., Oxford: Basil Blackwell, 1989.
13. Winham G. Negotiation as a Management Process // World Politics, 1977, N 1, P. 87-114.
14. Winham G. Practitioners' Views of International Negotiations // World Politics, 1979, V.32, N 1, P.135.
15. Blaker M. Japanese International Negotiation Style. N.Y.: Columbia University Press, 1977, 230 s.
16. Rubin J, Brown B. The Social Psychology of Bargaining and Negotiation. N.Y.: Academic Press, 1975, 360 s.

АЙСЕЛЬ КАРИМОВА
Магистрант Бакинского государственного университета

МЕСТО И РОЛЬ ЛИЧНОСТИ В ПЕРЕГОВОРНОМ ПРОЦЕССЕ

В статье рассматривается влияние индивидуальных особенностей и черт личности человека на успешность ведения переговоров. Эта тема широко изучается в области психологии, коммуникации и лидерства. Личность является одним из ключевых факторов, определяющих успешность хода переговорного процесса. Правильное управление личностными характеристиками, эмоциональным интеллектом и навыками общения имеет решающее значение для достижения целей переговоров. Место и роль личности в переговорном процессе имеют большое значение для успешного исхода переговоров. В ходе переговоров индивидуальные осо-

бенности, стили общения и уровень эмоционального интеллекта участников напрямую влияют на ход и результат процесса. Это проявляется в различных областях. В статье рассматриваются место и роль наших дипломатов, работающих в сфере дипломатии, в переговорном процессе.

Ключевые слова: Переговоры, личность, дипломатия, статус, коммуникация, характер, способности, процесс, психология, общение, эмоции, лидерство.

AYSEL KARIMOVA
Master student of Baku State University

THE PLACE AND ROLE OF PERSONALITY IN THE NEGOTIATION PROCESS

The article examines the impact of a person's individual characteristics and personality traits on the successful course of negotiations. This topic is widely studied in the fields of psychology, communication and leadership. Personality is one of the main factors determining the successful course of the negotiation process. Proper management of personal characteristics, emotional intelligence and communication skills is important for achieving the goals of negotiations. The place and role of personality in the negotiation process is of great importance for the successful outcome of negotiations. During negotiations, the individual characteristics, communication styles and level of emotional intelligence of the participants directly affect the course and outcome of the process. This is manifested in various fields. The article discusses the place and role of our diplomats working in the field of diplomacy in the negotiation process.

Keywords: Negotiations, personality, diplomacy, position, communication, character, ability, process, psychology, communication, emotional, leadership.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 dekabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: s.e.f.d. Gülgün Quliyeva, s.e.d. Adil Mirabdullayev.

UOT 902

İRADƏ AVŞAROVA
tarix üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin dosenti
iradaavshar@icloud.com

AZƏRBAYCANIN QƏRB BÖLGƏLƏRİNDƏKİ BƏZİ MƏİŞƏT-TƏSƏRRÜFAT ABİDƏLƏRİNDƏ ƏKS OLUNAN DİNİ-İDEOLOJİ GÖRÜŞLƏRİN TƏZAHÜRÜ HAQQINDA (TUNC DÖVRÜ ARXEOLOJİ ABİDƏLƏRİ ƏSASINDA)

DOI: https://doi.org/10.36719/2708-065X/108/245-248

Məlumdur ki, dünyanın qədim sivilizasiya məskənlərindən biri olan Azərbaycanın tarixi-coğrafi əraziləri, o cümlədən qərb bölgələri zəngin arxeoloji irsə malikdir. Tədqiqatlar nəticəsində ərazisində dövrün insanlarının həyat tərzi və dini dünyagörüşlərini özündə yaşadan çox sayda yaşayış yerlərinin qalıqları ilə yanaşı, ibadətgahlar, qəbir abidələri və kult təyinatlı artefaktlar aşkar olunmuşdur. Bu baxımdan, tunc dövrü tayfalarının maddi və mənəvi mədəniyyətlərinin elmi araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: tunc dövrü, ideologiya, heykəlcik, ayin, mənəvi-mədəniyyət.

Giriş. Məlum olduğu kimi qədim mədəniyyət ocaqlarından biri olan Azərbaycan ərazisində çox sayda erkən əkinçilik kompleksləri mövcuddur ki, həmin abidələrin qalıqları müxtəlif dövrlərə aid mədəni layları olan təbii və süni təpəliklərdən ibarətdir. Onların bəziləri daha erkən oturaq həyatın inkişaf mərhələlərini özündə yaşadır. Ərazidə davamlı olaraq aparılan arxeoloji tədqiqatlar neolit, eneolit və tunc dövrü insanlarının tikinti sahəsində əldə etdiyi nailiyyətləri ardıcıllıqla, mərhələli şəkildə izləməyə imkan verir.

Belə ki, neolit dövrü insanının ən qədim yaradıcılıq nümunələrindən biri də tikinti sahəsində əldə etdiyi nailiyyətlərdir. Həmin dövrlərdə əkinçik təsərrüfatının inkişafı ilə əlaqədar qədim Azərbaycan qəbilələri oturaq həyat tərzinə keçmiş və oturaq həyat tərzinə keçid onların həyat fəaliyyətlərini daha da genişlənmişdir. Elə bu səbəbdən də neolit dövründə yaşayış evlərinin tikilməsinə zərurət yaranmışdır. Həmin dövrün memarlığında yer üstü və yarımqazma formalı evlər geniş yayılmışdır. Evlər həm çiy kərpicdən, həm də möhrə üsulu (tökmə üsulu) ilə tikilmişdir.

Evlərin möhkəmliyini təmin etmək üçün arxeoloji qazıntılar zamanı neolit dövründən başlayaraq, sonrakı dövrlərə aid olunan yaşayış yerlərində də çiy kərpic və möhrə divarların altında dərin olmayan daş bünövrələr aşkarlamışdır. Evlərin interyerində əsasən palçıq suvaqdan istifadə olunmuşdur.

Arxeoloji qazıntılar zamanı bəzi evlərin interyerində ağ və qırmızı boyadan istifadə olunduğu da müəyyən olunmuşdur. Tədqiqatçılar evlərin qırmızı rəngə boyanmasını qədim insanın mənəvi və dini dünyagörüşləri, təbiət qüvvələri və axirət dünyası ilə bağlı olan inancları ilə bağlayırlar.

Qarabağın Fizuli rayonu ərazisindəki İlanlıtəpə, Qaraköpəktəpə, Goranboy rayonu Tatarlı kəndində Göl yeri, Qərbi Azərbaycanın (indiki Ermənistan) Qudabertka, İrəvan şəhəri (indiki Yerevan) yaxınlığında Şenqavit və digər yaşayış yerlərində aparılan arxeoloji qazıntılar zamanı dövrün tayfalarının mənəvi mədəniyyətini özündə qoruyub-saxlayan "Od ayini" mərasimləri keçirilmiş qədim ibadətgahların qalıqları və ayin xarakterli müxtəlif maddi-mədəniyyət nümunələri üzə çıxarılmışdı.

Ağdam rayonunun Baş Qərvənd kəndində yerləşən İlanlıtəpə eneolit dövrü yaşayış yerindəki evlərin divar və döşəmələrdə qırmızı boya izlərinə təsadüf olunmuşdu. Bu da məskəndə ayinlərin yerinə yetirdiyi haqqında mülahizə yürütməyə əsas verir.

Fizuli rayonunun Qaraköpəktəpə abidəsinin eneolit dövrü mədəni təbəqəsində icmalara məxsus evlərə rast gəlinmişdi. Tədqiqatlardan məlumdur ki, Qaraköpəktəpə abidəsinin mədəni təbəqəsinin çox hissəsi tunc dövrünə aid olunur. Qalınlığı 7 metrə çatan həmin təbəqə daş, çiy kərpic və möhrədən tikilmişdi. Abidədə tədqiq olunmuş yaşayış evləri dairəvi və dördkünc formalıdırlar. Qaraköpəktəpənin tunc dövrü təbəqəsində məbəd yeri və təsərrüfat tikilləri üzə çıxarılmışdır. Abidənin tunc dövrü təbəqəsində olan məbədin yerinə eneolit dövrü ənənəsinin davamı olaraq qırmızı boya tədbiq olun-

muşdu [1, s.30-33]. Göründüyü kimi eneolit və tunc dövrü memarlığında dini mərasimlər keçirilən evlərin interyerinə qırmızı rəngin işlənməsi özündə "günəş" və "od" kultunun əlamətlərini qoruyub-saxlayır. Bu rəng mifologiyada ölüm və həyat rəmzi kimi də qəbul olunur.

Qaraköpəktəpədəki dairəvi planlı evlər çay daşı ilə hörülmüş, gil məhlulla suvanmışdı və mərkəzdə qoyulmuş ağac dirəyə söykənən damüstü örtükləri vardır. İkinci qrupa mütəşəkkil tikilişli məskənlər aiddir. Onlarda evlərin mərkəzi ola bilsin ki, ayinlərin və bayramların keçirildiyi, özünəməxsus kromlexlər rolunu oynayan ayin binasının və ya meydanın ətrafında yerləşir [1, s.22-35].

Q.S.Ismayılzadə apardığı tədqiqatlara əsaslanaraq qeyd edir ki, Azərbaycan və o cümlədən Cənubi Qafqazda ilk tunc dövründə öküz və inək müqəddəs sayılmışdır. Elə həmin səbəbdən də Qaraköpəktəpə abidəsindən öküz başı şəklində düzəldilmiş ocaq qurğusunun nəinki özü, hətta, müəyyən bir əhəmiyyət kəsb etməyən modeli də tapılmışdı [1, s.34].

Mücərrət şəkildə öküz başı formada hazırlanmış bu tip ocaq qurğularının üzərində çox da böyük olmayan çıxıntılı buynuzları, içərisində oyuqları olan yarımşar formalı burnu vardır. Bu tip-yarımşar formalı öküz burununu xatırladan qulplara Kür-Araz mədəniyyəti qabları üzərində də rast gəlinir. Ocaq və qablar üzərində öküz burnu kimi yer alan bu tip yarımşar formalar təbii ki, həmin dövürdə Kür-Araz mədəniyyəti tayfalarının öküzə inamının təzahürü kimi qəbul oluna bilər.

Bu tip qurğular Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisindəki Moxrablur, Şereşblur və s. yaşayış yerlərindən məlumdur. Od-ocaq qurğularının öküz başı formasında hazırlanması Orta Asiyanın ilk tunc dövrünə aid olunan yaşayış yerlərində də izlənilir [2, s.144].

Öküz inancı ilə bağlı olan anoloji xüsusiyyətləri Qərbi Azərbaycanın (indiki Ermənistan) e.ə. III minilliyə aid Qudabertka yaşayış yerində oval formalı ibadət evində izləyirik. Burada evinin interyeri müxtəlif təsvirlər və rənglərlə işlənmişdir. Mərkəz hissədə gil döşəmə üzərində ibadət xarakterli əşyalara, o cümlədən ocaq qurğusuna, sünbül, çovdar, 2 növ arpa və darı qalıqlarına, kişi, qoyun, it fiquruna, üzərində maral təsvirləri olan möhürlərə və buynuzları üzərində olan təbii öküz kəllələrinə rast gəlinmişdir. Həmin kəllələrin bir hissəsi kəsilərək, maska formasına salınmışdır [3, s.164-165]. Hesab edirik ki, həmin maskalar öküz inancı ilə bağlı olub "məhsuldarlıq" və "nəsil artımı" ilə bağlı ritualların yerinə yetirilməsi zamanı şamanlar tərəfindən istifadə edilmişdir. Abidədə aparılan tədqiqatlar əsas ayinlərin evin mərkəz hissəsində keçirildiyini göstərir.

Qərbi Azərbaycanın İrəvan şəhəri (indiki Yerevan) yaxınlığında Şenqavit kəndinin ərazisində Zəngi çayının sağ sahilində yerləşən Şenqavit yaşayış yerinin şərq hissəsində aparılan arxeoloji qazıntılar zamanı yonulmamış daşlardan dairəvi planda tikilmiş yaşayış yeri üzə çıxarılmışdır. Yaşayış yerinin mərkəzində bişmiş gildən 45 sm dərinlikdə, diametri 1 m olan dairəvi ocaq qeydə alınmışdır. Ocağın üzərində heroqlifi xatırladan işarələr yer almışdı. Ərazidə tədqiq olunan ikinci yaşayış yeri birinci yaşayış yerindən 100 m cənub-qərbdə yerləşir. Buradakı analoji evdə də eyni tipli ocağa rast gəlinmişdi. Ocağın diametri birincidən nisbətən kiçik olub, 82 sm idi. Yaşayış yerində kult əlaməti olan əşyalar içərisində daşdan yonulmuş iki heyvan fiquru əldə olunmuşdu. Abidələrin qurbangah olduğu düşünülür. Analoji qurbangahlar arxeoloji ədəbiyyatlardan məlumdur. Abidələrdə qara cilalı qablara, sürtcəklərə və başqa daş alətlərə rast gəlinmişdi [4, s.255-256]. Qurbangahların üzərindəki işarələr və onların böyük dairəvi otaqlarda yerləşdirilməsi abidənin kult yeri olduğundan və burada dini mərasimlər keçirildiyindən xəbər verir.

Y.İ.Hummel Gəncəçay rayonunun kurqan çölünün lap yaxınlığında iki qədim yaşayış məskəninin xərabələri üzə çıxarılmışdır. Yaşayış məntəqələrindən biri vaxtı ilə Gəncə çayı dərəsində, o birisi isə, qəbirlər olan çölün qərbində, Lüləli dərəsi yaxınlığında salınmışdır. Birinci yaşayış məntəqəsində bir neçə kiçik tiklilər tədqiq edilmişdi. Evlər yarım qazma tipli olub, çay daşından palçıqla səliqəli şəkildə tikilmişdi. Həmin tiklilər bir ailə üçün nəzərdə tutulmuşdu. Onların həyətyani sahələri olub, ətrafına daşdan hasar çəkilmişdi "uzun evlər" də daha iri tiklilərə rast gəlinir. Həmin tikintilər daş arakəsmələrlə ayrı-ayrı kiçik otaqlara bölünmüşdü. Otaqlarda aparılan qazıntı işləri, vaxtı ilə orada çox sayda insan yaşadığını göstərir. Həmin yerdən tapılan saxsı qablar, habelə tunc, sümük və daşdan hazırlanmış əşyalar, göstərir ki, qəbilə evlərində yaşayan adamlar qəbilə kurqanlarında, yəni qəbirlərin sayı birdən artıq olan şüa sistemli iri kurqanlarda basdırılmışlar. Bu cür tiklilər qəbilə quruluşu dövrünə aid edilir. Həmin yaşayış məntəqəsindən kurqanlardan tapılan əşyalarla, həmin yaşayış evlərindən tapılan əşyalar arasında müəyyən əlaqə olması isə, qəbilə quruluşunun pozulmasını, ondan ayrı-ayrı ailə-

lərin meydana çıxmasını, habelə xüsusi ailə mülkiyyətinin əmələ gəlməsini göstərir [5, s.162-163].

Təsvir etdiyimiz evin birinci otağında, kult əlamətlərdən başqa, bir ocaq yeri qeydə alınmışdır. Ocaqdan yandırılmış insan sümükləri tapılmışdı. Həmin otaq və ərazidə tədqiq olunan 36 saylı kurqan arasında əlaqənin olduğu şübhə doğurmur. O, indiyə qədər öyrənilmiş kurqanlardan onunla fərqlənir ki, başqa kurqanlar kimi relyefin ən yüksək nöqtəsində deyil, aranda yerləşmişdi və başlıca olaraq, həmən yerdə dini ayinlər – tanrıya dua etmək, qurban kəsmək, meyit yandırmaq və s. bu kimi işlər nəticəsində əmələ gəlmişdir [5, s.112]. Məhz günəşə sitayişlə bağlı olaraq, yaxınlığdakı kurqanlardakı qəbirlərdə şüa tipli dəfn adəti icra olunmuşdu.

M.M.Hüseynov Goranboy rayonu Tatarlı kəndindən 1 km cənub-şərqdə Yerləşən Gölyeri yaşayış yerində apardığı arxeoloji qazıntılar zamanı yaşayış yerinin ilk tunc dövrü təbəqəsində əkinçilik aləti ilə bağlı olan dəfn adəti qeydə alınmışdır. Belə ki, sol yanı üstə dəfn olunmuş mərhumun qarşı tərəfinə 2 ədəd yarımşar formalı qulpa malik saxsı qab və döyüm alətləri qoyulmuşdur. Ən çox diqqət çəkən məqam isə mərhumun üst qabırğa hissəsinə 3 ədəd dən daşının olmasıdır [6, s.70, 76].

Azərbaycan ərazisi "ölülər kultu"nu özündə yaşadan (müxtəlif dövrlərə aid) qəbir abidələri ilə çox zəngindir. Həmin qəbir abidələri içərisində neolit dövrü dəfn adət-ənənələrini qoruyub – saxlayan, eneolit dövründə belə aktuallığını itirməyən dəfn adətlərinin xüsusi əhəmiyyəti vardır. Bu tip dəfn adətlərinə Azərbaycanın eneolit dövrü I Kültəpə, Əlikömək təpə, Çalağantəpə və Babadərviş yaşayış yerlərində rast gəlinmişdir.

Qərbi Azərbaycanın (indiki Ermənistan) Şenqavit, Türkmənistanın eneolit dövrü Anau yaşayış kompleksində və. s. yerlərdə də insanlar evlərin altında basdırılmışdır [7, s.22; 8, s.296]. İlk tunc dövründə həyətyani sahələrin və evlərin altının qəbirlərə çevrilməsi demək olar ki, son mərhələsini yaşamışdır.

Aparılan arxeoloji tədqiqatlar qərb bölgələrində yaşayan tayfaların əkinçilik, maldarlıqla məşğul olduqlarını və məhsuldarlığın bol olması üçün müxtəlif mərasim və ayinlər yerinə yetirdiyini söyləməyə imkan verir.

Nəticə. Göründüyü kimi əkinçi-maldar tayfaların dini-ideoloji dünyagörüşləri əsasən "nəsilartımı", "məhsuldarlıq", şər qüvvələrə qarşı müxtəlif mərasimlərin və ayinlərin keçirilməsi ilə bağlı olmuşdur. Dini ayinlər demək olar ki, əsasən ibadət evlərində, açıq havada olan ritual məkanlarda və dəfn mərasimləri vaxtı yerinə yetirilmişdir.

ƏDƏBİYYAT

1. İsmayılov Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun Arxeologiya və Etnoqrafiya sektoru. Bakı, Elm, 1981, 65 s.
2. Масимов И.С. Раскопки святилища эпохи бронзы на Алтын-депе. Советская археология, № 2. Москва, Наука, 1973, 139-145 с.3
3. Аракелян Б.Н. Археологическое изучение Армении за годы Советской власти // Б.Н Аракелян, А.А. Мартиросян. – Москва: СА, – Наука, – 1967. №4. – с. 162-167.
4. Байбуртян Е. Культовый очаг из раскопок Шенгавитского поселения в 1936-1937 гг. Вестник древней истории № 4. Москва, Наука, 1938, с. 255-259.
5. Гуммель Я.И. Археологические очерки / Я.И. Гуммель. – Баку: АН СССР, Азербайджанский филиал Института истории, – Издательство Аз. ФАН СССР, – 1940. – 166 с.
6. Hüseynov M.M. Göl-yeri qədim yaşayış yerində 2010-cu ildə aparılan arxeoloji tədqiqatlar /– M.M. Hüseynov, Ə. Kazımov, – Bakı: Azərbaycanda 2010-cu ildə arxeoloji tədqiqatlar,– Afpoliqraf, – 2011. – s.70-78.
7. Кобранов Е.А. Историческое и культурное значение Анау / – Асхабад: Полторацк, – 1927. – т.VIII, –51 с., 37л. таб.
8. Сардарян С.А. Первобытное общество в Армении / С.А. Сардарян. –Ереван:1967–334 с.

ИРАДА АВШАРОВА
Кандидат исторических наук,
доцент Бакинского государственного университета

О ПРОЯВЛЕНИИ РЕЛИГИОЗНО-ИДЕОЛОГИЧЕСКИХ ВОЗЗРЕНИЙ, ОТРАЖЕННЫХ В БЫТОВЫХ И ХОЗЯЙСТВЕННЫХ ПАМЯТНИКАХ (НА ОСНОВЕ АРХЕОЛОГИЧЕСКИХ ПАМЯТНИКОВ БРОНЗОВОГО ВЕКА)

Известно, что историко-географические территории Азербайджана, одной из древнейших цивилизаций мира, в том числе западные регионы, обладают богатым археологическим наследием. В результате исследований, помимо остатков большого количества жилищ, отражающих образ жизни и религиозные мировоззрения людей того времени, были обнаружены часовни, надгробные памятники и культовые артефакты. В связи с этим большое значение имеет научное изучение материальной и духовной культуры племен бронзового века.

Ключевые слова: бронзовый век, идеология, статуэтка, ритуал, духовная культура.

IRADA AVSHAROVA
PhD in History,
Associate Professor of Baku State University

ON THE MANIFESTATION OF RELIGIOUS-IDEOLOGICAL VIEWS REFLECTED IN SOME HOUSEHOLD-ECONOMIC MONUMENTS IN THE WESTERN REGIONS OF AZERBAIJAN (BASED ON BRONZE AGE ARCHAEOLOGICAL MONUMENTS)

It is known that the historical and geographical territories of Azerbaijan, one of the ancient settlements of civilization in the world, including the western regions, have a rich archaeological heritage. As a result of research, along with the remains of numerous settlements that preserve the lifestyle and religious worldviews of the people of that time, temples, tombs and cult artifacts have been discovered in the territory. In this regard, the scientific study of the material and spiritual cultures of the Bronze Age tribes is of great importance.

Keywords: Bronze Age, ideology, figurine, ritual, spiritual-cultural.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Hicran Mahmudova, t.e.d. Əmrah Dadaşov.

UOT 902

TÖHVƏ HÜSEYNOVA
AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun dosenti,
tarix üzrə fəlsəfə doktoru
nuray-fuadqizi@mail.ru

AĞSU RAYONU ƏRAZİSİNDƏKİ UZUNBOYLAR ABİDƏSİNDƏN TAPILMIŞ METAL MƏMULATLARI HAQQINDA (DƏMİR ƏMƏK ALƏTLƏRİ ƏSASINDA)

DOI: https://doi.org/10.36719/2708-065X/108/249-252

Azərbaycanın Ağsu bölgəsində keçən əsrin ikinci yarısında həyata keçirilən maraqlı arxeoloji abidələrdən biri də Uzunboylar yaşayış yeridir.Mərhum arxeoloq alom Fazil Osmanov tərəfindən aparılan arxeoloji qazıntılar nəticəsində abidədən aşkar edilən şoxsaylı maddi-mədəniyyət nümunələri buranın əhalisinin təsərüffat fəaliyyətini, yaşayış evlərini, qəbir abidələrinin mahiyyətini, növlərini üzə çıxarmaqa imkan vermişdi.Qələmə alınan bu məqalədə bəzi metal əşyaların tapıntılarına yeni baxış həyata keçirilmişdi.

Açar sözlər: əmək alətləri, iqtisadi həyat, dəmir, Ağsu, Uzunboylar.

Giriş. Qafqaz Albaniyasının əsas yaşayış yerlərindən olan Şirvan ərazisində keçən yüzilliyin ikinci yarısından başlayaraq milli arxeoloqlarımız tərfindən həyata keçirilən qazıntı işlərinin bir qismi müasir Ağsu bölgəmizi əhatə etmişdi. Şirvanın dağlıq və dağətəyi məkanlarında yerləşən bu bölgəmizdə bir neçə abidədə antik və orta əsrlərin ilk yüzilliklərinə aid olan maraqlı kənd tipli yaşayış yerləri aşkar edilmişvə qismən də olsa öyrənilmişdi.Bu abidələrdən biri də elmdə Uzunboylar adlanır.

Albaniyada yaşayan əhalinin etnik tərkibi müxtəlif dillərdə danışan soylardan ibarət olmuşdur. Mənbələrdə uti, sak, qarqar, kəngərli, peçeneq, çola, koman, ijmax, tərtər, hun, xəzər, suvar (sabir, silir), mük (muğ), dondar, bayat və b. türk soylarının adı çəkilir. İrandilli soylardan isə kaspi, maskut, savdey, mard, mehrani, girdman və gel soyları haqqında da məlumat verilir [6, s.67].

Belə bir təbii coğrafi şərait əkinçilik və maldarlığın inkişafına şərait yaradırdı. Ölkədə ovçuluğun inkişafı, o cümlədən hərbi təlimlərin keçirilməsi də diqqət mərkəzində idi ki, bu da öz növbəsində metalişləmə, silahişləmə praktikasını vüsətləndirirdi. Bununla yanaşı, digər sənət sahələri – dulusçuluq, ağacişləmə, toxuculuq və s. sahələr də inkişaf edirdi. Arxeoloji qazıntılar zamanı alban dövrünə aid əldə olunmuş tətbiqi sənət nümunələri - sümük, tunc, gümüş, qızıldan olan zərgərlik məmulatları özlərinin bədii dekorativ həlli, sənətkarlıq səviyyəsi ilə diqqəti cəlb edir (8, s.82-83).

Qeyd etmək lazımdır ki, fərqli elm sahələrinin araşdırmaları nəticəsində yaşayış yerlərinin seçilməsində və məskunlaşmasında ən qədim zamanlardan etibarən vacib komponentlər sırasında içməli su ehtiyatının bolluğu, fauna, flora zənginliyi, təbii müdafiə sisteminin mövcudluğu önəm daşımışdı. Bu qəbildən araşdırdığımız Uzunboylar abidəsinin yerləşdiyi təbii-coğrafi məkan istisna təşkil etmir. Belə ki, Qafqaz Albaniyasına aid edilən bir çox yaşayış yerləri kimi Uzunboylar abidəsi də aid olduğu dövrdən xeyli əvvəlki zamanlarda insanlar tərəfindən məskunlaşmışdı (1, s.28).

Öyrəndiyimiz qədim abidələrdə, o cümlədən Uzunboylar yaşayış yerində digər maddi mədəniyyət qalıqları ilə yanaşı metal məmulatları da aşkar olunmuşdur. Bildiyimiz kimi insan cəmiyyətinin hər hansı bir ictimai-iqtisadi durumunun aydınlaşdırılmasında əsas etalon əmək alətləridir. Əmək alətləri əhalinin iqtisadi həyatında mühüm rol oynamışdır. İnsanların istifadə etdiyi əmək alətlərinin formaları yox, vacib olanı onların hansı materialdan hazırlanmasıdır. Bu da insan cəmiyyətinin ayrı-ayrı dövrlərə bölünməsinə əsaslanır. Belə ki bunlar daş, mis-daş, tunc və dəmirdən hazırlanaraq müxtəlif vəzifə daşınmışdır.

Qafqaz Albaniyasının yaşayış məskənlərinin antik dövrə aid edilən əmək alətləri digər materiallarla yanaşı dəmirdən də hazırlanmışdır. Cəmiyyətin məhsuldar qüvvələrinin inkişafı və ibtidai icma quruluşunun dağılmasında dəmirin şox böyük rolu olmuşdur. Qeyd etməliyik ki, Azərbaycanda dəmirin izlərinə e.ə. II minilliyin sonlarında təsadüf olunmuşdur. Dəmirdən hazırlanmış əmək alətləri öyrəndiyimiz dövrdə əhalinin təsərrüfat həyatında mütərəqqi rol oynamışdır. Yəni dəmir əmək alətlə-

rinin təsərrüfatına tətbiqi maddi nemətlər bolluğu yaratmışdır. Bu isə cəmiyyətin həyatında əsaslı dəyişikliklərə səbəb olmuş və yeni ictimai quruluşun meydana gəlməsinin mühüm amillərindən biri olmuşdur.

Qafqaz Albaniyasının antik dövr arxeologiyasının tanınmış arxeoloq-alimi F.Osmanovun fikrinə görə, "Tapılmış əmək alətləri Albaniya əhalisinin təsərrüfatında əkinçiliyin üstün yer tutduğunu göstərir. Osteoli qalıqlar (heyvan sümünkləri), fiqurlar və s. isə təsərrüfatda maldarlığın da mühüm rol oynadığını sübut edir.Arxeoloji tədqiqatlar nəticəsində əldə edilmiş maddi-mədəniyyöət nümunələrinə əsasən belə bir təsəvvür yaranır ki, öyrənilən dövrdə əkinçiliklə maldarlıq qarşılıqlı sürətdə inkişaf edərək bir sahə digərini tamamlamışdı (1, s.67).

Bu qəbildən Ağsu rayonu ərazisindəki qədim abidələrdə aparılmış arxeoloji tədqiqat işləri zamanı müxtəlif növ dəmir əmək alətlərinə rast gəlinmişdi. Məqalədə müraciət etdiyimiz «Uzunboylar» abidəsinin yaşayış yeri və qəbir abidələrindən xeyli dəmir əmək alətləri tapılmışdır. Onlar – oraqlar, dəhrələr, bıçaqlar, qayçılar (qırxlıq), bizlər, qıyıqlar və s. ibarətdir. Tapılmış dəmir əmək alətlərinin bir çoxu paslanmış, ovxalanmış, çürümüş şəkildə olmuşdur. Uzunboylar abidəsindən tapılmış dəmir əmək alətləri haqqında qısa da olsa məlumat veriləcəkdir.

Oraqlar – aypara (qövs) şəklində olub, müxtəlif ölçülüdürlər (1, s.64-65). Əkinçilikdə istifadə olunan bu alətin kəsici hissəsi uca doğru getdikcə nazikləşir. Oraqlar əmək aləti kimi oturaq əkinçiliklə məşğul olan tayfalar tərəfindən istifadə olunmuşdur. Əkinçilikdə, daha doğrusu biçinçilikdə çox səmərəli əhəmiyyətə malikdir. Ölkə ərazisində aparılmış arxeoloji qazıntılardan məlumdur ki, müxtəlif materiallardan hazırlanmış oraqlardan əkinçi tayfalar hələ eneolit dövründən istifadə etməyi bacarmışlar (2, s.58).

Lakin dəmir dövründə oraqlar əsaslı surətdə dəyişilərək, mükəmməlləşmişdir. Yəni dəmirdən istifadənin genişlənməsi, əkinçilikdə mütərəqqi rol oynayan dəmir oraqların geniş yayılmasına səbəb olmuşdur. Dəmir oraqlar hazırlanarkən dişli və dişsiz də düzəldilmişdir. Oraqların kəsici hissəsi getdikcə nazikləşir. Nəzərə almalıyıq ki, yeni yaranan hər hansı bir istehsal üsulunda köhnənin mütərəqqi üsulu saxlanılır və tətbiq olunur (dişli oraqlar). Tədqiqat ərazisində aparılmış arxeoloji qazıntılar zamanı tapılmış dəmir oraqların oxşar nümunələrinə qonşu abidələrlə yanaşı, ölkə ərazisində aparılmış arxeoloji qazıntılar zamanı digər abidələrdən də tapılmışdır. Dəmir oraqlar təsərrüfatda səmərəli əhəmiyyətə malik olmaqla, Qafqaz Albaniyası üçün çox səciyyəvidir.

Dəhrə - arxeoloji qazıntı işləri zamanı Uzunboylar abidəsindən tapılmış dəmir dəhrə məişətdə çapacaq kimi də işlədilmişdir. Yəni dəhrələr xüsusi formada olub, çapacaq kimi də qeyd edilir (3, s.11-14). Belə dəhrələr yerli əhalinin kənd təsərrüfatı ilə əlaqədar işlərinin zənginliyini bir daha əks etdirir. Tapılmış dəhrə nümunələri müasir dəhrələrdən çox da fərqlənmir. Yaşayış yerləri və qəbir abidələrindən tapılmış dəhrələrin burun hissəsi əyri düzəldilmişdir ki, bu da kənd təsərrüfatı işlərinin görülməsində əlverişli olmuşdur. Dəhrələrin çoxu ağac sapa keçirilmişdir. Onların saplarının müxtəlif uzunluqda olması, ondan irəli gəlir ki, dəhrələr hansı işlərdə istifadə edilmişdir. Dəhrə tipli əmək alətləri istər ev, istərsədə çöl təsərrüfatında geniş istifadə edilmişdir. Yəni qədim sakinlər dəhrələrdən əkin sahələri və bağların kollardan təmizləmək kimi işlərdə istifadə etimişlər.

Arxeoloji qazıntılardan məlum olmuşdur ki, dəmir əmək alətlərinin saplarının əksəriyyəti «dəndə» ağacından hazırlanmışdır. Bu ağac davamlı və möhkəm olmuşdur. Hətta qədim silah növlərinin sapları da dəndə ağacından olmuşdur. Yəni dəlillər əsasında bilinmişdir ki, albanların hücum silahlarının dəstəyi dəndədən olmuşdur. Uzunboylar abidəsindən tapılmış dəhrə tipli dəmir əmək alətlərinin arxaik formaları Ağsu rayonu ərazisindəki antik dövr abidələrində tez-tez rast gəlinmişdir (torpaq qəbirlər) (4, s.25-26).

Bıçaqlar – Uzunboylar abidəsindən tapılmış bıçaqlarda dəmir əmək latələri içərisində xüsusi yer tutur. Belə ki, onlar qövsvari və düz istiqamətə malikdirlər. Bıçaqların tiyəsinin ucu azca arxaya doğru dikəlmiş və xüsusi alətlə iti düzəldilmişdir. Qazıntı sahəsindən tapılmış bıçaqların əksəriyyəti digər dəmir alətlər kimi paslanmış və xarab olmuşdur. Abidədən tapılmış bıçaqlar müxtəlif olmaqla ayrı-ayrı işlərdə istifadə edilmişdir (5, s.19-20). Yəni cib bıçağı sayılan bıçaq hər hansı bir sənətkarlıqla bağlı işlərdə istifadə edilmişdir. Digər bıçaq nümunəsi bağçılıqda, digəri maldarlıqda istifadə edilmişdir. Açıqlama verərək deyə bilərik ki, bağçılıqda istifadə edilən bıçaq hər hansı bir bitkinin kəsilməsi, təmizlənməsi kimi işlədilmişdir. Maldarlıqda isə heyvan dərisinin soyulmasında, xüsusi

kötükdə ətin döyülməsində və s. kimi işlərdə istifadə edilmişdir. Belə adətlər indiyə qədər bəzi bölgələrdə qalmaqdadır. Bağçılıqda işlədilmiş bıçaqların bəziləri daha çox diqqət cəlb etmişdir. Belə ki, bıçağın ağac sapa keçirilən hissəsi dördkünc şəkildə döyülüb ucu şiş şəkildə hazırlanmışdır. Qazıntı sahəsindən tapılmış bıçaqlar oxşar formalı olsa da gördüyü işlərə rəğmən uzunluqları fərqli düzəldilmişdir.

Qayçı (qırxlıq) – Uzunboylar abidəsinin yaşayış məskənindən, qayçı funksiyasını daşıyan «qırxlıq» tapılmışdır. Əldə edilən qırxlıq öyrəndiyimiz dövrün yun qırxlığı haqqında geniş təsəvvür yaradan əhəmiyyətli tapıntılardandır (7, s.65-67).

Bu alət bütöv bir dəmir parçasından döyülüb hazırlanmışdır. Onun ucları ülgüc ağzı kimi enli və içəriyə doğru olan hissəsi itidir, əks tərəfi isə nisbətən yastı şəkildədir. Alətin əl tutacaq hissəsi dairəvi yay formasında olub, elastikdir. Bu da onun işlək funksiyasını asanlaşdırır. Tapılmış qayçı (qırxlıq) qədim sakinlərin əkinçilik, sənətkarlıq, heyvandarlıq, habelə toxuculuq haqqında da əsaslı fikirlər söyləməyə əsas verir.

Abidədən əldə edilmiş maraqlı tapıntılardan biri də biz və qıyıqdır yaxud iynə. Dəmir bizin hər iki ucu şiş olmaqla, bir tərəfinin ağac sapa keçirildiyi bilinir. Tapılmış qıyıqların isə bir ucu ilməli, yəni ilgək yeri vardır, o biri ucu şişdir.

***Nəticə*.** Beləliklə, arxeoloji tədqiqat işləri zamanı aşkar olunmuş əmək alətləri daşıdığı müxtəlif tərəfə baxımındab iri və kiçik olmuşdur. Yerli əhalinin iqtisadi həyatında dəmir məmulatlarından istifadə mühüm yer tutmuşdur. Dəmir əmək alətləri - əkinçilik, bağçılıq, heyvandarlıq və s. Sahələrdə geniş istifadə olunmuşdur.

Metalişləmə ilə əlaqədar tapıntılar əsasən dəmir alətlərdir. Azərbaycanın antik dövrdə yaşayan əhalisinin gündəlik həyatında dəmir məmulatlarının mühüm rol oynaması tədqiq etdiyimiz ərazidə digər sənət sahələri kimi dəmirçiliyin varlığını sübut edir. Dəmirin insanlar tərəfindən kəşfi ilə bəşəriyyətdə əkinçilik və maldarlıq məhsullarının çeşidi, kəmiyyəti daha artmış, bu isə öz növbəsində əhali sayının artmasına gətirb çıxarması şübhə doğurmur.Qafqaz Albaniyasının yaşayış yerlərinin bir qismini əhatə edən müasir Ağsu rayonundakı Uzunboylar abidəsinin yerli sakinlərinin məşğuliyyət sahələrinin yalnız metalişləmə, əkinçilik, maldarlıq deyil, həm də cürbəcür fəaliyyət növlərinin yaranmasının səbəbləri sırasında sözsüz ki, dəmirdən istifadəni özündə ehtiva edir.

Deməli Qafqaz Albaniyası ərazisində yerləşən yaşayış məskənlərində b.e.ə. IV – eramızın III əsrlərində müxtəlif sənətkarlıq sahələr müəyyən dərəcədə mövcud olmuş və intensiv şəkildə inkişaf etmişdir.

ƏDƏBİYYAT

1. Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti: e.ə. IV və b.e. III əsrləri. Bakı, “Elm”, 1982, 160 s.
2. Нариманов И.Г. Археологические исследования поселения Шому-тепе 1963 г. / «Археологические исследования в Азербайджане». Бакы, 1965, с.12-19.
3. Osmanov F.L., Cəbiyev Q.C. Uzunboylar və Qırlartəpə 1982-ci il Arxeoloji qazıntılarının hesabatı. Bakı, 1993, 27 s.
4. Osmanov F.L. Nüydidə 1972-ci il arxeoloji tədqiqatların hesabatı. Azərb. EA Tarix İnstitutunun arxivi, 56 s.
5. Osmanov F.L., Cəbiyev Q.C. Ağsu-İsmayıllı Arxeoloji Ekspedisiyasının 1983-cü il hesabatı. Bakı, 1984, 43 s.
6.Hacıyev İ.Qafqaz Albaniyasının maddi-mədəniyyəti:daş plastikası.”Dövlət və din”, №2(55), mart-aprel 2018, s.82-83
7. Hüseynova T.T. Ağsu rayonunun Antik dövr arxeoloji abidələri. Bakı, “Nafta-Press” 2006, 135 s.
8. Rəcəbli Q.Ə. Azərbaycan tarixi. Bakı: “Elm və təhsil”, 2013, 544 s.

ТОВХА ГУСЕЙНОВА
доцент Института Археологии и Антропологии НАНА

О НЕКОТОРЫХ МЕТАЛЛИЧЕСКИХ ИЗДЕЛИЯХ, ОБНАРУЖЕННЫЕ В ПАМЯТНИКЕ УЗУНБОЙЛАР В АКСУИНСКОМ РАЙОНЕ (НА ОСНОВЕ ЖЕЛЕЗНЫХ ОРУДИЯХ ТРУДА)

В статье приводятся сведения о железных орудиях, обнаруженных на памятнике «Узунбойлар». Материальные и культурные остатки, полученные в ходе археологических раскопок в указанном памятнике в целом являются являются ценным источником для изучения хозяйственной жизни населения всей Кавказской Албании в целом и конкретно, из Узунбойлар. В статье утверждается, что орудия труда из железа играли важную роль в жизни населения, поскольку они изготовлены высоким мастерством и совершенными навыками металлобработки.

Ключевые слова: орудия труда, экономическая жизнь, железа, Агсу, Узунбойлар

TOHVA HUSEYNOVA
Institute of Archaeology and Anthropology of ANAS

ABOUT THE İRON TOOLS REVEALED FROM THE UZUNBOYLAR MONUMENT (AGHSU DİSTRİCT)

The article provides information about the iron tools found in the “Uzunboylar” monument. The author points out that material and cultural remains obtained during archaeological excavations are a valuable source. In the article is stated that labor tools played an important role in the economic life of the population. The author provides extensive information about the iron tools revealed from the Uzunboylar monument and its progressive role in the economic life of the population.

Keywords: labor tools, economic life, iron, Aghsu, Uzunboylar.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 yanvar 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.e.f.d. Bəhlul İbrahimov, t.e.d. Əmrah Dadaşov.

UOT 930

NURLAN ABBASOV
Bakı Dövlət Universitetinin dosenti
nurlan-abbasov@mail.ru

DQMV-NİN YARANMASI TARİXİ TƏDQİQATLARDA

DOI: https://doi.org/10.36719/2708-065X/108/253-258

XX əsr Azərbaycan tarixinin ən əsas məsələlərindən biri olan "Dağlıq Qarabağ" probleminin üzdə görünən və ya göstərilən tərəflərindən başqa gizlədilən həqiqətlər də var. Heç də dünya ictimaiyyətinə göstərildiyi kimi məsum və məzlum olmayan ermənilər və onların yalanlarının dəstəkçisi olan ölkələrin əsil niyyətlərini üzə çıxartmaq və bunu tarixi faktlar ilə etmək tarixşünaslığımız üçün çox vacib məsələdir. Əsirlərdir üzərində çalışılan "Böyük Ermənistan" layihəsinin niyə məhz XX əsrin 80-ci illərindən başladığını və bu illərdə dünyada, SSRİ-də, Cənubi Qafqazda hansı proseslərin baş verdiyini düzgün təhlil etməklə həm problemin kökünü tapa bilərik, həm də həll yollarını. Eyni zamanda Heydər Əliyev kimliyinin XX əsrin son rübündəki Azərbaycan ilə bağlı bütün məsələlərdə olduğu kimi bu məsələnin həllində də nə qədər əhəmiyyətli bir yerə sahib olduğunu da qeyd etməmək mümkünsüzdür. Tariximizin son günlərində İlham Əliyevin uğurlu diplomatik siyasətinin bu problemin həllində necə bir çevriliş etməsi nəinki Azərbaycan tarixşünaslığının, son zamanlarda dünya tarixşünaslığının diqqətindədir.

Açar sözlər: Dağlı Qarabağ münaqişəsi, ermənilər, sovet rəhbərliyi, Ermənistan SSR, Cənubi Qafqaz, Heydər Əliyev.

Giriş. Azərbaycan torpaqları, o cümlədən Dağlıq Qarabağ ermənilərin "Böyük Ermənistan" yaratmaq üçün, qarşıya qoyduqları planların tərkib hissəsidir. Ona görə də ermənilər,"ənənələrinə" sadiq qalaraq, həmişə əlverişli şərait yaranan kimi bu planın reallaşdırılması uğrunda mübarizəyə başlamışlar, SSRİ-də 1985-ci ildə ermənipərəst M.S.Qorbaçovun hakimiyyətə gəlməsi ilə erməni seperatçıları növbəti dəfə yenidən fəallaşdılar.

Bu dəfə sovet rəhbərliyinin silahlı erməni seperatçılarını-terrorçularını himayə və müdafiə etdikləri daha tez aşkara çıxdı. Dağlıq Qarabağ Muxtar Vilayəti ilə bağlı məxfi planı həyata keçirmək üçün M.S.Qorbaçov ilk addım olaraq,onun qarşısında ən qüdrətli maneə olan H.Əliyevi Siyasi Bürodan uzaqlaşdırdı. Bundan az sonra, 1987-ci ilin noyabrında Qorbaçovun komandasına daxil olan erməni akademik A.Aqanbekyan Parisdə Dağlıq Qarabağ barədə sovet rəhbərliyinə təklif verdiyini, yenidənqurma və demokratiya şəraitində bu problemin həllini tapacağına ümid etdiyini bildirdi. Əvvəllər gizli fəaliyyət göstərən erməni "Qarabağ komitəsi", onun Dağlıq Qarabağ Muxtar vilayətindəki seperatçı-terrorçu təşkilatı "Krunk"(Durna) açıq işə keçdi, "Miatsum" (Birləşdirmə) hərəkatı formalaşdırıldı. Bu hərəkat Ermənistan, DQMV, Moskva rəhbərliyi, SSRİ və dünya ermənilərinin potensialına arxalanırdı. Hadisələr 1988-ci ilin fevralından daha aqressiv məcraya yönəldi. 1988-ci ildə təhrikçilik yolu ilə Dağlıq Qarabağ münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olmuş bu münaqişə hələ də özünün düşmənçilik xarakterini saxlayır, çünki erməni tərəfi bunu antaqonist münaqişə hesab edir və "ya hər şey, ya heç nə" prinsipi üzrə hərəkət edir. Münaqişənin açıq, presedent fazasından əvvəl adi gözlə görünməyən, geniş ictimaiyyətə məlum olmayan hadisələr baş vermişdir. Münaqişənin bu gizli, latent fazası Sovet İttifaqında erməni ictimaiyyətinin müəyyən hissəsinin və xaricdəki erməni diasporunun çoxillik fəaliyyəti sayəsində geniş miqyas almışdır. Erməni tərəfi münaqişəli vəziyyəti illər boyu gərginləşdirir, öz niyyətinin etnokratik xarakter daşımasını dərk edirdi. Etnokratizm ermənilərin öz məqsədlərinə başqa xalqların hesabına nail olmasını nəzərdə tuturdu. O, ilhaqçılıq, Azərbaycan SSR-in 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistan SSR-ə birləşdirmək məqsədi güdürdü. Uzun illər boyu sıravi insanların şüurunun ilhaqçılıq ("miatsum") ideyası ilə zəhərlənməsi 1987-ci ilin payızında Yerevanda keçirilən mitinqlərdə üzə çıxdı. Həmin mitinqlər zamanı DQMV-nin Ermənistan SSR-ə verilməsi barədə açıq tələblər səsləndi. Beləliklə, münaqişə insident mərhələsinə keçməyə başladı. Daxili dinamikaya

malik olan bu proses məntiqi şəkildə qan tökülməsinə, ərazi ekspansiyası ideyasını dəstəkləməyən böyük insan kütlələrinin faciəsinə doğru aparan hadisələrin get-gedə daha tez-tez baş verməsi ilə səciyyələnirdi.

1987-ci ilin noyabr ayında akademik Aqanbeqyan "Humanite" qəzetinə verdiyi qalmaqallı müsahibədə erməni etnokratlarının fəaliyyətini dəstəklədi. Bu müsahibə bir növ rəmzi məna daşıyır və onu göstərirdi ki, erməni mənşəli sovet elitasının bir hissəsi Sovet İttifaqında xalqların birgə yaşayışına dair rəsmi normalara açıq-aşkar məhəl qoymur. Etnokrat Z.Balayanın 1985-ci ildə Ermənistanda erməni və rus dillərində çap edilmiş "Ocaq" kitabı yalnız ictimaiyyət tərəfindən pislənilmiş əlamətdar bir epizod idisə, Aqanbeqyanın bəyanatı bu cür hərəkətlərin və bəyanatların açıq-aşkar sistemli hal almasına keçiddən xəbər verirdi.

1988-ci il fevralın 13-də DQMV-nin mərkəzində Qarabağ məsələsi barədə ilk nümayiş təşkil edildi (4, 63). 1988-ci il fevralın 16-dan martın 2-dək DQMV-də mitinqlər təşkil olunur. Buna cavab olaraq, fevralın 19-da Bakıda nümayiş keçirilir. Azərbaycan və erməni cəmiyyətlərində geniş yayılmaqda olan mübarizə ideyası "cəbhəçi tipli" şəxslərin fəallaşması üçün əlverişli şərait yaradır. Məhz 1988-ci ilin əvvəllərində etiraz əhval-ruhiyyəsinin kəskin güclənməsi müşahidə olunur, çünki erməni etnokratları sosial narazılığı milli narazılıqla əvəz etməyə və kütləvi şüuru xəyalpərəstlik və dözümsüzlük istiqamətinə yönəltməyə müvəffəq olurlar.

1988-ci il iyunun 14-də Ermənistan Ali Soveti DQMV-nin Ermənistan SSR-in tərkibinə "daxil edilməsinə razılıq" verir (2, 89). 1988-ci il iyunun 17-də Azərbaycan SSR Ali Soveti buna cavab olaraq əks qərar qəbul edir: DQMV respublikanın tərkibində qalır. 1988-ci il iyulun 18-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti hər hansı başqa qərarın pozucu olmasını dərk etdiyindən, Azərbaycan SSR-in və Ermənistan SSR-in milli-ərazi bölgüsünün dəyişdirilməsinin mümkün olmaması barədə məntiqli qərar qəbul edir. SSRİ Ali Soveti SSRİ Konstitusiyasında (maddə 78) təsbit olunmuş müddəadan çıxış edirdi. Konstitusiyaya görə, "müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz".

İstər münaqişənin bu müharibə ərəfəsi mərhələsində, istərsə də sonrakı dövrdə Azərbaycan tərəfi mənəvi baxımdan haqlı idi. O, status-kvonu - Azərbaycan və erməni millətlərinin hərtərəfli inkişafına əsla mane olmayan inzibati ərazi Azərbaycan SSR-nin DQMV-də Xüsusi İdarə Komitəsinə dair qanunvericilik və onun tənqidi Dağlıq Qarabağın Azərbaycan SSR-in tabeliyindən çıxarılması üçün atılmış yeni addım 1988-ci ilin martında SSRİ rəhbərliyinin DQMV-nin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında xüsusi qərarı oldu. Heç bir obyektiv əsasa istinad etməyən, qondarma səbəblərlə qəbul edilmiş bu qərarla Dağlıq Qarabağa müstəsna hüquqlar verilmiş, külli miqdarda vəsait buraxılmış, vilayətin bir çox məsələlərinin həlli birbaşa ittifaq, nazirlik və qurumlarına həvalə edilmişdi. İctimaiyyətdə belə bir fikir formalaşdırılır ki, guya Dağlıq Qarabağda yaşayan ermənilərin iqtisadi-sosial çətinlikləri var və məhz vilayət əməkçilərinin gündəlik tələbatları ilə kifayət qədər təmin olunmamaları nəticəsində narazılıq başlamışdır. Lakin hamıya yaxşı məlumdur ki, DQMV Azərbaycan SSR-in digər regionları ilə müqayisədə dinamik inkişaf edən bir diyar idi.

Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın tabeliyindən çıxarmaq yolunda mərkəzin atdığı növbəti addım SSRİ Ali Soveti Rəyasət heyətinin Muxtar vilayətdə Xüsusi İdarəetmə forması yaratmaq haqqında 1989-cu il yanvarın 12-də verdiyi fərman oldu, mərkəz Azərbaycanın hüquqlarını kobud surətdə pozaraq, «Azərbaycanın SSR-in DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında» qərar qəbul etdi. Fərmanda göstərilirdi ki, DQMV-nin ərazisində yerləşən bütün müəssisələr, idarələr və təşkilatlar, onların filialları və digər struktur bölmələri, Azərbaycan SSR Nazirlər Sovetinin rəyini nəzərə almaqla, SSRİ Nazirlər Sovetinin müəyyən etdiyi məsələlər üzrə komitənin tabeliyinə verilir (3).

Beləliklə, ermənipərəst A.İ.Volskinin başçılığı ilə qeyri-qanuni, birbaşa Moskvaya tabe olan müvəqqəti Xüsusi İdarə Komitəsi (XİK) təşkil edildi və Azərbaycan SSRİ-in bütün dövlət və ictimai orqanlarının DQMV-dəki səlahiyyətləri dayandırıldı.

Əlbəttə, Azərbaycandan olan nümayəndələrdən heç bir kəsin qətiyyətli şəkildə cavab verməməsi sonrakı faciəli şəraitin yaranmasına az təsir etməmişdi. Qərarda göstərilirdi ki, birbaşa SSRİ Ali dövlət hakimiyyəti orqanlarına tabe olan bu komitənin əsas vəzifəsi vilayətdə şəraitin yaxşılaşdırılması, vətəndaşların təhlükəsizliyinin təmin olunması, bütün müəssisə və təşkilatların fasiləsiz işinin təmin edilməsi, ticarət, məişət-kommunal və tibbi xidmətin qaydaya salınmasından ibarətdir.

1989-cu il 17 yanvar tarixdə SSRİ Nazirlər Sovetinin sədri N.İ.Rıjkov öz çıxışlarının birində qeyd edirdi ki, qəbul olunmuş qərar mərkəzin hər iki respublikaya göstərdiyi yardımdır və o praktiki olaraq millətlərarası ziddiyyətləri aradan qaldırmaqda böyük əhəmiyyətə malikdir. SSRİ rəhbərliyi qəbul etdiyi bu sənədlə belə bir təsəvvür yaratmağa çalışırdı ki, o, regionda yaranmış vəziyyəti normalaşdırmaq üçün atdığı addımlarla həm Azərbaycana, həm də Ermənistana münasibətdə paritetlik mövqeyindən çıxış edir. Əslində isə bu qərar Ermənistan SSR-də, eləcə də Dağlıq Qarabağ Muxtar Vilayətində başlanmış kütləvi etnik təmizləmə əməliyyatının hazırlıq mərhələsi olmuşdur (3). A.İ. Volskinin hakimiyyətə başladığı vaxtdan az sonra DQMV-nin 55 yaşayış məntəqəsindən azərbaycanlıların silahları yığıldı. Laçın-Gorus yolu ilə Ermənistandan gətirilən silahlar isə ermənilərə paylandı.

A.İ.Volskinin hakimiyyəti dövründə Stepanakert şəhərindən 12 min azərbaycanlı qovuldu, 3 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirliklərinin və idarələrinin tabeliyinə verildi. Bu, SSRİ Nazirlər Sovetinin 6 may 1989-cu il tarixli qərarı ilə həyata keçirilirdi. Bütün rayon partiya komitələri Ermənistan KP-nın tərkibinə daxil oldu. Azərbaycanın bayrağı, gerbi, blankı və s. ləğv edildi. DQMV-nin ərazisində Ermənistanın bayrağı və gerbi qaldırıldı.

1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti Rəyasət heyəti DQMV-də və əsas rayonlarda fövqəladə vəziyyət elan etdi. 1990-cı il yanvarın 20-də Bakıda fövqəladə vəziyyət elan edildi və Sovet qoşunları şəhərə hücum edərək dinc əhaliyə qanlı divan tutdu. 1990-cı il mayın 22-də SSRİ Nazirlər Soveti Muxtar vilayətin iqtisadiyyatını idarəetmə hüququnu Azərbaycana qaytardı (4, 69). 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi.Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında Azərbaycan Respublikasının qanunu, Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi qaydası barədə Azərbaycan Respublikası Ali Sovetinin qərarı və Azərbaycan Respublikasının Konstitusiyasına (Əsas qanununa) dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikasının qanunu 26 noyabr 1991-ci il tarixli qərarla qəbul edilmişdir.

Azərbaycanın siyasi elitası dövlətçiliyin qorunması mövqelərindən çıxış edirdi, lakin onun şəxsiyyət potensialı vəziyyətin dramatikliyinə uyğun deyildi. Heydər Əliyevin - çoxmillətli cəmiyyətə rəhbərlik təcrübəsinə malik olan bu dövlət xadiminin respublikada olmaması münaqişənin inkişafına və onun aralıq yekunlarına bilavasitə təsir göstərirdi (5, 120).

"Ermənistan SSR-in və Dağlıq Qarabağın yenidən birləşməsi haqqında" 1989-cu il 1 dekabr tarixli qərar Azərbaycanla Ermənistan arasında soyuq müharibənin genişlənməsinə və buna müvafiq surətdə təcavüzkarlara kütləvi nifrətin güclənməsinə səbəb olmaqla xalqlar arasında münasibətlərdə çox ağır nəticələrə gətirib çıxardı. Əslində, bu, münaqişə zonasının keyfiyyətcə genişlənməsi, onun yayılması demək idi. 1990-cı ildə Bakıda baş vermiş məlum yanvar hadisələrindən sonra Kremlin və şəxsən prezident Qorbaçovun nüfuzu heçə enməyə başladı.

Yanvarın 21-də Heydər Əliyevin Moskvada verdiyi ifşaedici bəyanat Azərbaycan dövlətçiliyinin böhranının aradan qaldırılmasına yönəlmiş intellektual mənalar konsentratını cəmiyyətə açıb göstərdi. Bakıda baş vermiş yanvar hadisələri Azərbaycan elitasının yeni siyasi dünyagörüşü mövqeyinə keçidi ilə əlamətdar oldu – kəskinləşməkdə olan münaqişə beləcə yeni proqram məqsədlərinin formalaşmasını sürətləndirdi. 1990-cı ilin yanvarında Azərbaycan SSR-in əvvəlki rəhbərliyinin iflasa uğraması böyük bir imperiya məkanında sinfi beynəlmiləlçilik ideyaları üzərində qurulmuş siyasətin qeyri-adekvat olmasının rəmzi idi. Yeni ideoloji paradiqma Azərbaycanın millət-dövlət vəziyyətinə keçməsini təmin etməli idi. Lakin Azərbaycanın yeni rəhbərləri yeni siyasətə keçid məsələsində gecikir, hadisələrin gedişinin sürətləndirilməsində səhvlərə yol verirdilər. Lakin siyasi uzaqgörənliyi, zaman və məkan hissinin yaxşı inkişaf etməsi ilə fərqlənən, hadisələrin gedişini fəal təhlil etməyi bacaran, hər bir hadisənin arxasında dövlətin sərt subyektiv iradəsinin dayanmalı olduğunu başa düşən Heydər Əliyev bu dövrdə məcburi istefada idi.

1993-cü il iyunun 15-də Heydər Əliyevin hakimiyyətə qayıtması Dağlıq Qarabağ münaqişəsində yeni bir səhifə açdı. 1993-cü ildə Heydər Əliyev yeni Azərbaycan dövlətçiliyinə yol açdı. Bu baxımdan Dağlıq Qarabağ problemi yalnız aşağıdakı prizmadan təhlil edilir: "Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyildir və heç vaxt olmayacaqdır... Azərbaycan bu mövqedən bir addım belə geri çəkilməyəcəkdir. Yəni Azərbaycanın ərazi bütövlüyü məsələsində... heç bir güzəşt

olmayacaqdır". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sözləri Heydər Əliyevin həyata keçirdiyi dövlətçilik xəttinin varisliyini əks etdirir.

İş-işdən keçəndən sonra, 1993-cü ildə Heydər Əliyevə obyektiv və subyektiv səbəblərdən yaranmış ağlasığmaz dərəcədə mürəkkəb şərait miras qalmışdı. O, belə bir nəticəyə gəldi ki, Dağlıq Qarabağ probleminin həllinə sintetik yanaşma, daxili və xarici siyasət amillərinin bütün kompleksinin hökmən nəzərə alınması tələb olunur. Bu, xüsusən, döyüş qabiliyyətli nizami ordu formalaşdırılması, sabit hakimiyyət qurumlarının yaradılması, iqtisadiyyatın bərpası və iqtisadi islahatların keçirilməsi, neft müqaviləsinin bağlanması və bu tədbirlərin nəticəsi kimi millətin sıx birləşdirilməsi demək idi. Heydər Əliyev deyirdi: "İşləri qaydaya salmaq üçün mənə iki il yarım vaxt lazım gəldi". Heydər Əliyev özü etiraf edirdi ki, 1993-1994-cü illərdə o, "özünün uzun iş gününün 80 faizini" bu problemin həllinə ayırırdı.

1994-cü il mayın 5-də Bişkekdə barışıq haqqında protokol imzalandı. Ermənistanın təcavüzü nəticəsində 1993-1994-cü illərdə yeddi rayon – Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, Ağdam və Füzuli rayonları tutuldu. Bir milyona yaxın insan qaçqına və məcburi köçkünə çevrildi.

1995-ci ildə MDB-nin üzvü olan dövlətlərin başçıları Müstəqil Dövlətlər Birliyində sülhün və sabitliyin qorunub saxlanması barədə Memorandum imzalayarkən Ermənistan həmin sənədin 7-ci və 8-ci bəndlərini qəbul etməkdən boyun qaçırdı. Həmin bəndlərdə deyilirdi ki, "Üzv dövlətlər... öz ərazilərində... separatizmin, millətçiliyin, şovinizmin və faşizmin hər hansı təzahürlərinin qarşısını almaq üçün tədbirlər görəcəklər", onlar həmçinin "başqa üzv dövlətlərin ərazisində separatçı hərəkatları və separatçı rejimləri dəstəkləməməyi, ...onlara iqtisadi, maliyyə hərbi və başqa kömək göstərməməyi öhdəyə götürürlər".

1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabon sammitində Ermənistan Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən yekun bəyannamənin qəbul edilməsinə mane oldu (7).

1997-ci il sentyabrın 20-24-də ATƏT-in Minsk qrupundan olan vasitəçilər münaqişənin sülh yolu ilə həllinə dair yeni plan təqdim etdilər. Həmin planda göstərilirdi ki, "Dağlıq Qarabağ Azərbaycanın tərkibində dövlət qurumu və ərazi qurumudur". 1998-ci ilin noyabr ayında ATƏT-in Minsk qrupu tərəfindən təklif edilən "ümumi dövlət" ideyası Azərbaycan tərəfindən rədd olundu. 1999-cu ilin noyabr ayında ATƏT-in İstanbul zirvə toplantısında qəbul edilmiş yekun sənədlərində Qarabağ münaqişəsinin həlli ilə əlaqədar Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipinə birbaşa istinad yoxdur.

2006-cı ildə ATƏT-in Minsk qrupu gələcəkdə Dağlıq Qarabağın statusunun müəyyən olunması üçün referendum keçirilməsini təklif etmiş və ona razılıq verilməsini erməni qoşunlarının Azərbaycanın hazırda işğal edilmiş torpaqlarından çıxarılması ilə əlaqələndirmişdi.

Prezidentlər İlham Əliyevin və Robert Koçaryanın 2003-cü il dekabrın 11-də Cenevrədəki ilk görüşündən başlayaraq dəfələrlə keçirdikləri görüşləri də qeyd etmək lazımdır.

Hadisələrin bu konturu bir tərəfdən, Cənubi Qafqazın iki dövləti olan Azərbaycanın və Ermənistanın təbiətində, digər tərəfdən, münaqişənin həllinə onların konseptual yanaşmalarında ciddi fərq olduğunu göstərir.

Müasir Azərbaycan Respublikası Azərbaycanda yaşayan xalqların vətəndaş-siyasi müqəddəratlarını təyin etməsinin nəticəsi olan bir millətin mövcudluğunu nəzərdə tutur. Bu başlıca mənada millət çərçivəsində "ayrılmaq da daxil olmaqla etnik müqəddəratın təyin edilməsi" problemi saxta, uydurma problemdir. Milli dövlətləri parçalamaq vasitəsi kimi istifadə edilən etnokratik millətçiliyin başlıca dəlilinin əsası yoxdur. Millət-dövlət çərçivəsində etnos siyasi-hüquqi subyekt ola bilməz, o, yalnız mədəni-tarixi subyekt ola bilər. Müasir millət-dövlətlər polietnik dövlətlərdir. Etnosların ümumi milli mənafe və etnosun fövqündə duran ideologiya ilə siyasi millət şəklində birləşmədiyi dövlət, olsa-olsa, böhranlı vəziyyətdə mövcud ola bilər. Azərbaycan dövlətinin Dağlıq Qarabağ münaqişəsinə tətbiqən siyasi fəlsəfəsi ən ümumi şəkildə belədir.

Dağlıq Qarabağ münaqişəsinin gələcəyi bu məsələnin indiki vəziyyətinin birbaşa davamı deyildir. Ən əvvəl ona görə ki, diplomatiya tarixində hadisələr barışıq əldə olunandan sonra Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin ifadə etdiyi bir mənəvi meyara görə qiymətləndirilir: "Əlbəttə, diplomatik uğurlar bizi sevindirir... lakin əgər bizim torpaqlar hələ də işğal altındadırsa, deməli, bütün bu nəticələrin prinsipial əhəmiyyəti yoxdur. Nəticələrin əhəmiyyəti o vaxt olacaqdır ki, Azərbay-

can torpaqları işğalçı qüvvələrdən azad edilsin, bizim soydaşlarımız isə doğma yurdlarına qayıtsınlar. Bizim soydaşlarımız işğal edilmiş torpaqlara – Dağlıq Qarabağa bitişik ərazilərə və Dağlıq Qarabağa qayıtmalıdırlar".

Nəticə. Diplomatik uğurların qiymətləndirilməsi meyarı praktikadadır – Azərbaycan dövlətinin şəksiz və qanunauyğun şəkildə ölkənin ümumi qüdrətində əks olunan uğurlarındadır. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev deyir: "Bizim ən böyük kompromisimiz sülh danışıqlarına sadiq qalmağımızdır. Lakin biz bu imkanlardan istifadə etməklə yeni şərait yaratmalıyıq. Bir daha demək istəyirəm ki, hərbi potensialın möhkəmləndirilməsi avtomatik olaraq müharibənin yenidən başlanmasına gətirib çıxarmır. Bu, ən son variantdır. Biz buna hazır olmalıyıq. Hər bir ölkə, o cümlədən müharibə vəziyyətində olan, ərazisi işğal edilmiş ölkə buna hazır olmalıdır. Eyni zamanda, mən əminəm ki, biz bütün siyasi, iqtisadi, diplomatik və regional amillərdən istifadə etməklə Ermənistana güclü təzyiq göstərə bilərik. Bu, artıq hiss edilir". Dağlıq Qarabağ problemi çoxmillətli Azərbaycanın vətəndaşlarının xeyrinə həll ediləcəkdir. Ölkəmiz burada məskunlaşan bütün xalqların ümumi evi olmuşdur və olacaqdır.

ƏDƏBİYYAT

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 1997, 466 s.
2. Şükürov K., Mahmudov Y. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı, Təhsil, 2005, 380 s.
3. Qarabağ Azadlıq Təşkilatı: Qarabağ dünən, bu gün və sabah. Elmi konfransının materialları. Bakı, 2005: [Elektron resurs] / http://anl.az/el/q/qarabag_4/index.htm [28.02.2025].
4. Zülfüqarlı M. İstiqlal tarixini yaradanlar (1972-1992). Bakı, 2006, 211 s.
5. Köçərli T. Qarabağ: yalan və həqiqət. Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, 244 s.
6. Təhlükəsizlik şurasının rəsmi hesabatları.1993-cü ilin oktyabr, noyabr.
7. Azərbaycan Respublikası Prezidentinin saytı: [Elektron resurs] / www.prezident.az [28.02.2025].

НУРЛАН АББАСОВ
Доцент Бакинского государственного университета

СОЗДАНИЯ НКАО В ИСТОРИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ

Помимо видимых или показанных сторон проблемы Нагорного Карабаха, которая является одним из важнейших вопросов в истории Азербайджана XX века, существуют и скрытые истины. Для нашей историографии очень важно раскрыть перед мировым сообществом истинные намерения армян, которые не являются невиновными и угнетенными, как это показано мировому сообществу, и стран, которые поддерживают их ложь, и сделать это с помощью исторических фактов. Мы можем найти и корень проблемы, и пути решения, правильно проанализировав, почему проект «Великая Армения», над которым работали годами, стартовал в 80-х годах 20-го века и какие процессы происходили в мире, в СССР, на Южном Кавказе в эти годы. В то же время нельзя не упомянуть о том, насколько важна личность Гейдара Алиева в решении этого вопроса, как и во всех вопросах, связанных с Азербайджаном в последней четверти XX века. В последние дни нашей истории успешная дипломатическая политика Ильхама Алиева обернулась революцией в решении этой проблемы не только в азербайджанской историографии, но и в мировой историографии в последнее время.

Ключевые слова: Нагорно-Карабахский конфликт, армяне, советское руководство, Армянская ССР, Южный Кавказ, Гейдар Алиев.

NURLAN ABBASOV
Associate professor of Baku Sate University

IN HISTORICAL RESEARCH OF ESTABLISHMENT OF NKAO

Apart from the visible or shown sides of the Nagorno-Karabakh problem, which is one of the most important issues in the history of Azerbaijan in the 20th century, there are also hidden truths. It

is very important for our historiography to reveal the real intentions of the Armenians, who are not innocent and oppressed as shown to the world community, and the countries that support their lies, and to do it with historical facts. We can find both the root of the problem and the solutions by correctly analyzing why the "Great Armenia" project, which has been worked on for years, started in the 80s of the 20th century and what processes took place in the world, in the USSR, and in the South Caucasus during these years. At the same time, it is impossible not to mention how important Heydar Aliyev's identity is in the solution of this issue, as well as in all issues related to Azerbaijan in the last quarter of the 20th century. In the last days of our history, Ilham Aliyev's successful diplomatic policy turned into a revolution in solving this problem, not only Azerbaijani historiography, but also world historiography recently.

Keywords: Nagorno-Karabakh conflict, Armenians, Soviet leadership, Armenian SSR, South Caucasus, Heydar Aliyev.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24); UOT 913.1

ELŞƏN ASLANOV
tarix üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin müəllimi
ORCİD İD: 0000-0002-3823-4350
elshanaslanov@bsu.edu.az

XIX ƏSR - XX ƏSRİN İLK ONİLLİKLƏRİNDƏ CƏNUBİ QAFQAZDA BAŞ VERƏN HADİSƏLƏR FONUNDA QARABAĞIN TARİXİ-SİYASİ COĞRAFİYASI

DOI: https://doi.org/10.36719/2708-065X/108/259-266

XVIII əsrin sonlarında xanlıq şəklində idarə olunan Qarabağ xanlığı XIX əsrin əvvəllərində Cənubi Qafqaz bölgəsində baş verən hadisələrin gedişi sonunda Rusiya hakim dairələrinin təzyiqi altında 1805-ci ildə Kürəkçay müqaviləsi ilə Rusiya vassallığını qəbul etdi. 1813-cü il Gülüstan müqaviləsi nəticəsində İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla, digər Şimali Azərbaycan xanlıqlarının Rusiya imperiyası tərəfindən işğalından sonra Qarabağ xanlığı da 1822-ci ildə ləğv olundu və vilayət kimi imperiyanın tərkibinə daxil oldu. 1828-ci il Türkmənçay müqaviləsindən sonra işğal edilmiş Şimali Azərbaycan ərazilərinin Rusiya imperiyasına daha sıx birləşdirilməsi, həmin ərazilərin imperiyanın bölünməz və ayrılmaz bir hissəsinə çevrilməsi üçün Rusiya hakim dairələri bölgənin strateji əhəmiyyətini nəzərə alaraq regionu öz siyasi nəzarətində saxlamaq, Cənubi Qafqazda mövqelərini gücləndirmək və etnik dayaq yaratmaq məqsədilə Osmanlı və Qacarlar dövlətlərinin ərazilərindən Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının torpaqlarına ermənilərin kütləvi köçürülməsini təşkil etdi. Bu səbəbdən XIX əsrin sonlarınadək Cənubi Qafqaz ərazisində, o cümlədən, Şimali Azərbaycanın bütün bölgələrində, eyni zamanda Qarabağda da inzibati-ərazi dəyişiklikləri həyata keçirdi ki, bu da bütövlükdə bölgənin tarixi-coğrafiyasına öz mənfi təsirini göstərdi. Bu siyasət sonrakı mərhələdə - XX əsrin ilk onilliklərində rus çarizminin müstəmləkəçilk siyasətini davam etdirən rus-daşnak bolşevikləri tərəfindən də davam etdirildi.

Məqalədə Qarabağ bölgəsinin xanlıq dövründə və Rusiya işğalından sonra siyasi sərhədlərinin mənbələrdə əks olunması məsələləri, XIX əsr – XX əsrin ilk onilliklərində inzibati-ərazi baxımından Qarabağ bölgəsinin tarixi-siyasi, eyni zamanda bölgəyə ermənilərin köçürülməsi ilə əlaqədar əhali coğrafiyasında baş verən dəyişikliklər araşdırılır və son iki əsrdə baş verən bu köçürmələrin Azərbaycanın, eləcə də Qarabağ bölgəsinin tarixi-siyasi coğrafiyasına mənfi təsirindən bəhs edilir.

Açar sözlər: XIX əsr - XX əsrin əvvəlləri, Rusiya imperiyası, Qarabağ vilayəti, siyasi coğrafiya, Kürəkçay və Gülüstan müqavilələri, erməni köçürmələri, inzibati-ərazi bölgüsü, dairə və qəzalar, Qarabağ general qubernatorluğu.

Giriş. Qədim və zəngin dövlətçilik ənənələrinə malik, xüsusi ilə çarizm dövründə və sovet hakimiyyəti illərində siyasiləşməyə və təhriflərə ən çox məruz qalan XIX-XX əsrlər dövrü tariximizin yenidən yazılması zərurəti bu gün mühüm aktuallıq kəsb edir. Bu dövrlə bağlı məsələlər içərisində Qarabağ bölgəsinin tarixi-siyasi coğrafiyasının araşdırılması önəmli əhəmiyyətə malikdir. Ümumiyyətlə, tarixi coğrafiya müəyyən bir tarixi dövrdə hər hansı bir ölkənin və regionun fiziki-coğrafi xarakterinin, başqa sözlə, tarixi landşaftının bərqərar olması, bu ərazidə baş vermiş hadisələrin topoqrafik aspektinin, yəni dövlətin və onun bölgələrinin sərhədlərinin, rabitə yollarının, şəhərlərinin, əhali mərkəzlərinin və s. müəyyən edilməsi, ölkənin iqtisadiyyatı ilə bağlı təsərrüfat sahələrinin, əhalinin bu təsərrüfat sahələri üzrə məşğuliyyətinin, məişətinin öyrənilməsi, əhalinin məskunlaşması, yerdəyişmələri və miqrasiyası proseslərinin araşdırılması, dinlərin və mədəniyyətlərin yayılma arealının tədqiqi ilə məşğul olur. Bu baxımdan tarixi coğrafiya müəyyən məkan və zaman daxilində baş vermiş tarixi hadisələrin gedişatını və inkişafını başa düşmək üçün xüsusi əhəmiyyət kəsb edir. Qeyd edək ki, hazırda özündə fiziki, siyasi, iqtisadi coğrafiya, eyni zamanda əhali və mədəniyyətin coğrafiyası istiqamətlərini birləşdirən tarixi coğrafiya ilə işlədiyi dövr və mövzuya müvafiq olaraq hər bir tarixçi az və ya çox

dərəcədə məşğul olur. Məqalədə Qarabağ bölgəsinin xanlıq dövründə və Rusiya işğalından sonra siyasi sərhədlərinin mənbələrdə əks olunması məsələləri, XIX əsr – XX əsrin ilk onilliklərində inzibati-ərazi baxımından Qarabağ bölgəsinin tarixi-siyasi, eyni zamanda bölgəyə ermənilərin köçürülməsi ilə əlaqədar əhali coğrafiyasında baş verən dəyişikliklər araşdırılır və son iki əsrdə baş verən bu köçürmələrin Azərbaycanın, eləcə də Qarabağ bölgəsinin tarixi-siyasi coğrafiyasına mənfi təsirindən bəhs edilir.

Xanlıqlar dövründə Qarabağın tarixi-siyasi coğrafiyası. Qədim sivilizasiyanın beşiyi, ilk insan məskənlərindən biri hesab edilən Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, xalqımızın siyasi, sosial-iqtisadi və mədəni irsinin mərkəzidir. Bölgənin əlverişli coğrafi mövqeyi, iqlimi, bol sulu çayları, münbit torpaqları və təbii ehtiyatları qədimdən burada oturaq həyatı şərtləndirmiş və onun qədim yaşayış məskənlərindən birinə çevrilməsinə səbəb olmuşdur.

Rusiya işğalı ərəfəsində Şimali Azərbaycan ərazisi inzibati baxımdan xanlıqlara, sultanlıqlara, məlikliklərə və mahallara bölünmüşdü [16, 16]. XIX əsrdə Azərbaycanda mövcud olan xanlıqların bir araya gələrək güclü bir dövlət halında birləşməməsi, ölkədə siyasi pərakəndəliyin mövcudluğu sonda Rusiyanın Azərbaycan torpaqlarını işğalı ilə nəticələndi. Həmin dövrdə Şimali Azərbaycandakı Xanlıqlardan biri də Qarabağ xanlığı idi. Qarabağ xanlığının siyasi sərhədləri haqqında xanlığın daxili və xarici işlərində yaxından iştirak etmiş vəziri Mirzə Camal Cavanşir (Qarabağı) "Qarabağ tarixi" əsərində məlumat verir, Qarabağın coğrafi vəziyyətini təsvir edərək, yazırdı: "Qədim tarix kitablarının yazdığına görə, Qarabağ vilayətinin sərhədi belədir: cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər - Araz çayıdır. İndi (Sınıq körpü) Qazax, Şəmsəddin və Dəmirçi Həsənli camaatı arasındadır və Rusiya dövləti məmurları onu rus istilahilə Krasnı most, yəni Qızıl körpü adlandırırlar. Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla sərhədi Kür çayına qədər - Goran çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır. Nəhayət, keçmiş əsrlərdə (burada) iğtişaşlar və dəyişikliklər üz vermiş, bəzən İran, Rum (Türkiyə) və Türküstan padşahları bu vilayətləri fəth edib ayrı-ayrı sərhədlər qoymuş, qalalar tikmiş və onlara başqa adlar vermişlər. Qarabağ vilayəti Aran məmləkətinin bir hissəsidir" [7, 122].

XIX əsrin II yarısında Qarabağın sərhədləri ilə bağlı mənbələrin məlumatları. Xurşudbanu Natəvanın yanında xidmət etmiş, "Tarixi-cədidi-Qarabağ" əsərinin müəllifi Mirzə Rəhim Fənanın əsərində isə Qarabağ əyalətinin hüdudları belə təsvir edilir: "Cənub tərəfdən mis mədənləri olan Qapan dağlarının imidadilə bir yerdə sariyal ru be məşriq gedir Araz çayınadək. Oradan məcrayi-nəhri-Araz ilə bir yerdə şərqdən gedir ta haman suyun qərbdən-şərqə dəryayi-Xəzərə tərəf ari Kür nehrinin məcrasınadək ki, oradan hər iki nehrin suyu bir yerə qarışıb axar dəryayə. Bu nöqtə Qalaqayın adlı qəsəbədir ki, sabiqi Mustafaxanlı pristavına daxildir. Oradan Kür nəhrinin məcrasilə sərhəd şərqdən qərbə qayıdıb Kür nehrilə üzü yuxarı gedir. Sabiqi poçta stansiyonu Türyan çay adlı yerədək ki, Düzdağ burnunda vaqedir. Sərhəd Goran mülkündən yuxarı Düzdağ burnu şimal tərəfdən ru becənub gedir. Mirov dağının ətəyində vaqe Molla Vələdli mülkünədək. Oradan Qara Çinar mülklərinin əmlakını əhatə edib üz yuxarı cənubən haman dağın qarlı və buzlu sarıyalınadək ki, hər yerdən uçaraq nöqtədir və ucalıqda Böyük Qafqaz dağlarına özünü həmduş göstərəndir. Bu nöqtədən şərqdən qərbə tərəf hər yerdə sarıyal sərhəd gedir. Ayrım kəndinin başının üstünədək ki, o kənd vaqedir Tərtər çayının əvvəlinci şaxəsindən olan çeşmələrdən. Bu nöqtədə Mirovdan gələn uca dağlar silsiləsi iki şaxı olub, biri Gəncə uyezdinə tərəf və biri Rumbasır və Kəlbəcər adlı uca dağlar ilə ki, İrəvan quberniyası ilə Gəncə quberniyasının sərhədidir, məzkur dağlar şimaldan üzü cənuba tərəf Qarabağ sərhədidir"[8, 10]. Bölgənin sərhədləri haqqında Mirzə Camal Cavanşirin verdiyi məlumatlar XVIII əsrdə Qarabağın sərhədlərini tam aydın şəkildə əks etdirdiyi kimi, Mirzə Rəhim Fənanın məlumatları da Qarabağın XIX əsr sərhədlərini aydın şəkildə əks etdirir.

Qarabağ vilayətinin sərhədləri: şimalda - Yelizavetpol dairəsi, Şəki və Şirvan vilayətləri, şərqdə - Muğan düzü, cənubda - Naxçıvan vilayəti və Rusiya mülklərini İrandan ayıran Araz çayı, qərbdə - Naxçıvan və İrəvan quberniyaları, Yelezavetrol dairəsi ilə sərhəddə axan Kürəkçay və Qaraçay. Ərazinin sahəsi 13000 kvadrat metrə çatır [12, 255].

Qarabağ xanlığının işğalı və Kürəkçay müqaviləsi. Rusiyanın XVIII əsrin sonu - XIX əsrin əvvəllərində beynəlxalq münasibətlər sistemində və Rusiya daxilində yaranan əlverişli şəraitdən istifadə edən çar Rusiyası XIX əsrin əvvəllərində Cənubi Qafqaza dair Rusiya hakim dairələrində son 100

il ərzində müzakirə olunan planları praktiki olaraq həyata keçirməyə başladı. "Qafqazın arxasında yerləşən rus mülklərinin təsviri"nda qeyd edildiyi kimi, Cənubi Qafqaz ərazisi bütün Rusiya torpaqlarının yalnız $^{1}/_{116}$- ni təşkil etsə də, əhali sayı isə imperiya əhalisinin $^{1}/$50-indən çox olmasa da, lakin "ölkə coğrafi mövqeyinə, iqliminə və torpağının keyfiyyətinə, təbii sərvətləri və siyasi münasibətlərə görə əhəmiyyətli idi" [11, 1]. 1804-cü ildə Gəncənin işğalı Şimali Azərbaycanın, o cümlədən də onun Qarabağ xanlığının işğalına səbəb oldu [5, 73]. Gəncənin işğalından sonra 1804-cü ildə İran hökuməti Rusiyadan qoşunlarını Cənubi Qafqazdan çıxarmağı tələb etsə də Rusiya hökumətinin bu tələbi rədd etməsi və işğalı davam etdirməsi 1804-cü ilin yayında Rusiya-İran müharibəsinin başlamasına səbəb oldu. Belə bir tarixi şəraitdə general P.Sisianovun Qarabağ xanı İbrahimxəlil xana qarşı hərbi təzyiqi gücləndirməsi, eyni zamanda hərbi və texniki cəhətdən üstün olan rus ordusunun əməliyyat fəaliyyətinin artdığı bir şəraitdə çıxılmaz vəziyyətdə qalan İbrahimxəlil xanın xanlığı qoruyub saxlamaq istəyi 1805-ci il may ayının 14-də Qarabağ xanı ilə Rusiya imperiyası qoşunlarının Qafqazda baş komandanı general P.D.Sisianov arasında "Andlı öhdəlik" adlı Kürəkçay müqaviləsinin imzalanması ilə nəticələndi. 1805-ci ilin iyununda Abbas Mirzənin ordusunun ön hissələri Arazı keçərək Şuşaya doğru irəliləsə də İran qoşunu məğlub olaraq geri çəkildi. 1808, 1809, 1810-cu illərdə Abbas Mirzənin Gəncəni, Qarabağı tutmaq cəhdləri də boşa çıxdı.

Kürəkçay müqaviləsinə görə, Qarabağ xanı Rusiya çarının vəssalı olmağına razılıq verir, uçuncü xarici dövlətlər ilə müstəqil münasibətlər saxlamaq hüququndan Rusiya çarının xeyrinə imtina edir [1, 271]. Şuşa qalasında və xanlığın ərazisində Rusiya qoşun dəstələri yerləşdirilirdi. Müqaviləyə əsasən xanlığın daxili idarəetmədə "müstəqilliyi" saxlanılır, eyni zamanda çar hökuməti xanın və onun qanuni varislərinin daxili idarəetmə hüquqlarına heç vaxt toxunmayacağını öhdəsinə götürürdü. Kürəkçay müqaviləsi ikitərəfli dövlətlərarası münasibətləri siyasi yolla, savaşsız həll etmiş bir sənəd [1, 272] kimi görünsə də, 11 maddəlik bu müqavilədə Qarabağ xanlığının siyasi coğrafiyası, yəni ərazisi və siyasi sərhədləri ilə bağlı heç bir məlumat əksini tapmamışdır.

Cənubi Qafqaz uğrunda mübarizənin I mərhələsindən sonra - 1813-cü ildə Rusiya imperiyası və Qacarlar dövləti arasında Şimali Azərbaycan torpaqlarının bölüşdürülməsinə dair bağlanan Gülüstan müqaviləsi ilə Qarabağ xanlığının ərazisi Rusiyanın tərkibinə daxil edildi. Gülüstan müqaviləsindən sonra Şimali Azərbaycan torpaqlarının bir hissəsinin Rusiya dövləti tərəfindən işğalı və bölgədə müstəmləkə idarə sisteminin bərqərar olması Qarabağ xanlığı ilə çar hökuməti arasında bağlanan Kürəkçay müqaviləsini zərbə altına qoydu. Sonuncu Qarabağ xanı Mehdiqulu xan erməni generalı V.Mədətovun fitvası ilə 1822-ci ildə öz doğma yurdundan didərgin düşdükdən sonra, elə həmin ildə Qarabağ xanlığının çar hökuməti tərəfindən ləğv edilməsi ilə Kürəkçay müqaviləsi rəsmi qüvvəsini itirdi.

Rusiya imperiyasının Cənubi Qafqazı işğalından sonra Qarabağ bölgəsinin əhali coğrafiyasında baş verən dəyişikliklər. XIX əsrin ilk otuzilliyində Rusiya bütün Cənubi Qafqazı özünə tabe etdikdən sonra gündəmdə yeni işğal edilmiş ərazilərin imperiyaya daha sıx birləşdirilməsi, onu Rusiyanın bölünməz və ayrılmaz bir hissəsinə çevirmək məsələsi dururdu. Gülüstan və Türkmənçay müqavilələrindən sonra Şimali Azərbaycan torpaqlarını tamamilə işğal edən Rusiya hakim dairələri bölgənin strateji əhəmiyyətini nəzərə alaraq regionu öz siyasi nəzarətində saxlamaq, Cənubi Qafqazda mövqelərini gücləndirmək və etnik dayaq yaratmaq məqsədilə Osmanlı və Qacarlar dövlətlərinin ərazilərindən Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının torpaqlarına ermənilərin kütləvi köçürülməsini təşkil etdi. Burada Qarabağ xanlığına köçürmələrlə bağlı bir məqama da diqqət çəkmək istərdik. Rus hərb tarixçisi V.Potto 1783-cü ildə rus qoşunlarının Gürcüstanı ələ keçirdikləri zaman Erməni dövlətinin azad olunması ilə bağlı layihənin hazırlanması və knyaz Potyomkinin İran, Türkiyə və Rusiya ilə sərhədləri olan və Xəzər dənizində limana malik olan bərpa edilmiş Erməni dövlətinin çarı olmağa can atması ilə bağlı məlumat verir. Onun məlumatlarında qeyd edilir ki, "Qarabağ xanlığından başlamaq - İbrahim xanı devirmək və onun yerinə ermənilərdən hökmdar təyin etmək qərara alınmışdı. Hərbi yürüş 1784-cü ilin yayına nəzərdə tutulurdu. Lakin planların yazıldığı və onların icrasının hazırlandığı müddətdə siyasi şərtlər ciddi surətdə dəyişdi" [15, 718-719]. Buradan da göründüyü kimi rus hərbi dairələri tərəfindən Qarabağ xanlığı ərazisinə ermənilərin köçürülməsi siyasi məqsəd daşıdığı üçün təsadüfi deyildi. Bu köçürmələr sonrakı dövrlərdə çar Rusiyası hökumətinin təhriki ilə ermənilər tərəfindən Azərbaycan türk-müsəlman əhalisinin kütləvi qırğını, deportasiyası və soyqırımı ilə nəticə-

lənməklə yanaşı, xüsusilə, Zəngəzur, Naxçıvan və Qarabağ bölgələrinin siyasi, sosial-iqtisadi və etnomədəni həyatına ciddi zərbə vurdu, bölgənin əhali coğrafiyasında ciddi dəyişikliklərə səbəb oldu.

Rusiyanın Qarabağı işğalı bütün bölgələrdə olduğu kimi, Xankəndinin də taleyinə ciddi təsir etdi. Əvvəlki həyat tərzi dağıdılır, Azərbaycan cəmiyyəti üçün ənənəvi olan sülalələr bölgüsü qadağan edilir, hər şey imperiyanın maraqlarına tabe etdirilirdi. Keçmiş Qarabağ xanlığının ərazisində tez-tez baş verən üsyanların qarşısını almaq üçün bütün ərazi boyu yerləşdirilən rus hərbi hissələri Xankəndində də yerləşdirildi. 1813-cü il Gülüstan müqaviləsinə qədər kiçik yaşayış məskəni olan Xankəndində xan ailəsinin və ona yaxın azsaylı əyanların üzvləri yaşayırdılar. Əslində Xankəndi Qarabağlı İbrahimxəlil xanın şəxsi malikanəsi olmuşdur. Kəndin abadlaşması və inkişafında İbrahimxəlil xanın oğlu Mehdiqulu xanın xidmətləri böyük olmuşdur [4, 10] və o, Xankəndini özü üçün yaşayış məskəni seçmişdi.

1847-ci ildə Xankəndində rus hərbi hissələrinin yerləşdirilməsi bir tərəfdən çara tabe olmaq istəməyən Şuşanı və ətrafdakı xeyli Azərbaycan məskənlərini nəzarətdə saxlamaq, digər tərəfdən, Xankəndiyə İrandan köçürülən və rus hərbi bazalarında onlara qulluq edəcək erməni ailələrini yerləşdirmək planını həyata keçirmək baxımından ruslar üçün əlverişli idi. Çünki, XIX əsrin əvvəllərində rus məmurları tərəfindən tərtib edilmiş rəsmi sənədlərin məlumatlarından da aydın olur ki, "Şuşanın ən qədim məhəlləsi olan, sonralar Aşağı məhəllə adlandırılan Təbrizli məhəlləsində yaşayan 162 ailənin hamısı azərbaycanlılardan ibarət idi" [13, 8-9]. Çar məmurlarına, digər bölgələrdə olmasa da, Xankəndində etnik balansı müəyyən qədər pozmaq mümkün oldu. 1813-ci ildə Xankəndində heç bir erməni və rus ailəsi yaşamadığı halda, artıq 1847-ci ildə orada 80 erməni, 52 rus ailəsinin yaşadığı ev və erməni kilsəsi olduğu bildirilir [4, 22]. Çar hökuməti məmurlarının köməyi ilə Zəngəzurdan köçürülən erməni ailələri Xankəndində məskunlaşdırıldı və 1898-ci ildən sonra Xankəndi hərbi qərargaha çevrildi.

XIX əsrdə Qarabağ bölgəsinin inzibati-ərazi dəyişiklikləri. Rusiyanın işğalından sonra Gürcüstandan fərqli olaraq, Şimali Azərbaycanda xanlıq idarəetmə sisteminin dağılması və onun yeni, əsasən hərbi hökumətlə əvəzlənməsi xeyli vaxt apardı. XIX əsr Şimali Azərbaycan çar Rusiyası imperiyası tərəfindən işğal edildikdən sonra ərazidə imperiyanın siyasətinə uyğun inzibati-ərazi idarəetmə sistemi yaradılmağa başladı. Azərbaycan vilayətləri iki dairədə birləşdirilmişdi. Qarabağ xanlığı ləğv edildikdən sonra Qarabağ vilayəti 1824-cü ildə yaradılan və mərkəzi Şuşa şəhəri olan hərbi Müsəlman dairəsinə daxil edildi. "Qafqazın arxasında yerləşən rus mülklərinin təsviri"nda də Qarabağ vilayəti Müsəlman əyalətlərinin hərbi dairəsində göstərilir və burada qeyd olunur ki, öz xanı olan Qarabağ vilayəti, 15925 verstdən (rus uzunluq vahidi 1,06 km-ə bərabərdir- E.A.) çox ərazini tutur [11, 20].

Vilayətlərdə əvvəllər xanlıqlarda mövcud olan köhnə inzibati-ərazi bölgüsü mahallar qorunub saxlanılmışdır. Qarabağ vilayətinin 1823-cü il təsvirində [13] 20 mahal qeyd olunduğu halda, 1832-ci ildə Qarabağ vilayəti 14 mahala bölünürdü.

Xanlığın ləğvindən sonra Şimali Azərbaycanın digər yerlərində olduğu kimi Qarabağ ərazisində də "xan hakimiyyəti çarizm dövründə müstəmləkə idarəçiliyinin ən qəddar formalarından biri – komendantların və digər məmurların özbaşınalığı və kütləvi sui-istifadələri ilə xarakterizə olunan hərbi komendant nəzarəti ilə əvəz olundu" [9, 100]. Lakin bu idarə üsulu çarizmin Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda siyasi dayaqların möhkəmləndirilməsinə cavab vermədiyi üçün və eyni zamanda, 1830-cu il üsyanlarının təsiri nəticəsində Çar hökuməti Cənubi Qafqazda 1840-cı il 10 aprel inzibati-hərbi islahatını həyata keçirdi. Komendant üsul-idarəsi ləğv olundu və burada da Ümumrusiya inzibati sistemi yaradıldı. Komendant idarəçiliyinin ləğvi və onun imperiyanın daxili quberniyalarındakı idarəetməyə oxşar olan yeni sistemlə əvəz edilməsi əslində çarizmin Zaqafqaziyada öz hökmranlığını gücləndirmək istəyindən irəli gəlirdi.

1840-1850-ci illərdə Şimali Azərbaycanda quberniya və qəza inzibati-idarə sistemi tətbiq edildi. 10 aprel 1840-cı il il qanununa əsasən Cənubi-Qafqazda Gürcüstan-İmeretiya quberniyası və hərbdairəvi idarəçiliklə Xəzər vilayəti yaradıldı. Xəzər vilayəti tərkibində yaradılan 7 qəzadan biri də Qarabağ qəzası idi. 1840-cı il islahatı ilə Qarabağ əyalətindən qəzaya çevrian Qarabağ anlayışının siyasi mənası itmiş, o yalnız coğrafi anlayış kimi qalmışdı.

1846-cı il 14 dekabr tarixli əsasnaməyə əsasən Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayəti ləğv edilərək onların yerində Tiflis, Kutaisi, Dərbənd və Şamaxı quberniyaları yaradıldı. Bu əsas-

naməyə əsasən Azərbaycan ərazisində olan bəzi qəzaların adları dəyişdirildi. Şamaxı quberniyasına daxil olan Qarabağ qəzası Şuşa qəzası adlandırıldı.

1849-cu il iyunun 9-da yaradılan və 1850-ci il yanvarın 1-dən fəaliyyətə başlayan İrəvan quberniyasının tərkibinə İrəvan və Naxçıvan xanlıqlarının əraziləri ilə yanaşı, Şuşa qəzasının Mehri mahalı və Qapan kəndi də daxil edilmişdi.

1859-cu il zəlzələsindən sonra quberniya mərkəzinin Şamaxıdan Bakıya köçürülməsindən sonra Şamaxı quberniyası Bakı quberniyası adlandırıldı və Şuşa qəzası Bakı quberniyanın tərkibində qaldı. 1868-ci ildə Yelezavetpol quberniyası yaradılarkən onun tərkibinə verilən qəzalardan biri də Bakı quberniyasını Şuşa qəzası və İrəvan quberniyasının ləğv edilmiş Ordubad qəzasının 1850-ci ildə Şuşa qəzasından alınmış Mehri sahəsi idi.

XIX əsrin 70-ci illərinin əvvəllərində Nuxa, Şuşa və Ordubad əraziləri hesabına bir sıra yeni qəzalar da təşkil olundu. Belə ki, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarının təşkili ilə Şuşa qəzası vahid inzibati-siyasi idarəsini itirdi. Qarabağ bölgəsinin Zəngəzur qəzasının tarixi-siyasi coğrafiyası ilə bağlı inzibati-ərazi bölgüsü B.Budaqovun redaktorluğu ilə nəşr olunan "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası"nda əksini tapmışdır. Çar hakim dairələri tərəfində belə inzibati ərazi bölgüsü xüsusi məqsədlə həyata keçirilmişdi. Bu islahatlar ermənilərin idarə sistemində daha geniş təmsil edilməsinə hərtərəfli imkanlar açdı.

1881-ci ildə ləğv edilən Qafqaz canişinliyi sisteminin 1905-ci ilin fevralından yenidən bərpası ilə quberniyalarda geniş səlahiyyətlərə malik müvəqqəti general qubernatorluq təsisatları yaradıldı. Yelezavetpol quberniyasında iki müvəqqəti general-qubernatorluq yaradıldı. Bunlardan biri Zəngəzur, Cavanşir, Cəbrayıl və Şuşa qəzalarını, digəri isə başqa qəzaları əhatə edirdi [9, 247].

XX əsrin ilk onilliklərində baş verən hadisələrin Qarabağ bölgəsinin tarixi-siyasi coğrafiyasında əksi. 1905-1907-ci illər inqilabı dövründə çarizm Cənubi Qafqazda, o cümlədən Azərbaycanda etnik münaqişə ocağı yaratmaqla mühüm bir vəzifəni həll etdi - "Daşnaksütyun" partiyasının hərbi dəstələrinin əsas zərbə istiqamətini rus hökumətindən Azərbaycan türklərinə doğru yönəltdi. "Daşnaksütyun" partiyası, özünün "Böyük Ermənistan" yaratmaq xülyası ilə, Cənubi Qafqazda azərbaycanlılarla ermənilər arasında qanlı toqquşmaların meydana çıxmasında çirkin bir rol oynadı [2, 43]. M.S.Ordubadi 1905-1906-cı illlərdə baş verən qırğınlardan bəhs edərkən yazır: "Şuşada, Bakıda, Cəbrayıl və Cavanşir, həmçinin Zəngəzur uyezdlərində daşnaksutyunlardan bir çox cinayətlər peyda olmuşdur" [14, 12]. Eyni zamanda müəllif həmin dövrdə baş verən bu qırğınların 4 səbəbindən biri kimi o, ermənilərin ərazi iddialarını qeyd edir, Bakı, Naxçıvan, İrəvan, Gəncə, Tiflislə yanaşı, Qarabağ bölgəsinin Şuşa, Cəbrayıl-Qaryagin, Cavanşir, Zəngəzur qəzalarında baş verən faciələrdən bəhs edir və qırğınları təsvir edir.

Çarizmin "parçala və hökm sür" prinsipinə əsaslanan müstəmləkəçilik siyasəti Cənubi Qafqaz xalqları arasındakı ziddiyyətlərin süni şəkildə dərinləşdirilməsinə və onların bir-birinə qarşı düşmənçiliyinin daha da güclənməsinə yönəlmişdi ki, bu sonrakı mərhələdə də özünü göstərdi. Sərhədlərin dəqiq müəyyənləşdirilməsi ərəfəsində hər bir tərəf qonşuların hesabına öz ərazisini genişləndirməyə çalışırdı [2, 247]. Bu səbəbdən 1918-ci ildə Qarabağ və Zəngəzurun ilhaq edilməsi daşnakların başlıca məqamı idi, daşnak hökuməti gələcəkdə bu torpaqları ilhaq etmək üçün vacib şərt olan etnik təmizləmə siyasətini isə "asi", "üsyankar" kimi qələmə verdiyi Andranikin simasında həyata keçirirdi [3, 58]. 1918-ci ilin yayında və payızında Ermənistan hökumətinin göstərişi ilə Andranikin quldur dəstələri Azərbaycanın dövlət sərhədlərini pozdu. Andronikin yerli türk-müsəlman əhalisini məhv edə-edə Qarabağ hüdudlarını keçməsi ermənilər ruhlandırdı, onlar Azərbaycan hökumətinin 3 dəfə xəbərdarlığına baxmayaraq, qurultay keçirərək Qarabağın Ararat Respublikasına birləşdiyini elan etdilər. Azərbaycan hökuməti Andronikin törətdiyi qətl-qarət haqqında Ermənistan hökumətinə nota göndərərək bu hərəkətlərin qarşısının alınmasını tələb etsə də, Ermənistan hökuməti Andronikin hərəkətlərinin ona dəxli olmadığını bildirdi [10, 172]. Zəngəzur, Qarabağ və Naxçıvanda ermənilər tərəfindən törədilən soyqırım cinayətləri ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 20 dekabr 1918-ci il tarixli dördüncü fövqəladə iclasında müzakirəyə çıxarıldı [3, 55]. Baş verən bu hadisələr 1919-cu yanvarın 13-də Daxili İşlər Nazirliyinin təklifi ilə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən Qarabağ müvəqqəti general-qubernatorluğunun təsis olunması haqqında qərarın qəbul edilməsi ilə nəticələndi və Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətində Hərbi nazir olmuş Xosrov bəy Sultanov

Qarabağın general-qubernatoru təyin edildi. Avqust ayının 15-də Qarabağ general-qubernatorluğunun fəaliyyəti nəticəsində Qarabağın erməni əhalisi Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinə tabe olmaqla bağlı hökumət ilə saziş imzaladılar. Andronikin və digər erməni quldur dəstələrinin Qarabağa basqınlarına son qoyuldu. Qarabağa və Zəngəzura olan iddialarından əl çəkməyən erməni təcavüzkarları 1920-ci il mart ayının 22-də yenidən bu ərazilərə hücum edərkən baş qərargah rəisi general-mayor Həbib bəy Səlimanovun başçılığı altında Ağdamda yaradılan xüsusu qərargahın döyüşçüləri aprelin 3-də hücuma keçərək əvvəl Əsgəranı, sonra Xocalını azad etdilər, aprelin 5-də isə Şuşaya daxil oldular. Ermənilərin mərkəzinə çevrilmiş Keşişdağ uğrunda döyüşlərdə Azərbaycan ordusunun qələbəsi ilə Qarabağda baş verən növbəti qiyam da yatırıldı. Lakin Qarabağ münaqişəsi hökuməti ordunun əsas qüvvələrini şimal hududlarından çəkərək ölkənin qərbində - Qarabağda yerləşdirməyə məcbur etdi [6, 73]. Bu isə sonda ölkənin XI qırmızı ordu dəstələrinin təcavüzü qarşısında əliyalın qalmasına və Azərbaycan torpaqlarının 1920-ci il aprel ayının 28-də Sovet Rusiyası tərəfindən zəbt olunmasına gətirib çıxardı.

Nəticə. Beləliklə, XIX əsrdə baş verən hadisələrin gedişində Azərbaycan xanlıqlarının vahid dövlət halında birləşə bilməməsi Şimali Azərbaycan xanlıqlarının, o cümlədən Qarabağ xanlığının Rusiya tərəfindən işğalına səbəb olmaqla, ölkənin tarixi coğrafiyasında ciddi dəyişikliklərə səbəb oldu. İşğaldan sonra çar Rusiyası bu bölgəyə ermənilər köçürməklə özünə sadəcə xristianlardan ibarət etnik dayaq yaratmadı, eyni zamanda gələcəkdə də bölgədə hegemonluğunu davam etdirmək üçün milli zəmində baş verəcək münaqişə və qırğınlar üçün zəmin hazırladı. İşğaldan sonra çarizmin müstəmləkəçilik sisteminin maraqlarına xidmət edən və həyata keçirilən inzibati-ərazi və idarəçilik sistemində baş verən dəyişikliklər Azərbaycan ərazilərinin parçalanmış vəziyyətə gətirilməsinə, bölgənin ənənəvi ərazi sistemindən məhrum olmasına gətirib çıxardı. Rusiya işğalının ilk mərhələsindən başlanan bu siyasət XX əsrin ilk onilliklərində çar Rusiyasının maraqlarını davam etdirən rus-daşnak bolşevik qüvvələri tərəfindən də davam etdirildi və bu dəfə Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı ilə nəticələndi.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi üzrə qaynaqlar. B., Azərbaycan Universiteti nəşriyyatı, 1989, 328 s.
2. Balayev A. Azərbayan Cümhuriyyətinin doğuşu. 1917-1918-ci illər milli mücadiləsi. B., JekoPrint Çap Evi, 2022, 368 s.
3. Əmrahov Z. Azərbaycan Parlamentarizmi tarixi – 100. B., Elm və təhsil, 2018, 268 s.
4. Hacıyev Q., Çingizoğlu Ə. Qarabağlı hərbçilər: Çar və AXC ordusunun zabitləri (tarixi ensiklopedik tədqiqat). B., Təknur, 2011, 319 s.
5. Hüseynov Y. Azərbaycanın Qarabağ bölgəsinin tarixi. B., Afpoliqraf, 2019, 208 s.
6. İsmayılov S. Azərbaycan Xalq Cümhuriyyətinin parlament sənədləri 1918-1920-ci illər Vətən tarixini öyrənmək üçün mənbə kimi. B., Ecoprint, 2019, 216 s.
7. Qarabağnamələr. I kitab. B., "Şərq-Qərb", 2006, 216 s.
8. Qarabağnamələr. Mirzə Rəhim Fəna. Tarixi-cədidi-Qarabağ. III kitab, B., Şərq-Qərb, 2006, 248 s.
9. Мильман А. Политический строй Азербайджана в XIX- начале XX вв. (административный аппарат и суд, формы и методы колониального управления). Б., Azərnəşr, 1966, 318 с.
10. Nəsibzadə N. Azərbaycan xarici siyasəti (1918-1920). B., "Ay-Ulduz" nəşriyyatı, 1996, 304 s.
11. Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях. ч.I, С-Петербург, Тип. департамента внешней торговли, 1836, 421 с.
12. Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях. ч.III, С-Петербург, Тип. департамента внешней торговли, 1836, 406 с.
13. Описание Карабагской правинции, составленное в 1823. По распоряжению главно управлявшаго в Грузии Ермолова действительным статским советником Могилевским и полковником Ермоловым 2-м. Тифлис, Типография главного управления наместника Кавказского", 1866, 309с.
14. Ordubadi M.S. Qanlı illər. B., "Qafqaz" nəşriyyat evi, 2007, 184 s.

15. Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях. Персидская война 1826-1828 г., т.III, вып.I, изд.2-е, С.-Петербург, Тип. Е. Евдокимова,1888, 793с.
16. Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). B., ELM, 2004, 180 s.

ЭЛЬШАН АСЛАНОВ
доктор философии по историческим наукам,
преподаватель Бакинского государственного университета

ИСТОРИКО-ПОЛИТИЧЕСКАЯ ГЕОГРАФИЯ КАРАБАХА НА ФОНЕ СОБЫТИЙ НА ЮЖНОМ КАВКАЗЕ В XIX И ПЕРВЫХ ДЕСЯТИЛЕТИЯХ XX ВЕКА

Карабахское ханство, правившее в конце XVIII века в виде ханства, в начале XIX века под давлением российских правящих кругов в конце хода событий на Южном Кавказе приняло вассальную зависимость от России по Кюрекчайскому договору 1805 года. После оккупации Российской империей других северных азербайджанских ханств, за исключением Иреванского и Нахичеванского ханств в результате Гюлистанского договора 1813 года, Карабахское ханство также было упразднено в 1822 году и вошло в состав империи в качестве провинции. Для более тесного присоединения территорий Северного Азербайджана, оккупированных после Туркменчайского договора 1828 года, к Российской Империи, превращения этих территорий в неделимую и неотъемлемую часть империи, российские правящие круги, учитывая стратегическое значение региона, стремились сохранить свой политический контроль над регионом, укрепить свои позиции на Южном Кавказе и создать этническую опору, в результате было организовано массовое переселение армян с территорий Османской и Каджарской держав на земли Иреванского, Нахичеванского и Карабахского ханств Азербайджана. По этой причине до конца XIX века на территории Южного Кавказа, в том числе во всех районах Северного Азербайджана, а также в Карабахе, осуществлялись административно-территориальные преобразования, которые оказали негативное влияние на историко-географию региона в целом. Эту политику продолжили и русско-дашнакские большевики, которые на более позднем этапе-в первые десятилетия XX века-продолжили ненавистную политику русского царизма.

В статье рассматриваются вопросы, отражающие в источниках политических границ Карабахского региона в период ханства и после российской оккупации, историко – политические изменения Карабахского региона в административно-территориальном отношении в XIX-первых десятилетиях XX века, а также изменения в географии населения, связанные с переселением армян в этот регион, и рассматриваются исторические и политические изменения Карабахского региона, произошедшие за последние два столетия, также его негативном влиянии на историко-политическую географию Азербайджана и, в частности, Карабаха.

Ключевые слова: XIX век - начало XX века, Российская империя, Карабахская провинция, политическая география, Кюракчайский и Гюлистанский договоры, армянское переселение, административно-территориальное деление, округ и уезды, Карабахское генерал-губернаторство.

ELSHAN ASLANOV
PhD in History,
Lecturer of Baku State University

HISTORICAL-POLITICAL GEOGRAPHY OF KARABAKH AGAINST THE BACKGROUND OF EVENTS IN THE SOUTH CAUCASUS IN THE 19TH - EARLY DECADES OF THE 20TH CENTURY

The Karabakh Khanate, which ruled as a khanate at the end of the XVIII century, assumed vassalage from Russia in the early XIX century under the pressure of the Russian ruling circles at the

end of the course of events in the South Caucasus under the Treaty of Kurekchay in 1805. After the occupation of the other northern Azerbaijani khanates by the Russian Empire, with the exception of the Irevan and Nakhichevan khanates as a result of the Gulistan Treaty of 1813, the Karabakh Khanate was also abolished in 1822 and became part of the empire as a province. In order to more closely annex the territories of Northern Azerbaijan occupied after the Treaty of Turkmenchay in 1828 to the Russian Empire and turn these territories into an indivisible and integral part of the empire, the Russian ruling circles, taking into account the strategic importance of the region, sought to maintain their political control over the region, strengthen their positions in the South Caucasus and create an ethnic stronghold, as a result mass resettlement of Armenians from the territories of the Ottoman and Qajar powers to the lands of the Irevan, Nakhichevan and Karabakh khanates of Azerbaijan has been organized. For this reason, until the end of the XIX century, administrative and territorial transformations were carried out on the territory of the South Caucasus, including in all regions of Northern Azerbaijan, as well as in Karabakh, which had a negative impact on the historical geography of the region as a whole. This policy was continued at a later stage - by the Russian-Dashnak Bolsheviks, who continued the abhorrent policy of Russian Tsarism in the first decades of the twentieth century.

The article examines the issues reflecting in the sources of the political borders of the Karabakh region during the Khanate and after the Russian occupation, the historical and political changes of the Karabakh region administratively in the XIX–first decades of the XX century, as well as changes in the geography of the population associated with the resettlement of Armenians to this region, and examines historical and political changes, the events that have taken place in the Karabakh region over the past two centuries, as well as its negative impact on the historical and political geography of Azerbaijan and, in particular, Karabakh.

Keywords: XIX century - early XX century, the Russian Empire, the Karabakh province, the political geography, Kurakchay and Gulistan treaties, the Armenian resettlement, the administrative-territorial division, district and counties, Karabakh Governor-Generalship.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 26 dekabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Səidə Əli qızı, t.e.d. Anar İsgəndərov.

UOT 371.31

MƏCİD İSMİXANOV
Bakı Dövlət Universiteti,
Pedaqogika kafedrasının professoru
m.ismixanov@mail.ru

RƏFİQƏ BƏXTİYAROVA
p.ü.f.d., Bakı Dövlət Universiteti
rafiqabaktiyarova@mail.ru

TƏHSİL VƏ CƏMİYYƏT: MÜASİR TƏLƏBLƏR VƏ PRİORİTET İSTİQAMƏTLƏR

DOI: https://doi.org/10.36719/2708-065X/108/267-272

Məqalədə cəmiyyət və təhsilin qarşılıqlı vəhdəti, cəmiyyətin sosial-iqtisadi və mənəvi tərəqqisində təhsilin rolu şərh olunmuşdur. Müəlliflər sosial-pedaqoji tədqiqatların, habelə məktəb təcrübəsinin təhlili və ümumiləşdirilməsi əsasında təhsil keyfiyyətinin və insan kapitalının inkişafı üçün cəmiyətin yaratdığı əlverişli şəraiti, təhsil islahatları ilə bağlı prioritet istiqamətləri nəzərdən keçirmişlər. Eləcə də cəmiyyətin sosial-iqtisadi inkişafında təhsilin rolu, onun reallaşdırılması imkan və şərtləri məqalədə öz əksini tapmışdır.

Açar sözlər: təhsil, cəmiyyət, təhsil sistemi, təhsil islahatı, təhsilin inkişaf strategiyası.

Giriş. Cəmiyyət və təhsil qarşılıqlı vəhdət təşkil edir: təhsilin inkişafı cəmiyyətin tələbatından, sosial-iqtisadi inkişafından asılı olduğu kimi, təhsil də, öz növbəsində, cəmiyyətin sosial-iqtisadi və mənəvi tərəqqisində həlledici rol oynayır. "Təhsil əsri" adlanan XXI yüzillikdə təhsil sistemi cəmiyyətin tələbatına uyğun olaraq dəyişir, inkişaf edir, yeniləşir. Təhsil sistemi cəmiyyətin inkişafı ilə ayaqlaşmalı, qarşıya qoyulan tələblərə cavab verməlidir. Cəmiyyətin təhsil sistemi qarşısında qoyduğu başlıca tələb təhsili dünya standartlarına uyğun qurmaqla onun sosial-iqtisadi rolunu artırmaqdan, insan kapitalını inkişaf etdirməkdən, böyüyən nəsillərin dərin bilik, bacarıq və həyati səriştələrə yiyələnməsini təmin etməkdən, onları yüksək ideyalı, mənəviyyatlı, müstəqil və yaradıcı düşünən layiqli vətəndaş və şəxsiyyət kimi cəmiyyət həyatına hazırlamaqdan ibarətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu münasibətlə demişdir: "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir".

Yüksək təhsilli peşəkar kadrlar ölkənin intellektual potensialının əsasını təşkil edir. Ölkənin sosial-iqtisadi inkişafı peşəkar kadrların və insan kapitalının məqsədyönlü inkişafı hesabına əldə edilir. Təhsilə qoyulan vəsait cəmiyyət üçün yüksək iqtisadi gəlirliyə malikdir. Təhsilin sosial-iqtisadi rolunu artırmaq təhsil sistemini yeniləşdirməyi, təhsilin keyfiyyətini yüksəltməyi, verilən bilik və bacarıqların iqtisadi amilə çevrilməsini təmin etməyi tələb edir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda (2013) göstərildiyi kimi, cəmiyyətin sosial-iqtisadi həyatının müasirləşməsində təhsilin rolu təkcə təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onun biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir [2].

Təhsil sistemi cəmiyyətin inkişafı və artan tələbləri ilə, dəyişən şəraitlə ayaqlaşmaqla vətəndaşların təhsil hüququnu dolğun təmin etməyə yönəlir. Bu sistemin səmərəliliyinin əsas göstəricisi məhz vətəndaşların – uşaq və gənclərin, yaşlı nəslin yüksək təhsil (bilik) səviyyəsindən ibarətdir. Cəmiyyət üzvlərinin təhsil və mədəni səviyyəsinin, zehni və mənəvi inkişafının yüksəldilməsi və bunun üçün əlverişli şəraitin yaradılması təhsil sisteminin strateji məqsədini təşkil edir.

Cəmiyyət üçün vətəndaş, layiqli şəxsiyyət hazırlığı təhsil sistemi vasitəsi ilə həyata keçirilir. Təhsil sistemi *üstqurum hadisəsi* olub, bazisə – cəmiyyətin iqtisadi-ictimai münasibətlər sisteminə

xidmət edir və ona qüvvətli təsir göstərir. Cəmiyyətin inkişafı, ilk növbədə, onun üzvlərinin təhsil səviyyəsi ilə şərtlənir. Yaxşı təhsil almış yüksək ixtisaslı mütəxəssislər cəmiyyətin bütün sahələrində – iqtisadiyyat, elm və texnika, təhsil və mədəniyyət, təbabət, inşaat, sənaye və kənd təsərrüfatı, dövlət qulluğu, hərbi quruculuq və s. sahələrində uğurla və yaradıcılıqla çalışıb, həmin sahələrin inkişafına kömək göstərə bilərlər. Buna görə də təhsil və elm cəmiyyətin strateji vəzifəsi sayılır və inkişaf etmiş ölkələrdə ona birinci dərəcəli əhəmiyyət verilir. Cəmiyyətin, dövlətin gücü, hər şeydən əvvəl, təhsillə və elmlə bağlıdır.

Həyat göstərir ki, *dövlətin, millətin tərəqqi yolu təhsildən, elmdən keçir*: heç bir millət qılıncla, tüfənglə irəli getmir, hansı millət qabağa gedib tərəqqi edirsə, o ancaq təhsilin, elmin gücünə xoşbəxt olur (N.Nərimanov). Bunu tarixi təcrübə də sübut edir: II Dünya müharibəsində məğlub olmuş Yaponiya və Almaniya kimi dövlətlər təhsilin, elmin və yeni texnologiyaların inkişafı, ümumiyyətlə, insan kapitalının inkişafı sayəsində qısa tarixi dövrdə dünyada inkişaf etmiş dövlətlər sırasına çıxa bildilər. İqtisadi cəhətdən qüdrətli dövlət təhsilin və elmin sürətli inkişafına təkan verir, cəmiyyətdə təhsilin və elmin, təhsil və elm adamlarının nüfuzunun yüksəlməsinə hər vasitə ilə kömək göstərir, yaradıcı mütəxəssisləri, elm adamlarını hər cəhətdən (maddi və mənəvi cəhətdən) stimullaşdırır. İnkişaf etmiş ölkələrə dünyanın hər yerindən "beyin axını" da bununla bağlıdır.

Cəmiyyətdə insan amili hər sahədə mühüm rol oynayır. İnsanların maddi vəziyyətinin yaxşılaşması ilə yanaşı, onların mənəvi, hüquqi, iqtisadi və ekoloji mədəniyyətinin səviyyəsi də yüksəlməlidir. Yoxsa, cəmiyyətə zidd psixologiyanın təzahürləri özünü göstərə bilər; bələləri həm özlərinə, həm də sosial əhatələrinə, cəmiyyətə ziyan vura bilərlər. Tərbiyə işinin bünövrəsi ailədə və məktəbdə qoyulur. İnsanın necə böyüməsi, həyatda necə yer tutması, əsas etibarilə, onun uşaqlıq və gənclik illərindən aldığı tərbiyədən asılıdır. Tərbiyə işinin ustası, görkəmli Ukrayna pedaqoqu A.S.Makarenko bu məsələdən bəhs edərək valideyn və tərbiyəçilərə müraciətlə deyirdi ki, uşaqların böyüdülməsi və tərbiyə olunması böyük, ciddi və olduqca məsuliyyətli işdir. Biz uşaqları tərbiyə etməklə ölkəmizin gələcək tarixini və deməli, dünya tarixini tərbiyə edirik. Böyük pedaqoqun bu sözlərini hər bir valideyn və müəllim daim yadda saxlamalıdır: "Düzgün tərbiyə bizim xoşbəxt qocalığımızdır, pis tərbiyə bizim gələcək dərdimizdir, gələcək göz yaşlarımızdır, bizim başqa adamlar qarşısında, bütün ölkə qarşısında təqsirimizdir".

Böyük pedaqoq haqlı idi; məktəb və ailə tərbiyə ocağı kimi, uşaqların yaxşı təhsil və tərbiyə alması və layiqli şəxsiyyət – vətəndaş kimi cəmiyyətə qovuşması üçün öz məsuliyyətlərini dərk etməlidir. Bundan həm ailə və məktəb, həm də cəmiyyət qazanır.

Təhsil və tərbiyə sistemi cəmiyyətin tələbatı, ictimai-iqtisadi və sosial-mədəni inkişafı ilə bağlı olduğu üçün cəmiyyətin tələbatına uyğun olaraq dəyişir, yeniləşir. Təhsil və tərbiyə cəmiyyətin inkişafı ilə ayaqlaşmalı, qarşıya qoyulan tələblərə cavab verməlidir. Hazırda cəmiyyətimiz sosial-siyasi, ictimai-iqtisadi, elmi-texniki, mədəni-mənəvi və s. cəhətdən sürətlə inkişaf edir. İnkişaf etmiş cəmiyyət hər sahədə olduğu kimi, təhsil sistemi qarşısında da yeni, yüksək tələblər və vəzifələr qoyur. *Cəmiyyətin təhsil sistemi qarşısında qoyduğu başlıca tələb* təhsili dünya standartlarına uyğun qurmaqla onun sosial-iqtisadi rolunu artırmaqdan, insan kapitalını inkişaf etdirməkdən, böyüyən nəsillərin dərin bilik, bacarıq və həyati səriştələrə yiyələnməsini təmin etməkdən, onları yüksək ideyalı, mənəviyyatlı, müstəqil və yaradıcı düşünən layiqli vətəndaş və şəxsiyyət kimi cəmiyyət həyatına və səmərəli əmək fəaliyyətinə hazırlamaqdan ibarətdir.

Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir. Müasir təhsil sistemi qarşısında duran mühüm vəzifələrdən biri insanın ömür boyu təhsil almaq imkanını təmin etməkdən ibarətdir. Sürətli texnoloji tərəqqi insandan öz bilik və bacarıqlarını daim yeniləşdirməyi, ehtiyac olduqda ixtisasını dəyişməyi, həyatın tələblərinə çevik şəkildə uyğunlaşmağı tələb edir. Ömür boyu təhsil insanın öz bilik və bacarıqlarını daim artırmasına, yeni əmək sahələrində özünü təsdiq etməsinə, bir şəxsiyyət kimi inkişafına, dəyişən həyata və əmək şəraitinə adaptasiyasına imkan verir. Bu isə, nəticə etibarilə, təhsilin sosial həyatda rolunun yüksəlməsində, "təhsil cəmiyyətinin" formalaşmasında mühüm amil kimi böyük əhəmiyyət kəsb edir [5, s.28].

Müasir dövrdə təhsil sistemi qarşısında qoyulan mühüm vəzifələrdən biri təhsildə qloballaşma və inteqrasiya ilə bağlıdır. Təhsil sistemi açıq sistem kimi dünya təhsil təcrübəsini nəzərə almaqla,

mütərəqqi cəhətlərdən yararlanmaqla, dünya təhsilinə, xüsusən Avropa təhsil məkanına inteqrasiya etməklə inkişaf edir. Təhsilimizin qlobal sistemə inteqrasiyası onu daha da inkişaf etdirməyə, rəqabətə qabilliyini yüksəltməyə imkan verir. Ölkəmizdə aparılan məktəb islahatı da məhz buna yönəlmişdir. Müstəqil Azərbaycanın memarı, ölkəmizdə təhsil islahatının əsasını qoymuş Ulu öndər Heydər Əliyev demişdir: "İndi təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycan təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşsın". Ölkəmizdə təhsil islahatlarının tətbiqində əldə edilmiş uğurlar Ulu öndərin uzaqgörənliyini və qətiyyətini bir daha sübut etdi.

İnkişaf etmiş cəmiyyət təhsil qarşısında yeni, daha yüksək vəzifələr qoyur: hər bir gənc müasir bilik və bacarıqlara, səriştələrə mükəmməl yiyələnməlidir. Səriştə - əldə olunmuş bilik və bacarıqları praktik fəaliyyətdə səmərəli tətbiq etmək qabiliyyətidir; o, insanın qazandığı bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsində ifadə olunur. Səriştəyə əsaslanan təhsil ölkənin sosial-iqtisadi inkişafına daha effektli xidmət göstərir. Təhsilin inkişaf strategiyasında qeyd edildiyi kimi, praktik bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir [2].

Müasir təhsil mükəmməl bilik və bacarıqlar aşılamaqla bərabər, uşaq və gənclərdə zehni qabiliyyətləri, intellekti, müstəqil və yaradıcı düşünmə bacarıqları, müasir təfəkkür formalaşdırmaq qeydinə qalmalıdır. Görkəmli psixoloq, professor Əbdül Əlizadənin dediyi kimi, "XXI yüzillik ağlın, intellektin təntənəsi əsridir. Müstəqillik yoluna çıxmış respublikamızın milli mənafeyi Azərbaycan məktəbinin ilk növbədə, məhz ağıl, intellekt məktəbi olmasını tələb edir" [3]. Təhsil qarşısında duran vəzifə gəncləri təkcə növbəti (ali) təhsil almağa hazırlamaqla məhdudlaşmır, eyni zamanda onları ictimai həyata, səmərəli əmək fəaliyyətinə hazırlamaq mühüm tələb kimi qarşıda durur. Müasir həyat, istehsalat gənclərdən yeni texnologiyalara, xüsusən informasiya-kommunikasiya texnologiyalarına (İKT) yiyələnməyi, onlardan yaradıcı istifadə etmək bacarıqları tələb edir.

Cəmiyyətin sosial-iqtisadi inkişafının məktəb qarşısında qoyduğu ən mühüm tələb təhsilin keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Təhsilin keyfiyyəti dedikdə, onun mövcud standartlara, normalara, habelə şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğun gələn yüksək səviyyəsi başa düşülür. Təhsil Qanununda göstərildiyi kimi, təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil standartları əsasında, beynəlxalq təhsilin keyfiyyət göstəricilərinə uyğun olaraq müəyyən edilir. Təhsil müəssisələrində məzunların hazırlığının keyfiyyət səviyyəsi onların milli və beynəlxalq əmək bazarında rəqabət qabiliyyəti, habelə ölkənin sosial-iqtisadi inkişafında rolu ilə müəyyən edilir [1, s.15-16]. Hazırda bütün pillələrdə təhsilin keyfiyyətinin artırılması dövlətin təhsil siyasətinin ən mühüm prioritet istiqamətini təşkil edir.

Təhsilin inkişafı və yeniləşməsini zəruri edən amillər sırasında elmin inkişafı, elmi-texniki tərəqqi önəmli yer tutur. Təhsil elmə əsaslanır, elm üzərində qurulur. Elmin əldə etdiyi biliklər və onların tətbiqi nəticəsində qazanılan bacarıq və vərdişlər təhsilin məzmununun əsas komponentini təşkil edir. Elmin inkişafı nəticəsində vaxtaşırı olaraq biliklər yeniləşir. Buna uyğun şəkildə təhsilin məzmunu da dəyişməli, yeniləşməlidir. Təhsil inkişaf edən elmlə ayaqlaşmalı, təhsilalanları yeniliklərlə tanış etməlidir. Bəzən bu proses ləng gedir: təhsil sürətlə inkişaf edən elmdən geri qalır və bu səbəbdən öz imkanları ilə təhsilalanların, eləcə də cəmiyyət üzvlərinin müxtəlif səviyyələrdə dəyişən tələbatlarını operativ ödəməkdə çətinlik çəkir. Buna görə də rəsmi (formal) təhsili özünütəhsillə, qeyri-formal və informal təhsillə tamamlamaq lazımdır.

Cəmiyyətin sosial-mədəni inkişafı təhsil qarşısında bilik verməkdən əlavə yeni tələblər də qoyur: müasir həyat təhsilin etik, estetik, iqtisadi, ekoloji, mədəni aspektlərini yenidən nəzərdən keçirməyi, gənclərə həyati bilik, bacarıq və səriştələr aşılamaq zərurətini irəli sürür: hər kəs adamları, bütün özəllikləri ilə dünyanı hansısa bütövə doğru gedən nizamsız hərəkəti ilə birlikdə duyub dərk etməli, başqalarının hüquqlarına hörmət etməli, iqtisadi, ekoloji mədəniyyətə yiyələnməlidir. YUNESKO-nun Beynəlxalq təhsil komissiyasının XXI əsr üçün qəbul etdiyi sənəddə təhsilin dörd başlıca məqsədi müəyyən edilmişdir: birgə yaşamağı öyrətmək; bilikləri əldə etməyi öyrətmək; işləməyi öyrətmək, yaşamağı öyrətmək. Göründüyü kimi, təhsil dar məqsədləri yox, daha geniş məqsədləri yerinə yetirməlidir: insan başqa adamlarla, xalqlarla birgə yaşamağı, əməkdaşlıq etməyi öyrənməli; elmin sürətli inkişafını nəzərə alaraq bilikləri müstəqil və şüurlu şəkildə öyrənməli; peşə səriştəsini artırmaqla işləməyi öyrənməli; şəxsi potensialından daha yaxşı istifadə etmək üçün özünü

yaxşı dərk etməli və yaşamağı öyrənməlidir [5, s. 123].

Təhsil sahəsində ölkələr arasında rəqabətin güclənməsi, sürətli texnoloji tərəqqi nəticəsində əmək sahələrinin, ixtisas profillərinin tez-tez dəyişməsi təhsilin keyfiyyətinə tələbi daha da artırmışdır. Ölkədə təhsilin, o cümlədən ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Məhz bu sosial ehtiyacla bağlı Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədi qəbul edilmişdir. Burada təhsil sahəsində beynəlxalq təcrübə və meylləri, eləcə də Azərbaycanda təhsilin vəziyyətini bir neçə aspektdə (təhsilin sosial-iqtisadi rolu, təhsilin keyfiyyəti və əhatəliliyi, təhsilin məzmunu, müəllim və tədris metodikaları, idarəetmə və infrastruktur baxımından) təhlil etmək əsasında təhsilin inkişafının ən mühüm strateji istiqamətləri və onların reallaşdırılması yolları müəyyənləşdirilmişdir. Təhsilin inkişaf strategiyasında beş strateji istiqamət nəzərdə tutulur [2]:

I strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılmasına yönəlmişdir. Bu istiqamət məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil olmaqla bütün pillələr üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir.

II strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamətin reallaşması üçün aşağıdakı başlıca hədəflər müəyyənləşdirilmişdir:

- innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılması;
- təhsilverənlərin peşəkarlığının yüksəldilməsi və təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulması;
- təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılması.

III strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamətin reallaşması üçün aşağıdakı başlıca tədbirlər müəyyənləşdirilmişdir:

- təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi;
- təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin yaradılması;
- təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması.

IV strateji istiqamət müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamətin reallaşması üçün aşağıdakı tədbirlər müəyyənləşdirilmişdir:

- təhsil müəssisələrində İKT əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması;
- təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması;
- distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, habelə peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması.

V strateji istiqamət respublikada iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulmasını nəzərdə tutur:

- müxtəlif mənbələrdən istifadə olunmaqla təhsili maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsi;
- təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinə keçirilməsi;
- ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsi;
- Təhsilin İnkişafı Fondunun yaradılması.

Nəticə. Çoxcəhətli və vacib hədəfləri nəzərdə tutan təhsilin inkişaf Strategiyası Azərbaycan Respublikasında keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, habelə qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılmasına yönəldilmişdir. Strategiyanın reallaşdırılması təhsilin məz-

mununun, kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verərək, ölkədə biliklərə əsaslanan iqtisadiyyatın bərqərar olmasını, informasiya cəmiyyətinin təşəkkülünü və ölkənin davamlı inkişafını təmin edəcəkdir.

Belə bir vacib sosial mahiyyətli və perspektivli təhsil islahatının yerinə yetirilməsində bütün təhsil qurumlarının, xüsusən təhsil müəssisələrinin pedaqoji kollektivlərinin, müəllimlərin üzərinə mühüm vəzifələr və böyük məsuliyyət düşür.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. B., 2009, 80 s.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. B., 2013, 10 s.
3. Əlizadə Ə. Azərbaycan məktəbinin psixoloji problemləri. B., Ozan, 1998, 367 s.
4. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. B., Maarif, 1998, 342 s.
5. İsmixanov M., Vəliyeva S. Sosial pedaqogika. B., ADPU, 2014, 304 s.
6. Kurikulum islahatı: tədqiqatlar, nəticələr (nəşrə haz. Ə.Abbasov, J.Cavadov). B., Mütərcim, 2011, 343 s.
7. Mərdanov M. Azərbaycan təhsili dünən, bu gün, sabah. B., Təhsil, 2006, 296 s.
8. Rüstəmov F. Pedaqogika tarixi. B., Nurlan, 2005, 748 s.

МЕДЖИД ИСМИХАНОВ
Профессор Бакинского государственного университета

РАФИГА БАХТИЯРОВА
Доктор философии по педагогическим наукам,
Бакинский государственный университет

ОБРАЗОВАНИЕ И ОБЩЕСТВО: СОВРЕМЕННЫЕ ТРЕБОВАНИЯ И ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ

В статье рассматриваются вопросы единства общества и образовании, а также роль обучения в социально-экономическом и моральном процветании общества. Авторы на основе анализа и обобщения социально-педагогических исследований и школьной практики излагают рациональных условий и приоритетных направлений, созданных обществом для развития качества образования и человеческого капитала. А также в статье отражены роль и возможности образовании в социально-экономическом развитии общества и условия их реализации.

Ключевые слова: образование, общество, система образовании, реформа образовании, стратегия развитии образовании.

MAJID ISMIKHANOV
Professor of Baku State University

RAFIQA BAKHTIYAROVA
PhD, Baku State University

EDUCATION AND SOCIETY: MODERN REQUIREMENTS AND PRIORITY DIRECTIONS

This article studies the mutual unity of society and education, the role of education in the socio-economic and moral progress of the society is explained. The authors reviewed the favorable

conditions created by the society for the development of the quality of education and human capital, as well as the priority directions related to educational reforms, based on the analysis and generalization of social-pedagogical research, as well as school experience. Also, the role of education in the socio-economic development of the society, the possibilities and conditions of its realization are reflected in the article.

Keywords: education, society, education system, education reform, education development strategy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 yanvar 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: p.e.d. Həsən Bayramov, t.e.d. Anar İsgəndərov.

UOT 930 **AİDA TEYMUROVA**

AMEA-nın A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu,
"Atropatena-Albaniya (Qafqaz) tarixi" şöbəsinin doktorantı
aida.teymurova99@mail.ru

QAFQAZ ALBANİYASININ TARİXİ COĞRAFİYASININ TARİXŞÜNASLIĞI

DOI: https://doi.org/10.36719/2708-065X/108/273-278

Qafqaz Albaniyasının sərhədləri və ərazisi məsələsi albanşünaslığın çox mühüm problemlərindən biri hesab olunur. Bu məsələ barədə bir çox tədqiqatçılar tərəfindən ziddiyyətli fikirlər irəli sürülmüşdür və yekdil rəy yoxdur. Buna görə də Qafqaz Albaniyasının tarixi coğrafiyası məsələsi hazırkı dövrdə mübahisəli, mürəkkəb məsələlərdən biri hesab edilir. Xarici tarixşünaslıqda bu məsələyə dair müxtəlif əsərlər nəşr olunmuşdur. Bu konteksdə məqalənin məqsədi son elmi tədqiqatları nəzərə almaqla Qafqaz Albaniyasının tarixi coğrafiyası məsələsini işıqlandırmaqdır.

Açar sözlər: Qafqaz Albaniyası, Qəbələ, Dərbənd, Aran, Xəzər dənizi.

Giriş. Qafqaz Albaniyasının tarixi coğrafiyasının tədqiq edilməsinin Azərbaycan tarixi üçün çox böyük əhəmiyyəti vardır. Qafqaz Albaniyasının tarixi coğrafiyasının araşdırılması Azərbaycanın və Qafqazın qədim və orta əsrlər dövründəki tarixi coğrafiyasının tədqiq edilməsində çox mühüm amildir. F.C.Məmmədova qeyd etmişdir ki, Azərbaycanın tarixi coğrafiyası məsələsinin tədqiq edilməsi üçün mənbələr çox azdır [12, s.7-9]. Azərbaycanın I–VII əsrlərdəki tarixi ilə əlaqədar olan yeganə yerli mənbə VIII əsrdə yaşamış alban müəllifi olan Musa Kalankatlının "Albaniya tarixi"dir. Fars və ərəb müəllifləri də əsərlərində Azərbaycanın erkən və son orta əsrlərdə mövcud olan tarixi coğrafiyası barədə məlumatlar vermişdir. Erkən orta ərslər dövründə və antik dövrdə Qafqaz Albaniyasının tarixi coğrafiyası məsələləri yerli tarixşünaslıqda F.C.Məmmədova, T.M.Məmmədov, K.Q.Əliyev, R.Ə.Ağayev, E.A.Bəkirova, xarici tarixşünaslıqda isə B.Dorn, A.Yanovski, S.V.Yuşkov, A.Krımski, V.Tomaşek, S.T.Yeremyan, K.Trever və digərləri öz əsərlərində müəyyən dərəcədə işıqlandırmışdır. Ümumiyyətlə, Qafqaz Albaniyasının sərhədləri və ərazisi məsələsi, tarixi coğrafiyası mübahisəli məsələ hesab edilir. Qafqaz Albaniyasının ərazisinə ermənilər və gürcülər tərəfindən bir sıra əsassız iddialar irəli sürülmüşdür. Bu kontekstdə Qafqaz Albaniyasının tarixi coğrafiyası məsələsinə bir daha nəzər yetirək.

Qafqaz Albaniyasının tarixi coğrafiyası problemi. Qafqaz Albaniyasının sərhədləri və ərazisi məsələsi Qafqaz Albaniyasının vacib problemlərindəndir. İlkin yazılı qaynaqlara görə, Albaniya və Atropatena dövlətləri tarixi Azərbaycan torpaqlarında yarandığı dövrədək Arazın həm şimalı, həm də cənubu bir yerdə Azərbaycan olaraq adlandırılmışdır. Albaniya və Atropatena yarandıqdan sonra isə ərazi siyasi-inzibati cəhətdən iki hissəyə ayrılmışdır. Ərəbdilli müəlliflər də antik mənbələrdən bəhrələnərək məhz e.ə. IV - b.e. III əsrdə baş vermiş hadisələri qeyd edərkən həmin iki siyasi-inzibati vahiddən istifadə etmişlər. Amma onlar heç bir zaman Arazdan şimalda olan torpaqları "Albaniya" şəklində adlandırmamışlar. İlk dövrlərdən etibarən onlar bu ərazini ya "Arran", ya da "Azərbaycan" şəklində adlandırmışlar. Ərəbdili mənbələrin bir çoxunda Arazdan şimaldakı ərazilər həm "Azərbaycan", həm də "Arran" olaraq qeyd edilmişdir. Arazdan cənubdakı torpaqları isə "Atropatena" deyil, "Azərbaycan", yaxud "Azərbayqan" olaraq adlandırmışlar [1, s.29]. Antik mənbələrdə şimalda Qafqaz dağları, cənubda Araz çayı, qərbdə İberiya, şərdə isə Xəzər dənizi arasında olan ərazi "Albaniya" şəklində, Suriya mənbələrində "Aran", pəhləvi mənbələrində "Ardan" və "Aran", erməni mənbələrində "Ağvan", gürcü mənbələrində isə "Rani" şəklində adlandırılmışdır [18, s.33]. Erkən orta əsr yazılı mənbələrindən Qafqaz Albaniyasının erkən orta əsrlərdə mövcud olan siyasi sərhədləri və ərazisi barədə məlumatlar əldə etmək mümkündür. Bu mənbələr onu deməyə əsas verir ki, Qafqaz Albaniyasının ərazisi şimal hissədə Sarmatiya ilə birləşmiş və Böyük Qafqaz dağlarının ətəklərinə qədər olan ərazini əhatə etmişdir. Bu məlumatları M.Kalankatlı, Yeqişe, M.Xorenasi, Favstos Buzand, Ananiya Şirakasinin əsərlərindən əldə etmək mümkündür [19; 28; 20, s.132-133]. Erkən orta əsr yazılı mənbələri eyni

zamanda onu deməyə əsas verir ki, Qafqaz Albaniyasının ərazisi şərqdə Kaspi (Xəzər) dənizinədək olan ərazini əhatə etmişdir. Qafqaz Albaniyasının ərazisi qərbdə isə İberiya ilə həmsərhəd olmuşdur. Qafqaz Albaniyasının sərhədləri IV–VII əsrlərdə Alazan çayının aşağı və orta sahilini, həmçinin Ağstafaçayın Kür çayına töküldüyü hissədən Andi dağının ətəklərinədək olan ərazini əhatə etmiş, o cümlədən hazırkı Zaqatala rayonunun ərazisini də əhatə etmişdir. Qafqaz Albaniyası cənubda Atropatena ilə həmsərhəd idi [14]. Ümumiyyətlə, erkən orta əsr yazılı mənbələri onu deməyə əsas verir ki, Qafqaz Albaniyasının ərazisi III–VII əsrlərdə Böyük Qafqaz dağlarının şimal hissəsindən başlamış, cənub hissədə Kür və Araz çaylarının qovuşduğu hissəyə qədər Uti, Paytakaran, Arsax, indiki Mil və Muğan düzləri, Kambisena, Girdiman, Çola, Şakaşena, Lpin və digər ərazilər də daxil olmaqla qərb hissədə İberiyaya qədər, şərqdə isə Xəzər dənizinə qədər böyük bir ərazini əhatə etmişdir [20, s.85-87]. Qafqaz Albaniyası inzibati cəhətdən IV–VII əsrlərdə nahiyələr, əyalətlər, vilayətlər şəklində idi. Z.Qəhrəmanova erkən orta əsr yazılı mənbələri olan Ananiya Şirakasi, Aqafanqel, Gevond, M.Xorenasi, M.Kalankatlı və s. mənbələrlə işləyərkən belə qənaətə gəlmişdir [11, s.10]. Erkən orta əsrlərdə Çola vilayəti Qafqaz Albaniyasının şimal vilayətlərindən biri olmuşdur. Çola vilayəti Dərbənd keçidindən başlayaraq cənuba istiqamətlənmiş ərazidə mövcud olmuş və indiki Sumqayıt çayınadək olan hissəni əhatə etmişdir. Çola vilayətində albanlar, leqlər, çilbilər, tabasaranlar, xəzərlər, maskutlar, hunlar məskunlaşmışdılar. Qafqaz Albaniyasının digər bir vilayəti də Lpin olmuşdur. Lpin vilayəti Çoladan şimal-qərbdə idi. Şəki və Çolanın arasındakı ərazidə yerləşirdi. Lpin vilayətində isə lpinlər, saklar, albanlar və digərləri yaşamışdır. Lpin vilayətinin ərazisində yerləşən şəhərlər Xunarakert və Xalxal olmuşdur. Erkən orta əsrlər dövründə Qafqaz Albaniyasında digər bir vilayət də Kambisena olmuşdur. Bu vilayətin adı yunan qaynaqlarında Kambisena kimi, erməni mənbələrində isə Kambeçan kimi qeyd edilmişdir. Kambisena vilayəti Qafqaz Albaniyasından şimal-qərb hissədə yerləşmişdir. Bu vilayət İberiya ilə sərhəddə idi. Kambisena vilayətindəki əsas şəhərlər Sirxar və Qəbələ şəhərləri idi. Qafqaz Albaniyasında vilayətlərdən biri də Girdiman olmuşdur. Z.Qəhrəmanova qeyd etmişdir ki, Girdiman vilayəti yazılı mənbələrdə Girdiman, Qardman, Qardabani şəklində adlandırılmışdır. Bu vilayət Kür çayının sağ sahilində mövcud olmuşdur. Girdiman vilayətində qarqarlar, utilər və digərləri məskunlaşmışdır. Bu tayfalar Aran nəslindən olmuşdur [11, s.11].

Azərbaycanlı tədqiqatçılar tərəfindən aparılmış araşdırmalar. Azərbaycan tarixşünaslığında albanşünaslıq elmi XX əsrin 60-70-ci illərində inkişaf etməyə başlamışdır. Z.İ.Yampolski, Z.Bünyadov, R.Ağayev, E.Bəkirova, F.Məmmədova, C.Xəlilov, V.Piriyev və s. tədqiqatçılar tərəfindən Qafqaz Albaniyasının tarixi coğrafiyası məsələsi işıqlandırılmışdır. Bəkirova E.A. tərəfindən qeyd edilmişdir ki, antik dövrdə Qafqaz Albaniyasının qərb torpaqları indiki Gürcüstan Respublikasının şərq hissəsini, Ermənistan Respublikasının İcevan, Berd, Noyemberyan rayonlarının ərazisini, eyni zamanda Azərbaycan Respublikasının Qax-Balakən, Şəki-Zaqatala, Mingəçevir, Gəncə-Qazax rayonlarının ərazisini və Qarabağın bir hissəsini əhatə etmişdir. Hazırkı dövrdə təəssüf ki, bu ərazilərin böyük hissəsi Gürcüstan və Ermənistan respublikalarının, o cümlədən Dağıstanın tərkibinə daxildir. Məhz bu səbəbdən, bu ərazilərdə arxeoloji və etnoqrafik tədqiqatlar aparıla bilmir deyə Albaniyanın tarixi-coğrafiyası ilə əlaqədar bir çox suala cavab tapmaqda çətinliklər yaranır [4, s.4-5].

V.Piriyevin "Azərbaycanın tarixi-siyasi coğrafiyası" adlı əsərində Qafqaz Albaniyasının tarixi coğrafiyası məsələsinə xüsusi yer verilmişdir. Müəllif bu əsərində qeyd etmişdir ki, Qafqaz Albaniyasının ərazisinə tarixən ermənilərin irəli sürdükləri iddialar hal-hazırda da davam edir. Ermənilər tərəfindən Qafqaz Albaniyasının ərazisinə irəli sürülən iddiaları iki yerə bölmək olar. Bir iddiaya görə, Qafqaz Albaniyasının ərazisi guya bütünlükdə ermənilərə məxsus torpaqlar olmuşdur. Digər iddiaya görə isə Qafqaz Albaniyasının ərazisinə daxil olan Araz və Kür çayları arasındakı ərazilər guya tarixi erməni torpaqları olmuşdur [16, s.18]. Əlbəttə ki, bu iddialar elmi cəhətdən əsassız iddialardır. F.C. Məmmədovanın "Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası" adlı əsərində bu məsələ öz əksini tapmışdır. F.C.Məmmədova bu əsərində elmi faktlarla əsaslandırmışdır ki, Qafqaz Albaniyasının sərhədləri cənubda Araz çayı boyunca uzanmışdır. O, Qafqaz Albaniyasının, o cümlədən Qafqazın tarixi coğrafiyasına dair xəritələr hazırlamış, Qafqaz Albaniyasının tarixini hərtərəfli şəkildə üzə çıxarmışdır [15, s.124-126]. F.C.Məmmədovanın bu əsəri ümumən XIX yüzilliyədək ermənilərin həm siyasi, həm ərazi, həm mədəni, həm də etnik baxımdan Qafqazda mövcud olmadığını sübuta yetirən yeni müddəa hesab edilir. M.Paşayeva qeyd etmişdir ki, Sovet tarixşünaslığında akademik Z.Bünyadov tərəfindən

ilk dəfə Qafqaz Albaniyasının VII–IX əsrlərdə şimal və şimal-qərb sərhədləri problemi düzgün qoyulmuşdur. Z.Bünyadovun uğurlu tapıntısı Kür çayının sağ sahilində ilk Şəkinin qalıqlarının müəyyən edilməsi olmuşdur. Məhz bunun nəticəsi olaraq Qafqaz Albaniyasının tarixi coğrafiyasının bir sıra qaranlıq hissələrinin işıqlandırılması mümkün olmuşdur, o cümlədən akademik Z.Bünyadovun bu uğurlu tapıntısı Qafqaz Albaniyasının tarixi coğrafiyası məsələsində bəzi hadisələri dəqiq bərqərar etməyə imkan vermişdir. Bundan əlavə Z.Bünyadov VII–IX yüzilliklərdəki Azərbaycanın cənub sərhədlərini də dəqiqliyi ilə müəyyən etmişdir [15, s.141]. Qafqaz Albaniyasının şimal sərhədləri barədə bir sıra müxtəlif fikirlər mövcuddur. F.C.Məmmədovanın fikrinə görə, Qafqaz Albaniyasının sərhədləri onun daxili və xarici vəziyyəti ilə əlaqədar olaraq dəyişmişdir, hətta bəzən Qafqaz Albaniyasının şimal sərhədləri Sulak çayından şimaldakı ərazilərə qədər uzanmışdır. [15, s.133-134].

Rus tədqiqatçıları tərəfindən aparılmış araşdırmalar. Rus müəlliflərindən Z.İ.Yampolski, A.Yanovski, K.V.Trever, A.P.Novoseltsev, A.Y.Krımski, B.Dorn, V.F.Minorski və digər tədqiqatçılar tərəfindən Qafqaz Albaniyasının ərazisi, sərhədləri, tarixi coğrafiyası məsələsi tədqiq edilmişdir. Qafqaz Albaniyası termini ilk dəfə olaraq elmi ədəbiyyata A.Yanovski tərəfindən 1846-cı ildə gətirilmişdir. Elmi dövriyyəyə bu terminin gətirilməsi Balkan yarımadasında yerləşən Albaniyadan onu fərqləndirmişdir, lakin bununla bərabər bir sıra siyasi mülahizələrlə də bağlı olmuşdur. Bu məsələ Albaniyanın təkcə Azərbaycana aid olmaması və Albaniya əhalisinin qafqazmənşəli olması iddiasının gerçəkləşdirilməsinə yönəlmişdi. Qafqaz Albaniyasının tarixini antik müəlliflərin qeydlərinə əsasən tədqiq edənlər bir əsr sonra A.Yanovski tərəfindən elmi ədəbiyyata gətirilmiş "Qafqaz Albaniyası" terminindən istifadə etdilər. Həmin dövrə qədər bu adla bağlı vahid forma mövcud olmadığından tədqiqatçılar tərəfindən gah "Qədim Albaniya" (E.İ.Krupnov, İ.Seqal), gah da "Klassik Albaniya" (A.E.Krımski) ifadələri işlədilirdi [6, s.10].

Qafqaz Albaniyası ilə bağlı ilk tədqiqat aparan tarixçilərdən biri də Z.İ.Yampolski olmuşdur. O, bu sahədə mühüm xidmətlər göstərmişdir. Z.İ.Yampolski tərəfindən Qafqaz Albaniyasının ərazisi məsələsi erkən orta əsr və antik mənbələrə əsaslanaraq ilk dəfə tədqiq edilmişdir. Z.İ.Yampolski qeyd etmişdir ki, Albaniya və Atropatena arasındakı sərhəd Kür çayı olmuşdur [23, s.100-108]. A.P.Novoseltsevin fikrincə Kürün sağ sahilində yerləşən Alban vilayətləri-Uti, Arsax, Paytakaran əzəli erməni torpaqları olmuşdur. Sonradan 387-ci il müqaviləsinə əsasən Albaniyanın tərkibinə daxil edilmişdir [3, s.15].

K.V.Trever isə Qafqaz Albaniyasının sərhədləri və tarixi coğrafiyası məsələsində erməni tarixçilərinin təsiri altına düşməsi ilə əlaqədar olaraq yanlış fikirlər irəli sürmüşdür. Qədim dövrdə və erkən orta əsrlər dövründə guya Kür və Araz çayları arasındakı ərazilərin ermənilərə məxsus ərazilər olması, yalnız 387-ci ildən sonrakı dövrdə həmin ərazilərin Qafqaz Albaniyasının tərkibinə daxil edilməsi, o cümlədən bu ərazilərin Qafqaz Albaniyasının tərkibinə daxil edilsə də siyasi, etnik və mədəni baxımdan əvvəlki kimi Böyük Ermənistanın şərq əyalətləri olması ilə bağlı erməni iddiaları K.V.Trever tərəfindən təsdiq edilmişdir [22, s.58].

Qafqaz Albaniysının tarixi coğrafiyası, sərhədləri probleminə həsr olunmuş tarixşünaslığa diqqət yetirdikdən sonra aydın olur ki, erkən orta əsrlər dövründəki Qafqaz Albaniyasının tarixi coğrafiyası, sərhədləri məsələsi ayrıca olaraq xüsusi şəkildə tədqiq edilməmişdir.

Gürcü tədqiqatçıları tərəfindən aparılmış araşdırmalar. Gürcü alimlərindən N.A.Berdzenaşvili, D.L.Musxelişvili, T.S.Papuaşvili və digərlərinin tədqiqatlarında Qafqaz Albaniyasının qərb sərhədləri problemi mühüm yer tutur. "Şərqi Gürcüstanın tarixi coğrafiyası (Şəki və Qoqarena)" adlı əsərində gürcü alimi D.L.Musxelişvili qeyd etmişdir ki, guya sol sahil Albaniyanın cənub-qərb hissəsindəki Sakasena və Girdiman əraziləri, o cümlədən sağ sahil Albaniyasının şimal-qərb hissəsindəki Şəki və Kambisena əraziləri Şərqi Gürcüstan vilayəti olmuşdur [3, s.18]. D.L.Musxelişvilinin bu iddialarının elmi cəhətdən heç bir əsası olmadığı alimlərimiz F.Məmmədova, Z.Bünyadov, N.Vəlixanlı, V.Piriyev tərəfindən tutarlı faktlarla sübuta yetirilmişdir. D.Musxelişvilinin fikrincə V yüzilliyin 80-ci illərində Kambisena əyaləti Qafqaz Albaniyasının tərkibində olmuşdur, lakin V yüzilliyin artıq 90-cı illərində bu əyalət yenidən İberiyanın ərazisi olmuşdur [3, s.27-28]. Amma M.Kalankatlının məlumatından aydın olur ki, Kambisena əyaləti 488-ci və 506-cı illərdə Qafqaz Albaniyasının tərkib hissəsi olmuşdur. O, qeyd etmişdir ki, Albaniya çarı III Vaçaqan Kambisenada xristian dininə etiqad edənlərə nəsihət vermiş, onlara ilahiyyatı öyrətmiş və bir sıra ərazilərə onları yepiskop, müşahidəçi olaraq gön-

dərmişdir [10, s.54-56]. D.İsmayılov qeyd etmişdir ki, "VII yüzillik Ermənistan coğrafiyası" M.Kalankatlı ilə sinxrondur və o da həmin dövrdə Qafqaz Albaniyasının tərkibində Kambisena əyalətinin olduğu fikrini təsdiqləmişdir [27, s.48-52]. Kalankatlı qeyd etmişdir ki, Cavanşir (642–681) İberiyanın hüdudlarından hun darvazalarınadək, oradan da Araz çayına qədər olan torpaqlarda uğurlu şəkildə rəhbərlik etmişdir [10, s.64-66]. V.Piriyev qeyd etmişdir ki, Şimali Azərbaycanın erkən orta əsrlər dövrünün öyrənilməsi əvvəlcə Rusiya imperiyası dövründə, daha sonra SSRİ zamanında gürcü və erməni tədqiqatçılarının inhisarında olmuşdur. Qafqaz Albaniyası qaynaqlarının məhv edilməsi, saxtalaşdırılması, orijinal variantın dəyişdirilməsi, qrabar dilinə keçirilməsi nəticəsində sovet tarixşünaslığında Qafqaz Albaniyası tarixini, əsasən, gürcü və erməni tədqiqatçıları inhisara almağa başlamışdır. Məhz bunun nəticəsi olaraq gürcü tədqiqatçıları tərəfindən Kür çayının sol sahilindəki Qafqaz Albaniyası torpaqlarına iddialar irəli sürülmüş və qeyd edilmişdir ki, müxtəlif dövrlərdə Kür çayının sol sahilindəki Qafqaz Albaniyası torpaqlarının qərb hissəsi, "erməni tarixçiləri tərəfindən səxavətlə pay verilən" sol sahil Qafqaz Albaniyasının torpaqları Gürcüstanın tərkib hissəsi olmuşdur [15, s.141-142]. Bütün bu məhdudiyyətlərə rəğmən F.Məmmədova, Z.Bünyadov, İ.Babayev, K.Əliyev və s. tədqiqatçılar tutarlı faktlarla sübut etmişdir ki, Qafqaz Albaniyası Azərbaycanın qədim dövləti olmuşdur, albanlar isə xalqımızın soykökündə iştirak edən mühüm tayfa olmuşdur. Bundan əlavə albanşünas tədqiqatçılar sübut etmişdir ki, Qanıx-Qabırrı arasındakı Gürcüstan sərhədlərindəki torpaqlar Qafqaz Albaniyasına məxsus ərazilər olmuşdur.

Erməni tədqiqaçıları tərəfindən aparılmış araşdırmalar. B.Fischer və O.Schmitt qeyd etmişdir ki, Mxitarçı məktəbinin davamçısı olan M.Çamçyanın nəzəriyyəsinə əsasən S.Yeremyan belə bir iddia irəli sürmüşdür ki, guya Qarabağ ərazisi yəni Kür çayının sağsahil torpaqları tarixən ermənilərə məxsus ərazilər olmuşdur. Guya bu torpaqlar 387-ci ildən etibarən Qafqaz Albaniyasının ərazisinə daxil edilmişdir, lakin siyasi, etnik, mədəni baxımdan ermənilərə aid olmuşdur. Bu iddialar hamısı ermənilər tərəfindən Böyük Ermənistan xülyasının tarixi baxımdan Azərbaycan torpaqları hesabına əsaslandırılmasına xidmət göstərmişdir [26, s.62]. O.M. Davudov qeyd etmişdir ki, Ş.Smbatyan, B.Ulbabyan, X.Svazyan və digər erməni tədqiqatçıları Kür çayından cənub hissədəki ərazilərin tarixi erməni əraziləri olduğunu və əhalisinin ermənilərdən ibarət olduğunu qeyd edərək tarixi saxtalaşdırmağa cəhd edirlər [5, s. 28]. O.Davudov qeyd etmişdir ki, A.Akopyanın fikrincə, Kür çayından cənub hissədəki ərazilər 387-ci ildə deyil, 428-ci ildə Armeniya Sasani əyaləti olduqdan sonrakı dövrdə Qafqaz Albaniyasına verilmişdir. A.Akopyan erməni tarixçilərinin əsassız iddialarını əsaslandırmaqdan ötrü yazılı qaynaqlarla yanaşı, arxeoloji tapıntıları da saxtalaşdırmışdır. Antik mənbələrdə qeyd edilmişdir ki, həmin ərazilərdə qarqar, uti, kaspi, sakasen və digər tayfalar məskunlaşmışdır. Bu tayfalar da məlumdur ki, əvvəlcə alban tayfa birliyi, sonrakı dövrdə isə Qafqaz Albaniyasına daxil olmuşdur. Roma sərkərdəsi olan Lukulla mübarizə aparmaq üçün e.ə. I əsrdə digər tayfalarla birlikdə Araz çayı sahillərində məskunlaşan tayfalar da səfərbər olmuşdu. Əgər bu ərazilərdə ermənilər məskunlaşmışdırsa bəs onda digər tayfalar kimlər idi? [5, s.27-28]. Buradan belə qənaətə gəlmək olar ki, antik dövrdə Araz ilə Kür çayı arasındakı torpaqlarda ermənilərin məskunlaşması fikri cəfəngiyyatdır. Qafqaz Albaniyasının sərhədləri problemi XIX əsrdən etibarən tədqiq edilməyə başlansa da həmin vaxtdan etibarən formalaşmış mübahisələr hazırkı dövrdə də davam edir.

Nəticə. Qafqaz Albaniyasının tərkibinə daxil olan torpaqlar III–VII əsrlər dövründə şimal hissədə Böyük Qafqaz dağları, cənub hissədə Araz ilə Kür çayının qovuşduğu hissə, o cümlədən Mil düzü ilə Muğan düzü də Qafqaz Albaniyasının tərkib hissəsinə daxil olan ərazilər olmuşdur və Paytakaran, Arsax, Uti, Kambisena, Lpiniya, Çora, Girdiman, Şakaşen və s. əraziləri əhatə etmişdir. Qafqaz Albaniyasının tarixi coğrafiyası məsələsi həm mübahisəli məsələ olaraq qalmaqdadır, həm də bu məsələ az öyrənilən məsələlərdəndir. Bir çox tədqiqatçılar Qafqaz Albaniyasının sərhədləri və ərazisi barədə antik dövr yazılı mənbələrinə istinad edərək məlumatları saxtalaşdırmış, o cümlədən öz mənafelərinə uyğun bir şəkildə ifadə etmişlər. Biz erkən orta əsrlər dövrünün yazılı mənbələrinin məlumatlarına düzgün şəkildə yanaşaraq tarixi həqiqəti ortaya çıxara bilərik. Qafqaz Albaniyasının ərazisinə ermənilər tərəfindən tarix boyu müxtəlif iddialar irəli sürülmüşdür. Həmin iddialar hazırkı dövrdə də davam edir.

ƏDƏBİYYAT

1. Ağayev R.Ə. Ərəb xilafəti dövründə Azərbaycanın əhalisi. Bakı: "Turxan" NPB, 2017, 344 s.

2. Azərbaycan tarixi: 7 cilddə, I c., Bakı: Elm, 2007, 520 s.
3. Azərbaycan tarixi: 7 cilddə, II c., Bakı: Elm, 2007, 608 s.
4. Bəkirova E.A. Albaniyanın qərb torpaqları (antik dövr). Bakı: "İdeal-Print" MMC, 2021, 220 s.
5. Davudov O.M. Qafqaz Albaniyasının şimal sərhədi haqqında // Qafqaz Albaniyasiyasının etno-mədəni irsi, 2000, №3, s. 24-34.
6. Əlimirzəyev A.N. "Albaniya", "Qafqaz Albaniyası" yoxsa "Azərbaycan Albaniyası" / "Azərbaycan" qəz., 2014, 2 may, s.10.
7. Əliyev T.R., Babayev F.İ. Mil-Qarabağ bölgəsində Qafqaz Albaniyasının daha bir şəhəri aşkar olundu // Azərbaycanda arxeoloji tədqiqatlar, 2008, s.78-83.
8. Əliyev Z.B. Albanlar, yoxsa ermənilər // Dövlət və din, 2020, №2, s.25-33.
9. Hacıyeva Ü. Azərbaycanın Tərtər və Kəlbəcər rayonlarında alban abidələri // Qafqaz Albaniyasının etno-mədəni irsi (məqalələr toplusu). Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi. №2. Bakı, 2021, s.180-193.
10. Kalankatuklu M. Albaniya tarixi. Bakı: Avrasiya press, 2006, 296 s.
11. Qəhrəmanova Z.N. Erkən orta əsrlərdə Albaniyanın Uti vilayətinin yaşayış məskənləri: Tar.fəl. dok. ... dis. Bakı, 2021, 192 s.
12. Məmmədova F. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası (e.ə. III əsr – e. VIII əsri). Bakı: Azərnəşr, 1993, 262 s.
13. Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı: Təhsil nəşriyyatı, 2006, 400 s.
14. Ömərov V.A. Albaniyanın tarixi coğrafiyası, siyasi-inzibati bölgüsü / "Səs" qəz., Bakı, 2012, 5 sentyabr.
15. Paşayeva M.T. Azərbaycanın qədim dövlətləri. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2018, 288 s.
16. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim nəşriyyatı, 2006, 148 s.
17. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyasının öyrənilməsi // Tarix insan və cəmiyyət, 2005, №1, s. 23-28.
18. Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı: Azərnəşr, 1993, 157 s.
19. Каганкатваци М. История агван / Пер. с древнеармян.яз. К.Патканова. СПб.: типография Импер. Академии наук, 1861, 376 с.
20. Мамедова Ф. Кавказская Албания и албаны. Баку, 2005, 800 с.
21. Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании (III в. до н.э. – VIII в. н.э.) / Под ред. акад. З.М.Буниятова. Баку: Элм, 1986, 284 с.
22. Тревер К.В. Очерки по истории и культуры Кавказской Албании (IV в. до н.э.-VII в. н.э.). – М.-Л.: АН СССР, 1959, 389 с.
23. Ямпольский З.И. К вопросу об одноименности древнейщего населения Атропатены и Албании // Труды ИИФ АН Аз ССР, 1954, т. IV, 100-108
24. Caucasian Albania: An International Handbook / Edited by Gippert J., Dum-Tragut J. Berlin: De Gruyter, 2023, 735 p.
25. Dum-Tragut J., Gippert J. Caucasian Albania in Medieval Armenian Sources (5th–13th centuries) / Caucasian Albania: An International Handbook, 2023, pp.33-92.
26. Fischer B., Schmitt O. A concise history of Albania. United Kingdom: TJ Books Limited, 2022, 390p.
27. Ismaılov D. History of Azerbaijan. Baku: AzMİU NPM, 2017, 352 p.
28. The History of the Caucasian Albanians by Movses Dasxuranci / Trans. by Dowsett C.J.F. London: Oxford University Press, 1961, 252 p.

АИДА ТЕЙМУРОВА
Институт истории и этнологии имени А.А. Бакиханова НАНА,
докторант отдела "История Атропатены и Албании (Кавказской)"

ИСТОРИОГРАФИЯ ИСТОРИЧЕСКОЙ ГЕОГРАФИИ КАВКАЗСКОЙ АЛБАНИИ

Вопрос о границах и территории Кавказской Албании считается одной из важнейших проблем её исследования. В зарубежной историографии опубликованы различные работы по

этому вопросу. Многими исследователями высказаны противоречивые мнения, в связи с чем проблема исторической географии Кавказской Албании считается в настоящее время одним из спорных и сложных вопросов. Цель данной статьи дать краткий историографический обзор по данной научной проблеме.

Ключевые слова: Кавказская Албания, Габала, Дербанд, Аран, Каспийское море

AIDA TEYMUROVA
The Institute of History named after A.A.Bakikhanov of ANAS,
doctoral student of the department "History of Atropatena and Albania (Caucasus)"

HISTORICISM OF THE HISTORICAL GEOGRAPHY OF CAUCASIAN ALBANIA

The question of the borders and territory of Caucasian Albania is considered one of the most important problems. Various works on this issue have been published in foreign historiography. Many researchers have expressed conflicting opinions, and therefore the problem of the historical geography of Caucasian Albania is currently considered one of the controversial and complex issues. The purpose of this article is to give a brief historiographical overview of this scientific problem.

Keywords: Caucasian Albania, Gabala, Darband, Aran, Caspian Sea.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.e.d. Ramil Ağayev, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24); UOT 930.2

ŞƏBNƏM RÜSTƏMOVA

AMEA A.A.Bakıxanov adına
Tarix və Etnologiya İnstitutunun doktorantı
shabnamrustamova23@gmail.com

QƏRBİ AZƏRBAYCAN TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ "OSMANLI TƏHRİR DƏFTƏRLƏRİ"NİN ƏHƏMİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/108/279-286

İri güc mərkəzlərinin köməyi ilə 1918-ci ildə tarixi Qərbi Azərbaycan torpaqlarında (Çuxursəd-İrəvan bölgəsi) özlərinə dövlət yaratmış, bu coğrafiyaya sahiblənmiş və bölgənin bütün türk-müsəlman əhalisinin maddi-mənəvi mədəniyyətini məhv etmiş ermənilər vandalları hələ də özlərini bu torpaqların aborigen sakinləri kimi təqdim edirlər. Erməni yalanlarının ifşasında ilkin mənbələrin, o cümlədən Türkiyənin İstanbul şəhərində yerləşən Başbakanlıq Osmanlı Arxivində qorunub saxlanan Çuxursəd (İrəvan) bölgəsinin XVI əsrin sonu və XVIII əsrin ilk 30 illiyi tarixini özündə ehtiva edən müfəssəl və icmal dəftərlərinin rolu danılmazdır.

Təqdim edilən məqalədə XVIII əsrin I yarısı Azərbaycan tarixinin mühüm qaynağı olan Çuxursəd (İrəvan) bölgəsinin tarixi ilə bağlı Osmanlı məmurları tərəfindən 1725-1727-ci illərdə tərtib edilmiş müfəssəl təhrir dəftərinin (TTD-901) Qərbi Azərbaycan tarixinin öyrənilməsindəki əhəmiyyətindən bəhs edilir. Dəftərlərin ehtiva etdiyi məlumatlara əsasən Qərbi Azərbaycanın inzibati-ərazi bölgüsü, İrəvan şəhərinin təsviri, əhalinin vəziyyəti, Qərbi Azərbaycanın onomastik vahidləri ilə bağlı materiallar yığcam şəkildə nəzərdən keçrilmişdir.

Açar sözlər: Çuxursəd (İrəvan) bölgəsi, İrəvan şəhəri, onomastik vahidlər, Müfəssəl təhrir dəftəri.

Giriş. İndiki Ermənistan Respublikasının ərazisi – tarixi Qərbi Azərbaycan torpaqları (Çuxursəd – İrəvan bölgəsi) hər zaman Azərbaycan dövlətlərinin – Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Nadir şah imperiyalarının ayrılmaz tərkib hissəsi olmuşdur. Çuxursəd (İrəvan) bəylərbəyiliyini, onun paytaxtı İrəvan şəhərini ətrafındakı torpaqlarla birlikdə uzun dövr ərzində Azərbaycanın məşhur Rumlu, Ustaclı və Qacar tayfasının görkəmli nümayəndələri idarə etmişdir.

Bu tarixi həqiqətlərə baxmayaraq, bu gün erməni millətçiləri beynəlxalq ictimaiyyətin gözləri qarşısında heç nədən çəkinmədən Cənubi Qafqazın tarixi keçmişini saxtalaşdırmaqda davam edirlər. Ermənilər tarixi Qərbi Azərbaycan torpaqlarını "Şərqi Ermənistan", özlərini isə bu torpaqların aborigen sakinləri kimi təqdim edərək Azərbaycana saxta torpaq iddialarını davam etdirirlər.

Erməni yalanlarının ifşasında ilkin mənbələrin, o cümlədən Türkiyənin İstanbul şəhərində yerləşən Cümhurbaşbakanlığı Osmanlı Arxivində qorunub saxlanan Çuxursəd (İrəvan), Gəncə-Qarabağ, Naxçıvan, Ərdəbil və digər bölgələrimizin XVI əsrin sonu və XVIII əsrin ilk 30 illiyi tarixini özündə ehtiva edən *icmal, müfəssəl, timar ruznamçə, təhvil* və *təhrir* dəftərlərinin rolu danılmazdır.

Bu qaynaqlar içərisində şərti olaraq İrəvan dəftərləri adlandırığımız – *1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri" (bundan sonra – TTD-633), 1727-ci ildə tərtib edilmiş "Rəvan livasının müfəssəl təhrir dəftəri" (bundan sonra – TTD-901) və 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri" (bundan sonra – TTD-898)* – adlı tarixi sənədlər Qərbi Azərbaycan tarixinin müxtəlif problemlərinin – inzibati-ərazi bölgüsü, siyasi, iqtisadi və demoqrafik vəziyyəti, çoxsaylı onomastik materialların araşdırılması baxımdan müstəsna əhəmiyyətə malikdir.

Osmanlı dövlətinin maliyyə-vergi sistemində mövcud olmuş qaydaya görə, vilayətlər üzrə təhririn keçirilməsi, yəni əhalinin siyahıya alınması hər 30 ildən bir nəzərdə tutulurdu və bunun əsasında *müfəssəl* və *icmal* olmaqla iki variantda dəftərlər hazırlanırdı. "*Müfəssəl dəftərlər"* – adlarından da göründüyü kimi, daha təfərrüatlı olub bölgənin bütün gəlir mənbələri ilə birgə vergiyə tabe tutulan əhalinin adbaad qeydə alınması ilə tərtib olunurdusa, sonradan bunların əsasında hazırlanan "*İcmal dəftəri"* daha yığcam şəkildə tərtib olurdu (bax: 8, s.5).

İrəvan "*müfəssəl"* və "*icmal"* dəftərlərinin oxunması, tərcüməsi, təhlili, nəşr edilməsi və digər

məsələlərlə bağlı görkəmli tarixçi alimlərimiz Ziya Bünyadov, Hüsaməddin Məmmədov (Qaramanlı), Fərəh Hüseyn və Tofiq Nəcəflinin xidmətləri danılmazdır (3; 4; 8; 7). Bütün bunlarla yanaşı Azərbaycan tarixini əks etdirən Osmanlı dəftərlərinin araşdırılmasında Əli Sinan Bilgili, Raif İvecan, Səlcuq İlkaz, Mehmet Alauddin İslamoğlu (10; 14; 13; 6) və digər tədqiqatçıların da mühüm xidmətləri vardır.

Təqdim edilən məqalədə Çuxursəd (İrəvan) bölgəsinin tarixi ilə bağlı Osmanlı məmurları tərəfindən 1725-1727-ci illərdə tərtib edilmiş müfəssəl təhrir dəftərinin (TTD-901) Qərbi Azərbaycan tarixinin öyrənilməsindəki əhəmiyyətindən bəhs ediləcəkdir.

Onu da qeyd edək ki, tədqiqatçı alim Fərəh Hüseyn tərəfindən transliterasiya və tərcümə edilərək mətninə qeydlər və şərhlər yazılmış bu mənbədə İrəvan əyalətinin inzibati-ərazi bölgüsü, iqtisadi həyatı, demoqrafik və etnik vəziyyəti, şəhər və kəndlərin vəziyyəti, ən əsası qiymətli onomastik materiallar öz əksini tapmışdır. Həmçinin kitabın sonunda mənbəyə aid terminlərin lüğəti və onomastik göstəricilərin təqdim edilməsi ondan istifadəni asanlaşdırır.

Dəftərin tərtib edildiyi tarixi şərait. XVI əsrin son və XVIII əsrin I rübündə baş vermiş Səfəvi-Osmanlı müharibələri nəticəsində Qərbi Azərbaycan torpaqları – Çuxursəd (İrəvan) bölgəsi və onun mərkəzi İrəvan qala şəhəri dəfələrlə bu və ya digər tərəfin idarəçiliyində qalmışdır. 100 ildən çox davam edən Səfəvi-Osmanlı müharibələri 1639-cu ildə Qəsri-Şirin müqaviləsi ilə başa çatdı və iki imperiya arasında 1723-cü ilə kimi uzunmüddətli sülh dövrü davam etdi.

Lakin XVIII əsrin əvvəllərində Səfəvi dövlətində mərkəzi hakimiyyət çox zəifləmiş, artıq dövlətin digər əraziləri kimi, Azərbaycanın da ayrı-ayrı bölgələrini idarə edən hakimlər, o cümlədən, Çuxursəd bəylərbəyiləri də mərkəzi hkimiyyətdən ayrılıb müstəqil hakimlərə çevrilirdi. Yerli hakimlər öz məqsədlərinə çatmaq üçün xalq üsyanlarından istifadə edirdilər. Səfəvilərin zəifləməsindən istifadə edən əfqanlar 1722-ci ildə dövlətin paytaxtı İsfahan şəhərini ələ keçirdilər. Belə bir vaxtda yaranmış əlverişli şəraitdən istifadə edən Rusiya 1722-1723-cü illərdə Səfəvi dövlətinə məxsus Xəzərsahili vilayətləri işğal etdi (2, s.348-349).

Rusiyanın işğalçılıq siyasəti Osmanlı imperiyasına ciddi fəaliyyətə sövq etdi və o 1723-cü ildə öz qoşunlarını Azərbaycana yeritdi. Gəncə, sonra isə İrəvan və Naxçıvan istiqamətində yürüş gücləndi, 1724-cü ilin mayında Xoy qalası tutuldu (1, s.122).

Osmanlı imperiyası ilə Rusiya arasında müharibə təhlükəsi dərinləşdi. Lakin Fransanın diplomatik vasitəçiliyi ilə 1724-cü il iyunun 12-də tərəflər arasında İstanbulda müqavilə imzalandı. Müqavilənin şərtlərinə görə Rusiya işğal etdiyi Xəzərsahili vilayətləri əlində saxlamaqla kifayətləndi. Osmanlı dövləti isə Cənubi Qafqazın, o cümlədən Azərbaycanın qalan ərazilərini işğal etmək üçün Rusiyanın bitərəfliyini təmin etdi (1, s.122; 5, s.44).

İstanbul müqaviləsindən sonra Osmanlı imperiyası bütün sərhədboyu Cənubi Qafqaza öz qoşunnu yeritdi. 1724-cü ilin yayında Osmanlı sərkərdəsi Arifi Əhməd paşa 60 min nəfərdən artıq qoşunla Tiflisdən İrəvan şəhərinə doğru hərəkət etdi. Tezliklə osmanlı qoşunları tərəfindən mühasirəyə alınan İrəvan qalası Əliqulu (Allahqulu) xanın başçılığı ilə 92 gün qəhrəmancasına müqavimət göstərmişdir. İrəvan qalasının mühasirəsi zamanı ciddi müqavimətlə qarşılaşan Arifı Əhməd paşa Osmanlı sultanından əlavə qüvvələr göndərilməsini xahiş etmişdi. Onun müraciətinə cavab olaraq Osmanlı sultanı öncə 35 min, sonra Kütahya paşasının başçılığı ilə daha 10 min, bundan sonra isə Misirdən əlavə olaraq 3 min nəfərlik qüvvə göndərmişdi (9, s.46).

İrəvan qalası güclü müqavimət göstərməsinə baxmayaraq, 1724-cü il sentyabr ayının 28-də qalanın təslim edilməsinə dair Çuxursəd bəylərbəyi Hacı Əliqulu xan ilə əldə olunan razılaşmaya əsasən oktyabr ayının 4-də qala açarları Osmanlı tərəfinə təhvil verildi və beləliklə, vilayət Osmanlı hakimiyyəti altına keçdi (8, s.4).

İrəvan qalası ələ keçdikdən sonra Anadolu valisi Osman paşa İrəvana hakim təyin olundu (9, s.70) və Çuxursəd bəyləribəyliyi 10 ildən çox osmanlıların hakimiyyəti altında qaldı. Osmanlılar işğal etdikləri Azərbaycan ərazilərində öz inzibati idarə sistemlərini tətbiq edərək əyalətləri sancaqlara, onları isə nahiyələrə bölmüşdü.

Qeyd etdiyimiz kimi, bölgəni idarə edən Osmanlı məmurları tərəfindən 1725-1727-ci illərdə aparılan siyahıyaalmanın nəticəsində əyalətinin icmal, müfəssəl və təhrir dəftərləri tərtib edilmişdir.

Başbakanlıq Osmanlı arxivinin "Mühimme Defteri"nin 132 saylı sənədinə əsaslanan Rafik İve-

canın fikrinə görə, İrəvan şəhərinin və ətraf ərazilərinin tutulmasından sonra 1725-ci ilin iyun ayının ortalarında (evail-i Şevval 1137) verilmiş bir hökmdən bölgənin təhririnin (vergi verən əhalinin siyahıya alınması – Ş.R.*)* keçirilməsinə başlanıldığı məlum olur (14, s.122).

Təhrir dəftəri *"Başbakanlık Osmanlı Arşivində" (BOA) 901 qeydiyyat nömrəsi ilə mühafizə olunmaqdadır. Həmin tarixi sənəd 1724-cü il Osmanlı-Rusiya İstanbul müqaviləsinin şərtlərinə görə Azərbaycanın Xəzəryanı əraziləri istisna olmaqla Şamaxıdan Həmədana qədər olan vilayətlərin, o cümlədən, Çuxursəd bəylərbəyiliyinin Osmanlı hakimiyyəti altına keçdiyi dövrdə hazırlanmışdır"* (bax: 8, s.3).

Dəftərin tamamlanması haqqında Türkiyə tarixçisi Ali Sinan Bilgili yazır: *"3 oktyabr 1724-cü ildə Köprülüzadə Abdullah Paşa tərəfindən ələ keçirilən İrəvanın osmanlılar tərəfindən tərtib edilən ikinci müfəssəl dəftəri 583 səhifədən ibarətdir və dəftərin tərtibat prosesi Gürre-i Məhərrəm 1140 (19-20 avqust 1727) tarixində tamamlanmışdır"* (11, s.107).

F.Hüseynin yazdığına görə, "*Yazma, qeyd etmə, dəftərə köçürmə*" mənasında olan ərəb mənşəli *təhrir* sözü Osmanlı dövlətinin fiskal sistemində bir istilaha çevrilərək müəyyən inzibati-ərazi bölgədə bütün gəlir mənbələrinin, o cümlədən vergi ödəyicisi kateqoriyasına daxil olan əhalinin qeydiyyata alınması prosesinə deyilirdi. Bu proses nəticəsində tərtib olunan tarixi sənədlər isə *təhrir dəftərləri* və ya *tapu təhrir dəftərləri* adlanırdı" (8, s.5).

Qərbi Azərbaycanın inzibati-ərazi bölgüsü. Yuxarıda qeyd etdiyimiz kimi, "İrəvan dəftəri"nin icmal variantı mərhum akademik Z.Bünyadov və tarixçi alim H.Məmmədov (Qaramanlı) tərəfindən tərcümə olunaraq 1996-cı ildə nəşr olunmuşdur. Həmin nəşrin "*İrəvan əyalətinin dəftərləri (Qısa icmal)*" adlı *Giriş* hissəsində Osmanlı mənbələrində Rəvan livası (İrəvan əyaləti) kimi qeyd edilən keçmiş Çuxursəd bəylərbəyliyinin Osmanlı hakimiyyəti altında olduğu dövrlərdə tərtib olunmuş müfəssəl, icmal, sicil dəftərləri haqqında təfərrüatlı məlumat verilməklə yanaşı, həmçinin inzibati bölgünün də təsviri verilmişdir (bax: 3, s.5-22; 16, s.683-690).

İrəvan əyalətinin müfəssəl təhrir dəftərinə görə keçmiş Çuxursəd bəylərbəyliyinin ərazisi iki livaya – *İrəvan* və *Naxçıvan livalarına* bölünmüşdü. İrəvan livasına 10 nahiyə daxil idi: *İrəvan, Qərbi, Gərni, Vedi, Aralıq, Talın, Ərmus, Abnik, Abaran, Şərabxana.* Naxçıvan livası isə 16 nahiyədən *(Ağcaqala, Məvaziyi-Xatun, Mülki-Arslanlı, Qarabağ, Dərəşam, Dərənürgüt, Dərəşahbuz, Bazarçayı, Şərur, Şorlu, Zar, Zəbil, Əlincə, Sisyan, Azadciran, Ordubad)* və 1 qəzadan – Naxçıvan qəzasından (sancağından) ibarət idi (3, s.8-9; 5, s.47-48). Bu zaman Maku, İğdır, Sürməli nahiyələri ilə yanaşı Zar, Zəbil və Şərur nahiyələri də Naxçıvan sancağının tərkibindən çıxarılaraq İrəvan əyalətinə birləşdirilir. Eyni zamanda, İrəvan əyalətinin ərazisində *Göyçə, Məzrəə, Xınzirək, Qırxbulaq, Dərəçiçək, Sədərək nahiyələri* və *Şörəyel livası* yaradılmışdı. XVI əsrin sonunda mövcud olmuş Talın, Ərmus, Abnik, Şərabxana nahiyələri, eləcə də Naxçıvan sancağının ərazisindəki Bazarçay və Ağcaqala nahiyələri ləğv olunmuşdu (3, s.9).

Türkiyə tarixçisi Əli Sinan Bilgili keçmiş Çuxursəd (İrəvan) bəylərbəyiliyinin inzibati bölgüsü haqqında Osmanlı mənbələrindəki məlumatları analiz edərək yazır: *"İrəvan əyalətinin 1728-ci ildəki sərhədləri və inzibati bölgüsü 1590 və 1603-cü illərlə müqayisədə ciddi bir dəyişikliyə uğramamışdır. Bölgə əsasən eyni qalmaqla yanaşı Maku da bu əyalətə daxil edilmişdir. ... Talin, Ərmus, Abnik, Şərabxana ləğv edilmişdir. Aralıq qəzası Aralıq və İğdır olaraq iki inzibati bölümə ayrılmışdır. Daha öncə Qarsın tərkibində olan Sürməli və Şürəgel də bu əyalətə daxil edilmişdir. ...İrəvanın mərkəzi Qırxbulaq nahiyəsinə daxil edilmişdir*" (10, s.89-90).

Qeyd edilən inzibati bölgüdə *liva/qəza* yalnız İrəvan, Naxçıvan və Şürəgələ aid edilmiş, digər qalanları isə *nahiyə* kimi qeyd edilmişdir. Ancaq bu nahiyələrin hər biri qəza statusuna malikdir və buradakı nahiyə və qəza kəlmələri eyni anlamı daşıyırdı. Çox sayda türk əhalinin tərk etdiyi Abaran, Gərni, Sədərək və Sürməli həm də kənd/şəhər statusuna malik idi (10, s.90).

Bütün bunlara yekun olaraq, "*Müfəssəl dəftərə görə, Rəvan livası 12 nahiyədən (Qırxbulaq, Kərpi, Dərəçiçək, Abaran, Sürməli, İğdır, Aralıq, Sədərək, Maku, Şərur, Vadi, Garni) və Şurəgəl livasından ibarət olduğu halda, icmal dəftərdə Sədərək nahiyəsi və Şurəgəl livası yoxdur, əvəzində Xınzırək, Göyçə, Məzrəə adlı üç yeni nahiyə formalaşdırılmış və Naxçıvana aid Dərələyəz nahiyəsi də Rəvan livasına daxil edilmişdir. Beləliklə, icmal dəftərə görə, Rəvan livası 15 nahiyədən təşkil olunmuşdur.*

Ərazi-inzibati quruluşdakı bu dəyişiklik öz növbəsində müfəssəl və icmal dəftərlərdəki kəndlərin, məzrəələrin və s. sayısında müəyyən fərqə səbəb olmuşdur. Belə ki, müfəssəl dəftərdə 1004 kənd, 26 məzrəə qeyd olunduğu halda, icmal dəftərdə bu rəqəmlər müvafiq olaraq 1512 (boş kəndlər ilə birlikdə) və 120 təşkil edirdi" (8, s.6).

1727-ci il tarixli müfəssəl dəftərin təsvirinə görə, İrəvanın şimal-qərbində Çuxursədin təbii sərhədlərindən biri olan, 4095 m. hündürlüyə malik Alagöz (Elegez) dağı yerləşir. Yazda qarın əriməsi və bölgədə yağan yağıntılar nəticəsində əmələ gələn su dağın düz və enli dibi vasitəsilə cənuba və qərbə doğru hərəkət edərək müxtəlif axınlar və çaylar əmələ gətirir. Bu çayların özünəməxsus qolları da vardır. Məsələn, "*Abaran nahiyəsinin Kürkin çayı Alagöz dağından başlanaraq Qəzənfər kəndinə çatanda iki qola ayrılır. Bu qollardan biri Qərbi nahiyesini, biri isə Abaran nahiyesinin suvarılmasında istifadə olunur"* (13, s.5).

İrəvan şəhərinin təsviri. XVII əsrin Osmanlı qaynaqlarında İrəvan *"...üzüm bağları və gülçiçəklərlə bəzədilmiş, Zəngi çayının şəffaf bir bulaq kimi yanından axdığı, mülayim iqlimi, münbit torpağı olan bir şəhər"* kimi təsvir olunur (bax: 10, s.124-125).

1727-ci il *"İrəvan əyalətinin müfəssəl təhrir dəftəri"*nin məlumatına görə, İrəvan şəhəri 1590-cı il siyahıyaalınmasında olduğu kimi 2 yaşayış məntəqəsindən, daxili şəhər (*mahalle-i köhneşehir)* və şəhərətrafı qəsəbədən *(varoş-i kal'a-i Revan)* ibarət idi. Daxili şəhər *"nefs- kal'a-i Revan"* şəklində təqdim olunsa da, qala işərisindəki məhəllələrin adları qeyd edilməmişdi. Ehtimal ki, şəhərin qala divarları məhv edilmiş daxili şəhərlə və şəhərətrafı qəsəbələr birləşmiş və bu səbəbdən "*mahalle-i köhneşehir ve varoş-i kal'a-i Revan"* adlanmışdır. Dəftərdə bir vəqflə bağlı məlumatda qeyd edilən *"İrəvan qalası içərisində, Topxananın yanında"* ifadəsindən bu yerin top və digər silahların istehsal edildiyi və saxlandığı yer olaraq Topxana adlandırıldığını söyləmək olar (13, s.50).

Mənbənin məlumatına görə bu dövrdə şəhər 4 məhəlləyə bölündü: "*Köhnə şəhər (Əski şəhər), Dəmirbulaq, Dərəkənd* və *Təpəbaşı* (bax: 8, s. 3). İrəvan üçün edilən ilk siyahıyaalmada (TTD 633) şəhərin qala divarlarından kənarda yerləşən Bağlar, Hacı İlyas, Yenicə və Oxçuberd 1727-ci il təhrir dəftərində (TTD 901) məhəllə deyil kənd olaraq qeyd edilmişdir. İlk siyahıyaalmada Göykənd, Arbani və Zəngə böyük ehtimalla birləşərək *Təpəbaşı* adını almışdır (13, s.50; 11, s.107).

Əhalinin vəziyyəti. Osmanlıların 1724-cü ildə Çuxursəd (İrəvan) bəylərbəyliyi ərazisində apardığı hərbi əməliyyatı zamanı əhali 1583-cü il əməliyyatında olduğu kimi bölgədən qaçmağa çalışmış, İrəvanın ələ keçirilməsindən sonra isə sürgün və köçlər başlamışdır. Əslində 1724-cü ildə İrəvan qalasının alınmasının iştirakçısı olmuş Kəmani Mustafa Ağa "*Rəvan fəthnaməsi*" əsərində 15.000 Qızılbaş türkünün osmanlılar tərəfindən sürgün edildiyini yazır (9, s. 46-47). İrəvan müfəssəl dəftərində Dərəçiçək, Abaran, Qərbi, Sədərək, Vadi və Sürməlinin türk əhalisinin çoxunun bu yerləri tərk etdiyi və şəhərlərin kəndlərə çevrildiyini izləmək mümkündür (11, s.107).

Bu haqda F.Hüseyn yazır: *"1727-ci ildə həyata keçirilən təhrir, yəni siyahıyaalınma İrəvan əyalətinin adi, normal şəraitdə olduğu dönəmdə deyil, müharibə nəticəsində vilayətin xüsusilə demoqrafik statusu baxımından düçar olduğu qeyri-sabit, hətta ekstremal bir durumda həyata keçirilmişdir. Bu vəziyyət, əhalinin kütləvi şəkildə köç etməsi nəticəsində yaşayış məskənlərinin viran qalması, çox sayda kəndlərdə isə sadəcə bir-neçə ailənin yaşaması kimi hallarla müşayiət olunurdu .... İrəvan vilayətində ümumilikdə 392 boş kənd qeydə alınmışdır ki, bu da əyalət üzrə kəndlərin ümumi sayının (1004) 1/3 hissəsindən çoxunu təşkil edirdi*" (8, s.7).

Yerli əhali tərəfindən yaşayış məskənlərinin kütləvi şəkildə tərk edilməsinin səbəbləri təhrir dəftərdə göstərilməsə də, dövrün digərmənbələrindən göründüyü kimi, əhalini doğma yurd-yuvalarını tərk etməyəvadar edən əsas səbəb müharibələr zamanı vilayətin əldən-ələ keçməsişəraitində məzhəbçilik üzündən təqiblərə məruz qalmamaq və yaxud daha güvənli, əlverişli yerlərdə məskunlaşmaq ehtiyacı ilə bağlı idi.

Müfəssəl dəftərdə əhalinin statistikası ilə bağlı da mühüm məlumatlar əldə etmək mümkündür. Dəftərin məlumatına görə İrəvan şəhərində 662 ev (xanə) və 9 subay, yəni təqribən 3319 nəfər əhali yaşayırdı. Bu əhalinin 2140 nəfəri (428 ev) türk-müsəlman, 1179 nəfəri isə (234 ailə, 9 subay) qeyri-müsəlmanlardan ibarət idi (11, s.108).

Müfəssəl dəftəri tədqiq edən F.Hüseynin yazdığına görə: *"...müfəssəl dəftərlərdə vergi ödəyici-*

ləri inzibati bölgələr üzrə qeydiyyata alındığı üçün bu dəftərlərin məlumatı icmal dəftərlərdən fərqli olaraq həmin inzibati ərazinin həm də demoqrafik durumunu əks etdirməyə imkan verir. Buna görə də, məhz müfəssəl dəftərlərin statistik məlumatları, daha dəqiq desək, vergi ödəyicilərinin sayını əks etdirən statistik məlumatlar əsasında bölgə əhalisinin təxmini sayını və tərkibini hesablamaq mümkündür. Bununla belə nəzərə almaq lazımdır ki, dəftərin tərtib olunduğu dövrdə vergilər dini mənsubiyyətə, ailə statusuna (evli, subay) və əkin sahəsinin ölçüsünə görə tənzimləndiyi üçün vergi ödəyiciləri də buna müvafiq olaraq kateqoriyalar üzrə qeydə alınırdı. Belə ki, əgər müsəlman əhali, müsəlmanlar üçün əsas vergi növü sayılan çift (çift rəsmi) vergisinin, əkin sahənin (çiftliyin) ölçüsünə görə tətbiq olunduğu üç kateqoriyasında (bütün çift, nim çift və bənnak), bundan əlavə, torpağı olmayanlar və başqasının torpaq sahəsində işləyənlər cəbə, subaylar isə mücərrəd olmaqla, ümumiyyətlə, beş kateqoriyada təsnif olunurdularsa, qeyri-müsəlman əhali (dəftərdə bu əhali gebran adlanır) çift vergisinin qarşılığı olan ispəncə vergisinin ödəyiciləri kimi xanə, subaylar isə mücərrəd kimi qeydə alınaraq yalnız iki kateqoriyada təsnif olunurdular" (8, s.6-7).

Diqqət çəkən məqamlardan biri ondan ibarətdir ki, dəftərdə qeyd olunan bütün qeyri-müsəlman əhali *gebran* adlanır və etnik mənsubiyyəti haqda məlumat verilmir. Lakin dövrün erməni mənbəyi sayılan "Anonim erməni xronikası"nda İrəvan şəhərində 100 xristian qaraçı ailəsinin yaşadığı qeyd olunmuşdu (17, s.12; 5, s.76). Qərbi Azərbaycan torpaqlarında ermənilərin sayını süni şəkildə artırmaq məqsədi ilə əksər erməni müəllifləri həmin dövrdə bölgədə yaşayan bütün xristian əhalinin etnik mənsubiyyətə görə erməni kimi təqdim etməkdən çəkinmirlər.

Qərbi Azərbaycanın onomastik vahidləri. İrəvan əyalətinin 1727-ci ilə aid müfəssəl təhrir dəftərində qədim türk tayfalarının adları ilə bağlı kifayət qədər ***onomastik vahidlər*** qeydə alınmışdır. Bu da sübut edir ki, Çuxursəd (İrəvan) bölgəsi qədim zamanlardan türk tayfalarının sıx şəkildə yaşadığı bölgə olmuşdur. Mənbənin tədqiqatçısı F.Hüseyn tərəfindən bu onomastik vahidlər sistemləşdirilmiş və müxtəlif qruplar üzrə təsnif edilmişdir. Müəllifin yazdığına görə, türk mənşəli kənd adlarının ən böyük hissəsini *coğrafi relyefi və təbii şəraiti* əks etdirən oykonimlər təşkil edir: (*Ağcaqışlaq, Böyrüdəlik, Çatqıran, Daşqışlaq, Dərəçiçək, Dərəkəndi, Yelqovan, Əyribucaq, Gözəldərə, və s.*); **orooykonimlər** *(Göydaş, Kəlbqaya, Qaraburun, Qaratəpə, Qayaqtəpə, Qızılburun, Sarıqaya, Yumrudaş və s.*); **hidrooykonimlər** *(Acıgöl, Acıkəhriz, Şaharxı, Xatunkəhrizi, Ağbulaq, Böyük Gölkənd, Damcılı, Daşbulaq və s.*); **zooykonimlər** *(Camışlı, Maral, Öküzlü, Arslanlıdərə və s.*); **fitooykonimlər** (*Almalı, Armudlu Bağcacıq, Çiçək, Çiydəmli, İydəli, Qamışlı və s.)* qrupları üzrə təsnif etmişdir (8, s.18-19).

F.Hüseyn Çuxursəd (İrəvan) bölgəsinin türk mənşəli **etnooykonimləri**ndən bəhs edən məqaləsində (bax: 12, s. 2279-2296) Şürəgəl livasında *Gümri,* Gərbi nahiyəsində *Aqsaqlu,* Abaran nahiyəsində *Abaran* və *Yuxarı Abaran* kəndləri, Qırxbulaq nahiyəsində Qızılqala nəzdindəki *Abdallar* məzrəəsi və Garni nahiyəsində *Abdallar* və *Yuxarı Abdallar* kəndləri, Şərur və Garni nahiyələrində *Quşçı* adlı kəndlər, İğdır nahiyəsində *Qaraçullu,* Sürməli nahiyəsində *Tərnəvit,* Gərbi nahiyəsində və Şürəgəl livasında *Kötəkli, Göyərçinli* adlı kəndlər, Qırxbulaq nahiyəsində *Kəngərə,* Şürəgəl livasında *Qıpçaq,* Dərəçiçək nahiyəsində *Toqluca*, İgdır nahiyəsində *Qazancı*, Şərurda *Qazancılı* və s. kimi müxtəlif Türk boy və əşirətlərinin adlarını özündə əks etdirən nümunələr təqdim etmişdir.

Bir qrup onomastik material isə sırf Oğuz boylarının adları ilə bağlıdır: Şürəgəl livasında *Avşar* kəndi və məzrəəsi və Vedi nahiyəsində *Kəlvan Avşar,* Şərur nahiyəsində *Bəydili, Aşağı* və *Yuxarı Qarqın,* İğdır nahiyəsində eyni adlı *İğdır,* Şürəgəl livasında Eymürlərə aid *Eymirxanlı,* Sürməli nahiyəsində *Çəpni,* Aralıq nahiyəsində *Quzugüdənli* kəndləri və s. *İnəkli, Yılanlı/İlanlı, Yeni Ördəkli* və *Köhnə Ördəkli* kəndlərinin adı da ilk baxışda zoomorf səciyyə daşıdıqları kimi görünsələr də, əslində Oğuz boylarının adları ilə bağlı olduqları tədqiqatçılar tərəfindən müəyyən edilmişdir. Təhrir dəftərinin etnotoponomik materialı arasında ən böyük qrup Türkman əşirətlərinin adı ilə bağlıdır: *Avcı* (*Evci*), *Bayburd, Bozdoğan, Çıraqlı, Dəvəli, Ərəbgirli, Hacılı, Kösələr, Qacarbəyli, Qaraqoyunlu, Quzugüdənli, Muğanlı, Reyhanlı, Sabunculu, Sofular* və s. (bax: 12, s.2289).

Hətta, müfəssəl dəftərdə gebran kimi qeyd olunan xristian əhalinin şəxs adlarına diqqət yetirdikdə bu adların etnik cəhətdən ermənilərə aid olmadığını izləmək mümkündür. Məsələn, "gebran əhalisi arasında *Abbas, Abdal, Abdin, Abdullah, Allahqulu, Allahverdi, Allahyar, Bağır, Dövlət, Comərd, Cövhər, Əmir xan, Əvəz, Gülnəzər, Haqnəzər, İbrahim, İsaqulu, Mail, Mehdi, Mehrab, Məlik, Mirzə, Mux-*

tar, Murad, Nəbi, Nuri, Pirbəy, Rüstəm, Şahnəzər, Yaqub və s. kimi çox işlənən müsəlman adları ilə yanaşı *Ağaxan, Arslan, Asvadur, Budaq, Dilənçi, Gündüz, Qaragöz, Qaratel, Qorqmaz, Malxas, Nurxan, Ocaqqulu, Satılmış, Şihak, Uluxan, Yadgar, Yolçu* və s. kimi sırf türk və alban mənşəli adlara da rast gəlinir" (8, s.12-13).

Nəticə. XVIII əsrin I yarısı Azərbaycan tarixinin mühüm qaynağı olan müfəssəl təhrir dəftərində (*"Rəvan livasının müfəssəl təhrir dəftəri" (TTD-901)* ehtiva edilən mühüm məlumatlardan yalnız bir qismini – *Qərbi Azərbaycanın inzibati-ərazi bölgüsü, İrəvan şəhərinin təsviri, əhalinin vəziyyəti, Qərbi Azərbaycanın onomastik vahidlərini* yığcam şəkildə nəzərdən keçirdik.

Müfəssəl təhrir dəftərinin verdiyi məlumatlarda İrəvan bölgələrində yaşayan əhalinin əksəriyyətinin türk-müsəlman olması, Osmanlı-Səfəvi müharibələri zamanı yerli əhalinin məcburən doğma torpaqlarını tərk etməsi və s. kimi mühüm məsələləri izləmək mümkündür.

Dəftərlərin ehtiva etdiyi məlumatlar Qərbi Azərbaycan (İrəvan) coğrafiyasında yüzlərlə qədim türk mənşəli (hun, kimmer, skif, oğuz, qıpçaq və s.) yer adlarının olduğunu, tarix boyu türk boylarının, tayfalarının və toplumlarının məskunlaşması nəticəsində yaranan zəngin toponimik materialı, hətta xristianların yaşadığı, lakin türk-müsəlman adları daşıyan kəndlərin də sayının olduqca çox olması faktını izləməyə imkan verir. Bu faktlar erməni müəllifləri tərəfindən İrəvan bölgəsində ermənilərin qədimdən məskunlaşması, sayının şişirdilməsi və s. kimi saxta faktlarını ifşa etməkdə misilsiz əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi (1639-1828). I cild. (Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akad. müx. üzvü Y.M.Mahmudov, t.e.d. K.K.Şükürov). Bakı, "Regionların İnkişafı İctimai Birliyi", 2009. – 512 s.
2. Azərbaycan tarixi (7 cilddə), (XIII-XVIII əsrlər). / Bakı, Elm, III cild, 1999. – 584 s.
3. İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akd. Z.Bünyadov, t.e.n. H.Məmmədov (Qaramanlı). Bakı: "Elm", 1996. – 148 s.
4. İrəvan əyalətinin müfəssəl dəftəri (tərtibçi Tofiq Nəcəfli), Bakı, "Çaşıoğlu", 2009. – 688 s.
5. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, "Çaşıoğlu", 2009. – 576 s.
6. İslamoğlu Mehmet Alauddin. İrəvan əyalətinin müfəssəl dəftərində Azərbaycan tarixi məsələləri, tarix üzrə fəlsəfə doktoru dissertasiyası, Bakı, 2017. – 210 s.
7. 1590-cı il tarixli "İrəvan vilayətinin müfəssəl dəftəri". Transliterasiya və tərcümə edənlər: tarix üzrə fəlsəfə doktoru, dosent Hüsaməddin Qaramanlı və Mehmet Alauddin İslamoğlu, araşdırma mətnləri, ön soz, qeyd, şərh və göstəricilər tarix üzrə fəlsəfə doktoru, dosent Hüsaməddin Qaramanlınındır. Bakı, "Birol Groub" MMC, 2023. – 576 s.
8. 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri. Ttransliterasiya, tərcümə, giriş, terminoloji lüğət və göstəricilər tarix üzrə fəlsəfə doktoru, dos. Fərəh Hüseynindir. Bakı, "İdeal-Print MMC", 2021, – 796 s.
9. Aktepe M. Münir. 1720-1724 Osmanlı-İran Münasebetleri ve Silahşör Kemanî Mustafa Ağa'nın Revan Fetih-nâmesi. İstanbul, "İÜFEF Yayınları", 1970. – 145 s.
10. Bilgili Ali Sinan. Osmanlı İran ve Azerbaycan I (16. ve 18. Yüzyıllar Sosyal ve Ekonomik Tarih). Erzurum, "Bozkır Yayınları", 2004, –322 s.
11. Bilgili Ali Sinan. Osmanlı Tapu Tahrir Defterlerine Göre İran-Azerbaycan Şehirlerinde Ermeniler // Ermeni Araştırmaları, 2016, №53, s. 99-140.
12. Hüseyn F. "1728 Tarihli Revân Livâsi Mufassal Tahrir Defteri'nde Türk Kökenli Etnooykonimler", XVII Türk Tarih Kurumu Kongresi 15-17 Eylül 2014 Ankara, Kongreye sunulan Bildiriler, IV cilt – VI kısım Osmanlı tarihi, Ankara, 2018, s. 2279-2296.
13. İlgaz Selcuk. Osmanlı Hâkimiyetinde Revan (Çukursa'ad) (XVI.-XVIII. Yüzyıllar Arasında Sosyo-Ekonomik Tarih), Doktora Tezi, Erzurum, 2010. – 321 s.
14. İvecan Raif. Revan Livası Yerleşim ve Nüfus Yapısı (1724-1730) // Tarih Dergisi, Sayı 50

(2009/2), İstanbul, 2010, s.121-148.
15. Kütükoğlu B. Osmanlı-İran Siyasi Münasebetleri (1578-1590). c. I. İstanbul Üniversitesi Edebiyat Fakültesi Yayınları, İstanbul, 1962. – 233 s.
16. Mehmedov H. (Karamanlı), "Osmanlı Dönemi Revan Eyaleti Tapu Tahrir Defterleri", XII Türk Tarih Kongresine sunulan Bildiriler, cilt III, Türk Tarih Kurumu Yayınları, Ankara 1999, s.683-690.
17. Армянская анонимная хроника 1722-1736 гг. (Перевод с турецкого и примечания академика АН Азерб. ССР Буниятова З.М.). / – Баку: «Элм», 1988. – 64 с.

ШАБНАМ РУСТАМОВА
Докторант Института истории и этнологии имени А.А.Бакиханова НАНА

ЗНАЧЕНИЕ ОСМАНСКИХ НАЛОГОВЫХ ТЕТРАДЕЙ В ИЗУЧЕНИИ ИСТОРИИ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА

С помощью крупных центров силы в 1918 году армянские вандалы создали себе государство на исторических землях Западного Азербайджана (Чухурсаад-Иреванский регион), присвоили себе этот край и уничтожили материальное и духовное наследие всего тюрко-мусульманского населения региона. Тем не менее, они до сих пор представляют себя как коренные жители этих земель. Роль первичных источников, в том числе детальных и сводных реестров, содержащих историю региона Чухурсаад (Иреван) с конца XVI века до первых 30 лет XVIII века и хранящихся в Османском архиве канцелярии премьер-министра в Стамбуле (Турция), неоспорима в разоблачении армянской лжи.

В представленной статье рассматривается значение детального тевизного реестра (TTD-901), составленного османскими чиновниками в 1725–1727 годах и являющегося важным источником по истории Азербайджана XVIII века, для изучения истории Западного Азербайджана. На основе данных, содержащихся в реестрах, кратко анализируются административно-территориальное деление Западного Азербайджана, описание города Иреван, положение населения, а также материалы, связанные с ономастическими единицами региона.

Ключевые слова: регион Чухурсаад (Иреван), город Иреван, ономастические единицы, детальный реестр.

SHABNAM RUSTAMOVA
Doctoral student at the Institute of History and Ethnology named after A.A. Bakikhanov of ANAS

THE IMPORTANCE OF "OTTOMAN TAHRIR REGISTERS" IN THE STUDY OF THE HISTORY OF WESTERN AZERBAIJAN

With the support of major power centers, in 1918, Armenian vandals established their own state on the historical lands of Western Azerbaijan (Chukhursad-Irevan region), seized this territory, and destroyed the material and spiritual culture of the entire Turkic-Muslim population of the region. Nevertheless, they continue to present themselves as the indigenous inhabitants of these lands. The role of primary sources in exposing Armenian falsehoods is undeniable, particularly the detailed and summary registers preserved in the Ottoman Archives of the Prime Ministry in Istanbul, Turkey, which encompass the history of the Chukhursad (Irevan) region from the late 16th century to the first three decades of the 18th century.

This article discusses the significance of the detailed Ottoman tahrir register (TTD-901), compiled by Ottoman officials between 1725 and 1727, as a key source for studying the history of Wes-

tern Azerbaijan in the first half of the 18th century. Based on the information contained in these registers, the article provides a concise analysis of the administrative-territorial division of Western Azerbaijan, a description of the city of Irevan, the demographic situation, and materials related to the onomastic units of the region.

Keywords: Chukhursad (Irevan) region, Irevan city, onomastic units, detailed tahrir register.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 04 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 04 mart 2025-ci il.
Rəyçilər: t.e.d. Tofiq Nəcəfli, t.e.d. İsmayıl Məmmədov.

Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblər

- Məqalələrdə müəllif(lər)in adı və soyadı açıq şəkildə, elmi adı və dərəcəsi, işlədiyi müəssisə, həmçinin elektron poçt ünvanı göstərilməlidir.

- Məqalələr Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildə annotasiya, əlavə digər 2 dildə xülasə verilməlidir. Xülasənin üstündə məqalənin adı mütləq göstərilməlidir. Xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununu əks etdirməli, elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

- Məqalələrin mətnləri azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla 8-12 səhifə həcmində qəbul edilir (A4 format, səhifənin ölçüləri: yuxarı – 2 mm, aşağı – 2,5 mm, sol – 3 mm, sağ – 1,5 mm).

- Məqalədə UOT indekslər, 3 dildə açar sözlər göstərilməlidir.

- Məqalə Giriş, Əsas mətn (yarımbaşlıqlar göstərilməklə) və Nəticə hissələrindən ibarət olmalıdır. Məqalədə elm sahəsinin xarakterinə uyğun olaraq elmi işin yeniliyi, müəllifin gəldiyi nəticə aydın şəkildə verilməlidir.

- Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə, ya da mətndə rast gəlindiyi ardıcıllıqla və [1] və ya [1, s.119] kimi nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbilərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2 – 10.4.6. tələbləri əsas götürülməlidir.

- Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

- Ədəbiyyat siyahısı avtomatik nömrələmə ilə yığılmış məqalələr qəbul edilməyəcəklər.

- Məqaləyə mütləq 1 mütəxəssis rəyi (rəyçinin adı (tam şəkildə), elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri), məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının (kefedranın, şöbənin) iclas protokolundan çıxarış əlavə olunmalıdır.

- Elmi jurnallarda "*əvvəli ötən sayımızda*", *"ardı növbəti nömrədə"*adı altında seriya məqalələrin dərs olunmasına icazə verilmir.

- Texniki baxımdan düzgün tərtib edilməyən, həmçinin plagiatlıq faktı aşkar edilən məqalələr çap olunmayacaq.

***Redaksiya ilə əlaqə*:**
TarixVeOnunProblemleri@gmail.com

Требования к оформлению научных публикаций

- В статье должны быть указаны место работы и адрес, электронный адрес автора (авторов).

- Статьи могут быть опубликованы на Азербайджанском, турецком, русском и английском языках. Резюме статьи должно быть на двух языках, помимо языка написания статьи. Оба резюме должны быть одинаковыми и отображать содержание статьи. В резюме должны быть показаны научный результат, научная новизна, практическая ценность и др. Резюме должно быть научно и грамматически отредактировано. В резюме должны быть полностью указаны название статьи, имя автора (авторов).

- Текст статьи должен быть набран шрифтом Times New Roman, кегль 14, 1,5 интервал латинской графикой для статей на азербайджанском турецком языках и английском, кириллицей для статей на русском языке.

- В статье должны быть указаны UOT индексы или коды типа PACS, а также ключевые слова. Ключевые слова должны быть на трех языках (на языках написания статьи и резюме).

- В конце статьи должны быть даны научная новизна, практическая ценность, экономический результат и др.

- В статье должны быть даны ссылки на научные источники. Список литературы должен быть либо по порядку (например, [1] или [1, с.119]) или же по порядку шифра. Если дается сноска на ту же литературу в другом месте текста, тогда номер сноски должен быть таким же как и прежде.

- Информация о каждой сноске, данной в списке литературы, должна быть полной и точной. Библиографическое описание источника должно быть дано в соответствии с его видом (монография, учебник, научная статья и т.д.). При ссылке на статью, материалы симпозиумов, конференций и других научных изданий, должно быть указано название доклада или тезиса. При библиографическом описании ссылаемых источников должны браться за основу требования 10.2-10.4.6 отдела «Используемая литература» действующей инструкции по «Правилам составления диссертационных работ» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

- В статье преимущество должно быть дано научным статьям, монографиям и другим источникам, опубликованным в течении последних 5-10 лет.

- Статьи, список литературы которых набраны в режиме автоматической нумерации, не принимаются.

- К статье должны быть приложены 1 рецензия (с указанием имени, научной степени, научного звания и научного титула, места работы рецензента), выписка из протокола научного совета (кафедры, отдела) учреждения, рекомендующего публикацию статьи.

- Статьи, которые не являются технически корректными, а также содержат плагиат, не будут опубликованы.

Электронный адрес журнала "История и ее проблемы":
TarixVeOnunProblemleri@gmail.com

Requirements for scientific publications

- The place of work and the address, e-mail address of the author(s) should be indicated in the article.

- Articles may be published in Azerbaijani, Turkish, Russian and English. The summary of the article should be in two languages, in addition to the language of the article. Both summaries should be the same and display the content of the article. The summary should show the scientific result, scientific novelty, practical value, etc. The summary should be scientifically and grammatically edited. The summary should contain the full title of the article, the name of the author(s).

- The text of the article should be typed in Times New Roman, 14, 1.5 interval, Latin script for articles in Azerbaijani Turkish and English, Cyrillic for articles in Russian.

- The article should indicate UOT indexes or PACS type codes, as well as keywords. Keywords should be in three languages (in the languages of the article and resume writing).

- At the end of the article scientific novelty, practical value, economic result, etc. should be given.

- The links to the scientific sources should be given in the article. References should be either in order (for example, [1] or [1, p.119]) or in order of cipher. If a footnote is given for the same literature elsewhere in the text, then the footnote number should be the same as before.

- Information about each footnote given in the list of references should be complete and accurate. The bibliographic description of the source should be given in accordance with its type (monograph, textbook, scientific article, etc.). When referring to an article, materials of symposia, conferences and other scientific publications, the title of the report or thesis should be indicated. In the bibliographic description of the referenced sources, the "Used literature" section 10.2-10.4.6 of the current instruction on the "Rules for writing dissertations" of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan should be taken as the basis.

- In the article, the advantage should be given to the scientific articles, monographs and other sources published in the last 5-10 years.

- The article should be accompanied by 1 review (indicating the name, scientific degree, academic title and scientific title, place of work of the reviewer), an extract from the protocol of the scientific council (chair, department) of the institution that recommends publication of the article.

- Articles that are not technically correct, as well as plagiarism, will not be published.

Email: **TarixVeOnunProblemleri@gmail.com**

Çapa hazırlayanlar: ***Sevinc Ruintən*** – Bakı Dövlət Universiteti
Şəbnəm Cəfərova – Bakı Dövlət Universiteti
Elmar Axundov – Bakı Dövlət Universiteti
İlham Məmmədov – Bakı Dövlət Universiteti
Şəhla Xələfova – Bakı Dövlət Universiteti
Tərcüməçi radaktorlar: ***Anar Kərimov*** – Bakı Dövlət Universiteti
Aynur Məmmədova – Bakı Dövlət Universiteti
Web-redaktor: ***Ramil Dadaşov*** – Azərbaycan Texniki Universiteti

Yığılmağa verilmişdir: 04.03.2025. Çapa imzalanmışdır: 11.03.2025.
Redaksiyanın ünvanı: Bakı – 370148, akad.Z.Xəlilov küç.23
Bakı Dövlət Universiteti, Tarix fakültəsi. Tel.: 539 08 56
E-mail: TarixVeOnunProblemleri@gmail.com